neçə hərbi-dəniz ekspedisiyası göndərildi. Onlar burada son dərəcə mühüm hərbi-strateji və ticarət mərkəzlərini ələ keçirdilər [8, s.72]. Bu dövrdə Şah I İsmayıl iki istiqamət (Hind okeanı və Anadolu strateji planı) arasında qaldığı üçün çətin bir vəziyyətlə üzləşir. Məhz buna görə də o Portuqaliyanın Hörmüzdə möhkəmlənməsinə mane ola bilmir [4, s.106, 129]. Portuqaliyanın Hörmüzdə möhkəmlənmək istəyi Səfəvilər dövlətinin maraqları, okean ticarətinə nəzarət etmək cəhdləri isə Osmanlı imperiyasının maraqları ilə toqquşurdu. 1507-ci ildə Hörmüz portuqaliyalıların əlinə keçdi [4, s.113]. Şah I İsmayılın hakimiyyəti dövründə Alfons de Albukerkinin başçılıq etdiyi Portuqaliya donanması 1507-ci ildə İran körfəzinə daxil olub, Hörmüz istiqamətində hərəkət etmişdi. Portuqaliyalılar təcrübəli dənizçi idilər. Digər tərəfdən Şah I İsmayılın hərbi qüvvəsi demək olar ki yox idi. O, Hörmüzə əsgər göndərsə də, onu işğaldan qoruya bilmədi [2, s.84]. Hörmüz boğazı İran körfəzində çox vacib strateji mövqeyə malik idi. Hörmüzün beynəlxalq ticarətdəki mövqeyini də nəzərə alsaq, portuqallar üçün o həddən artıq uğurlu idi. Xüsusilə Avropanın Hindistan və Çin ilə ticarət əlaqələrində əhəmiyyətli ərazi sayılırdı. Digər tərəfdən Hörmüz ərazisi Səfəvilər üçün də əhəmiyyətli idi, beləki bu ərazi ona həddən artıq gəlir gətirirdi. Əsas məhsul isə ədviyyat idi. Hörmüzün Portuqaliya tərəfindən ələ keçirilməsi ilə hind tacirlərinin Səfəvi dövləti ərazilərinə gətirdikləri ədviyyatın həcmi azaldı [4, s.114]. Beləliklə, Səfəvilər ilə Portuqaliya arasında yaranan ciddi ticarət ziddiyyətləri onlar arasında düşmən münasibət səciyyəsi daşıyırdı.

İşğalçılar 1508-ci ildə burada əhalinin müqaviməti ilə qarşılaşaraq, adanı tərk etməyə məcbur oldular. Səfəvilərin bu dövrdə isə topa ehtiyacı var idi. Bunu bilən Alfons de Albukerke körfəzi müharibəsiz əldə etmək istəyirdi. Bu məqsədlə də o, 1509 və 1513-cü illərdə Səfəvi sarayına elçilər göndərmiş və Osmanlı imperiyasına qarşı silah, ordu və donanma ilə yardım təklif etmişdi [2, s.84]. 1510-cu ildə Şah I İsmayılın elçisi Alfonsu Albukerki ilə görüşmək üçün Hindistana gəlmişdi [6, s.234]. Lakin bu səfərlər zamanı aparılan danışıqlarda konkret nəticə əldə olunmamış, Səfəvilərin Portuqaliyadan odlu silah almaq planları baş tutmamışdı. Beləki, Hindistanın vitse-kralı olan Alfons de Albukerki əslində şaha kömək etmək fikrində deyil, Hörmüzü əldə etmək istəyirdi. Digər tərəfdən Portuqaliya da Hind okeanında Osmanlı imperiyası ilə toqquşaraq, Səfəvi dövlət ilə münasibətləri daha da gərginləşdirmək niyyətində deyildi. Hətta Portuqaliya güclü Səfəvi dövlətinin mövcud olmasının tərəfdarı idi. Bunun əsas səbəbi Osmanlı imperiyasına qarşı özünə güclü bir müttəfiq əldə etmək marağı idi. Nəticədə, Şah I İsmayılı Portuqaliya ilə yaxınlaşdıran başlıca səbəb Osmanlı imperiyasına qarşı mübarizə idi. Şah I İsmayıl həmçinin Portuqaliya ilə əlaqələri yoluna qoymaqla, İran körfəzində zəifləmiş ticarəti qaydaya salmağa çalışırdı. O, Çaldıran döyüşünə qədər Osmanlı imperiyasına qarşı Portuqaliya ilə hərbi ittifaq bağlamaq və ondan odlu silahlar almağa cəhd edirdi. [4, s.130]. Buna nail olaraq, 1514-cü ildə Alfons de Albukerki ilə müqavilə imzaladı. Bu müqaviləyə əsasən Bəhreyn və Qətif ilə döyüşdə Portuqaliya dəniz qüvvələri Şaha kömək etməli, hər iki ölkə Osmanlıya qarşı müttəfiq olmalı idi. Səfəvilər isə bunun əvəzində Hörmüzdə Portuqaliyanın xeyrinə öz hüquqlarından imtina etməli idi [2, s.85]. Nəticədə Şah I İsmayılın hakimiyyəti dövründə Portuqaliya ilə Səfəvi dövləti arasında ilk razılıq əldə olundu. Bu müqaviləyə əsasən portuqaliyalılar Hörmüzdə öz mövqelərini möhkəmləndirdilər. Lakin bunun əksi olaraq bu müqavilənin Səfəvilər üçün heç bir konkret nəticəsi olmadı [4, s.131].

1514-cü ildə Səfəvilər Çaldıran döyüşündə məğlub oldu. Şah I İsmayıl və onun qızılbaş döyüşçüləri bu döyüşdə qəhrəmanlıq nümunələri göstərmişdilər. Bu müharibədə hər iki tərəfdən 5 minə yaxın döyüşçü həlak olmuşdu. Bu döyüş onu göstərir ki, Səfəvi dövləti silahlanma cəhətdən Osmanlılardan geri qalırdı, onların ordu silahları və artilleriyası yox idi. Osmanlı ordusu həmçinin döyüşün aparılmasında Avropa təcrübəsini mənimsəmişdi [5, s.61-62]. Bu məğlubiyyətdən sonra Səfəvi-Portuqaliya əlaqələrinin genişlənməsi üçün şərait yarandı. Beləliklə, Şah I İsmayılın Portuqaliya ilə ittifaq yaratmasının bir neçə səbəbi var idi. Birincisi, Osmanlılara qarşı Avropa dövlətləri ilə müqavilə bağlamaq məcburiyyətində idi. Digər bir səbəb Portuqaliyanın işğallarına qarşı mane olmaq gücündə deyildi, buna görə Hörmüzdə portuqalların mövcudluğunu qəbul etmişdi. Çaldıran döyüşündən 2 il sonra 1517-ci ildə Osmanlı imperiyası Misiri ələ keçirdi. Bunun nəticəsində Portuqaliyanın Qırmızı dənizdə mövqeləri zəiflədi, Səfəvilər üçün isə öz mallarını Qırmızı dənizdən keçərək İspaniya, Portuqaliya və digər Avropa ölkələrinə gətirməsi üçün şərait yaranmışdı.

***İspaniya ilə münasibətlərin qurulması.*** Səfəvi dövlət ilə İspaniya əlaqələrində 1518-ci ildən başlayaraq canlanma müşahidə olunurdu. Belə ki, İspaniya Osmanlılar ilə Fransa arasında ittifaqa cavab olaraq, Səfəvi dövləti ilə yaxınlaşmaq yolunu seçmişdi. İspaniya digər tərəfdən Şərq ölkələri ilə ticarət əlaqələrinin inkişafında maraqlı idi. İspaniyada manufaktura istehsalının genişlənməsi, xammala tələbatı artırırdı. İspaniyanın əsas məqsədlərindən biri sərfəli bazarlar ələ keçirmək idi. Lakin bu yolda ciddi maneələr mövcud idi. Osmanlı imperiyasının Qara dəniz və Aralıq dənizindən keçən ticarət yollarına nəzarət etməsi Səfəvi dövlətinin Avropa ölkələri ilə ticarət əlaqələrini çətinləşdirirdi. Osmanlı imperiyası ilə İspaniya arasında, xüsusilə Aralıq dənizi üstündə rəqabət dərinləşmişdi. Bu səbəbdən Osmanlının qarşısını almaq üçün İspaniya Səfəvi dövlətini Osmanlı imperiyası ilə qarşı qarşıya qoymaq istəyirdi. Hətta bu məqsədə çatmaq üçün ispan kralının Şah I İsmayıla kömək məqsədilə 500 əsgər göndərməsi haqqında iddialar da var. Digər tərəfdən Hörmüzün Portuqaliya tərəfindən işğal edilməsi Fars körfəzi vasitəsilə İspaniya ilə əlaqələrə maneə yaradırdı. Bununla da Osmanlı imperiyasına qarşı birgə razılıq əldə edildiyi halda, Səfəvi dövlətinin okean ticarətindən sıxışdırılması iki ölkə arasında ticarətdə ziddiyyətlərin yaranmasına səbəb olmuşdu.

Qeyd edildiyi kimi, Çaldıran döyüşündə məğlubiyyət Şah I İsmayılı Osmanlı imperiyasına qarşı Avropa ölkələri, xüsusilə də İspaniya ilə əlaqələri genişləndirməyə vadar edir. Belə bir ittifaqlardan birini Şah I İsmayıl İspaniya kralı və Müqəddəs Roma imperiyasının imperatoru V Karl ilə bağlamaq istəyirdi. Hətta bu məqsədlə Şah I İsmayıl V Karla məktub göndərmişdi. Bu məktubda Şah I İsmayıl V Karla Osmanlılara qarşı birgə hərbi əməliyyata başlamaq təklif olunmuşdu. Lakin 1523-cü ildə göndərilmiş bu məktub V Karla 1524-cü ildə çatdırılmışdı. Beləki, V Karl bu zaman İspaniyanın Toledo şəhərindəki iqamətgahında idi və məktuba dərhal cavab verilməmişdi [9]. V Karl Şah I İsmayıla yalnız 1525-ci ildə cavab məktubu yazmış, lakin Şah I İsmayıl artıq həyatını itirmişdi. Beləliklə, V Karlın məktubu Təbrizə çatdıqda Şah I İsmayıl artıq həyatda deyildi və onun oğlu I Təhmasib taxta çıxmışdı. V Karlın göndərdiyi məktub cavabsız qalmış və hər iki dövlət birgə Osmanlı imperiyasına qarşı müharibəyə başlaya bilməmişdi. Bu səbəbdən də Şah I İsmayılın hakimiyyəti dövründə Səfəvi-İspaniya münasibətləri genişlənməmişdi. Şah I İsmayılın qəfil ölümü həmçinin mərkəzi hakimiyyətin zəifləməsinə gətirib çıxarır. Müəyyən dövrdə Səfəvi dövlətinin Portuqaliya və İspaniya ilə əlaqələri durğunluq dövrü keçirmişdi.

***Nəticə.*** Yarandığı dövrdən Səfəvilər dövləti fəal xarici siyasət yeridərək həm şərq, həm də qərb ölkələri ilə münasibətlər qurmuşdu. Mövcud olduğu XVI-XVIII əsrlər boyunca aparıcı Avropa ölkələri olan İngiltərə, Fransa, Macarıstan, Almaniya, İspaniya, Portuqaliya və digər dövlətlər ilə siyasi, iqtisadi və diplomatik əlaqələr qurmuşdur. Qeyd etmək lazımdır ki, Şah I İsmayılın hakimiyyəti dövründə (1501-1524) Səfəvi dövləti Osmanlı imperiyasının ən güclü rəqibi idi. Səfəvilər kimi güclü hərbi-siyasi bir dövlətin yaradılması Osmanlı imperiyasının şərqə doğru genişlənməsinə ciddi maneələr yaratmışdı. Buna görə XVI əsrin əvvəllərindən Səfəvilərlə Osmanlılar arasında münasibətlərin kəskinləşməsi müşahidə olunur. Osmanlılar ilə münasibətlərin kəskinləşməsi Səfəvi dövlətinin Avropa ölkələri ilə yaxınlaşmasına və ittifaq bağlamasına səbəb olmuşdu. Çaldıran döyüşü ərəfəsində Şah I İsmayıl Portuqaliya ilə Osmanlılara qarşı hərbi ittifaq bağlamağa cəhd etmiş və bu ölkədən odlu silah və artilleriya alacağına ümid edirdi. Lakin Portuqaliya verdiyi vədə əməl etməmiş və nəticədə əsas məqsədi olan Hörmüzü əlində saxlamış və iki dövlət - Səfəvilər və Osmanlı imperiyasını qarşı qarşıya qoymuşdur. Bu dövrdə Qərbi Avropa dövlətləri Osmanlı imperiyasına qarşı güclü hərbi-siyasi blok yarada bilməmişdi. 1519-cu ildə İspaniya kralı I Karlosun Almaniya imperatoru seçilməsi ilə İtaliya müharibələri yenidən başlanmışdı. İspaniya, Fransa, Almaniya və digər ölkələrin diqqəti bu müharibələrə yönəlmişdi. Bu səbəbdən Avropa ölkələri Səfəvi dövlətinə diqqəti ayıraraq, Osmanlı imperiyasını Səfəvi dövlətinin əli ilə vurmaq istəyirdilər [8, s.77].

Səfəvi dövlətinin Portuqaliya və İspaniya ilə əlaqələrinin yaradılmasında əsas məqsədli ticarət əlaqələrini genişləndirmək və Səfəvi ordusu üçün Qərbdən odlu silah əldə etmək idi. Portuqalların Hörmüz ərazisini ələ keçirməsi iki ölkə arasında münasibətlərə mənfi təsir etmişdi. Lakin bu dövrdə Səfəvilərin dövlətinin hərbi cəhətdən zəif olması və Osmanlıya qarşı odlu silaha ehtiyacı olduğuna görə portuqallara qarşı çıxa bilməmiş və onunla müqavilə imzalamışdı. Lakin bu müqavilə Səfəvi dövləti üçün nəticəsiz olur. Şah I İsmayılın həyatını itirməsi ilə İspaniya ilə münasibətlərin genişləndirilməsi yarı qalmışdı. Nəticədə, XVI əsrdə Səfəvi dövlətinin yaranmasından sonra Avropanın güclü

dövlətlərindən olan Portuqaliya və İspaniya ilə əlaqələrinin bünövrəsi Şah I İsmayıl hakimiyyəti dövründə qoyulmuş və hər iki ölkə ilə diplomatik, ticarət və iqtisadi əlaqələr yaradılmışdır.

ƏDƏBİYYAT

1. A.A.Bakıxanov adına Tarix İnstitutunun Arxivi. Şahmalıyev H.M. Avropa səyyahları Azərbaycan haqqında. İnv. kodu 4546, iş 7, s.11.
2. Baxşəliyev A.B. Səfəvi dövlətinin Portuqaliya və İspaniya ilə münasibətləri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2009, №1, 84-89 s.
3. Bayramlı Z.H., Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövləti (XVI-XVII əsrlər). Bakı, "Elm və Təhsil" nəşriyyatı. 2017, 360 s.
4. Əzimli Dilavər. Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələri və Türkiyə (XV əsrin II yarısı - XVII əsrin I yarısı). Bakı: Turxan NPB, 2014, 292 s.
5. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb", 2007, 344 s.
6. Mahmudlu Y. Azərbaycan diplomatiyası. Bakı, "Azərbaycan diplomatiyası" jurnalının nəşri, 1996, 289 s.
7. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i aləm-ara-yi Şah İsmayıl"). Bakı: "Nurlan", 2011, 481 s.
8. Махмудов Я. М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами / II половина XV – начало XVII века/. Баку, Издательство Бакинского Университета, 1991, 264 с.
9. Письмо шаха Исмаила I королю Карлу V. - Электронный ресурс. https://www.vostlit.info/Texts/Dokumenty/Persien/XVI/1500-1520/Ismail_I/text1.phtml?id=12452 [Müraciət tarixi: 15.05.2022].

**СЕВИНДЖ ГУРБАНОВА**
*докторант Института истории им.А.А.Бакиханова,*
*АУЯ, преподаватель кафедры Регионоведения*

## ОТНОШЕНИЯ СЕФЕВИДОВ С ПОРТУГАЛИЕЙ И ИСПАНИЕЙ В ПЕРИОД ПРАВЛЕНИЯ ШАХА ИСМАИЛА I

В 1501 году Шах Исмаил I основал государство Сефевидов, одно из самых могущественных государств того периода. Во время своего правления в 1501-1524 годах Шах Исмаил I завоевал большие территории от Диярбакыра до реки Амур. Наряду с внутренней политикой он также добился значительных успехов во внешней политике. В период его правления Сефевидское государство установило дипломатические отношения со странами Европы, особенно с Венецией, Францией, Испанией, Португалией и другими странами, установило экономические, торговые и военные связи. С момента своего основания Португалия и Испания играли важную роль во внешней политике Сефевидского государства. Однако со смертью шаха Исмаила I отношения с этими странами также на некоторое время ослабли.

*Ключевые слова*: государство Сефевидов, шах Исмаил I, Испания, Португалия, отношения.

**SEVINJ GURBANOVA**
*Doctoral student of the Institute of History named after A.A.Bakikhanov,*
*AUL, teacher of the Department of Regional Studies*

## RELATIONS OF THE SAFAVIDS WITH PORTUGAL AND SPAIN DURING THE REIGN OF SHAH ISMAIL I

In 1501, Shah Ismail I founded the Safavid state, one of the most powerful states of the period. During his reign in 1501-1524, Shah Ismail I conquered large areas from Diyarbakir to the Amur

River. Along with domestic policy, he also made significant achievements in foreign policy. During his rule, the Safavid state established diplomatic relations with European countries, especially with Venice, France, Spain, Portugal and other countries, and established economic, trade and military relations. Portugal and Spain have played an important role in the foreign policy of the Safavid state since its inception. However, with the death of Shah Ismail I, relations with these countries also weakened for some time.

*Keywords*: Safavid state, Shah Ismail I, Spain, Portugal, relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Rəna Rəcəbli, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ЭЛЬМИРА МАМЕДОВА**
*Доктор философии по истории, доцент кафедры истории Азербайджана Азербайджанского Государственного Педагогического Университета*
**suleymanova.elmira1954@mail.ru**

# ИЗ ИСТОРИИ ПАМБАКСКОГО СУЛТАНАТА

*В статье на истории Памбакского султаната, существующего в системе феодально-раздробленного Азербайджана во второй половине XVIII века, исследуется территория, правящая династия, население, язык в тюркском феодальном владении. По анализируемым материалам известно, что территория султаната принадлежала тюркам-огузам еще у истоков яйлажной цивилизации. Вместе с тюрками-огузами здесь проживали и тюрки-кыпчаки. Территория султаната охватывала ряд районов нынешней Армении: Гаракился (город Кировокан, Гугаргский район), Джалалоглы (Степанаван), Хамамлы (Спитак) и часть уезда Гюмри (Ленинакан). Столицей султаната являлся город Гаракился.*

*Анализ исторических фактов, документальных источников,исторических исследований, а также названия топонимов и этнонимов, позволили установить,что на территории Памбакского султаната проживало смешанное христианско-мусульманское тюркское население с абсолютным большинством тюрков-мусульман. Языком межобщения был родной им тюркский язык. Христианское население представляли потомки албанских христиан.*

*Ключевые слова*: Гаракился, Джалалоглы, Хамамлы, Гюмри, Ширак, Хневанк.

***Введение***. Во второй половине XVIII века Памбакское султанство являлось одним из значительных султанств на исторической территории Азербайджана. Оно занимало исторические азербайджанские земли в бассейне реки Памбак длиною 86км, которая берёт начало на северо-восточном склоне Памбакского хребта в самой западной его части на границе между Лорийской и Ширакской областями нынешней Армении. Большая часть течения реки протекает между хребтами Памбакскими Базумским, затем соединяясь с рекой Дзорагет, образует реку Дебед, которая впадает в реку Кура. Горный Памбакский хребет шириной в 16км и с высшей точкой Тежлер 3101м, охватывая водораздел бассейнов Куры и Араза, тянется от города Хамамлы (Спитак) до полуострова Гейча (Севан) на 70 км. Со склонов горной цепи Безумского или Безобдальского хребта длиною 66 км и шириною 15-20 км и с самой высокой точкой Урасар 2992 м стекают многочисленные притоки рек Дзорагет и Памбак.

В XVI–XVIII веках эта историко-географическая область находилась в составе Сефевидского государства и являлась мелким административным округом–махалле Чухурсаадского беглярбегства. Во второй половине XVIII века в бассейне одноименной реки образуется Памбекский султанат. В феодальной иерархии памбакские правители носили титул «султан» и находились в подчинении иреванских ханов (11, с.23-24).

В пределах султаната при решении социально-экономических, финансовых и военных вопросов памбакский султан обладал большими полномочиями. Он также был обязан содержать военные отряды на своей территории. Конница памбакского султана Мухаммедхана, состоящая из элятских скотоводческих тюркских племен, составляла значительную силу конного войска иреванского Мухаммедгусейн хана. В русско-каджарских сражениях на подступах Иреванского ханства вблизи монастыря Эчмиадзин и Гямярли в июле 1804 года конница памбакского султана Мухаммед хана оказала мужественное сопротивление русским войскам. В сражениях русские войска во главе с Цициановым не смогли добиться успеха и вынуждены были оставить осаду Иревана. Поэтому поводу гонец памбекского султана Мухаммед хана Аббас хан на переговорах с И.П.Лазаревым сообщает, что султанство по фирману Ага Мухаммедхана Каджара находится в подчинении Иреванского ханства и его султан будет до конца выполнять свой воинский долг перед иреванским Мухаммедгусейн ханом(16).

Территория султанства охватывала ряд районов нынешней Армении: Гаракился (город Кировокан, Гугаргский район), Джалалоглы (Степанаван), Хамамлы (Спитак) и часть уезда Гюмри (Ленинакан). Столицей султаната являлся город Гаракился. Территория Памбакского султаната относится к тем историческим азербайджанским землям, которые на почве тенденциозного игнорирования исторических фактов, длительное время несправедливо считались древнеармянскими землями. Исходя из этого постулата выдвигалось ложное мнение, что с раннего средневековья в результате миграции тюркских племен на эти земли, якобы автохтонное армянское население вытеснялось отсюда ими (13, с.26). В то время как по археологическим и антропологическим артефактам, а также материалами музыкального искусства, известно, что различные тюркские племена, как автохтоны этого региона, фиксируются здесь с древнейших времен, то есть намного раньше появления гуннов. Их культурное наследие отразилось на мировосприятии населения последующих периодов (1, с.5).

По национально-этническому содержанию жители султаната представляли смешанное христианско-мусульманское тюркское население с абсолютным большинством тюрков-мусульман. Археологические и антропологические материалы свидетельствуют, что тюркское население здесь жило с древнейших времен и всегда составляло абсолютное большинство этого региона. Различие в религии не препятствовали населению султаната в официальном общении на тюркском языке. Разговорным языком христианско-мусульманского населения являлся родной им тюркский язык. Об этом свидетельствуют тюркские топонимы в бассейне реки Памбек, тюркское название султаната и названия его населенных пунктов.

Название султаната Памбек показывает его связь с производством хлопка и хлопкового сырья, известным далеко за пределами страны. Тюркское слово «памбыг» в переводе означающее «хлопок», «хлопковое волокно», попав в Италию, превратилось в итальянское слово «бомба́джо», которым именовали хлопчатую бумагу, хлопковое волокно. Позднее на Руси оно стало употребляться как «бумажник», так как здесь из хлопчатобумажного волокна стали изготовлять попоны, потники для лошадей. Производство хлопка и хлопкового сырья отразилось и в названиях социального значения. В азербайджанских историко-географических областях, где производилось хлопковое сырье, мелких феодалов именовали «памбыг бяйляри»-«хлопковые беки».

Название столицы султаната Каракился состоит из двух тюркских слов: «кара» - черный и «кился» - церковь (8, с.497). Такое название объясняется тем, что в городе до 1828 года существовала церковь из черного камня, на месте которой в 1831году была построена новая. После манифеста 1801 года Александра I о присоединении Восточной Грузии к России Каракился стал пограничным гарнизонным городом. Тюркское название города сохранялось вплоть до 1935года. 5 марта 1935 года, после смерти С.М.Кирова, город был переименован в Кировакан.

Богатое лесами, деревьями и цветами, плодотворными садами, огородами поселение султаната Джалалоглы распологалось на реке Дзорагет к северу от Базумского хребта на Лорийском плато в 144 км от Иревана и в 30 км от столицы султаната Каракился.

Археологические материалы показывают, что поселение здесь существовало с очень давних времен. На его территории были найдены древние захоронения, глиняные посуды и другие археологические артефакты. Название поселения связано с именем его основателя албанского князя Гасана Джалалоглы, который вместе с несколькими богатыми албанскими купцами прибыли из нагорной части Карабаха и обосновались здесь. Сам основатель населенного пункта Гасан Джалалоглы был похоронен на кладбище поселения. Хотя время основания поселения неизвестно, однако во второй половине XVIII века оно превратилось в один из развитых торговых и культурных центров Памбекского султаната. Через местность Джалалоглы проходили караванные пути, по которым шла оживленная внутренняя и внешняя торговля султаната между крупнейшими переднеазиатскими, южнокавказскими и российскими торговыми центрами. Поэтому на караванных путях было построено много безопасных стоянок, удобных переправ через реки и постоялых дворов–иджеванатунов. Название Джалалоглы сохранялось за поселением до 1924 года.

Поселение основано албанами-христианами, поэтому здесь строились и албанские архитектурные христианские сооружения. Сохранилась албанская церковь V-VI века (3, с.685-686). Одним из таких ранних сооружений является дошедший до нашего времени албанский монастырь VII века Хневанк – Старый монастырь, расположенный на правом берегу реки Дзорагет на возвышении, где соединяются реки Дзорагет и Гаргар. Архитектурное сооружение этого монастыря построено в стиле раннесредневековой албанской архитектуры.

Эпиграфические памятники на территории султаната явно свидетельствуют, что здесь в XII-XIII веках проживали тюркские племена кыпчаков, принявшие христианство от родственных им албан. В селении Кыпчаг – ныне это село Арич в Артикском районе Ширакской области Армении, сохранился главный монастырь святой Богородицы Хпчававанк – Кыпчакский монастырь из монастырского комплекса, построенный в XII веке (11, с.21). Древняя постройка комплекса относится к VII веку – это церковь святого Георгия. Сохранились руины христианской церкви V века, построенной на месте албанского святилища. Центр архитектурного комплекса составляют две церкви и, присущий лишь албанским церковным сооружениям, входная молебня гавит. Внешний архитектурный стиль монастыря был развит в XIII веке в Гандзасарском монастырском комплексе. Изнутри храма прослеживаются элементы традиционной сельджукской архитектуры (7, с.588).

Населенный пункт Памбека Хамамлы находился на реке Памбек в 97км от Иревана. Название происходит от тюркского слова «хамамлы» - банная, что могло быть связано с наличием здесь теплых источников. Существует также версия, что название села происходит от имени основателя Хаченского княжества Григория Хамама, так как территория населенного пункта Хамамлы с самого основания княжества в IX веке являлась летней резиденцией хаченских князей (13, с.25).

Основываясь на древних поселениях и погребениях периода ранней бронзы, найденных на холмах хамамлинской территории, археологи и антропологи находят, что здесь в IVтысячилетии до н.э. проживали тюркские скотоводческие племена. В VII веке до нашей эры регион был включен в состав государства Урарту, что нашло отражение в летописях урартийских царей Аргишти I и Сардури II, именовавших его как «Куалбани» - Страна албан (10, с.287; 15, с.20). До арабского господства большая часть населения региона были язычниками, исповедывающие танрычество и меньшую часть населения составляли тюрки-христиане. После принятия ислама язычниками численность тюрков–мусульман значительно превысила количество христианского тюркского населения. После Туркманчайского 1828 года и Адрианопольского 1829 года договоров этническая картина поселения стала резко меняться из-за массового расселения здесь армянских семей, переселенных царскимправительством из Хоя и Муша. Однако переселенные армянские семьи не слились с местным христианским населением, на что расчитывало царское правительство, так как местные христиане этнически были тюрками. Несмотря на религиозные различия между христианским и мусульманским тюркским населением языком межобщения в султанате продолжал оставаться родной им тюркский язык. Переселенное на территорию султаната армянское население также использовало для меобщения тюрскский язык. Тюркское название населенного пункта султаната Хамамлы сохранялось вплоть до депортации мусульманского населения в 1949 году. В этом же году поселение было переименовано в Спитак,что в переводе с армянского означает «белый».

Гюмри находился в центральной части Ширакской котловины в 126 км от Иревана. С севера, востока и юго-востока он был окружен Ширакским и Памбекским хребтами и отрогами горного массива Алагез. До 1840 года официальное название Гюмри было Кумайры, известное из урартских летописей VIIIвека дон.э.

Существует этническая версия происхождения обоих названий, связанная с именем тюркских племен киммерийцев, мигрировавших в VIII веке дон.э. в союзе киммерийско-скифских племен по линии Кумайры-Карс-Карин-Камах-Гамирик и осевших в Ширакской долине. Некоторые ученые название Гюмри отождествляют с названием Гюмниас, упомянутым в «Анабасисе» античного греческого автора Ксенофонта,реконструируя его как Гюмриас.

Название Гюмри связывают также с тюркским словом «комрюк», означающее «таможня», «таможенная пошлина», видимо потому что этот населенный пункт был расположен на границе с Османской империей. Первое упоминание этого поселения с названием Гюмри известно 978 годом. Согласно Амасийского договора 1555 года между османским султаном Сулейманом I и сефевидским шахом Тахмасибом I Кумайры-Гюмрю, став пограничным форпостом, составлял земли сефевидского дивана и находился под непосредственным управлением чухур-саадского беглярбека. Будучи пограничным населенным пунктом, Гюмрю в первую очередь, стал значительным центром торговли и ремесленничества. В период независимых ханств территория Гюмри стала одной из значимых пунктов Памбекского султаната, находящегося в вассальной зависимости от Ireванского ханства.

После подписания манифеста о присоединении Восточной Грузии к России в 1801 году Ширак был занят русскими войсками (4, с.432-433). Это стало переломным моментом в истории Памбекского султаната. С этого времени Гюмрю сыграл значительную роль в развитии наступательных действий русской армии в русско-каджарских войнах первой половины XIX века. Близ него разворачивались ожесточённые бои между русскими, каджарскими и османскими войсками. Тогда же территория султаната оказалась в руках российских войск и появились первые потоки беженцев из территории султаната. Большинство тюркского населения,оставив свои родные дома, бежали в соседние территории. В 1804 году поэтому поводу генерал-майор Лазарев в своем рапорте командующему армией на Кавказе Кноррингу сообщает, что мирные жители из 14 деревень Памбекского султаната нашли защиту на территории Иреванского ханства (2, с.18-24).

Первый пост русских казаков появился вблизи Гюмри в 1804 году. По требованию русского командования населению было предложено принять подданство России. Однако жители, не желая принять подданство России, в июле 1804 года во главе памбекских владетелей Рагим бека и Сеид бека подняли восстание и, поняв безысходность, бежали в Карсский пашалык Османской Турции. Переговоры князя Цицианова с карсским Мехмедпашой по поводу их возвращения были безрезультатными. Восставшие нашли защиту в пределах Османской империи (2, с.18-24). 1804 год считается датой прекращения существования Памбакского султаната.

***Заключение***. С 1804 года опустошенные земли Памбакского султаната стали заселяться армянскими семьями. Первыми поселенцами Памбекскогосултаната были 2тысячи армянских семей, заселенные здесь уже весной 1804 года (2, с.18-24). После первой русско-каджарской войны согласно Гюлистанскому договору 12 октября 1813 году между Россией и Каджарами территория Памбакского султаната была включена в список навсегда перешедших в состав России и переселение армянских семей в этот регион продолжалось. Однако кардинальные изменения в этнической картине на территории Памбакского султаната произошли уже после окончания русско-каджарских и русско-турецких войн первой половины XIX века в связи с массовым переселением сюда армянскихсемей из Каджарской и Османской империй.

В 1837 году на территории Гюмри закладывается русская крепость и в этом же году его посещает царь Николай I, который присутствует здесь на торжественной закладке православной церкви. По желанию Николая I Гюмри переименовывается в Александрополь, в честь супруги царя императрицы Александры Федоровны. Несмотря на попытку царского правительства русифицировать и арменизировать регион, компактное проживание и абсолютное большинство тюркского населения замедляли этот процесс. Тюркский язык абсолютного большинства населения продолжал оставаться официальным языком на территории султаната. Побывавшийв 1829 году в Гюмрю А.С.Пушкин отмечает в своих путевых записках «Путешествие в Арзрум», что для этого края тюркский язык также необходим как французский в Европе (6, с.412-454; 9, с.57-73).

ЛИТЕРАТУРА

1. Алекперов Алекпер. Тюрки Азербайджана. Баку: издательский дом «Şərq-Qərb», 2011, 559с.
2. Арзуманлы Вагиф, Назим Мустафа. Черные страницы истории. В 17 книгах. Баку: издательство «Астрель», 1998, с.18-24.
3. Акопян Т.Х., Мелик-Башхян Ст.Т., Барсегян О.Х. Словарь топонимов Армении и прилегающих территорий. Т.1.Ереван: издательство Ереванскогоуниверситета, 1998, 986с.
4. Высочайший манифест «К Грузинскому народу» 12-го сентября 1801 года // Акты собранные Кавказской Археографической Коммиссиею. Том 1. Тифлис,1866, с.432-433.
5. Орлов А.С., Георгиева Н.Г., Георгиев В.А. Исторический словарь. 2-еизд. М.: Проспект, 2012, 592 с.
6. Пушкин А.С. Собрание сочинений в 10-ти томах. АН СССР, Институт русской литературы. Т.5. Л.: Наука, Ленинградское отделение, 1978, 489 с.
7. Семенов П. Кипчаг // Географическо-статистический словарь Российской Империи. Том II. СПб.: Типография Безобразова и Комп., 1865, 867 с.
8. Семенов П. Караклис // Географическо-статистический словарь Российской Империи. Том II. СПб.: Типография Безобразова и Комп., 867 с.
9. Тынянов Ю.Н. «Путешествие в Арзрум» // Пушкин: Временник Пушкинской комиссии. М.: издательство АН СССР, 1936, вып.2, с.57-73.
10. Меликишвили Г.А. Урартские клинообразные надписи. М.: издательство Академии наук СССР, 1960, 505 с.
11. Мусульманские районы Закавказья, входящие в состав Эриванской, Елисаветпольской, Бакинской и отчасти Тифлисской губерний. // Высшие классы коренного населения Кавказского края и правительственные мероприятия по определению их сословных прав. Исторический очерк. Составитель делопроизводитель канцелярии Наместника Его Императорского Величества на Кавказе Линден В.Тифлис. Издание Канцелярии Наместника Е.И.В. на Кавказе. 1917 год, глава II., с.23-24.
12. Цуциев А. Атлас этнополитической истории Кавказа (1774-2004). М.: Изд-во Европа, 2006, 127 с.
13. Улубабян Б.А. История Арцаха от начала до наших дней. Ереван, издательство «Айастан», 1994, 15 с.
14. «Утверждение русского владычества на Кавказе», т. XII. Тифлис, 1901, с.26. // Цит. По изд.: Волкова Н.Г. «Этнические процессы в Закавказье в XIX-XX веках», Кавказский Этнографический сборник, IVчасть, Институт Этнографии им.Н.Н.Миклухо-Маклая АН СССР, Москва: Наука, 1969, с.3-54.
15. Əlizadə R., Nəciyev E. Qarabağın Alban-Qıpçaq tarixinə dair. Bakı: «Azərbaycan tarixçiləri» ictimai birliyi, 2021, 127 s.
16. Elçin Qaliboğlu. İrəvan xanlığı XIX yüzilliyin əvvəllərində // "Xalq cəbhəsi", 23 oktyabr 2018. - https://www.xalqcebhesi.az/news/project/31003.html [Müraciət tarixi: 02.05.2022].

**ELMİRA MƏMMƏDOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Azərbaycan tarixi kafedrasının dosentı*

## PƏMBƏK SULTANLIĞININ TARİXİNDƏN

Məqalədə XVIII əsrin ikinci yarısında Azərbaycanın feodal-pərakəndə dövlətçılık sistemində mövcüd olmuş müsəlman feodal mülkü Pəmbək sultanlığının ərazisi, əhalisi, dil və idarəedən sülalələri öyrənilir. Materialların analizi qöstərir ki, sultanlığın ərazisi insan tarixinin qədim astanasından başlayaraq oğuz türklərə məxsus idi. Sultanlığın ərazisi indiki Ermənistan Respublikasının bir necə

rayonlarını - Qarakilsə (Kirovokanşəh, Quqarkr-rayonu), Calaloğlu (Stepanavan), Hamamlı(Spitak) və Qümrü (Leninakan) qəzasının bir hissəsini əhatə edirdi. Sultanlığın paytahtı Qarakilsə şəhəri idi.

Tarixi faktların, rəsmi sənədli mənbələrin, tarixi tədqiqatların, həmcinin toponim və etnonimlərin adların analizi qöstərir ki, Pəmbək sultanlığının ərazisində xristian-müsəlman türk əhalisi yaşayıb, lakin türk–müsəlman əhalisi çoxluq təşkil edirdi. Sultanlığın ərazisində ümumi danışıqdili türk dili idi. Xristian əhalisi alban tayfaların əjdadları idi.

*Açar sözlər*: Qarakilsə, Calaloğlu, Hamamlı, Qümrü, Şirak, Xnevank.

**ELMIRA MAMEDOVA**
*Doctor of Philosophy in History,*
*Associate Professor of the Department of History of Azerbaijan,*
*Azerbaijan State Pedagogical University*

## THE HISTORY OF THE PAMBAK SULTANATE

The article on the history of the Pambak Sultanate, which existed in the system of feudal fragmented Azerbaijan in the second half of the 18th century, examines the territory, population, language, ruling dynasties of the Muslim feudal domain. The materials of the analysis indicate that the territory of the sultanat ebelonged to the Oghuz Turks. The territory of the sultanat ecovered a number of regions of present-day Armenia: Karakilisa (Kirovokan city, Gugarg region), Jalalogly (Stepanavan), Khamamli (Spitak) and part of Gyumri (Leninakan). The capital of the Sultanate was the city Karakilisa.

Ananalysis of historical facts, documentary sources, historical research, as well as the names of toponyms and ethnonyms, made it possible to establish that amixed Christian-Muslim population live don the territory of the Pambak Sultanate with anabsolute majority of Turks. The language of communication was the Turkic language. The Christian population was represented by the descendants of Albanian Christians.

*Keywords*: Karakilisa, Jalalogly, Hamamli, Gyumri, Shirak, Khnevank.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Xəqani Məmmədov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ZƏFƏR KƏRİMOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*"Azərbaycanın tarixi coğrafiyası və demoqrafiyası şöbəsinin*
*aparıcı elmi işçisi, t.ü.f.d.*
**zafer.karimov@mail.ru**

# QƏRBİ AZƏRBAYCAN MƏTBUATI VƏ AZƏRBAYCANLILARIN İSTİQLAL MÜCADİLƏSİ TARİXİNDƏN (XX ƏSRİN ƏVVƏLLƏRİ)

*XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatının bir qolunu da Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) nəşr olunan anadilli mətbuat orqanları təşkil edirdi. Bunlar qədim oğuz-türk yurdu İrəvan şəhərində çap olunan "Lək-lək" (1914), "Bürhani-həqiqət" (1917) məcmuələri və "Cavanlar şurası" (1917) qəzeti idi. Hər üç mətbu orqan Cənubi Qafqazda çar üsul-idarəsinin eybəcərliklərini göstərir, xalqın dözülməz həyat şəraitini, mədəniyyət sahəsindəki geriliyi eləcə də mövhumat və cəhaləti geniş şəkildə əks etdirirdi.*

*1917-ci il Rusiya Fevral inqilabından sonra bütün Cənubi Qafqazda olduğu kimi Qərbi Azərbaycanda da fəhlə, kəndli deputatları soveti hakimiyyəti ələ keçirib, müvəqqəti hökuməti dəstəkləyir və "Türksüz Ermənistan"siyasətinin gerçəkləşməsinə hazırlıq görürdülər.*

*Açar sözlər*: Qərbi Azərbaycan, mətbuat, "Lək-lək", "Bürhani-həqiqət".

***Giriş***. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatının bir qolunu da Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) nəşr olunan anadilli mətbuat orqanları təşkil edirdi. Bunlar qədim oğuz-türk yurdu İrəvan şəhərində çap olunan "Lək-lək" (1914), "Bürhani-həqiqət" (1917) jurnalları və "Cavanlar" şurası (1917) qəzeti Cənubi Qafqazda çar üsul-idarəsinin bir çox eybəcərliklərini açıb göstərir, xalqın dözülməz həyat şəraitini, mədəniyyət sahəsindəki geriliyi, eləcə də mövhumat vəcəhaləti geniş şəkildə əks etdirirdi.

Qərbi Azərbaycan mətbuatının öyrənilməsi, onun ətraflı araşdırılması ilə bağlı ölkəmizdə bir çox tədqiqat işləri aparılmış,elmi əsərlər nəşr olunmuşdur. Tədqiqatçı-alimlərimizdən Nazim Axundov, İsrafil Məmmədov, Nəriman Zeynalov, Ziyəddin Məhərrəmov və b. öz araşdırmalarında Qərbi Azərbaycan mətbuatının özünəməxsus xüsusiyyətlərini, çar istibdadı qüruluşunun ədalətsizliyinə qarşı onların cəsarətli çıxışlarını və yüksək sənətkarlıq bacarıqları haqqında məlumatları oxuculara çatdırmışlar.

Məqalənin yazılmasında məqsəd, "Lək-lək", "Bürhani-həqiqət", "Cavanlar" şurası kimi mətbu orqanlarda dərc olunmuş məqalələrin aktuallığını nəzərə alıb, bu günümüzlə səsləşən erməni şovinizminin hələ ötən əsrin əvvəllərindən baş qaldırdığını və xalqımıza qarşı təxribatçı hücumlarnı genişləndirdiyinə diqqəti yönəltmək və eyni zamanda o dövr anadilli mətbuatda bu kimi məsələlərin işıqlandırması forma və metodlarını araşdırmaqdan ibarətdir.

***"Lək-lək" jurnalı***. "Molla Nəsrəddin" jurnalının nəşrindən (1906) sonra Azərbaycanın hər yerində olduğu kimi Qərbi Azərbaycanda da xalqın milli ruhuna yaxın, sadə ana dilində dərc olunan satirik bir məcmuənin çap olunmasına ciddi ehtiyac yaranmışdı. XX əsrin ilk onilliyinin ortalarına doğru İrəvan ziyalılarından Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə (Aciz İrəvani) (1885-1966) Qafqaz canişinliyinə məcmuə çap etdirmək üçün müraciət etmişdi. C.Əsgərzadənin 1913-cü il dekabrın 4-də Bakıya göndərdiyi məktubda dostu Məmmədəli Sidqiyə (1886-1956) xəbər verirdi ki, "Lək-lək" adlı jurnal çıxarmaq fikrindəyik. Məsləkimiz, gərək məlumunuz olsun, "Molla Nəsrəddin"dir. Amma səliqəmiz ayrı vəziyyətdədir" [1, s.295-296].

1914-cü ilin yanvar ayının 21-də Qafqaz canişini baş idarəsinin Qafqaz senzura komitəsinə yazdığı şəhadətnamə ilə İrəvanda Azərbaycan dilində "Lək-lək" adlı (əslində senzura sənədlərində - "Leylək" (Aist)) həftəlik jurnal çıxarmaq üçün Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadəyə icazə verildi [2, v.14]. Nəhayət, 1914-cü il fevralın 22-də "Lək-lək" məcmuəsinin birinci sayı işıq üzü gördü. "Lək-lək" məcmuəsinin cəmi 12 sayı çap olunsa da (22 fevral 1914 – 30 iyun 1914) o, təkcə İrəvanda deyil, bütün Azərbaycanda tanınmışdı. Satirik jurnal həftədə bir dəfə çap olunurdu.

“Lək-lək” jurnalı Birinci Dünya müharibəsi ərəfəsində həyati əhəmiyyətə malik məsələlərə toxunur və bir çox üstüörtülü mətləbləri satirik bir dildə ifadə edirdi. Məcmuənin əhatə etdiyi mövzular içərisində ölkədə maarif və mədəniyyətin aşağı səviyyədə olması xüsusi yer tuturdu. Jurnal, dolayı yolla da olsa göstərməyə çalışırdı ki, çar hökuməti gənclərin itaətkar ruhda böyüməsi və gələcəkdə öz sosial, maddi və mənəvi hüquqlarını tələb etməyə qadir olmaması üçün onları məktəbdən və təhsildən yayındırmağa çalışır, əyyaşlığa və tüfeyli həyat sürməyə vadar edir.

Qoçaq ol, pəhləvan ol, qorxma div, əjdahalardan,
Gedib yol kəskinən, talan gətir baydan, gədadan.
Başından harada görsən bas fəqir, binəva oğlum!
Amandır, elm-məktəbdən demə bir söz mənə, oğlum.
Məktəbdən də göyçək qoçuluqla bir ad almaqdır.
Və yaxud əl hənalı ildə üç-dörd arvad almaqdır [3, №2].

“Lək-lək” əyalətdə hökm sürən özbaşınalıqların gənclərin də təlim-tərbiyəsinə mənfi təsirini göstərərək ictimai quruluşa etirazını bildirirdi. Jurnal “Ordubad” adlı yazıda çar üsul-idarəsinin xalq maarifinə bəslədiyi ögey münasibətin acı nəticələrindən söz açırdı: “Sənət məktəbləri açıldı. Kasıb uşaqlarından başqa heç kəs götürülməyəcəkdir. Uşaqların rəsmi libasları ayaqyalın olmaq, başına dəsmal bağlamaq, yırtıq tuman geymək olacaqdır. Məktəbdə oxunan elmlər: ocaq yandırmaq, su daşımaq, hamballıq etmək. Allah dövlətlilərimizə bu tövr işlərin cəzasını versin” [3, №11].

“Lək-lək” jurnalı irsinin tədqiqatçısı, tarix üzrə fəlsəfə doktoru İsrafil Məmmədov məcmuənin zəngin çeşidli yazılar dərc etməsi və ictimai mühitə təsiri məsələlərinə toxunaraq yazır: “Ümumiyyətlə, jurnal xalq maarifi sahəsində çar mütləqiyyəti quruluşunun yeritdiyi eybəcər siyasətin tənqidinə həsr olunmuş 40-a yaxın felyeton, xəbər, satirik şeir, teleqram və məktub dərc etmişdir. Müxtəlif janrlarda olan bu yazılarda kütlələri mövcud quruluşu devirməyə çağırış sədası açıq eşidilməsə də, həmin quruluşun yaramazlıqlarını aradan qaldırmağa, ictimai həyatda dəyişiklik edilməsinə ciddi bir ehtiyac duyulması fikrini oxuculara çatdırmaq səyi çox güclü səslənir” [5, s.110].

“Lək-lək” jurnalının diqqət yetirdiyi mövzulardan biri də ana dilinin saflığı və onun inkişafı məsələləri idi. Qəzet və jurnallarımızda, dərsliklərdə işlədilən həddsiz dərəcədə çoxlu qəliz və anlaşılmaz sözlər, ibarələr “Lək-lək”i daim düşündürür və narahat edirdi. “Təzələşmək” və “Dil məsələsi” adlı felyetonlarda Azərbaycan dilinin uzun illər istismarçı rejim tərəfindən zərərli təzyiqlərə məruz qalması faktları göstərilir ki, bu da nəticədə “iki azərbaycanlının bir-biri ilə dilmanc, tərcüman vasitəsilə danışmasına gətirib çatdırmışdır” [5, s.112].

Jurnalın çap etdiyi materialların birindən məlum olur ki, məhkəməyə çağrılmış kəndli Arpa çayının daşması üzündən İrəvana gec gəlib çatır. Hakimdən üzr istədikdən sonra kəndli, gecikməsinin səbəbini söyləyir. Lakin hakim kəndlinin sözlərindən heç nə anlamır və tərcüməçi çağırırlar. Tərcüməçi də kəndlinin danışığından bir şey başa düşməyərək gözlərini döyür. “Lək-lək” oxucularını anlatmağa çalışırdı ki, “kəndlinin bir cümlədə işlətdiyi beş kəlmənin hərəsi bir dildə səslənir” [5, s.112]. Jurnal hesab edir ki, kəndlinin belə danışmasının səbəbi yəqin ki, “danışığımızın, dilimizin islahı intilligentlərimizə, yarımçıqlarımıza yaramadığı kimi, mollalarımız, vaizlərimiz hətta kəndlilərimiz üçün də əlverişli deyil”. Axı kəndliyə dəfələrlə demişlər: “Ağaların hüzurunda çoban dili ilə danışmaq hörmətsizlikdir”. Çünki “kəndlinin ətrafındakı vaizlər, yarımçıq ziyalılar nar, alma, heyva və göyərçin əvəzinə ətar, seyb, nadanə, kabutər deməyə adət etmişlər” [3, №7].

Ümumiyyətlə, “Lək-lək” məcmuəsi çar Rusiyasının müstəmləkə əsarəti altında yaşayan xalqların dilinə hörmətsizliklə yanaşan hakim dairələri, “ana dilində oxumaq, yazmaq, danışmaq yaramaz, qəbahətdir” – söyləyən yarımçıq ziyalıları ardıcıl olaraq tənqid edirdi. Təsadüfi deyil ki, jurnalın ilk səhifəsində həmişə bu sözlər yazılırdı: “Açıq türk dilində yazılan məktublar qəbul və dərc olunacaqdır”.

“Lək-lək” məcmuəsinin mütərəqqi və üstün cəhətlərindən biri də o idi ki, jurnal o dövrdə ayrı-ayrı yerlərdə, müxtəlif dillərdə çap olunan mətbuat orqanları haqqında tez-tez yazılar dərc edirdi. “Əksəriyyəti xəbər şəklində və elanlar şöbəsində dərc edilən bu yazılar mətbuat tarixini ətraflı öyrənmək üçün indi də az əhəmiyyətli deyildir” [5, s.123].

“Lək-lək”in elanlar şöbəsində o zaman ayrı-ayrı yerlərdən bir çox qəzet və jurnalların İrəvana, eləcə də Qərbi Azərbaycanın digər yerlərinə gəlib çatması haqqında məlumatlar vardır. Jurnalın yazdığı elana görə «rusca bilən intelligentlərimizin çoxu Peterburqda rus dilində nəşr olunan müsəlman qəzetəsini alırmış” [3, №12]. İ.S.Məmmədov Əli Məhzun Hacı Zeynalabdinzadənin həmin qəzetin İrəvan üzrə vəkili olduğunu qeyd edir [5, s.123]. Tədqiqatçı digər qəzet və jurnalların da Qərbi Azərbaycanda oxucularının olması haqqında məlumat verir. “Daşkənddə çıxan ədəbi, iqtisadi, fənni” “Sədai Türküstan” qəzetinin və İstanbulda nəşr olunan elmi-ədəbi “Şəhbal” məcmuəsinin də Ermənistanda oxucuları var imiş” [5, s.123].

“Lək-lək” məcmuəsində dərc olunan yazılardan aydın görünür ki, jurnal Qərbi Azərbaycanın hüdudlarından kənarda da tanınmış və oxucularına çatdırılmışdır. Bu faktı təsdiqləyən mənbə hələlik jurnalın özüdür. Məcmuənin 4-cü sayında bu haqda belə bir yazı verilmişdir: “Sair şəhərlərdə əldə satılmaqdan ötəri jurnal göndərdiyimiz cənablardan təvəqqe olunur ki, satılan jurnalların pulunu tezliklə idarəyə göndərsinlər” [3, №4]. “Sair şəhərlər» dedikdə çox güman ki, “Lək-lək”in səhifələrində tez-tez rast gəldiyimiz Naxçıvan, Culfa, Ordubad, Gəncə, Bakı, Tiflis kimi şəhərlərdən verilən xəbərlərə əsasən, jurnalın həmin şəhərlərdə oxucusu və ya müxbirləri olmuşdur. “Culfada Cinbəy Meymunbəyova cavab”, “Tiflisdən məktub”, “Bir nəfər ordubadlı” və “Ordubad”, hər ikisi “Palazqulaq” imzası ilə verilən “Gəncədən məktub” və “Gəncə”, “Bakı”, “Naxçıvan”, “Kələntərovun röyası” başlıqları altında dərc edilən yazılar bu qənaətin gerçəkliyə çox yaxın olduğunu sübut edir” [5, s.124].

“Lək-lək” məcmuəsinin sonuncu 12-ci sayı 30 iyun 1914-ci ildə çap olunmuşdur. Jurnal bu nömrədə bildirirdi ki, “Bəzi səbəblərə görə bir neçə nömrədən sonra daha “Lək-lək” məcmuəsi çıxmayıb və “Lək-lək” müştərilərinə yeni nəşr ediləcək “Çınqı” namində” [3, №12] məcmuə göndəriləcəkdir”. Lakin “Çınqı” işıq üzü görmədi.

***“Bürhani-həqiqət”*** İrəvan şəhərində Azərbaycan dilində nəşr olunan ikinci məcmuə olmuşdur. Cəmi 9 sayının (1 yanvar 1917 – 29 iyun 1917) işıq üzü görməsinə baxmayaraq, o da öz sələfləri “Molla Nəsrəddin” və “Lək-lək”in yolunu davam etdirmiş, “öz oxucusunu “cəhalət və zəlalət zülmündən” xilas etmək, “nicata çatdırmaq”, ətrafda cərəyan edən hadisələrin mahiyyəti, səbəb və nəticələrini həqiqətin dili ilə təsvir etmək, işığın qaranlığı qovacağına inam yaratmaq məqsədini gəlişi gözəllik naminə deyil, zamanın təkidli tələbi əsasında seçmişdi” [5, s.158].

Məcmuənin birinci sayı 1917-ci il yanvarın 1-də çap olunmuşdur. “Bürhani-həqiqət”in «müdir və mühərriri tanınmış mollanəsrəddinçi şair və publisist Əli Hacı Zeynalabdinzadə Rəhimov (Məhzun) olub, naşiri isə İrəvanın nüfuzlu ziyalılarından Həsən Mirzəzadə Əliyev idi” [5, s.157]. Ədəbi, siyasi, tarixi və fənni jurnal olan “Bürhani-həqiqət” adətən ayda iki dəfə 500 nüsxə tirajla çap olunurdu [6, s.7].

“Bürhani-həqiqət”in çap olunduğu 1917-ci il İrəvan quberniyası azərbaycanlılarının həyatında çox ağır, məşəqqətlərlə dolu bir dövr idi. Birinci Dünya müharibəsi (1914-1918) hələ davam etdiyindən quberniyanın əksər şəhər və kəndləri rus və erməni silahlı birləşmələrinin tapdağı altında idi. Osmanlı dövləti ərazisindən döyüşlərdən qayıdan erməni könüllü silahlı qoşun dəstələri azərbaycanlılar yaşayan kəndləri, evləri dağıdır, od vurub yandırır, müsəlman əhalisini kütləvi şəkildə qıraraq əsl soyqırımına məruz qoyurdular.

Bütün dərd və bəlaların, fəlakətlərin əsl günahkarını mütləqiyyət rejimində görən “Bürhani-həqiqət” çarizmin devrilməsi xəbərini böyük şadyanalıqla qarşılayaraq Fevral inqilabını “hürriyyət baharının ilk günəşi”nə bənzədib yazırdı: “Hürriyyət baharının ilk günəşi atəş yayan nişan topları kimi işıqlı zərrələrinin bombardmanı istibdadın azad ürəklərə vurduğu buxovlar üzərinə tökərək, bu buxovları məhv etdi. İstibdadın siyah buludları altında zülmət şəkli almış olan vətənimizi səadət, hürriyyət və ədalət ziyası ilə işıqlandırdı. Deməli ki, üzərimizdə hakimiyyət edən müstəbidlərin, siyah qüvvələrin... rəhimsiz cəlladların, ev yıxanların və məzlumların göz yaşı bahasına olaraq istirahət edən canilərin sonu çatdı” [7, № 4].

Fevral inqilabının, nəhayət ki, xalqlara hürriyyət və azadlıq gətirəcəyinə, insanların bərabərhüquqlu bir cəmiyyətdə yaşayacağına böyük inam və ümid bəsləyən ziyalılar arzu və istəklərini çox vaxt “Bürhani-həqiqət”in vasitəsilə oxuculara çatdırırdılar. “Bir nəfər mütəllibin (haqqını istəyən – Z.K.) təbriki” şeirində müəllif öz fikirlərini belə ifadə edirdi:

“İşıqlandı cahan ruhi günəş ta aşkar oldu.
Qış istibdadı getdi, lalə güllər tacidar oldu.
Bəzəndi güllər ilə rəngarəng bağ-hürriyyət,
Oxur azadə bülbüllər, həqiqətdə bahar oldu,
O qış ki, qəlbimə təzyiq edirdi müstəbdanə
Baharın kəlməsindən puçlanıb büqtidar oldu.
Üfüqdə parladı çıxdı zühirə şəmsi hürriyyət” [7, № 4].

Lakin Fevral inqilabından sonra bütün Cənubi Qafqazda olduğu kimi Qərbi Azərbaycanda da siyasi vəziyyət xeyli gərginləşmişdi. Keçmiş imperiyanın hər yerində olduğu kimi burada da əsgər, fəhlə, kəndli deputatları sovetləri yaradılır, hakimiyyət icraiyyə komitələrinə verilirdi. Yeni yaradılan bu orqanların kimlərin əlində cəmləşməsi məsələsi isə demək olar əsl mübarizə obyektinə çevrilmişdi. “Bir qütbdə hürriyyət, azadlıq şüarları altında nümayişlər, mitinqlər keçirilir, əsgər, fəhlə, kəndli deputatları sovetləri yaradılır, digər qütbdə isə müvəqqəti hökuməti dəstəkləyir, “Türksüz Ermənistan” planının gerçəkləşməsinə hazırlıq görürdülər” [5, s.163].

Ölkədə izdihamlı mitinq və nümayişlər keçirilir, tətilçılər çar məmurlarını işdən qovur, polis və hərbçiləri tərksilah edirdilər. Yaranmış mürəkkəb ictimai-siyasi bir vəziyyətdə “Bürhani-həqiqət” vilayəttə baş verən hadisələrə heç də biganə qalmır, ölkə idarəçiliyinin təcrübəsiz, naşı adamların əlinə keçməsi ehtimalından böyük narahatçılıq keçirirdi: “Heyyəti icraiyyə və başqa nümayəndələr seçilməsində diqqətli olmalı, layiq və bacarıqlı əza seçməli və bu ağır qiymətin qabil-qədrini bilib mühafizəsini bacaran sərraflar əlinə keçməsinə hümmət etməli” [7, №3].

“Bürhani-həqiqət”in keçirdiyi narahatlıq və nigarançılıq hisləri heç də əbəs deyildi. Yerli orqanlara seçkilərdə ədalətsizlik və özbaşınalıqlar kütləvi xarakter almışdı. İrəvan şəhəri də daxil olmaqla ətraf rayonları da, Böyük Qarakilsə, Gərnibasar kəndlərində vəziyyət daha acınacaqlı idi. “Kafqazskiy raboçi” qəzetinin verdiyi məlumata əsasən Böyük Qarakilsə kəndində icraiyyə komitəsinə seçilənlərin azı 90 faizi köhnə üsuli-idarənin nümayəndələri, polis məmurları və quldurlardan ibarət idi [5, s.165]. Gərnibasarda da eyni ilə belə seçkilərə uyğun seçkilər keçirilmişdi.

Seçkilərlə bağlı kəndlilərin və müəllimlərin yazdıqları şikayət məktublarında bildirilirdi ki, yerli müsəlman əhalisinə qənim kəsilmiş daşnak partiyasının quldurları, dinc əhaliyə hədə-qorxu gələrək təzyiq vasitəsilə onları varlılara səs verməyə məcbur edirlər: “Mülkədarlar, riyakarlar, rüşvətxorlar, kəndxudalar təkcə icraiyyə komitəsinəmi seçilirlər? Yox! Onları hətta komissar vəzifəsinə də verirlər. Qəribə mənzərə yaranmışdır: dünənki mütləqiyyətçi bircə gün ərzində necə də asanlıqla dönüb bu gün inqilabçı olur” [5, s.165].

Fevral inqilabından sonra Qərbi Azərbaycanda yaranmış gərgin ictimai-siyasi vəziyyətdən istifadə edən “Daşnaksütyun” partiyası hər vəchlə hakimiyyətə yiyələnərək türksüz “Böyük Ermənistan” dövləti yaratmağa çalışırdı. “Hürriyyət bayrağı”na pənah gətirən bir qrup azərbaycanlı ziyalılar isə bütün bu təhlükəli oyunlardan xəbərsiz halda yeni-yeni firqələr, cəmiyyət və komitələr yaratmaqla məşğul idilər. Yeni yaradılmış firqələr haqqında məlumat verən “Bürhani-həqiqət” göstərirdi ki, seçkilərdə uğur qazanmamış və özlərini alçaldılmış hiss edən bəzi şəxslər vəzifə sahibi olmaq üçün bu üsullara əl atmalı olurdular. Məcmuə bununla bağlı yazırdı: “Şəhərdə “İrşad”, “İttihad”, “Yeni firqə”, “Müdafieyi məzluman” adlı firqələr, müsəlman komitəsi, məhəllə komitələri, cəmiyyəti-xeyriyyə, “fəhlə nümayəndələrinin heyəti icraiyyəsi”, nəşri maarif ittifaqı, ictimai təşkilatların nümayəndələrindən ibarət komitə kimi bir sıra təşkilatlar yaradılmışdır. “Bu firqələrin törəmələri və meydana çıxmaları... Seçkilərdə özlərini təhqir olunmuş hesab edənlərin iş başına keçmək arzusunda bulunmalarından əmələ gəlmişdir. Keçən dəfə heyəti icraiyyə seçkilərində seçilməyənlər “İrşad» firqəsi təşkil etdilər. Yerdə qalanlar “Yeni firqə”, “İttihad” düzəltməyə müvəffəq oldular. İki axırıncı firqələrdən məhrum olanlar dəxi gələcəkdə nə qədər müddətə firqələr təşkil edəcəklərini kim bilir?” [7, №3].

Qərbi Azərbaycanda yaranmış partiya, komitə və cəmiyyətlərin fəaliyyət prinsipləri, onların məqsəd və məramları, ideya istiqamətləri haqqında təəssüf ki, kifayət qədər məlumat yoxdur. Yalnız bəlli olan odur ki, fevral inqilabından sonra azadlıq şüarı “altında yaradılan partiya və təşkilatların müstəsna bolluğu şəraitində beləcə, şəhərin azərbaycanlıları milli-mədəni muxtariyyətə, özlərinin öz müqəddəratını təyin etmək hüququna nail ola bilmədilər” [5, s.167].

"Bürhani-həqiqət" məcmuəsinin 5 şöbəsi var idi. Jurnal bu şöbələrdə oxuculara maraqlı yazılar təqdim etməklə yanaşı, dərc olunmuş materialların anlaşıqlı və aydın olması üçün sadə ana dilindən geniş istifadə edirdi.

Məcmuənin birinci şöbəsi "Lüğətin-lüğəti", ikinci "Ədəbiyyata dair", üçüncü "Məişət məsələləri", dördüncü "Elmi məqalələr", beşinci isə "Elanlar şöbəsi" adlanırdı.

"Bürhani-həqiqət" "Lüğətin lüğəti"ndə o dövrün bir çox ictimai-siyasi yarıtmazlıqlarını kəskin tənqid edərək bu naqislikləri doğuran səbəbləri açıb göstərir və çox zaman xalqın mənafeyinə uyğun mövqedə dayanırdı. Məcmuə yaranmış siyasi firqə və komitələrin bir qrup varlı məmurun əlində cəmlənməsini, eləcə də, idarəetmə orqanları fəaliyyətlərinin sadə xalq kütlələrinin mənafeyinə zidd siyasət yürütməsini dəfələrlə oxucuların diqqətinə çatdırmışdı.

"Lüğətin lüğəti" başlığı altında təqdim olunan yazılar öz dərin, ibrətamiz məziyyətləri ilə yanaşı, bütövlükdə Qərbi azərbaycanlıların sosial-mənəvi və fəlsəfi yaşam tərzinin öyrənilməsində mühüm əhəmiyyətə malik bədii sənət nümunəsidir. "Bürhani-həqiqət" "Lüğətin lüğəti"ndə oxucusunu bir çox sözlərin hikməti ilə tanış edir, sosial-siyasi problemlərisatirik şəkildə üzə çıxarmağa çalışırdı: "**Uprava** – müsəlman qlasnilərinin yataq yeridir, gecələrin nə halda olduğunu görməyən gözlərdir. **Asqıraq** – hər bir xeyir işə başlayanda qabağımızı kəsən canavardır. **Adı var, özü yox** – tərəqqimiz, hüququmuzdur. **Asiya** – başımızda dolandırılan dəyirmanın daşıdır. **Anbar** – mollanın qarnı, millətpərəstin cibidir. **Axur**– müftəxorların süfrəsi, yaranan yeni-yeni cəmiyyətlərin təmənnasıdır. **Un** – adını çəkmək qadağandır. **İrəvan** – upravadan, qorodovoylardan ibarət mürəkkəb, müşkül bir hökumətdir. **İrəvan apteki** – ölmə, yaz gələr, yonca bitər deməkdir. **Astar** – şəkər satanların putu on beş manata satdıqları şəkərin meşoklarıdır. **İnsaf** - İrəvan ağalarına məxsus sifətdir. **Böhtan** – zorlunun gücsüzə deyəcəyi haqq sözdür. **Təfavüt** – seçkilərdə dövlətli ilə fəqirə verilən imtiyaz. **Təpəbaşı** – İrəvanın ən abad məhəlləsidir ki, gecələri gündüzdən işıqlı olur. **Cavan** – iki tapança, bir xəncər bağlayaraq papağını yan qoyanlar. **Cəmiyyət** – qərəz meydanı..." [7, №4].

Qeyd etmək lazımdır ki, "Lüğətin lüğəti" bölümündə təqdim edilən Qərəz meydanı açıqlamasında məcmuənin Qərbi azərbaycanlılara qarşı yaranan erməni-daşnak təhlükəsindən xəbər verildiyi göstərilir. Tarixçi alim İ.S.Məmmədov bununla bağlı yazır: "Ancaq "qərəz meydanında dəyirman daşının" o illərdə azərbaycanlıların başında necə hərləndiyinin mənzərəsini aydın görə bilmək üçün bəzi faktları xatırlatmaq gərəkdir. Birtərəfli və qərəzli münasibət olmasın deyə yalnız erməni qaynaqlarına müraciət edək" [5, s.172].

O, daha sonra erməni mənbələrindən çox maraqlı faktlar gətirir:

"Daşnaklar dinc azərbaycanlı əhalisini qətlə yetirir, sıxışdırıb Yelizavetpol quberniyasının Zəngəzur qəzasından, İrəvan quberniyasının İrəvan, Aleksandropol, Eçmiədzin, Novo Bəyazit qəzalarından qovurdular" [5, s.172]. "İrəvanda hər yüz nəfərdən 25-i, orta hesabla hər saatda 1,6 adam ölmüşdü. Ölənlərin çoxu azərbaycanlı idi" [5, s.172]. "Yeni Ermənistan yetimlər və qaçqınlar diyarı, hüzn və kədər, qüssə və iztirabla dolu cəhənnəmə bənzər bir diyardır" [5, s.172].

"Bürhani-həqiqət"də tanınmış maarif xadimi Mirzə Cabbar Məmmədovun "Tərbiyə" başlığı altında silsilə məqalələri də dərc olunmuşdur. Mirzə Cabbar gənc nəslin sağlam böyüməsi və onun normal, hərtərəfli inkişafı üçün mövcud şəraitin olmamasından şikayətlənərək, hakimiyyət və cəmiyyət tərəfdən gənclərə qarşı diqqətsizlik və laqeydlik halları ilə heç cür barışmırdı. Mirzə Cabbar yazırdı: "Ev heyvanlarının bədənini salamat saxlamaq üçün çəkilən zəhmətin onda biri insan balalarına işlənsə idi uşaqlarımız və balalarımız cürbəcür insanı şikəstedici və öldürücü mərəzlərin qurbanı olmazdılar. Analarımız toyuğun təzə yumurtadan çıxmış cücələrinə qanuna müvafiq nəzarət edir, onlara yumşaq və mədələri həzm edə biləcək yemək hazırlayırlar. Onları başqa quşlardan, heyvanlardan və suya düşüb boğulmaqdan mühafizə etməyə çalışırlar. Amma canından artıq sevdiyi cocuqlara isə..." [7, №4].

"Bürhani-həqiqət" də tərbiyə mövzusunda xüsusi şöbənin açılması uşaq və gənclərə qarşı diqqət və qayğının artması işinə təbii ki, müsbət təsir göstərirdi. Bu şöbədə bədən tərbiyəsi, gigiyena məsələləri, körpələrə qulluq etmək qaydaları və s. bu kimi faydalı məsləhətlərlə bağlı yazılar dərc olunurdu.

Sovet dövrü Azərbaycan tarixşünaslığının bütün sahələrində olduğu kimi, mətbuat tarixi sahəsində də bəzən dəlil və sübuta, fakta əsaslanmayan yanlış mövqe və baxışlar yaranmışdı. Aparılan

tədqiqatların bir çoxu sovet ideologiyasına xidmət göstərirdi. "Bürhani-həqiqət" məcmuəsi haqqında sovet dövrü mətbuat tarixi araşdırmalarında da bu qəbildən olan yanlışlıqlara yol verilmişdir. "Azərbaycan Sovet Ensiklopediyası"nda məcmuənin "...digər tərəfdən isə dini ehkamları müdafiə edən ziddiyyətli jurnal..." [9, s.379] kimi göstərilməsi mətbuat orqanına ədalətsiz bir yanaşma kimi qiymətləndirilməlidir. Əslində "Bürhani-həqiqət" heç də dini ehkamları müdafiə etmir, elm və maarifin yayılması, xurafatın aradan qaldırılması kimi əhəmiyyətli məsələlərin təbliğinə daha çox diqqət yetirirdi. Məcmuənin ideya istiqamətini düzgün müəyyənləşdirmək üçün elə təkcə onun əsas müəlliflərindən olan Mirzə Cabbar Məmmədovun yazılarına nəzər salmaq, oxumaq yəqin ki, məsələyə obyektiv aydınlıq gətirmək üçün kifayət edər.

***"Cavanlar Şurası"***. Artıq gənclər hərəkatı Cənubi Qafqazda da hiss olunacaq dərəcədə canlanmaqda idi. Qərbi Azərbaycanda yaşayan gənclər Qarakilsədə, Aleksandropolda, İrəvanda, Novo Bəyazitdə nümayişlər keçirir, müvəqqəti hökumətə, imperialist müharıbəsinə qarşı öz etirazlarını bildirirdilər [5, s.187]. Yaranmış siyasi vəziyyətdən istifadə edən erməni daşnak partiyası "millətin xilaskarı" pərdəsi altında azərbaycanlılara qarşı qatı millətçi siyasət yürüdərək gəncləri milli münaqişəyə qoşulmağa təhrik edirdilər. Onlar "Erməni gərək erməni millətinə xidmət etsin, gəncliyin siyasət ilə nə işi?!" [5, s. 189] şüarı altında təbliğat apararaq yeni yaranan gənclər təşkilatını daşnak siyasətinin təsiri altına salmağa çalışırdılar.

Qərbi Azərbaycanda yaşayan gənclərə yaranmış bu vəziyyəti anlatmaq və baş verə biləcək milli münaqişənin qarşısını almağa hazır olmaq üçün, şübhəsiz ki, digər tədbirlərlə yanaşı mətbuat orqanının yaradılmasına da ehtiyac duyulurdu. İrəvanda yaşayan azərbaycanlı ziyalılar bu məqsədlə beynəlmiləl bir şura təşkil etdilər. Erməni sosialistləri ilə birləşən Şura üzvləri, milli münaqişəni sülh yolu ilə həll etmək üçün müxtəlif yollar axtarıb arayırdılar. Şura öz fikir və ideyalarını həyata keçirmək üçün həm də "Cavanlar Şurası" adlı qəzetin nəşrinə başladı. "Cavanlar Şurası" siyasi, ictimai, ədəbi qəzet kimi İrəvan Beynəlmiləl Gənclər Şurası tərəfindən həftədə bir dəfə İrəvan şəhərində nəşr olunurdu [6, s.123]. Qəzetin redaktə olunması və çapa hazırlanmasında İrəvan gimnaziyasının tələbəsi Rza Tağıyev, M.Ə.Nasir və Mirfətullayev yaxından iştirak etmişdi.

"Cavanlar Şurası"nın sayları hələlik əldə olunmadığından qəzet tədqiq edilməmişdir. Qəzetin fəaliyyəti haqqında "Yoldaş" jurnalının 3-cü sayında M.Ə.Nasirin "İrəvanda firqəçilik" [10, №3] başlıqlı felyetonunda müəyyən məlumat verilir. Tədqiqatçı İ.Məmmədov "Cavanlar Şurası" qəzetinin nəşr olunduğu illərin dəqiq müəyyən edilməsi üçün felyetondakı faktlara diqqəti yönəldərək yazır:

"Həmin felyetonun birinci cümləsində isə müəllif təqribən iki il bundan əqdəm İrəvanda"... kəlmələrini işlətməklə bildirir ki, bu söhbət 1918-ci ildə, hələ bəlkə də 1917-ci ilin sonlarına aiddir. Üçüncüsü, elə həmin yazının sonunda deyilir ki, qəzet cəmi bir neçə nömrə çıxandan sonra, Milli Komitə tərəfindən bağlanmışdır. Başqa sənədlərə əl atmadan belə, yalnız həmin felyeton əsasında bu fikrə gəlmək olar ki, qəzet 1918-ci ildə də bağlanmışdır" [5, s.192]. Felyetondakı növbəti açıqlama tədqiqatçı alimin haqlı olduğunu həqiqətən təsdiqləyir: "Xülasə, 4-5 ay rayonlarda Milli Komitə davam etdi" [10, № 3]. Doğrudan da "Cavanlar Şurası"nın bağlanmasına səbəbkar Milli Komitədirsə bu komitə 1918-ci ildə 4-5 ay "davam" etmişsə, çox ehtimal ki, qəzet də elə həmin il qapanmışdır.

"Cavanlar Şurası" qəzetinin məramı Qərbi Azərbaycanda milli qırğının qarşısını almaq, azərbaycanlı gəncləri həmrəyliyə səsləyərək, erməni daşnaklarının yeritdiyi millətçilik siyasətinin mahiyyətini onlara anlatmaqdan ibarət idi. Qəzetin redaktorlarından Mirməhəmməd Mirfətullayev "Ləklək" məcmuəsinin redaktoru olmuş, "Kefcil və kefcillər" adlı operettanı 1916-cı ildə İrəvanda "Luys" mətbəəsində çap etdirmişdi. Təcrübəli qələm sahibi M.Ə.Nasirin həm İrəvan, həm də Bakıda fəaliyyət göstərən mətbuat orqanlarında xeyli sayda məqalələri dərc olunmuşdu.

"Cavanlar Şurası" qəzetinin digər redaktoru, İrəvan gimnaziyasının tələbəsi Rza Tağıyev "marksist tələbə dərnəyinin üzvlərindən biri olmuş, Q.Qukasyan və A.Xancyanla tez-tez görüşmüşdür" [5, s.194]. Qeyd edək ki, "Cavanlar Şurası" qəzetinin fəaliyyətinə erməni gəncləri də maraq göstərmişdir. M.Ə.Nasirin xatirələrinə əsasən erməni dilində çıxan "Spartak"(ilk nömrəsi 1919-cu il mayın 1-də çıxmışdır) adlı gənclər qəzetinin nəşrinə hazırlaşmaqda olan Q.Qukasyan və A.Xancyan "Cavanlar Şurası"nın nəşri məsələləri ilə yaxından maraqlanırdılar [5, s.194]. A.Xancyan Azərbaycan dilini yaxşı bildiyindən tez-tez "Cavanlar Şurası" qəzetinin redaksiyasına gəlir və redaktorlardan bəzi məsləhətlər alırmış.

İrəvanda Azərbaycan dilində nəşr olunan “Cavanlar Şurası” qəzetinin yazarları sırasına Cabbar Əsgərzadə və Mirzə Cabbar Məmmədovun adları da məlumdur. Təəssüf ki, qəzetin sayları, hansı mətbəədə çap olunması və dərc etdiyi yazılar haqqında hələlik dəqiq məlumat yoxdur.

XX əsrin əvvəllərində Qərbi Azərbaycanda fəaliyyət göstərən mətbuat orqanları buranın daimi sakinləri və aborigen xalqı olan Azərbaycan türkləırinin sosial-siyasi həyatını əks etdirməklə yanaşı, maarif və mədəniyyətin yayılması üçün də xeyli işlər görmüşdü. Müsəlman cəmiyyətinin bəlası olan, dini xurafata qarşı ardıcıl mübarizə aparan mətbuat, ölkədə yeni açılmış məktəblərin fəaliyyəti, onların tədris üsulları, dərslik problemləri ilə bağlı çoxlu sayda yazılar dərc etmişdi.

***Nəticə***. Məqaləyə yekun olaraq aşağıdakı nəticəyə gəlmək olar:

Birincisi, XX əsrin əvvəllərində Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) nəşr olunan anadilli mətbuat orqanları “Lək-lək” (1914), “Bürhani-həqiqət” (1917) jurnalları və “Cavanlar şurası” (1917) qəzeti Cənubi Qafqazda çar üsul-idarəsinin bir çox nöqsan və çatışazlıqlarını açıq şəkildə bəyan etməklə yanaşı, xalqın çətin, acınacaqlı həyat şəraitini, sosial-mədəni sahədəki geriliyi, həmçinin ölkədəki cəhalət və xürafatı geniş şəkildə öz səhifələrində işıqlandırmağa çalışırdı.

İkincisi, Qərbi Azərbaycan mətbuatı gənc nəslin sağlam böyüməsi və onun hərtərəfli inkişafı üçün daim təbliğati yazılar dərc edir, bununla bağlı mövcud şəraitin olmamasından şikayətlənir, hakimiyyət və cəmiyyətin gənclərə qarşı diqqətsizlik və laqeydlik halları ilə heç cür barışmırdı. Mətbu orqanlarda çalışan qələm sahibləri və ziyalılar yaxşı başa düşürdülər ki, xalqın hüquq və azadlıqlar əldə etməsi və gələcəkdə öz istiqlalına qovuşması, gənclərin yüksək bilik və bacarığından, onların siyasi mübarizədə yetkin qərarlar qəbul etməsindən bilavasitə asılı olacaqdır.

Üçüncüsü, Qərbi Azərbaycanda fəaliyyət göstərən “Lək-lək” , “Bürhani-həqiqət” və “Cavanlar şurası” kimi mətbu orqanlar azərbaycanlılara qarşı hələ XX əsrin əvvəllərindən baş qaldıran daşnak erməni separatçılarının təxribatçı fəaliyyətindən geniş bəhs edir və orada yaşayan soydaşlarımızı düşmən ünsürlərə qarşı daim ayıq-sayıq olmağasəsləyir və ümumxalq mənafenaminə sıx birləşərək birgətəxribatçılara qarşı mübarizə aparmağa çağırırdı.

## ƏDƏBİYYAT

1. Məmmədli Q. Molla Nəsrəddin. Bakı, 1965, 328 s.
2. Gürcüstan SSR Mərkəzi Dövlət Tarix Arxivi, 480-ci fond, 1-ci siyahı, 968 nömrəli iş-qovluğu.
3. “Lək-lək” jurnalı, 4 mart 1914, №2.
4. “Lək-lək” jurnalı, 17 iyun 1914, №11.
5. Məmmədov İ.S. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri. Bakı, Adiloğlu, 2002. 210 s.
6. Axundov N. Azərbaycan dövri mətbuatı. (1832-1920). Biblioqrafiya. Bakı, Elm, 1987, 120 s.
7. “Bürhani-həqiqət” məcmuəsi, 26 mart 1917, № 4.
8. Məmmədov M.C. Tərbiyə // “Bürhani-həqiqət” məcmuəsi, 26 mart 1917, № 4.
9. Azərbaycan Sovet Ensiklopediyası, II c. Bakı, ASE Baş redaksiyası, 1978, 592 s.
10. “Yoldaş” jurnalı, 20 fevral, 1920, № 3.

**ЗАФАР КЕРИМОВ**
*Ведущий научный сотрудник, доктор философии по истории*
*Института Истории имени А.А.Бакиханова НАНА*

## ПЕЧАТЬ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА И БОРЬБА ИЗ ИСТОРИИ АЗЕРБАЙДЖАНЦЕВ ЗА НЕЗАВИСИМОСТЬ (НАЧ.XX В.)

Издававшиеся в начале XX века в Западном Азербайджане (ныне – республика Армения) национальные печатные органы являлись неразрывной частью прессы остальной части Азербайджана – Западного. Это были журналы «Лек-лек» (1914 год), «Бурхани-хагигат» (1917) и газета «Джаванлар шурасы» (1917) , печатавшиеся в древнем городе тюрков-огузов

Иреване. Они раскрывали сущность политики царизма на Южном Кавказе, невыносимую жизнь населения, религиозные пережитки.

В 1917 г. после Февральской революции власть в Западном Азербайджане, как и по всему Южному Кавказу, перешла в руки советов рабочих и крестьянских депутатов, поддерживавших Временное правительство, и, готовившихся к реализации политики «Армения без тюрков».

*Ключевые слова*: Западном Азербайджане, печать, «Лек-лек», «Бурхани-хагигат».

**ZAFAR KARIMOV**
*Leading researcher of the department "Historical geography and demography of Azerbaijan" of A.A.Bakikhanov Institute of History of ANAS, PhD in History*

## FROM THE HISTORY OF THE WESTERN AZERBAIJANI PRESSAND THE STRUGGLE FOR INDEPENDENCE OF AZERBAIJANIS (EARLY 20TH CENTURY)

At the beginning of the 20th century, a branch of the Northern Azerbaijani press also consisted of native-language media published in Western Azerbaijan (now the Republic of Armenia). These were the magazines "Lek-Lek" (1914), "Burhani-heqiqet (1917) and the "Javanlar Shurasi" (1917) newspaper, published in the ancient Oghuz-Turkish city of Iravan. All three media organs showed the imperfection of tsarist rule in the South Caucasus, the unbearable living conditions of the people, the backwardness of culture, as well as broadly reflected superstition and ignorance.

After the Russian February Revolution of 1917, the Soviet of workers' and peasants' deputies seized power in Western Azerbaijan, as in the entire South Caucasus, supported the Provisional government and made preparation for the implementation of the policy "Armenia without Turks".

*Keywords*: Western Azerbaijan, press, "Lek-Lek", "Burhani-heqiqet".

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Elçin Qarayev, t.e.d. Anar İsgəndərov.*

**UOT 94(479.24)**

**ƏSMƏD MUXTAROVA**
*Bakı Dövlət Universitetinin professoru*
**asmadmukhtarova@bsu.edu.az**

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANDA DEMOKRATİK, DÜNYƏVİ DÖVLƏT QURUCULUĞUNUN MEMARIDIR

*Tarixidə elə müdrik və uzaqgörən dövlət xadimləri, fenomenal şəxsiyyətlər olublar ki, onlar öz ölkəsinin və xalqının taleyində müstəsna dərəcədə mühüm rol oynayaraq istedadları və bacarıqları ilə xalqın xilaskarına çevrilib, adlarını tarixin səhifəsinə böyük hərflərlə həkk etmişlər. Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olan ümummilli liderimiz Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Onun adı hər bir azərbaycanlı tərəfindən qürurla və fəxrlə çəkilir. Böyük qətiyyət və iradə sahibi olan Ulu öndərimiz tarixin ən mürəkkəb və ən çətin anında – müstəqilliyimizin ilk vaxtlarında xalqımızın gələcəyi naminə uzaqgörən qərarlar çıxarmış, uğurlu daxili və xarici siyasət həyata keçirmiş, nəticədə ölkəmiz tənəzzüldən və böhrandan çıxaraq dinamik inkişaf yoluna qədəm qoymuşdur. Bu gün ümummilli liderimizin bu siyasətini müvəffəqiyyətlə davam etdirən Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin sayəsində Azərbaycan nəinki Cənubi Qafqaz regionunda, bütün dünyada nüfuzlu dövlətlərdən birinə çevrilmişdir. Bunu, Ali Baş Komandanımızın rəhbərliyi altında ordumuzun və xalqımızın 44 günlük Vətən müharibəsində qələbəsi bir daha sübut etdi. Məhz buna görə də, ümummilli lider Heydər Əliyev Azərbaycanda demokratik, dünyəvi dövlət quruculuğunun memarı, müstəqil və çiçəklənən Azərbaycan Respublikasının əbədiyaşar banisidir!*

*Açar sözlər*: Azərbaycan, Heydər Əliyev, ümummilli lider, dövlət quruculuğu.

***Giriş***. XX əsrin böyük təcrübə və səriştə, analitik zəka sahibi, dünya səviyyəli ictimai-siyasi xadim, görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı hər bir azərbaycanlı üçün iftixar və qürur mənbəyidir. Heydər Əliyev şəxsiyyəti müasir dövrdə böyük şəxsiyyət meyarlarının ən dolğun məcmusu, etalonudur. Heydər Əliyev dühası Vətənin və xalqın taleyi təhlükə qarşısında olduğu bir vaxtda tarixin ve taleyin bizlərə bəxş etdiyi misilsiz sərvətdir!

1991-ci ilin oktyabr ayının 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edildi. Azərbaycan öz istiqlaliyyətinə qovuşdu. Bu tarixi hadisə 80-ci illərin ikinci yarısında başlanmış milli demokratik hərəkatın məntiqi nəticəsi idi. Lakin, tarixi şəraitin xalqımıza bəxş etdiyi müstəqillik düşüncəsi və səriştəsiz siyasət dəllallarının "fəaliyyəti" ucbatından sonu görünməyən uçuruma doğru sürüklənirdi. 1985-ci ildə SSRİ-də hakimiyyət başına gələn Mixail Qorbaçovun Vətənimizə, xalqımıza, ümummilli liderimiz Heydər Əliyevə düşmən münasibəti son dərəcədə ağır nəticələrə gətirib çıxarmışdı. M.Qorbaçov tərəfindən Azərbaycana rəhbər vəzifəyə göndərilən, milli hisslərdən uzaq olan canişin Ə.Vəzirovun hakimiyyəti dövründə Moskva hökumətinin "səyləri" nəticəsində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal edilməsi prosesi dərinləşir, antiazərbaycan siyasəti həyata keçirilirdi. Ə.Vəzirov Azərbaycandan qaçdıqdan sonra hakimiyyətə gətirilən A.Mütəllibov onun milli xəyanət yolunu davam etdirir, imperiya mənafeyinə uyğun siyasət həyata keçirirdi. Xalq hərəkatı dalğalarında meydana gələn Xalq Cəbhəsinin səriştəsiz liderləri ilə A.Mütəllibov qrupu arasında hakimiyyət uğrunda gedən mübarizə ölkəni xaos və anarxiya vəziyyətinə salmışdı.

Belə bir vəziyyətdə ermənilər tərəfindən Azərbaycan torpaqlarının işğalı genişlənmişdi. Hərbi quruculuq işi olduqca aşağı səviyyədə idi. Nizami ordu yaradılmamışdı. Hərbi əməliyyat planları peşəkar hərbçilər tərəfindən deyil, diletantlar tərəfindən işlənib hazırlanırdı. Ordunun əsas hissəsi könüllülərdən ibarət olduğundan çox hallarda döyüşçülər nizami ordunun tələblərinə, nizamnamə qaydalarına əməl etmirdilər. Fərarilik və təxribat geniş miqyas almışdı. Müvafiq inzibati orqanlar buna qarşı heç bir tədbir görmürdü. Orduya rəhbərlik dözülməz halda idi. Son iki ildə bir neçə müdafiə naziri dəyişmişdi: Bərşadlı, Mehdiyev, Musayev, Qazıyev, Rzayev və d. nazir təyin edilmişdi. Qərargah rəisləri, alay komandirləri, korpus komandirləri tez-tez dəyişdirilirdi. Belə vəziyyətdə torpaqlarımızın işğalı davam edirdi. Heç bir idarəçilik təcrübəsi olmayan, mitinq tribunasmdan hakimiyyətə gələn cəbhəçilər Azərbaycanı daha fəlakətli vəziyyətə saldılar [7, s.158].

Beləliklə, “Xalq Cəbhəsi” – “Müsavat” cütlüyünün hakimiyyəti dövründə siyasi təcrübəsizlik, bacarıqsızlıq və səriştəsizlik nəticəsində ölkədə sosial-iqtisadi böhran dərinləşmiş, xalqın rifahı və həyat şəraiti xeyli aşağı düşmüş, qondarma “demokratik” hakimiyyət özünü xalqın gözündən salmış və sosial dayaqdan məhram olmuşdu. 1992-ci ildən başlayan Qarabağ müharibəsindəki uğursuzluqlar, torpaqlarımızın ermənilər tərəfindən işğalı isə, ölkədəki siyasi böhranı son həddə çatdırmışdı. Habelə, ölkəmiz vətəndaş müharibəsi və parçalanma təhlükəsi ilə üzləşmişdi. Bütün bunların nəticəsində 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsi qarşısında qalmış, ölkənin tarix səhnəsindən silinməsi real vəziyyat almışdı. Məhz, Heydər Əliyevin 1993-cü ilin 15 iyununda xalq tərəfindən yenidən hakimiyyətə çağırılması ilə dövlətçilik ənənələrimizin, müstəqil dövlətimizin təməl prinsiplərinin qorunub saxlanılması mümkün oldu. Heydər Əliyevin xalqın çağırışı ilə yenidən Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll etdi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, torpaqlarımızın işğalı dayandırıldı, respublikanın parçalanması təhlükəsi aradan qaldırıldı, xalqda Azərbaycanın gələcəyinə inam yarandı.

Sovetlər İttifaqının dağılmasından sonra respublikamızın ictimai-siyasi və iqtisadi həyatında yaranmış mürəkkəb şəraitin doğurduğu problemlər onları həll edə biləcək şəxsiyyətə tələbatı irəli atmışdı. Ayağa qalxan xalqın inam va iradəsini qırmaq, milli mənliyini alçaltmaq ve sovet hərb maşının gücünü nümayiş etdirmək məqsədilə bir sıra cinayətlər həyata keçirildi. 20 Yanvar faciəsi totalitar kommunist rejiminin Azərbaycan xalqına qarşı hərbi təcavüzü və cinayəti idi. O dövrdə respublika rəhbərliyi hər vasitə ilə baş vermiş cinayəti ört-basdır etmək istədiyi halda ulu öndər Heydər Əliyevin öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadakı Azərbaycan nümayəndəliyinin binasına gələrək bu faciəni bütün dünya ictimaiyyətinə çatdırması milli təəssübkeşlikdən doğan fədakarlıq idi. 20 Yanvar faciəsinin ertəsi günü, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrəl yığıncaqda çıxış etdi, sözügedən qanlı hadisələrə öz kəskin etirazını bildirdi, doğma xalqına başsağlığı verdi və onunla həmrəyliyini ifadə etdi: “Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvadakı kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvada daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın” [8, s.16]. 20 Yanvar faciəsinə ilk siyasi hüquqi qiyməti verən də möhtərəm prezidentimiz olmuşdur: “Mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm” [8, s.16].

Müstəqilliyin ilk vaxtlarında Azərbaycan rəhbərliyi hələ bir müddət 20 Yanvar hadisələrinə lazımi siyasi qiymət verməsə də, sonralar yenə də məhz Prezident Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra onun təkidi və tələbi ilə 20 Yanvar faciəsinə düzgün və əsaslandırılmış siyasi qiymət verildi. Heydər Əliyev 1994-cü ilin yanvarında 20 Yanvar faciəsinin dördüncü ildönümü ilə bağlı Dövlət Komissiyasının iclasında deyirdi: “...Mənə Milli Şuranın (hazırda Milli Məclis adlanır – Ə.M.) 19 yanvar 1992-ci il tarixli qərarı təqdim edildi. Bu qərarı oxuyanda, doğrusu, çox həyəcanlandım. Düşündüm ki, Milli Şura nə üçün öz millətinin, öz xalqının aqibətinə, taleyinə bu qədər biganə qalıb? Qərarı oxuyandan sonra bir daha qəti fikrə gəldim ki, bu faciəyə, bu hadisəyə indiyə qədər siyasi qiymət verilməyib” [1]. Tezliklə, Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli fərmanı ilə, Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olundu və bu məsələyə Milli Məclisin 29 mart 1994-cü il tarixli qərarı ilə siyasi-hüquqi qiymət verildi. 1990-cı ilin o qanlı-qadalı yanvarı sübut etdi ki, Azərbaycanın azadlığı uğrunda şəhidlik zirvəsini hər an fəth etməyə hazır olan oğulları var və o oğulların Heydər Əliyev kimi müdrik öndərə, dahi başçıya ehtiyacı var. Lakin, o dövrdə həm Moskva, həm də onun Azərbaycandakı yerli satrapları Heydər Əliyev dühasından qorxduqları kimi heç kimdən və heç nədən qorxmurdular, müxtəlif süni maneələr yaradırdılar.

1990-cı ilin iyul ayında doğma vətəni Naxçıvana gələn Heydər Əliyev payızda keçirilən parlament seçkilərində Naxçıvan MP-na və Azərbaycan respublikasının parlamentlərinə deputat seçildi. 1990-ci il noyabrın 17-də Naxçıvan MR-nin parlamentinin ilk sessiyasına sədrliyi Heydər Əliyev etdi. Həmin gün Naxçıvan parlamentinin sessiyası Muxtar Respublikanın adından “sovet sosialist” sözlərini götürdü. “Sovet” sözünü “Ali Məclis” sözü ilə əvəz etdi. İlk dəfə Azərbaycanın üçrəngli

bayrağı Azərbaycanın dövlət bayrağı kimi qəbul olundu və salona gətirildi. 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarda deyilirdi: "İlk Azərbaycan Demokratik Respublikasının üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsis edilsin. Naxçıvan Muxtar Respublikasının digər dövlət rəmzi – dövlət gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin" [10]. Eyni zamanda Azərbaycan Demokratik Respublikasının üçrəngli dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-nin dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasmda Azərbaycan SSR Ali Sovetindən xahiş edilməsi haqqında qərar qəbul edildi [7, s.139]. Heydər Əliyevin rəhbərliyi altında Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycan üçün nümunə oldu və demokratik qüvvələrin tələbi ilə Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də keçirilən sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı – "Azərbaycan SSR" adı dəyişdirilərək, Azərbaycan Respublikası adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsdiq edildi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Ali Sovetin sədri seçildi. Həmin gün Azərbaycan tarixinə "Qurtuluş günü" kimi daxil oldu. Müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Beləliklə, dövlətçiliyimiz öz həqiqi sahibinə etibar olundu. Yenilməz başçı, xalqımızın nicatı Heydər Əliyev mahir bir memar kimi dövlətçiliyimizin separatçı ünsirlər tərəfindən lağımlar atılmış qalasını kərpic-kərpic möhkəmlətməyə başladı. Dövlətçiliyimizə, müstəqilliyimizə və ərazi bütövlüyümüzə qənim kəsilən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildilər, cəzalandırıldılar. Dövlətçiliyimizin yaşaması üçün hava və su kimi zəruri olan siyasi sabitlik ən düzgün taktiki addım idi. Müharibənin dayandırılması ictimai-siyasi sabitliyin möhkəmlənməsi üçün də vacib idi. Bunun nəticəsində 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə 14 ölkənin 30 şirkəti ilə 57 mlrd. sərmayə qoyuluşu nəzərdə tutulan 20 neft müqaviləsi imzalandı. Müqaviləni imzalayan şirkətlər arasında Amerika Birləşmiş Ştatlarının «Amoko», «Yunokal», «Penzoyl», «Ekson», Böyük Britaniyanın «Britiş Petroleum», «Remko», Rusiyanın «Lukoyl», Türkiyənin «Türk petrolları», Norveçin «Statoyl», Yaponiyanın «İtoçu» kimi böyük şirkətləri var idi [6, s.7; 7, s.94]. İqtisadi yüksəlişin əsas şərti hesab olunan investisiya qoyuluşu fasiləsiz artırdı. Heydər Əliyev həmin hadisəni yüksək qiymətləndirərək demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasınm suveren hüquqlarınm bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onlann ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq" [3, s.3].

1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr quruculuğu baxımdan, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür. Müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunun əsas qanunu olan Konstitusiyanın memarı məhz Heydər Əliyev olmuş, onun rəhbərliyi altında ölkəmizdə bərqərar olmuş hüquqi, dünyəvi və demokratik dövlət bu gün də uğurla inkişaf etməkdədir.

Hər bir ölkənin, xalqın firavan yaşaması, həm də dövlətin mövcud olması üçün əsas şərt onun iqtisadiyyatıdır. XX əsrin sonlarında ölkədə demokratik dövlət quruculuğu və yeni iqtisadi sistemin formalaşması üçün 900-a yaxın qanun qəbul olunmuşdur. Bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər nəticəsində sənaye istehsalının həcmi 1997-ci ildə 0,3%, 1998-ci ildə 2,2%, 1999-cu ildə 3,6%, 2000-ci ildə isə 6,9% artmışdır [7, s.127]. Həmin dövrdə ölkəmizin valyuta fondu da nəzərəçarpacaq dərəcədə artmış, 2002-ci ildə Azərbaycanın 1 milyard 300 milyon dollar valyuta ehtiyatı olmuşdu, Neft Fondunda 690 milyon dollar vəsait toplanmışdı [2].

Ümummili liderimizin fitri dövlətçilik istedadı, unikal natiqlik məharəti, məntiqi təhlili, analitik təfəkkür tərzi, soyuqqanlılığı, qətiyyəti, ictimai-siyasi proseslərin sonluğunu görə bilməsi, Vətənə və xalqa bağlılığının qanunauyğun nəticəsidir ki, Azərbaycan dövlətinin imici xarici siyasət arenasında durmadan artır. Daxili siyasətimizin həyata keçirilməsində əsas xətti Azərbaycanda demokratik, hüquqi dövlət qurmaq, bazar iqtisadiyyatı yaratmaq təşkil edirsə, xarici siyasətimizin əsasını dün-

yanın bütün dövlətləri ilə bərabər hüquqlu surətdə faydalı əlaqələr qurmaq, Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək təşkil edir. Hazırda Azərbaycan 137 ölkə ilə diplomatik əlaqə qurmuşdur. Vyana Konvensiyasının iştirakçısı olan bütün ölkələrlə respublikamız arasında konsulluq münasibətləri yaradılmışdır. Avropanın nüfuzlu ölkələri ilə 90-dan artıq mühüm sənədin imzalanması bütün bunlara aşkar sübutdur.

Heydər Əliyevin çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə, böyük ustalıqla gəlmək bacarığı Azərbaycana beynəlxalq aləmdə nüfuz və şöhrət qazandırdı. Bunun nəticəsi olaraq Azərbaycan dünyanın bütün aparıcı ölkələrinin maraq mərkəzinə çevrildi, beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başladı, investisiyaların qoyuluşu üçün cəlbedici ölkələrdən birinə çevrildi [9, s.37].

Avropa ölkələri ilə münasibətlərin inkişafında "qədim ipək yolu"nun bərpasını nəzərdə tutan TRASEKA proqramının həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. 1993-cü ilin mayında Brüsseldə 8 dövlətin (5-i Mərkəzi Asiya, 3-ü isə Qafqaz respublikaları olmaqla) nəqliyyat və ticarət nazirlərinin iştirak etdiyi konfransda təsis edilmiş TRASEKA proqramı Avropadan qərb-şərq istiqamətində - Qara dəniz, Qafqaz, Xəzər dənizindən Mərkəzi Asiyaya qədər nəqliyyat dəhlizinin inkişafına görə Avropa Birliyinin sadalanmış dövlətlər üçün nəzərdə tutduğu strategiyasının bir hissəsidir [5, s.62]. Bu proqramda yuxarıda qeyd edilən yol Mərkəzi Asiyadan bütün dünya bazarları ilə əlaqələri olan limanlar arasında ən qısa, başlıcası isə ən sürətli və ucuz yol kimi qəbul edilir. Avropa Birliyi komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Ermənistan, Tacikistan, Türkmənistan və Özbəkistan nümayəndələrinin Brüsseldə görüşü olmuş, bu görüşdə regionun nəqliyyat infrostrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmiş, "Brüssel Bəyannaməsi" adlı sənəd qəbul edilmişdir. "Brüssel Bəyannaməsi" Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətlərini, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur. Layihənin əsas cəhəti mövcud şimal yolunun nəzarətindən uzaqlaşmaqla ticarət və nəqliyyat yollarının yenidən qurulması və Qərbə yeni yolların açılmasıdır. "Brüssel Bəyannaməsi" qəbul olunandan sonra region dövlətləri arasında iqtisadi əməkdaşlıq çərçivəsində əlaqələr dinamik xarakter almışdır. 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gürcüstan və Ukrayna respublikaları başçılarının Avrasiya nəqliyyat dəhlizi yaradılması haqqında saziş imzalaması bu işə qüvvətli təkan vermişdir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi olan bu saziş və müqavilələrin imzalanması müstəqil Azərbaycan dövlətinin həmin dövrdə nəqliyyat blokadasına alınması təhlükəsini aradan qaldırmışdı [5, s.63].

Heydər Əliyevin dünyanın tanınmış dövlət xadimləri və siyasətçiləri ilə görüşləri, əlaqələri Paris, Ankara, İstanbul, Oslo, Qahirə, London, Moskva, Brüssel, Kopenhagen, Tehran, İslamabad, Pekin, Nyu-York, Lüksemburq, Aşqabad, Tokio və başqa paytaxtlarda apardığı siyasi dialoqlar ölkəmizin ətrafında yaradılan informasiya blokadasını yarmağa, diplomatik təcrid olunmadan qurtarmağa və dünya siyasətini formalaşdıran dövlətlərlə konstruktiv münasibətlərin qurulmasına xidmət etmişdir.

Ümummilli lider Heydər Əliyevin BMT-nin 49 və 50-ci sessiyalarındakı, o cümlədən 2000-ci ildə Zirvə toplantısındakı çıxışları Dünya Diplomatiyasının qızıl səhifələrindəndir. Hörmətli Prezidentimiz NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamaqla Cənubi Qafqazda münaqişələrin həlli üçün əlavə təminatlar almışdır. Ümummilli liderimiz böyük tarixi şəxsiyyətdir! Onun mədəni irsimizə, tariximizə, dilimizə, maddi və mənəvi dəyərlərimizə bağlılığı aşağıdakı sözlərində özünü aydın göstərir: "Biz öz əcdadlarımıza daim minnətdar olmalıyıq, ona görə ki, torpaqlarımız, ərazimiz cürbəcür şahlıqların, sultanlıqların, xəlifələrin, dövlətlərin əlinə keçdiyi vaxtlarda da onlar dilimizi yaşadıb və ilbəil zənginləşdirmişlər". Və yaxud, ümummilli liderimizin: "Gərək hər bir nəsil, və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir" sözləri məni həmişə düşündürür.

Həqiqətən də, siyasət dünyasının patriarxı, nadir dövlət və ictimai xadim olan Heydər Əliyev idarəçilik məktəbinin nəticəsidir ki, bu gün təhsilimiz də, mədəniyyətimiz də, incəsənətimiz də məhz Azərbaycanın dövlət müstəqilliyinə xidmət edərək əsl vətəndaş tərbiyə olunması prosesinə cəlb olunub. Təlim-tərbiyə işində biz müəllimlərin və alimlərin də üzərinə çox məsuliyyətli və şərəfli missi-

yanın düşməsindən hər birimiz qürur hissi duyur, müstəqilliyimizin möhkəmləndirilməsi işindəki əməyimizlə fəxr edirik.

Müstəqil dövlət quruculuğumuzun möhkəmləndirilməsində vətənpərvərlik hisslərinin aşılanması və təbliği işinə yüksək qiymət verən ümummilli liderimiz 1998-ci il martın 13-də "Azərbaycan Respublikası dövlət atributlarının təbliği işini gücləndirmək haqqında" fərman vermişdir.

1998-ci ilin oktyabrın 11-də alternativ əsasda keçirilən seçkilərdə xalqımız öz düzgün seçimini etdi – Heydər Əliyevə hamılıqla səs verib, dövlət quruculuğumuzun memarına öz böyük məhəbbətini, dərin rəğbətini ifadə etdi. 2000-ci ilin noyabrın 5-də demokratik prinsiplər əsasında keçirilən yeni parlament seçkilərinin uğurla başa çatması, ölkəmizin durmadan yeni-yeni zəfərə doğru irəliləməsi xalqın düzgün seçimini, öz rəhbərinə tükənməz sevgisini bütün dünyaya bəyan etdi.

Müstəqillik illərində biz əslində milli mədəni irsimizi, tariximizi, milli incəsənətimizi ideoloji buxov və qadağalardan xilas etdik. Bir çox elm və mədəniyyət xadimlərinin dövlət səviyyəsində keçirilən yubileyləri prezidentimizin diqqət və qayğısının parlaq təzahürüdür. Füzulinin 500 illik yubileyi keçirilərkən YUNESKO-dan bu tədbirə gələn insanlar Azərbaycanı tanıyır, onun dünya mədəniyyəti xəzinəsinə verdiyi töhfələri Azərbaycan həqiqəti tək dünyaya çatdırdılar. 2000-ci ildə türkdilli dövlətlərin başçılarının möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin keçirilməsi, dövlət başçımızın türkdilli xalqların inteqrasiyası prosesinə ən böyük töhfəsidir [11, s.406]. Son dərəcə zəngin mədəniyyətə, ədəbiyyata və incəsənətə malik olan Azərbaycanımızın müstəqilliyin elə ilk dönəmlərinə dünya meridianlarına çıxmasında əvəzsiz xidmətləri olan Heydər Əliyev 2000-ci il dekabrın 30-da "Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında: yeni 2001-ci il, yeni əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində deyirdi: "İkinci minilliyin tarixi əyani surətdə göstərir ki, Azərbaycan xalqı dünya mədəniyyətində öz dəst-xətti ilə seçilən xalqlardandır. Keçən iki min il ərzində bəşər sivilizasiyasının ayrılmaz hissəsi kimi azərbaycanlılar dünya mədəniyyəti xəzinəsinə sanballı töhfələr vermişlər. Bizim əcdadlarımız ibtidai insanın mədəniyyət sahəsində əldə etdiyi bütün nailiyyətlərdən faydalanaraq özünəməxsus zəngin mədəni-mənəvi irs yaratmışlar. Bunu istər Azərbaycan ərazisində arxeoloji qazmtılar nəticəsində tapılmış abidələr, istərsə də bu günümüzə qədər gəlib çatmış şifahi xalq ədəbiyyatı və yazılı ədəbi irsimiz sübut edir" [11, s.10].

***Nəticə.*** Müasir dövr Azərbaycan tarixinin mühüm bir mərhələsi böyük dövlət xadimi, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. Azərbaycanın dövlətçilik tarixinə dahi və fenomenal tarixi şəxsiyyət kimi öz adını qızıl hərflərlə həkk etmiş Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər intibah, inkişaf, milli oyanış və ən əsası müstəqil dövlət quruculuğu dövrü kimi yaddaşlarda qalmışdır. Heydər Əliyev tarixin ağır dönəmlərində - müstəqilliyimizin ilk vaxtlarında xalqın təkidli istəyi ilə hakimiyyətə qayıtdıqdan sonra gənc Azərbaycan dövləti tənəzzüldən və böhrandan xilas olub həm daxili, həm də xarici siyasət sferasında davamlı uğurlar və sürətli, dinamik inkişaf yoluna qədəm qoymuşdur. Məhz buna görə də, Heydər Əliyev bu gün sürətlə inkişaf edən müstəqil Azərbaycanda demokratik, dünyəvi dövlət quruculuğunun banisi və memarıdır!

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti, 14 yanvar 1994-cü il.
2. "Azərbaycan" qəzeti, 26 oktyabr 2002-ci il.
3. "Əsrin müqaviləsi" - 10 il. Bakı, 2004, 36 s.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət. Bakı, "XXI-Yeni Nəşrlər Evi", 2001, 56 s.
5. Əmrahov M. Böyük İpək yolu. Bakı, Mütərcim, 2011, 84 s.
6. Heydər Əliyevin neft strategiyası. I hissə. Bakı, Nurol, 2001, 491 s.
7. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, "Təhsil", 2004, 472 s.
8. Qayıdış. 1990-1993. Bakı, "Azərbaycan", 1996, 792 s.
9. Muxtarova Ə. Azərbaycanın müasir türk dünyasında inteqrasiyası prosesi və Heydər Əliyev // Tarix və onun problemləri, №2, 2013, s.34-40.
10. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Arxivi, f.1, siy.1, iş 02, vər.29.
11. Гусейнова И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру. Баку, «Тахсил», 2005, 504 с.

**АСМЕД МУХТАРОВА**
*профессор Бакинского Государственного Университета*

## ГЕЙДАР АЛИЕВ – АРХИТЕКТОР ПОСТРОЕНИЯ ДЕМОКРАТИЧЕСКОГО, СВЕТСКОГО ГОСУДАРСТВА В АЗЕРБАЙДЖАНЕ

В истории были такие мудрые и дальновидные государственные деятели и феноменальные личности, сыгравшие исключительно важную роль в судьбах своей страны и народа, ставшие своими талантами и умениями спасителями народа, выгравировавшие свои имена большими буквами на страницы истории. Одним из таких личностей является наш общенациональный лидер Гейдар Алиев, архитектор и основатель независимого Азербайджанского государства. Его имя с гордостью упоминает каждый азербайджанец. Наш великий лидер, обладающий большой решимостью и волей, принимал дальновидные решения для будущего нашего народа в самый тяжелый и трудный момент истории – в ранний период нашей независимости, проводил успешную внутреннюю и внешнюю политику, которая в результате наша страна вышла из регресса и кризиса. Сегодня, благодаря нашему Президенту, Верховному Главнокомандующему Ильхаму Алиеву, который успешно продолжает эту политику нашего общенационального лидера, Азербайджан стал одной из самых влиятельных стран не только в регионе Южного Кавказа, но и во всем мире. Это еще раз доказала победа нашей армии и народа в 44-дневной Отечественной войне под руководством нашего Верховного Главнокомандующего. Именно поэтому общенациональный лидер Гейдар Алиев является архитектором построения демократического, светского государства в Азербайджане, основателем независимой и процветающей Азербайджанской Республики.

*Ключевые слова*: Азербайджан, Гейдар Алиев, общенациональный лидер, государственное строительство.

**ASMED MUKHTAROVA**
*professor of Baku State University*

## HEYDAR ALIYEV IS THE ARCHITECT OF BUILDING A DEMOCRATIC, SECULAR STATE IN AZERBAIJAN

In history, there were such wise and far-sighted statesmen and phenomenal personalities who played an exceptionally important role in the fate of their country and people, who became the saviors of the people with their talents and skills, who engraved their names in large letters on the pages of history. One of these personalities is our national leader Heydar Aliyev, the architect and founder of the independent state of Azerbaijan. His name is proudly mentioned by every Azerbaijani. Our great leader, with great determination and will, made far-sighted decisions for the future of our people at the most difficult moment in history - in the early period of our independence, pursued a successful domestic and foreign policy, which as a result our country emerged from regression and crisis. Today, thanks to our President, Supreme Commander-in-Chief Ilham Aliyev, who successfully continues this policy of our national leader, Azerbaijan has become one of the most influential countries not only in the South Caucasus region, but throughout the world. That is why the national leader Heydar Aliyev is the architect of building a democratic, secular state in Azerbaijan, the founder of an independent and prosperous Republic of Azerbaijan!

*Key words*: Azerbaijan, Heydar Aliyev, national leader, state building.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. İsmayıl Məmmədov, t.e.d. İbrahim Zeynalov.*

**İRADƏ HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar müəllimi, Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə Beynəlxalq "Sokrat" mükafatı laureatı, Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü və həmin akademiyanın Beynəlxalq Qızıl ulduz mükafatı laureatı*
**iradahuseynova@bsu.edu.az**

# AZƏRBAYCANDA UĞURLU SİYASİ-TARİXİ VARİSLİK FORMULU: DÜNYA ÜÇÜN NÜMUNƏVİ MODEL

***Azərbaycanın dövlət quruculuğu məhz 1993-cü ildən başlanmışdır. Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyə qayıtdıqdan sonra başlanmışdır və on il ərzində Azərbaycan yenə də postsovet məkanında ən geridə qalmış, ən problemli ölkədən ən qabaqcıl ölkəyə çevrilmişdir. Bu tam həqiqətdir və bu gün Heydər Əliyev siyasəti davam edir.***

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Məqalədə müstəqil Azərbaycanın inkişafında Heydər Əliyevin tarixi rolundan bəhs olunur və ayrı-ayrı sahələrdə əldə edilən uğurlara diqqət yetirilir. Ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin dövlətçiliyin möhkəmləndirilməsi istiqamətindəki tarixi əhəmiyyət daşıyan fəaliyyətləri təhlil edilir. Ümummilli liderin alternativi olmayan düşünülmüş daxili və xarici siyasətinin bu gün onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi və davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi elmi cəhətdən əsaslandırılır. Müəllif tərəfindən dövlətimizin əsaslarının möhkəmləndirilməsinin və həyata keçirilən strategiyanın səmərəliliyinin məhz İlham Əliyevin siyasi varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olduğu vurğulanır.*

*Məqalədə İkinci Qarabağ Müharibəsi nəticəsində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi böyük ruh yüksəkliyi ilə qeyd edilir. Müharibənin nəticələrinin təhlilinə əsasən, Azərbaycan rəhbərliyi həm hərbi, həm də diplomatik sahədə mühüm əhəmiyyət kəsb edən qələbə qazanmışdır. Müəllifin fikrincə, dövlət başçısı İlham Əliyevin gərgin əməyi, səyləri, qətiyyəti, onun ulu öndərin daxili və xarici siyasətinə əsaslanması – siyasi varisliyi nəticəsində bu gün Azərbaycanın sosial-iqtisadi inkişafı dinamik xarakter almışdır.*

*Açar sözlər*: ümummilli lider, müdrik siyasət, inkişaf konsepsiyası, varislik keyfiyyəti, Azərbaycan prezidenti, 44 günlük müharibə, postmünaqişə dövrü.

***Giriş***. Qloballaşmanın geniş vüsət aldığı XXI yüzillikdə hər hansı bir dövlətin geostrateji mövqeyi və geosiyasi üstünlükləri hər şeydən öncə onun fiziki-coğrafi mövqeyi, təbii sərvətləri, əhalisi, iqtisadi inkişafı, siyasi quruluşu və təbii ki, həmin ölkənin lideri ilə müəyyən edilir. Əsl lider məhz bu üstünlüklərdən xalqın və dövlətin maraqları naminə müdrikcəsinə və siyasi uzaqgörənliklə istifadə edir, ölkəsini hər bir cəhətdən inkişaf etdirir, milli tarixini yeni səhifələrlə zənginləşdirir. Bu baxımdan, Azərbaycan xalqının bəxti gətirmişdir. Çünki, 1993-cü ildən etibarən ölkəmizə vətənini həyatından artıq sevən, xalqın rifahı yolunda əlindən gələni əsirgəməyən ümummilli liderimiz Heydər Əliyevin və hazırda cənab İlham Əliyevin rəhbərlik etməsi dediklərimizi təsdiqləyir.

İndiyə qədər məşhur şəxsiyyətlərin, ictimai-siyasi və dövlət xadimlərinin rolu haqqında çoxlu araşdırmalar aparılıb, çox fikirlər söylənib. Bir sıra tədqiqatçılar şəxsiyyətin tarixdə oynadığı rolu, ümumiyyətlə, inkar edir, bəziləri isə bu rolu süni şəkildə şişirdirlər. Bu və ya digər ölkənin rəhbərlərinin, siyasi liderlərinin, görkəmli şəxsiyyətlərinin tarixdə oynadığı rolun əhəmiyyəti və miqyası həmin ölkənin yaşadığı konkret şəraitlə, orada gedən proseslərlə çox sıx bağlı olur. Müasir Azərbay-

canın memarı Heydər Əliyevin bütünlüklə Azərbaycan xalqına və dövlətçiliyinə həsr etdiyi fəaliyyəti bir-birinə zidd olan iki müxtəlif ictimai-siyasi sistemin qovuşuğundan keçmiş və bunların hər ikisindən o, məharətlə faydalanmaqla, respublikamızın hərtərəfli inkişafını təmin etmişdir.

Böyük iftixar hissi ilə bəyan edirəm ki, yeni, müstəqil, bugünkü Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəri olmaqla, xalqımızın, millətimizin, dövlətçiliyimizin XX əsrdəki ən böyük milli sərvətidir. Müstəqil Azərbaycan yeni əsrə, yeni minilliyə milli dövlətçiliyimizin əvəzsiz lideri Heydər Əliyev ideyaları ilə, müstəqil, azad, demokratik, sivil, dünyəvi dövlət olaraq, Şərq və Qərb sivilizasiyalarını özündə harmonik şəkildə əks etdirən çağdaş mədəniyyətə sahib olan xalq kimi, Asiya ilə Avropanı bir-birinə qovuşduran çox əhəmiyyətli geosiyasi və geostrateji coğrafi məkanda yerləşən ölkə kimi daxil olmuşdur. Bu gün Azərbaycanın səsi dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının tribunasından gəlir, Azərbaycanın müstəqilliyi dünya tərəfindən tanınır və geniş müdafiə olunur.

Ulu öndər Heydər Əliyevin unikal və əsrlərə sığmayan fəaliyyətini qısaca təhlil etmək üçün yarım əsr bundan əvvəlki dövrə qayıtmaq lazımdır. Məlum olduğu kimi, ötən yüzilliyin 60-cı illərinin axırlarında – Heydər Əliyevin Azərbaycana başçılıq etməsi ərəfəsində keçmiş Sovet İttifaqının müttəfiq respublikalarından biri olan vətənimiz iqtisadi cəhətdən çox geridə qalmış vəziyyətdə idi. İttifaq əhəmiyyətli müəssisələr istisna olmaqla, əslində, sənayenin digər sahələrinə diqqət yetirilmir, respublikanın təbii sərvətlərindən və potensial imkanlarından lazımınca istifadə olunmurdu. Neft sənayesi əvvəlki səviyyədə işləmirdi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində mütəmadi dayanmalar baş verir, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri getdikcə aşağı düşürdü. Kənd təsərrüfatında və sənayedə durum daha kəskin hal almışdı. Yığılıb qalmış çoxsaylı problemlər isə Azərbaycana rəhbərlik etmək kimi çətin vəzifəni daşıyacaq insandan həddən artıq böyük cəsarət və yüksək idarəçilik qabiliyyəti tələb edirdi.

Qeyd etmək istəyirəm ki, böyük siyasi liderlər üçün bir çox mühüm əhəmiyyət kəsb edən xüsusiyyətlər xarakterikdir. Bu səciyyəvi cəhətlərindən yalnız birini vurğulayaq ki, o da siyasi intuisiya və uzaqgörənlik, hadisələrin gedişinə təsir göstərmək və ya onu qabaqlamaq bacarığıdır. Tarixən bir çox nüfuzlu liderlərin siyasətdə qarşıya qoyduqları məqsədlərə yetişərək uğur qazanmaları, rəhbərlik etdikləri kütləni, xalqı böyük fəlakət və faciələrdən qoruması məhz iti fəhm, intuisiya və uzaqgörənliyin nəticəsi olmuşdur. Azərbaycan xalqının ümummilli lideri də məhz belə uzaqgörən, siyasi proseslərin inkişaf trayektoriyasını duyan, çoxgedişli kombinasiyalar qurmağı bacaran, hadisələrə pozitiv təsir göstərən fenomenal şəxsiyyət Heydər Əliyev idi! Heydər Əliyev məhz millətinin gələcəyini düşünən lider olaraq bütün şüurlu həyatını canından artıq sevdiyi Azərbaycanın tərəqqisinə, inkişafına həsr etmişdir [15, s.46-58].

Ümummilli liderin hakimiyyətinin birinci dövründə - 1969-cu ildən başlayaraq iqtisadiyyatımız, bütövlükdə respublikamız tənəzzüldən inkişafa doğru istiqamət götürdü. Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsinin məhz bu dövründə ölkəmiz geridə qalmış respublikadan çiçəklənən bir diyara çevrildi. Ən böyük, ittifaq əhəmiyyətli sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, kadr hazırlığı, gənclərin dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi və digər istiqamətlərdə əldə olunan uğurlar ulu öndərin titanik fəaliyyətinin nəticəsi idi. Məhz həmin dövrdə ictimai-siyasi və iqtisadi sahədə həyata keçirilən islahatların səviyyəsi baxımından, habelə xalqın sosial rifahının və məişət şəraitinin keyfiyyətcə yeni mərhələyə daxil olması səbəbindən Azərbaycanın quruculuq və inkişaf tarixinə ən parlaq, unudulmaz, əbədi qürur dolu səhifələr yazılmışdır. Hazırkı dövrdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, onun xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişlənməsi və dünya iqtisadiyyatına daha dərin bir şəkildə inteqrasiya prosesi hələ 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş potensiala əsaslanır [24].

Xüsusi vurğulamaq istərdim ki, respublikamızın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev dövrü misilsiz əhəmiyyət kəsb edir. Dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyev öz müdrik fəaliyyəti ilə çağdaş Azərbaycan tarixinin ən şanlı və parlaq səhifələrini yaradıb. Ulu öndər Azərbaycanı dünyaya tanıdıb, onun etibarlı və nüfuzlu tərəfdaş olduğunu sübut edib. Bu dahi şəxsiyyət bir qərinəni əhatə edən dövrdə Azərbaycana rəhbərlik edib, 5 ildən artıq SSRİ kimi böyük bir dövlətin ali rəhbərlərindən olub. Müasir Azərbaycanın memarı Heydər Əliyev bu barədə belə deyirdi: “14 il burada çalışdım. Beş ildən artıq Moskvada işləyərkən yenə də Azərbaycana daha çox

vəsait ayırmaqla, respublikamızın işini daha da irəliyə aparmaqla məşğul oldum. Mən üst-üstə 20 il bu işləri gördüm” [24].

14 iyul 1969-cu il - Azərbaycan tarixində məhz yeni bir mərhələnin başlanğıcı oldu, Azərbaycan tarixində tamamilə yeni inkişaf erasının təməlininm qoyulduğu gün oldu. Xoşbəxtlikdən Azərbaycan KP MK-nın məhz həmin gün keçirilən plenumunda partiyanın Birinci katibi vəzifəsinə Heydər Əliyev təyin edildi.

Bütün əsrlər boyu qədim əkinçilik diyarı kimi tanınmış Azərbaycan Heydər Əliyevin rəhbərliyi dövründə nəhəng aqrar respublikalardan birinə çevrilmişdi, meliorasiya və irriqasiya sahəsində mühüm tədbirlər həyata keçirilir, aqrotexniki qaydalar sürətlə təkmilləşir, taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa kənd təsərrüfatı məhsullarının artımı ildən-ilə sürətlə yüksəlirdi. Əvvəllər yol verilən kobud nöqsanları, yəni iri obyekt və müəssisələrin əksəriyyətinin bir qayda olaraq Bakı və Sumqayıt şəhərlərində cəmləşməsini nəzərə alaraq, ucqar rayon mərkəzlərində, müxtəlif bölgələrdə respublika əhəmiyyətli obyektlər tikilir, yeni iş yerləri açılırdı. Ona görə də hesab edirəm ki, sözün əsl mənasında, Azərbaycanın müasir tarixində 1969-cu ildən sonrakı dövr dönüş mərhələsi, inkişaf təməllərinin quruculuğu dövrü olmuşdur. Bütün ictimaiyyətin, tarixçilərin də etiraf etdikləri kimi, Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi sovet dövrü – 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən məhsuldar, işıqlı səhifələri olmuşdur. Həyata keçirilən tutumuna və həcminə görə böyük və nəhəng dəyişikliklər, iqtisadi və sosial sahələrdə tətbiq olunan islahatlar Azərbaycan xalqının maddi rifah vəziyyətinin keyfiyyətcə yeni mərhələyə çatmasına böyük təkan vermişdi. Hələ o zaman SSRİ hökuməti Azərbaycanla bağlı beş xüsusi qərar qəbul etmişdi. Həmin qərarların həyata keçirilməsi ilə respublikamızın xalq təsərrüfatında hərtərəfli yüksəliş, ardıcıl inkişaf dövrü başlanmışdı. Fəhlə və kolxozçular, respublika ziyalıları xalqımızın maddi və mənəvi inkişafında yüksək nəticələr qazanmışdılar. Haqlı olaraq bu gün biz fəxrlə qeyd edə bilərik ki, indiki dövlət suverenliyimiz və iqtisadi müstəqilliyimizin təməli 1970-1985-ci illərdə qoyulmuşdur [8, s.188-190].

Xalqımızın müdrik oğlu, dövlətimizin rəhbəri Heydər Əliyevin gərgin əməyi nəticəsində respublika başdan-başa, kənd-kənd, rayon-rayon, şəhər-şəhər dəyişərək inkişaf etmiş, müasir, qabaqcıl bir ölkəyə çevrilmişdi. Hələ o zaman nüfuzlu alimlər, tarixçilər və politoloqlar dərindən təhlil edərək, belə bir qənaətə gəlmişdilər ki, SSRİ-də cəmi iki respublika tam müstəqil olaraq yaşayıb, fəaliyyət göstərə bilər. Onlardan biri Azərbaycan idi [10, s.148].

Uzaqgörən strateq xalqımızın və respublikamızın bütün sahələrdə inkişafını təmin etməyi öz məqsədi hesab edirdi. Bu, bir həqiqətdir ki, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın Sovet dövründə qazandığı ən böyük nailiyyət həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensialın respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmasıdır.

Heydər Əliyev fenomeninin unikallığı ondadır ki, o, öz siyasətini heç bir zaman birtərəfli qurmurdu. Ümummilli liderin gördüyü bütün işlər kompleks tədbirlər sistemindən ibarət idi. Bu baxımdan, 1970-ci illərdə Azərbaycanda milli hərbi kadr hazırlığına başlanılması xüsusi olaraq maraq doğurur. Məlumdur ki, sovet hakimiyyəti illərində azərbaycanlılar hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Halbuki, Azərbaycan ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəb var idi. Həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən acınacaqlı idi. Respublika ərazisində yerləşməsinə baxmayaraq, bu məktəblərin minlərlə məzunu arasında yalnız beş-altı azərbaycanlı vardı və onların da çoxu “beynəlmiləl” ailələrin üzvləri idilər. Təbii ki, bu tendensiya həmişə azərbaycanlı olması ilə fəxr edən Heydər Əliyev kimi böyük şəxsiyyəti narahat etməyə bilməzdi. Dövlət başçısının şəxsi müdaxiləsi və qayğısı ilə 70-ci illərdən başlayaraq, Bakıdakı ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı. Artıq 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdi. Lakin, bununla belə, Heydər Əliyev milli hərbi kadr hazırlığı sahəsində daha bir addım atdı. Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması imkan verdi ki, gənclərin marağı hərbi sahəyə yönəldilsin. Birmənalı şəkildə etiraf edilməlidir ki, bu da Azərbaycanın çox da uzaq olmayan gələcək dövlət müstəqilliyinə hesablanan addımlardan biri idi.

Məlum olduğu kimi, intellektual baza olmadan dövlət müstəqilliyinin təmin edilməsi mümkün deyil. Statistik rəqəmlər təsdiqləyir ki, 1970-ci illərə kimi Cənubi Qafqaz respublikaları arasında azərbaycanlıların SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almalarına süni maneələr yaradılır, hətta müəyyən limit qoyulurdu. Azərbaycanlılara, bir qayda olaraq, əsasən ədəbiyyat, musiqi və s. sahələr üzrə ittifaq miqyaslı ali məktəblərdə təhsil almağa icazə verilirdi. Lakin 1970-ci illərdən etibarən bu istiqamətdə də ciddi dönüş əldə edildi və həmin dövrdən başlayaraq, hər il yüzlərlə azərbaycanlı gənc ittifaqın ən nüfuzlu ali məktəblərinin iqtisadiyyat, hüquq, beynəlxalq hüquq, diplomatiya, texnika və s. kimi mühüm elmi sahələrinə təhsil almağa göndərilirdi. Bu siyasət Heydər Əliyev tərəfindən Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn cəsarətli addımlar idi. Təbii ki, sonradan müstəqil dövlət quruculuğunda bu addımın oynadığı əvəzsiz rol göz qabağında idi [16, s.31-45].

Azərbaycan xalqının dahi oğlu, tarixi şəxsiyyət Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycana rəhbərliyi onun keçmiş SSRİ-də ən görkəmli siyasi xadim, rəhbər və dövlət başçısı olduğunu göstərdi. Nəticədə, 1982-ci ilin sonunda o, Moskvaya, partiya və dövlət hakimiyyətinə, yüksək vəzifəyə irəli çəkildi. SSRİ Ali Sovetinin 22 noyabr 1982-ci il tarixli qərarı ilə Heydər Əlirza oğlu Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi [21]. Onun həyatında və siyasi-dövlətçilik fəaliyyətində yeni dövr başlandı. Bununla da bütün SSRİ-nin sosial-iqtisadi və mədəni inkişafına rəhbərlik etmək, hökumətin iqtisadi inkişaf strategiyasının həyata keçirilməsini təşkil etmək, istiqamətləndirmək, xarici iqtisadi siyasətin aparılması, xarici dövlətlərlə qarşılıqlı münasibətlər yaradılması uğrunda məsuliyyətli və çətin vəzifələrin gerçəkləşdirilməsi kimi çoxşaxəli və gərgin fəaliyyət dövrü başlandı.

Ulu öndərimiz 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa verdi. Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən öncə, ermənipərəst M.Qorbaçovun Azərbaycana qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi.

Ümummilli liderin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasının səbəbləri və xalqımız üçün ağır nəticələri tezliklə aşkar oldu. O, bu haqda demişdir: "Siyasi Bürodan istefa verdikdən 15 gün sonra Qarabağ məsələsi ortaya çıxdı. Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan professor Aqanbeqyan Parisdə keçirdiyi bir mətbuat konfransında "Dağlıq Qarabağ Ermənistana verilməlidir" – demiş, bu məsələ ilə əlaqədar Qorbaçovu da qızışdırmışdı. Moskvanın Qarabağ əməliyyatı mənim Siyasi Bürodan getməyimdən 15 gün sonra həyata keçirilməyə başladı. Deməli, bu plan hələ əvvəlcədən hazırlanmışdı, lakin tətbiq olunmasında mən ciddi maneə imişəm" [22].

1991-ci ilin iyulunda Heydər Əliyev Moskvada olarkən Sovet İttifaqı Kommunist Partiyasından çıxmaq haqqında bəyanat verdi. O vaxtkı Kreml sarayında verilmiş həmin sənədi gizlətdilər, mətbuatda açıqlamadılar. Bunun isə ciddi səbəbləri vardı. Çünki həmin bəyanatda Heydər Əliyevin partiyadan çıxmasının səbəbləri göstərilmişdi. Birinci səbəb Kommunist Partiyasının rəhbərliyi tərəfindən Azərbaycan xalqının başına gətirilmiş bəla və Qarabağ məsələsi ilə bağlı Azərbaycan xalqına olan təcavüz, ikinci səbəb 20 Yanvar faciəsi, Azərbaycan xalqına qarşı təcavüz və həmin təcavüzün ört-basdır edilməsi idi. Əlbəttə, hələ Sov.İKP-nin yaşadığı və güclü olduğu bir zamanda onu ifşa etmək insandan xüsusi cəsarət və mərdlik tələb edirdi. Üstəlik, vətəndaş yanğısı və aydın mövqeyinin olması da vacib idi. Nəhayət, ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət vermək mümkün olmuşdur. Respublika Prezidentinin 1994-cü il 5 yanvar tarixli fərmanına müvafiq olaraq ölkə parlamenti – Milli Məclis bu məsələ ilə bağlı xüsusi iclas keçirmiş və 1994-cü il 29 mart tarixli qərarı ilə 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermişdi [10, s.153].

Ulu öndər Vətənin ağır günlərində xalqının yanında olmağa qərar verdi və bu məqsədlə də Azərbaycana qayıtdı. 20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqunluqla qarşıladı. Həmin vaxt Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. Bir tərəfdən, iqtisadiyyat dağılaraq tamamilə iflic vəziyyətinə düşmüş, əhalinin maddi durumu isə böhranlı həddə çatmışdı, siyasi burulğanlar, hərc-mərclik burada

da baş alıb gedirdi. Digər tərəfdən isə ermənilərin aramsız hücumları bölgədəki ağır situasiyanı daha da mürəkkəbləşdirmişdi. O zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana olan biganə münasibəti nəticəsində muxtar respublikanın acınacaqlı durumu son nöqtəyə gəlib çatmışdı. Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmişdi, insanlar onun timsalında öz böyük xilaskarlarını tapmışdılar. Naxçıvana gəlişindən az sonra, 1990-cı ilin avqustunda gənclərlə görüşdə Heydər Əliyevin dediyi aşağıdakı sözlər onun əsas amalını konkret şəkildə ifadə edirdi: "Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".

30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başlamışdı. Həmin sessiyada təkcə Naxçıvan üçün deyil, ümumən, Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olunmuşdu. Belə ki, sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarlar qəbul olunmuşdu. Həmçinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında müzakirə edilən ən mühüm məsələlər sırasında 1990-cı ilin 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də var idi. Yeri gəlmişkən, qeyd edək ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi bu tarixi əhəmiyyətli qərarlar xeyli sonra Azərbaycan parlamenti tərəfindən də qəbul olunmuşdu [23, s.15].

Azərbaycanda siyasi şəraitin ağırlaşması, o zamankı ölkə rəhbərliyinin səriştəsizliyi, daxildə çəkişmələrin artması respublikanın dövlət müstəqilliyi üçün təhlükə yaradırdı. Müstəqilliyimizin ilk illərində hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışı tələbi ilə ayağa qalxdı. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişləndi. 1992-ci il oktyabrın 16-da Azərbaycanın bir qrup ziyalısı Heydər Əliyevə müraciətlə Azərbaycanda yeni siyasi partiyanın yaradılmasını və onun bu partiyada iştirak etməsini xahiş edirlər.

Noyabrın 5-də Yeni Azərbaycan Partiyası Təşkilat Komitəsinin yığıncağında Heydər Əliyev Təşkilat Komitəsinin sədri seçildi. Noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və ulu öndər partiyanın sədri seçildi. Qətiyyətlə demək lazımdır ki, Heydər Əliyev şəxsiyyəti, onun Azərbaycana gəlməsi ilə Yeni Azərbaycan Partiyasının yaranması zərurəti meydana gəlmişdi. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının əsas məqsəd və vəzifələrini belə izah edirdi: "Yeni Azərbaycan Partiyası parlament tipli partiyadır və qəbul etdiyi proqrama uyğun olaraq, aşağıdakıları özünün məqsədləri hesab edir: Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; milli, din və dil mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarının bərabər hüquqlara malik olduğu sivilizasiyalı, demokratik, hüquqi dövlət yaradılması. Lakin ön planda Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli dayanır – hər şeydən əvvəl respublikanın genişmiqyaslı xarakter almış müharibə vəziyyətindən çıxarılması, Qarabağ probleminin həll olunması, habelə ağır sosial-iqtisadi böhranın dəf edilməsi" [19, s.366].

Heydər Əliyevin çağdaş tariximizə Milli Qurtuluş günü kimi daxil olmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Milli Məclisinin sədri seçilməsi ilə respublikada demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğunun bünövrəsi qoyuldu. Ümummilli liderin parlamentə sədr seçilməsindən sonra Milli Məclisdə verdiyi bəyanatda müstəqil dövlətçiliyin inkişaf konsepsiyası və yolları sistemli şəkildə açıqlandı. Bu istiqamətdə məqsədyönlü tədbirlərin həyata keçirilməsinə başlandı. 1993-cü ilin iyun-oktyabr ayları və sonrakı dövrdə müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda Heydər Əliyevin mübarizəsi strateji məqsəd daşıyırdı. O, strateji və demokratik yolun mahiyyətini belə səciyyələndirirdi: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə

inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir” [3, s.30].

Xatırladaq ki, 1993-cü ilin iyun ayında Azərbaycanda ictimai-siyasi böhran yaranmışdı, hakimiyyət tam iflic vəziyyətinə düşmüşdü. Respublika idarə olunmurdu, parçalanma və məhvolma qarşısında idi. Belə bir vəziyyətdə Heydər Əliyevin hakimiyyətə qayıdışı bütün bu təhlükəli proseslərin qarşısını birdəfəlik aldı. Ulu öndər Heydər Əliyevin ən böyük xidməti ondan ibarətdir ki, o, Azərbaycan dövlətçiliyini qoruyub saxladı. Dövlətçiliyimizin qorunub saxlanılması isə müstəqilliyimizin, azadlığımızın möhkəmlənməsi deməkdir. O vaxtdan keçən müddət ərzində Azərbaycanda həyatın bir sıra sahələrində pozitiv dəyişikliklər, köklü islahatlar aparılmış, ictimai-siyasi sabitlik təmin edilmiş, demokratiyanın inkişafı yolunda mühüm addımlar atılmışdır. Azərbaycan nüfuzlu və etibarlı tərəfdaş, perspektiv imkanları olan bir dövlət kimi dünya dövlətləri birliyinə daxil olmuş və layiqli yerini tutmuşdur [11, s.13].

Müstəqil, müasir Azərbaycan dövlətini yaratmaq xilaskar kimi ulu öndər Heydər Əliyevə nəsib oldu. Onun 1993-cü ildə hakimiyyətə qayıdışı ilə milli ideologiyamızın əks olunduğu dövlətçilik konsepsiyası hazırlandı. Prezident İlham Əliyevin 21 yanvar 2013-cü il tarixli “Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında” sərəncamında vurğulandığı kimi, “Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissəsidir”.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı respublikamızın mövqelərini və müstəqilliyini daha da möhkəmləndirdi. Çünki böyük rəhbərin hər bir siyasi gedişi gələcəyə hesablanmışdı. 1993-cü ilin iyunundan başlayaraq, bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də tənəzzülün, təhlükəli, dağıdıcı meyillərin qarşısı alındı. Milli təhsil sisteminin bərpası və yeni şəraitin tələblərinə uyğun olaraq inkişaf etdirilməsi üçün əlverişli siyasi, iqtisadi, hüquqi mühit yarandı. Ulu öndər Heydər Əliyevin bir qərinədən artıq davam edən ölkəyə rəhbərlik, millətə liderlik fəaliyyətində təhsilə və elmə, bütövlükdə, xalqın intellektual səviyyəsinin yüksəldilməsinə qayğı bütün dövrlərdə üstün yer tutmuş, prioritet istiqamətlərdən biri olmuşdur. Əslində, Heydər Əliyevin rəhbərliyi ilə tariximizin 34 illik milli intibahı mahiyyət etibarilə xalqın təhsillənmə səviyyəsinin yüksəlişi, fundamental elmin yaranması, milli mədəniyyətin tərəqqisi ilə sıx bağlı olmuşdur.

Dövlətin, millətin həyatında təhsil kimi eynən mühüm əhəmiyyət kəsb edən sahələrdən biri də iqtisadiyyatdır. Güclü, inkişaf etmiş iqtisadiyyat güclü, qüdrətli dövlət deməkdir. Azərbaycanda neft sənayesi yalnız müstəqil Azərbaycan Respublikasının yaranmasından sonra xalqın milli sərvətinə, malına çevrilmişdir. Neft Azərbaycanın gələcək inkişafı üçün əsas, təməl, bünövrədir. 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Bakıda, “Gülüstan” sarayında Xəzər dənizinin Azərbaycan sektorunda olan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarından birgə neft çıxarılması haqqında ilk neft müqaviləsi imzalandı. Bu müqavilə dünyada böyük əks-səda doğurdu. Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixinin şanlı səhifəsini açdı. Sonradan haqlı olaraq “Əsrin müqaviləsi” adlandırılan bu saziş həqiqətən müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. “Əsrin müqaviləsi” adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük siyasətçi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Azərbaycanın “Əsrin müqaviləsi”ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: “1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir”.

Ulu öndər neft sənayesinin zəngin tarixini yığcam şəkildə qeyd etməklə Azərbaycanın müstəqillik qazanması ilə neft sənayesində də yeni bir dövrün, mərhələnin başlandığını göstərdi. Bu mər-

halədə xalqımız artıq öz təbii sərvətlərindən istifadə etmək imkanları qazanmışdı. Azərbaycan Respublikası müstəqil dövlət idi, Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibi idi. Bu sərvətlərdən özünün istədiyi kimi istifadə edə bilərdi. Xalqın istək və arzularının həyata keçirilməsi, respublikanın gələcəyi Heydər Əliyevin əsas qayəsi idi. Müqavilənin hazırlanmasının ilk günündən imzalanmasına qədər bütün proseslərdə bu qayə onun bütün müddəalarını birləşdirən mərkəzi xətt kimi Prezidentin həmişə diqqət mərkəzində olmuşdu.

Neft müqaviləsi – "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev böyük iftixarla bildirirdi: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər" [2, s.262].

Böyük rəhbərimizin uzaqgörən siyasəti nəticəsində birinci neft müqaviləsindən sonra xarici dövlətlərin iri neft şirkətləri ilə digər müqavilələr də imzalandı. Əgər 1994-cü il sentyabrın 20-də 7 ölkədən 11 böyük neft şirkəti ilkin müqavilə imzalamışdısa, 1997-ci ilin noyabrına kimi əlavə 8 neft-qaz yatağında müştərək işləmək üçün müqavilələr imzalanmışdı. Belə ki, həmin vaxtda artıq Xəzərin Azərbaycan sektorunda imzalanmış müqavilələrdə 12 ölkədən 20 böyük neft şirkəti iştirak edirdi.

Heydər Əliyevin dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Əslində, ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil Azərbaycanın dövlətçiliyi üçün qaranta deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə ölkədə qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsi subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi və onun şəxsi siyasi maraqlar əsasında formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyi idi. Yalnız Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə aparıldı və son nəticədə, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit, güclü silahlı qüvvələrin yaradılmasına nail olundu.

Bu gün Azərbaycan öz texniki və maddi təchizatına görə başqa dövlətlərin silahlı qüvvələrindən heç də geri qalmayan hərbi qüvvələrə sahibdir. Bu da Heydər Əliyevin yürütdüyü ardıcıl və məqsədyönlü siyasətinin əsas nəticələrindən biridir. Azərbaycan Silahlı Qüvvələri dövlətin ərazi bütövlüyünün təminatçısı olmaqla yanaşı, həm də beynəlxalq hərbi qurumlarla bərabərtərəfli əməkdaşlıq edir. Heydər Əliyevin səyləri nəticəsində Azərbaycanda Silahlı Qüvvələr üçün milli kadr potensialının yaradılması istiqamətində ciddi işlər görülmüşdür. Dünyanın ən nüfuzlu hərbi məktəblərinə təhsil almağa göndərilən gənclərimiz Azərbaycanın müstəqilliyinin əsas qarantlarından biri olan ordunun güclənməsində mühüm rol oynayacaqdır.

Heydər Əliyevin hakimiyyətə gəlməsinə qədər ictimai-siyasi mühitin kəskinləşməsinə təsir edən faktorlardan ən başlıcası heç şübhəsiz Ermənistan silahlı qüvvələrinin bir-birinin ardınca Azərbaycan ərazilərini işğal etməsi və bundan irəli gələn mənəvi-psixoloji, hərbi-siyasi böhran idi ki, bu da nəticə etibarı ilə ictimai həyatda dərin iz buraxırdı. Ulu öndər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və ədalətli şəkildə həll olunması, ümumiyyətlə Qafqaz regionunda bütün münaqişəli durumların dinc vasitələrlə və danışıqlarla çözülməsi, beləliklə də regionun sülh və sabitlik regionuna çevrilməsi istiqamətində yorulmadan çalışırdı.

Qeyd etdiyimiz kimi, XX əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyev iki siyasi-ictimai quruluşda, iki sistemdə Azərbaycana uğurla rəhbərlik etmişdir. Hər iki dövrdə onun rəhbərliyinin əsas qayəsi ondan ibarət olmuşdur ki, xalqımızın sosial, iqtisadi və mədəni inkişafı, ölkəmizin müstəqil bir dövlət kimi yaşaması və möhkəmlənməsi təmin edilsin. Heydər Əliyevin bir rəhbər kimi, dövlət başçısı kimi, siyasi xadim kimi həyatı və fəaliyyəti böyük bir təcrübə məktəbidir. Ulu öndərin rəhbərliyi altında müstəqil Azərbaycanda dövlət quruculuğu, sosial-iqtisadi, mədəni quruculuq sahəsində proqramın həyata keçirilməsi təcrübəsi, habelə respublikamızın beynəlxalq aləmdə mövqeyinin müəyyən edilməsi və möhkəmləndirilməsi sahəsində uğurlar müstəqillik qazanmış ölkələr, dövlətlər

üçün də bir təcrübə məktəbidir. Onun Prezidentliyə qədər və sonradan bir dövlət başçısı kimi həyat və fəaliyyəti böyük bir siyasi, dövlətçilik və idarəçilik məktəbidir.

Siyasi fəaliyyətinin bütün mərhələlərində Vətənə, xalqa, torpağa sonsuz məhəbbət hissi, qurub-yaratmaq amalı ilə yaşamış ümummilli lider Azərbaycanın gələcəkdə daha qüdrətli dövlət olması üçün ölkəyə rəhbərliyə layiq ola biləcək namizədini də tövsiyə etmişdir. Vətənini canından artıq sevən ulu öndər 2003-cü il prezident seçkilərindən öncə xalqa müraciətində bildirmişdir: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatının gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [25].

Hesab edirəm ki, tariximizin ən yeni mərhələsində 2003-cü ildən sonrakı dövr İlham Əliyev dövrünün parlaq fəaliyyəti və uğurlu illəri kimi yadda qalacaqdır. Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi ötən müddət Azərbaycanın şanlı tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olmuşdur. Məlum olduğu kimi, ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin fundamentini ümummilli lider Heydər Əliyevin inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti təşkil edir. Hazırlanan dövlət proqramları, onların dəqiq icra mexanizmi bütün xalq tərəfindən dəstəkləndiyindən ölkəmizin sürətli inkişafı üçün əlverişli şərait yaranmışdır. Dövlətimizin əsaslarının möhkəmləndirilməsi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz İlham Əliyevin varislik keyfiyyətləri, müdrikliyi, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə, rasional davranış modeli sayəsində mümkün olmuşdur. Prezident İlham Əliyev şəxsiyyəti müasir cəmiyyətdə liderlik fenomeninin ən önəmli və qabarıq cəhətlərini özündə birləşdirir.

Bu gün Azərbaycan Respublikası Heydər Əliyevin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Son 19 ildə Heydər Əliyev siyasətinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanın ən yüksək zirvələri fəth etməsini stimullaşdırmışdır. Prezident kimi fəaliyyətə başladığı gündən xalqı qarşısında görəcəyi işlərin prioritetlərini açıqlayan cənab İlham Əliyev "Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm" söyləyərək, bu vədini əməli işi ilə təsdiqlədi. 2003-2018-ci illərdə gördüyü işlər, qazanılan uğurlar onun 2018-ci il prezident seçkilərində yenidən qələbəsini təmin etdi. Dövlətimizin başçısı İlham Əliyevin qeyd etdiyi kimi, son illərin statistikası Azərbaycanın hərtərəfli inkişafı barədə aydın təsəvvür yaradır. Bu gün ölkəmizin sürətli inkişafı yeni-yeni istiqamətləri əhatə edir və regionda lider dövlət olduğunu təsdiqləyir. Azərbaycanın Cənubi Qafqaz regionu iqtisadiyyatının 85 faizinə sahib olması uğurlu sosial-iqtisadi islahatlara əsaslanır. Ölkəmiz beynəlxalq maliyyə qurumlarının hesabatlarında da liderliyini qoruyur.

Bu reallıq inkaredilməzdir ki, Azərbaycanın son on doqquz ildə müşahidə etdiyimiz möhtəşəm, əzəmətli inkişafı cənab İlham Əliyevin adı və onun bilavasitə həyata keçirdiyi siyasətlə bağlıdır. Bunun üçün kifayət qədər ciddi əsas mövcuddur. Ümummilli liderimizin alternativi olmayan düşünülmüş daxili və xarici siyasəti bu gün onun siyasi varisi, Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi və davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezidentimiz dəfələrlə bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ölkədə yalnız Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Çünki bu, Azərbaycanın bu günü, sabahı, gələcəyi üçün yeganə siyasətdir. Bu siyasətin heç bir alternativi yoxdur. Bu siyasət Azərbaycanı böyük bəlalardan xilas etmişdir. Ölkəmiz xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru böyük addımlar atmışdır. Məhz ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda dövlətçilik ənənələri yaradılmışdır və tam haqlı olaraq Heydər Əliyev müasir, müstəqil Azərbaycanın memarı sayılır. Hörmətli Prezidentimiz demişdir: "Bizim qarşımızda nadir imkanlar var. Sabah, ondan sonrakı illərdə Azərbaycan necə olacaq - bu, bizdən asılıdır. Elə etməliyik ki, güclü dövlət yaradaq, müstəqilliyimizi daha da möhkəmləndirək. Azərbaycanın potensialını tam şəkildə insanların həyat səviyyəsinin yaxşılaşmasma yönəldək və beləliklə, ölkəmizdə vətəndaş cəmiyyəti yaradaq. Azad cəmiyyət,

hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, güclü ordu, çevik xarici siyasət və Azərbaycanın maraqlarının tam şəkildə qorunması və möhkəmlənməsi - bu, bizim qarşımızda duran əsas qlobal istiqamətlərdir” [4, s.62].

Ölkə rəhbərliyi tərəfindən gənclərin vətəndaşlıq tərbiyəsi və cəmiyyətdə iştirakı, intellektual və yaradıcı gənclərin inkişafı üçün şərait yaradılması, gənclərin təşəbbüslərinin dəstəklənməsi, gənclər siyasəti infrastrukturunun təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, regionda yaşayan gənclərin fəallığının artırılması məsələlərinə daim xüsusi diqqət yetirilir. Gənclər, bədən tərbiyəsi və idman siyasətini tənzimləyən hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə “2014-2024-cü illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”, “Azərbaycan Respublikasında bədən tərbiyəsi və idmanın inkişafı üzrə 2014-2020-ci illər üçün Milli Strategiya”nın layihələri hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli prioritetlər qismində modernləşmənin ambisiyalı hədəflərini irəli sürərək, hesab edir ki, onları “yalnız bütün Azərbaycan sosiumunun iştirakı ilə həyata keçirmək olar”, bu isə ictimaiyyətlə əlaqələrin inkişafını mühüm siyasi vəzifə kimi önə çəkir. Ölkəmizin dayanıqlı sosial-iqtisadi inkişafına əsasən qeyd edə bilərik ki, dövlətin və xalqın vəzifələri siyasi sistemin bütün səviyyələrində üst-üstə düşür. Azərbaycanda vətəndaş cəmiyyətinin və hüquqi dövlətin fəaliyyət göstərməsinin demokratik prinsipləri ölkəmizdə xalq və dövlət arasında konstruktiv əlaqələr mədəniyyətini formalaşdırır. Ümummilli liderimiz Heydər Əliyev milli inkişaf dəyərlərinin təsdiqi əsasında bu cür əlaqələrin konstruktivliyinin mühüm təminatçısı olmuşdur, bu ənənəni hazırda prezident İlham Əliyev inkişaf etdirir. Belə ki, zaman da, qazanılmış siyasi kapital da – ideya, resurs və kadrlar Azərbaycanın xeyrinə işləyir, dövlətin möhkəmlənməsinə xidmət edir. Lakin heç şübhəsiz ki, ən başlıcası həmin resurslardan düzgün istifadə edilməsi üçün qərar qəbul edən siyasi lider faktorudur.

Ölkə rəhbəri İlham Əliyevin milli-mənəvi dəyərlərə münasibəti də ümummilli liderin azərbaycançılıq ideologiyası əsasında formalaşmışdır.

Bu gün güclü, demokratik, hüquqi dövlət quruculuğuna əsaslanan Azərbaycan Respublikası bir çox nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkan kimi tanınmaqdadır. 2011-ci ildən başlayaraq paytaxtımızda keçirilən Bakı Beynəlxalq Humanitar forumları, həmçinin Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, Dünya Dini Liderlərinin II sammiti, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobal miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisələr kimi daxil olmuşdur. 2015-ci ildə ilk Avropa Oyunları Bakıda yüksək səviyyədə keçirildi. 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları da məhz Azərbaycan paytaxtında təşkil olundu. Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü, Qoşulmama Hərəkatına üzv ölkələrin xarici işlər nazirlərinin “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusunda konfransı mühüm əhəmiyyət kəsb etmişdir. Artıq dünyanın, beynəlxalq aləmin nəzərlərinin Azərbaycana dikilməsi ənənə halını almışdır.

Ümummilli lider Heydər Əliyevin alternativi olmayan daxili və xarici siyasətinin, strateji və siyasi xəttinin görkəmli şəxsiyyət, dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində bu gün Azərbaycan dinamik inkişaf edən ölkəyə çevrilmiş, beynəlxalq aləmdə etibarlı tərəfdaş imici qazanmışdır. Ölkəmizdə təhlükəsizlik tədbirləri təmin edilir, Azərbaycan xalqı sülh, əmin-amanlıq şəraitində yaşayır. Ölkəmizdə sabitliyin mənbəyinin xalqımızın iradəsi, xalqımızın seçimi olduğunu, bu gün ölkəmizin dünya miqyasında sabitliyi ilə seçilən ölkələrdən biri olduğunu qeyd edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözlərinə görə, Azərbaycan öz yoluna sadiqdir, müstəqillik, inkişaf yolu ilə gedir və biz çalışmışıq və çalışacağıq bundan sonra da ölkəmizi, xalqımızı mümkün olan risklərdən qoruyaq, öz müstəqil yolumuzu təmin edək. Artıq tarix və ətrafda baş verən hadisələr göstərir ki, bizim seçdiyimiz yol yeganə düzgün yoldur. Bu, müstəqillik yoludur, sabitlik, inkişaf yoludur: “Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda

beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur" [6].

Dövlətimizin başçısının qeyd etdiyi kimi, iqtisadi göstəricilərimiz də çox müsbətdir. 2022-ci ilin birinci rübünün yekunları faktiki olaraq heç bir şərhə ehtiyac qoymur. Ümumi daxili məhsul 6,8 faiz artıb. Hazırda dünya postpandemiya dövrünə qədəm qoyur və bəlkə də "postpandemiya" sözünü işlətmək bir qədər tezdir. Amma hər halda, dünyadakı və Azərbaycandakı indiki vəziyyət buna işarə verir. Ona görə də 6,8 faiz artan iqtisadiyyatımız böyük nailiyyət sayıla bilər. Qeyri-neft sektorunda isə bu, daha da yüksək rəqəmlərlə ölçülür. Qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox artıb. Sənaye istehsalı sahəsində artım təxminən 4 faizdir, ancaq qeyri-neft sənaye istehsalında 18 faizdən çoxdur. Bu rəqəmlər özlüyündə dediyim sözlərin təsdiqidir. Çünki iqtisadiyyatın şaxələndirilməsi, neft-qaz sektorundan asılılığın azaldılması, həm ümumi daxili məhsuldakı payının, həm ixracdakı payının aşağı düşməsi – bütün bunlar reallıqlardır.

Xarici ticarət dövriyyəmiz 60 faizdən çox artıb. İxracımız təxminən iki dəfə artıb. Əlbəttə, burada neftin artan qiymətləri də nəzərə alınmalıdır. Ancaq qeyri-neft ixracımız da kifayət qədər artıb – 45 faiz. Bu da məhz aparılan islahatlar nəticəsində baş vermiş hadisədir [6].

Hazırda ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan siyasətinin və ideyalarının möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən hədsiz qürur hissi keçiririk. Bu uğurları davamlı olaraq biz həyatımızın bütün sahələrində görürük və hərbi sahə də istisna deyil. Ümummilli liderimiz Heydər Əliyevin yaratdığı və formalaşdırdığı Azərbaycan Milli Ordusu hazırda dünyanın güclü ordularından biri hesab edilir. Bu ordu işğal altında olan torpaqlarımızın tamamilə azad edilməsi üçün əsl qəhrəmanlıq göstərmiş, Vətənin ərazi bütövlüyünün bərpa edilməsi naminə döyüşlərə atılaraq böyük ruh yüksəkliyi və şücaət nümayiş etdirmişdir.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bir neçə il öncə - 2016-cı ildə cəbhə xəttində rəşadətli Azərbaycan ordusunun əks-hücumu və düşmənə vurduğu ağır zərbələr nəticəsində erməni silahlı birləşmələri ciddi itki – həm canlı qüvvə və həm də texnika sarıdan – verərək geri çəkilmişdilər. İgid əsgərlərimiz bir neçə strateji yüksəkliyi və yaşayış məntəqəsini ələ keçirmiş və üçrəngli bayrağımızı düşməndən azad edilmiş həmin ərazilərimizdə dalğalandırmışlar. Bütün bunlar digər sahələrdə olduğu kimi, hərbi sahədə də ölkə rəhbərliyi tərəfindən uğurlu siyasət aparıldığını sübut edir. Bunu 2016-cı ilin aprel döyüşləri də, 2018-ci ildə Naxçıvanda "Günnüt" əməliyyatı da, 44 günlük Vətən müharibəsi də sübut etdi. Möhtərəm Prezidentimiz İlham Əliyev ulu öndərin siyasətinə sadiq qalaraq, torpaqlarımızın bir qarışının da düşmənə verilməyəcəyini, Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına xalqımızın heç vaxt yol verməyəcəyini qətiyyətlə bəyan edirdi və sözünün üstündə də qaldı. 44 gün sürən və işğalçı Ermənistanın təslim olması ilə başa çatan bu qalibiyyət müharibəsi məğrur və qətiyyətli sərkərdəmiz – Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, ölkə Prezidenti İlham Əliyevin başçılığı ilə igid və cəsur Azərbaycan hərbçilərinin - əsgər və zabitlərinin, Azərbaycan xalqının layiq olduğu qələbə ilə dünya hərb tarixinə həmişəlik yazıldı. Nə qədər xoşbəxtik ki, bizlər də bu böyük və şanlı tarixi hadisənin – 30 il sürən işğalın başa çatmasının, əzəli və müqəddəs torpaqlarımızın erməni hərbi birləşmələrinin tapdağından azad edilməsinin, hərbçilərimizin misilsiz qəhrəmanlıqlarının, əsgərlərimizin hər addımda göstərdikləri igidlik və şücaətlərin canlı şahidi olduq [18, s.4].

2020-ci il noyabrın 10-da imzalanmış Birgə bəyanata əsasən, Azərbaycanın Kəlbəcər, Ağdam və Laçın rayonları bircə güllə belə, atılmadan azad edildi. Bu, Azərbaycanın hərbi qələbədən sonra onun davamı olan diplomatik-siyasi qələbəsi idi. Güclü dövlətin, güclü ordunun şərtləri kapitulyasiya edilmiş Ermənistana diqtə edildi və ölkəmiz qələbənin tamlığını, bütövlüyünü təmin etdi.

Ermənilər işğal altında saxladıqları bütün şəhər və kəndlərimizdə tarixi, dini, memarlıq abidələrini tamamilə və qismən dağıtmış, dini abidələri saxtalaşdırmışar. İşğaldan azad edilmiş Azərbaycanın şəhər və rayonları, kənd və qəsəbələri büsbütün dağıdılmış vəziyyətdədir. Müsair dünyada ermənilərin azərbaycanlılara qarşı törətdiklərin vəhşiliklərin heç bir analoqu yoxdur. İşğaldan azad edilmiş və düşmən tərəfindən demək olar ki, tamamilə dağıdılıb viran edilmiş Azərbaycan ərazilərinin bərpa edilməsi və yenidən ölkəmizin inkişaf etmiş digər regionları səviyyəsinə qaldırılması ölkə

rəhbərliyinin ən prioritet hesab etdiyi məsələlərdəndir. Cənab Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, “Biz son illər ərzində çox böyük uğurlara imza atmışıq. Ölkəmizin həm siyasi, həm iqtisadi sahələrdə uğurları bu gün beynəlxalq təşkilatlar tərəfindən də qəbul edilir. Beynəlxalq arenada böyük uğurlar əldə edilib. Azərbaycan bu gün çox güclü bir ölkəyə çevrilib. Ölkə daxilindəki bütün məsələlər öz həllini tapır. Əlbəttə ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ölkəmizə yeni nəfəs verəcək...” [7].

Ulu öndər 2003-cü oktyabrın 1-də Azərbaycan vətəndaşlarına ünvanladığı yuxarıda xatırlatdığım müraciətində deyirdi ki, İlham Əliyev Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. O, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə başa çatdıra biləcək. Biz hamımız müdrik siyasətçinin proqnozlarının gerçəkləşməsinin şahidi olduq. İlham Əliyev əbədi rəhbərimizin bütün ideyalarını, daxili və xarici siyasətini uğurla davam etdirir. O, ulu öndərin ata vəsiyyətini də yerinə yetirdi və Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Ordumuzun Ali Baş Komandanı İlham Əliyev Şuşanın alınması münasibətilə xalqımızı təbrik edərkən bu məsələyə də toxunmuşdur: “...Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!” [18, s.99].

***Nəticə***. Ümummilli liderimiz Heydər Əliyev strategiyasının ardıcıl şəkildə davam etdirildiyi Azərbaycan Respublikası hazırda sürətlə, davamlı şəkildə bütün sahələr üzrə inkişaf etməkdədir. Bunun yeganə səbəbi isə Prezident cənab İlham Əliyev tərəfindən ulu öndərin müdrik və alternativi olmayan siyasətinin uğurla davam etdirilməsində, Heydər Əliyev ideyalarına sadiqlikdə və xalqın da bu siyasəti dəstəkləməsindədir. İqtisadi, sosial, mədəni və həyatımızın digər vacib sferalarında həmçinin müşahidə olunan tərəqqi, vətəndaş həmrəyliyi, sosial rifah ölkə vətəndaşlarının istək və arzularına uyğun şəkildə təmin olunur. Bu baxımdan, Azərbaycanda bərqərar olmuş ictimai-siyasi sabitlik, tolerant mühit, multikulturalist cəmiyyət bir daha sübut edir ki, ölkəmiz düzgün yoldadır.

Dövlətimizin başçısı Azərbaycanın seçdiyi yolun yeganə düzgün yol olduğunu vurğulayaraq demişdir: “Bugünkü Azərbaycan uğurla inkişaf edir. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir. 1993-2003-cü illərdə siyasi sistemin möhkəmlənməsi, dövlətçilik ənənələrinin yaradılması, azərbaycançılıq məfkurəsinin bərqərar olunması nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edən ölkəyə çevrilibdir. O illərdə həm siyasi islahatlar, dünya birliyinə inteqrasiya siyasətimiz, həm daxildə aparılan iqtisadi və sosial islahatlar uğurlu inkişaf üçün möhkəm zəmin yaratmışdır. Bu gün müasir Azərbaycan bu möhkəm təməl üzərində uğurla inkişaf edir. Azərbaycan bu gün Heydər Əliyev yolu ilə gedir. Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır və özünü bütün istiqamətlərdə göstərir”.

Fəxr edirik ki, ümummilli liderimiz, müasir Azərbaycanın memarı, əbədi rəhbərimiz Heydər Əliyevin misilsiz, alternativi olmayan daxili və xarici siyasətini və ideyalarını möhtərəm cənab Prezident İlham Əliyev 2003-cü ildən etibarən uğurla davam etdirir. Məhz bu uğurlu fəaliyyət ölkənin beynəlxalq aləmdəki nüfuzunu möhkəmləndirir, Azərbaycanın etibarlı tərəfdaş olduğunu sübut edir, ölkə vətəndaşlarının dövlət başçısının ətrafında getdikcə daha sıx birləşməsinə səbəb olur. Qətiyyətlə demək olar ki, məhz bu düşünülmüş siyasət respublikada dayanıqlı inkişafı, Azərbaycan xalqının rifah halının yüksəlməsini, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini, əzmlə aparılan dövlət quruculuğunu hərtərəfli təmin edir.

Qürurluyuq ki, bu gün Azərbaycan xalqı müstəqilliyimizin memarı və qurucusu Heydər Əliyevin dövlətçilik xəttini çox böyük müvəffəqiyyətlə irəli aparan ölkə başçısı İlham Əliyevin rəhbərliyi altında, ulu öndərin milli dövlətçilik ideyalarını əsas tutaraq müstəqillik yolu ilə inamla və dayanmadan irəliləyir.

Azərbaycan xalqı xoşbəxtdir ki, ümummilli liderimizin alternativi olmayan düşünülmüş və müdrik siyasəti bu gün hörmətli prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan xalqı xoşbəxtdir ki, vətənimizin bundan sonrakı sürətli tərəqqisi etibarlı əllərdədir. Azərbaycan xalqı xoşbəxtdir ki, xalqını dərindən sevən prezidenti ilə əl-ələ verib qüdrətli dövlət, güclü Azərbaycan, inkişaf etmiş cəmiyyət qurur!

ƏDƏBİYYAT

1. Əliyev Heydər. Müstəqilliymiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. İkinci kitab. Bakı: Azərnəşr, 1997, 604 s.
3. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
4. Əliyev İlham. İqtibaslar və təhlil. Bakı: Azərbaycan, 2006, 328 s.
5. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.
6. İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. - https://president.az/az/articles/view/55780 [Müraciət tarixi: 01.06.2022].
7. İlham Əliyev "BBC News"a müsahibə verib. - https://president.az/articles/45845 [Müraciət tarixi: 05.06.2022].
8. Hüseynova İradə. Tarix. Zaman. Düşüncələr. I cild. Bakı: Elm və təhsil, 2016, 512 s.
9. Hüseynova İradə. Müstəqilliyimizin təminatçısı. Bakı: Təhsil, 2003, 504 s.
10. Hüseynova İradə. Dövlətçilik naminə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2001, 294 s.
11. Hüseynova İradə. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: "Təhsil", 2004, 472 s.
12. Hüseynova İradə. Siyasi kurs: davamlılıq konsepsiyası // Dirçəliş – XXI əsr, 2007, № 110-111, s.70-81.
13. Hüseynova İradə. Liderlik missiyası //Strateji təhlil, 2013, sayı 6, s.29-45.
14. Hüseynova İradə. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, s.472.
15. Hüseynova İradə. Lider missiyası // "Tarix və onun problemləri, №2, 2013, s.46-58.
16. Hüseynova İradə. Azərbaycan dövlətçiliyi tarixində Heydər Əliyev iris // «Dirçəliş-XXI əsr» jurnalı, №88-89, 2004, s.31-45.
17. Hüseynova İradə. Müasir dövrdə Qafqazda inteqrasiya prosesi: real durum, problemlər və perspektivlər. *Azərbaycanın mühüm tədris və tədqiqat mərkəzi (məqalələr toplusu)*. Bakı: Adiloğlu nəşriyyatı, 2002, s.32-46.
18. Hüseynova İradə. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı, "Füyuzat", 2021, 224s.
19. Qətiyyətin təntənəsi / müəl. tərt. Ş.Yaqubov; red. M.Süleymanzadə. Bakı: "Səhər" qəzetinin nəşri, 1995, 846 s.
20. Prezident İlham Əliyev Münxen təhlükəsizlik konfransı çərçivəsində "Şaxələndirmə strategiyaları" mövzusunda "dəyirmi masa"da iştirak edib / Respublika, 7 fevral 2015-ci il.
21. Rusiya Federasiyasının Dövlət Arxivi, Fond 7523, siyahı 134, iş 184, vərəq 107.
22. Bəşəriyyətə qarşı amansız cinayət // Azərbaycan, 18 fevral 2014.
23. İsmayıl Hacıyev. Dünya şöhrətli siyasətçi Heydər Əliyev və Naxçıvan // Tarix və onun problemləri, 2013, № 2, s.13-19.
24. 14 iyul 1969-cu il – milli tariximizin dönüş anı // Səs, 13 iyul 2015
25. Sülh və sabitlik prezidenti // http://azertag.az/xeber/SULH_VA_SABITLIK_PREZIDENTI-320061 [Müraciət tarixi: 01.06.2022].
26. Гусейнова Ирада. Мультикултурализм и его практическая реализация на Кавказе // Geostrategiya, 2013, № 06 (18), noyabr - dekabr, s.21-24.
27. Гусейнова Ирада. Гейдар Алиев от политического руководителя к общенациональному лидеру. Баку, «Тахсил», 2005, 504 с.

**ИРАДА ГУСЕЙНОВА**
*Зав.кафедрой «История народов Кавказа» Бакинского Государственного Университета,*
*Доктор исторических наук, профессор*

## УСПЕШНАЯ ПОЛИТИКО-ИСТОРИЧЕСКАЯ ФОРМА НАСЛЕДИЯ В АЗЕРБАЙДЖАНЕ: ОБРАЗЦОВАЯ МОДЕЛЬ ДЛЯ МИРА

В статье рассматривается историческая роль Гейдара Алиева в развитии независимого Азербайджана и акцентируется внимание на достижениях в различных областях. Анализируется исторически значимая деятельность Общенационального лидера Гейдара Алиева и

Президента Ильхама Алиева по укреплению государственности. Научно обосновывается исторический факт продолжения сегодня продуманной, не имеющей альтернативы, внутренней и внешней политики Общенационального лидера его политическим преемником, достойным последователем политической школы Гейдара Алиева, Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Автор подчеркивает, что укрепление основ нашего государства и эффективность реализуемой стратегии стали возможны благодаря качествам политической преемственности, мудрости, политической воли и дальновидности, в целом, модели рациональных действий Ильхама Алиева.

В статье с большим воодушевлением отмечается обеспечение территориальной целостности Азербайджана в результате Второй Карабахской войны, освобождение наших земель от оккупации. Согласно анализу итогов войны, азербайджанское руководство одержало важную победу как в военной, так и в дипломатической сферах. По мнению автора, социально-экономическое развитие Азербайджана сегодня приобрело динамичный характер в результате напряженной работы, усилий, целеустремленности Президента Ильхама Алиева, его опоры на внутреннюю и внешнюю политику Великого Лидера - политической преемственности.

*Ключевые слова*: общенациональный лидер, мудрая политика, концепция развития, качество преемственности, президент Азербайджана, 44-дневная война, постконфликтный период.

**IRADA HUSEYNOVA**
*Department of "History of the Caucasian peoples" of Baku State University*
*doctor of historical sciences, professor*

## SUCCESSFUL POLITICAL-HISTORICAL INHERITANCE FORM IN AZERBAIJAN: A SAMPLE MODEL FOR THE WORLD

İt is researched the historical role of Heydar Aliyev in the development of independent Azerbaijan and focuses on the achievements in various fields in the article. The historically significant activities of national leader Heydar Aliyev and President Ilham Aliyev to strengthen statehood are analyzed. Today, the well-thought-out domestic and foreign policy of the national leader, which has no alternative, is scientifically substantiated by his political successor, the worthy successor and successor of the Heydar Aliyev political school, President of the Republic of Azerbaijan Ilham Aliyev. The author emphasizes that the strengthening of the foundations of our state and the effectiveness of the implemented strategy is possible due to the qualities of Ilham Aliyev's political succession, wisdom, political will and foresight, in general, the model of rational behavior.

The article notes with great enthusiasm the provision of the territorial integrity of Azerbaijan as a result of the Second Karabakh War, the liberation of our lands from occupation. According to the analysis of the results of the war, the Azerbaijani leadership has won an important victory in both the military and diplomatic spheres. According to the author, today the socio-economic development of Azerbaijan has become dynamic as a result of the hard work, efforts, determination of President Ilham Aliyev, his reliance on the great leader's domestic and foreign policy - his political legacy.

*Keywords*: national leader, wise policy, development concept, quality of inheritance, President of Azerbaijan, 44 days of war, post-conflict period.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Leyla Vaqifqızı, t.e.d. Qabil Əliyev.*

**UOT 32:93/94**

**İRADƏ NURİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin*
*"Humanitar fənlər"kafedrasının professoru, siyasi elmlər doktoru*
**iradanuri@gmail.com**

# "ZƏFƏR TARİXİ"NİN MEMARI İLHAM ƏLİYEVİN AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN VƏ CƏNUBİ QAFQAZDA SÜLHÜN TƏMİN OLUNMASI İSTİQAMƏTİNDƏ FƏALLİYƏTİ

*Məqalədə Azərbaycanın hərb yolu və masaüstü danışıqlar aparılması nəticəsində ərazi bütövlüyünü bərpa etməsi və 44 günlük İkinci Qarabağ müharibəsində əldə etdiyi Zəfər tarixi və 10 Noyabr kapitulyasiya aktı öz əksini tapmışdır. Bu Qələbə 1993-cü ildən bu günə kimi həm Ulu Öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev tərəfindən ordumuzun ən müasir səviyyədə qurulması və inkişafı nəticəsində həyata keçirildi. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyev bir Lider kimi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapan milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Məqalə Respublika Prezidentinin Cənubi Qafqazda mövcud olan siyasi münaqişənin aradan qaldırılması, sülhün və əmin-amanlığın bərpası, Ermənistanla Azərbaycan arasında əməkdaşlığın səmərəli inkişafı üçün Azərbaycan dövətinin uğurla həyata keçirdiyi xarici siyasətindəki fəaliyyətini şərh edir.*

*Açar sözlər*: Müzəffər Ali Baş Komandan, Zəfər tarixi, ərazi bütövlüyü, sülh, əmin-amanlıq, əməkdaşlıq.

***Giriş***. Hər bir dövlət ərazisi hüdudlarında "ərazi üstünlüyü hüququ" pozulduğu təqdirdə pozulmuş hüququnu bərpa etmək üçün dövlət suverenliyini təhdid edən və pozan dövlətə, silahlı birləşmələrə qarşı müharibə elan etmək hüququna malikdir.

30 ildən artıq idi ki, Azərbaycan ərazisinin 20%-nin Ermənistan və Dağlıq Qarabağın silahlı erməni dəstələri tərəfindən işğal edilməsinə beynəlxalq birliyin laqeyd və ikili standartlardan yanaşması dövlətimizi 2020-ci il 27 sentyabr-10 noyabr tarixlərində İkinci Qarabağ müharibəsində döyüş meydanında hərb yolu ilə, siyasi müstəvidə isə danışıqlar yolu ilə öz ərazi bütövlüyünün bərpasına məcbur etdi.

Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı 44 günlük Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazdı. Bu müharibə xalqımızın milli həmrəyliyinin, öz hüquqları uğrunda mübarizə əzminin nümayişi idi. Bu Qələbə Azərbaycanda 1993-cü ildə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən son 17 ildə ən müasir tələblər səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə düşdü.

2020-ci ilədək Azərbaycanın müdafiə sisteminin gücləndirilməsi, Silahlı Qüvvələrin bütün qoşunlarında aparılan islahatlar İlham Əliyevin vədinə sadiqliyini təsdiqləyir. Bu illər ərzində İlham Əliyevin xüsusi nəzarəti, tapşırıq, göstəriş və təşəbbüsləri ilə ilk növbədə təhlükəsizlik siyasətini həyata keçirən və bu istiqamətdə praktik fəaliyyət göstərən strukturlar tərəfindən ordunun yüksək döyüş hazırlığı səviyyəsinə çatdırılması istiqamətində intensiv, səmərəli və məqsədyönlü iş aparılıb. Belə ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə qarşıda duran əsas vəzifələrdən biri ordunu gücləndirmək, onun döyüş qabiliyyətini daim artırmaq, modernləşdirmək və ən müasir hərbi texnologiyalara yiyələnmək olub. Bundan irəli gələrək Azərbaycanın maliyyə imkanlarının artırılması nəticəsində Silahlı Qüvvələrin bütün qoşunlarının döyüş imkanlarının artırılması istiqamətində qabaqcıl dövlətlərlə uğurlu əməkdaşlıq əlaqələri yaradıldı. Quru qoşunlarının, Hərbi Hava Qüvvələrinin və hava hücumundan müdafiə sistemlərinin döyüş imkanları ən müasir tələblər səviyyəsinə çatdırıldı. Bu mənada İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Azərbaycan nümunəsinin əsas göstəricilərindən biri də ordumuzun güclənməsi, döyüş qabiliyyətinin artırılması idi.

Prezident İlham Əliyev rəhbərlik etdiyi çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarına əsaslanan müstəqil siyasətin müəllifidir. Bu siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi qüdrətində, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusən də tarix yazan güclü ordusunda öz təsdiqini tapdı. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı Ermənistanın işğalçı silahlı birləşmələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirdi. Noyabrın 8-də Qarabağın incisi, Azərbaycanın qədim şəhəri Şuşanın müasir hərb elmində ən nadir və unikal əməliyyatlardan birinin həyata keçirilməsi nəticəsində azad edilməsi düşmənin müqavimət potensialını sarsıtdı. Nəticədə noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyan tərəfindən imzalanmış üçtərəfli Bəyanat regionda mövcud olan uzunmüddətli münaqişənin hərbi mərhələsinə son qoydu və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiyası aktı oldu. 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, 1 dekabrda Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid vermədən işğaldan azad edildi. Ordumuzun tarixi qələbəsi heç bir halda təsadüfi deyildi və Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi dəyərləndirilməlidir.

"Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və güclüsənsə haqlısan məntiqi hökm sürür" [8] - deyərək böyük uzaqgörənlik nümayiş etdirən Prezident İlham Əliyev ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyənləşdirdi və bu istiqamətdə perspektiv addımların atılmasını təmin etdi. Ölkə büdcəsində müdafiə xərcləri həmişə üstün mövqeyə malik olub. 2003-2018-ci illərdə Azərbaycanın müdafiə büdcəsi 15 dəfə artmışdır. Əgər 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 135 milyon dollar idisə, 10 ildə bu, 3,7 milyard dollara yüksəlmişdi. 2018-ci ildə ölkənin müdafiə büdcəsi 3 milyard 853 milyon 600 min manat idisə, bu, 2019-cu ilin hərbi büdcəsindən 20,9% və ya 666 milyon manat çoxdur. 2021-ci ildə isə müdafiə xərcləri büdcənin 15,3%-ni təşkil edirdi. Bu göstərici 3 milyard 954 milyon manat (2 milyard 326 milyon dollar) təşkil edirdi. Stokholm Beynəlxalq Sülh Problemlərinin Tədqiqi İnstitutunun 2019-cu il hesabatına görə, Azərbaycan ÜDM-də 4% və ya daha çox hərbi xərcləri olan ilk on ölkə sırasındadır. Təsadüfi deyil ki, 2019-cu ildə Azərbaycanın hərbi büdcəsi 1,85 milyard dollar olmuşdur ki, bu da Ermənistanın büdcəsindən (650 milyon dollar) təxminən üç dəfə çoxdur. 2019-cu ilin göstəricilərinə görə Azərbaycan dünyanın ən güclü orduları sırasında 52-ci, Ermənistan isə 96-cı yerdə, Hərbi Hava Qüvvələrində Azərbaycan 63-cü, Ermənistan isə 86-cı yerdə, Dəniz gücünə görə Azərbaycan 67-ci yerdədir və Ermənistan dəniz ölkəsi olmadığı üçün onun bu sahədəki imkanları sıfıra bərabər hesab olunur. Tank gücünə görə Azərbaycan 32-ci, Ermənistan isə iki dəfədən də az göstəriciyə (78) malikdir [1].

Ölkəmizdə qısa müddət ərzində 20-dən çox hərbi zavodun işə salınması, müasir hərbi sənaye kompleksinin formalaşması tarixi nailiyyət kimi qiymətləndirilməlidir. Dünyanın aparıcı silah ixracatçılarından 5-ci nəsil silahların alınması və bu sahədə uğurlu diversifikasiya siyasətinin həyata keçirilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividendlər gətiribdir.

Ordumuzda döyüş ruhu, hərbi-vətənpərvərlik hissi ən yüksək səviyyədə təmin olunubdur. Ordumuz Vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirdiyindən intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu öz işğalçı mahiyyəti səbəbindən bütün bunlardan məhrumdur.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa edən Lider kimi adını əbədi olaraq tarixə yazdı. Azərbaycan xalqının Qələbə salnaməsinin müəllifi İlham Əliyev Vətən Müharibəsi Qəhrəmanı oldu.

Rusiyanın tanınmış ictimai xadimi, Beynəlxalq Avrasiya Hərəkatının rəhbəri Aleksandr Duqin: "Düşünürəm, hal-hazırda İlham Əliyev dünyada bir nömrəli siyasətçidir. Son illər ərzində heç bir siyasi liderə İlham Əliyev qədər öz xalqı və dövlətinin milli maraqlarını müdafiəsi işinin öhdəsindən belə parlaq səviyyədə gəlmək nəsib olmamışdır" [6] - deyə qeyd eləmişdi.

Müzəffər Ali Baş Komandan, ölkəmizin rəhbəri İlham Əliyev deyirdi: "... Ərazi bütövlüyümüzün bərpası, torpaqlarımızın qaytarılması mənim Prezident kimi başlıca vəzifəm idi. Mən şadam ki, bu vəzifənin öhdəsindən də şərəflə gəlirəm və Azərbaycan xalqının dəstəyi, zəhməti və cəsarəti hesabına biz torpaqlarımızı qaytarırıq. Azərbaycan xalqının fədakarlığı bir daha onu göstərir ki, biz böyük xalqıq, biz birlik nümayiş etdirmişik və bu birlik bizi daha da gücləndirəcək, ölkəmizi daha da qüdrətli ölkəyə çevirəcəkdir" [7].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bütün beynəlxalq səviyyələrdə dəfələrlə bəyan edib ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələr prosesində Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar predmeti ola bilməz [4]. Münaqişə suveren dövlətin ərazi bütövlüyünü təmin edən beynəlxalq hüquq normaları əsasında həll edilməlidir.

Prezident İlham Əliyev hələ 2020-ci il fevralın 15-də Münxen Təhlükəsizlik Konfransındakı çıxışında bir daha yüksək səslə vurğuladı: "Erməni xalqı öz müqəddəratını artıq təyin edib. Onların erməni dövləti var. Mənim məsləhətim belə olacaq ki, onlar ikinci dəfə öz müqəddəratını təyin etmək üçün Yer kürəsində başqa yer tapsınlar, Azərbaycanda yox!" [5].

Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-i il dekabrın 1-də xalqa müraciətində bütün dünyaya bir daha bəyan etdi: "Əgər kimsə Ermənistana ikinci dövlət yaratmaq üçün ərazi vermək istəyirsə versin, orada ikinci erməni dövləti yaratsın, öz ərazisinin bir hissəsini onlara versin. Amma gəlib bizdən tələb etmək ki, tarixi, hüquqi Azərbaycan torpağında erməni dövləti yaradılsın, bu, hansı məntiqə sığır? Heç bir məntiqə, heç bir ədalətə sığmır ... artıq "Dağlıq Qarabağ münaqişəsi" termini arxada qalıb. Öz bayrağımızı Şuşada və bütün başqa şəhər və rayonlarımızda ucaltdıq. Hər kəs gücümüzü, ... qüdrətimizi gördü, iradəmizi gördü. ... Bu gün biz yeni reallıq yaratdıq. Əgər hətta bir il bundan əvvəl bəziləri bizə deyirdilərsə ki, siz mövcud olan reallıqla barışın, bu gün mən deyirəm, hər kəs mövcud reallıqla barışmalıdır. Noyabrın 10-da imzalanmış Bəyanata əgər kimsə müdaxilə etmək istəsə, bizim sərt mövqeyimizi görəcək. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" [2].

Bu qələbə Ulu öndər Heydər Əliyevin 1993-cü ildən başladığı və 2020-ci ilə qədər 17 illik uğurlu fəaliyyəti nəticəsində Prezident İlham Əliyevin həyata keçirdiyi müasir səviyyəli ordu quruculuğunun təzahürü kimi tariximizə həkk oldu. Bu qələbə Zəfər tarixinin memarı kimi Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyevin adını Vətən tarixinə əbədi olaraq qızıl hərflərlə yazdı.

Ərazi bütövlüyümüz bərpa olunduqdan sonra Azərbaycan Respublikasının Prezidenti Cənubi Qafqazda mövcud gərginliyin aradan qaldırılması, sülhün və əminamanlığın reallaşdırılması, Ermənistanla Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün Azərbaycan dövətinin xarici siyasətini uğurla həyata keçirərək Brüsseldə 2021-ci il dekabrın 14-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə ikitərəfli görüşdə, 2022-ci il fevral ayında Fransa Prezidenti Makronun iştirakı ilə videokonfransda və 2022-ci il aprelin 6-da Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla və Şarl Mişellə üçtərəfli görüşdə son vaxtlarda baş verən hadisələri və üçtərəfli 10 Noyabr Bəyanatının müddəalarının reallaşdırılmasının zərurətini müzakirə etmişdi. Aprelin 6-da Brüsseldə keçirilən üçtərəfli görüşdə Şarl Mişel Ermənistan və Azərbaycan arasında "etimad və dinc yanaşı yaşamanın" təmin edilməsi üçün hər iki tərəfin səylərinin vacibliyini, həllini tapmayan humanitar məsələlərin, itkin düşmüş və saxlanılan şəxslərin azad edilməsi barədə müzakirələrin aparılmasını və tez həll olunmasının zəruriliyini və Avropa İttifaqının bu istiqamətdə dəstək olmağa hazır olduğunu, münaqişə nəticəsində mənəvi və maddi ziyan dəymiş əhaliyə maliyyə yardımını artıracağını, bərpa və yenidənqurma işlərinə dəstək verəcəyini vurğuladı.

Şarl Mişel Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında regionda Sülh sazişinin həyata keçirilməsini sürətləndirmək arzusunda olduğunu bildirdi. Beləliklə, o, hər iki ölkənin xarici işlər nazirlərinə regionda böyük əhəmiyyət kəsb edən və bütün zəruri məsələləri əhatə edən Sülh sazişi layihəsinin hazırlanmasını tövsiyə etdi və razılıq əldə olundu. Brüssel Bəyanatında ən əsas məqam Azərbaycanın ərazı bütövlüyüdür. Bu üçtərəfli görüşün əhəmiyyəti həm də ondan ibarət idi ki, Ermənistanla Azərbaycan arasında və daha geniş miqyasda Cənubi Qafqazda kommunikasiya-bağlılıq infrastrukturunun bərpası da liderlər tərəfində geniş müzakirə olundu və hətta, Prezident Şarl Mişel regionda sülhün bərpasında mühüm rolu olan dəmir yollarının bərpası istiqamətində atılan addımları alqışladı [9]. Bu layihədə Azərbaycan Respublikası Prezidentinin xüsusi rolunu qeyd etmək daha düzgün olardı. Prezident Ş.Mişel Ermənistan və Azərbaycana kommunikasiya xətlərinin bərpası üçün daha səmərəli üsullardan istifadə etməyi tövsiyə etdi. Avropa İttifaqı Cənubi Qafqazda kommunikasiya əlaqələrinin inkişaf etdirilməsini dəstəklədiyini, həmçinin İqtisadi və İnvestisiya Planına uyğun olaraq ümumi layihələr planını müəyyən etmək üçün təklif olunan İqtisadi Məşvərət Forumundan istifadə etməyə hazır olduğunu bildirdi. Brüssel görüşündə aprel ayının sonunadək

Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsinə dair razılıq əldə edildi [3]. Beləliklə, bu komissiyanın vəzifəsi Ermənistan-Azərbaycan dövlətlərinin sərhədlərinin delimitasiyası, o cümlədən sərhəd boyu və onun ətrafında sabit təhlükəsizliyin təmin edilməsi olacaq. Liderlər, xüsusilə regionda sülhün bərqərar olması üçün böyük səylər göstərən Prezident İlham Əliyev, Brüsseldə keçirilən üçtərəfli görüşlərin nəticələrinə uyğun olaraq fəaliyyətlərini davam etdirəcəklərini və hazırkı prosesə sadiq qalacaqlarını öhdələrinə götürdülər.

Brüssel Bəyannaməsində ən mühüm məqam bir də ondan ibarət idi ki, sənəddə "Dağlıq Qarabağ" ifadəsi yer almayıb və ATƏT-in Minsk Qrupunun həmsədrlik institutuna istinad edilməyibdir. Avropa İttifaqının dəstəyi ilə Ermənistanla Azərbaycan arasında birbaşa danışıqların yeni mexanizminin və formatının yaradılması və digər proseslər Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli və uzaqgörən siyasətin məntiqi nəticəsi idi.

2022-ci il aprelin 6-da Brüsseldə keçirilən görüşdə Prezident İlham Əliyevin beynəlxalq aləmdə nüfuzlu dövlət xadimi, dövlətin və xalqın milli mənafelərini qətiyyətlə müdafiə edən bir Lider kimi Cənubi Qafqazı sülh və əmin-amanlığa aparan fəaliyyətinə beynəlxalq ekspertlər tərəfindən yüksək qiymət verilib – ATƏT-in amerikalı sabiq həmsədri Riçard Hoqland Prezident İlham Əliyevi "regionu sülhə və daha yaxşı gələcəyə aparan dəqiq lider" kimi dəyərləndirib [10]. ABŞ-ın Azərbaycandakı sabiq səfiri Robert Sekuta Trend-ə müsahibəsində bildirib ki, 2021-ci il dekabrın 14-də Aİ Şurasının prezidenti Ş.Mişel ilə görüşdən sonra Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçirilən üçtərəfli görüşü "vacib və ümidverici addım" kimi, o cümlədən regionda sülhün həyata keçirilməsində perspektivli məqam kimi Avropanın iştirakını yüksək qiymətləndirib.

Avropa Şurasının prezidenti Şarl Mişel Brüsseldəki görüşün konstruktiv keçməsi ilə bağlı mətbuata açıqlama verib. Nikol Paşinyan Azərbaycanın regionda "sabitlik, təhlükəsizlik və inkişaf" üçün zəruri olan beş bənd üzrə təklifini qəbul edib [10]. Bu Brüssel görüşündə Azərbaycanın xarici siyasətində sülhün və əməkdaşlığın vacibliyini beynəlxalq aləmdə öz fəaliyyəti ilə sübut edən Prezident İlham Əliyevin növbəti siyasi qələbəsidir.

***Nəticə***. Azərbaycan hərb yolu ilə və masa üstü danışıqlar aparılması nəticəsində öz ərazi bütövlüyünü bərpa etdi. 44 günlük İkinci Qarabağ müharibəsi bunu bütün dünyaya sübut etdi. Ali Baş Komandan, Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarından irəli gələn xarici siyasəti uğurla həyata keçirərək Zəfər tarixinin memarı kimi tariximizə yeni səhifə yazdı.

Respublika Prezidenti Cənubi Qafqazda sülhün və sabitliyin, gələcəyə aparan inkişaf və əməkdaşlığın bərpası və reallaşması üçün Azərbaycanın xarici siyasətini uğurla həyata keçirir. Prezident İlham Əliyevin həyata keçirdiyi sülh modeli təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqaz ölkələrinin təhlükəsizliyini və inkişafını təmin edəcəkdir. Brüssel görüşlərində əldə olunan danışıq nəticələri Azərbaycan Respublikasının növbəti diplomatik uğurudur.

## ƏDƏBİYYAT

1. Elman Nəsirov. Müzəffər Prezident. 23 Dekabr 2020. - http://www.yap.org.az/az/view/news/48419/muzeffer-prezident [Müraciət tarixi: 01.06.2022].
2. Ходнев А. Национальный вопрос в контексте мирового порядка. История и современное состояние // Исторические аспекты межнациональных отношений и мировой опыт. М., 2000. - http: //www.prof.msu.ru/publ/book/iamomo 1.html [Müraciət tarixi: 01.06.2022].
3. XİN: Brüssel görüşü bölgənin gələcək və əmin-amanlığı üçün növbəti önəmli addımdır. - https://ordu.az/az/news/216215/xin--brussel-gorusu-bolgenin-gelecek-ve-emin-amanligi-ucun-novbeti-onemli-addimdir [Müraciət tarixi: 01.06.2022].
4. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. 16 noyabr 2020. - https://president.az/articles/46840 [Müraciət tarixi: 01.06.2022].
5. Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirilib. 15 fevral 2020. - https://president.az/articles/35813 [Müraciət tarixi: 01.06.2022].

6. Müzəffər Prezident. 23 dekabr 2020. - https://az.trend.az/azerbaijan/politics/3354562.html [Müraciət tarixi: 01.06.2022].
7. Prezident İlham Əliyev - Azərbaycan tarixinə adı əbədi yazılmış Müzəffər Ali Baş Komandan. 2020-12-07. - http://www.shusha-ih.gov.az/news/700. Html [Müraciət tarixi: 01.06.2022].
8. Prezident İlham Əliyev - adını ölkə və dünya hərb tarixinə həkk etdirmiş Müzəffər Sərkərdə 27.09.2021. - https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev___adini_olke_ve_dunya_herb_tarixine_hekk_etdirmis_Muzeffer_Serkerde-1886999 [Müraciət tarixi: 01.06.2022].
9. Prezident İlham Əliyevin 6 aprel 2022-ci il tarixində baş tutan Brüssel səfəri. - https://tehsil-press.az/index.php?newsid=66252 [Müraciət tarixi: 01.06.2022].
10. 6 aprel Brüssel görüşü:İlham Əliyev regionu sülhə aparır. - https://lent.az/xeber/siyaset/6-aprel-brussel-gorusu-ilham-eliyev-regionu-sulhe-aparir-40536776 [Müraciət tarixi: 01.06.2022].

**ИРАДА НУРИЕВА**
*Доктор политических наук, профессор кафедры «Гуманитарных наук»*
*Азербайджанского Государственного Университета Нефти и Промышленности*

## ДЕЯТЕЛЬНОСТЬ ГЛАВНОГО АРХИТЕКТОРА «ПОБЕДЫ» ИЛЬХАМА АЛИЕВА В ОБЕСПЕЧЕНИИ ТЕРРИТОРИАЛЬНОЙ ЦЕЛОСТНОСТИ АЗЕРБАЙДЖАНА И МИРА НА ЮЖНОМ КАВКАЗЕ

В статье нашли свое отражение процессы восстановления территориальной целостности Азербайджана в ходе военных действий и дипломатических переговоров, а также историческая Победа в 44-дневной Второй Карабахской войне и акт капитуляции 10 ноября. Эта победа была достигнута благодаря неустанной деятельности, осуществляемой с 1993 года как Великим лидером Гейдаром Алиевым, так и Президентом Ильхамом Алиевым по созданию и развитию нашей армии на самом современном уровне. Победоносный Верховный главнокомандующий Президент Ильхам Алиев является автором независимой политики, исходящей из национальных интересов Азербайджана, что находит отражение в политической стабильности, экономической мощи, социальном благополучии государства, успешной внешней политике и особенно в его современной сильной армии, написавшей историю. В статье раскрывается деятельность Президента страны в проведении внешней политики Азербайджанской Республики по успешному урегулированию политического конфликта на Южном Кавказе, восстановлению мира и стабильности, эффективному развитию сотрудничества между Арменией и Азербайджаном.

*Ключевые слова*: Победитель – Верховный Главнокомандующий, история национальной Победы, территориальная целостность, мир, безопасность, сотрудничество.

**IRADA NURIYEVA**
*Doctor of Political Sciences, professor at the Department of Human Sciences*
*of Azerbaijan State Oil and Industry University*

## THE ACTIVITIES OF ILHAM ALIYEV AS AN ARCHITECT OF "HISTORY OF VICTORY" FOR THE TERRITORIAL INTEGRITY OF AZERBAIJAN AND ENSURİNG PEACE IN THE SOUTH CAUCASUS REGİON

The article reflects the restoration of Azerbaijan's territorial integrity as a result of military and table negotiations and the date of 44-day Second Karabakh war victory and the November 10 capitulation act. This victory has been realized by both the Great Leader Heydar Aliyev and President Ilham Aliyev as a result of the establishment and development of our army at the most modern level since 1993. As a leader, President Ilham Aliyev is the author of an independent policy

based on Azerbaijan's national interests, which is reflected in Azerbaijan's political stability, economic strength, social welfare, successful foreign policy, and especially in its powerful army. The article comments on the activities of the President in the successful foreign policy of the Azerbaijan for the elimination of the political conflict in the South Caucasus, the restoration of peace and stability, the effective development of cooperation between Armenia and Azerbaijan.

*Keywords*: Winner - Supreme Commander-in-Chief, Hstory of Victory, territorial integrity, peace, security, tranquility, cooperation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.e.d. Camal Mustafayev, s.e.d. Adil Mirabdullayev.*

**UOT 32:93/94**

**AFƏT SƏFƏROVA**
*Bakı Dövlət Universitetinin*
*"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti*
**safarovaafet@yandex.ru**

**SƏBİNƏ QARAŞOVA**
*Bakı Dövlət Universitetinin*
*"Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasının dosenti*
**sabinagarashova@yahoo.co.uk**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DİPLOMATİK İRSİ

*Elmi məqalə azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin diplomatik fəaliyyətinə həsr olunub. 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində ciddi dəyişikliklər baş verdi. Heydər Əliyevin çoxsaylı xarici səfərləri Azərbaycanın dünya birliyində nüfuzunun xeyli artmasına səbəb oldu, qarşılıqlı mehriban qonşuluq münasibətlərinin qurulmasında, iqtisadi əlaqələrin qurulmasında, dünya birliyinə inteqrasiyasında, və ilk növbədə, Ermənistanın-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasında böyük rol oynadı. 1994-cü il sentyabrın 20-də XXI-ci əsrin əsas və əlamətdar hadisələrindən biri kimi tarixə düşən "Əsrin müqaviləsi"nin imzalanması baş verdi.Və beləliklə Azərbaycanın iqtisadi konsepsiyası formalaşdırıldı və ölkənin dövlət siyasətinin bir istiqaməti müəyyən edildi. Bununla yanaşı Heydər Əliyevin xarici siyasətində ən önəmli yeri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli tuturdu. Heydər Əliyevin müəllif olduğu türkdilli xalqların inteqrasiyası ideyası müasir dünya siyasətinə yeni təşəbbüslərə üfüq açdı.*

*Açar sözlər*: Heydər Əliyev, xarici siyasət, neft strategiyası, erməni-azərbaycan münaqişəsi, türkdilli dövlətlər.

***Giriş***. Elə liderlər var ki əbədi tarixə düşürlər, milli tarix yaradan liderlərin sırasında yer alırlar. Heydər Əliyev Azərbaycanın müasir tarixini yaradan lider oldu. Xalqımız onu öz dövrünün əsl əfsanəsi, qüdrətli dövlət başçısı, dövlət quruculuğu kimi çətin tarixi vəzifələri öz üzərinə götürməyə qadir olan fədakar və nadir şəxsiyyət kimi xatırlayır.

Bu il Azərbaycanda ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü qeyd olunur. Heydər Əliyev görkəmli dövlət xadimi və dünya miqyaslı siyasətçi idi.

Tarixi təcrübə sübut edir ki, xalqın özünə lider seçdiyi tarixi şəxsiyyətlər dövlətin daxili və xarici siyasət xəttinin müəyyənləşdirilməsi və həyata keçirilməsində böyük məsuliyyət daşıyırlar. Ən mühüm qərarlar məhz onların son sözündən sonra qəbul olunur. Azərbaycan xalqı üçün Heydər Əliyev belə bir tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunması, möhkəmləndirilməsi, əbədi, daimi və dönməzliyi, xarici siyasətinin formalaşdırılması da məhz onun dərin biliyi, böyük dövlətçilik təcrübəsi, bacarığı və fitri istedadı nəticəsində mümkün olmuşdur. Bu baxımdan Azərbaycan xalqı üçün Heydər Əliyev 1993- 2003-cü illərdə Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sisteminə daxil olması və inkişaf etdirilməsində tarixi fəaliyyət göstərmişdir. Həmin fəaliyyətin tədqiq edilməsi elmi-nəzəri, tarixi və praktik siyasət baxımından aktual və mühümdür.

***Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli***. Azərbaycanın 1960-cı illərin sonlarından XXI əsrin əvvəllərinə qədərki dövrü əhatə edən 35 illik tarixi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun siyasi istedadı və əvəzsiz insani keyfiyyətləri gənc dövlətə ayaq üstə durmağa və XXI əsrə müstəqil ölkə kimi uğurla qədəm qoymağa imkan verib. 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə müstəqil Azərbaycan Respublikasının xarici siyasətində ciddi dəyişikliklər baş verdi. Heydər Əliyevin çoxsaylı xarici səfərləri Azərbaycanın dünya birliyində nüfuzunun xeyli artmasına səbəb oldu, ölkəyə qərəzli münasibət yox oldu, respublika haqqında yayılan hər cür mif və uydurmalar dağıdıldı, normal dövlətlərarası münasibətlər qurulmağa başladı [8]. Bir sözlə dünya Azərbaycan həqiqətlərini öyrənməyə başladı. Azərbaycan Respublikasının Prezidenti ölkənin xarici

siyasətinin əsas istiqamətlərini belə qiymətləndirmişdir: "Azərbaycan Avropa ilə Asiyanın qovşağında yerləşir, lakin Avropa ilə də, Asiya ilə də, Qərb dövlətləri ilə yaxşı münasibətlər qurmağa çalışır. Təbii ki, biz eyni zamanda ona əsaslanırıq ki, bu münasibətlərdə Azərbaycanın daxili işlərinə qarışmamaq prinsipinə hörmətlə yanaşılsın, dövlət müstəqilliyimizə və ərazi bütövlüyümüzə, sərhədlərimizin toxunulmazlığına heç bir xələl gətirilməsin. Eyni zamanda, Azərbaycan qonşu dövlətlərlə daha sıx əlaqələrin yaradılmasına böyük önəm verir" [7, s.20]. Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti çox mühüm beynəlxalq sənədi - yeni Avropanın Paris Xartiyasını imzaladı. Prezident Heydər Əliyevin xarici səfərləri Azərbaycanın uğurlu xarici siyasətində mühüm səhifə oldu. Onlar Azərbaycan haqqında həqiqəti əks etdirən məlumatların dünya ictimaiyyətinə çatdırılmasında, qarşılıqlı mehriban qonşuluq münasibətlərinin qurulmasında, iqtisadi əlaqələrin qurulmasında, dünya birliyinə inteqrasiyasında, və ilk növbədə, Ermənistanın-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılmasında böyük rol oynamışlar [10]. Bu səfərlər iqtisadi əməkdaşlıq üçün geniş üfüqlər açdı ki, bu da öz növbəsində respublikanın investisiya imkanlarının genişlənməsinə böyük təsir göstərdi. Azərbaycan müstəqillik əldə etdikdən sonra BMT və ATƏT kimi mötəbər beynəlxalq təşkilatlara üzv olmasına baxmayaraq, yalnız Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra onların işində iştirak həqiqətən geniş vüsət almışdır. Heydər Əliyev Avropa Şurasında, NATO-da yüksək səviyyəli görüşlərdə, beynəlxalq forum və sammitlərdə, işgüzar səfərlər və danışıqlarda, dövlətlərarası tədbirlərdə, dünyanın tanınmış siyasi və dövlət xadimləri ilə görüşlərdə ölkəmizi təmsil etmişdir. Heydər Əliyev beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafına böyük əhəmiyyət verirdi. Qısa müddətdə Azərbaycan Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olmaq hüququnu bərpa etdi, 1997-ci ildə onun təşəbbüsü ilə Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova Assosiasiyası (GUAM), Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası Assosiasiyası, İqtisadi Əməkdaşlıq Təşkilatı yaradılmışdır. Ölkəmiz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və İslam İnkişaf Bankı ilə sıx əməkdaşlığa başlamış, Avropa Birliyi, Avropa Parlamenti, NATO və digər beynəlxalq strukturlarla əlaqələr qurmuş, bütün yeni konvensiyalara qoşulmuşdur. Prezident Heydər Əliyev 1994 və 1997-ci illərdə BMT-nin yüksək tribunasından çıxış edən Azərbaycanın ilk nümayəndəsi olmuşdur. Bu çıxışlar zamanı o, israrla dünya ictimaiyyətinin diqqətini Azərbaycanın ən böyük qayğısı olan - Dağlıq Qarabağ probleminə yönəltdi, onun səbəblərini açıqladı, ölkədə qaçqınların mövcudluğundan danışdı [9]. BMT-nin bu məsələ ilə bağlı qətnamələrinin hələ də Ermənistan tərəfindən məhəl qoyulmadığını xatırladaraq, o, dünya ictimaiyyətini bu fundamental sənədlərin qeyd-şərtsiz həyata keçirilməsi üçün təsirli tədbirlər görməyə çağırmışdı. 2000-ci ildə Azərbaycan Prezidenti Birləşmiş Millətlər Təşkilatının dövlət və hökumət başçılarının 189 ölkə nümayəndəsinin iştirak etdiyi müşavirədə çıxış edib. Prezident Heydər Əliyevin təşəbbüsü ilə ölkəmiz 1994-cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmuş, sülhyaratma proseslərində fəal iştirak edir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasəti bir çox istiqamətlərdə inkişaf etmiş, respublikamızın qlobal beynəlxalq siyasətə, dünya birliyinə inteqrasiyası prosesi dərinləşmişdir. Heydər Əliyev respublikaya rəhbərliyi dövründə ABŞ, Rusiya, Böyük Britaniya, Fransa, Almaniya, Polşa, Rumıniya, Yaponiya, Çin Xalq Respublikası, Türkiyə, İran, Pakistan və dünyanın digər ölkələrinə rəsmi səfərlər etmiş, bərabərhüquqlu tərəfdaşlıq əlaqələri yaratmışdır. Heydər Əliyevin daxili və xarici siyasətinin ən mühüm nailiyyətlərindən biri Azərbaycanın 2001-ci il yanvarın 11-də Avropa Şurasına üzv qəbul edilməsi idi. Azərbaycanın xarici siyasətinin nəticəsidir ki, ABŞ və Qərbin ən iri neft şirkətləri Xəzər regionunda neft hasilatı və ixracında fəal iştirak edir ki, bu da öz növbəsində bu ölkələrlə ikitərəfli münasibətlərin inkişafında, iqtisadiyyatın intensivləşdirilməsində və genişlənməsində mühüm rol oynayır. Heydər Əliyevin xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilirdi. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı

əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün bəşəriyyət üçün təhlükə doğuran beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etməsi [12], Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın respublikamıza olan etimadını daha da gücləndirdi və iki ölkənin münasibətlərində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına verdiyi dəstək və ümumiyyətlə, Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin gerçəkləşdirilməsi, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə nəql edilməsi istiqamətində dövlətimizin başçısının göstərdiyi ardıcıl və qətiyyətli səylər, nəticə etibarilə illər boyu xalqımızın haqlı narazılığına səbəb olan "Azadlığı dəstək aktı"na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı. 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini vurğuladılar [7, s.46]. Erməni lobbisinin ABŞ Konqresinə təsir imkanlarının miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, heç şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

***Neft strategiyasının reallaşdırılmasına aparan uğurlu yol: üç dəniz lahiyəsi***. Neft sənayesinin inkişafı - neft yataqlarının axtarışı və kəşfiyyatı, neftin hasilatı və emalı, cəmiyyətin demokratikləşməsi – tam şəkildə uyğunlaşaraq Azərbaycanın iqtisadi konsepsiyasını formalaşdırıldı ki, bu da son nəticədə ölkənin dövlət siyasətini müəyyən etdi.

1994-cü il sentyabrın 20-də XXI-ci əsrin əsas və əlamətdar hadisələrindən biri kimi tarixə düşən "Əsrin müqaviləsi"nin imzalanması baş verdi. Heydər Əliyev müqavilənin imzalanması və neft kəmərlərinin çəkilişi perspektivləri ilə bağlı fikir ayrılıqlarını diplomatik yolla aradan qaldırmağa nail oldu, neft müqavilələrinin bağlanmasının ən mühüm şərti olan əlverişli investisiya siyasi mühitinin yaradılması problemini həll etdi. Heydər Əliyev yeni neft erasının əsasını qoyan "Əsrin müqaviləsi"nin imzalanmasını hazırlayarkən Azərbaycan Xəzər neftinin birgə işlənməsi üçün əsas siyasi və iqtisadi amilləri, bu sazişlərin sosial-iqtisadi inkişafı üçün əhəmiyyətini nəzərə alırdı [6]. Bu müqavilənin bağlanması xarici investisiyaların cəlb edilməsinə geniş imkanlar açaraq, neft sektorunda fəaliyyət göstərən transmilli neft şirkətlərinin fəaliyyətinə zəmin yaratmışdır. Bu müqavilə bazar iqtisadiyyatının qurulması yolunda ilk böyük addım idi. Neftin dünya bazarlarına nəqli üçün strateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri layihəsinin həyata keçirilməsi, Azərbaycanın uzunmüddətli səmərəsinin təmin edilməsi, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi və neft hasilatının artırılması məqsədilə bölgədə uğurla başa çatan gərgin danışıqlar aparıldı [12]. Bunun nəticəsidir ki, 1999-cu il noyabrın 18-də "Çırağan" sarayında ATƏT-in İstanbul sammiti zamanı Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Respublikası ərazilərindən xam neftin nəqlinə dair saziş bağlandı. Sazişi prezidentlər H.Əliyev, E.Şevardnadze və S.Dəmirəl imzalayıblar [4]. Heydər Əliyevin qətiyyəti və cəsarətli siyasəti sayəsində 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyulub. Təxminən, üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilib və boru xəttinə ilk neft vurulub. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilib. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınıb. "Üç dəniz əfsanəsi" adlandırılan və strateji əhəmiyyəti ilə seçilən layihənin əfsanədən gerçəkliyə çevrilməsi qısa zaman kəsiyində Azərbaycana çox böyük siyasi və iqtisadi qazanclar gətirib [1, c.389].

Beləliklə, Yeni Neft Strategiyasının müəllifi, ümummilli lider Heydər Əliyevin əsas uğuru olan Bakı-Tbilisi-Ceyhan layihəsi reallığa çevrildi.

***Qarabağ Zəfəri Heydər Əliyevin irsinin təntənəsi kimi***. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli 1993-cü ildən başlayaraq Ümummilli Lider Heydər Əliyevin xarici siyasətində əsas yer tutur. Onun hakimiyyətə qayıdışından sonra münaqişənin həlli istiqamətində ardıcıl səyləri, dövlət başçıları ilə ikitərəfli, o cümlədən çoxtərəfli zirvə görüşləri, nümayəndə

heyətləri ilə ATƏT-in sammitlərində keçirdiyi görüşlər, Minsk Qrupunun həmsədrləri ilə müzakirələrdə iştirakı, beynəlxalq forumlar, eləcə də Ermənistan prezidenti ilə birbaşa danışıqlar dövlət başçısının həyata keçirdiyi xarici siyasətin mühüm hissəsini təşkil edib. Münaqişənin sülh yolu ilə həlli üçün məhz Prezident Heydər Əliyevin qətiyyəti və gərgin əməyi sayəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında saziş əldə olundu və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm danışıqlara başlandı. 1996-cı il dekabrın 2-3-də ATƏT-in Lissabon sammitində qəbul edilmiş və münaqişənin həlli üçün beynəlxalq hüquqi bazaya çevrilmiş sənəd Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli yolunda böyük siyasi nailiyyət sayıla bilər. Prezident Heydər Əliyevin gərgin əməyi və diplomatik istedadı sayəsində sammitdə münaqişənin həllinin siyasi-hüquqi bazasını müəyyən edən xüsusi bəyanat qəbul edildi [5]. Bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti dəstəyi ilə Lissabon sammitinin yekun qərarında öz əksini tapıb. 1997-ci ilin ikinci yarısından başlayaraq Minsk Qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət üç təklif irəli sürdülər - Dağlıq Qarabağdan kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi. 1997-ci ilin iyununda onların irəli sürdüyü birinci təklif münaqişənin "paket" həllini nəzərdə tuturdu (bu variant Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlər üzrə eyni vaxtda razılığın əldə olunmasını nəzərdə tuturdu); 1997-ci ilin sentyabrında onların irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələ-mərhələ" həlli idi (bu variantda münaqişə bir sıra mərhələlərlə həll olunurdu). Azərbaycan Prezidenti bu planlarla tam razılaşmasa da, buna baxmayaraq, danışıqlar prosesini yerindən tərpətməyi üçün həmsədrlərin hər iki təklifini qəbul etdi. Lakin Ermənistan öz mövqeyinin qeyri-konstruktivliyini bir daha nümayiş etdirdi, bu təkliflərlə razılaşmadı. 1998-ci il noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd olan, Azərbaycan üçün qətiyyən qəbuledilməz olan üçüncü təklifi irəli sürdülər. Bu, dünya praktikasında olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Prezident Heydər Əliyevin qəti şəkildə rədd etdiyi "ümumi dövlət" ideyası Azərbaycanın maraqlarına zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon sammitlərində qəbul edilmiş sənədlərə biganə münasibətin də sübutu idi. 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədr dövlətlərinin (ABŞ, Rusiya, Fransa) rəhbərlərinə məktubla müraciət etdi. Minsk Qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin son təklifini ciddi tənqid edən dövlətimizin başçısı "ümumi dövlət" ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və danışıqlar prosesinə ciddi ziyan vurduğunu qeyd edərək, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətli və tez həlli üçün səyləri gücləndirməyə çağırıb. "Ümumi dövlət" prinsipi nizamlanma prosesində ciddi maneəyə çevrilərək problemin həlli yolları ilə bağlı tərəflərin mövqelərindəki ziddiyyətləri daha da dərinləşdirib. Nəticədə danışıqlar prosesində müəyyən durğunluq yarandı və münaqişənin həlli istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı [3].

Heydər Əliyevin xarici siyasətlə bağlı müstəsna fikirlərini nəzərə alaraq, beynəlxalq aləmdə qəbul edilmiş uğurlu və qətiyyətli addımların atılması, milli hədəflər naminə ən mötəbər mövqelərdən düzgün istifadə edilməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi [13].

***Türk dünyasının birliyi strategiyası***. Heydər Əliyev dövrün və zamanın gərdişini gözəl bilən dövlət rəhbəri kimi Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən türk dünyasında aparıcı mövqelərə çıxması, ümumtürk həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Təsadüfi deyil ki, bu gün onun adı türk toplumlarında da hörmətlə anılır, türk dövlətlərinin inteqrasiyasında rolu məmnunluqla qeyd olunur.

Türkdilli xalqların inteqrasiyası yolunda Heydər Əliyevin müəllifi olduğu təşəbbüslər bu gün geniş coğrafiyada əməkdaşlığa meydan açıb.

Azərbaycan xalqının milli lideri Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb, bütövlükdə türk dünyasını əhatə edir. Böyük tarixi şəxsiyyətin türk dünyası ilə bağlı gördüyü işlər, irəli sürdüyü ideyalar, söylədiyi mülahizələr elmi-nəzəri mükəmməlliyilə yanaşı, praktik perspektivliliyilə də böyük tarixi əhəmiyyətə malikdir. Heydər Əliyev Azərbaycanın türk dünyası, xüsusilə müstəqil türk dövlətləri ilə əlaqələrinin müfəssəl proqramını vermişdir ki, buraya əsasən aşağıdakılar daxildir:

- Azərbaycanın iqtisadi, siyasi, ictimai problemlərinin həllində türk dünyasının imkanlarından istifadə etmək;
- türk dünyasının qüvvələrini birləşdirmək, hər hansı türk dövlətinin (xüsusilə beynəlxalq) problemlərinin həllində türk dünyasının birgə hərəkətini təmin etmək;
- türk dünyasının beynəlxalq nüfuzunun daha da gücləndirilməsinə çalışmaq və bunun üçün hər bir müstəqil türk dövlətinin imkanlarından yararlanmaq və s. [2].

Heydər Əliyevin türk dünyasının problemləri ilə daha ardıcıl məşğul olduğu mərhələ 1993-cü ildən, müstəqil Azərbaycan Respublikasının Prezidenti seçiləndən sonra başlayır. İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatının 2-ci görüşünün iştirakçılarına 5 iyul 1993-cü il tarixli müraciətində Heydər Əliyev demişdi: "İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin — Türkiyənin, İranın, Pakistanın, Əfqanıstanın, Qazaxıstanın, Özbəkistanın, Türkmənistanın, Qırğızıstanın, Tacikistanın, Azərbaycanın istifadə edilməmiş zəngin təbii sərvətləri, material ehtiyatları vardır. Onlardan birgə istifadə olunması əsl müsəlman intibahına çevriləcək, bütün bəşəriyyətin inkişafına töhfə verəcəkdir". Bu müraciətdə türklük düşüncəsinin ən azı üç tarixi əlaməti əks olunur:

1) ayrı-ayrı türk dövlətlərinin müstəqilliyinin müdafiə olunması;
2) türk (və ümumən müsəlman) dünyasının birliyinə çalışması;
3) həmin birliyin dünyada harmoniya yaradılmasına xidmət etməsi ideyasının müdafiəsi [11].

Heydər Əliyev türk birliyinin möhkəmlənib inkişaf etməsində Türkiyənin rolunu həmişə yüksək qiymətləndirmiş, Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün tarixi fəaliyyətini dönə-dönə dəyərləndirmiş, onu "iyirminci əsrin bəşəriyyətə verdiyi böyük düha"lardan saymışdır. Türkiyə haqqında müxtəlif vaxtlarda deyilmiş aşağıdakı sözlərin hamısı Heydər Əliyevə məxsusdur: "Türkiyə hazırda dünyanın siyasi durumunda nüfuzlu təsir qüvvəsinə malik, ümumbəşəri dəyərləri qorumaq əzmində olan, iqtisadi və mədəni səviyyəsi etibarilə inkişaf etmiş qüdrətli dövlətlərdən birinə çevrilmişdir... "Azərbaycanlıların qəlbində Türkiyənin xüsusi yeri var"... "Türkiyə Azərbaycan üçün qardaş, dost ölkədir", "... Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. "... "Bir millət, iki dövlət"... və s.

Azərbaycan Respublikasının Orta Asiyanın türk dövlətləri ilə münasibətlərinin yeni əsas üzərində qurulması Heydər Əliyevin fəaliyyət istiqamətlərindən biri olmuşdur. Məlum olduğu kimi, Heydər Əliyev hakimiyyətə gələrkən türk dövlətləri ilə münasibətlər normal deyildi. İkitərəfli münasibətlərdə soyuqluq hökm sürürdü. Qarşılıqlı münasibətlərdəki soyuqluq məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində tədricən aradan qaldırıldı. Orta Asiyanın türk dövlətləri ilə münasibətlərin qarşılıqlı fayda əsasında inkişaf etdirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi.

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini də mədəni əməkdaşlıq, müştərək mədəni layihələr təşkil edir. Dərin tarixi köklərə malik bağların yeni şəraitdə daha effektiv müstəviyə çıxarılmasında, Beynəlxalq Türk Mədəniyyət Təşkilatının - TÜRKSOY-un formalaşması, bu formatda bir çox layihələrin reallaşması Azərbaycanın aktiv rolu sayəsində mümkün olub. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, şəxsiyyətlərinin yubiley mərasimlərində yaxından iştirak edir və xalqlarımızın ümumi mədəni sərvətinin bizi birləşdirən tarixi dəyər olduğunu diqqətə çatdırırdı. Bu fikir onun 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, böyük özbək hökmdarı Əmir Teymurun, qırğız eposu "Manas"ın yubiley mərasimlərindəki çıxışlarının ana xəttini təşkil edib.

Heydər Əliyev 1996-cı ilin noyabrında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprelində isə böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı türk dünyasının təmsilçilərini, dövlət və hökumət adamlarını, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıya topladı. UNESCO səviyyəsində qeyd olunan bu möhtəşəm yubileylər, eyni zamanda, ümumtürk mədəniyyətinin təntənəsi idi. "Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Ma-

nas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir”, - deyə Heydər Əliyev 2000-ci il aprelin 8-də eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə bildirmişdi.

Onun təşəbbüskarı, müəllifi olduğu regional layihələr türk xalqlarının yaşadığı geniş coğrafiyada uzunmüddətli inkişaf və əməkdaşlığa meydan açdı. Heydər Əliyevin 2001-ci ildə iştirak etdiyi sonuncu türk zirvəsində (27 aprel 2001-ci il, İstanbul) bəyan etdiyi bu sözləri isə 21-ci yüzilliyin türk dünyası üçün vəsiyyət kimi qəbul etmək olar: “Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensialı olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin - milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq” [2].

***Nəticə***. 1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq, xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq, respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaradılması yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Müstəqilliyini bərpa etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Məhz buna görə də dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi ümummilli lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edib.

Heydər Əliyevin xarici siyasətinin əsas elementlərini sülh, beynəlxalq hüquqa hörmət, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri, dövlətlərarası münasibətlərə mane olan hər hansı məhdudiyyətlərin aradan qaldırılması təşkil edirdi [13].

Azərbaycanın siyasi və iqtisadi uğurları, yüksək səviyyəli multikulturalizm və tolerantlıq, həyatın bütün sahələrində tərəqqi, ordu ilə xalqın möhkəm birliyi bütün dünyaya mükəmməl nümunə və Ümummilli lider Heydər Əliyevin layiqli irsidir [13].

## ƏDƏBİYYAT

1. Андрианов Виктор, Мираламов Гусейнбала. Гейдар Алиев. //Серия «Жизнь замечательных людей». Москва, «Молодая гвардия», 2006. ISBN 5-235-02713-2 502 (10) с.

2. Vüqar Əliyev. Heydər Əliyev və türk dünyası / "Mədəniyyət" qəzeti, 03-04-2013. - https://medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en [Müraciət tarixi: 03.05.2022].
3. Heydər Əliyevin yolunun davamçısı. - https://azerbaijan.az/related-information/275 [Müraciət tarixi: 03.05.2022].
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in İstanbul Zirvə görüşündə nitqi - 18 noyabr 1999-cu il. - https://lib.aliyevheritage.org/az/showmap.html [Müraciət tarixi: 03.05. 2022].
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə görüşündə nitqi - 2 dekabr 1996-cı il. - https://lib.aliyevheritage.org/az/showmap.html [Müraciət tarixi: 03.05.2022].
6. "Əsrin müqaviləsi" üzrə ilkin neftin çıxarılması münasibətilə keçirilən təntənəli tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi - 12 noyabr 1997-ci il. - https://lib.aliyevheritage.org/az/showmap.html [Müraciət tarixi: 03.05.2022].
7. Hüseynova Hicran, Hacıyeva Asya. Müasir Azərbaycan diplomatiyasının banisi: Heydər Əliyev // "Diplomatik portretlər" Bakı, "Elm və təhsil" , 2014, 432 s. İSBN 978-9952-8024-3-6.
8. Əhmədov Elçin. Ulu öndər Heydər Əliyevin xarıci sıyasət kursu və Azərbaycanın diplomatik uğurları -12.12.2018. - https://azertag.az/xeber/Ulu_onder_Heyder_Aliyevin_xarici_siyaset_kursu_ve_Azerbaycanin_diplomatik_ugurlari-1223469 [Müraciət tarixi: 03.05.2022].
9. Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi. Beynəlxalq ülmi-praktik konfransın materialları. Lənkəran, 23-24 dekabr 2006. Bakı, Azərbaycan nəşriyyatı, 2007, 280 s. - http://anl.az/el/Kitab/2014/2007-359.pdf [Müraciət tarixi: 03.05.2022].
10. Heydər Əliyevin yaratdığı milli dövlətçilik ənböyük sərvətimizdir / Modern.az İnformasiya agentliyi, 11 dekabr 2019. - https://modern.az/az/news/220397/heyder-eliyevin-yaratdigi-milli-dovletcilik-en-boyuk-servetimizdir [Müraciət tarixi: 03.05.2022].
11. Sevda Şərifova. Qarabağ zəfəri Heydər Əliyev irsinin təntənəsidir // Geostrategiya, 24.02.2021.- http://www.geostrategiya.az/news.php?id=132 [Müraciət tarixi: 03.05.2022].
12. Azərbaycanın neft strategiyası. - https://aliyevheritage.org/az/oilstrategy.html [Müraciət tarixi: 03.05.2022].
13. Dedicated to the memory of a Great Man. 2020-05-01. - https://beijing.mfa.gov.az/en/news/3248/dedicated-to-the-memory-of-a-great-man [Müraciət tarixi: 03.05.2022].

**АФЕТ САФАРОВА**
*Доцент кафедры «Дипломатии и современных интеграционных процессов» Бакинского Государственного Университета*

**САБИНА ГАРАШОВА**
*Доцент кафедры «Дипломатии и современных интеграционных процессов» Бакинского Государственного Университета*

# ДИПЛОМАТИЧЕСКОЕ НАСЛЕДИЕ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

Научная статья посвящена дипломатической деятельности Общенационального лидера азербайджанского народа Гейдара Алиева. С возвращением Гейдара Алиева к руководству страной в 1993 году во внешней политике независимой Азербайджанской Республики произошли серьезные изменения. Многочисленные зарубежные визиты Гейдара Алиева значительно повысили авторитет Азербайджана в мировом сообществе, сыграли большую роль в построении добрососедских отношений, экономических связей, интеграции в мировое сообщество. 20 сентября 1994 года состоялось подписание «Контракта века», вошедшего в историю как одно из главных и значимых событий XXI века, и, тем самым была сформирована

экономическая концепция Азербайджана и определена одна из линий внешнеполитической стратегии государства. В то же время важнейшее место во внешней политике Гейдара Алиева занимало мирное урегулирование Армяно-Азербайджанского, Нагорно-Карабахского конфликта. Идея интеграции тюркоязычных народов, автором которой является Гейдар Алиев, открыла горизонт для новых инициатив в современной мировой политике.

*Ключевые слова*: Гейдар Алиев, внешняя политика, нефтяная стратегия, армяно-азербайджанский конфликт, тюркоязычные государства.

**AFAT SAFAROVA**
*Associated Professors chair of Diplomacy and modern integration processes of Baku State University*

**SABINA QARASHOVA**
*Associated Professors chair of Diplomacy and modern integration processes of Baku State University*

## DIPLOMATIC HERITAGE OF NATIONAL LEADER HEYDAR ALIYEV

The scientific article is devoted to the diplomatic activity of the national leader of the Azerbaijani people Heydar Aliyev. With the return of Heydar Aliyev to the leadership of the country in 1993, serious changes took place in the foreign policy of the independent Azerbaijan Republic. Numerous foreign visits of Heydar Aliyev significantly increased Azerbaijan's prestige in the world community, played a big role in building good neighborly relations, economic ties, and integration into the world community. On September 20, 1994, the "Contract of the Century" was signed, which went down in history as one of the main and significant events of the 21st century, and thus the economic concept of Azerbaijan was formed and one of the lines of the state's foreign policy strategy was determined. At the same time, the peaceful settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict occupied the most important place in Heydar Aliyev's foreign policy. The idea of integration of the Turkic-speaking peoples, the author of which is Heydar Aliyev, has opened the horizon for new initiatives in modern world politics.

*Keywords*: Heydar Aliyev, foreign policy, oil strategy, armenian-azerbaijani conflict, Turkic states.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24)**

**RABİL SÜLEYMANLI**
*t.ü.f.d., Bakı Dövlət Universiteti*
*Azərbaycan Tarixi kafedrasının baş müəllimi (təbiət fakultələri üzrə)*
**rabilsuleymanli123@gmail.com**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BAKINI AZAD ETMƏK UĞRUNDA MÜBARİZƏSİ

*Məqalədə XX əsrin əvvəllərində beynəlxalq vəziyyət, Azərbaycan Xalq Cumhuriyyətinin yaranması, Bakının bolşevik-daşnaklardan azad edilməsi üçün Azərbaycan diplomatlarının apardığı diplomatik mübarizə və qardaş Türkiyənin köməkliyi ilə Bakının azad edilməsindən bəhs edilir.*

*Açar sözlər*: Azərbaycan Xalq Cumhuriyyəti, Bakı, bolşevik, demokratiya.

***Giriş**: 1918*-1920-ci illər Azərbaycan tarixinin elə bir dövrüdür ki, onu dəqiq, geniş, obyektiv öyrənmədən yazılan tariximiz yarımçıq olardı. Vaxtı ilə mühacirətdə yaşayan M. Rəsulzadə bu dövrü nəzərdə tutaraq yazmışdır: "Milli Azərbaycan Respublikasının qurulduğu, 1918-ci ilin 28 mayına qədər çağdaş Azərbaycan tarixinin ibtidasını 19-cu əsrin başlanğıcından saya bilərik. Bu tarixdən bəri Azərbaycan cəmiyyəti, düşdüyü çətin şəraitə baxmayaraq, orta çağların əsaslarını zehniyyətlərdən sıyıraraq çağdaş mədəniyyətə doğru getmişdir. Həmin tarixdə bir neçə feodal xanlıqlar halında istilaya uğrayan Azərbaycan 1918-ci ilin 28 mayında Beynəlxalq həyat səhnəsinə tək bir millət olaraq çıxdı və respublika şəklində qurduğu dövlətin istiqlalını bütün cahana elan etdi.

Çağdaş Azərbaycan tarixi ancaq bu böyük hadisənin işığı altında həqiqətən tədqiq edilə bilər çünki bu tarix, çağdaş tariximizin keçmişini və gələcəyini müşahidəyə yarayan, yüksək baxım nöqtəsidir" (1). 1918-ci il may ayının 28-də Azərbaycan tarixində böyük hadisə baş verdi – Azərbaycan Xalq Cumhuriyyəti elan olundu. Gənc Respublikanın yaranması olduqca ağır bir dövrə təsadüf edirdi. Daxili və xarici düşmənlərin çoxsaylı təxribatları böyük dövlətlərin etimadsızlığı, təzyiqləri ağır sosyal iqtisadi vəziyyət yeni dövlət quruculuğu üçün ciddi maneələr yaradırdı. M.Ə.Rəsulzadə "Əsrimizin Siyavuşu" əsərində bu məsələlərə toxunaraq yazırdı: Pərişan və düşkün bir haldan süsləşmiş olub çıxan Azərbaycanın içdən və qıraqdan çoxlu duyğuları çıxdı. Sağından və solundan bir-bir qarışıqlıq şəklində ortaya çıxan qarabasdılar (kabus, qara qüvvələr - RS) min cürə hilə və pis niyətlər ilə Azərbaycanda qatmaqarışıqlıq yaradır, onu rahat buraxmırdılar. Birisi əlində Denikinin siyah örtüsü digəri isə Leninin qanlı pərdəsi ilə Azərbaycanın ağ günü qara, mavi səmasını qanlı etmək istəyirdilər nəhayət bu iki qüvvə Azərbaycana qarşı düşmanlıqlarından əl birliyi edərək, dünya millətləri arasında tam bərabərliyə malik bir hüquqla yaşamaq istəyən, bu gözəl məmləkətin aydın həyatını bulandırırdılar, mühitini qara, qırmızı buludlara örtürdülər" (2, s.112). Bütün bu çətinliklərə baxmayaraq, yeni yaranan Azərbaycan Xalq Cümhuriyyəti müstəqillik və suverənlik kursunu saxlamaq, və möhkəmləndirmək üçün, bütün mümkün variantlardan istifadə edirdi. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci mayın 28-də Tiflis şəhərində elan olunmuşdur. 1918-ci il iyul ayının 16-da Gəncəyə köçən Azərbaycan hökuməti qarşısında duran başlıca vəzifə, Bakını bolşevik-daşnaq istilaçılarından azad etmək idi.

Bakının alınması isə asan məsələ deyildi - həm siyasi, həm də hərbi cəhətdən. Çünki bu dövrdə Bakı bir çox iri dövlətlərin maraqlarının toqquşduğu bir şəhər idi. Rusiya, İngiltərə, Almaniya və digər dövlətlər bu strateji ərazi uğrunda kəskin mübarizə aparırdılar. 1918-ci il aprelin 25-də Bakı fəhlə, əsgər və matros deputatları sovetinin iclasında Bakı Quberniya Xalq Komissarları Soveti seçildi. Bakı Xalq Komissarları Sovetinin tərkibinə bolşeviklərdən başqa bir neçə soleser daxil oldu. Bakı Xalq Komissarları Sovetinin sədri və Xarici işlər komissarı vəzifəsinə S.Şaumyan, Daxili İşlər Komissarı Caparidze, Hərbi və Dəniz İşləri Komissarı vəzifəsinə Karqanov, Xalq Təsərüffatı Şurasının Komissarı Vəzifəsinə Fioletov, Şəhər Təsəruffatı vəzifəsinə Karinyan, Maarif Komissarı vəzifəsinə Kolesnikova, Yollar Poçt və Telegraf Komissarı vəzifəsinə isə Zevin təyin edildilər (3, s.545). Beləliklə, Bakı Quberniyasında hakimiyyət bolşeviklərin əlinə keçir. Təşkil olunan hökumətin tərkibindən aydın görünürdü ki, bu bolşevik-daşnaq hökuməti Azərbaycan xalqına yabançı olub, onun iradə-

sini ifadə etmirdi. Qorxulu cəhət o idi ki, Azərbaycan xalqı arasında dayağı olmayan, onun mənafeyini qorumayan bu hakimiyyət bütövlüklə Moskvaya, rus qüvvələrinin köməyinə arxalanırdı. Məqsəd, tezliklə bütün Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinə nail olmaq idi. Hadisələrin təhlili və tarixi sənədlər də dediklərimizi təsdiq edir. Məsələn, 1918ci il mayın 22-də Şaumyan Zaqafqaziyada yaranmış vəziyyət haqqında Stalinə göndərdiyi radioteleqramda yazırdı: "Yelizavetpol bəyləri bizə qarşı yeni yürüyüşə başlamışlar, Hacıqabul rayonunda dünən Bakıya gedən yolları mühafizə edən dəstələrimiz ilə süvarilər arasında toqquşma olmuşdur. Təcili olaraq adam və silahla kömək göndərilməlidir". Rusiya dövləti Bakı Sovetinə böyük diqqət, qayğı, köməklik göstərdi. Lenin Bakı Sovetinə şəxsən özü himayədarlıq edirdi. Məhz onun fərmanı ilə Bakı sovetinə RSFSR dövlət xəzinəsindən yarım milyon rubl pul ayrılmışdı. Lenin Bakı komunasının üzvü Qriqoryana göndərdiyi məktubda milli partiyalara qarşı maksimum fəallıq göstərməyi tələb edirdi. 1918-ci il may ayının 24-də Şaumyan RSFSR XKS-nə Zaqafqaziyadaki vəziyyət haqqında məlumat verərək yazırdı "...Biz ən yaxın zamanda Yelizavetpol üzərinə yerimək üçün hazırlaşırıq. Oradan Bakı üzərinə nizami qoşun yürüyüşü təşkil edilir ola bilsin ki, onlar bizi qabaqlasınlar... Tez Yelizavetpola getmək lazımdır ki, orada sonra isə başqa yerlərdə ermənilər isyan etsinlər. Bu gürcü kəndlərinə də təsir edər və Seym qovular. Əgər bu üsyan baş verməzsə, Abşeron yarımadasını müdafiə etməli olarıq. Biz hazır olmadığımız üçün indiyə qədər Yelezevetpol üzərində yürüyüşə başlaya bilmirik. Bizim qüvvələrimiz Bakı quberniyası və Dağıstan vilayəti üzrə səpələnmiştir. Komanda heyəti yoxdur. Hətta Yelizavetpola doğru yeridiləcək qoşunlar üçün komandan tapa bilmirik. Pul silah və adamlarla yardım gözləyirik".

1918-ci il may ayının 1-də Bakı Xalq Komissarları bəyannaməsi dərc edilir. Bəyannamədə deyilirdi: "Bakı, fəhlə, əsgər və matros deputatları soveti özünün 25 Aprel tarixli iclasında Bakı Xalq Komissarları Sovetindən ibarət yerli hökumət təşkil etmişdir. Belə bir yerli hökumət orqanının yaradılması heç də Ümumrusiya sovet respublikasından ayrılmaq demək deyildi. Bakı Xalq Komissarları Soveti Ümumirusiya mərkəzi hakimiyyəti ilə ən möhkəm əlaqə saxlayaraq və Rusiya fəhlə kəndli hökumətinin – Ali Xalq Komissarları sovetinin bütün dekret və sərəncamlarını yerli şəraitə uyğun şəkildə həyata keçirəcəkdir. Əsası oktyabr inqilabı tərəfindən qoyulmuş olan, sovetlər respublikasında fəhlə və kəndli kommunarları respublikasında Bakı Soveti yenə də vahid, böyük ölkənin bir hissəsi olaraq qalmaqda davam edir. Bakı Xalq Komissarları Sovetinin əsas vəzifələrindən biri mərkəzi hakimiyyət ilə mümkün qədər sıx əlaqə yaratmaqdan, habelə Bakı fəhlələrinin və quberniyanın kəndli yoxsullarını bütün Rusiyanın fəhlə və kəndliləri ilə mümkün qədər daha çox birləşməkdən ibarət olacaqdır. Bakı Xalq Komissarları Sovetinin bəyannaməsində göstərilirdi ki, o bütün Zaqafqaziya və Dağıstan vilayətində Sovet hakimiyyətinin bərqərar olması uğrunda fəal mübarizə aparacaqdır. Göründüyü kimi, Bakı bolşevikləri Rusiyanın fəal hərbi iqtisadi və hərbi köməyi ilə sovet hakimiyyətinin nəinki Azərbaycanda hətta bütün Qafqazda yaymaq məqsədi güdürlər. Təhlükəli cəhət o idi ki, onlar bu əraziləri Rusiyaya birləşdirmək istəyirdilər. Buna görə də Bakının bolşeviklərdən azad edilməsi tək Azərbaycan üçün deyil bütün Qafqaz üçün əhəmiyyətli idi. İlk növbədə Azərbaycanın bolşevik-daşnaq hakimiyyəti altına düşməsinin qarşısını almaq, Azərbaycanı tam müstəqil bir dövlətə çevirmək üçün Bakının azad edilməsi zəruri idi. Ona görə də Gəncədə yerləşən Azərbaycan hökuməti bütün səylərini bu istiqamətə yönəltmişdi. Belə ağır bir zamanda, Azərbaycan diplomatiyası var gücü ilə işləyirdi. Hələ xeyli əvvəl Bakı Xalq Komissarları Soveti yaranarkən Zaqafqaziya Seymində olan Azərbaycan nümrayəndələri bu məsələni seymin müzakirəsinə çıxarmışdılar. Seyimdəki Azərbaycan fraksiyası qəti şəkildə bildirmişdir ki, Zaqafqaziya hökuməti Bakı Xalq Komissarları Sovetinin hakimiyyətinə son qoymazsa, onlar öz fəaliyyətini dayandıracaqlar. Seym Bakıya bir qədər hərbi əsgər göndərməyə nail oldusa, bunun bir köməyi olmadı. Seymin iclasında Bakı Xalq Komissarları Sovetinə münasibətdə erməni fraksiyası özünü bitərəf olduğunu elan etsə də, onlar Bakının bolşeviklərdən təmizlənməsinin əlehinə idilər. Lakin Türkiyə amilinin artdığını hiss edən, erməni fraksiyası bildirdi ki, onlar Bakı hadisələrini bir şərtlə ləğv etməyə hazırdılar ki, gələcək hakimiyyətdə təmsil olunsunlar, Bakıda erməni qoşunlarının saxlanılmasına icazə verilsin. Qurulacaq hökumət isə yalnız müsəlmanlardan ibarət olmasın. Beynəlmiləl mahiyyətdə olsun. Bu həyasız təklifi rədd edərək, Azərbaycan fraksiyası adından çıxış edən, X.Xasməmmədov bildirdi ki, Bakıda və Şərqi Zaqafqaziyada bütün hakimiyyət azərbaycanlılara məxsusdur. Əgər biz Bakını müvəqqəti olaraq itirmişiksə də, lakin

onu bütövlükdə əbədi olaraq qaytarmaq üçün hər şeyi etməliyik. Həmin iclasda Azərbaycan fraksiyasının təklifi ilə Seym iki maddəlik qərar qəbul etmişdir.

1 - Bakıda hakimiyyət müsəlmanlara verilməlidir.

2 - Müsəlman hərbi hissələri həmin höküməti müdafiə etmək üçün Bakıya daxil olmalı, erməni hərbi hissələri isə tərksilah edilib oradan çıxarılmalıdırlar.

Bu qərarın çıxarılması, Azərbaycan diplomatiyasının uğuru apardığları səmərəli işin nəticəsi idi. Lakin bu cür qərar və qətnamələrə baxmayaraq Seym daxilində olan fikir ayrılıqları Bakının bolşeviklərdən xilas edilməsinə əməli yardım göstərmədi. Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra, bu məsələ Azərbaycan hököməti qarşısında duran ən mühüm vəzifələrdən biri idi. Azərbaycan hökumətinin Gəncədə, Azərbaycan nümayəndələrinin İstanbulda göstərdikləri fəaliyyətin əsasında iki məsələ - Azərbaycan müstəqiliyinin iri dövlətlər tərəfindən tanınması və Bakının azad edilməsi dururdu. İstanbuldakі Azərbaycan nümayəndə heyyətinin rəhbəri M.Rəsulzadə Xarici İşlər Naziri Hacınskiyə göndərdiyi 1918-ci il 4 avqust tarixli məktubunda Bakının alınması zərurətinə toxunaraq yazırdı: "Bakı məsələsi bütün hallarda əhəmiyyət kəsb edir. Siz mütləq Bakını almalısınız ona görə ki, hamı fakt qarşısında qalsın onda işlər tamam başqa şəkil alar" (5, s.46). Sentyabr ayında vəziyyəti təhlil edən M.Rəsulzadə Xarici İşlər Naziri Hacınskiyə yazırdı; Bakı məsələsi ancaq qüvvədən aslıdır əgər Bakı alınmasa hər şey bitdi, əlvida Azərbaycan hətta alındıqdan sonra belə biz çoxlu diplomatik çətinliklərlə qarşılaşmalı olacağıq. Bu vəzifəni yerini yetirmək üçün biz qabaqcadan ordunu hazırlamalıyıq. Bu məsələ ilə bağlı Türkiyədə ictimai rəy, siyasi dairələr son həddə qədər narahatdılar. (6, s.123). Sentyabrın 1-də İstanbulda olan Azərbaycan nümayəndə heyyətinin başçısı Rəsulzadə bərk həyəcanla Azərbaycan hökümətinə bildirdi: Berlindən alınan məlumatlara görə bolşeviklərlə Almaniya arasında əlavə müqavilə imzalanmışdır. Qafqaz dövlətində bolşeviklər yalnız Gürcüstanın müstəqilliyini tanımışlar, Almanlar isə Bakıdan çıxarılan neftin bir hissəsini almaq müqavilində Rusiyanın Bakını və onun neft rayonlarını özündə saxlamaq arzularına etiraz etməmişlər. "Bu xəbər hamımızı sarsıtdı qəzetlər onu hiddətlə çap edir.

Tələt Paşa Berlinə getməyə hazırlaşır, necə olursa olsun Bakını almaq və almaq lazımdır" (6, s.120). Sentyabrın 6-da Azərbaycan nümayəndələri Sədrəzəm Tələt Paşa tərəfindənqəbul edildi. Danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Bakı məsələsində Almaniyanın tutduğu mövqe Bakının tezliklə azad edilməsinin zəruriyyəti müzakirə edildi. Az sonra Berlinə gedən Tələt Paşa, Almaniyadan təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini tələb etdi. Sentyabr ayının 12-də İstanbulda Azərbaycan nümayəndələri Osmanlı dövlətindəki Almaniya səfirliyinə Azərbayacan hökumətinin etiraz notasını təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə Avstriya-Macarıstan və Bolqaristan səfirliklərinə habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi. Nota Bakı ilə bağlı Almaniyanın mövqeyinə etiraz edilir və Bakının Azərbaycanın bir hissəsi olduğu göstərilirdi. Sentyabr ayının ortalarında Azərbaycan-Türkiyə qoşunları tərəfindən Bakının azad edilməsi üçün əlverişli şərait yetişdi və real prossesə çevrildi. Görülən ciddi hərbi, diplomatik hazırlıqlardan sonra sentyabr ayının 15-də Bakıda həll edici hücum başlandı və həmin gün Azərbaycan ordusu Bakını tutdu. Həmin gün ingilis hərbi qüvvələri Bakını tərk etdilər. Axşama yaxın cəbhədən qaçan erməni dəstələrinin bir hissəsi də Ənzəliyə yola düşdü. Sentrokaspi hököməti tərəfindən həbs olunmuş Bakı XKS-nin rəhbərliyi azad edildi və onlar həmin axşam Bakını tərk etdilər. Sentyabrın 15-də Azərbaycan ordu hissələri Bakıya daxil oldu. Azərbaycanın paytaxtı azad edildikdən sonra Nuru Paşanın komandanlığı altında şəhər ətrafında dayanmış türk qoşunları sentyabrın 18-də Bakıya daxil oldu. Bakının azərbaycanlı əhalisi onları böyük sevinclə, xilaskar kimi qarşıladı. Bakının azad edilməsi təkcə Azərbaycan-Türkiyə uğurlu hərbi əməkdaşlığının deyil, eyni zamanda yeni formalaşan Azərbaycan diplomatiyasının ilk böyük qələbəsi idi. Azərbaycan hököməti noyabr ayının 17-də Bakıya daxil oldu. Bakının azad edilməsi ilə bağlı məlumatı Ənvər Paşa İstanbulda olan Azərbaycan nümayəndələrinə çatdırdı İstanbuldan Baş Nazir Xoyskiyə və Xarici işlər naziri Hacınskiyə yazdığı məktubunda M.Rəsulzadə göstərirdi ki, Bakının alınması burada əhval-ruhiyyəni qaldırmışdır. Qurban Bayramına düşdüyündən Türkiyədə Bakının azad edilməsi iki dəfə bayram edildi. Bakının azad edilməsində Türkiyənin böyük rolu oldu. Azərbaycana hərcür - siyasi, iqtisadi, hərbi və mənəvi yardım göstərən Türkiyənin Bakının azad edilməsindəki rolu həlledici idi.

***Nəticə:*** Bakının azad olunması ilə Azərbaycan hökuməti respublika hüdudlarında öz hakimiyyətini bərqərar etdi. Bu münasibətlə hökümətin yerləşdiyi oğlanlar gimnaziyasının qarşısında şəhər ictimaiyyətinin əzəmətli nümayişi keçirildi. Hökumətin üzvləri nümaişçilərin qarşısında təbrik nitqi ilə çıxış etdilər. Bakının ingilislərə söykənən mültəci sentrokaspiçi qüvvələrdən qurtulması ilə əlaqədər olaraq, alovlu nitq söyləyən Xoyski baş vermiş hadisələr qiymətləndirərək deyirdi: "Bizim də yaşamaq, azad yaşamaq haqqımız var nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular nə ingilislər, nə onların əl altıları, nə də ümumiyyətlə hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bildi. Onların 50 minlik orduya və texnikaya malik olmasına baxmayaraq kiçik qüvvənin həmləsinə tab gətirməyib, Bakını tərk etmələri öz rifahı və başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır." Bakıya köçdükdən sonra Azərbaycan hökuməti Bakı Xalq Komissarları Sovetinin bütün tədbirlərinin ləğv olunduğunu elan etdi və dövlət quruculuğu ilə məşğul olmağa başladı (7, s.363-364).

## ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, 27 oktyabr, 1918, No.20.
2. Rəsulzadə M.Ə. Azərbaycan Cumhuriyyəti. Bakı, Elm, 1990, 116 s.
3. Azərbaycan tarixi. 3 cilddə, III cild. Bakı, Elm, 1973, s.545.
4. Azərbaycanda Sovet hökumətinin qələbəsi uğrunda mübarizə. 1918-1920. Sənədlər və materiallar. Bakı, 1967, s.205.
5. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя Политика. Баку, изд-во Азербайджан, 1990, 632 с.
6. Həsənov C.P. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, Azərnəşr, 1993, 362 s.
7. Azərbaycan tarixi. 7 cilddə. V cild. Bakı, Elm, 2008, 672 s.

**РАБИЛЬ СУЛЕЙМАНЛЫ**
*Старший преподаватель Бакинского Государственного Университета, доктор философии по истории*

## БОРЬБА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ ЗА ОСВОБОЖДЕНИЕ БАКУ

В статье рассматривается международная обстановка в начале XX века, создание Азербайджанской Демократической Республики, дипломатическая борьба азербайджанских дипломатов за освобождение Баку от большевиков-дашнаков и освобождение Баку с помощью братской Турции.

*Ключевые слова*: Азербайджанская Демократическая Республика, Баку, большевик, демократия.

**RABIL SULEYMANLI**
*Senior Lecturer at Baku State University, Doctor of Philosophy in History*

## THE STRUGGLE OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC FOR THE LIBERATION OF BAKU

The article discusses the international situation in the early twentieth century, the establishment of the Azerbaijan Democratic Republic, the diplomatic struggle of Azerbaijani diplomats for the

liberation of Baku from the Bolshevik-Dashnaks and the liberation of Baku with the help of brother Turkey.

*Keywords:* Azerbaijan Democratic Republic, Baku, bolshevik, democracy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d.Mehman Abdullayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94 (479.24)**

**MUSA RƏHİMOĞLU (QULİYEV)**
*AMEA Naxçıvan Bölməsi, tarix üzrə fəlsəfə doktoru*
**kuliyevm@yandex.ru**

# GÖRKƏMLİ SİYASİ-İCTİMAİ XADİM, DİPLOMAT VƏ MAARİFÇİ BƏHRAMXAN NAXÇIVANSKİ

*Məqalədə 1918-1920-ci illərdə Naxçıvanda yaşanan hərbi problemlərin həllində Naxçıvan Araz-Türk Cümhuriyyətinin əhəmiyyətli yer tutmasından, onun rəhbərlərindən biri Bəhram xan Naxçıvanskinin həyat və fəaliyyətindən danışılır. Həmçinin 1920-ci ildən sonra mühacirətə getməyə məcbur olan Bəhram xan Naxçıvanskinin Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanın bolşevik işğalından azad edilməsi üçün apardığı mübarizəyə də aid tapılan arxiv sənədi elmi dövriyyəyə daxil edilmişdir. Məqalə yeni arxiv sənədləri və nəşr edilmiş monoqrafiyalar əsasında yazılmışdır.*

*Açar sözlər*: Naxçıvan, knyaz Xasay xan Usmiyev, Xurşid Banu Natəvan, Bəhram xan, Qafqaz Canişini, Gövhərtac, Tiflis.

***Giriş***. 1918-1920-ci illərdə yaşanan hərbi problemlərin içində Naxçıvan Araz-Türk Cümhuriyyətinin fəaliyyəti də əhəmiyyətli yer tutur. Naxçıvanda gözü olan çox dövlətlərin nümayəndələri və hərbçiləri ilə bu imarətin böyük salonunda da gərgin danışıqlar gedib. Zamanlar ötüşüb keçib. Amma naxçıvanlılar o dəhşətli və qəhrəmanlıqla dolu günləri, illəri unutmayıblar. Həmişə xatırlayıblar və nəsildən-nəsilə ötürüblər. O illərin qəhrəman döyüşçülərinin hər biri bizə doğmadır, əzizdir. Və bizim iki nəfərə - Bəhram xan Naxçıvanskiyə və general-mayor, məşhur sərkərdə III Kalbalı xan Naxçıvanskiyə mənəvi borcumuz var. Bu borcun ən ümdəsi bütün yüzilliklərdə qədim və qəhrəman Naxçıvanın müqəddəs torpaqlarını azğın düşmənlərdən qorumaqdır! Onlar kimi ölümün gözünə qorxmadan baxıb düşmənlə döyüşmək və onu məğlub etmək!

***Əsas hissə***. Adını çəkdiyimiz Bəhram xan qədim oğuz türk tayfası kəngərlilərin Bilici qoluna mənsubdur. Onun əcdadları məşhur sərkərdələr olublar və hələ səlcuqlardan da əvvəl Naxçıvanda yaşayıblar. Azərbaycanın dövlətçilik və milli dövlətçiliyinin yaranmasında, qorunmasında əvəzsiz xidmətləri olub. Dövlət idarə etmək və sərkərdə olmaq! Bu o qədər də asan məsələ deyil. Bəhram xanın ulu babaları bu məsələnin öhdəsindən bacarıqla gəliblər. Aparılan diplomatik danışıqlar və qəhrəmanlıqla dolu döyüşlər Naxçıvanı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi saxlayıb. Bu çətin və vacib məsələdə Bəhram xan Naxçıvanskinin də çiyinlərinə ağır yük düşüb.

Bəhram xan Əmanulla (Aman xan) xan Naxçıvanskinin ailəsində, 1874-cü ildə Naxçıvan şəhərində anadan olub. O, məşhur süvari generalı İsmayıl xan Naxçıvanskinin oğul nəvəsidir. Onun anası Xanbikə (Fatmabikə) Qarabağ xanı Mehdiqulu xan Cavanşirin nəvəsidir. Xanbikə unudulmaz şairə Xurşid Banu Natəvanın və knyaz Xasay xan Usmiyevin (milliyyətcə qumuq) qızlarıdır. Bəhram xanın uşaqlıq illərini Qarabağda, nənəsi Xurşid Banu Natəvanın yanında yaşamışdır.

Şairə nənəsi onun dövrünə görə zəruri olan rus dilini də yaxşı öyrənməsi üçün, qarabağlı barışdırıcı hakim Lunyankinin ailəsində də qalmasını məsləhət bilmişdir. Sonralar nənəsi bir müddət Tiflisdə yaşamalı olmuşdu. O, nəvəsi Bəhram xanı da Tiflisə aparmış və təhsil alması üçün realnı məktəbə qoymuşdur.

1888-ci ildə Aman xan Naxçıvanski və ailəsi Şimali Qafqazın mərkəzi olan Vladiqafqazdan , hərbi xidmətdən Naxçıvana qayıdarkən Bəhram xanı da Naxçıvana gətirirlər (1, v.35-42).

Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivində Bəhram xanın formulyar siyahısı saxlanılır (1904-cü ildə tərtib edilib). Oradakı qeydlərdən məlum olur ki, İrəvan quberniya idarəçiliyinin 18 mart 1894-cü il tarixli qərarı ilə Bəhram xana I dərəcəli dəftərxana xidmətçisi adı verilib və müvəqqəti olaraq Naxçıvan qəza polis idarəsinə IX dərəcəli məmur təyin edilib.

Bəhram xan Naxçıvanski 29 oktyabr 1896-cı ilə kimi qəza polis idarəsində işləyir. Özünün nümunəviliyi və bacarığı ilə diqqəti cəlb edir. Onu bacarıqlı bir işçi kimi əməyini qiymətləndirirlər. Bəhram xan 26 fevral 1896-cı ildə III Aleksandr çarlığından xatirə "gümüş medalı ilə" təltif olun-

muşdur. Həmin ilin 29 oktyabrında o, vətəndaşlıq idarəçiliyi üzrə əmrlə kollej reqistratoru vəzifəsinə təyin olunur. Kollej reqistratoru vəzifəsində işləyərkən çar hökumətinin Naxçıvan qəzasında əhalinin ilk dəfə siyahıya almasında fəal iştirak edir. Bu mühüm işdə göstərdiyi fəallığa görə Bəhram xan 1897-ci ildə "Tünd-bürünc" medalla mükafatlandırılıb. 13 avqust 1899-cu il tarixdə Vətəndaş İdarəçiliyi üzrə 60 nömrəli əmrlə İrəvan quberniyasının katibi vəzifəsinə təyin olunub (8, v.6-8).

1899-cu ildə Bəhram xan, Rusiya şəhərlərinə getmək üçün, Naxçıvan qəza rəisinə raport (yazılı məlumat) göndərir. Naxçıvan qəza rəisi ştabs-kapitan Enkel 2 sentyabr 1899-cu il tarixli məktubunda İrəvan qubernatoruna yazırdı: "Naxçıvan qəza polis idarəsinin X sinif məmuru Bəhram xan Naxçıvanskinin Rusiya şəhərlərinə getməsi üçün iki aylıq məzuniyyət verilməsi haqda raportunu Sizə təqdim edərək bildirirəm ki, onun xahişinin yerinə yetirilməsinə mənim heç bir etirazım yoxdur. Qəza rəisi: ştaps-kapitan Enkel" (7, v.1-3). Vətəndaş idarəçiliyi üzrə 18 yanvar 1903-cü il 7 nömrəli əmrlə Bəhram xan Naxçıvanski kollej katibi vəzifəsinə təyin olunub. 1 iyuı 1903-cü il tarixdə yaxşı xidmətinə görə 3-cü dərəcəli "Şir və Günəş" ordeni ilə təltif edilib. İrəvan qubernatorunun 30 mart 1905-ci il tarixli 41 nömrəli əmri ilə Bəhram xan Naxçıvanski İrəvan qubernatoru yanında xüsusi tapşırıqlar üçün kiçik məmur, 3 fevral 1906-cı il tarixli əmri ilə (№ 7) titulyar müşavir vəzifəsində işləyib. Bəhram xan Naxçıvanski 23 iyun 1907-ci ildə Naxçıvan şəhər müvəkillərinin iclasında 4 il müddətinə Naxçıvan şəhər başçısı (ştarosta) seçilir. Müvəkkillərin bu seçimini İrəvan qubernatoru da təsdiqləmişdir (8).

Qeyd edək ki, Naxçıvan şəhər başçısı və şəhər başçısının köməkçisi vəzifəsinə keçirilən seçkilərə dair seçki vərəqəsində şəhər başçısına iki nəfər Bəhram xan Naxçıvanski və Eynəli bəy Sultanov, şəhər başçısının köməkçisi vəzifəsinə isə 4 nəfərin namizədliyi verilib: Novruz ağa Kəngərli (bu məşhur Novruz ağa Kəngərli deyil), Mirzə Əliqulu Novruzov, Əyyub ağa Kəngərli və Nikolay Deykarxanov.

Arxivdə saxlanılan sənəddən-seçkinin iclas protokolundan görünür ki, səs çoxluğu ilə Bəhram xan Naxçıvanski dörd il müddətinə Naxçıvan şəhər başçısı və Əyyub ağa Kəngərli isə şəhər başçısının köməkçisi vəzifəsinə seçiliblər.

1828-ci ildə Naxçıvana İrandan köçürülən ermənilərin müvəkkilləri seçkidən razı qalmayaraq İrəvan qubernatoruna şikayət yazırlar. Arxiv fondunda saxlanılan sənəddən aydın olur ki, müsəlman müvəkkillər doğru hərəkət edərək erməni müvəkkillərin köməkçi olmalarına da imkan yaratmayıblar.

İrəvan quberniya idarəsində qraf V.F.Tizenqauzenin sədrliyi ilə erməni müvəkkillərin şikayət ərizəsinə baxılır, müzakirə edilir və aşağıdakı qərar çıxarılır: "Deyilənləri nəzərə alaraq şəhər işləri üzrə İrəvan quberniya idarəsi hesab edir:

1. Şəhər başçısı vəzifəsinə Bəhram xan Naxçıvanskinin seçilməsi tam qanunidir.
2. Əyyub ağa Kəngərlinskiyə gəldikdə isə quberniya idarəsi onu ləkələyən heç bir hadisə görmür.
3. Şikayətçilərin etirazının heç bir qanuni əsası yoxdur. Buna görə də quberniya idarəsi qərara alır ki, iyunun 28-də şəhər müvəkkillərinin keçirdiyi seçkilər tam qanuna uyğundur.

Sədr (imza)

Üzvlər (imzalar)"

İrəvan qubernatoru 21 avqust 1907-ci il tarixdə İrəvan quberniya idarəsinə Bəhram xan Naxçıvanskinin və Əyyub ağa Kəngərlinin təsdiq olunması ilə bağlı məktub göndərir. Bu məktub bir daha şikayətçi olan ermənilərin planlarını alt-üst edir. Məktubda yazılıb: "Quberniya idarəsinə bildirirəm ki, "Şəhər qanunlarının" 22 və 118-ci maddəsinin 9-cu bəndinə əsasən 28 iyun tarixdən mənim tərəfimdən Naxçıvan şəhər başçısı vəzifəsinə yanında xüsusi təlimatlar üçün kiçik məmur vəzifəsində işləyən Bəhram xan Naxçıvanski, köməkçi vəzifəsinə isə Əyyub ağa Kəngərli dörd il müddətinə təyin edilib. Təklif edirəm Bəhram xan Naxçıvanskinin xidmət siyahısını şəhər işləri üzrə quberniya idarəsinə təhvil verəsiniz.

Qubernator (imza)".

Bəhram xan Naxçıvanski dörd il müddətində Naxçıvan şəhər baçısı işlədiyi dövrdə maariflə bağlı məsələlərin həll edilməsində əsil vətənpərvərlik göstərmişdir. Onun Naxçıvanda təhsilin inki-

şafında, qız məktəbinin binasının tikilməsi üçün ianələrin toplanmasında və qız məktəbinin açılmasında, onların məktəbə cəlb olunmalarında, vətəndaşlardan daxil olan ərizə və xahişnamələrdə göstərilən problemlərin həll edilməsində böyük xidmətləri olmuşdur. Maraq üçün deyək ki, 1908-ci ildə İrəvan qubernatoru qraf Tizenquazen tərəfindən icazə verilmiş rus-tatar (Azərbaycan) qız məktəbinin Naxçıvan şəhərində binasının tikilib istifadəyə verilməsində pul ianəsi siyahısında Bəhram xan Naxçıvanskinin qohumları daha çox fəallıq göstərmişlər. Məsələn, Naxçıvanskilərdən İsmayıl xan - 300 manat, Cəfərqulu xan - 100 manat, Rəhim xan - 100 manat, Bəhram xan - 100 manat, Əkbər xan - 50 manat, Kamran xan - 100 manat, Xaqan xan - 25 manat, Süleyman xan - 20 manat, Feyzəli xan - 20 manat, Məhəmmədəli xan - 20 manat Naxçıvan şəhərinin digər imkanlı mənsəb sahibləri də qız məktəbinin tikintisinə köməklik göstəriblər və onların da adları ianə siyahısında qeyd edilib.

Arxiv sənədləri içərisində Naxçıvan şəhər müvəkkillərinin 1907-1910-cu illərdə Bəhram xan Naxçıvanskinin sədrliyi ilə keçirilmiş iclas protokollarında yuxarıda qeyd olunduğu kimi vətəndaşlardan daxil olan ərizə və xahişnamələrdə göstərilən məsələlərin baxılıb müzakirə edilərək, qəbul edilmiş qərarlar da tarixi baxımdan çox maraqlıdır (6).

Bəhram xan Naxçıvanski 14 fevral 1910-cu il tarixdə imperatorun Qafqazdakı canişinin 2 nömrəli əmri ilə Tiflisdə, Canişinin yanında xüsusi tapşırıqlar üçün VII dərəcəli məmur təyin edilir. Bu işdə ona atasının əmisi oğlu general Hüseyn xan Naxşıvanski köməklik edib. Tam süvari generalı Hüseyn xan Naxçıvanskinin canişin dəftərxanasının rəisinə yazdığı məktub da Gürcüstan Milli Arxivində saxlanılır. Vətəndaş idarəsi üzrə 23 dekabr 1911-ci il tarixli 92 nömrəli əmrlə Bəhram xana kollej assesoru adı verilmişdir.

Qafqaz canişinin 16 noyabr 1912-ci il tarixli 344 nömrəli əmrlə Bəhram xan Naxçıvanski Naxçıvan qəzasının 2-ci şöbəsinə Barışdırıcı Münsif təyin edilir(10).

İrəvan qubernatoru 21 noyabr 1912-ci il tarixli 604 nömrəli Naxçıvan qəzasının 2-ci şöbəsi üzrə Barışdırıcı Münsif Bəhram xan Naxçıvanskiyə məktub göndərib. Məktubda deyilir: "İmperator həzrətlərinin Qafqazdakı Canişinin 16 noyabr 344 nömrəli əmri ilə Siz Naxçıvan qəzasının 2-ci şöbəsinin Barışdırıcı Münsifi təyin olunursunuz. Buna görə də Sizə təklif olunur ki, dərhal iş yeriniz olan Naxçıvan şəhərinə gedəsiniz və oraya çatdıqda Barışdırıcı Münsif Ricukeviçdən bütün kitab, kağız və əmlakı təhvil alasınız, sonra isə vəzifənizin icrasına başlayasınız".

Qubernator: (imza).

Bəhram xan Naxçıvanski 2 il Tiflisdə yaşamış və Qafqaz Canişinin sarayında işləmişdir. Bəhram xan Naxçıvanski 14 may 1914-cü ildə (əmr № 4663) Romanovlar sülaləsi çarlığının 300 illiyi şərəfinə təsis edilmiş açıq rəngli bürünc medalla təltif edilmişdir. Ona Vətəndaş İdarəçiliyin 22 avqust 1914-cü il tarixli 59 nömrəli əmri ilə saray müşaviri rütbəsi verilmiş və bunun 14 fevral 1914-cü il tarixdən qəbul edilməsi əmrdə qeyd olunmuşdur.

Bəhram xan Naxçıvanskinin fəaliyyətini araşdırarkən onun 11 avqust 1914-cü il tarixdə yazdığı raport da maraq doğurur. O, Kənd işləri üzrə İrəvan quberniya idarəsinə göndərdiyi raportda deyilir: "Quberniya idarəsindən xahiş edirəm mənə çatan aylıq 3%-li krediti Daxili İşlər Nazirliyinin 8-ci paraqrafına əsasən müharibə qurtaranadək yaralı əsgərlərin hesabına keçirəsiniz".

8 sentyabr 1915-ci il tarixdə İrəvan quberniya Ədliyyə Nazirliyinin 63 nömrəli əmri ilə Bəhram xan Naxçıvanski 1 iyun 1915-ci ildən İrəvan Dairə Məhkəməsində fəxri Barışdırıcı hakim təyin edilir. 20 iyun 1918-ci il tarixdə İrəvan quberniya idarəsi ona tabe olan idarələrin bağlanması haqda əmr verilir. Daxili işlər şöbəsi müdirinin (14 iyun 1918-ci il tarixli 9 №-li əmr) sonra İrəvan Dairə məhkəməsində işləyən bütün işçilər azad edildiyi kimi Bəhram xan da tutduğu vəzifədən azad edilib.

Müvəqqəti hökumətin 29 iyun 1917-ci il tarixli qərarı ilə Bəhram xan Naxçıvanskiyə 6 aylıq 979 manat 98 qəpik və Zaqafqaziya Komissarlığının 3 mart 1918-ci il tarixli qərarı ilə 1733 manat məvacib verilmişdir.

Bəhram xan Naxçıvanski 1898-ci ildə Abbasqulu xan İrəvanskinin qızı Gövhərtac xanımla ailə qurmuşdur. 1899-cu ilin 12 aprel tarixində onların bu nikahından oğulları dünyaya gəlmişdir. Bəhram xanın formulyar siyahısında onun oğlunun adı Süleyman xan yazılıb. Amma bəzi sənədlər-

də Əziz xan kimi qeyd olunub. Hətta Cəmşid xan Naxçıvanskiyə məxsus foto-albomda da bir fotonun arxasında o özü "xalası oğlu Əziz" olduğunu yazıb. 1920-ci ildən sonra Əziz (Süleyman xan) xan da atası ilə birgə İrana mühacirət edib. Gimnaziya təhsili aldığından Səlmas şəhərində işləməsi haqqında məlumat vardır. Bəhram xanın həyat yoldaşı Göhərtac xanım vəfat etdikdən sonra o, ikinci dəfə leytenant Əlibəy Novruzovun qızı Sevər xanımla ailə qurub. İkinci nikahından 3 qızı dünyaya gəlib. Bunlardan Fatiməbikə xanım 1906-cı il tarixdə, Gövhərtac xanım 1908-ci ildə, İşrət xanım 1914-cü ildə Naxçıvanda anadan olmuşlar. Onlar da 1920-ci ildə ataları ilə birgə İrana mühacirətə getmişlər (2).

Bəhram xan 1918-ci ildə Naxçıvana qayıdır və ermənilərin təcavüzündən Naxçıvanı qorumaq üçün təşkil olunan taborun komandiri təyin edilir. Bəhram xan 1918-ci ildən 1919-cu ilin sonuna kimi Naxçıvanın müdafiəsində qəhrəmancasına iştirak edib. Erməni daşnaklarına qarşı mərdliklə vuruşub. Onun taboru Andronik Ozanyanın, Nijdenin, Dronun, Gibbonun, Doluxanovun və başqalarının başçılıq etdiyi erməni quldur dəstələrinin basqınlarının qarşısını almaqda digər döyüşən taborlarla birgə uğurlu döyüş əməliyyatları keçirmişlər. Bəhram xan Naxçıvanski Araz Türk Cümhuriyyətini quranlardan biri olmuş və hökumətin Xarici İşlər Komissarı olmuş və diplomatik danışıqlar üçün Tiflisə və Bakıya gedən nümayəndə heyətinə başçılıq etmişdir.

Bəhram xan 1919-cu il 28 fevralda Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Naxçıvanın general-qubernatoru təyin edilib. Naxçıvan general-qubernatorluğunda Bəhram xana Kərim xan İrəvanski hərbi işlər üzrə müavin, Hacı Mehdi Bağırov isə mülki işlər üzrə müavin təyin edilir. Amma hələlikdə məlum olmayan səbəblərə görə Bəhram xan mart ayının 16-da general-qubernatorluqdan istefa verir. 1919-cu ilin avqustunda Naxçıvan general-qubernatoru Səməd bəy Cəmillinskiyə köməkçi təyin olunub. Bu illərdə hansı vəzifədə olmasından asılı olmayaraq Bəhram xan Naxçıvanski erməni quldurlarının Naxçıvana amansızcasına təcavüzlərinin qarşısının alınmasında və daşnak ermənilərə qarşı döyüşlərdə Kəngərli igidləri kimi mərdliklə vuruşmuş və naxçıvanlıları dəfələrlə xilas etmişdir (4, s.74). Tarixi sənədlərdən məlumdur ki, Bəhram xanın başçılıq etdiyi xüsusi nümayəndə heyəti 1919-cu il martın 8-də Naxçıvandan Bakıya ezam olunur. Görkəmli Azərbaycan mütəfəkkiri Hüseyn Cavid də bu nümayəndə heyətinin tərkibində idi. Naxçıvandan gələn nümayəndə heyəti Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi ilə müəyyən məsləhətləşmələr, o cümlədən, Naxçıvan məsələsinin Paris sülh konfrasında müzakirə olunmasının mümkünlüyü haqqında danışıqlar aparmış və böyük ümidlərlə Naxçıvana qayıtmışdı (3, s.17).

Bəhram xan Naxçıvanski Bakıya gələrkən, yolüstü Tiflisdə Gürcüstan hökumətinin üzvləri ilə, həmçinin Gəncədə "müsavat"çılarla görüşərək, Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi ilə bağlı məsləhətləşmələr aparmışdı.

Bəhram xandan Araz-Türk Cümhuriyyətinin vəziyyəti haqqında ətraflı məlumat alan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə bir nümayəndə heyəti göndərdi. Həmin nümayəndə heyəti 3 nəfərdən (Teymur bəy Makinski Rəşid bəy İsmayılov və doktor Qənizadə) ibarət idi. Naxçıvan bölgəsinin nümayəndələri də - Bağır Rzayev, Məhərrəm Əliyev, Ələşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhram xan və oğlu Əziz xan Naxçıvanskilər də hökumətin göndərdiyi nümayəndə heyətinə qatıldılar.

Hökumət tərəfindən ayrılmış bir milyon manat pul verilmişdi ki, erməni təcavüzündən ziyan çəkmiş yerli azərbaycanlı əhalinin ehtiyacları üçün istifadə edilsin. Pulu gətirən Paşa Bayramov və Yusif bəy Qazıyev müvəqqəti olaraq Tiflisdə ləngimişdilər (5, s.62).

Bəhram xan Naxçıvanski 1919-cu ilin sonunda Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə Daxili İşlər Nazirliyinin Lənkəranda səlahiyyətli nümayəndəsi təyin olunur (9, s.342) Bəhram xanın Lənkəranda əhali arasında böyük nüfuzu olub. 1920-ci ilin aprelində bolşevik qoşunları Azərbaycanı işğal etdikdən sonra Bəhram xan Naxçıvanski İrana mühacirətə gedir. Qardaşı Əkbər xanın istintaq materiallarından məlum olur ki, Bəhram xan Təbrizdə yaşayırmış və Culfa-Təbriz qatarında bələdçi işləyirmiş. O, Təbrizdə "Müstəqil Qafqaz" təşkilatı yaradır. Demək olar ki, İranda olan naxçıvanlılar bu təşkilatın üzvləri olmuşlar. Həmin illərdə Bəhram xan, Nəzərəli xan (Böyük xan) və Parisdə yaşayan Əlimərdan bəy Topçubaşov yorulmadan bolşevizmə qarşı yorulmadan mübarizə

aparıblar. Bunu aşağıdakı məktub sübut edir" Azərbaycan Sülh nümayəndəliyinin Sədri cənablarına.

Cənab Sədr, Sizə bildirirəm ki, İran Azərbaycanında yaradılmış Azərbaycan Milli partiyası, xaricdəki Azərbaycan Sülh nümayəndəliyini rəsmi təşkilat kimi tanıyıb və tanıyır. Azərbaycan Respublikası adından biz hesab edirik ki, nümayəndəlikdən başqa, digər qrup və məsuliyyətsiz şəxslərin çıxışları tənqidə layiqdir.

Buna görə də, cənab sədr, biz hesab edirik ki, həmin məsuliyyətsiz şəxslərin çıxışlarına məhəl qoymadan doğma Azərbaycanımızın azad edilməsi üçün məhsuldar işinizi davam etdirəsiniz. Bizim qrup Sizə tamamilə etibar edir və sizin yorulmadan bizim doğma vətənimizin qəsbkarların zülmündən azad edilməsi işinizi hər zaman dəstəkləyəcəkdir. Bəhram xan və Böyük xan (Nəzərəli xan) Naxçıvanskilər" (1, 64-68v).

Bəhram xanın sovet çekistlərinin əlinə keçmiş bu məktubunu həyəcansız oxumaq olmur. Ulu babaları kimi içdiyi anda həmişə sadiq qalıb! Təəssüflər olsun ki, onun mühacirət illəri ilə bağlı ciddi axtarışlar aparmaq mümkün olmadığından, qətiyyətli eloğlumuzun - Bəhram xan Naxçıvanskinin və varislərinin son taleləri haqqında söhbət aça bilmirik.

***Nəticə***. Amma axtarışlarımıza son nöqtəni də qoymamışıq. Çünki Bəhram xan Naxçıvanskinin həyatı və fəaliyyəti doğma Azərbaycanımızın və onun ayrılmaz tərkib hissəsi Naxçıvanımızın azadlığına həsr olunub. Belə şəxsiyyətlər heç vaxt unudulmur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi: Əkbər xan Naxçıvanskiyə aid istintaq işi № 637, 68 v.
2. Cəfərov F., Quliyev M. Kəngərli xanlarından biri: Bəhram xan Naxçıvanski / "Şərq qapısı" qəzeti, 25 dekabr 2003, 15 yanvar 2004.
3. Hacıyev İ., Kəlbizadə E. Naxçıvanlı diplomatlar. Naxçıvan: Əcəmi NPB, 2017, 128s.
4. Hacıyev İ. Araz-Türk Cümhuriyyəti. Naxçıvan: Əcəmi NPB, 2021, 160s.
5. Hacıyev A. Qars və Araz-Türk respublikalarının tarixindən. Bakı: Azərnəşr, 1994, 124s.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): F.24, siyahı1, iş № 2100/2440, 11v.
7. NMRDA: F.23,siyahı1, iş №1949,3v.
8. NMRDA: F.31, siyahı1.iş 68,76v.
9. Нагдалиев Ф. Ханы Нахичеванские в Российской Империи. Москва: Новый Аргумент, 2006, 432с.
10. Национальный Архив Грузии (НАГ): Ф. 13, опись13, д.№68, 32л.

**МУСА КУЛИЕВ**
*Нахчыванский филиал НАНА, доктор философии по истории*

## ВИДНЫЙ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЙ ДЕЯТЕЛЬ, ДИПЛОМАТ И ПРОСВЕТИТЕЛЬ БАХРАМ ХАН НАХЧЫВАНСКИЙ

В статье рассказывается о важной роли Нахчыванской Аракско- Тюркской республики в решении военных проблем, произошедших в 1918-1920-х годах в Нахчыване, о жизни и деятельности одного из его руководителей Бахрам хана Нахчыванского. Также были пущены в научный оборот от найдённые архивные документы о борьбе Бахрам хана Нахчыванского, который после 1920-го года вынужден был эмигрирован за осовобеждение неотъёмлемой части Азербайджана-Нахчывана от большевистского захвата. Статья написана на основе изданных монографий и новых архивных документов.

*Ключевые слова*: Нахчыван, Князь Хасай хан Уцмиев, Хуршид Бану Натаван, Бахрам хан, Кавказский Наместник, Гювхартадж, Тифлис

**MUSA GULIYEV**
*Nakhchivan Branch of ANAS, Doctor of Philosophy in History*

## THE EMINENT POLITICAL AND PUBLIC FIGURE, DIPLOMAT, ENLIGHTENER BAHRAM KHAN NAKHCHIVANSKI

The article investigates significant place of the Nakhchivan Araz Turk Republic in solving military problems in Nakhchivan, in 1918-1920. The life and activity of Bahram khan Nakhchivanski, who was one of the leaders of the republic is highlighted in the paper as well. Bahram khan Nakhchivanski's activity as a diplomat and enlightener is also spoken about here. The found archive material about Bahram khan Nakhchivanski's struggle for the liberation of Azerbaijan and its integral part from Bolshevik occupation, who was forced to be emigrant after 1920, was added to the research work. The article was written on the basis of new archive documents and printed monographs.

*Keywords*: Nakhchivan, Duke Khasay khan Usmiyev, Khurshid Banu Natavan, Bahram khan, Causasian Viceroy, Govhertaj, Tiflis.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçi: Akademik İsmayıl Hacıyev.*

**UOT 94**

**TURAN AXUNDOVA**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin dosenti*
**turanakhundova@bsu.edu.az**

**AYTAC BƏDƏLOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
**atc.bedelova@gmail.com**

# XX ƏSRİN SONU-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ CÜMHURİYYƏTİ İLƏ RUSİYA FEDERASİYASI ARASINDA İQTİSADİ MÜNASİBƏTLƏR

*XX əsrin 90-cı illərində dünyanın 1/6-ni əhatə edən Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) dağılması ilə soyuq müharibə başa çatmış, yeni bir dünya düzəni yaranmışdı. Yeni yaranmış Rusiya Federasiyası baş verən hadisələrə münasibət göstərmir, daxilində baş verən ictimai və siyasi problemlər onunu qlobal dövlətdən regional dövlət səviyyəsinə salmışdı. 1990-cı illərin II yarısından etibarən Türkiyə ilə Rusiya arasında münasibətlərin yeni dövrü başlamışdır. Türiyə ilə Rusiya arasında iqtisadi əlaqələrin yaranması hər iki ölkənin iqtisadiyyatına müsbət təsir etmişdir. İqtisadi əlaqələrin böyüklüyü, hər iki ölkə iqtisadiyyatının bir-birini tamamlaması onların bir çox sahədə əməkdaş olmasına imkan yaratmışdır. İqtisadi əlaqələrdə qaz alışı sahəsində Mavi Axın, Türk Axını kimi layihələr mövcud olmuşdur. 2010-cu ildə Yüksək Səviyyəli Əməkdaşlıq Şurası, Türk-Rus Sosial Forumu kimi mexanizmlərin yaradılması, Akkuyu AES, Mavi Axının həyata keçirilməsi, iki dövlət arasındakı əlaqələrin ən vacib göstəriciləridir.*

*Açar sözlər*: Türkiyə iqtisadiyyatı, ticarət, Birgə Strateji Planlaşdırma Qrupu, neft, Türk Axını, Akkuyu Atom Elektirik Stansiyası, turizm.

***Giriş***. Rusiya ilə Türkiyə arasında münasibətlər həm siyasi, həm də iqtisadi cəhətdən hər iki ölkənin yaxınlaşmalarına səbəb olmuşdur. İki ölkə arasındakı siyasi münasibətlərin sabitliyinin qorunmasında və digər sahələrdə iqtisadi asılılıq əməkdaşlığa təsir edən əsas faktorlardan biridir.

Türkiyə və Rusiya arasındakı münasibətlərin ən vacib istiqamətlərindən biri də iqtisadi əlaqələrdir. Belə ki, Türkiyə Rusiya hesabına neft, təbii qaz və digər xammal tələblərini ödədiyi halda, Rusiya Federasiyası isə xüsusilə tekstil və qida olmaq üzrə bir çox istehlak malını Türkiyədən idxal edir. Türkiyə və Rusiya Federasiyası arasında siyasi fikir ayrılıqlarına baxmayaraq, Türkiyənin digər ölkələrlə iqtisadi və ticarət əlaqələrindən fərqli olaraq, Rusiya iqtisadiyyatı ilə bir-birini tamamlayıcı bir xüsusiyyətə malik olduğunu görmək mümkündür. İkitərəfli münasibətlərdə Türkiyənin istehlak mallarını Rusiyaya ixrac etməsi, çox sayda rus turistini ölkədə qonaqlaması, neft, təbii qaz və daş kömürü Rusiyadan idxal bu əlaqələrin bir quruluşa sahib olduğunu göstərməkdədir. Ümumilikdə, Türkiyə-Rusiya iqtisadi əlaqələri yüksələn xətlə inkişaf etməmiş, bəzi problemlər də yaranmışdır.

*Acar sözlər:* Azərbaycanda ali təhsil, ali musiqi təhsili, Boloniya prosesi, Azərbaycanda ali təhsilin Avropa təhsil məkanına inteqrasiyası, Azərbaycanda universitetlərin beynəlxalq əməkdaşlığı, ali musiqi təhsili sistemində beynəlxalq əməkdaşlıq.

**AZAD RZAYEV**
*Doctor of Philosophy in History, Associate Professor*

**ALI ALIYEV**
*Senior researcher of BMA named after U.Hajibeyov*

## INTERNATIONAL COOPERATION IN THE HIGHER MUSIC EDUCATION SYSTEM

This article seeks to define the main content and features of international cooperation in the higher music education system in accordance with the principles established by the Bologna system. The article notes that the development of international relations in the higher education system, including music, is based on the documents of the Bologna process, the legislation of the Republic of Azerbaijan, decrees and resolutions of the President of the Republic of Azerbaijan and state programs for the development of higher education. Great attention was paid to the implementation of the provisions of the Bologna Process of the Republic of Azerbaijan in the framework of international cooperation with the higher music schools of the Republic, educational institutions of the CIS and European countries.

*Keywords:* higher education in Azerbaijan, higher musical education, the Bologna process, integration Azerbaijani higher education into the European educational space, international cooperation of Azerbaijani universities, international cooperation in the system of higher musical education.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 327; 930.22**

**ƏLİMUSA İBRAHİMOV**
*Siyasi Elmlər üzrə Fəlsəfə Doktoru,*
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin müəllimi.*
**ialimusa@mail.ru**

# İRAN-RUSİYA MÜNASIBƏTLƏRİNƏ QLOBALLAŞMANIN TƏSİRİ

*Məqalədə müasir dövrdə İran-Rusiya münasibətlərinin əsas amilləri nəzərdən keçirilir. Müəllif İran və Rusiya arasında münasibətlərin inkişafına qloballaşmanın təsirini təhlil edir. İran-Rusiya münasibətlərində son onillikdə baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.*

*Açar sözlər*: İran, Rusiya, qloballaşma, əməkdaşlıq, münasibətlər.

***Giriş***. Qloballaşma dövründə hökumətin iqtisadi proqramları xarici siyasətin məqsədlərinə təsir göstərir. Dövlətlər xarici əlaqələrini, əsasən, iqtisadi və ticari məqsədlər əsasında inkişaf etdirirlər.

Ölkələr arasında iqtisadi qarşılıqlı asılılığın artlması qlobal siyasətin mahiyyətini dəyişdirmişdir. Kommunikasiyalar sahəsində inqilab, iqtisadi, sosial və mədəni mübadilənin inkişafı, transmilli və çoxmilləti şirkətlər, transmilli ictimai hərəkatlar və beynəlxalq qeyri-hökumət təşkilatları kimi qeyri-dövlət aktorlarının beynəlxalq münasibətlərin ən mühüm oyunçuları kimi meydana çıxması dövlələrin gücünü xeyli məhdudlaşdırmışdır. Həqiqətən, yeni texnologiyaların inkişafı hakimiyyətin əks-mərkəzləşdirilərək dövlət və qeyri-dövlət aktorları arasında bölünməsinə gətirib çıxarmışdır. Hakimiyyət və təhlükəsizlik anlayışları da dəyişərək, ənənəvi və klassik mənalarından uzaqlaşmış və yeni meyar kəsb etmişdir.

Soyuq müharibə dövründə dövlətlər üçün təhlükəsizlik, ilk növbədə, hərbi xarakter daşıyırdı, lakin iyirminci əsrin sonu-iyirmi birinci əsrin əvvəllərində dövlətlərin diqqəti hərbi gücdən iqtisadi və mədəni gücə yönəlmişdir. Həqiqətən, soyuq müharibənin sona çatması və dövlətlərin azad bazara yönəlməsi ilə təhlükəsizliyin iqtisadi aspektləri (iqtisadi artım, rifah, tam məşğulluq, aşağı inflyasiya, yüksək investisiyalar, inkişaf etmiş istehsal) milli təhlükəsizliyin müəyyənləşdirilməsində daha böyük önəm kəsb etmişdir.

Amerikalı siyasətçi Robert Maknamara təhlükəsizlik anlayışındakı dəyişikliyi belə izah etmişdir: “Bu gün dövlətlərin təhlükəsizliyini təmin etmək yalnız hərbi qüvvələrdən asılı deyildir, hərbi qüvvələrdən başqa, ölkənin təhlükəsizliyinin təmin edilməsində iqtisadi göstəricilər dər vacibdir. Bu gün təhlükəsizlik silahların kölgəsində deyil, insan ağlından asılı olub, iqtisadi, siyasi və sosial inkişaf yolu ilə əldə edilir” [1, s.26].

Soyuq müharibə dövründə iki fövqəldövlətin, bütövlükdə Şərq və Qərbin silahlanma yarışı səbəbindən beynəlxalq təhlükəsizlik, əsasən, hərbi xarakter daşıyırdı, lakin Sovet İttifaqının dağılmasından sonra iqtisadi təhlükəsizliyə meyl gücləndi. Bu dövrdə ölkələrdə iqtisadi yoxsulluq və milli rifah səviyyəsinin aşağı olması təhlükəsizliyə təhdid kimi qiymətləndirilməyə başlandı. Başqa sözlə, iqtisadi və sosial inkişaf, ölkənin ümumi rifahı milli təhlükəsizliyə bərabər sayılır. Nəticə etibarilə, güc və hərbi imkanlar səviyyəsinin dövlətlərin qarşılıqlı əlaqələrini təyin etdiyi soyuq müharibə dövründən fərqli olaraq, hazırda dövlətlərin beynəlxalq sistemdəki yerini və təsirini məhz iqtisadi və mədəni imkanlar müəyyən edir.

Digər tərəfdən, yeni kommunikasiya texnologiyalarının kəşfi və inkişafı, coğrafi sərhədlərin əhəmiyyətini itirməsi insanların bir-birindən güclü asılılığına gətirib çıxarmış və beynəlxalq əməkdaşlıq üçün münasib şərait yaratmışdır. Dünyada insanların hərəkətinin asanlaşması ilə eyni vaxtda böhranların və təhdidlərin bir ölkədən və regiondan digər ölkələrə və bölgələrə yayılması daha asanlaşmışdır. Hadisələrin belə inkişafı ənənəvi təhlükəsizlik konsepsiyasının əksinə olaraq, yeni təhlükəsizlik mərhələsində ölkələrin bir-birindən asılı olmasına gətirib çıxarmışdır. Beləliklə, təhlükəsizlik ya hamıya, ya da heç kimə aid olmayan “ümumi nemət”ə çevrilmişdir.

Qloballaşma fenomeni və onun nəticələri İran və Rusiya da daxil olmaqla dövlətlərin xarici əlaqələrinə ciddi təsir göstərir. Baş vermiş dəyişikliklər iki sahədə xüsusilə aydın müşahidə olunur: birincisi, gücü əsasən hərbi-texniki kontekstdə müəyyənləşdirən Rusiya üçün hakimiyyət və təhlükə-

sizlik konsepsiyasındakı dəyişiklik Rusiyanın güc alətlərinin beynəlxalq münasibətlərdə təsirinin azalması deməkdir; ikincisi, Sovet İttifaqı dağılmazdan əvvəl İran və Rusiya arasındakı münasibətlər ənənəvi hakimiyyət və təhlükəsizlik anlayışı əsasında qurulmuşdu. Lakin ikiqütblü sistemin süqutundan sonra və gücün iqtisadi aspektinin önəminin tanınmasından sonra iki ölkə arasındakı dialoq elə dəyişdi ki, hətta hərbi əməkdaşlıq da iqtisadi məqsədlər çərçivəsində müəyyənləşdirilməyə başlandı.

İki ölkənin qloballaşma proseslərinə praktik yanaşmaları da onların münasibətlərinə təsir göstərir. Rusiya hökuməti də İran rəhbərliyi kimi, ABŞ-ın mədəni təsirindən və qloballaşma ilə əlaqədar siyasi identiklik problemlərindən narahat olsa da, Tehrandan fərqli olaraq, Moskva qloballaşmanı reallıq kimi qəbul etmişdir.

A.Zadoxin hesab edir ki, qloballaşma yeni proses deyildir və yalnız bəzi ölkələrin sui-qəsdi kimi qəbul edilməməlidir. Dünya ölkələrinin və xalqlarının artan qarşılıqlı asılılığı obyektiv proses kimi tarix boyunca müşahidə olunur [2, s.317]. Rusiyanı yalnız dünya səhnəsində daha güclü iştirak və qloballaşmanın iqtisadiyyata verdiyi imkanlardan daha yaxşı istifadə üçün münasib həllin seçilməsi üsulu narahat edir. Başqa sözlə ifadə etsək, qloballaşma dövründə Kremlin strateji hədəfi Rusiya iqtisadiyyatını inkişaf etdirmək, Rusiyanın dünya bazarlarında rəqabət qabiliyyətini artırmaq və ölkə iqtisadiyyatın neft və qaz ixracından asılılığını azaltmaqdır [3, s.252].

Hərbi və kosmik sənayedə güclü elmi potensiala və rəqabət qabiliyyətinə malik olan Rusiya beynəlxalq sistemdə təsir gücünü artırmaq imkanlarına sahibdir. Rusiyanın iştirakı olmadan yeni dünya sistemi yaratmaq mümkün deyildir. Rusiya Federasiyası, coğrafi baxımdan dünyanın ən böyük ölkəsi, aviasiya-kosmik elmi və sənayesi sahəsində dünyanın lider ölkələrindən biri olaraq, yeni dünya düzənində müvafiq yer tutmağa, ölkənin inkişafı və çiçəklənməsi üçün xarici investisiyalar cəlb etməyə və ən müasir texnologiyalardan istifadə etməyə çalışır. Rusiya xammal, insan ehtiyatları və geniş tədqiqat mərkəzlərinin mövcudluğu baxımından belə inkişaf üçün zəruri şərtlərə malikdir. Beləliklə, iqtisadi stimullar Moskvanın strateji hədəfləri sırasında daha mühüm yer tutmuş və qloballaşma prosesi ilə eyni vaxtda Rusiya üçün qaçılmaz olmuşdur [4, s.228].

Digər tərəfdən, son otuz ildə İran müxtəlif daxili və xarici böhranlara cəlb olunmuşdur, bu da ölkənin qlobal iqtisadiyyatdan təcrid olunmasına, geri qalmasına səbəb olmuş və dövlətin iqtisadi və siyasi inkişafını çətinləşdirmişdir. İran liderləri qloballaşma fenomenini milli maraqlara zidd hesab edirlər.

Son iki əsrdə İranın Qərblə münasibətləri təcrübəsi onun qloballaşma prosesinə cəlb edilməsi yolunda əsas maneədir. Konstitusiya, siyasi sistem və Tehranın Qərblə münasibətlərdəki mənfi təcrübəsi İran İslam Respublikasında qloballaşmanın iqtisadi, mədəni və siyasi nəticələrinin qəbul edilməsinə imkan verməmişdir. Başqa sözlə, İranın dini rəhbərliyinin tələbləri beynəlxalq sistemdə hökm sürən normalara zidd olduğu üçün qlobal iqtisadiyyata və siyasətə inteqrasiya da rəsmi Tehranın maraqlarına və siyasi-ideoloji məqsədlərinə ziddir. Məsələn, İran İslam Respublikası çoxmillətli şirkətlər və qlobal maliyyə qurumları ilə işbirliyi və qarşılıqlı əlaqələr qura bilməmişdir, çünki bu şirkətlərin aid olduğu və onları dəstəkləyən dövlətlərlə Tehran arasında siyasi ziddiyyətlər mövcuddur. İdeologiyaya söykənən xarici siyasət yürüdən İran mövcud Qərb beynəlxalq sisteminə meydan oxumuş və Qərb dövlətləri ilə münasibətlərindəki problemlər və beynəlxalq iqtisadi sistemə inteqrasiya etməkdən imtina etməsi səbəbindən qloballaşmanın iqtisadi imkanlarından istifadə edə bilməmişdir [5, s.65].

Məsələn, İran hökumətinin xarici investisiyalar cəlb etmək səyləri müxtəlif səbəblərdən investorlar və qlobal maliyyə qurumları tərəfindən mənfi reaksiya ilə qarşılaşır. İnkişaf etmiş Qərb ölkələri ilə gərginlik, xarici əlaqələrdəki qeyri-sabitlik və məhdudlaşdırıcı daxili qaydalar xarici investorlar üçün İrandakı riskləri artırır. Halbuki bu gün İranın əhalisinin artımını nəzərə alaraq iqtisadi inkişaf üçün ən mühüm tələbat xarici investisiyaların və ən yeni texnologiyaların cəlb edilməsidir. Aydındır ki, beynəlxalq investisiyalar cəlb etmək üçün böyük potensiala sahib olan hər bir ölkənin qlobal iqtisadiyyatda iştirak etmək və qlobal dəyişikliklərə təsir göstərmək şansı daha yüksəkdir. Təəssüf ki, İran iqtisadi qloballaşma yoluna qədəm qoyaraq xarici kapital və texnologiya əldə etmək fürsətini əldən vermiş, beynəlxalq standartlara və qaydalara riayət etmədən özünü bu sistemdəki imtiyaz və faydalardan məhrum etmişdir. Bu şəraitdə yalnız İranla digər ölkələr arasındakı texnoloji uçurum dərinləşməmiş, eyni zamanda investisiyaların və ölkədə dünya bazarlarında rəqabət qabiliyyətli məhsul is-

tehsalının azalması nəticəsində İranın bölgədəki və dünyadakı iqtisadi mövqeyi zəifləmişdir. Təbii ki, ölkənin iqtisadi və texnoloji geriliyi onun siyasi mövqeyinin zəifləməsinə və təhlükəsizlik səviyyəsinin azalmasına səbəb ola bilər, çünki uzunmüddətli perspektivdə zəif iqtisadiyyat milli təhlükəsizliyin müdafiəsini və ölkənin hərbi gücünü lazımi səviyyədə dəstəkləyə bilmir.

İqtisadi fəaliyyətin özəlləşdirilməsi, iqtisadiyyatda rəqabət qabiliyyətinin artması, Rusiyaya və İrana xarici sərmayələrin cəlb edilməsi kimi makroiqtisadi göstəricilərin öyrənilməsi iki ölkə arasında böyük uçurumun mövcud olduğunu göstərir. Moskva iqtisadi proqramlarını həyata keçirmək üçün dünya iqtisadi gücləri ilə əməkdaşlıq etməyə çalışır və Qərb hökumətləri tərəfindən müəyyən edilən dünya iqtisadiyyatını tənzimləyən prinsiplərə uyğun hərəkət edir. Ümumdünya Ticarət Təşkilatına üzv olmaq üçün ölkə sərbəst bazar iqtisadiyyatı qaydalarını tətbiq etməyə, özəl sektorun inkişafı üçün şərait yaratmağa və xarici investorları cəlb etməyə çalışır. Ümumdünya Ticarət Təşkilatına üzvlük Moskvanın inkişaf etmiş ölkələrlə ticarətinin artmasına və Rusiyanın bu ölkələrlə daha geniş iqtisadi inteqrasiyasına təkan vermişdir. Həqiqətən, Moskva iqtisadi məqsədlərlə özünün beynəlxalq davranışı arasında ağlabatan tarazlıq yaratmağa və iqtisadi məqsədlərinə və maraqlarına uyğun xarici siyasət yürütməyə çalışır. Digər tərəfdən, İran hakimiyyətin ideoloji strukturuna görə dünya iqtisadiyyatı ilə konstruktiv qarşılıqlı əlaqələrdən məhrumdur, çünki İran hökuməti mövcud beynəlxalq sistemi haqsız hesab edir və onun dəyişdirilməsini tələb edir. Bu siyasət qloballaşma dövründə İranın tələblərinə cavab vermir və ölkənin təcrid olunmasına gətirib çıxarmışdır[6, s.173].Məsələn, Rusiya hakimiyyəti daha çox iqtisadi inkişafda görərək iqtisadi məqsədlərini həyata keçirdiyi halda İranda hakimiyyət yenə də müstəqilliyi qorumaq, ideoloji hədəfləri reallaşdırmaq və dünya imperializminə qarşı mübarizə qabiliyyəti ilə izah olunur.

***Nəticə***. Beləliklə, qloballaşma dövründə regional və beynəlxalq səviyyədə dövlətlər iqtisadi mülahizələrə və maraqlara diqqət yetirmədən qərar qəbul etmirlər. Başqa sözlə ifadə etsək, dövlətlərin xarici siyasətində iqtisadi və mədəni hədəflər siyasi və təhlükəsizlik məqsədlərinə bərabər sayılır [7, s.574]. Nəticə etibarilə, iki dövlətin fərqli baxışlarına görə son illərdə onların münasibətlərinə təsir göstərən xarici amillərdən biri də qloballaşmaya münasibətdir. Qloballaşma İranla Rusiya arasında geniş əməkdaşlıq imkanlarını məhdudlaşdırır.

İranla Rusiya arasındakı münasibətlərdə ölkələr arasında qarşılıqlı iqtisadi əlaqələr dövründə geosiyasi məsələlər hələ də geoiqtisadi məsələlərdən üstün tutulur. İki ölkənin siyasi münasibətlərindən asılı olmayaraq, Rusiya ilə hərtərəfli əlaqələri inkişaf etdirmək üçün İran öz iqtisadiyyatını qlobal norma və tələblərə uyğunlaşdırmalı və beynəlxalq sistemə inteqrasiyaya səy göstərməlidir. Təbii ki, bu istiqamətdə hərəkət İranın Qərb dövlətləri ilə siyasi münasibətlərindəki gərginliyin yumşaldılması nəzərə alınaraq həyata keçirilməlidir.

## ƏDƏBİYYAT

1. Cohen, S. The security of south Asian / New York: University of Illinois Press. 1987, xiii, 290 p.
2. Задохин, А.Г. Внешняя политика России: национальное сознание и национальные интересы. Москва, Дипломат. Акад. МИД России, 2002, 229 с.
3. Shevtsova, L. The Next Russian Revolution» / Current History, 2012. – Vol. 111. №747. URL: www.currenthistory.org [Müraciət tarixi: 30.05.2022].
4. Россия и явление глобализации, Тегеран: Ежеквартальное издание Центральная Азия и Кавказ, 2002, №30, с.228-229.
5. Сари Алгалам, М. Понятие власти и функционирование внешней политики: сравнение Ирана и Китая / М. Сари Алгалам // Тегеран: Ежеквартальное издание Внешние отношения. – 2012. – № 1, с.64-65.
6. Бехкиш, М.М. Экономика Ирана в эпоху глобализации/ М. М. Бехкиш // Тегеран: издательство Ней. - 2007. С.173. (Сноска дана в переводе с фарси).
7. Фахери, М. Глобализация и внешняя политика / М. Фахери // Ежеквартальное издание Внешняя политика. – 2001. №4. С.574-575.

**АЛИМУСА ИБРАГИМОВ**
*Преподаватель факультета международных отношений*
*Бакинского государственного университета,*
*доктор философии по политическим наукам*

## ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ НА ИРАНО-РОССИЙСКИЕ ОТНОШЕНИЯ

В статье рассматриваются основные факторы ирано-российских отношений в новейшее время. Автор анализирует влияние глобализации на развитие отношений между Ираном и Россией. Особое внимание уделено изменениям в ирано-российских отношениях за последнее десятилетие.

*Ключевые слова*: Иран, Россия, глобализация, сотрудничество, отношения.

**ALIMUSA IBRAHIMOV**
*PhD, Lecturer at the Faculty of International Relations of Baku State University*

## INFLUENCE OF GLOBALIZATION ON IRANIAN-RUSSIAN RELATIONS

The article considers the main factors of Iranian-Russian relations in modern times. The author analyzes the impact of globalization on the development of relations between Iran and Russia. Particular attention is paid to the changes in the Iranian-Russian relations for the last decade.

*Keywords*: Iran, Russia, globalization, cooperation, relations.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, s.e.d. Adil Mirabdullayev.*

UOT 327

**ЛЯМАН КАРАЕВА**
*Доктор философии по политическим наукам, доцент*
*кафедры Международных отношений Бакинского Славянского Университета*
**karayeva@yahoo.com**

# УЧАСТИЕ АЗЕРБАЙДЖАНА И РОССИИ В СОВЕТЕ ЕВРОПЫ

*Участие в Совете Европы занимает одно из приоритетных направлений во внешней политике Азербайджана. В статье исследуется история вступления Азербайджанской Республики в Совет Европы. Реформы проводимые в стране в области защиты прав и свобод человека, проведение демократичесиких преобразований рассматриваются в контексте построения европейского правового пространства.*

*В статье также уделяется особое внимание участию Российской Федерации в Совете Европы. Рассмотрены конвенции и протоколы, к которым присоединилась Россия, ее взаимодействие с различными структурами Совета Европы. Благодаря статусу основного плательщика Российская Федерация обладала в организации рядом преимуществ, но к сожалению с 16 марта 2022 года Российская Федерация перестает быть членом организации.*

*В итоге отмечается, что несмотря на проблемы, Совет Европы и дальше сможет играть активную роль в формировании политико-правовой и социально-гуманитарной обстановки на европейском континенте, учитывая в равной степени права всех государств.*

*Ключевые слова*: Совет Европы, европейская организация, сотрудничество, Европейская Комиссия, Парламентская Ассамблея.

***Введение***. Во внешней политике Азербайджана Европа по праву занимает одно из приоритетных мест. Интересы страны в Европе реализуются как через широкие двусторонние отношения, так и через каналы многосторонней дипломатии. Один из них – Совет Европы (СЕ) [7, с.18].

Придавая большое значение развитию связей Азербайджана с Советом Европы, Президент Азербайджанской Республики Г.А.Алиев подписал 8 июля 1996 года специальное распоряжение «О мероприятиях по осуществлению программы сотрудничества между Советом Европы и Азербайджанской Республикой» [1, с.210]. За прошедшее время Азербайджан превратился в одного из активных членов организации, адаптируясь к новым европейским реалиям и вызовам, активно используя СЕ как рычаг строительства Большой Европы.

Путь Азербайджана в эту организацию, как и некоторых других постсоветских стран, отнюдь не был гладким. В стране была принята новая Конституция, отвечающая по многим своим параметрам европейским стандартам, отменена смертная казнь, был учрежден институт Уполномоченного по правам человека (Омбудсман), ликвидирована цензура в СМИ, начата реформа судебной системы.

Окончательное решение о приеме Азербайджанской Республики в Совет Европы в качестве полноправного члена было принято 17 января 2001 года на заседании Комитета министров [15, с.42]. На осенней сессии ПА был принят исторический документ в котором отмечалось, что Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт должен быть разрешен в рамках территориальной целостности Азербайджана. Это было большим достижением делегации Азербайджана [16, s.104].

2003 год был также удачным для азербайджанской дипломатии. На зимней сессии Парламентской Ассамблеи глава постоянной делегации И.Алиев был избран заместителем председателя ПА СЕ и членом бюро.

На 114 сесии Комитета Министров Совета Европы проходившем в Страсбурге 12-13 мая 2004 года министры иностранных дел государств участников приняли Заявление в котором говорилось о том, что СЕ приветствует факт продолжения переговоров под предводительст-

вом Минской группы ОБСЕ по Армяно-Азербайджанскому, Нагорно-Карабахскому конфликту [14, s.72].

На 124-й сессии Комитета министров Совета Европы проходившем в Вене 6 мая 2014 года председательство в данной структуре перешло от Австрии к Азербайджану. В том же году 24 мая Министерство иностранных дел Азербайджанской Республики распространило заявление в связи с визитами в Азербайджан генерального секретаря Совета Европы Торбьорна Ягланда и председателя Парламентской Ассамблеи Совета Европы Анна Брасора [8].

В результате консультаций проведенных между азербайджанской стороной и Секретариатом Совета Европы 17 октября 2018 года Комитет представителей Совета Европы одобрил очередной проект на 2019-2021 годы.

С большими надеждами на улучшение отношений с организацией поехала на сессию Парламентской Ассамблеи Совета Европы в сентябре 2019 года и азербайджанская делегация. Как сказал руководитель делегации Азербайджана в ПАСЕ Самед Сеидов, *наступает новый этап в отношениях Баку и Совета Европы, подтверждением чего стал двухдневный визит в сентябре 2019 года в Азербайджан президента ПАСЕ Лилиан Мори Паскье* [11].

Принятие Парламентской Ассамблеей Совета Европы 25 января 2005 г. резолюции 1416 «Конфликт в Нагорно-Карабахском регионе, решением которого занимается Минская конференция ОБСЕ» (докладчик Дэвид Аткинсон), в которой признается оккупация значительной части территории Азербайджана войсками Армении явилось хотя и запоздалым, но, не последним шагом в этом направлении [3, с.5].

Таким образом, эта организация доказала, что позиции официального Баку и СЕ по Армяно-Азербайджанскому конфликту Нагорно-Карабахскому конфликту совпадают.

28 января 2011 г. на заседании бюро ПАСЕ была создана временная комиссия ПАСЕ по Нагорному Карабаху. Несмотря на положительные тенденции, ныне Совет Европы по отношению к Азербайджану проявляет необъективную позицию. «*В Совете Европы процветают антиазербайджанские тенденции, азербайджанофобия и все обвинения в наш адрес исходят именно из азербайджанофобии*», - высказал президент Азербайджанской Республики И.Алиев на открытии Олимпийского комплекса в прифронтовом Тертерском районе 3 июня 2020 года. Президент также обвинил Совет Европы в несправедливой позиции по Армяно-Азербайджанскому Нагорно-Карабахскому конфликту. «*Ни одна влиятельная и солидная международная организация не признала так называемые «выборы», проведенные в Нагорном Карабахе.* «*Страны-сопредседатели Минской группы ОБСЕ, Европарламент, Движение неприсоединения, Евросоюз – все они осудили эти выборы. Лишь Совет Европы промолчал. В таких условиях, о какой объективности и справедливости может идти речь*», - подчеркнул президент Азербайджана [2].

Во время Отечественной войны 2020 года Генеральный секретарь Совета Европы Мария Пейчинович-Бурич призвала Азербайджан и Армению выполнить требование Европейского суда по правам человека (ЕСПЧ) и прекратить военные действия. Об этом говорится в ее заявлении: «*Я призываю все стороны конфликта немедленно прекратить военные действия и незамедлительно выполнить промежуточные меры, принятые ЕСПЧ*» [4].

Азербайджанская Республика своим участием обогащает Совет Европы и давно уже нашла ответы на вопросы в области защиты прав и свобод человека, хотя сама организация еще ищет ответы на эти вопросы. Среди них - проблема беженцев, сосуществование различных культур, совместимость ислама и демократии и гендерное равенство. Проблема беженцев на современном этапе, после событий в Сирии, Афганистане и Украине приобрела глобальное значение. И хотя СЕ ныне проводит неисчислимое количество саммитов, создает множество организаций, выделяет большое количество финансов, справиться с проблемой Запад не в состоянии. Азербайджан же практически без посторонней помощи сумел разместить и расселить около миллиона беженцев и вынужденных переселенцев, сумел обеспечить их право на достойную жизнь [11].

Другая европейская проблема - антисемитизм, который усилился в XXI веке, свидетельством чего является значительный рост числа нападений на евреев и актов вандализма. В са-

мом Страсбурге у дверей синагоги из соображений безопасности стоит полицейская охрана. Азербайджан же прославился исторически присущим ему мультикультурализмом и толерантностью.

Еще один фундаментальный вопрос, на который не может найти ответов Европа, - связка между исламом и демократией. В стране с мусульманским населением выстраиваются грамотные отношения с различными религиями и продолжается строительство демократического государства.

И последнее, в мусульманском Азербайджане отсутствует гендерное неравенство. Женщины в Азербайджане имеют абсолютно равные права с мужчинами, они закреплены в Конституции страны, причем право голоса азербайджанские женщины получили первыми на Востоке, еще в период первой республики, в 1919 году.

После того, как 16 марта 2022 года Россия перестала быть членом организации, она осуществляла определенное сотрудничество с Советом Европы(членом организации стала 28 февраля 1996 года).

В Концепции внешней политики Российской Федерации (30 ноября 2016 г.) поставлена задача продолжать работу в рамках Совета Европы как самостоятельной универсальной европейской организации.

Участие в конвенциях СЕ, а также в их разработке позволяла России вносить весомый вклад в создание общеевропейского правового пространства. Также как и Азербайджан, Россия ратифицировала многочисленные договора СЕ (65 из 225 договорно-правовых актов СЕ).

10 октября 2018 г. Российской Федерацией в числе первых государств был подписан Протокол о внесении изменений в Конвенцию о защите физических лиц при автоматизированной обработке персональных данных, 8 ноября 2018 г.

Россия участвовала в 9 из 14 автономных организаций системы СЕ. Осуществлялся регулярный диалог между российской стороной и руководством Секретариата СЕ.

Став членом Совета Европы РФ попала под юрисдикцию ЕСПЧ, после того, как, Государственная дума в 1998 году ратифицировала Европейскую конвенцию о правах человека.

Для координации деятельности российских министерств и ведомств в направлении Россия – СЕ в соответствии с Распоряжением Президента Российской Федерации от 13 апреля 1996 г. №188-рп «О мерах по обеспечению участия Российской Федерации в Совете Европы» была создана Межведомственная комиссия Российской Федерации по делам Совета Европы (МВК).

В 2005 г. при активном участии Российской Федерации был разработан основной антитеррористический документ Совета Европы – Конвенция о предупреждении терроризма, содержащая принципиально важные и актуальные положения о противодействии публичному подстрекательству к терроризму, вербовке и подготовке террористов (ратифицирована Россией в 2006 г.) [12, с.22].

Российские представители активно работали в таких структурах организации, как Группа государств по борьбе с коррупцией (ГРЕКО) и Комитет экспертов Совета Европы по оценке мер борьбы с отмыванием денег и финансированием терроризма (МАНИВЭЛ).

20 июня 2018 г. Генеральный секретарь Совета Европы Т.Ягланд находился в России с рабочим визитом, в рамках которого он был принят Президентом Российской Федерации В.В.Путиным. 21 ноября 2018 г. в Страсбурге прошли консультации Россия – СЕ по программам на 2019-2020 гг., по результатам был представлен обновленный программный документ, окончательно согласованный между сторонами в апреле 2019 г. [10]. 23-е заседание Межведомственной комиссии Российской Федерации по делам Совета Европы (МВК) также прошло в Москве 11 июня 2019 г., на котором были обсуждены основные вопросы сотрудничества, проблемы и перспективы.

Отличительной особенностью участия России в работе Совета Европы является ее членство в группе пяти государств – основных плательщиков в бюджет СЕ (Великобритания, Германия, Италия, Россия и Франция). Благодаря статусу основного плательщика Российская Федерация обладала рядом преимуществ (перевод заседаний органов и материалов СЕ на рус-

ский язык, функционирование интернет-сайта СЕ нарусском языке, максимально возможное количество мест в ПАСЕ (18) и др.).

ПАСЕ приняла решение в 2000 году - лишить права голоса РФ, однако уже в ходе зимней сессии ассамблеи в январе 2001 года полномочия российских парламентариев были восстановлены в полном объеме [13]. Вместе с тем, с учетом кризиса в ПАСЕ Российская Федерация приняла решение приостановить уплату взноса в бюджет СЕ и ряда его частичных соглашений до безусловного восстановления в полном объеме полномочий делегации Федерального Собрания Российской Федерации в Ассамблее [5].

Отношения России и СЕ реально ухудшились в 2014 году в связи с аннексией Крыма и войной в Донбассе. Право голоса российской делегации в ПАСЕ было приостановлено, и с тех пор российские делегаты не участвовали в работе ПАСЕ.

В связи с тем, что вопрос о восстановлении полномочий российских парламентариев в ПАСЕ не был урегулирован, данное решение оставалось актуальным и по состоянию на первую половину июня 2019 г. [6]. Протестуя против приостановки права голоса её делегации в ПАСЕ, Россия с 2017 года прекратила выплачивать членские взносы в СЕ.

После того как была перевернута страница санкций в ПАСЕ, российская парламентская делегация стала вносить активный и профессиональный вклад в работу Ассамблеи. В этом контексте можно лишь приветствовать тот факт, что генеральный секретарь Совета Европы М.Пейчинович-Бурич посетила Россию в октябре 2020 года.

25 февраля 2020 года Комитет министров Совета Европы приостановил членство России в этой организации [9]. Решение было принято в связи с событиями в Украине. На следующий день Комитет министров принял решение о том, что Российская Федерация перестает быть членом организации с 16 марта 2022 года [17].

***Заключение***. Подводя итоги, можно сказать, что Совет Европы останется площадкой для строительства единого правового пространства, основанного на общих (для всех стран) нормах, которые должны соблюдаться всеми государствами в равной степени. При разработке новых конвенций, протоколов или рекомендаций должны учитываться мнения всех стран-членов, необходимо искать компромиссные развязки в сложных вопросах.

Вступление Азербайджанской Республики в Совет Европы превратившее в реальность интеграцию нашей страны в демократическую семью европейских народов, явилось логичным результатом огромной работы, которая проводилась в Азербайджане в области строительства правового, демократического, светского государства, создания гражданского общества.

Вступая в Совет Европы, Азербайджан, наряду с выполнением обязательств данной структуры по демократической трансформации, также подготовил и реализовал свою национальную программу в области использования в дальнейшем, в качестве полноправного члена, предоставляемых Советом Европы возможностей.

Азербайджанская Республика, укрепляющая сотрудничество с Советом Европы, как его полноправный и активный член, постоянно руководствуется такими принципами деятельности, как защита прав человека, развитие демократических процессов в Европе и мире, равенство межгосударственных отношений, оказание содействия решению глобальных проблем, добросовестное выполнение обязательств, принятых как полноправным членом организации.

## ЛИТЕРАТУРА

1. Аббасбейли А., Гасанов А. Азербайджан в системе международных и региональных организаций. - Баку, Азернешр, 1999, 255 с.
2. Алиев И. В Совете Европы процветают антиазербайджанские тенденции "Москва-Баку"/ 03.06.2020. - https://moscow-baku.ru/news/politics [Дата обращения: 02.06.2022].
3. Алиев И. На пути к разрешению конфликтов на Южном Кавказе / Южный Кавказ: истоки сепаратизма, разрешение конфликтов, долговременный мир. Тбилиси, 2009 г. Посольство АР в Грузии, Универсал, с.4-15.

4. Генсек Совета Европы призвала Азербайджан и Армению прекратить военные действия / 1октября 2020 г. - https://tass.ru/mezhdunarodnaya-panorama/9601427 [Дата обращения: 02.06.2022].
5. Заявление МИД России от 30 июня 2017 г. И Комментарий ДИП МИД России от 10 июля 2017 г. - https://www.mid.ru/foreign_policy/rso/coe/-/asset_publisher/uube64zndjso/content/id/3011592 [Дата обращения: 02.06.2022].
6. Заявление МИД России от 4 июля 2018 г. - https://www.mid.ru/foreign_policy/rso/coe/-/asset_publisher/uube64zndjso/content/id/3011592/ [Дата обращения: 02.06.2022].
7. Мамедзаде Н. Взаимоотношения Азербайджанской Республики со славянскими станамит СНГ и Восточной Европы. Диссертация на соискание кандидата политических наук. Б., 2006 г., 132 с.
8. Министерство иностранных дел Азербайджанской Республики распространило заявление в связи с визитами в Азербайджан генерального секретаря Совета Европы и председателя Парламентской Ассамблеи Совета Европы 24.05.2014. - https://azertag.az/ru/xeber/ [Дата обращения: 02.06.2022].
9. Приостановлено членство России в Совете Европы / 25 февраля 2022. - https://www.interfax.ru/russia/824618 [Дата обращения: 02.06.2022].
10. Россия в Совете Европы. 2019 г. - https://www.mid.ru/rossia-v-sovete-evropy [Дата обращения: 02.06.2022].
11. Совет Европы потянулся навстречу Азербайджану/ 27 сентября 2019. - https://regnum.ru/news/polit/2731983.html [Дата обращения: 02.06.2022].
12. Солтановский И. Россия в Совете Европы // Международная жизнь, №2 2021, с.16-28.
13. Толстой П. Открытый, равноправный, демократичный диалог: на этих принципах мы развиваем ПАСЕ // Международная жизнь, №2 2021, с.28-438.
14. Mehdiyev A. Azərbaycan Avropa Şurasında (2001-2005). Bakı, Elm və Təhsil, 2011, 226 s.
15. Vəliyev A. Azərbaycan-Avropa Şürası. Demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı, «Elm», 2006, 235 s.
16. Vəliyev F. Azərbaycan-Avropa Şürası: demokratiya və insan hüquqları sahəsində əməkdaşlıq. Bakı, “Elm”, 2006, 235 s.
17. The Russian Foreign Ministry told how much Russia will save after leaving the Council of Europe. - https://en.news-front.info/2022/04/01/01.04.2022 [Дата обращения: 02.06.2022].

**LƏMAN QARAYEVA**
*Siyaysi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Slavyan Universiteti Beynəlxalq münasibətlər kafedrasının dosenti*

## AZƏRBAYCAN VƏ RUSİYANIN AVROPA ŞURASINDA İŞTİRAKI

Avropa Şurasında iştirak Azərbaycanın xarici siyasətində prioritet istiqamətlərdən biridir. Məqalədə Azərbaycan Respublikasının Avropa Şurasına daxil olması tarixi araşdırılır. Ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində aparılan islahatlar, demokratik islahatların həyata keçirilməsi Avropa hüquq məkanının qurulması kontekstində nəzərdən keçirilir.

Məqalədə həmçinin Rusiya Federasiyasının Avropa Şurasında iştirakına xüsusi diqqət yetirilir. Rusiyanın qoşulduğu konvensiyalar və protokollar, onun Avropa Şurasının müxtəlif strukturları ilə qarşılıqlı əlaqələri nəzərdən keçirilir. Əsas ödəyici statusuna görə Rusiya Federasiyası təşkilatda bir sıra üstünlüklərə malik idi, lakin təəssüf ki, 2022-ci il martın 16-dan etibarən Rusiya Federasiyasının təşkilatda üzvlüyü dayandırılıb.

Nəticədə qeyd edilir ki, problemlərə baxmayaraq, Avropa Şurası bütün dövlətlərin hüquqlarını bərabər şəkildə nəzərə almaqla Avropa qitəsində siyasi, hüquqi, sosial və humanitar vəziyyətin formalaşmasında fəal rol oynamağa davam edə bilər.

*Açar sözlər*: Avropa Şürası, avropa təşkilatı, əməkdaşlıq, Avropa Komissiyası, Parlament Assambleyası.

**LAMAN GARAYEVA**
*Doctor of Philosophy in Political Sciences,*
*Associate Professor of Department of International Relations Baku Slavic University*

## PARTICIPATION OF AZERBAIJAN AND RUSSIA IN THE COUNCIL OF EUROPE

Participation in the Council of Europe is one of the priorities in Azerbaijan's foreign policy. The article examines the history of the Azerbaijan Republic's accession to the Council of Europe. The reforms carried out in the country in the field of protection of human rights and freedoms, the implementation of democratic reforms are considered in the context of building a European legal space.

The article also pays special attention to the participation of the Russian Federation in the Council of Europe. The conventions and protocols to which Russia has joined, its interaction with various structures of the Council of Europe is studied. Due to the status of the main payer, the Russian Federation had a number of advantages in the organization, but unfortunately, from March 16, 2022, the Russian Federation ceases to be a member of the organization.

As a result, it is noted that despite the problems, the Council of Europe can continue to play an active role in shaping the political, legal, social and humanitarian situation on the European continent, taking into account equally the rights of all states.

*Keywords*: Council of Europe, European organization, cooperation, European Commission, Parliamentary Assembly.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Şəhla Nuruzadə, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**XƏYYAM İSMAYILZADƏ**
*Bakı Dövlət Universitetinin dosenti*
**ekonika22@yahoo.com**

**CAHAN ƏLİYEVA**
*magistr, Bakı Dövlət Universiteti*
**cahan.a.262@gmail.com**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA HƏRBİ ƏMƏKDAŞLIQ

*Məqalədə iki dövlət arasında həm siyasi, həm də hərbi əməkdaşlığın istiqamətləri və perspektivləri haqqında məlumat verilir. Eyni zamanda, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlətlər arasında münasibətlərin intensiv inkişaf etməsi, xüsusən Dağlıq Qarabağ münaqişəsinin həllində özünü daha aydın formada göstərmişdir ki, bu da məqalədə geniş təsvir olunur.*

*Açar sözlər*: Azərbaycan Respublikası, Pakistan İslam Respublikası, Dağlıq Qarabağ münaqişəsi, Hərbi Dəniz Donanması, hərbi-siyasi münasibətlər, təhlükəsizlik, hərbi-sənaye kompleksi, silahlı qüvvələr, hərbi-texniki əməkdaşlıq , diplomatiya.

***Giriş***. Azərbaycan Respublikasının Pakistan İslam Respublikası ilə əməkdaşlığında hərbi faktor mühüm rol oynayır. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Pakistan daim Azərbaycanı müdafiə etmiş, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən fərqli olaraq, birmənalı şəkildə daima ölkəmizin mənafeyinə uyğun siyasət yeritmişdir. Azərbaycan da BMT qətnaməsinə əsaslanaraq, Kəşmir probleminin həllində (1947-ci ildə Hindistan ordusu Pakistana məxsus Kəşmir əyalətinin bir hissəsini işğal etmişdir) Pakistanı dəstəkləmişdir. Qardaş ölkə Pakistan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həmişə öz qəti mövqeyini bildirərək, Azərbaycana dəstək olmuş və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmamış və onu bir dövlət kimi tanımamışdır [1, s.321].

2000-ci ildə dünya ictimaiyyətinə belə bir xəbər gəldi ki, Pakistan Azərbaycana Qarabağı geri almağa kömək edəcəkdir. Xəbərin mənbəyi isə Pakistan İslam Respublikasının prezidenti olmuşdur. İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) üzvlərinin iştirakı ilə Tehranda keçirilən sammitdə Ümumilli lider Heydər Əliyevlə görüşdən sonrakı çıxışında bildirdi ki, Bakı münaqişənin hərbi yolla həllini seçərsə, İslamabad ona hərbi yardım göstərməyə hazırdır. Eyni zamanda, Pakistan lideri əlavə etmişdir ki, söhbət Pakistan hərbçilərinin Azərbaycan ordusunun tərəfində istənilən formada hərbi dəstəkdən gedir. Azərbaycan lideri öz növbəsində bildirmişdir ki, Bakı Pakistanın Kəşmirlə bağlı mövqeyini dəstəkləyir. O zaman dövlət başçılarının bu bəyanatlarını bir çoxları diplomatik protokola uyğun bir qiymət versə də, əslində burada Azərbaycanla Pakistan arasında sıx hərbi əlaqələrinin qurulmasının təməli qoyulurdu. Lakin 2001-ci ildən etibarən aydın oldu ki, Azərbaycanın siyasi və hərbi rəhbərliyi Pakistanla müttəfiqlik münasibətlərini qurmaqda ciddi qərarlıdır. Qısa zamanda Azərbaycan hərbçilərinə hərbi-texniki əməkdaşlıq sahəsində, o cümlədən İslamabadla digər sahələrdə əlaqələr qurmaq tapşırığı verilmişdi. Məhz bu səbəbdən səfər proqramına təkcə Pakistan İslam Respublikasının Prezidenti cənab Müşərrəf və müdafiə nazirləri deyil, həm də xarici işlər, daxili işlər, neft və təbii sərvətlər nazirləri ilə də görüşlər daxil idi [2, s.106].

Azərbaycanın hərbi doktrinasına uyğun olaraq yeni texnologiyaların əldə edilməsi və müasir hərbi sənaye müəssisələrinin yaradılması, eləcə də mövcud əlaqələri inkişaf etdirmək üçün digər ölkələrlə hərbi-texniki əlaqələrin qurulması mühüm şərtdir. Ona görə də Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlığın hüquqi əsası 2002-ci ilin sentyabrında Kəraçidə qoyulmuş və hərbi-siyasi tərəfdaşlığın prioritet sahələrini əks etdirən Hərbi və Müdafiə üzrə Əməkdaşlıq Sazişi imzalanmışdır. Bu müqavilə ilə hər iki dövlət arasında hərbi əlaqələr daha da genişlənmiş, silahlı qüvvələrimiz üçün Pakistan istehsalı olan təyyarələr və digər silah növləri əldə edilmişdi [5]. Həmin tarixdən etibarən tərəflər arasında münasibətlər qarşılıqlı etimada əsaslanır. Bu kontekstdə Pakistan Prezidenti Pərviz Müşərrəfin 2004-cü il iyulun əvvəlində Azərbaycana səfərini xüsusi qeyd etmək lazımdır. Prezident

Bakıya səfəri zamanı tərəflər arasında müdafiə sahəsində ümumi maraqların olduğunu bildirmiş və geniş əməkdaşlıq təklif etmişdir. Həmçinin, açıq şəkildə bildirmişdir ki, onlar Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyətini təlim məqsədilə öz kurslarına qəbul etməyə hazırdırlar. "Zerkalo" qəzetinin müxbirinin qeyd etdiyi kimi, "Pakistan liderinin Azərbaycan parlamentinin iclas zalında çıxışı deputatların, eləcə də yerli KİV nümayəndələrinin əsl sevincinə səbəb olmuşdur. Deputatlar, qonaqlar və jurnalistlər ayağa qalxaraq dünyada hərbi nüvə potensialına malik yeganə müsəlman ölkəsinin rəhbərini sürəkli alqışlarla qarşıladılar".

Pakistan Prezidentinin səfərindən bir ay sonra, 2004-cü ilin avqustun əvvəlində Pakistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi M.Əziz Xan Azərbaycana səfər etdi. Məqsəd Pakistanın hərbi əməkdaşlıq sahəsində fəaliyyətini daha da genişləndirmək olmuşdur. Azərbaycanın Xarici işlər naziri M.Əziz Xan ilə görüşdə Azərbaycan ilə Pakistan arasında hərbi əməkdaşlığın daha da inkişaf etdiriləcəyini bildirmişdir. Pakistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycan tərəfini əmin etmişdir ki, Pakistan zabitlərin hazırlanmasında Azərbaycana bundan sonra da köməklik göstərəcəkdir.

2004-cü ilin sonunda Azərbaycan və Pakistan arasında hərbi əməkdaşlıq o qədər inkişaf etmişdir ki, Pakistanın Azərbaycandakı səfiri M.Hafiz açıq şəkildə ifadə etmişdir: "Biz əlaqələrimizin təkcə hərbi sahədə deyil, bütün sahələri əhatə etməsini arzulayırıq". Azərbaycan ordusunun döyüş qabiliyyətinin gücləndirilməsində maraqlı olması müdafiə əlaqələrinin inkişaf etdirilməsini prioritet istiqamətə çevirmişdir [1, s.321].

2005-ci ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasına cavab səfəri etdi. Azərbaycan Prezidentini İslamabadda Çaklala aviabazasında Pakistan nümayəndə heyətinin rəhbəri Pakistanın Müdafiə Sənayesi Naziri Həbibullah Xan Varrayx qarşılamışdır. Səfər zamanı altı saziş imzalanıb: "Azərbaycan və Pakistan arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında", "Nəqliyyat sahəsində əməkdaşlıq haqqında Memorandum", "Təhsil sahəsində əməkdaşlıq haqqında Saziş", "Rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş", "Maliyyə nazirlikləri arasında əməkdaşlıq haqqında Saziş", "Aviasiya sahəsində əməkdaşlıq haqqında Protokol". Hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində tərəflər arasında saziş bağlanmasa da, ikitərəfli səfərlər müdafiə sahəsində birgə işlərin inkişafına töhfə vermişdir [2, s.107].

Azərbaycan Prezidenti Pakistanlı həmkarı P.Müşərrəf və müdafiə naziri Rao Sikandar ilə görüşdən sonra Pakistanın Müdafiə Nazirliyinin nəzdində fəaliyyət göstərən Hərbi İxracın Təşviqi Təşkilatının sərgisinə baxmışdır. 12 ildir fəaliyyət göstərən bu qurumun əsas məqsədi Silahlı Qüvvələrin qüdrətini artırmaq və təkmilləşdirmək, yeni silah modelləri istehsal etmək, döyüş sursatı və texnikası, müasir texnika ilə təchiz olunmasını təmin etməkdir. Sərgi ilə tanışlıq zamanı Azərbaycan dövlətinin başçısına Pakistanda istehsal olunan və xarici ölkələrə ixrac edilən hərbi texnika, silah və sursatlar, o cümlədən müasir tipli raketlər, müdafiə sahəsində istifadə olunan müxtəlif texnika, hərbi texnika nümayiş etdirilmişdir. Həmin gün İlham Əliyev Pakistanın Baş naziri Ş.Əzizlə görüşdən sonra brifinqdə bəyan etdi ki, "görüşlər zamanı iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlıq məsələsi də müzakirə olunmuşdu. Pakistan tərəfi bir daha bəyan etmişdir ki, İslamabad Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mövqeyini dəstəkləyir və onun tezliklə həllinə ümid edir. 2005-ci ilin dekabrın 11-də Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin yaradılmasından sonra Azərbaycan dərhal Pakistanın hərbi texnologiyasına maraq göstərməyə başladı. Öz növbəsində, Pakistan da Bakının əldə etdiyi hərbi texnologiyalara çıxış əldə etməkdə maraqlı olduğunu bildirdi [3, s.668].

İki dövlət arasında müdafiə sahəsində ikitərəfli əlaqələrin inkişafı 2006-cı ildə də davam etdirilmişdir. Belə ki, 2006-cı ilin mayında Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə Toplantısı keçirildi. Pakistanın Türkiyə və İranla birlikdə İƏT-in üç qurucusundan biri olduğunu nəzərə alaraq, Pakistanın baş naziri Ş.Əziz Bakıya gələn yüksək rütbəli şəxslər arasında idi. 2007-ci ilin fevral ayında Baş nazirin müavini Y.Eyyubovun rəhbərlik etdiyi nümayəndə heyəti Pakistan-Azərbaycan ikitərəfli birgə komissiyasının işində iştirak etmək üçün İslamabada səfər etmişdir. Səfər zamanı heç bir sənədin imzalanması nəzərdə tutulmasa da, ikitərəfli komissiyanın vəzifələrindən biri məhz müdafiə sahəsində əməkdaşlığın qurulması və müxtəlif məsələlərin müzakirə edilməsi əsas prioritet olmuşdur [2, s.107]. 2007-ci ilin aprelində Azərbaycanın müdafiə naziri S.Əbiyev, Müdafiə sənayesi naziri "müdafiə sənayesi sahəsində əməkdaşlıq üzrə danışıqlar aparmaq üçün Pakistana səfər çərçivə-

sində məlumat yayılmışdı ki, Azərbaycan tərəfi Çin və Pakistanın birgə hazırladığı və istehsal etdiyi çoxfunksiyalı JF-17 qırıcısına, Pakistan istehsalı olan kiçik çaplı silahlara və tanklara maraq göstərir" [8].

2009-cu ilin mayında Pakistanın Federal Müdafiə Sənayesi Naziri Əbdül Qayyum Xan Catoy Bakıda səfərdə olmuşdur. Qonağın Azərbaycan Prezidenti ilə görüşündə tərəflər ölkələr arasında əlaqələrin bütün istiqamətlərdə, o cümlədən müdafiə sənayesi sahəsində də uğurla inkişaf etdiyini qeyd etmişlər. Pakistanlı nazir həmçinin qeyd etmişdir ki, Azərbaycan və Pakistanın hərbi sənaye nazirlikləri arasında gələcək əməkdaşlığı müzakirə etmək üçün yaxşı imkanlara malikdir ki, bu da tərəflər arasında hərbi-texniki əməkdaşlığın dərinləşdirilməsi üçün yeni görüşlərin və danışıqların təşkilinə xüsusi töhfə verirdi. Sübut kimi 2009-cu ilin oktyabrın əvvəlində Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Komitəsinin sədri general T.Məcidin Azərbaycana səfərini göstərmək olar. Səfər Pakistanın silahlı qüvvələrinin "Tehrike-Taliban Pakistan" radikal hərəkatının yaraqlıları ilə mübarizəsinin intensivləşməsi ilə əlaqədar Pakistanda çətin hərbi-siyasi vəziyyət fonunda baş tutmuşdur (Pakistan Taliban hərəkatı). Pakistan Silahlı Qüvvələrinin başçısı qeyd etmişdir ki, Pakistanda Taliban və Əl-Qaidə yaraqlılarına qarşı hərbi əməliyyatın genişmiqyaslı xarakter alması və Əfqanıstanla bütün sərhəddə cərəyan etməsinə baxmayaraq, Bakıya gəlmək səfəri baş tutmuşdur. Oktyabrın 5-də o, Prezident İ.Əliyevlə görüşmüş və dövlətlər arasında əlaqələrin bütün sahələrdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində bundan sonra da genişlənəcəyini qeyd etmişdir [2, s.109]. Bu səfərdən bir neçə gün sonra Azərbaycan mətbuatında "Azərbaycan və Pakistan arasında hərbi-texniki əməkdaşlıq müzakirə olunacaq" xəbəri yayılaraq bildirilmişdir ki, Müdafiə Nazirliyinin ekspertləri oktyabrın 18-23-də İslamabadda olacaq və hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunacaqdır.

2009-cu ilin sonuna kimi Azərbaycan və Pakistan arasında hərbi-texniki əməkdaşlıq sahəsi daha da genişləndi. Belə ki, 2009-cu ilin dekabrın 20-dən 26-dək Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri Azərbaycan-Pakistan ikitərəfli əməkdaşlıq planı çərçivəsində Pakistanın İslamabad və Kəraçidə yerləşən hərbi təhsil müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmuşlar.

Azərbaycan-Pakistan əlaqələrinin hərbi sahədə inkişafı 2010-cu ildə də davam etdirilmişdir. Aprel ayında Pakistanın müdafiə naziri Səid Athar Əlinin Bakıya səfər çərçivəsində tərəflərin hərbi istehsal sahəsində əməkdaşlığı daha fəal müzakirə olunmuşdur. Azərbaycanın müdafiə sənayesi naziri ilə görüşündə Pakistanın müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə sadiq olduğu bir daha qeyd edilmişdir. Bütün bunlar tərəflərin qarşılıqlı etimad nümayiş etdirmək, eləcə də hərbi əldə edilmiş razılaşmalara əməl etmək kimi başa düşülməlidir.

Qeyd etmək lazımdır ki, rəsmi Bakı öz müttəfiqinə istənilən yardımı göstərməyə həmişə hazır olmuşdur. Belə ki, 2010-cu ilin avqustunda Pakistanın bir çox əraziləri dəhşətli sel suları altında qalanda Azərbaycan faciənin nəticələrini aradan qaldırmaq üçün Pakistana 1 milyon dollar ayıran nadir ölkələrdən biri olmuşdur. 2010-cu ilin avqustun sonunda ziyan o qədər böyük oldu ki, Bakı İslamabada əlavə 1 milyon dollar ayırmağı zəruri saydı. Bundan əlavə, Azərbaycan Müdafiə Nazirliyi Pakistana 40 ton ərzaq məhsulları, Fövqəladə Hallar Nazirliyi isə dərman preparatları və geyim göndərmişdir [2, s.109].

2010-cu ilin sentyabrın sonunda Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Şahin Sultanovun rəhbərlik etdiyi nümayəndə heyətinin Pakistana səfəri, şübhəsiz ki, hərbi sahədə Azərbaycan-Pakistan əlaqələrinin möhkəmlənməsinə öz töhfəsini vermişdir. Səfər Pakistan Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Noman Bəşirin təşəbbüsü ilə baş tutmuşdur. Pakistanda səfərdə olarkən Azərbaycan hərbi nümayəndə heyətinin başçısı Pakistanın yüksək rütbəli hərbçiləri ilə görüşmüş, onların arasında Pakistan Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general T.Mecid, Quru Qoşunlarının komandanı, Hərbi Dəniz Qüvvələrinin komandanı general A.Keyani, Hərbi Hava Qüvvələrinin komandanı admiral N.Bəşir, Hava Marşalı R.Süleyman və Müdafiə Naziri A.Muxtar da var idi. Bu görüşlərin əlamətdar hadisəsi admiral Bəşirin "Azərbaycanın işğal olunmuş əraziləri azad edilməyincə Pakistan Ermənistanı dövlət kimi tanımayacaq" bəyanatı olmuşdur. Bu bəyanat beynəlxalq aləmdə Azərbaycanın himayədarı olmaq iddiasında olan, eyni zamanda Qarabağ münaqişəsində Ermənistana əhəmiyyətli iqtisadi, hətta hərbi yardım göstərən İran rəsmilərinin bəyanatlarından kəskin surətdə fərqlənirdi.

2013-cü ilin martında Pakistanın təşkil etdiyi "AMAN-2013" hərbi dəniz təlimində Azərbaycan da daxil olmaqla 30-dan çox ölkə iştirak etmişdir. Ardınca 2014-cü ilin fevralında Hərbi Əməkdaşlıq İşçi Qrupunun beşinci iclasında Pakistan və Azərbaycan arasında İkitərəfli Hərbi Əməkdaşlıq Sazişi imzalanmışdır. Adıçəkilən sənəd həm 2015, həm də 2016-cı ildə Bakıda və İslamabadda keçirilən İşçi Qrupun İclaslarında yenidən imzalanmışdır.

11 sentyabr 2014-cü il tarixində ilk dəfə Bakıda keçirilən Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi Sərgisi - ADEX 2014 çərçivəsində Azərbaycanın Müdafiə naziri səfər çərçivəsində Milli Mühəndislik və Elm Komissiyasının sədri Məhəmməd İrfan Börney ilə görüşmüşdür. Elə həmin ilin noyabrın 18-də azərbaycanlı nazirin Pakistana səfəri çərçivəsində Pakistan rəhbərliyi və ölkənin silahlı qüvvələri ilə bir sıra görüşlər keçirmişdir. Səfər zamanı müdafiə sahəsində əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə edilmişdir. 2015-ci ilin mart ayında Pakistan Prezidenti Məmnun Hüseyn Azərbaycana səfər edərkən ikitərəfli münasibətlərin yaxşılaşdırılması üçün hərbi əməkdaşlıq və müdafiə texnologiyaları sahəsində birgə işləmək imkanları müzakirə edilmişdir [4, s.53].

Qeyd etmək lazımdır ki, Azərbaycan Pakistan və Çin tərəfindən birgə hazırlanmış çoxfunksiyalı JF-17 Thunder (həmçinin FC-1 Xiaolong kimi tanınır) idxalında maraqlı olduğunu bildirmişdir. Pakistan Müdafiə Nazirliyi ilk dəfə olaraq 2016-cı ildə keçirilmiş Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində (ADEX-2016) JF-17-ni nümayiş etdirmək üçün dəvət olunmuşdur. Sərgi zamanı müdafiə sənayesi naziri dəfələrlə yeni döyüş təyyarələrinin idxalında maraqlı olduğunu qeyd etmişdir. Elə həmin il Azərbaycan Baş Nazirinin birinci müavini Yaqub Eyyubov Beynəlxalq Müdafiə Sərgisi və Seminarında (IDEAS) iştirak etmiş və yeni təyyarələrin alınmasında maraqlı olduğunu bir daha bəyan etmişdir [6]. JF-17 təyyarəsi Fransa istehsalı olan Mirage-3 və F-7 təyyarələrinin müasir əvəzedicisi kimi sayılır. Pakistan uzun müddətdir ki, Pakistan Hərbi Hava Qüvvələri tərəfindən istehsal olunmuş JF-17 satmaq üçün ölkələr tapmağa çalışır. Azərbaycan, Zimbabve, Banqladeş, Myanma, Misir, İran, Livan, Malayziya, Mərakeş, Nigeriya, Şri-Lanka, Əlcəzair və Sudan da daxil olmaqla, indiyədək 13 ölkə JF-17 təyyarəsini almaqda maraqlı olduğunu bildirmişdir. Qeyd edildiyi kimi , Pakistan Aeronavtika Kompleksi və Çinin Çenqdu Təyyarə Korporasiyası tərəfindən birgə hazırlanmış yüngülçəkili, təkmühərrikli, çoxməqsədli döyüş təyyarəsi cəlbedici qiymətə satılır və birinin qiyməti təxminən 15-25 milyon dollardır. Pakistan mətbuatının məlumatına görə, JF-17-dən əlavə, Bakıdakı rəsmilər MFI-395 Super Mushshak təlim təyyarələri də almağa maraq göstərir. Eyni zamanda, 2012-ci ildən Azərbaycan müdafiə sənayesi nazirliyi tərəfindən Pakistan xüsusi təyinatlılarının istifadə etdiyi məşhur "İstiqlal" snayper tüfəngi istehsal olunur [4, s.53].

Qeyd olunmalıdır ki, Bakı ilə İslamabad arasında hərbi əməkdaşlıq günü-gündən inkişaf edir. Pakistanın Azərbaycan və Türkiyə arasında keçirilən "TurAz Hərbi Təlimləri"ndə iştirak etmək arzusunu bildirməsi nəinki ikitərəfli əlaqələr, hətta üçtərəfli hərbi təlimlərin keçirilməsi məsələsini aktual etmişdir. Bu, gələcəkdə üçtərəfli hərbi əməkdaşlığa çevriləcəyi fikrini diqtə edir. 19 sentyabr 2019-cu il tarixində keçirilmiş "Qafqaz Qartalı-2019 Hərbi Təlimi"ndə müşahidəçi qismində Pakistan hərbçilərinin iştirakı və 2020-ci ildə İkinci Dağlıq Qarabağ müharibəsi zamanı Pakistanın Azərbaycana qeyd-şərtsiz dəstək verməsinin bunda böyük rolu var idi [5].

2020-ci ilin sentyabrın 27-də Ermənistan Respublikasının Silahlı Qüvvələri müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə beynəlxalq hüquq normalarını növbəti dəfə pozaraq müxtəlif istiqamətlərdən Azərbaycan Respublikasının mülki əhalisini və hərbi mövqelərini atəşə tutmuşdur. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Sərəncamı ilə 28 sentyabr 2020-ci il saat 00:00-dan etibarən Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət, qismən səfərbərlik elan edilmişdir. 28 sentyabr 2020-ci il tarixli fərmanla əməliyyatların hazırlanması və icrası ilə bağlı qərarlar qəbul edilmişdir [10]. Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, Şuşa şəhərinin ərazisində yerləşən meşələrə D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan,

Qubadlı şəhərlərini, Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir.

Müharibə zamanı Ermənistandan öz qoşunlarını qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxarmasını tələb edən və işğalçını adı ilə çağıran ölkələrdən biri də Pakistan İslam Respublikası olmuşdur. Pakistanın Baş naziri İmran Xan Azərbaycana üçün "qardaş ölkə" ifadəsini işlədərək yayımladığı mesajında, ölkəsinin Azəbaycanın yanında olduğunu və onun qanuni müdafiə haqqını dətəklədiyini bildirmiş, Azərbaycanın ərazi bütövlüyünün dərhal bərqərar olmasını və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin yerinə yetirilməsini tələb etmişdir [9].

Ermənistan rəsmilərinin Hindistan mətbuatına verdiyi açıqlamalarında deyilir: "Pakistan yaraqlılarının Qarabağda müharibədə iştirak etdiyi barədə məlumatlar var və Pakistan münaqişədə fəal hərbi rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev isə cavabında bildirmişdir ki, Türkiyə və Pakistan Bakını dəstəkləyir, "amma hərbi yardımdan söhbət gedə bilməz. Bu dövlətlər Bakıya öz siyasi və diplomatik dəstəklərini gizlətmirlər" [7].

2021-ci ilin martın 30-da Tacikistanın paytaxtı Düşənbədə "Asiyanın Qəlbi - İstanbul Prosesi" çərçivəsində IX Nazirlər Konfransı keçirilmişdir. Bir çox ölkədən diplomatik nümayəndə heyətinin qatıldığı bu konfransda Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov pakistanlı həmkarı Şah Mahmud Qureşi ilə görüşmüş və Azərbaycan-Pakistan arasında müxtəlif əməkdaşlıq imkanlarını, o cümlədən, aviasiya sahəsində ikitərəfli əməkdaşlıq məsələsini müzakirə etmişlər. Tərəflərin 2021-ci il yanvarın 13-də İkinci Qarabağ müharibəsindən sonra Pakistanda görüşüb fikir mübadiləsi apardıqları da hamıya məlumdur. Bu görüşdə təhlükəsizlik, ticarət, elm, mədəniyyət və s. sahədə əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. Nəticə olaraq iclasda geniş məsələləri ehtiva edən İslamabad Bəyannaməsi qəbul edilmişdir [5].

***Nəticə.*** Yuxarıda göstərilənlərdən nəticə çıxardaraq əminliklə deyə bilərik ki, Azərbaycan-Pakistan arasında hərbi və müdafiə sahəsində əməkdaşlıq özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Belə bir yüksək səviyyədə mövcud olan əməkdaşlıq və birliyə malik iki dövlətin, şübhəsiz ki, bütün sahələrdə irəliləməsi mütləq vacibdir. Ələlxüsusda qeyd olunmalıdır ki, müntəzəm hərbi təlimlərin keçirilməsi, silahlı münaqişələrin idarə olunması ilə bağlı məlumat və təcrübə mübadiləsinin sinxronlaşdırılması, müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi və hərbi texnikanın satışı üçün kifayət qədər münbit şərait mövcuddur.

## ƏDƏBİYYAT


1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 631 s.
2. Ниязов С.Н. Развитие Азербайджано-Пакистанских связей в военной области в 1994-2010 годах // Вести Волгаградского Государственного Университета, Сер.4, Ист., 2011, №1 (19), с.104-112.
3. Imran Khan and Karim Haider Syed - Pakistan Relations with Azerbaijan in 21st Century // Pakistan Social Sciences Review March 2021, Vol. 5, No. I, з.667-679.
4. Kamal Makili-Aliyev and Khurram Abbas. Pakistan-Azerbaijan Economic and Defence Cooperation // IPRI Journal Pakistan XVI-Azerbaijan , No.1, p.42-58.
5. Nazrin Alizada. Azerbaijan-Pakistan Military Relations / ANKASAM, 13 Aprel 2021. - https://www.ankasam.org/azerbaijan-pakistan-military-relations/?lang=en [Müraciət tarixi: 14.04.2022].
6. Fuad Shahbazov. Azerbaijan's Growing Military Cooperation With Pakistan / The Diplomat, January 13, 2017. - https://thediplomat.com/2017/01/azerbaijans-growing-military-cooperation-with-pakistan/ [Müraciət tarixi: 14.04.2022].
7. Has Pakistan entered the Karabakh conflict and why Pompeo is touring S.Asia / Russıan News Agency, 28 October 2020. - https://tass.com/pressreview/1217255 [Müraciət tarixi: 14.04.2022].

8. Pakistan-Azerbaijan Bilateral Relation's New Phase of Development. - https://www.opfblog.com/22990/pakistan-azerbaijan-bilateral-relations-new-phase-of-development/ [Müraciət tarixi: 14.04.2022].
9. Qarabağ müharibəsində Azərbaycana dəstək verən və verməyən ölkələr - Vüsal Tağıbəyli / hafta.az İnformasiya Agentliyi, 11 Noyabr 2020. - https://hafta.az/qarabag-muharibesinde-azerbaycana-destek-veren-ve-vermeyen-olkeler-arasdirma-291365-xeber.html [Müraciət tarixi: 14.04.2022].
10. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi) / Azərbaycan Respublikasının Baş Prokurorluğu – rəsmi səhifə. - https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi [Müraciət tarixi: 14.04.2022].

**ХАЙЯМ ИСМАИЛЗАДЕ**
*Доцент, Бакинского Государственного Университета*

**ДЖАХАН АЛИЕВА**
*Магистр, Бакинский Государственный Университет*

## ВОЕННОЕ СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ИСЛАМСКОЙ РЕСПУБЛИКОЙ ПАКИСТАН НА СОВРЕМЕННОМ ЭТАПЕ

В статье представлена информация о направлениях и перспективах как политического, так и военного сотрудничества двух стран. В то же время интенсивное развитие отношений между государствами после восстановления независимости Азербайджана, особенно в урегулировании нагорно-карабахского конфликта, стало более выраженным, что подробно описано в статье.

*Ключевые слова*: Азербайджанская Республика, Исламская Республика Пакистан, Нагорно-Карабахский конфликт, Военно-морской флот, военно-политические отношения, безопасность, военно-промышленный комплекс, вооруженные силы, военно-техническое сотрудничество, дипломатия.

**KHAYYAM ISMAILZADEH**
*Associate Professor of Baku State University*

**JAHAN ALIYEVA**
*Master, Baku State University*

## MILITARY COOPERATION BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE ISLAMIC REPUBLIC OF PAKISTAN IN MODERN TIMES

The article provides information on the directions and prospects of both political and military cooperation between the two countries. At the same time, the intensive development of relations between the states after the restoration of Azerbaijan's independence, especially in the settlement of the Nagorno-Karabakh conflict, has become more pronounced, which is described in detail in the article.

*Keywords*: Republic of Azerbaijan, Islamic Republic of Pakistan, Nagorno-Karabakh conflict, Navy, military-political relations, security, military-industrial complex, armed forces, military-technical cooperation, diplomacy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 aprel 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.e.f.d. Fərhad Hüseynov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24); UOT 327“71”**

**YƏHYA BABANLI**
*Tarix üzrə fəlsəfə doktoru,*
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı*
**y_babanli@yahoo.com**

# AZƏRBAYCAN LOBBİSİNİN FORMALAŞMASI PROSESİ, TƏŞKİLATİ STRUKTURU VƏ STRATEGİYANIN HAZIRLANMASI PROBLEMLƏRİ

*Məqalədə Azərbaycan lobbisinin formalaşması prosesi, onun təşkilati strukturu təsvir edilib, o cümlədən strategiyanın hazırlanması problemləri tədqiq və təhlil olunub.*

*Lobbiçiliyin tarixi və xüsusiyyətləri nəzərdən keçirilib, Azərbaycan lobbisinin müasir dünya təcrübəsinə əsaslanaraq praktiki inkişafı üçün tövsiyə və təkliflər verilib.*

*Açar sözlər*: Azərbaycan diasporu, Azərbaycan lobbisi, Qarabağ münaqişəsi, Əsrin müqaviləsi, ABŞ konqresi.

***Giriş***. Lobbiçilik müasir beynəlxalq münasibətlər sisteminin mühüm elementlərindən olub, milli və koorperativ maraqlar əsasında qanunların və digər dövlət əhəmiyyətli qərarların qəbul edilməsi məqsədilə həyata keçirilən ictimai-siyasi fəaliyyətdir. Bu hərəkət hər bir dövlətin xarici siyasətinin əsas istiqamətlərindən biridir. Əlbəttə, biz Azərbaycan lobbisini güclü lobbilərlə bir səviyyədə tutmuruq. Çünki yəhudi, erməni, yunan, italyan, irland, Çin və digər lobbilər əsrlər boyu formalaşmış və onların mövcud olduğu ölkələrin Qanunverici-İcraedici-Məhkəmə hakimiyyətində yaratdıqları şəbəkə uzunmüddətli sistemli iş tələb edir. Müasir dövrün mənzərəsinə nəzər salsaq, Azərbaycan lobbisi mövcudluğun söyləmək olar. Görülən işlər demək olar ki, güclü lobbilərin əldə etdikləri nəticələrdən geri qalmır.

Yeni tarixdə diasporların formalaşması mənşə dövlətlərinin siyasətinin tərkib hissəsidir. Diasporların fəaliyyət göstərdikləri ölkələrdə yeri və rolu gündən-günə artır. Diasporun meydana gəlmə şəraiti və seçdiyi xətt, yəni assimiliyasia və ya inteqrasiya prosesinə uyğun olaraq strategiyası və strukturu dəyişir. Eyni zamanda, donor dövlətin milli icmalara qarşı siyasətidə mühüm əhəmiyyət daşıyır. İstər xalqlar, istərsə də dövlətlər arasında xüsusi missionerə çevrilən diaspor amili transmilli münaqişələrin həllinə də təsir göstərə bilir. Beynəlxalq təşkilatlarda çıxış imkanına malikdir. Diasporun siyasiləşmiş institutu sayılan lobbiçilik bütün sferalarda aparıcı aktora çevrilibdir.

Müasir dövrdə baş verən qlobal proseslər cəmiyyət qarşısında yeni tələblər və vəzifələr qoyur. Bu da bir sıra məsələlərə daha real yanaşmanı, xüsusi diqqət yetirməyi və onlardan lazimi səviyyədə istifadə etməyi diktə edir. Bunlar sırasında qloballaşan dünyada, funksiyası əhəmiyyətli dərəcədə artan “diaspor” və “lobbi” anlayışlarıdır. Mövcud zamanda həmin məfhumların oxşar və fərqli cəhətlərini, onların bir-biri ilə qarşılıqlı əlaqəsini, hansı məna daşıdığını və təyinatının nədən ibarət olduğunu öyrənmək və təhlil etmək aktuallıq kəsb edir. Tədqiqatçı, t.ü.e.d. M.Seyidbəyli öz monoqrafiyasında yazır: “Diasporun meydana gəlməsi dərin çoxcəhətli məzmunu və müxtəlif təzahürləri ilə seçilir. Bu fenomenin özünəməxsusluğu sosial qoruyucu mexanizm, sosioloji və tarixi-təkamül resrus, həyatın dövlət formalarını əvəz edən bütöv mədəni kompleksi kimi çıxış edən etnomədəni identiklik əsasında saxlanılır” [6].

Sadalanan fikirlərdən də açıq-aşkar görünür ki, diaspor sosial-mədəni təmayüllü abstrak fəaliyyətdir. Lobbiçilik isə konkretdir və siyasi-iqtisadi əhəmiyyətə malikdir. Bəzən elmi ədəbiyyatlarda, kütləvi informasiya vasitələrində “diaspor” və “lobbi” anlayışları bir-birinə sinonim kimi götürüləræk onlar arasında oxşarlıqlar axtarılır. Lakin birmənalı şəkildə qeyd etmək lazımdır ki, bu, tamamilə yanlış fikirdir. Bu sahə üzrə digər bir tədqiqatçı Z.Əliyev sözügedən məsələ ilə bağlı haqlı olaraq qeyd edir: “Bu iki struktur və onların fəaliyyətlərinin məzmunu və xarakteri arasında bütün oxşarlıqlar olmasına baxmayaraq bildirmək olar ki, lobbi diaspor deyil”.

Tədqiqatçıya görə, “fəaliyyət məzmununa və xarakterinə görə diaspor və lobbi arasında olan bütün oxşarlıqlara baxmayaraq, diasporu lobbi hesab etmək yanlış olardı. Çünki, lobbi bilavasitə dövlətin daha yüksək elitasına, diaspor isə ən yaxşı halda lobbinin özünə təsir göstərib onu yönəldir.

Lobbiçiliyin əsas funksiyası diasporun qarşısında duran vəzifələrlə prinsip etibarilə üst-üstə düşür; ictimai vəkili və müdafiəçisi olduğu xalqın və dövlətin haqqında məskunlaşdığı ölkələrdə müsbət rəy qazandırır. Diaspor və lobbi arasında oxşar fərqlərin biri də hər iki sistemin aparıcı qüvvəsinin müxtəlif kateqoriyadan olan ziyalılar, iş adamları, mətbuat işçiləri, mədəniyyət və incəsənət xadimləri, yuxarı və orta təbəqənin nümayəndələri və digər peşə sahiblərinin təşkil etməsidir. Lakin lobbi diasporun iştirakı olmadan da yarana bilir. Bu halda bütün ağırlıq hər iki tərəfin, maraqlı dövlətin və işin icraçısı olan lobbi şirkətlərinin üzərinə düşür. Bu iki anlayış arasında başqa bir fərq lobbi nümayəndələrinin bir qayda olaraq, əslində isə mütləq başqa millətlərdən ibarət olmasıdır" [3].

Əslində terminaloji olaraq da bu belədir: diaspor sosial-mədəni xarakterə malikdirsə, lobbi ictimai-siyasi təmayül daşıyır. Diaspor fəaliyyəti vahid etnosa aid edilsədə, lobbiçilik müxtəlif xalqların nümayəndələrindən də ola bilər.

Fikrimizcə, diaspor milli azlığın digər dövlət ərazisində təşəkkül tapdığı həyat tərzidir. Lobbi isə etnik baxımından müxtəlif tərkibli fəaliyyət növüdür. "Diasporu hər hansı bir millətin dünyanın müxtəlif regionlarına səpələnən nümayəndələri təşkil edirsə, lobbi səpələnən diasporçuların siyasiləşmiş institutudur" [2].

Lobbi termini son dövrlərdə daha geniş yayılmasına və istifadə edilməsinə baxmayaraq insanlar bunu tam mənasında dərk etmirlər. Lobbiçilik fəaliyyətinin nədən ibarət olduğunu bilmək üçün ilk növbədə "lobbi" sözünün mənasının nə olduğunu bilmək lazımdır. Lobbi sözü ingilis dilindən tərcümədə "dəhliz, vestibül, xoll, üstüörtülü gəzinti meydançası, səhnəarxası" mənalarını daşıyır. Lobbi anlayışı 1553-cü ildə İngiltərə monastrlarında "gözətçi meydançası" kimi işlədilirdi [4].

Başqa bir mənada lobbiçilik konsepti təşkilatlanmış maraqların dövlət orqanlarına və ayrı-ayrı rəsmi şəxslərə məqsədyönlü təsirini ifadə edir. Lobbiçilik təkcə bu və ya digər qrupun sosial, iqtisadi və siyasi maraqlarının müdafiəsi olmayıb, əslində formal hakimiyyəti faktiki hakimiyyətlə hesablaşmağa vadar edən bir mexanizmdir, anlayışdır. Əslində sivil qaydada həyata keçirilən lobbiçilik təkcə hər hansı qruplar marağının müdafiəçisi olmayıb, eləcə də cəmiyyət və hakimiyyət münasibətlərinin tənzimlənmə sisteminin vacib elementidir. Tarix dönə-dönə sübut edib ki, bu keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez güclü millətlərin təsiri altına düşərək assimilyasiya olunur və öz milli simasını itirir. Sovetlər çağında isə Qərb cəmiyyətində çox geniş yayılmış bu təcrübəni, yəni, lobbiçiliyi birtərəfli və təhrif olunmuş şəkildə təqdim edən kitablarda və məqalələrdə insanların şüuruna "Lobbiçilik korrupsiyanın sinonimidir" kimi təsvir olunmuşdur. Təbii ki, bu koorperativ mənafe lobbiçiliyinə şamil edilir. Etnik lobbiçilik mahiyyət etibailə milli maraq çərçivəsində həyata keçirilir. Hər hansı bir qrupun mənafeyini nəzərə alınması məqsədilə hökumət qurumlarına birbaşa, yaxud dolayı yolla təsir etmə fəaliyyəti kimi adlandırıla bilər. Bu cür adlandırma ümumi mahiyyətli olduğu üçün hər hansı siyası, yaxud ictimai fəaliyyəti bura aid etmək olar. Ona görə də bir sıra dəqiqləşmələr aparmaq zərurəti yaranır:

Birincisi, qurum dedikdə konkret olaraq vəzifəli şəxslər nəzərdə tutulur ki, hansısa qərarın qəbul olunması və ya olunmaması onlardan asılı olur. Bu, bir, yaxud bir neçə adam ola bilər. Məsələn, deputatlar qrupu, hökumət üzvü, yaxud adminstrasiyanın yüksək vəzifəli nümayəndəsi;

İkincisi, lobbiləşdirilmiş qərar həm müsbət, həm də mənfi xarakter daşıya bilər.

Məlumdur ki, 1992-ci ilin oktyabrında ABŞ Konqresi keçmiş sovet respublikalarına dövlət yardımını tənzimləyən "Azadlığı Müdafiə Aktı" adlı qanun qəbul edib. Lakin, ABŞ-dakı erməni lobbisinin təsiri ilə bu qanunun 907-ci bölməsinə edilən düzəlişə əsasən ABŞ hökuməti tərəfindən Azərbaycanın rəsmi strukturlarına yardım göstərilməsi qadağan olunub. Hazırda isə Azərbaycana qarşı ədalətsiz və diskriminasiya xarakterli bu qərarın aradan qaldırılması üçün palata üzvlərinə bütün istiqamətlərdə təzyiq göstərir. Yəni, lobbiçilik eyni dərəcədə həm müsbət, həm də mənfi istiqamətə yönəldilə bilər;

Üçüncüsü, lobbiləşmə vəzifəli şəxslərin yalnız maddi stimullaşdırma prinsiplərinə əsaslanmasa da, bu metod lobbiçilikdə ən geniş yayılmış və təsirli amil hesab olunur. Primitiv mahiyyətli və qanunla təhdid olunan rüşvət vermə əvəzinə, hazırda başqa metodlardan istifadə olunur; seçki fondlarına birdəfəlik, yaxud mütəmadi yardım göstərilməsi, pulsuz xarici səfərlərin təşkil olunması, sərfəli mühazirə turları, vəzifəli şəxslərin qohumlarının, köməkçilərinin, bəzən də ki, hökumət qurumundakı yerlərini itirdikdə özlərinin də **"yağlı yerlərlə"** təmin olunması;

Dördüncüsü, lobbiçiliyi dövlət strukturları üzərində mafioz, klan, yaxud mason nəzarəti ilə qarışdırmaq düzgün deyildir. Ona görə ki, dediklərimiz gizli və qanunazidd mahiyyət daşıdıqları üçün lobbiçilikdən tamamilə fərqlənir [9].

Bütövlükdə isə, lobbiçilik məqsədə çatmaq üçün ciddi vasitə hesab olunur. O istər, hərəkət formasında (müxtəlif ictimai birliklərdə: qadınlar, gənclər və ya komitələrdə: etnik, mədəni və s.), istərsə də, peşəkar fəaliyyətdə (siyasətdə, iqtisadiyyatda və s.) təzahür edir. Hər hansı bir ölkədə lobbiçiliyin inkişafı və yayılması həmin ölkənin siyasi və iqtisadi inkişaf səviyyəsi, həmçinin həmin ölkədə formalaşmış siyasi və dövlət ənənələri ilə müəyyən olunur. Ancaq şübhə yoxdur ki, cəmiyyətin yüksək inkişaf səviyyəsi lobbiçiliyin peşəkar formada daha da mədəni səviyyədə fəaliyyətini şərtləndirir. Məsələn, təkcə Vaşinqtonda bir neçə min lobbi təşkilatları və kontorları qeydə alınmışdır. Bu, müşavir və məsləhətçi kimi ən yaxşı vəkillərin, iqtisadçıların, istefada olan məmurların, hərbiçilərin, dövlət və hökumət nümayəndələrinin də məşğul olduğu yüksək gəlirli fəaliyyət formasıdır. Müasir peşəkar lobbi təşkilatları lazımı qərarları qəbul etdirmək üçün siyasət adamlarının, vəzifəli şəxslərin ənənəvi stimullaşdırma metodu ilə yanaşı, media sahəsində lazımı kompaniyaların təşkil olunması, partiyalar-fraksiyalar arası mübarizə mexanizminin işə salınması, seçicilərdən məktub və teleqram axınını təşkil etmək kimi təsirli imkanlara malikdir. Birləşmiş ştatlarda isə bu termin 1829-cu ildən geniş vüsət aldı. İlk zamanlar ABŞ-da müxtəlif maraqların "müdafiəçisi" olan "kluarlar"da siyasi mənada işlədilməyə başlanan lobbi termini konqresin dəhlizində pulla səs almağı bildirirdi. ABŞ-da lobbiçiliyin gündəmə gəlməsi ölkənin onsəkkizinci prezidenti Uliss Qrantın dövrünə təsadüf edir. Prezident U.Qrant işdən sonra iqamətgahı ilə üz-üzə yerləşən qəlyanaltıya düşərək onun vestibülündə dincəlməklə qeyri-rəsmi görüşlər keçirirdi. Bunu bilən ictimaiyyətin nümayəndələri onun yanına gələrək öz vəziyyətlərindən, problemlərindən danışaraq prezidentdən kömək umurdular. Bu işdən xaric qeyri-rəsmi görüşlər siyasi xadimlər arasında əlaqə xarakteri olmaqla yanaşı siyasət tarixində mürəkkəb taleli siyasi hadisə olan lobbiçiliyin bünövrəsinin qoyulması idi. 1864-cü ildən başlayaraq, Konqresin dəhlizində "Pul ilə səs almağı" bildirən lobbiçilik xeyli müddət qeyri-peşəkar siyasət kimi qiymətləndirilirdi. Lobbiçilik yalnız XX əsrdən başlayaraq siyasi təsir vasitəsi kimi istifadə olunmağa başlayır. Lobbiçilik daha sonradan siyasətdə müəyyən şəraitdə münaqişələri azaltmaq, digər hallarda isə mənafelərini həyata keçirdiyi tərəfin mövqeyindən münaqişə yaratmaq üçün siyasi alət kimi başqa dövlətlərdə də istifadə olunmağa başlandı [9].

Beləki, lobbiçilik xarici siyasətin vacib ünsürü, etnik qurupun təsir mexanizmi olmaqla yanaşı, həm daxildə gedən siyasi hadisələrdə güclü təbliğat maşını, həm də hər hansısa seçki prosesində vacib elektorat sayıla bilər.

Hazırda dünyanın bir sıra dövlətlərində rəsmi şəkildə qəbul edilən Lobbiçilik, bir fəaliyyət kimi 1946-cı ildə Amerika Birləşmiş Ştatların Ədliyyə Nazirliyində rəsmən qeydiyyata alınır və qanunvericilik əsasında maliyyə nəzarətinə keçir. Federal Lobbi qanununda lobbiçilik fəaliyyətinə aşağıdakı öhdəliklər qoyulur: Amerika Konqresində qanunlara təsir göstərən və ya qanunun qəbuluna və əngəllənməsinə çalışan birbaşa və ya dolayı pul və qiymətli əşyaları alan və ya toplayan, ya da əsas məqsədi bu olan şəxslər hər üç aydan bir xərcləmələrinə aid olan qeydləri müəyyən idarəyə təqdim etməlidirlər. Qanundan irəli gələn maddələri incələdikdən sonra lobbiçiliyə bu cür izah vermək olar: "Lobbiçilik bir qrup və topluluq adına hərəkət edərək hökumət qərarlarına təsir göstərmək məqsəd ilə planlanan və bu məqsədlə vətəndaşlarla qərar verənlər arasında qruplaşmağa çalışan bir iş, əlaqə və münasibət olaraq tanınır". ABŞ milli qanunvericiliyinə uyğun olaraq, lobbi fəaliyyəti iki yolla həyata keçirilir:

- Birbaşa lobbiçilik. Bu fəaliyyət açıq-aşkar, birbaşa öz lobbisi ilə qərar verən qurumun səlahiyyətli nümayəndəsi arasında aparılan danışıqlar və görülən işə deyilir. Bu zaman görüləcək işdən ətrafdakı şəxslər və qruplar xəbərdar olmaqla, bu məsələdə öz mövqeyini bildirmək və bildirməmək hüququna malik olurlar**;**
- Dolayı lobbiçilik. Bu iş artıq professional lobbi şirkətləri vasitəsilə aparılan fəaliyyət növü olmaqla onları siyasi reklamçılıq adlandırmaq olar. Lobbiçilik bütün sosial-siyasi strukturlar üçün xarakterikdir və sosial konstruktiv aktları arqumentlərlə əsaslandırma, hazırlama mexanizmidir.

Göründüyü kimi, sadə bir mexanizmə malik olmayan lobbi sisteminin strukturu aşağıdakı kimi formalaşırdırılır:

**1.** 1. Müəyyən məsələnin həll edilməsini irəli sürən siyasətçi, yaxud siyasətçilər qurupu;

**2.** 2. Analitiklər, ekspertlər, məsləhətçilər, icraçılar və işçi qrupları.

Peşəkar hüquqşünaslar, ictimai rəyçilər sabiq və müasir dövlət məmurlarını əhatə edən bu insanları bir məqsəd ətrafında toplamaq isə güclü maliyyə tələb edir. 1995-ci ildə ABŞ konqresi lobbiçilik fəaliyyəti barədə qanunun təkmilləşmiş formasını qəbul etdi. Bu qanuna əsasən lobbistlər Birləşmiş Ştatların Konqresi tərəfindən hər hansı qanunvericilik aktının qəbuluna və rədd edilməsinə təsir göstərmək məqsədilə fəaliyyətə başlamazdan öncə Nümayəndələr palatası klerkinin və Senatın katibinin yanında qeydiyyatdan keçdikdən sonra and içməli və yazılı ərizə təqdim etməlidir. ABŞ-da lobbistlərin fəaliyyətini tənzimləyən qanunlar sırasında, 1938-ci il “Xarici Nümayəndələrin qeydiyyatı haqqında”, 1946 və 1995-ci illərdə “Lobbiçiliyin Açıq Xarakteri haqqında” sənədlərin adlarını sadalamaq olar. Bu gün Amerika siyasi sisteminin mühüm qolu olan lobbiçilik fəaliyyəti Qanunverici-İcraedici-Məhkəmə hakimiyyəti ilə yanaşı, digər sahələrdə müxtəlif formalarda aparılır. İri transmilli korporasiyalar, keçmiş və hazırki konqresmenlər, bankirlər, hüquqşünaslar, ictimai-siyasi xadimlər, qeyri-hökumət təşkilatları, fermerlər, iş adamları, diasporlar və digər peşə sahibləri imkanları çərçivəsində lobbi fəaliyyəti ilə məşğul olurlar [9].

Sadalanan faktlardan o nəticə hasil olur ki, lobbiçiliyin daxili və xarici ünsürləri mövcuddur. Bu xüsusda, xarici lobbizmin nə olması haqda məlumatlarla tanış olaq. Xarici lobbizm kifayət qədər ənənəvi təzahürdür. Bütün dövlətlər xaricdə onlara lazım olan siyasəti aparmaqda yardım edəcək qeyri-diplomatik təsir mərkəzləri yaratmağa çalışıb və hazırda da çalışmaqdadır. Halbuki, xarici lobbizmin müəyyən nüfuzlu şəxslərin xarici dövlət tərəfindən açıq-aşkar himayə edilməsi kimi leqal forması nisbətən yaxın zamanlara təzahür edir. Çox uzun zaman ərzində ABŞ-da “xarici lobbizm” mənası altında ən əvvəl “müəyyən xarici siyasi maraqların dəstəklənməsi” anlaşılırdı. Xarici agentlərin qeydiyyatı haqqındakı 1938-ci il qanunu da elə bu mahiyyətdə verilmişdir. Bu qanun xarici agentlərin üzərinə qeydiyyatdan keçmək və fəaliyyət barədə hesabat vermək öhdəliyi qoyur. Əldə olan imkanlardan uğurla istifadə edən İsrail və Tayvan xarici lobbiləri 60-70-ci illərdə ən güclülər hesab olunurdu. İsrail lobbisi güclü elektorat qüvvəsi təşkil edən Amerika yəhudilərini də öz fəaliyyətinə cəlb etməsi sayəsində elə indi də öz keçmiş nüfuzunu itirməyib. ABŞ-da yunan və erməni lobbilərinin də çox səmərəli fəaliyyəti təşkil olunub. Qeyd etmək vacibdir ki, xarici lobbizm siyasətə, daxili lobbizm isə daha çox iqtisadiyyata yaxındır [5].

Belə ki, lobbiçiliyin təşəkkül tapdığı ABŞ modeli artıq dünyada geniş istifadə olunur. Bu model beynəlxalq münasibətlər sistemində, təşkilatların və fəaliyyət sferasına daxil edilib.

Hazırda bu təcrübədən bir sıra inkişaf etmiş ölkələr də bəhrələnir və bu metoddan istifadə edir. Xarici lobbinin Amerika iqtisadiyyatına bilavasitə daxil olması orada Asiya kapitalını təmsil edən təzyiq qruplarının güclənməsi ilə sıx əlaqədardır. Hazırda ABŞ-dakı xarici iqtisadi lobbizm əsas üç xassə ilə səciyyələnir: yapon korporativ lobbisinin 70-ci illərdən qalan güclü təsiri; qüvvələrinə görə artıq yaponlarla müqayisə olunan Çin təzyiq qruplarının mövqelərinin möhkəmlənməsi; Amerika cəmiyyətinin güclü himayədarlıq reaksiyası. Xarici lobbizmi səmərəli etmək üçün tədris proqramlarının hazırlanması, informasiya mərkəzlərinin yaradılması, gözəçarpan ictimai tədbirlərin maliyyələşdirilməsi, təbliğat kompaniyaları konsepsiyalarının işlənib hazırlanması kimi dolayı təsir vasitələrindən fəal istifadə olunmalıdır. Hamıya aydındır ki, xarici lobbizm ölkənin iqtisadi və siyasi maraqlarının təmsilçiliyinin inkişaf edən və tamamilə mədəni formasıdır. Azərbaycan dövləti üçün də lobbizmin fəaliyyəti çox mühüm və aktualdır. Ekspertlərin qiymətləndirməsinə görə hazırda mühacirətdə yaşayan Azərbaycan diasporu bu gün çox böyük qüvvəni təmsil edir. Bunun əsas kütləsini Cənubi azərbaycanlılar və Türkiyədə yaşayan azərbaycanlılar təşkil edir. Onlar müxtəlif ictimai institutlarda, assosiasiyalarda, milli icmalarda təşkilatlansa, şübhəsiz ki, bizim ölkənin siyasi və iqtisadi maraqlarının lobbiçiliyində mühüm rol oynaya bilərlər.

Müasir dövrdə yeni dünya formalaşır və yeni tələblər meydana çıxır. Dövlətlər, maliyyə-sənaye qruplaşmalarından ibarət milli birliklər, beynəlxalq icmalar, qlobal strukturlar və digər təşkilatlar dünyası yaranır. Buna oxşar proseslər planetin hər nöqtəsində, hər bir ölkənin daxilində gedir. Bunlarla yanaşı, xüsusi missiyanı gerçəkləşdirmək üçün yeni təyinatlı lobbilər formalaşma mərhələsində-

dirlər. Bu təşkilatlar öz fəaliyyət strategiyasına uyğun həyata keçirdikləri missiyalar vardır ki, bunun da ümumilikdə müsbət təsir ilə yanaşı, mənfi təsiri də ola bilər. Çünki, biz onları hansı prinsip üzərində quracağıqsa, onlar da o məqsəd üçün fəaliyyət göstərəcəklər. Zamanı geri qaytarmaq olmadığına görə, təməl düzgün qoyulmalıdır ki, gələcək nəsillər onun əziyyətini çəkilməsinlər. Bu günün səhvi sabahın məhvinə gətirib çıxarma iqtidarındadır. Ona görə də bütün layihələr milli və bəşəri reallıqları əhatə etməli və gələcək perspektivlər nəzərə alınmalıdır. Bir sıra sənədlərdə də qeyd edildiyi kimi, qeyri-hökumət təşkilatlarının diaspor ilə bağlı fəaliyyətinə geniş imkanlar yaradılmalı və bu sahədə mütəxəssislər hazırlanmalıdır. Eyni zamanda, müstəqil tədqiqatçıları, ekspertləri, mütəxəssisləri işə cəlb etmək lazımdır. Həmçinin, digər xalqların diasporları ilə əlaqələr gücləndirilməli və müvafiq koordinasiya, komissiyalar və qruplar formalaşdırılmalıdır.

Azərbaycan lobbisi deyiləndə məhz, müstəqillikdən sonrakı dövr əsas götürülür. Lakin tarixi sənədlər və faktlar əsasında lobbimizin hələ ötən əsrin əvvəllərində formalaşdığını söyləmək olar. Hələ, 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Nümayəndə Heyətinin Paris Sülh Konfransında iştirakı və Azərbaycanın tanıdılması ilə bağlı atdıqları addımlar lobbiçiliyə şamil oluna bilər.

Eyni zamanda, “1920-cü ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra, xarici ölkələrə səpələnən soydaşlarımızın siyasi fəaliyyətini lobbi adlandırmaq olar. Əlimərdan bəy Topçubaşovun 1922-ci ildə Genuya və London, 1923-cü ildə Lozanna konfransındakı fəaliyyət işi M.Ə.Rəsulzadə, C.Hacıbəylinin, sonradan "Azadlıq" radiosunda çalışan azərbaycanlıların siyasi fəaliyyətini lobbiçilik kimi qiymətləndirmək olar” [3].

1991-ci ildə qədər postsovet ölkələrində lobbi anlayışında dərin boşluq var idi. Lobbiçilik termini elmi və hüquqi sənədlərdə qeyd edilmirdi. Hələ o zamanlar lobbiçilik qanunla tənzimlənmirdi və qeyri-peşəkarların lobbi yaratmaq cəhdləri uğursuz nəticələnirdi.

Bu hadisələrin gedişində Azərbaycan Respublikası ilə ABŞ arasında olan anlaşılmaz və ziddiyyətlərdən məharətlə istifadə edən erməni lobbisi 1992-ci ildə oktyabrın 24-də konqresin 102-ci sessiyasının qəbul etdiyi və keçmiş Sovetlər Birliyinə daxil olmuş Azərbaycan xaric digər 12 respublikaya (Gürcüstan, Ermənistan, Ukrayna və s.) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardım nəzərdə tutan "Azadlığı Müdafiə Aktı"na “907-ci əlavə”nin (Kerri düzəlişi) qəbul edilməsi oldu. ABŞ prezidenti Corc Buş Senatın ona təqdim etdiyi "Freedom Support ACT-S2532; P.L. 102-SN23" saylı qanun layihəsini tərəddüd etmədən imzalaması Azərbaycan lobbisinin zəifliyinin nəticəsi idi. Massaçuçest ştatından seçilən Con Kerrinin təqdim etdiyi layihənin qəbul olunmasına Kapitoli zirvəsində 535 nümayəndədən Mak Konnel, Luçar xanım Ksembium, Skenford və bir neçə şəxs etiraz bildirsə də, onların sayının az olması öz işini gördü.

Əlbəttə ki, müstəqilliyin əvvəllərində real Azərbaycan haqqında obyektiv məlumatlandırılmayan Amerika ictimaiyyətini yanlış informasiya ilə təmin edən ermənilərin güclü fəaliyyəti dövründə pərakəndə halda rabitəsiz fəaliyyət göstərən, tərkibi əsasən cənublu soydaşlarımızdan ibarət olan və ən başlıcası isə, Azərbaycan Respublikası ilə sabit əlaqəyə malik olmayan və özü də mərkəzdən heç bir real dəstək almayan Azərbaycan diaspor təşkilatlarının lobbiləşdirmə kompaniyası barədə danışmağa dəyməzdi. Bu proseslər Azərbaycanı beynəlxalq ictimaiyyətdən ayırdı. Cəmiyyətin fikrilə böyük təsir qüvvəsi olan “907-ci əlavə”nin qüvvədə qalması, Azərbaycanın müharibə şəraitində olması, daxili çəkişmələr Qərbdə ölkənin dəstəklənməsi işində boşluq yaratdı. ABŞ Dövlət Departamentinin əleyhdarı olduğu “907-ci düzəliş”in yumşaldılmasında maraqlı olduğundan qeyri-rəsmi olaraq geosiyasi torpaqlar baxımından Azərbaycanı dəstəkləyir. 1993-cü ilin məlum hadisələri, hakimiyyət dəyişikliyi, “Atəşkəs imzalaması”, hərbi əməliyyatları dayandırmaq, diplomatik münasibətlərə yer verilməsi səbəbi ilə ciddi nöqsanların aradan qaldırılması istiqamətində satrateji xətt çəkildi.

Azərbaycan lobbisinin ABŞ-da və digər ölkələrdə qurulmasının təşəbbüskarı Heydər Əliyevdir. Onun 1993-cü ildə Azərbaycanda siyasi rəhbərliyə gəlişindən sonra bu istiqamətdə konkret addımlar atıldı. Məhz bu dövrdən diasporun təşkilatlanması, lobbiçiliyin formalaşdırılması və institutlaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bu strateji xəttin özəlliklərindən birini dünya siyasətində böyük çəkiyə malik olan ölkələrdə Azərbaycan icmalarını formalaşdıraraq dövlət strukturlarına müsbət istiqamətdə təsir göstərə biləcək kütləvi təşviqat kompaniyasının Azərbaycan lobbisinin formalaşdırılması daxil idi. Bu isə xaricdə güclü Azərbaycan diasporunun yaradılmasından sonra mümkün ola bilər.

Məsələn, ABŞ-dakı yəhudi icmalarının potensialından Azərbaycan ilə bağlı aydın təsəvvürün yaradılması və düzgün informasianın yayılması məqsədilə istifadə olundu.

Bu dövrdə Azərbaycan artıq neft ehtiyatları ilə Qərb ölkələrinin maraqlarına daxil olurdu. Dövlət Departamentinin Azərbaycana münasibətlərinin normallaşdırılması istiqamətində apardığı işlər çərçivəsində ABŞ-ın iri neft şirkətlərini önə çəkərək onların Xəzərin karbohidrogen ehtiyatlarından bəhrələnməsini təşfiq erdirdi. Xəzər neftinin əhəmiyyətinin artması Azərbaycan regionunun geosiyasi cəhətdən nüfuzunu artırdı. Azərbaycan neft istehsalçısı olmaqla yanaşı, regiondan - Qazaxıstan və Türkmənistandan Transqafqaz neft kəmərilə neft və qazın Qərbə daşınması üçün əlverişli coğrafi şəraitə malik olması Azərbaycan neft lobbisinin formalaşmasına təkan verdi. Xüsusilə, 1994-cü il 20 sentyabr **"Əsrin müqaviləsi"** - adlandırılan neft kontraktlarının Avropa dövlətləri, ABŞ, Rusiya, Yaponiya, Türkiyə, İran və Yaxın Şərq ölkələrinin transmilli korporasiyaları ilə imzalanması bu prosesləri gücləndirdi.

Bunun səbəbidir ki, ABŞ siyasi və ictimai xadimlərinin çıxışlarında "neft strateji məhsuldur, Amerika Azərbaycanın neft yataqlarının kəmiyyətini, Küveytin və ABŞ-ın ehtiyatlarına bərabər sayır". "Amerika milli mənafeləri və neft maraqları erməni lobbisindən üstündür" şüarları səsləndirməklə, Azərbaycan naminə lobbiləşmə işinə qoşulurdular. Breit Skanurfort və Zbiqnev Bjezinski kimi ABŞ-ın Milli Təhlükəsizlik üzrə keçmiş müşavirləri, Ağ Ev aparatının keçmiş rəhbəri Con Ayn, keçmiş müdafiə naziri Riçard Çeyni, Ceyms Beyker, Lloyd Beitçi, Riçard Armitac eləcə də, Vaşinqtonun nisbətən aşağı səviyyəli bir sıra digər nümayəndələri ilə yanaşı "Texas oyl", "Şevron", "Amoko", "Ekson", "Mobil" kimi neft nəhəngləri Azərbaycanın mənafeyinin qorunması işinə qoşuldular. Bununla paralel maraq Kapitoli zirvəsində ABŞ-ın Qafqaz siyasətini idarə edən konqresmenlər və senatorlar arasında balans yaratdı. Li Hamilton, Sem Braunbək, Qordon Smit kimi əvvəllər ermənipərəst konqresmenlərin Azərbaycan lobbiçilərinə çevrilməsi Azərbaycan lobbisinin formalaşmasının bariz nümunəsi idi. Xüsusilə, dövlət başçısı, mərhum Heydər Əliyevin Amerika, Fransa, Rusiya, İngiltərə və s. ölkələrə rəsmi səfərləri zamanı Azərbaycan diasporunun nümayəndələrinin keçirdiyi görüşlər soydaşlarımızın lobbiçilik fəaliyyətinə qoşulmasında mühüm rol oynadı. Azərbaycanın neft strategiyasının dəstəklənməsi işində fəaliyyətini aktivləşdirən diasporumuzun lobbiçilik işi dünya azərbaycanlılarını ətrafında birləşdirən qurumların məqsəd və vəzifələrinə daxil edildi [7].

Ötən dövrə nəzər saldıqda görürük ki, ABŞ-da Azərbaycan diasporunun lobbiçilik missiyası genişlənir və nəticə verir. ABŞ-ın Yəhudi diasporunun nümayəndələri Azərbaycana böyük kömək göstərə bilər. "Beləliklə, ABŞ xarici siyasətinə təsir edən lobbi qruplarını, onların tətbiq etdikləri metod və üsulları nəzərdən keçirdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, çəkindirmə və balanslaşdırma" siyasətinə əsaslanan ABŞ-da lobbilərin xarici siyasətinin daha uğurlu, təsirli tarazlaşdırıcı və xüsusən sabitləşdirici olmasında böyük əhəmiyyəti vardır. Məhz bu səbəblərdən yəhudi lobbisinin ərəb, yunan lobbisinin təsirlərindən isə türk lobbisinin formalaşmasını qeyd edə bilərik. Bu tarixi analogiyanı erməni lobbisinin fəaliyyəti ilə əlaqədar Azərbaycan lobbisinin yaranmasına da tətbiq edə bilərik. Ən azı bu lobbinin Qarabağ münaqişəsinin həlli üçün böyük əhəmiyyəti vardır" [1].

Azərbaycan xalqının, xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin qan yaddaşına həkk olmuş insanlığa qarşı amansız qəddarlığın, birgəyaşayış əleyhinə cinayət olan Xocalı soyqırımının - dəhşət doğuran və vəhşət saçan hadisənin təkrarlanmaması üçün beynəlxalq aləmə çatdırılması və tanıdılması çox mühüm əhəmiyyət kəsb edir. Yaşadığımız planetdə daim sülh və birgəyaşayış üçün belə vandalizmi törətmiş etnik millətçilər, rasistlər və ksenefoblar ifşa olunmalı, cinayət məsuliyyətinə cəlb edilməli və onların layiqli cəzası verilməlidir. Əfsus ki, indiyədək dünyanın 16-dan çox ölkəsinin parlamenti və hökuməti, eləcə də ABŞ-ın 24 ştatı tərəfindən Xocalı törədilən qətliam "Soyqırımı aktı" kimi tanınmışdır.

Bu xüsusda, Azərbaycan diasporunun atdığı unikal addımlar milli baxımdan birliyimizin və həmrəyliyimizin göstəricisi olmaqla yanaşı, bir müdrik xalq kimi humanistliyimizi, nə dərəcədə insaniyyətə xidmət göstərdiyimizi, bəşəri dəyərlərə həssaslıqla və hörmətlə yanaşdığımızı ifadə edir. Xocalı faciəsinin növbəti anım günü ərəfəsində ABŞ-dakı Azərbaycan diasporunun gərgin səyləri nəticəsində qəbul edilən müvafiq qərarlar milli qürür hissi ilə bəşəri töhfə kimi qarşılanır. Erməni qəsbkarları tərəfindən törədilən bu vəhşilik zamanı qətlə yetirilən qurbanların ruhlarını şad edir, sağ qa-

lanların heysiyyatlarının qorunmasına xidmət edir. ABŞ-da məskunlaşan azərbaycanlıların "Xocalıya ədalət" çağırışına bir neçə ştat və şəhər administrasiyasının müsbət cavab verməsi, bununla əlaqədar xüsusi münasibət sərgiləməsi Azərbaycan diasporunun faydalı iş əmsalının yüksək olmasının, buradakı öz aktivliyi ilə seçilən vətənpərvər azərbaycanlıların nümunəvi fəaliyyətlərinin bariz təzahürüdür. Hətta, bütün bunları artıq ABŞ-da formalaşmış lobbiçiliyimizin inkişaf göstəricisi kimi dəyərləndirmək mümkündür. Elə Xocalı soyqırımı ilə bağlı son illər əldə edilən nəticələr də bu qəbildəndir.

1. 2021-ci il 13 fevral tarixində Florida ştatının Aventura şəhəri və Holondeyl Biç şəhəri "26 fevral 2021-ci il tarixinin Xocalı faciəsinin anım günü" kimi qeyd edilməsinə dair bəyanat yayıb. Bu işdə Florida Amerika-Azərbaycan Mədəniyyət Assosiasiyasının sədri Töhfə Eminovanın və Florida Azərbaycan İcmasının rəhbəri Esmira Bayramovanın birgə əməyi vardır.
2. 2021-ci ilin 13 fevral tarixində ABŞ-ın Minnesota ştatının qubernatoru Tim Volz fevralın 26-nın Azərbaycan günü elan edilməsi ilə bağlı bəyanat imzalayıb. Belə bir bəyanatın imzalanması Minnesota Azərbaycan Assosiasiyasının rəhbəri Günel Rallisin təşəbbüsü olub.
3. 2021-ci ilin 17 fevral tarixində ABŞ-ın Men ştatının Portlənd şəhərinin meri Ketlin M.Snayder 2021-ci il fevralın 26-nın Xocalı qətliamı qurbanlarının anım günü kimi qeyd olunmasına dair bəyanat imzalayıb. Bunun əldə olunmasında Men Azərbaycan Cəmiyyətinin sədri Tərlan Əhmədovun fəaliyyəti danılmazdır.
4. 2021-ci ilin 18 fevral tarixində İllinoys ştatının Skoki şəhərinin meri Corc Van Dusenin imzaladığı bəyannamə ABŞ-ın Orta Qərb Ştatları üzrə Azərbaycan Mərkəzinin üzvlərinə və İllinoys ştatının Azərbaycan icmasına ünvanlanıb. Bəyannamə Amerika Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin rəhbəri Fərid Məmmədovun və İllinoys ştatında yaşayan Azərbaycan icmasının təşəbbüsü ilə əldə edilib [10].

Məhz 2021-ci il 26 fevralın Birləşmiş Ştatların müxtəlif ərazilərində "Azərbaycan günü" kimi qeyd edilməsi qərarları təqdirəlayiq haldır. Maraqlı məqamlardan biri də odur ki, şərqdə ilk demokratik respublikanı quran və qadınlara seçib-seçilmək hüququ verən bir Azərbaycan ilə ABŞ-ı oxşar cəhətlər birləşdirir. Məhz ötən müddət ərzində müvafiq təşkilatlara rəhbərlik edən Azərbaycan diasporunun qadın şəbəkəsinin tanınmış və nüfuzlu üzvlərinin təşəbbüsü əsasında qəbul olunmuş qərarlar Azərbaycan qadınının tarixi inkişaf yolu qət etdiyini ehtiva etməklə, "zərif güc"ün effektivliyi kimi qiymətləndirmək mümkündür. Qeyd edək ki, Azərbaycan diasporunun ən geniş fəaliyyət göstərdiyi ölkələrdən biri ABŞ-dır. Birləşmiş Ştatlarda azərbaycanlıların məskunlaşma tarixi təqribən yüz il əvvələ gedib çıxır. Okeanın o tayında Azərbaycan milli icmalarının yaranmasının yaşı 70 ildən yuxarıdır. Məhz dünya ölkələri arasında ilk təşkilatlarlarımızdan biri burada yaradılıb. ABŞ-da birinci nəsil azərbaycanlılardan olan Nağı bəy Şeyxzamanov tərəfindən 1957-ci ildə Amerika-Azərbaycan Cəmiyyəti qurulub. Bu dövr ərzində səmərəli fəaliyyəti ilə seçilib. Bu gün imkanlar ölkəsi hesab edilən ABŞ-dakı azərbaycanlılar ana dilimizi, yüksək milli-mədəni dəyərlərimizi, mükəmməl adət-ənənələrimizi qoruyub-saxlamaqla, habelə tanıtmaqla, təbliğ etməklə yerli mədəniyyətlərin inkişafına, sivilizasiyaların zənginləşməsinə töhfə verirlər. Burada yaşayan və fəaliyyət göstərən mütərəqqi ruhlu azərbaycanlıların, Azərbaycan diaspor nümayəndələrinin 44 günlük Vətən müharibəsindəki zəfərimizdə məxsusi yeri və rolu vardır. Onların yekdillik və mütəşəkkilliklə dünyanın fövqəl dövləti olan ABŞ-da haqlı mövqeyimizi çatdırılması minnətdarlıqla qeyd edilməlidir. ABŞ-da Azərbaycan diasporunun müasir dövrün tələblərinə uyğun inkişafında, effektiv nəticələrin əldə edilməsində, habelə lobbiçilik quruculuğunda 2019-cu ildə təsis olunan ABŞ Azərbaycanlılarının Koordinasiya Şurası xüsusi yeri vardır. Məhz yuxarıda sadalanan böyük nailiyyətlərin əldə edilməsində rolu olan şəxslər "ağıllı şəbəkələşmə"ni təmin edən həmin Şuranın fəal üzvləridir. Güclü yəhudi lobbisinin Azərbaycan maraqlarını müdafiə etməsi erməni lobbisi və diasporunun neytrallaşdırılması işində böyük əhəmiyyət kəsb edir. Türk, yəhudi lobbisinin dəstəyi olan Azərbaycanın yeni-yeni formalaşan lobbisi bəzi prinsipial məsələlərdə uğurlar əldə etməyə başlayıb. 2000-ci il sentyabrın 8-də ABŞ-da səfərdə olan Azərbaycan prezidenti Heydər Əliyevin Amerikanın nüfuzlu yəhudi təşkilatları, Yəhudi Komitəsi, Prezidentlər Konfransının, Yəhudi Konqresinin, Sovet Yəhudiləri Komitəsinin rəhbərlərilə görüşü də Azərbaycan haqq işinin dəstəklənməsi prosesində güclü yəhudi lobbisinin yerini müəyyən-

ləşdirməsində mühüm görüş idi. Xüsusən, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin dəstəklənməsi və Xocalı soyqırımının tanıdılması istiqamətində Azərbaycan lobbisinin fəaliyyətini müsbət adlandırmaq olar. Əsasən, Böyük Britaniyada fəaliyyəti ilə seçilən Azərbaycan lobbisi 2003-cü il martın 17-də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Bakı-Tbilisi-Ceyhan enerji dəhlizi və digər məsələlərə həsr olunan tədbir tarixi əhəmiyyət daşıyır.

Leyborist partiyasından lord Nazir Əhməd, ABŞ-ın Harvard universitetində fəaliyyət göstərən "Xəzər" Tədqiqatlar Mərkəzinin direktoru Brenda Şeffer və digər Azərbaycana dost münasibət bəsləyən nüfuzlu şəxslərin, habelə "Vətən" Cəmiyyəti, Dünya Azərbaycanlıları Konqresinin nümayəndələrinin də iştirak etdiyi tədbir formalşmaqda olan Azərbaycan lobbisinin perspektivlərindən xəbər verir. Bu tədbirin ardınca Böyük Britaniya parlamentində Xocalı soyqırımı ilə əlaqəli sənədin qəbul olunması tarixi hadisə hesab olunur. Son zamanların prosesləri ABŞ administrasiyasının Cənubi Qafqaz siyasəti Azərbaycan amilinə uyğunlaşmasını göstərir. Bu isə Azərbaycan diasporu və lobbisinin rəsmi səviyyədə dəstəklənməsi deməkdir. ABŞ Konqresinin Məsləhət Şurasında Azərbaycanın əvvəllər hüquqi cəhətdən lobbiçiliyini edən "Lohn Vafai and Associates" - hüquq firmasının sədri Con Vəfai bir sıra muhim işlər görüb. Bütün bunlar artıq Birləşmiş Ştatlarda Azərbaycan lobbisinin fəaliyyətini daha da aktivləşdirirdi. Xüsusən də neft lobbisinin fəaliyyəti daha şaxəli və diqqətə layiqdir.

Azərbaycan lobbisinin fəaliyyəti eyni zamanda diasporunun həyatında əsas istiqamətlərdən biri olmalıdır. Bu məsələ elə səviyyədə həyata keçirilməlidir ki, son dövrlərin hadisələri artıq müvafiq sahələrdə bir sıra addımlar atmağa müvəffəq olsun. 1993-cü ildə "907-ci əlavə"nin qüvvədə olmasına baxmayaraq ondan sonra 3 il ərzində Azərbaycana maliyyə yardımı artmış və Cənubi Qafqaz respublikalarına edilən humanitar yardım demək olar ki, eyni bərabər səviyyəyə qaldırılmışdır. ABŞ-ın qeyri-hökumət təşkilatları vasitəsilə ölkədə demokratiyanın inkişafı və digər sahələrdə işlərin aparılması üçün əvəzsiz yardımlar - qrantlar yerli QHT-lərə ayrılmışdır. "Eksson", "Mobil", "Amoko", "Şevron", "Yunokal", "Penizoli" kimi şirkətlər Azərbaycan iqtisadiyyatına iri həcmdə uzunmüddətli investisiya qoymağa başlamışlar. Tibb, sənaye, kənd təsərrüfatı rabitə, və digər sahələrə investisiya qoyuluşu Azərbaycanın geosiyasi mövqeyini və iqtisadi vəziyyətini gücləndirir. Azərbaycan lobbisinin fəaliyyəti Amerika kütləvi informasiya vasitələrində tanınmış politoloqlar və şərhçilər tərəfindən müsbət görmək olar. Azərbaycan lobbisinin hələ gənc olmasını da nəzərə almaqla, digər güclü lobbilərə nisbətdə qısa müddətdə aparılan işləri qənaətbəxş hesab etmək olar. Zamanla təcrübənin artması, professional mütəxəssislərin lobbiçilik istiqamətində məsləhətləri və planları, dövlət səviyyəsində dəstəyin artması hesabına Azərbaycan lobbisini güclü lobbilər sırasında görmək olar. Çünkü, dövlət başçısı İlham Əliyev lobbi fəaliyyətinə başlıca hədəf hesab edir: *"Ümumazərbaycan məsələləri ilə bağlı təsirli addımlar atılmalı, aparıcı ölkələrdə güclü Azərbaycan lobbisi formalaşdırılmalıdır. Dost icmalar və lobbi təşkilatları ilə səmərəli əməkdaşlıq qurulmalı, diaspor quruculuğu sahəsində onların müsbət təcrübəsindən istifadə olunmalıdır*" [12].

Bu gün Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti ilə yanaşı, lobbi işinə də qoşulması prosesi başlayıb və bu istiqamətdə konkret addımlar atılır desək yanılmarıq.

Hazırda bir sıra Azərbaycan diaspor təşkilatlarıdan Dünya Azərbaycanlıları Konqresi, Amerika Azərbaycan Cəmiyyəti, Avropa Azərbaycan Cəmiyyəti, Fransa və Belçika Azərbaycan Evi lobbiçilik işini başlıca məqsəd və vəzifə hesab edirlər. Yəhudi, türk və Azərbaycana dost münasibət bəsləyən xalqların diaspor və lobbiləri ilə qarşılıqlı anlaşma əsasında əməkdaşlıq etmək, onların köməyindən istifadə edərək təcrübə toplamaq və qarşıya qoyulan hədəflərə çatmaq artıq nəzəriyədən təcrübəyə keçidin göstəricisidir. Bu gün təəssüf ki, diaspor təşkilatlarımızın lobbiçilik strategiyası yox dərəcəsindədir. Təşkilatlarımız lobbi işinin qurulması, maraq və təyziq qruplarının formalaşadırılması kimi anlayışlardan uzaqdadılar. Lobbiçiliyi sadəcə şəxsi dostlar və tanışlar kimi qəbul edib kor-korənə fəaliyyət isə Azərbaycan üçün sadəcə yaxşı heç nə vəd etmir. Bundan şəxsi məqsəd kimi sui-istifadə halına da yol verilə bilər. Lobbiçilik üç mütləq düşünülmüş strateji addımlardan ibarət olan konsepsiya olmalıdır. Bu proqram tipli sənəd GZİT (SWOT) təhlili edilməlidir. Güclü və Zəif tərəflər əvvəlcədən müəyyən edilməli, İmkan və Təhlükələr planlaşdırılmalıdır. Konsepsiyada hər bir ölkə vətəndaşlarının psixologiyası, sosial durumları da nəzərə alınmalıdır.

Qeyd edək ki, son illər Azərbaycan da lobbi quruculuğu işinə mühüm əhəmiyyət verir və bu istiqamətdə xüsusi tədbirlər həyata keçirir. Beynəlxalq aləmdə milli maraqlarını təmin etmək məqsədilə özünün diaspor potensialından bəhrələnərək xarici lobbiçilikdən siyasi vasitə kimi istifadə edir. Belə ki, Azərbaycanın tanınması və təbliği ilə bağlı layihələrin reallaşdırılması, bir sıra dövlətlərin parlamentində "Xocalı soyqırımı"nın tanıması barədə qətnamələrin qəbul edilməsi, Azərbaycan BMT-yə üzvü olan ölkələrin 155 səsini toplayaraq 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və digər tədbirləri lobbiçilik fəaliyyətinin uğurlu nəticəsi kimi götürə bilərik. Bütün bunlara baxmayaraq, mövcud vəziyyətdə Azərbaycan lobbisinin inkişafına və günclənməsinə böyük ehtiyac vardır. O cümlədən, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsirlərindən irəli gələn hərəkətlərlə həll olunması üçün davam edən 44 günlük Vətən müharibəsində də Azərbaycan lobbi institutlarının mövcudluğu öz təsdiqini tapdı [11].

Göründüyü kimi, XXI əsrdə qloballaşan dünyada funksiyası maksimum dərəcədə artan diaspor məfhumunun hansı məzmun və mahiyyət daşıdığını, habelə təyinatının nədən ibarət olduğunu öyrənmək və araşdırmaq yeni çağırışlar və trendlər sırasındadır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi həm dövlət quruluşunda əsaslı dəyişikliklərin həyata keçirilməsi, həm də yeni sosial-mədəni və siyasi-iqtisadi münasibətlərin formalaşması üçün yol açdı. Eyni zamanda, milli dövlət quruculuğu sahəsində qarşıya davamlı olaraq beynəlxalq aləmdə öz təhlükəsizliyinin keşiyini çəkmək kimi daimi bir məsuliyyət qoydu.

Bu da vahid orqanizm kimi dünya azərbaycanlılarının birliyi və həmrəyliyi istiqamətində konkret addımların atılmasını şərtləndirir.

Bütün bunlar isə milli maraqların təmin edilməsini, qlobal aktorlarla birbaşa ünsiyyətin yaranmasını, tamamilə fərqli bir təhlükəsizlik mühitinə daxil olma, ictimai, siyasi, sosial, iqtisadi münasibətlərin demokratiya, vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı yoluna çıxması və s. tələblər Azərbaycanda şəxsiyyətin, cəmiyyətin və dövlətin qlobal təhlükəsizliyinə dair unikal yanaşmanın, strategiya, proqram və konsepsiyaların yaradılmasını tələb edir.

"Təəssüf ki, həmin dövrdə Azərbaycan xalqı bir çox əsrlər ərzində formalaşmış erməni lobbisinə müqavimət göstərə bilmirdi. Bu gün dünya ölkələrinin çoxunda erməni lobbisinin təbliğat imkanları var. Belə şəraitdə bütün azərbaycanlıların, o cümlədən xarici ölkələrdə yaşayan azərbaycanlıların birləşməsinə, ölkəmizin maraqlarının reallaşmasında Azərbaycan diasporunun nümayəndələrinin köməyinə xüsusi ehtiyac hiss olunur. Xarici ölkələrdəki həmvətənlər etnik mənşəyindən və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan dövlətinin maraqlarının lobbiləşdirilməsinin çox mühüm vəsiləsinə çevrilməlidirlər" [8].

Ötən əsrin sonlarında baş verən geosiyasi proseslər nəticəsində, Azərbaycan Respublikasının öz dövlət suverenliyini bəyan etməsi, təkcə ölkə ərazisində yaşayan azərbaycanlıların həyatında deyil, bəşər tarixinin müxtəlif dövrlərində dünyanın müxtəlif coğrafiyasına səpələnən, özünə ikinci vətən seçən soydaşlarımızın və həmvətənlərmizin həyatında da yeni bir mərhələnin başlanmasına səbəb oldu. Zaman keçdikcə müstəqillik yolunda addımladıqca bunu daha dərindən hiss etməyə başladıq və Azərbaycan Respublikasının milli dövlətçiliyində, xarici siyasət strategiyasında diasporun mühüm rol oynadığının şahidi olduq. Bu anlayış hər bir sahədə, hər bir uğurda özünü göstərməyə başladı. Təsadüfi deyil ki, müstəqillik illərində qəbul edilən milli dövlətçiliyimiz üçün strateji əhəmiyyət kəsb edən bütün sənədlərdə xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsi diqqət mərkəzində saxlanılmışdır. Bu dövr ərzində onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunması, soydaşlarımızın və həmvətənlərimizin tarixi vətənləri ilə əlaqələrinin yaradılması, onlara etnik kimlikləri və ata-baba yurdları qarşısında duran vəziflərinin xatırladılması məqsədilə "Dünya azərbaycanlılarının qurultayları" keçirilmiş, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" qanun qəbul olunmuş, "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi" yaradılmış və "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" hazırlanmışdır [10].

Hazırda bu sahədə yeni mərhələyə başlanılmışdır. Belə ki, xaricdə Azərbaycanın evlərinin yaradılması, "Made in Azerbaijan" brendi ilə məsullarından ibarət yarmarkaların təşkili, butiklərin açılması kimi tədbirlərin reallaşdırılması ənənəsinin davam etdirilməsi mühüm əhəmiyyətə malikdir.

Qeyd etməliyik ki, diaspor işində nailiyyətlərlərimizlə yanaşı problemlərimiz də mövcuddur. Bunun da ən başlıca səbəbi milli diasporumuzun imkanlarından tam mənada istifadə edə bilməməyi-

miz Şimal və Cənub qolu arasında harmoniyanın olmaması problemidir. Bu əsasən elmi potensialdan, kütləvi informasiya vasitələrindən və müasir texnologiyanın imkanlarından yetərincə yararlanmamağımızdan irəli gəlir. Eləcə də, şəxsi ambisiyalar, fərdi maraqların etnik-milli mənafedən üstün tutulması, diaspor rəhbərlərinin öz arlarında "mənəm mənəmlik", **"birincilik"** mübarizəsi diasporu tamamilə öz məqsədindən uzaq salır.

Bildiyimiz kimi diaspor amili müasir dünyada mühüm əhəmiyyət kəsb etməklə, beynəlxalq aləmdə də xalq diplomatiyasının subyekti statusu qazanmışdır. Hətta, mütəxəssislər diasporu müasir dünyanın ayrılmaz atributu hesab edirlər. Çünki, diaspor dünyada gedən qlobal proseslər, lokal hadisələr fonunda baş verən dəyişikliklər nəticəsində **"siyasi alətə"** çevrilərsə, milli müxtəlifliyin qorunmasına zərbə vura bilər. Bu da bizi bir daha düşündürməyə vadar edir və milli dövlətçiliyimizdə həssas məsələ hesab oluna biləcək diaspor potensialından düzgün istifadə etməyin və düzgün istiqamətləndirməyin vacibliyini ön plana çəkir. Məlumdur ki, diaspor fəaliyyətində başlıca məqsəd mənsub olduğu etnik azlığın dilini, mədəniyyətini saxlamaqdan ibarət olmalıdır. Beynəlxalq səviyyədə isə müxtəlif diasporlarla birgə milli və bəşəri inkişaf kontekstində fəaliyyət planlarının, proqramlarının hazırlanması və tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur.

Nəzərə almalıyıq ki, diaspor könüllü fəaliyyət olub, sosial-mədəni xarakter daşıyır. Diasporu milli maraqların, mentalitetlərinin qorunmasında vasitə kimi görürüksə onun hər hansı bir mərkəzi adda birləşməsi o qədər də əhəmiyyət kəsb etmir. Buna görə də burada vacib deyil ki, milli diaspor şüuruna malik şəxs hər hansısa bir mərkəzləşdirilmiş təşkilatda birləşsin. Əgər, miqrantda "diaspor şüuru" formalaşıbsa, o yaşadığı cəmiyyətə inteqrasiya etməklə öz milli xüsusiyyətlərini, dilini qoruyub saxlayacaq və vətənini təmsil edəcəkdir. Bu daha faydalıdır! Nəinki bir neçə nəfərin hansısa təşkilatda, konqresdə birləşib, ayda, ildə və yaxud da xüsusi günlərdə bir araya gəlməsi və tədbir keçirməsi. Həmçinin, akademik yanaşma mühüm əhəmiyyətə malikdir. Xarici ölkələrin dərs vəsaitlərində ölkəmizlə bağlı məlumatların salınması və ya təhsil ocaqlarında azərbaycanlı mütəxəssislərin iştirakı ilə dərs saatlarının keçirilməsi effektiv səmərə verə bilər. Diaspor çox mürəkkəb təyinata malikdir. Bundan düzgün istifadə edilməzsə maraqlı qüvvələr diasporu öz məqsədlərinə çatmaq üçün vasitə kimi istifadə edə bilərlər. Ona görə də strategiya düzgün qurulmalıdır ki, bundan siyasi məqsədlər üçün yox, yaxınlaşma faktoru kimi istifadə edilsin.

O cümlədən, milli diaspor məsələsində iki həssas məsələyə xüsusi diqqət yetirilməli, İran və Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı məsələlərə ciddi yanaşılmalıdır. Bunların heç birinin diaspor sayılması düzgün deyildir. Çünki onlar tarixi-etnik vətənlərində yaşayırlar.

Bununla, Xarici İşlər Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin aidiyyəti üzrə hüquq və vəzifələrinə yenidən baxmaq və konkretləşdirmək lazımdır. Daha yaxşı olar ki, Nazirliyin xaricdə nümayəndəliklərinin olmasını nəzərə alaraq, o, təşkilati işlər və diaspor rəhbərinin müəyyənləşdirilməsi məsələlərində birbaşa iştirak etsin, Komitə isə onların inkişafına kömək məqsədilə öz tövsiyə və təkliflərini, proqramlar və materiallar versin və keçirilməsi planlaşdırılan tədbirin təsnifatına uyğun materiallarla onları təmin etsin. Xaricdə yaşayan azərbaycanlı ailələri bu fəaliyyətə cəlb etmək üçün stimullaşdırıcı tədbirlər həyata keçirilməli və diaspor kontingentin ictimai mənşəyi, demoqrafiq vəziyyəti, miqrasiya etmə səbəbləri və əmək fəaliyyətləri nəzərə alınaraq iş aparılmalıdır. İstənilən diaspor nümayəndəsi, sosial-ictimai mənşəyindən asılı olmayaraq, Komitə ilə əlaqə yaratmaq imkanı olmalıdır. Həmçinin, Komitə tərəfindən aşağıda sadalanan tədbirlərin reallaşdırılması məqsədəuyğun hesab olunur:

1. Diaspor fəaliyyəti üzrə media strategiyasının hazırlanması və vahid media platformasının yaradılması.
2. KİV sahəsində ixtisaslaşmış diaspor nümayəndələri ilə görüşlərin keçirilməsi və jurnalist qruplarının yaradılması.
3. Müasir dövrün çağırışlarını nəzərə alaraq, Sosial Media Marketinq və Bloger qruplarının formalaşdırılması.

Azərbaycan Respublikasından kənarda ölkəmizin sosial-mədəni, iqtisadi və siyasi maraqlarını təmin etmək məqsədilə lobbi fəaliyyətini inkişaf etdirmək vacibdir. Bu xüsusda, lobbi institutunun yaradılması, milli qanunvericiliyin qəbul edilməsi və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi-

lə mexanizmin qurulması məqsədəuyğundur. Həmçinin, Azərbaycan diasporunun inkişafına dəstək olmaq və bu istiqamət üzrə fəaliyyət göstərən təşkilatların maddi-texniki bazasını gücləndirməklə respublikamızın tanıtımı, təbliğatı-təşviqatı ilə bağlı həyata keçirilən yerli, regional və beynəlxalq layihə və proqramları qrant şəklində məqsədli maliyyələşdirmək, bu sahədə nəzəri-praktiki konfrans, seminar, simpozium və digər tədbirlərin təşkili üzrə layihələri dəstəkləmək məqsədilə "Azərbaycan dövlət-diaspor əməkdaşlığı Konsepsiyası"nın və "Diasporla İş üzrə Dövlət Proqaramı"nın hazırlanması dövrün tələblərindən hesab oluna bilər.

Bir məsələni də diqqətdə saxlamaq vacibdir ki, diaspor hərtərəfli inkişafı üçün həm mövcud olduğu ölkənin, həm etnik vətəninin, həm də beynəlxalq təşkilatların qayda-qanunlarına uyğun strategiya qəbul olunmalıdır. Bu gün regional deyil, qlobal təşkilatlarda təmsil olunaraq beynəlxalq birliklərin yaradılması zəruridir.

Qeyd etmək lazımdır ki, dünyada istər klassik, istərsə də müasir diasporlar mütəxəssislər tərəfindən qəbul edilmiş model üzərində fəaliyyətlərini qururlar:

birincisi - həmvətənlərin azadlığı və hüquqlarının müdafiəsi;

ikincisi - diasporun potensialından milli maraqların və dövlətlərarası münasibətlərin inkişafında istifadə etmək;

üçüncüsü - qeyri-vətənpərvər (minilliklərlə yaşı ölçülən dünyəvi yəhudi diasporu öz strategiyasını üçüncü metodla qurub və dövlət də hər cür köməklik edir ki, onlar yaşadıqları yerlərdə məskunlaşsınlar.

Öz mədəniyyət və ideologiyalarının daşıyıcıları olsunlar. Onlar buna adətən bu qaydada and içirlər: "Əgər mən səni unutsam Yerusəlim, qoy mənim sağ əlim qurusun, əgər Yerusəlimi öz sevincimin zirvəsinə yüksəltməsəm qoy dilim qırtlağıma yapışsın").

Gəlin görək Azərbaycan diasporu və lobbisi sadaladığımız modellərdən hansı üzrəfində öz fəaliyyətin qurub!? Düşünürük ki, Azərbaycan diasporu və lobbisinin inkişafı üçün vahid ideologiyadan doğan strategiya və "and" lazımdır. Məsələn, "Azərbaycan, Səndən ötrü can verməyə cümlə hazırız"!

***Nəticə***. Yuxarıda göstərilən amilləri və müasir dövrdə lobbiçiliyin əhəmiyyətini nəzərə alaraq Azərbaycan lobbisinin inkişaf etdirilməsi vacib xarakter daşıyır. Bunun üçün isə ilk növbədə yeni mexanizm işlənib hazırlanmalı, proqram - qanunvericilik bazası formalaşdırılmalı və müasir tələblərə cavab verən institutlar yaradılmalıdır.

Həmçinin, azərbaycanlıların kompakt yaşadıqları yerlərdə lobbi mərkəzləri təsis edilməli və kütləvi informasiya vasitələrinin, internetin-virtual aləmin real imkanlarından maksimum dərəcədə istifadə olunmalıdır. Qəzetlər, jurnallar, bülletenlər, kitablar çap olumalı, radio-televiziya verlişləri hazırlanmalı və elektron portallar yaradılmalıdır. Bu həm azərbaycanlıların milli-mədəni birliyinin qorunmasına, sosial-iqtisadi inkişafının təminatına, onların vətəndaş hüquqlarının müdafiəsinə, *ictimai-siyasi* həyatda fəaliyyətlərinin genişləndirilməsinə və həm də Azərbaycanın tanıdılmasına, təbliğinə-təşfiqinə, beynəlxalq imicinin yüksəlməsinə, Qarabağ sindromu ilə bağlı Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə düzgün çatdırılmasına töhfə verə bilər.

Ən yeni tarixdə Transmilli qarşılıqlı əlaqələrin inkişafında qeyri-dövlət aktoru, sosial qrupların dünya siyasətində yeri və rolu artır. Məhz "yumşaq güc" statusuna yiyələnən dolayı təsir vasitəsinə çevrilən lobbiçilikdən milli maraqların təmin edilməsi istiqamətində səmərəli şəkildə yararlanmaq gərəkdir. İdeoloji informasiya məkanında təhlükə və təhdidləri dəf etmək üçün milli hədəf və prioritetlərə uyğun strategiya formalaşdırılmalıdır. Bütün bunların fonunda Azərbaycanda Qlobal Diaspor Forumunun keçirilməsi təşəbbüsü məqsədəuyğundur.

## ƏDƏBİYYAT

1. ABŞ xarici siyasətində lobbi fəaliyyəti / V. Əliyev // Dirçəliş XXI əsr. - 2006. - № 98/99, s.226-238.
2. Babanlı Y. Müasir tarixdə lobbi amili / Bakı, "Palitra" qəzeti. - 2009, 22-23 dekabr.
3. Əliyev Z. Dünya diasporları (nəzəriyyə və təcrübə). Bakı, "Qismət" - 2005, 349 s.
4. Politologiya: İzahlı lüğət. Bakı, Şərq-Qərb, 2007, 352 s.
5. Sadıqov F. Xarici lobbizm və dövlətlərin maraqları // Bakı, "Məşvərət" jurnalı. - 2000, - № 3(27), s.39-48.

6. Seyidbəyli M. Rusiyada Azərbaycan diasporu: təşəkkülü və inkişafının xüsusiyyətləri və tendensiyaları (1988-2007-illər). Bakı, "Elm" - 2009, 382 s.
*İnternet resursları:*
7. Vikipediya, azad ensiklopediya, Əsrin müqaviləsi. - https://az.wikipedia.org/wiki/%C6%8Fsrin_m%C3%BCqavil%C9%99si [Müraciət tarixi: 27.04. 2022].
8. Azərbaycan diasporu: Müasir çağırışlar və sistemli fəaliyyətin təşkili / AZƏRTAC, 12 iyul 2016. - https://azertag.az/store/files/TARIXDE%20BU%20GUN/%C4%B0YUL/12/RAMIZ%20MUALLIM-n.pdf [Müraciət tarixi: 27.04.2022].
9. Lobbiçilik fəaliyyəti üzrə tənzimləmə tədbirlərinin məqsədəmüvafiqliyi. - http://antikorrupsiya.gov.az/upload/file/Lobbicilik.pdf [Müraciət tarixi: 27.04.2022].
10. Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı - http://diaspor.gov.az/ [Müraciət tarixi: 27.04. 2022].
11. Prezident Kitabxanası - https://files.preslib.az/projects/diaspora/articles/eart2020.pdf [Müraciət tarixi: 27.04.2022].
12. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı - https://president.az/ [Müraciət tarixi: 27.04. 2022].

**ЯХЬЯ БАБАНЛЫ**
*Доктор философии по истории,*
*Докторант Института истории им.А.А.Бакиханова НАНА*

## ПРОЦЕСС ФОРМИРОВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЛОББИ, ОРГАНИЗАЦИОННОЙ СТРУКТУРЫ И ПРОБЛЕМЫ РАЗРАБОТКИ СТРАТЕГИИ

В статье описан процесс формирования азербайджанского лобби, его организационная структура, а также изучены и проанализированы проблемы разработки стратегии.

Были рассмотрены история и особенности лоббизма, даны рекомендации и предложения по практическому развитию азербайджанского лобби на основе современного мирового опыта.

*Ключевые слова*: Азербайджанская диаспора, Азербайджанское лобби, Карабахский конфликт, Договор века, Конгресс США.

**YAHYA BABANLI**
*Doctor of Philosophy in History,*
*Institute History of ANAS*

## THE PROCESS OF FORMATION OF THE AZERBAIJANI LOBBY, ORGANIZATIONAL STRUCTURE AND STRATEGY DEVELOPMENT PROBLEMS

The article describes the process of formation of the Azerbaijani lobby, its organizational structure and was studied and analyzed the problems of strategy development.

The history and specific features of lobbying were considered, recommendations and suggestions were made on the practical development of the Azerbaijani lobby based on current world experience.

*Keywords*: Azerbaijani diaspora, Azerbaijan lobby, Karabakh conflict, Treaty of the Century, US Congress.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 aprel 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. Qabil Əliyev.*

**UOT 327**

**ZÜMRÜD MƏLİKOVA**
*Bakı Slavyan Universitetinin dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*
**zumrud.melik@gmail.com**

# MÜASİR DÖVRDƏ TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİ REGİONDA RUSİYA İLƏ GEOSİYASİ RƏQABƏT KONTEKSTİNDƏ

*Məqalə "Müasir dövrdə Türkiyənin Cənubi Qafqaz siyasəti regionda Rusiya ilə geosiyasi rəqabət kontekstində" adlanır. Cənubi Qafqaz siyasi, iqtisadi, geosiyasi və geostrateji baxımdan Türkiyə və Rusiya üçün mühüm əhəmiyyət kəsb edən bölgədir. Cənubi Qafqaz bölgəsi Avropa təhlükəsizliyi və qitənin sabitliyi baxımından cənub-şərq istiqamətində açar rolu oynayır. Qara dəniz və Xəzər dənizi arasında, tarixi İpək Yolunun və Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Qərbə daşınması üçün mühüm kommunikasiya xətlərinin üzərində yerləşməsi güc mərkəzləri və beynəlxalq aktorlar üçün bölgənin önəmini artırır. Müasir dövrdə Türkiyə Cənubi Qafqazda güclü mövqelərə malik Rusiya ilə ikitərəfli əlaqələrini genişləndirərək geosiyasi cəhətdən bölgədə möhkəmlənmək istiqamətində cəhdlərini artırır.*

*Açar sözlər*: Cənubi Qafqaz, Türkiyə, Rusiya, geosiyasi maraqlar.

***Giriş***. Cənubi Qafqazın geosiyasi və geostrateji baxımdan əhəmiyyəti böyükdür. Tarixən böyük dövlətlər və güclər arasında bu regionda üstünlük uğrunda rəqabət gedib. Region son əsrlərdə Rusiya imperiyası, Osmanlı imperiyası və İran arasında mübarizə obyekti olub dəfələrlə silahlı qarşıdurmalara və ziddiyyətlərin kəskinləşməsinə şahid olub. 1991-ci ildə postsovet respublikalarının müstəqilliklərini elan etməsi ilə 70 il SSRİ-nin nəzarətində olan region ölkələri beynəlxalq münasibətlərin müstəqil aktoruna çevrildilər. Cənubi Qafqaz regionu Avropa təhlükəsizliyi və qitənin sabitliyi baxımından cənub-şərq istiqamətində açar rolu oynayır. Qara dəniz və Xəzər dənizi arasında, tarixi İpək Yolunun və Xəzər dənizinin karbohidrogen ehtiyatlarının Qərbə daşınması üçün mühüm kommunikasiya xəttlərinin üzərində yerləşməsi güc mərkəzləri və beynəlxalq aktorlar üçün bölgənin önəmini artırır.

***Cənubi Qafqazın geosiyasi əhəmiyyəti.*** CQ-ın geostrateji və geosiyasi əhəmiyyətini qeyd edərkən ilk öncə bölgənin tarixən böyük dövlətlərin (Rusiya, Böyük Britaniya, Osmanlı imperiyaları) maraq dairəsində və xarici siyasətində vacib yerə malik olduğunu demək lazımdır. Miqyasca kiçik olan bölgə Aralıq dənizi dünyasını Mərkəzi Asiya ilə, Yaxın Şərqlə Orta və Uzaq Şərqi birləşdirir. Şimalda Böyük Qafqaz (Rusiya), cənubda Türkiyə və İran kimi regional dövlətlər, qərbdə Qara dəniz, şərqdə Xəzər dənizi ilə əhatə olunmuşdur. Geosiyasi cəhətdən Anadolu yarımadasını Qara dəniz-Xəzər dənizi-Bəsrə körfəzi ilə əlaqələndirib sıldırım dağları, dərin vadiləri (Suxumi, Dəryal Dərbənd) ilə uzun dəhliz mövqeyindədir. CQ fərqli coğrafi və iqlim xüsusiyyətlərinə malik olması, özünəməxsus mədəni, dil, din müxtəlifliyini qoruyub saxlaması onun mühüm "sığınacaq" rolunu təmin etmişdir [5, 337-338]. CQ müxtəlif xalqların və etnik qrupların yaşadığı bil bölgə olub əsrlərlə bu etnik zənginliyi qoruyub saxlamağı bacarmışdır. Bu baxımdan istisna təşkil edən monoetnik ölkə Ermənistandır. Bölgənin avtoxton əhalisi olmayan ermənilər Rusiyanın köçürmə siyasəti nəticəsində XIX əsrin əvvəllərindən başlayaraq bölgəyə köçürülməyə başlanmış, Gürcüstan və Azərbaycan ərazisində məskunlaşdırılmışlar. CQ bölgəsinin geosiyasi və geostrateji əhəmiyyət daşıyan ölkələri Azərbaycan və Gürcüstandır. XX əsrin əvvəllərindən enerji amili, yəni Azərbaycan nefti bölgənin geosiyasi əhəmiyyətini daha da artırmışdır. Gürcüstan əlverişli və mühüm coğrafi mövqeyə, Azərbaycan iqtisadi potensialı, təbii ehtiyatları və əhalisinin sayına görə bölgədə dominant mövqeyə sahibdir. İşğalçılıq siyasəti səbəbindən regional layihələrdən kənarda qalan Ermənistanla Rusiya arasında sıx siyasi, hərbi-texniki əməkdaşlıq mövcuddur. CQ bölgəsi zəngin təbii ehtiyatları, geosiyasi mövqeyi, geostrateji əhəmiyyəti, etnik müxtəlifliyi və fərqli mədəniyyətli struktura malikdir.Bir sıra münaqişəli məsələlərin arenası olan CQ ölkələrinin sərhəd-ərazi problemləri mövcuddur. Qonşu ölkələr arasında siyasi və etnik problemlər hələ də tam həllini tapmayıb.

Müasir dövrdə dünyada gedən geosiyasi rəqabət və siyasi proseslər prizmasında bölgədə 30 ilə yaxın müddətdə mövcud olmuş status qvonun dəyişməsi ilə yeni geosiyasi layihələrin reallaşdırılması istiqamətində cəhdlər regionun böyük güclər və regional aktorlar üçün mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiqləyir.

***Türkiyənin Cənubi Qafqaz siyasəti.*** Türkiyə tarixən regionla sıx bağlı olmuş, bölgə xalqları ilə bu və ya digər səviyyədə bağlara malik olmuşdur. Müasir dövrdə Türkiyənin Qafqazda möhkəmlənməsi bu dövlətə Mərkəzi Asiyanın türkdilli ölkələri və Uzaq Şərq ölkələri ilə əlaqələrini inkişaf etdirməyə, eləcə də geosiyasi və geostrateji əhəmiyyət kəsb edən bu bölgələrdə mövqelərini genişləndirmək imkanı yaradır. Azərbaycan bu baxımdan açar rolu oynayır. SSRİ dövründə CQ NATO üzvü olan Türkiyə üçün qapalı olmuşdur, lakin postsovet respublikalarının müstəqillik əldə etməsi bu ölkə üçün bölgəyə iqtisadi, mədəni-humanitar və siyasi cəhətdən daxil olmaq imkanı yaratdı.

Cənubi Qafqaz (CQ) tarixən Osmanlı imperiyasının təsiri dairəsində olan regionlardan (Yaxın Şərq və Balkanlar kimi) olub. Birinci dünya müharibəsindən sonra bu regionlara təsir imkanlarını tamamilə itirən Türkiyə Cumhuriyyəti CQ-yə SSRİ dağıldıqdan sonra qayıda bildi.1991-ci ilin noyabrında Azərbaycanın, dekabrında isə Gürcüstan və Ermənistanın müstəqilliyini tanıyıb region ölkələri ilə qarşılıqlı münasibətlərini inkişaf etdirmək niyyətini əməli olaraq göstərdi. Ermənistanın 1993-cü ildə Azərbaycanın Kəlbəcər rayonunu işğal etməsi səbəbindən Türkiyə bu ölkə ilə sərhədlərini bağlayıb diplomatik əlaqələrini kəsdi. Türkiyə Azərbaycan və Gürcüstanla əlaqələrini genişləndirərək regionda uğurlu üçlü əməkdaşlıq platformasını formalaşdırdı, regionda vacib aktorlardan birinə çevrildi [1].

XXI əsrin əvvəllərində CQ-də 2 üçlü əməkdaşlıq formatı təşəkkül etdi: Rusiya-Ermənistan-İran və Türkiyə-Azərbaycan-Gürcüstan. Rusiyanın siyasi-hərbi yardımı, İranın hərtərəfli yardımları ilə işğalçı Ermənistan regiondakı beynəlxalq hüquqazidd əməllərinə davam edərək 30 ilə yaxın Azərbaycan torpaqlarının işğalını, bütün qonşularına qarşı ərazi iddialarını davam etdirdi.

Vətən müharibəsi işğal olunmuş ərazilərimizin hərbi yolla azad edilməsi ilə yanaşı, regionda status kvonu, siyasi konfiqurasiyanı dəyişdi. Vətən müharibəsinin nəticələri, postmüharibə şəraitində Azərbaycan-Ermənistan dövlət sərhəddinin delimitasiyası və demarkasiyası məsələləri, Naxçıvanla quru əlaqəsinin yaradılması, eləcə də Şərq-Qərb quru daşımalarının təmin edilməsi üçün Zərgəzur dəhlizinin açılması istiqamətində siyasi-diplomatik və iqtisadi fəaliyyət intensivləşdi. Müasir dövrdə CQ-də Türkiyə-Rusiya geosiyasi rəqabəti regionda son 30 ildə mövcud olmuş status qvonun dəyişməsi, Rusiyanın imperiya ambisiyalarının artıq ritorik səviyyədən hərbi müdaxilə yolu ilə təsir dairəsini genişləndirməsi siyasəti yürütməsi, yeni dünya düzəninin formalaşması şəraitində davam edir.

Bölgədə Türkiyəyə dil, din, etnik baxımdan ən yaxın dövlət Azərbaycandır. Türkiyənin Azərbaycanla quru sərhədləri Naxçıvan MR-lə olub 15 km-dir. Bu hər iki ölkənin ən qısa sərhəd xəttidir. Türkiyə-Azərbaycan əlaqələri geniş spektrli olub bütün sahələrdə yüksələn xətt üzrə inkişaf etməkdədir. Azərbaycan və Türkiyə arasında müxtəlif sahələr üzrə təsis edilmiş bir sıra birgə mexanizmlər fəaliyyət göstərməkdədir. Bunlardan xüsusilə, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Azərbaycan-Türkiyə Hökumətlərarası Müştərək İqtisadi Komissiya, Kənd Təsərrüfatı İcra Komitəsi, Quru Nəqliyyatı Birgə Komissiya, Gömrük Məsələləri üzrə Birgə Komitə kimi mexanizmləri vurğulamaq olar [3]. Bununla yanaşı, ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilmiş və hal-hazırda reallaşdırılmaqdadır. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP) layihələri bu baxımdan ən yaxşı nümunələrdir. Türkiyə Azərbaycanın beynəlxalq ticarətində əsas rola malikdir. Ölkələr arasında ticarət dövriyyəsi 4.160.824,69 ABŞ dollarıdır (2020). 2021-ci ilin iyun ayının 15-də mədəniyyət paytaxtımız Şuşada Türkiyə-Azərbaycan arasında imzalanmış müttəfiqlik haqda bəyannaməyə əsasən ikitərəfli münasibətlər yüksək səviyyəyə qaldırılmışdır. Vətən müharibəsi ərzində və postmüharibə şəraitində Türkiyə dövlətimizi hərtərəfli dəstəkləyərək 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli bəyanatın bəndlərinin və əldə olunmuş razılaşmaların yerinə yetirilməsinə nəzarət etmək məqsədilə Ağdamda inşa edilən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzində fəaliyyətə başladı. Türkiyə Vətən müharibəsindən sonra CQ-də siyasi, iqtisadi, mədəni və humanitar mövcudluğunu genişləndirərək hərbi-texniki cəhətdən bölgədə mövqelərini genişləndirməyə çalışır. 2021-ci il iyunun

15-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzalanan müttəfiqlik razılaşması ilə [6] Azərbaycanla strateji əməkdaşlığı genişləndirərək ikitərəfli münasibətləri ən yüksək səviyyəyə qaldırdı.

Türkiyə geostrateji mövqeyinə görə Cənubi Qafqazın digər ölkəsi Gürcüstanla həm quru, həm də su sərhədinə malikdir. İndi həbsdə olan Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili "Əvvəllər bizim dünyaya açılan pəncərəmiz Rusiya idi, indi isə Türkiyədir" [4, 959]. Təhlükəsizlik və sabitlik baxımından Gürcüstan üçün ən böyük təhdidi Rusiya təşkil edir. Azərbaycan, ondan sonra isə Gürcüstan Türkiyənin CQ-də geosiyasi güclənməsini təmin edəcək ölkələrdir. Gürcüstanın xarici siyasətində Türkiyənin payı 20%-ə (16,5) qədərdir. Gürcüstanın eyni zamanda Türkiyənin dəstəklədiyi şərq-qərb enerji marşrutunun üzərində yerləşməsi, Azərbaycanla mehriban qonşuluq və müttəfiqlik münasibətlərində olması Türkiyənin geosiyasi maraqlarına xidmət edir [2, 64].

Ermənistanla Türkiyə arasında münasibətlər bölgənin digər iki ölkəsi kimi rəvan, sıx əməkdaşlığa və mehriban qonşuluq əlaqələrinə əsaslanmır. Türkiyə və Ermənistan münasibətlərinin normallaşdırılmasına mane olan amillərinə misal olaraq ermənilərin "soyqırım" ittihamlarını, erməni diasporunu, "Böyük Ermənistan" xülyasını, Ermənistanın Türkiyəyə qarşı ərazi iddialarını və Rusiya amilini göstərmək olar. Ermənistanın müstəqillik bəyannaməsində və konstitusiyasında "Qərbi Ermənistan" və 1915-ci il hadisələrinin "soyqırım" kimi adlandırılması və bunun beynəlxalq səviyyədə tanıtmaq cəhdləri Türkiyə-Ermənistan münasibətlərinin inkişafına böyük əngəllər törədir. 1923-cü il Lozanna müqaviləsi ilə "Böyük Ermənistan" xülyası məsələsi bağlanmış olsa da, erməni diasporu "soyqırım"ın tanınması və təzminat məsələsini gündəmdə saxlayır. Erməni diaspor təşkilatları bütün fəaliyyətlərini bu məsələlərin üzərində qurmaqla Türkiyəyə qarşı düşmən mövqelərindən geri çəkilmirlər [2, 5].

CQ Rusiya üçün həyati əhəmiyyət kəsb edən və həssaslıqla yanaşdığı bir bölgədir. Qafqazın şimalı Rusiyanın tərkibinə aid olsa da, Cənubi Qafqaz olkələri - Azərbaycan və Gürcüstan bu dövlətin cənub-qərb sərhədlərində yerləşir. Kommunikasiya və ticarət yollarının kəsişməsində, Xəzər və Qara dəniz arasında strateji, iqtisadi və digər xüsusiyyətlərinə görə geosiyasi əhəmiyyətə malik CQ-də daim nüfuzunu və təsir imkanlarını, enerji xətlərinə, xüsusən Avropaya ötürülən enerji xətlərinə nəzarəti qoruyub saxlamağa çalışan Rusiyanın bölgədə mövqeyi güclüdür. Daxili qüvvələr hesabına CQ ölkələrinə təzyiq göstərməyə nail olan Rusiya bölgədə yaratdığı münaqişələr vasitəsilə hər üç ölkənin loyallığını təmin edə bilir. İmperiya ambisiyalarından çıxış edən Rusiya malik olduğu təsiretmə vasitələri və imkanları ilə CQ ölkələrinin regional və beynəlxalq siyasətinə bu və ya digər formada müdaxilə edir. Məhz bu təsirin nəticəsində CQ ölkələri 2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qarşı təcavüzünə açıq-aşkar münasibət bildirməkdə ehtiyatla davrandılar. Rusiyayönümlü Ermənistan istisna təşkil edir. Azərbaycan və Gürcüstan cəmiyyətlərindən fərqli olaraq Ermənistan cəmiyyətində Rusiyanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr az deyil.

***Nəticə.*** Türkiyə və Rusiya arasında CQ-də üstünlük uğrunda geosiyasi rəqabət kontekstində bu dövlətlər həm beynəlxalq, həm də regional əməkdaşlıq istiqamətində fəaliyyətlərini genişləndirməkdədirlər. Ukraynaya qarşı müharibə zamanı Türkiyə hər iki dövlətlə öz dövlət maraqlarına uyğun şəkildə əlaqələr saxlaması təqdirəlayiqdir. Rusiyaya qarşı Qərb dövlətlərinin qəbul etdiyi sanksiyalara qoşulmağa tələsməyən Türkiyənin CQ-də geosiyasi güclənməsini yaxın zamanda izləyə biləcəyik. Nəticə etibarilə, yeni dünya düzəninin formalaşdığı dövrdə Türkiyə ilə Rusiya arasında sıx əməkdaşlıq əlaqələrinin, bununla yanaşı, bu dövlətlərin CQ-də geosiyasi rəqabətinin fərqli tempdə davam edəcəyi görünür. Təbii ki, geosiyasi rəqabətdə üstünlüyün hansı ölkəyə keçəcəyi Türkiyə-Rusiya münasibətlərinin inkişafından, hər iki dövlətin başçılarının iradəsindən, hal-hazırda beynəlxalq münasibətlərdəki siyasi proseslərdən, Rusiya-Ukrayna müharibəsinin nəticələrindən, mövcud vəziyyətin formalaşdırdığı ictimai fikirdən, beynəlxalq və regional güclərin geosiyasi maraqlarından asılı olacaqdır.

## ƏDƏBİYYAT

1. Güney Kafkaziya ülkeleri ile ilişkiler. - https://www.mfa.gov.tr [Müraciət tarixi: 24.05.2022].
2. Seda Yılmaz. Türkiyenin Güney Kafkasya politikasında Ermenistan. Kadir Has Üniversitesi, İstanbul, 2012, 216 s.
3. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri. - https://ankara.mfa.gov.az/az/content/106/azerbaycan-turkiye-iqtisadi-elaqeleri [Müraciət tarixi: 24.05.2022].

4. Ahat Andican. Kafkasya ile ilişkiler. Türk Dış Politikası (1919-2008). Ankara, Platin Yayıncılık, 2008, 998 s.
5. Mesut Hakkı Caşın. ABD'nin Kafkasya politikasında Rusya ile ortaklık ve rekabet paradoksunun olası gelişmelerini anlamak / Orta Asya ve Kafkasya: Rekabetten İşbirliğine, Tayyar Arı (derl.). Bursa, MKM Yayıncılık, 2010, s.325-383.
6. Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi imzalanıb. - https://president.az/az/articles/view/52115 [Müraciət tarixi: 24.05.2022].

**ЗУМРУД МЕЛИКОВА**
*Доцент Бакинского Славянского Университета,*
*Доктор философии по политическим наукам*

## ЮЖНО-КАВКАЗСКАЯ ПОЛИТИКА ТУРЦИИ НА СОВРЕМЕННОМ ЭТАПЕ В КОНТЕКСТЕ ГЕОПОЛИТИЧЕСКОЙ КОНКУРЕНЦИИ С РОССИЕЙ В ДАННОМ РЕГИОНЕ

Статья называется “Южно-Кавказская политика Турции на современном этапе в контексте геополитической конкуренции с Россией в данном регионе”. Южный Кавказ имеет политическое, экономическое, геополитическое и геостратегическое значение для Турции и России. Регион Южного Кавказа играет ключевую роль в юго-восточном направлении с точки зрения европейской безопасности и стабильности континента. Расположение на великом историческом Шелковом пути, важнейших коммуникационных линиях транспортировки углеводородных ресурсов Каспиийского моря на Запад, между Черным и Каспийским морями, повышает значимость региона для мировых центров силы и международных акторов. В современный период Турция активизирует свои усилия по укреплению геополитических позиций в регионе путем расширения двусторонних связей с Россией, имеющей сильнейшие позиции на Южном Кавказе.

*Ключевые слова*: Южный Кавказ, Турция, Россия, геополитические интересы.

**ZUMRUD MELIKOVA**
*Associate Professor of Baku Slavic University,*
*Doctor on Philosophy in Political Science*

## SOUTH CAUCASIAN POLICY OF TURKEY AT THE PRESENT STAGE IN THE CONTEXT OF GEOPOLITICAL COMPETITION WITH RUSSIA IN THE REGION

The article is entitled “Turkey's South Caucasus policy in modern era in the context of geopolitical competition with Russia in the region”. The South Caucasus is a region that politically, economically, geopolitically and geostrategically important for Turkey and Russia. The South Caucasus region plays a key role in the south-east in terms of European security and stability of the continent. The location of the region between the Black Sea and the Caspian Sea, also on the historical Silk Road and on important communication lines for the transportation of hydrocarbon resources of the Caspian Sea to the West increases the importance of the region for power centers and international actors. In modern era, Turkey is stepping up its efforts to strengthen its geopolitical position in the region by expanding bilateral ties with Russia, which has a strong position in the South Caucasus.

*Key words*: South Caucasus, Turkey, Russia, geopolitical interests.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.e.d. Ramiz Sevdimalıyev, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24); UOT 327(091)**

**BİRCƏ BAYRAMOVA**
*tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti*
**birjabayramova@bsu.edu.az**

# XX ƏSRİN SONU - XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ABŞ İLƏ AZƏRBAYCAN ARASINDA ENERJİ SAHƏSİNDƏ İQTİSADİ ƏLAQƏLƏRİN PERSPEKTİVLƏRİ

*Azərbaycan qədim neft ölkəsidir. 150 il bundan öncə Azərbaycanda sənaye üsulu ilə neft hasilatına başlanıbdır. Ancaq heç vaxt Azərbaycan xalqına məxsus olmayıbdır. Xəzər dənizindəki bütün neft və qaz yataqlarının hamısı Azərbaycan alimləri, geoloqları tərəfindən kəşf edilib, ancaq biz onun sahibi olmamışıq. İndi isə müstəqil dövlətik. Müstəqil dövlət olaraq öz sərvətlərimizin sahibiyik [5].*

Ulu öndər Heydər Əliyev.

*Bu gün dünyanın aparıcı dövlətləri ilə Azərbaycanın qurduğu iqtisadi əlaqələrin uğurunun mənbəyi Heydər Əliyevin uzaqgörən siyasətidir. Böyük dövlətlər və beynəlxalq təşkilatlar Cənubi Qafqazın təhlükəsizlik qarantının özəyi kimi Azərbaycanı daima ön sıralarda görürlər. Təsadüfi deyildir ki, enerji resurslarının təhlükəsiz marşrutlarla daşınması çoxtərəfli əməkdaşlığın nəticəsidir. Eyni zamanda Cənubi Qafqaz regionunda Azərbaycanın da iştirakı olmadan enerji sahəsində beynəlxalq layihələrin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycanın enerji sahəsində tərəfdaşlıq etdiyi ölkələrdən biri də ABŞ-dır. Amma ABŞ kimi supergüc dövlət ilə iqtisadi sahədə ikitərəfli əlaqələr asanlıqla qurulmamışdır. Çünki Azadlığın Dəstək Aktına "907-ci düzəliş"in olmasına baxmayaraq sözügedən dövlət ilə əlaqələr yalnız doğru xarici siyasət tələb edirdi.*

*Tədqiqatın məqsədi müstəqilliyini bərpa edən Azərbaycanın enerji sahəsində ABŞ ilə münasibətlərini araşdırmaq, mühüm məqamları üzə çıxarmaq, ikitərəfli iqtisadi əlaqələrin müqayisəli şəkildə təhlilini aparmaqdır. Tədqiqatın xronoloji çərçivəsi XX əsrin sonundan 2004-cü ilə qədərki dövrü əhatə edir.*

*Açar sözlər*: ABŞ-Azərbaycan əlaqələri, enerji sahəsində əlaqələr, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, Cənubi Qafqaz regionu, ABŞ-ın mövqeyi, neft.

***Giriş***. Müstəqilliyinin yeni çağlarında Azərbaycanın neft strategiyası həm ölkədə, həm regionda çox mürəkkəb olan şəraitdə həyata keçirilməyə başlandı. Bu strategiyaya qarşı həm daxildə, həm xaricdə təxribatlar, terror aktları, dövlət çevrilişi cəhdləri baş verdi. Lakin Heydər Əliyevin uzaqgörən siyasəti neft sənayesinin dirçəldilməsi və inkişafında maneələri qısa bir müddət sonra dəf etməyi bacardı.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (ARDNŞ) qarşısına bir sıra məqsədlər qoyuldu: neft sənayesinə xarici investisiya və yeni texnologiyalar cəlb etmək; Respublikaya sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqların aparılması və s. [12, s.105]. Qısa bir müddət ərzində azərbaycanlı mütəxəssislər xarici şirkətlərlə bağlanacaq müqavilənin bütün tərəflərini xırda nyuanslarınadək işləyib hazırladılar.

Məsələn, iqtisadi sahədə müqavilələrin bağlanmasına Rusiya Federasiyasının münasibəti birmənalı deyildi; xüsusilə Xəzər dənizinin hüquqi statusunun həlli məsələsində Rusiya bir çox hallarda qeyri-konstruktiv mövqeyi ilə seçilirdi. Eyni hal Türkmənistan və İran üçün də səciyyəvi idi: bu iki Xəzəryanı dövlətin heç biri Azərbaycan Respublikasının neft strategiyasının Avropaya istiqamət götürməsini qəbul etmək istəmirdi. Elə bu səbəbdən də, bir çox xarici neft şirkətləri bağlanacaq müqaviləyə ehtiyatla yanaşır, Xəzərin hüquqi statusu müəyyən edilməyənədək, Azərbaycanla hər hansı neft sazişinin imzalanmasına qarşı çıxırdılar [12, s.106].

Azərbaycan diplomatiyasının qarşısında böyük bir problemin öhdəsindən gəlmək vəzifəsi durdu: adı çəkilən dövlətləri məlum müqavilə ilə bağlı bitərəfləşdirmək, Qərb dövlətlərinin maraqlarını isə Azərbaycanın dövlət mənafeyinə uyğunlaşdırmaq. Məhz bu vəzifənin həyata keçirilməsi çər-

çivəsində Vaşinqtonda ezamiyyətdə olan ARDNŞ-ın o zaman birinci vitse-prezidenti olan İlham Əliyev ABŞ Energetika Nazirliyinin rəhbərliyi ilə danışıqlar apardı və bu danışıqlardan sonra ABŞ-ın dəstəyi sayəsində digər ölkələrin neft şirkətləri öz tərəddüdlərindən əl çəkdilər.

***XX əsrin sonlarında Azərbaycan enerji siyasəti-ABŞ.*** "1994-cü il sentyabrın 20-də ARDNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətlərinin daxil olduğu konsorsium (sonradan bu konsorsiuma Yaponiyanın "İtoçu Slodzi" şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri" və "Çıraq" yataqlarının istismarı və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı" [26, s.153]. Bu müqavilə "Əsrin Müqaviləsi "adı ilə tanındı. İmzalanmış müqavilənin icrası ilk növbədə "Çıraq" yatağının işlənilməsindən başladı [9, s.37]. Qısa bir müddətdə bu layihə həyata keçirildi. Həmin neft yatağında müasir tələblərə cavab verən, yüksək texnologiyaya malik platforma quruldu [4, 5].

1997-ci il avqustun 1-də Vaşinqtonda ABŞ-ın qabaqcıl neft şirkətləri ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron", "Naxçıvan", "Oğuz", "İnam" neft yataqlarında birgə iş barəsində üç yeni müqavilə imzalandı [2].

Beləliklə, "Əsrin Müqaviləsi"nin imzalanması Azərbaycanın Qərbin nüfuzlu dövlətləri, xüsusilə ABŞ üçün sərfəli iqtisadi tərəfdaşa çevrilməsi prosesinin əsasını qoydu. ABŞ artıq Azərbaycanla daha fəal surətdə maraqlanmağa başladı. Nəticədə, Azərbaycan təkcə postsovet məkanında deyil, bütün Avrasiya miqyasında mühüm strateji coğrafi mövqeyə malik olan bir ölkə kimi qəbul olundu. Azərbaycan ABŞ-ın Yaxın Şərqdə və Avrasiyadakı həm siyasi, həm iqtisadi maraqlarına cavab verən ölkə idi [24, s.5].

1998-ci ilin dekabrında ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev Vaşinqtonda səfərdə olarkən Ağ ev tərəfindən Qafqaz regionu üzrə vəzifəyə təyin olunan Morninqstar, daha sonra ABŞ adminitrasiyasında Kommersiya Departamentinin Qafqaz regionu üzrə cavabdeh şəxsi Yan Kalitski ilə bu məsələ ətrafında fikir mübadiləsi apardı. Hər iki şəxsin ABŞ-ın Azərbaycanı bu layihədən uğurla çıxarmağı qənaətinə gələrək dövlətlərinin ölkəmizi dəstəklədiyini vurğuladılar.

Avrasiya üçün iqtisadi yüksəliş və inkişaf yolu olan Bakı - Tbilisi - Ceyhan ƏİNK layihəsi üç mərhələdən keçmişdir: Əvvəlcə, 1994-cü ildən bu layihənin üzərində işlənildi, sonra 1997-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyə arasında saziş imzalandı və nəhayət, 1999-cu ildə İstanbulda kəmərin inşası haqqında müqavilə imzalandı. 1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cumhuriyətinin ərazisi ilə Bakı - Tbilisi – Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair" imzalanan saziş böyük əhəmiyyət kəsb edirdi. ABŞ-ın bu layihənin reallaşmasında göstərdiyi səylər Azərbaycan üçün sevindirici hal idi. ABŞ Azərbaycanla birgə enerji layihələrini, neft-qaz sektorunda təşkil olunmuş layihələri həyata keçirməklə bölgədə siyasi cəhətdən təhlükəsizliyi təmin edirdi.

"BTC əsas ixrac kəmərinin yekun dəyərinin 2,94 milyard ABŞ dolları və uzunluğu 1760 km olduğu dəqiqləşdirildi. ABŞ-da "Eksim bank" və "Xaricdə Xüsusi İnvestisiyalar " (OPİC) bu layihənin maliyyə baxımından dəstəklənməsinə hazır olduqlarını bildirdilər. Bununla bağlı 2000-ci ilin dekabrında təşkilat sədrləri sponsor qrupu ilə Vaşinqtonda maliyyə məsələlərini müzakirə etdilər" [26, s.154]. Yenə həmin ildə Neft fondunun yaradılması məsələsi Azərbaycanda geniş müzakirə olundu [22, 5]. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 240 saylı fərmanı ilə 1999-cu il dekabrın 29-da "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu. Respublika Prezidentinin 27 dekabr 2001-ci il 434 saylı sərəncamı ilə bu fondun Müşahidə Şurası təşkil edildi. Dövlət Neft Fondunu yaratmaqda başlıca məqsəd mineral-xammal ehtiyatlarını təkrar istehsala yönələn maliyyə ehtiyatlarına çevirmək idi [20, s.14]. Dövlət Neft Fondunda yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa bölmələrinə qoyulmalı, neftlə bağlı olmayan digər sahələrin inkişafı, yeni iş yerləri yaradılması üçün, həmçinin gələcək nəsillərin neft hasilatı səviyyəsindən və dünya bazarında neftin qiymətinin dəyişməsindən asılılığını istisna edən proqramlar həyata keçirməli idi. 2003-cü ilin əvvəllərində fondda artıq 730 mln. manat həcmində vəsait var idi [22, 6].

1998-ci ilə qədər Azərbaycanın təkcə neft sənayesinə 1,7 mlrd dollar vəsait qoyulmuşdur və bunun 700 mln. dolları ancaq ABŞ şirkətlərinə aid olmuşdur. Bu müddətdə podratçı kimi işləyən, təchizatçılar kimi çalışan yüzlərlə Amerika şirkətləri Azərbaycanda öz nümayəndəliyini açmışdır. Azərbaycan ildə 50 mln. ton neft istehsal edə biləcəyinə əmin olaraq "Bakı-Ceyhan" marşrutunun

həyata keçirilməsində iddialı olmuşdur. Bakıda "Xəzər Neft, Qaz, Neftayırma və neft kimyası- 2003" Beynəlxalq sərgisinin və konfransın açılış mərasimində ARDNŞ-in həmin dövrdəki birinci vitse-prezidenti İlham Əliyev "Bakı - Tbilisi - Ceyhan" neft əsas ixrac boru kəmərinin maliyyələşdirilməsi ilə bağlı sualı belə cavablandırdı: "Azərbaycan tərəfindən 2003-cü ilə qədər 200 mln. ABŞ dollarına yaxın vəsait ödənilib. Qalan hissə, yəni kredit alınanadək xərclər barədə məsələni Azərbaycan dəfələrlə öz tərəfdaşları ilə müzakirə etmişdir" [22, 5].

Nəzərdən keçirdiyimiz məsələ ilə bağlı bir neçə vacib məqamın da üzərində dayanmaq istərdik, bu da Xəzərin Azərbaycan sektorunda neft ehtiyatlarının həcmi ilə bağlıdır. 2001-ci ilin hesabatlarına görə, Xəzər dənizi regionu enerji ehtiyatları ilə Fars körfəzi kimi zəngin olmasa da, dünyanın bütün neft ehtiyatlarının azı 10 %- nə malikdir. Müqayisə üçün demək olar ki, bu, ABŞ-ın özünün neft ehtiyatlarından 5 dəfə artıqdır. Potensial neft ehtiyatlarının 100 milyard barrel təşkil etdiyi Xəzər dənizi yaxın 40 ildə Qərb üçün etibarlı neft mənbəyi ola bilər [22, 6]. 2001-ci ilədək təkcə Azərbaycanda imzalanmış müqavilələr gündə 2 mln. barrel neft çıxarılmasını nəzərdə tuturdu ki, bu da OPEK üzvü olan ölkələrdən ABŞ-ın idxal etdiyi həcmə təxminən bərabər olmuşdur [26, s.154].

Digər vacib məqam Azərbaycan sektorundakı neft ehtiyatlarının həcmini hər vəchlə az göstərməkdə israrlı olan Rusiyanın xarici siyasət idarəsi və neft maqnatlarıdır. Rusiyanın bu istiqamətdə fəaliyyəti və ümumiyyətlə Xəzər dənizi regionunda "güclü əl" taktikasını davam etdirməsi Vaşinqton tərəfindən buna dərhal reaksiya verilməsini zəruri etdi. Bu zaman ABŞ hökuməti qarşısında bir neçə ciddi vəzifə dururdu:

Birincisi, C.Buş hökuməti Xəzər dənizində neft-qaz hasilatının və onların beynəlxalq nəqlinin aramsız inkişaf etdirilməsinə xüsusi diqqət ayırmalı idi. Aydın məsələdir ki, Rusiyadan keçən boru kəmərləri ixracatçılar üçün yeganə imkan olmamalı idi, çünki Moskva neftin nəqlini dayandırmaqdan boru kəmərinin istifadəçisinə təzyiq vasitəsi kimi istifadə edə bilərdi. Odur ki, Vaşinqton Bakı - Tbilisi - Ceyhan neft kəmərinin reallaşdırılmasını tamamilə dəstəkləmişdir.

Digər tərəfdən, ABŞ bir vacib məqamı da yaddan çıxarmamalı idi ki, BTC-nin dəstəklənməsi Amerikanın regionda siyasi maraqlarını da möhkəmləndirirdi. Bununla əlaqədar, Azərbaycana birbaşa yardım üzərində Konqres tərəfindən qoyulmuş qadağanı - "Azadlığa dəstək aktı"na 907-ci düzəlişi ləğv etmək, yaxud ən azından dayandırmaq lazım idi. Davamlı olaraq bu düzəlişin hüquqi qüvvəsi dondurulur, amma bu, adı çəkilən məsələnin birdəfəlik həlli demək deyil [1]. Mövcud reallıqda təkcə ABŞ-Azərbaycan siyasi əlaqələrinə deyil, iqtisadi əlaqələrinin də intensiv inkişafına ciddi əngəl törədən 907-ci düzəlişin ABŞ-ın Cənubi Qafqaz regionundakı maraqlarına ciddi xələl gətirdiyini C.Buş hökuməti yaxşı başa düşürdü. Bu səbəbdən də, Vaşinqtonun xüsusi narahatlıqla Cekson-Venik düzəlişinin ləğvinə yönəldilmiş səyləri həm ABŞ-Azərbaycan əlaqələrinin inkişafını, həm də Azərbaycanın iqtisadi inkişaf və demokratiya yolunda inamla irəlilədiyini, Cənubi Qafqazda böyük mövqeyə malik ölkə olduğunu bir daha təsdiqləyir [21].

ABŞ hökuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üçün yüksək səviyyədə diplomatik təşəbbüs göstərməli idi. Çünki bu münaqişə həll edilməmiş qalarsa, Bakı - Tbilisi - Ceyhan boru kəmərinin gələcək istismarı üçün böyük əngəl ola bilər. C.Buşun sələfi – B.Klinton bu münaqişənin tənzimlənməsinə böyük diqqət ayırmamışdır. Halbuki, münaqişənin ilk mərhələsindən Rusiyanın siyasəti dəyişməz qaldığına görə, Vaşinqton həmin məsələni dərhal həll etmək əzmində olduğunu Moskvaya aydın şəkildə anlatmalı idi. Vaşinqton qətiyyət göstərməli və Ermənistana verilən yardımı Azərbaycanın Dağlıq Qarabağın hüdudlarından kənarda işğal olunmuş ərazilərinin qaytarılması ilə şərtləndirməli idi. ABŞ Azərbaycanın ərazi bütövlüyü prinsipi ilə Dağlıq Qarabağ ermənilərinin Azərbaycanın tərkibində öz müqəddəratını təyin etmək hüququ arasında tarazlıq tapmalı idi.

Daha bir vəzifə - Gürcüstanın ABŞ tərəfindən dəstəklənməsi məsələsi idi. Çünki Gürcüstanın siyasi sabitliyi xarici və ya daxili qüvvələr tərəfindən pozularsa, bu da Bakı - Tbilisi - Ceyhan boru kəmərinin fəaliyyətinə ciddi təhlükə ola bilərdi [1].

2002-ci ilin iyununda Moskvada Rusiya və ABŞ prezidentləri V.Putin və C.Buşun görüşündə Bakı - Tbilisi - Ceyhan ixrac kəmərinin müzakirə edilməsi, onların qəbul etdikləri sənəddə bu məsələnin öz əksini tapması Azərbaycanın ABŞ-dan bu layihə üçün böyük dəstək almasının bariz nümunəsi idi [6, 2002, I his., 331]. 2002-ci ilin sentyabrında Azərbaycanda olmuş ABŞ-ın energetika nazi-

ri Spenser Abrahamın dediklərinə görə, BTC əsas ixrac kəmərinin inşasına başlanılması ABŞ üçün tarixi hadisə idi [6, s.615]. ABŞ yeni neft strategiyası ilə əlaqədar proqramın elan edildiyi gündən Qafqaz regionunda həyata keçirilən işləri, əldə olunan müvəfəqiyyətləri bütünlüklə izləyirdi.

***ABŞ ilə Azərbaycan arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq perspektivləri***. ABŞ ilə Azərbaycan arasında bərpa olunan enerji sahəsində əməkdaşlıq çərçivəsində 2004- cü il aprelin 14-də Ticarət və İnkişaf Agentliyində görüş keçirildi [14, s.103]. Həmin görüşdə TDA-nın Avrasiya üzrə regional direktoru Daniel Stein, həmin qurumun Avrasiya ofisində ölkə meneceri Roçel Turner, ABŞ Enerji Nazirliyinin Rusiya və Avrasiya məsələləri üzrə ofisinin direktoru Leonard Koburn, həmin nazirliyin beynəlxalq əlaqələr şöbəsinin müdiri Kay Tomson, Tenessi ştatında yerləşən Energetika və Ətraf Mühit üzrə Birgə İnstitutun direktoru Robert Şelton və Səfirliyin İqtisadi məsələlər üzrə müşaviri Fikrət Paşayev iştirak etdi [14, s.103].

Görüşdə bərpa olunan enerji sahəsinə Azərbaycanın bir sıra təşkilatları, o cümlədən AR Dövlət Neft Şirkəti (ARDNŞ), AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "Azərenerji"nin (ASC) maraq göstərmələri haqda fikir söyləndi.

Beləliklə, 2004-cü ildə Azərbaycan tərəfindən səfirliyin təklifi ilə ABŞ-ın TDA-sı Azərbaycana bərpa olunan enerji məsələlərinə dair qiymətləndirmə missiyası göndərdi [17, 26].

"Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında Enerji Dialoqu" adlı sənədin layihəsi ilə bağlı "Azəri qaz" QSC bəzi əlavə təkliflər verdi:

"1. "Azəriqaz" QSC-nin mövcud elmi- tədqiqat sahəsini gücləndirmək, yeni texnologiyaların tətbiq olunması;

2. "Azəriqaznəql" İB ilə ABŞ-ın qaz sənayesi şirkətləri arasında elmi-texniki əməkdaşlığın gücləndirilməsi, təcrübə mübadiləsinin aparılması;

3. "Azəriqaz" QSC mövcud qaz-nəql şəbəkəsinin müasir tələblərə cavab verməsi üçün modernizasiya işlərinin aparılması" [15, s.105].

ABŞ tərəfindən iki təklif irəli sürüldü: Təkliflərdən biri enerji qıtlığı ilə üzləşən NMR-də külək və digər bərpa olunan enerji məsələlərinin istifadəsinə dair texniki- iqtisadi əsaslanmanın hazırlanması idi. "GE" şirkətinin bu məsələ ilə məşğul olması tərəflər arasında keçirilmiş digər görüşdə vurğulandı [17, s.26].

Bir məqama toxunmaq yerinə düşər ki, 2004-cü il aprelin 20-də ABŞ-ın prezidenti C.Buş Vaşinqtondakı ABŞ-Latın Amerikası ticarət palatasında Konqresi ABŞ-ın neft idxalından asılılğını azaltmağa yönəlmiş enerji haqqında qanun layihəsini tez bir zamanda qəbul etməyə çağırdı.Onun sözlərinə görə bu Amerika əməkçiləri və ailələri üçün dövlət enerji mənbələrindən asılılığı azaltmalı idi [18, s.21]. Həmçinin "prezident Konqresi dörd vacib məsələnin həllinə yönəlmiş enerji sahəsində qanun layihəsini imzalamaq üçün ona təqdim etməyə çağırmışdı:1.siyasi, iqtisadi, təhlükəsizlik, qlobal enerji layihələrinin həyata keçirilməsi sahəsində əməkdaşlıq; 2.regional təhlükəsizlik; 3.Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması; 4.qarşılıqlı maraq doğuran digər məsələlər" [18, s.22].

2004-cü il iyulun 20-də Azərbayacnın yeni təyin olunmuş Xarici İşlər naziri Elmar Məmmədyarov Vaşinqton şəhərində ABŞ-ın Dövlət Katibi Kolin Pauelllə görüşdü. ABŞ-ın Energetika naziri Spenser Abraham ikitərəfli əməkdaşlığı əhatə edən enerji dialoqu layihəsinin hazırlanmasını təklif etdi [8]. Bu layihənin imzalanması ilə ölkələr arasında əməkdaşlıq daha güclənə bilərdi. 2004-cü il sentyabrın 20-də Bakı şəhərində Azərbaycan Respublikası adından baş nazir A.Rəsizadə ilə ABŞ Hökuməti adından Enerji katibi Spenser Abraham arasında enerji dialoqu üzrə anlaşma memorandumu imzalandı [16, s.227]. Memorandumda deyilirdi: "31 iyul 1997-ci ildə Vaşinqton şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında enerji inkişafı üzrə ikitərəfli dialoqun yaradılması barədə "Niyyət Bəyanatı"nın müddəalarına əsaslanaraq, ..."2003-cü ilin may ayında Oak Ridc Milli Laboratoriyasında başlanmış dialoqa əsaslanaraq,iki tərəf Azərbaycanda səmərəli və bərpa edilən enerji texnologiyalarının tətbiqinin artırılması üçün texnoloji əməkdaşlığı genişləndirməyə və özəl sərmayəni təşviq etməyə çalışacaqlar" [16, s.227]. Memorandumda dialoqun əsas məqsədləri aşağıdakı kimi göstərilir:"1.Neft və qaz sahəsində - Azərbaycanın enerji ehtiyatları üçün çoxsaylı ixrac marşrutları siyasətini şəraitdən asılı olaraq dəstəkləmək, səmərəliliyin artırılması

məqsədilə neft və qaz istehsalı, nəqli və istehlakı üçün lazım olan bazanın bazar iqtisadiyyatı prinsipləri əsasında gücləndirilməsində əməkdaşlıq və s.

2.Elektrik enerjisi sahəsində-əsas enerji ötürülməsi xətlərinin, milli enerji sistemlərinin və enerji paylayıcı şirkətlərin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafını təşviq etmək üçün siyasətin və islahatların inkişafı üzrə əməkdaşlıq etmək və s.

3.Enerji Səmərələiliyi və Alternativ Texnologiyalar sahəsində-pəncərələr daxil olmaqla, çox enerji sərf edən tikinti materialları üçün standartların inkişaf etdirilməsi üzrə əməkdaşlıq etmək, külək, günəş və miniqidro kimi alternativ texnologiyalar və bu texnologiyaların iqtisadi cəhətdən səmərəli tətbiqi üzrə məlumat mübadiləsi etmək və birgə elmi-tədqiqat və təcrübə -sınaq işlərini aparmaq və s.

4.Elm-Texnologiya sahəsində-Azərbaycanın tədqiqatçı alimləri, energetika sektorunun mütəxəssisləri və Milli Enerji Laboratoriyaları üzrə Departamentindən olan alimlər arasında müzakirələrə və mübadilələrə əsaslanmaq [16, s.228].

ABŞ-Azərbaycan arasında Enerji Dialoqu sənədi 2005-ci ilin may ayında keçirilən BTC boru kəmərinin açılış mərasimindən sonra imzalandı [19].

***Nəticə***. 2004-cü ildə “Enerji təhlükəsizliyində problemlər” sərlövhəli məqalədə ABŞ dövlət katibinin iqtisadiyyat, biznes və kənd təsərrüfatı məsələləri üzrə müavini Alan Larson ABŞ-ın enerji təminatlarının müxtəlifliyini dəstəkləmək üçün neft hasil edən ölkələrdə mükəmməl idarəçilik və şəffaflıq, təhlükəsizlik yaradılmasına yardım edəcəyini açıqladı: “Məlumdur ki, yeni alternativ enerji texnologiyalarının inkişafına sərmayə qoyulsa belə, həmişə neft və qaza qlobal tələbat artaraq davam edir. ABŞ-ın və onun ən mühüm müttəfiqlərinin və iqtisadi tərəfdaşlarının bu tələbatlarının böyük bir hissəsi idxal hesabına ödənilir. Dünyanın istənilən hissəsində baş verən neft təminatı şokları beynəlxalq neft bazarlarındakı ani əməliyyat vasitəsilə ABŞ iqtisadiyyatına təsir göstərə bilər. Bu kimi gerçəkliklər enerji təhlükəsizliyi haqqında anlayışı təhlil edərək sübut edir ki, enerji təminatında etibarlılığın yaradılması zəruridir”. Daha sonra Alan Larson fikirlərini davam etdirir: “Bu etibarlılıq iki yolla ola bilər: enerji mənbələrinin müxtəlifliyinə nail olmaq və enerji hasil edən ölkələrdə şəffaflıq və yaxşı sərmayə mühiti yaratmaq. Çünki bir sıra bölgələr Birləşmiş Ştatların və dünyanın digər ölkələrinin enerji şirkətlərinin artan marağını cəlb etməkdədir. ABŞ Xəzər bölgəsi, Rusiya, Qərbi Afrika və Şimali və Cənubi Amerikada geniş neft və qaz hasilatına dair maraqlı perspektivlər görür” [3]. Alan Larson Xəzər bölgəsinə dair fikirlərini belə ifadə etmişdir: “Hasilatı gündə 1,6 mln. barreldən (2001-ci il) 5 mln. barrelədək [2010-cu il] artırmaq imkanı ilə, Xəzər hövzəsi nəhəng potensiala mailkdir. Xəzər enerjisinin inkişafında aşağıdakı məqamlar ortaya çıxır: Cənubi Qafqaz təbii qaz kəmərini inşa etməklə Şərq-Qərb enerji dəhlizinin ikinci dayağı tamamlanmalı, bölgə üzrə ümumi sərmayə mühiti yaxşılaşdırılmalı, Qazaxıstan nefti də bu dəhlizə gətirilməlidir. Xəzər ehtiyatlarını dünya bazarına aparan çoxşaxəli kəmərlər bölgədəki yeni dövlətlərin suverenliyi və iqtisadi inkişafını möhkəmləndirir” [3].

Sonrakı illərdə də ABŞ-Azərbaycan münasibətlərinin çoxşaxəli istiqamətlərdə əlaqlərinin olması hər nə qədər məlum olsa da, ABŞ-ın Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ikili standart möveyindən əl çəkməməsi ürəkaçan olmamışdır. ABŞ superdövlət kimi dünyanın müxtəlif regionlarında münaqişələrin həlli istiqamətində “rolunu” göstərməyə çalışsa da, Cənubi Qafqaz regionunda “ATƏT-in Minsk qrupunun həmsədrlərində biri” çıxışı ilə balanslı mövqe tutmuşdur ki, II Qarabağ müharibəsindəki həmin siyasət buna bariz nümunə olmuşdur. Amma bütün bunlara baxmayaraq, iqtisadi sahədə əlaqələrin gücləndirilməsi, ABŞ tərəfindən Azərbaycanın yeni iqtisadi, infrastruktur layihələrin reallaşdırılmasının dəstəklənməsi hər iki dövlətin qarşılıqlı maraq çərçivəsindədir.

## ƏDƏBİYYAT

1. ABŞ Xəzər neftini öz ixtiyarında saxlamaq üçün hərəkət etməlidir. “Azərbaycan” qəz., Bakı, 2001, 6 fevral.
2. ADNŞA. Kollegiyanın materialları, 2000-ci il, v. 49-50.
3. Akifqızı Ş. ABŞ enerji təminatının müxtəlifliyini necə təmin etmək fikrindədir? “Respublika” qəz., Bakı, 2004, 7 may.

4. Azərbaycan Dövlət Neft Fondunun müşahidə şurasının I iclası // Dirçəliş - XXI əsr, 2002, iyul №53, 5 s.
5. Azərbaycan, Gürcüstan və Türkiyəni daha sıx birləşdirəcək Bakı-Tbilisi-Ceyhan neft kəməri Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin təminatçısı olacaqdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması mərasimi. Azərbaycan, Türkiyə, Gürcüstan prezidentləri mərasimdə iştirak etmişlər. 18.09.2002. - https://azertag.az/xeber/AZARBAYCAN_GURCUSTAN_VA_TURKIYANI_DAHA_SIX_BIRLASDIRACAK_BAKI_TBILISI_CEYHAN_NEFT_KAMARI_QAFQAZDA_SULHUN_AMIN_AMANLIGIN_VA__TAHLUKASIZLIYIN_TAMINATCHISI_OLACAQDIR__BAKI_TBILISI_CEYHAN_ASAS_IXRAC_BORU_KAMARININ_TAMALININ_QOYULMASI_MARASIMI__AZARBAYCAN_TURKIYA_GURCUSTAN_PREZIDENTLARI_MARASIMDA_ISTIRAK_ETMISLAR-967343 [Müraciət tarixi: 03.05.2022].
6. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2001. I hissə. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Bakı: “Qoliaf Nəşriyyat Evi” MMC, 2010, 1124 s.
7. Azərbaycan neftinin dünya bazarlarına nəqli. III fəsil. - https://files.preslib.az/projects/toplu/neft/3f.pdf [Müraciət tarixi: 03.05.2022].
8. Azərbaycan Respublikası Xarici İşlər Naziri Elmar Məmmədyarovun ABŞ-a rəsmi səfəri. - https://mfa.gov.az/az/news/no31617-xarici-isler-naziri-elmar-memmedyarov-efiopiyada-resmi-seferdedir [Müraciət tarixi: 03.05.2022].
9. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin respublikamızda çıxarılacaq ilkin neftin Rusiya ərazisi vasitəsilə nəqlinə dair sənədlərin imzalanması mərasimində çıxışı. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. - https://files.preslib.az/site/ialiyev/2005.pdf [Müraciət tarixi: 03.05.2022].
10. Azərbaycan tarixi. 7 cilddə.VII c., Bakı: Elm, 2003, 676 s.
11. Bakı-Tbilis-Ceyhan neft kəməri. - https://www.salamnews.org/az/infografik/show/35/baki-tiflis-ceyhan-neft-kemeri [Müraciət tarixi: 03.05.2022].
12. Bayramova B. ABŞ-Azərbaycan münasibətəri [2001-2008-ci illər]. Bakı, “Sabah” nəşriyyatı, 2019, 244 s.
13. Bakıda XXII beynəlxalq “Xəzər Neft və  Qaz” konfransı işə başlayıb, 04.06.2015. - http://old.xalqqazeti.com/az/news/news/58253 [Müraciət tarixi: 03.05.2022].
14. XİN TAİ, 2003-cü il üçün cari arxivi. ABŞ qovluğu, f.28, s.11.№10/849 Tarix 22.04.2003.
15. XİN TAİ, 2004-cü il üçün cari arxivi, ABŞ qovluğu, f.28, s.11, AR Yanacaq və Energetika Naziri cənab M.Kərimova AR Baş Nazirinin birinci müavini cənab Y.Eyyubovun 27.05.2004-cü il tarixli 17/2514-22/09/21 saylı tapşırığına əsasən “Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında Enerji Dialoqu” adlı sənədinə təklif. 14.06.2004.
16. XİN TAİ, 2004-cü ilin cari arxivi. ABŞ qovluğu, f.28, s.11. Azərbaycan Republikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Enerji dialoqu üzrə Anlaşma memorandumu.
17. XİN TAİ, 2004-cü il üçün cari arxivi. ABŞ qovluğu, f.28, s.19.
18. XİN TAİ, ABŞ qovluğu, 2004-cü il üçün cari arxivi. Prezident Buş ABŞ-ın xarici neftdən asılılığını azaltmağa çağırır, f.28, s.19. VŞN/166/05, 21.04.05 səhifələrin sayı 3.
19. XİN TAİ, 2005-ci il üçün cari arxivi. ABŞ qovluğu. f.28, s.11.
20. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər.Ana Vətən Partiyasının siyasi araşdırmaları mərkəzi və mətbuat xidməti, I kitab, Bakı: Qanun, 1999, 336 s.
21. Mustafayev S. ABŞ Azərbaycandakı prosesləri dəstəkləyir. “Azərbaycan” qəz., Bakı, 2005, 28 yanvar.
22. Müstəqil Azərbaycanın neft strategiyası ölkəmizin milli mənafeləri naminə, işlənib hazırlanıb və həyata keçirilir// Dirçəliş-XXI əsr, 2002, iyul, №53, s.5-7.
23. Rəhimov R. Neft kəməri geostrategiyası // Dirçəliş - XXI əsr, 2002, oktyabr, №56, s.5-7.
24. Strateq. Bakı: Oskar, 2003, 368 s.
25. Political relations/ https://washington.mfa.gov.az/en/content/72/economic-cooperation-between-azerbaijan-and-the-united-states [Müraciət tarixi: 03.05.2022].

26. Position of the USA in building Baku-Tbilisi-Ceyhan main oil export pipeline. Кавказ и Мир. Международный научный журнал. Тбилиси,2011. Noyabr ayı. №11. с.153-156.
27. 30th anniversary of diplomatic relations. - https://az.usembassy.gov/our-relationship/policy-history/us-azerbaijan-relations/ [Müraciət tarixi: 03.05.2022].
28. U.S. Relations with Azerbaijan. August 27,2021. https://www.state.gov/u-s-relations-with-azerbaijan/ [Müraciət tarixi: 03.05.2022].

**БИРДЖА БАЙРАМОВА**
*доктор философских наук по истории,*
*Бакинский Государственный Университет*

## ПЕРСПЕКТИВЫ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ МЕЖДУ США И АЗЕРБАЙДЖАНОМ В ОБЛАСТИ ЭНЕРГЕТИКИ КОНЕЦ XX ВЕКА – НАЧАЛО XXI ВЕКА

Сегодня источником успеха экономических отношений Азербайджана с ведущими странами мира является дальновидная политика Гейдара Алиева. Державы и международные организации всегда рассматриваются Азербайджан как ядро гарантии безопасности Южного Кавказа. Транспортировка энергоресурсов по безопасным маршрутам – результат многостороннего сотрудничества. В то же время реализация международных энергетических проектов на Южном Кавказе невозможна без участия Азербайджана. Одним из энергетических партнеров Азербайджана являются США. Но экономические связи с такой сверхдержавой, как Соединенные Штаты, были непростыми. Несмотря на «907-ю поправку» к Закону о поддержке свободы, отношения с данным государством требовали лишь правильной внешней политики.

Цель исследования - изучить отношения Азербайджана с США в сфере энергетики, восстановившего свою независимость, выявить важные вопросы, провести сравнительный анализ двусторонних экономических отношений. Хронологические рамки исследования охватывают период с конца XX века до 2004 года.

*Ключевые слова*: отношения между Азербайджаном и США, энергетические отношения, Основной экспортный трубопровод Баку-Тбилиси-Джейхан, Южный Кавказский регион, позиция США, нефть.

**BIRJA BAYRAMOVA**
*PhD of The Faculty of History, Baku State University*

## PROSPECTS FOR ENERGY RELATIONS BETWEEN THE USA AND AZERBAIJAN AT THE END OF THE 20TH AND BEGINNING OF THE 21ST CENTURY

Today, the source of economic relations established by Azerbaijan with leading countries of the world is the visionary policy of Heydar Aliyev. The Great Powers and international organizations have always considered Azerbaijan as the basis of security guarantees in the South Caucasus. It is no coincidence that the transportation of energy resources along safety routes is the result of multilateral cooperation. At the same time, the implementation of international energy projects in the South Caucasus is impossible without the participation of Azerbaijan. The United States is one of Azerbaijan's energy partners. However, bilateral economic relations with a superpower such as the United States were not easy. Despite the ‘907th amendment’ to the Freedom Support Act, the relations with this state required only a high foreign policy.

The purpose of the investigation is searching Azerbaijan's relations with the United States in the field of energy, which have regained their independence, identify important points, and conduct a

comparative analysis of bilateral relations. The chronological framework of the investigation comprises the period from the end of the twentieth century to 2004.

*Keywords:* US-Azerbaijan relations, energy relations, Baku-Tbilisi-Ceyhan Main Oil Export Pipeline, South Caucasus region,position of USA, oil.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**ELŞAD HƏSƏNLİ**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*
**elshadhasanli1968@mail.ru**

# VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN QAZANILMASINDA İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN ROLU

*Araşdırmada milli təhlükəsizliyin təmin olunmasında informasiya təhlükəsizliyinin yeri və roluna nəzər salınaraq onun indiki dövrdə xüsusi diqqət mərkəzində saxlanılmasının əhəmiyyətinə toxunulur. Qarabağ müharibəsində qələbəmizin qazanılmasında informasiya təhlükəsizliyinin təminatı və yeni texnologiyaların inkişafı konteksində mümkün təhdidlər və çağırışların zərərsizləşdirilməsi yolları göstərilir. Müharibə gedişində bu sahədə atılmış addımlar və informasiya vasitələrinin vahid məqsəd uğrunda səfərbər olunması sayəsində əldə olunan uğurlar təhlil edilir, rast gəlinən neqativ halların aradan qaldırılması ilə bağlı fikirlər açıqlanır.*

*Açar sözlər:* hərbi doktrina, informasiya təhlükəsizliyi, sosial media, dövlət sirri, hibrid müharibələr, kiberhücumlar**.**

***Giriş***. Ölkələrin sabitliyi və təhlükəsiz şəkildə idarə olunmasına təminat verən amillər sırasında informasiya təhlükəsizliyi xüsusi yer tutur. İnformasiya dövlətin, cəmiyyətin, ümumilikdə siyasətin daşıyıcısı və ötürücüsü funksiyasını yerinə yetirməklə yanaşı, cəmiyyətin idarə olunması sisteminin tərkib hissəsidir. Belə ki, sitiuasiyalar ideya və informasiyadan qaynaqlanır. İnformasiya təhlükəsizliyi isə hər bir sahə ilə bağlı məlumat və kommunikativ vasitələrin toplanması, düzgün təşkili, səmərəli istifadəsi, qorunması və bu yöndə təhdidlərin qarşısının alınmasıdır. Təhlükəsizlik sistemi hər zaman işlək olmalı, xüsusilə də ekstremal şəraitdə ona xüsusi diqqət yetirilməlidir. Müharibə şəraitində olan ölkələrin təcrübəsində bu hal özünü qabarıq surətdə göstərir. Azərbaycanın Vətən müharibəsində üzləşdiyi hadisələr, informasiyanın istehsalı, yayılması, təhlükəsizliyin təmin olunması, düşmənin bizə qarşı informasiya müharibəsindən də istifadəsi və ona qarşı adekvat tədbirlərin görülməsi diqqət mərkəzində saxlanıldı. Erməni təbliğatına qarşı mübarizədə qələbəmizin əldə olunmasında xüsusi rol oynadı. Qeyd etmək lazımdır ki, bu müharibədə Azərbaycan təkcə Ermənistanla deyil, dünya erməniləri və erməni lobbisi ilə üz-üzə qalmışdı. Bu müharibədə Azərbaycan özünün ədalətli zəfərini qazandı.

***Əsas hissə***. Dövlətin təhlükəsizliyi prioritet məsələ kimi həmişə diqqət mərkəzində saxlanılır və informasiya texnologiyalarının inkişaf etdiyi indiki zamanda informasiya təhlükəsizliyi xüsusi əhəmiyyət kəsb edir. Dövrün tələblərinə cavab verən tədbirlərin görülməsi, yeni təhdid və çağırışların qarşısının alınması, onların neytrallaşdırılması üçün hər bir sahənin inkişaf etdirilməsi zəruridir və məsələyə ciddi yanaşma tələb edir. Ölkənin təhlükəsizliyi ilk növbədə onun iqtisadi göstəriciləri ilə bağlıdır, iqtisadi inkişaf mövcudluğun baslıca şərtidir. Resursları zəif olan dövlətlərdə qarşıya qoyulan məqsədlərə çatmaq imkanları məhduddur, güclü iqtisadiyyata malik olanlar isə böhranlardan, üzləşdikləri çətinliklərdən asan çıxa bilərlər. Azərbaycan yürüdülən düzgün siyasət, güclü iqtisadiyyat, qurulan güclü ordusu sayəsində özünün ən böyük problemi-Qarabağ məsələsini həll etdi. Bu, görülən ümumi iş sayəsində mümkün oldu. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı, cənab İlham Əliyev bütün diqqəti bu məsələyə yönəldərək, ilk növbədə onun həlli üçün zəmin hazırladı, həm daxili imkanları səfərbər etdi, həm də beynəlxalq birliyin dəstəyini qazanmaq üçün informasiya təbliğatını gücləndirdi, özünün dediyi kimi, zamanında lazım gələni etdi. ”Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımı tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində” [1].

Vətən müharibəsində Ermənistan öz ordusunun ruh düşkünlüyünü aradan qaldırmaq və əhalinin dəstəyini qazanmaq üçün feyk xəbərlərdən, dezinformasiyalardan gen-bol istifadə etdi. Erməni

ordusunun əsas dayaq məntəqələrindən birinə çevrilmiş Hadrut qəsəbəsinin Azərbaycan hərbçiləri tərəfindən tutulmasına baxmayaraq Ermənistan rəhbərləri və KİV-ləri bu strateji əhəmiyyətli qəsəbənin öz nəzarətləri altında olduğunu iddia edirdilər. Ermənistana məxsus telekanallar və erməni bloqerlər, eləcə də xüsusi xidmət orqanları saxta sujetlər hazırlayaraq yayır, təxribatla məşğul olurdular. Ermənilər bəzi xarici jurnalistlər və bloqerlərin xidmətindən də istifadə etməklə qondarma döyüş səhnələri təqdim edir, erməni ordusunun məğlubedilməzliyi görüntüsü yaradırdılar. Rusiyalı jurnalist Semyon Peqovun timsalında bunu nümunə göstərmək olar. O, hər bir sujetində ermənipərəst mövqe tutur, Azərbaycan əleyhinə təbliğat aparırdı. "İnformasiya müharibəsi zamanı psixoloji təsir vasitələrindən istifadə bir tərəfdən mövcud informasiya sistemini dağıtmağa, digər tərəfdən isə onu başqa informasiya-kommunikasiya sistemi ilə əvəz etməyə imkan verir. Bununla da cəmiyyətin maraqları qarşı tərəfin maraqlarına tabe etdirilir. Bir çox insan hələ də müasir informasiya-kommunikasiya texnologiyaları vasitələrindən gələn, əsasən də siyasi məqsədlərə xidmət edən gizli informasiya-psixoloji təhlükələri tam anlamır, onlara laqeyd yanaşır" [4]. Bəzi dövlətlər məhz bu amilə söykənərək təxribat əməllərinə rəvac verir, ayrı-ayrı şəxslər və informasiya vasitələrinin xidmətindən istifadə edirlər.

Ermənistanın ölkəmizə qarşı düşmənçilik siyasətinin ifşa olunmasında Prezident-Ordu-Xalq birliyi mühüm rol oynadı. Ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müharibə dövründə etdiyi çıxışlar, xalqa müraciətləri və xarici KİV-lərə verdiyi müsahibələri ən yaxşı təbliğat rolunu oynadı. Dövlət başçısının 30-dan çox nüfuzlu KİV təmsilçilərinə verdiyi müsahibələr Azərbaycanın haqlı davasının dünya ictimaiyyətinə çatdırılması və reallıqların göstərilməsi, eləcə də Ermənistan rəhbərliyinin düşmənçilik siyasətinin, onun təcavüzkar ordusunun ifşası baxımından xüsusi əhəmiyyətə malik idi. Professor İlham Məmmədzadənin fikrincə, "müharibə yalnız ideologiya nəzəriyyəsini deyil, həm də ideoloji praktikanı, Azərbaycan vətəndaşlarının bir cəmiyyət kimi öz birləşdirici dəyərlərini, məqsəd və maraqlarını necə dərk etdiklərini, öz dövlətlərinə necə münasibət bəslədiklərini sınaqdan keçirdi. Bütün bu məqamlar ölkə Prezidenti İlham Əliyevin şəxsiyyətində cəmlənib. Sosial medianın kontent təhlilinin göstərdiyi kimi, xalq məhz , onu Qələbənin banisi hesab edir" [5, s.12].

Müharibə dövründə dövlət sirrinin qorunması, informasiya təhlükəsizliyi, informasiyanın idarə olunması, düzgün istiqamətləndirilməsi hərbiçilərin döyüş mövqeyində uğurlu əməliyyatları qədər əhəmiyyətlidir. Beləki, indiki dövrdə yalnız cəbhədə rəşadətlə vuruşmaqla tam qələbə əldə etmək çətindir. Bu işdə həm ön, həm də arxa cəbhənin müştərək surətdə, həmrəylik şəraitində mübarizə aparması köklü uğura gətirib çıxara bilər. Hibrid müharibələrin, kiberhücumların, radioelektron mübarizənin aktual olduğu müasir zamanda, kompüter texnologiyalarının geniş istifadə olunduğu şəraitdə rəqibə qarşı dayanıqlı olmaq, onun texnoloji gedişlərini zərərsizləşdirmək, texnoloji yenilikləri mənimsəmək, fəaliyyəti təkmilləşdirmək günün tələbidir. Pilotsuz uçuş aparatlarının tətbiq olunduğu vaxtda kəşfiyyat məlumatlarının mühafizəsi, məxfiliyin qorunması və düşmənin fəaliyyətinin izlənilməsi də qarşıda duran mühüm məsələdir.

Dövlətin təhlükəsizliyi hərbi doktrina, milli təhlükəsizlik, iqtisadi təhlükəsizlik və s. amillərlə sıx bağlıdır. Bu məsələlər hər şeydən əvvəl qanunvericilik bazası ilə tənzimlənir. Bu qanunlar sırasında mühüm yerlərdən birini də "Azərbaycan Respublikasının Dövlət Sirri Haqqında " Qanunu tutur. Bu qanuna əsasən:

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, operativ və səfərbərlik üzrə yerləşdirilməsinə dair əməliyyat planlarının, döyüşü idarəetməyə dair sənədlərinin məzmunu, onların döyüş və səfərbərlik hazırlığı, səfərbərlik ehtiyatlarının yaradılması və istifadəsi haqqında;
- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuq planları, silahların və hərbi texnikanın inkişafının istiqamətləri, silah və hərbi texnika nümunələrinin yaradılması və modernləşdirilməsi üzrə məqsədli proqramların məzmunu və yerinə yetirilməsinin nəticələri haqqında;
- Silah və hərbi texnika nümunələrinin taktiki-texniki xarakteristikaları və döyüşdə tətbiqi imkanları, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında;
- Milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, hazırlıq və müdafiə olunma dərəcəsi, tikintisi və istismarı, habelə bu obyektlər üçün torpaq yerinin ayrılması haqqında;

- Qoşunların dislokasiyası, həqiqi adları, təşkilati strukturu, şəxsi heyətinin sayı və onların döyüş təminatı, həmçinin hərbi-siyasi və ya əməliyyat şəraiti haqqında məlumatların yayılması və ötürülməsi qadağandır [4]. Belə ki, dövlət sirrinin yayılmasına görə məsuliyyət nəzərdə tutulub və belə halların baş verməsi cinayət məsuliyyəti yaradır.

Vətən müharibəsi dövründə internet resurslarına qoyulmuş məhdudiyyətlər qaçılmaz idi. Sosial şəbəkələrdə yayılan qeyri-dəqiq məlumatlar insanların yanlış istiqamətə yönəldilməsinə səbəb olur, çaşqınlıq yaradırdı. Bəzi şəxslər bu məlumatların nəyə xidmət etdiyini başa düşmür, yanlış nəticə çıxarırdılar. Məsələn, erməni mənşəli şəxsin Azərbaycan dilində səlis danışaraq çağırışlar etməsi və itkilər barədə yalan məlumatlar verməsi bəzi insanlarda çaşqınlıqlar yarada, mənfi nəticələrə, ruh düşkünlüyünə səbəb ola bilərdi. Yaxud da hər hansı bir vətəndaşımızın müəyyən bir informasiya və təsvirin nəticələrini başa düşmədən və yaxud məqsədli şəkildə dövriyyəyə buraxılması düşmənin maraqlarına xidmət etmiş olardı. Mövcud şəraitə uyğun olaraq "hərbi əməliyyatların başlanılması ilə hərbi qüvvələr və informasiya müharibəsi vasitələri aşağıdakı əsas tapşırıqları icra etməlidirlər:

- düşmənin bütün informasiya resurslarına kütləvi təsir;
- öz qoşunlarının hərbi texnika və silahlarının döyüş səmərəsinin səviyyəsinin aşağı düşməsinin qarşısını almaq;
- rəqibin qüvvələrinin mənəvi-psixoloji ruhunun aşağı salınması üçün tədbirlər görmək və onun anoloji hərəkətlərini neytrallaşdırmaq;
- öz qoşunlarının zəruri informasiya-kəşfiyyat fəaliyyətinin məxfiliyini təmin etmək və bunun üçün zəruri addımlar atmaq" [6, s.68].

Müharibə gedişində ermənilərin əl atdığı digər bir alçaq üsul isə Azərbaycanın dinc sakinlərinin raketlərlə atəşə tutulması idi. Vətən müharibəsi gedişində Gəncə, Tərtər, Mingəçevir, Bərdə, Fizuli, Göranboy, Beyləqan, Ağcabədi, Daşkəsən şəhərlərinin və kəndlərinin dinc sakinlərinin öldürülməsi onların mənfur xislətinin daha bir göstəricisi idi. Ermənistan ordusunun mülki şəxsləri raket atəşləri ilə öldürməsinin digər bir məqsədi isə insanlar arasında xof, qorxu və cəmiyyətdə xaos yaratmaq idi. 44 günlük Vətən müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri döyüş bölgələrindən 100 km-lərlə uzaqlıqda olan dinc yaşayış məntəqələrimizə, hətta Bakıətrafı yaşayış məntəqələrinə, eləcə də Xızı və Qəbələ rayonları ərazisinə "SKAD", "İskəndər-M", "Toçka-U" və digər raketlərdən, həmçinin qadağan olunmuş ağ fosforlu və kasset bombalarından hücum təşkil etmişdilər. Ermənilərin bu hərbi cinayətləri nəticəsində 100-dən çox dinc insan, o cümlədən 11 uşaq həlak olmuş, 450-dən çox adam müxtəlif bədən xəsarətləri almışdır. Bu günlər ərazində ümumilikdə ölkəmizin ərazisində 12 mindən çox mülki infrastruktur obyektinə, eləcə də yaşayış evlərinə ciddi ziyan vurulmuş, bəzi binalar tamamilə dağıdılmış, bəziləri isə qismən ziyan çəkmişdilər.

Dövlətin təhlükəsizliyinin qorunması üçün diqqət mərkəzində saxlanılması məsələlərdən biri də kritik informasiya infrastrukturunun təhlükəsizliyinin qorunmasıdır. Ölkə başçısı İlham Əliyev bunu nəzərə alaraq 2021-ci il aprelin 17-də "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" Fərman imzalayıb. Bu fərmanın verilməsində əsas məqsəd isə KİI-nin kiberhücumlardan qorunması üçün tədbirlərin görülməsidir. Qeyd edək ki, bu sahədə müvafiq işləri Azərbaycan Respublikasının Dövlət Təhlükəsilziyi Xidməti ilə ölkəmizin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti birgə həyata keçirir. Vətən müharibəsindən sonra bu sahəyə diqqətin artırılması xüsusi əhəmiyyət daşıyır. Çünki müharibə dövründə qazanılmış təcrübə və müəyyən məsələlərdə operativliyin tam təmin olunması üçün bu məsələ daha ciddi yanaşma tələb edir. Ona görə ki, heç bir dövlət yeni təhlükə və təhdidlərdən tam sığortalanmayıb, qabaqlayıcı tədbirlər görülməsi zəruriliyi meydana çıxır.

Müasir dövr həm də yüksək intellektə əsaslanan texnologiya və texnikanın həyata tətbiqini tələb edir. Kompüter texnologiyasının əhatə dairəsinin günü-gündən genişləndiyi müasir şəraitdə – radioelektron, məsafədən idarəetmə, robototexnikanın , PUA-ların tətbiqi ilə istehsalatdan tutmuş ekoloji, aqro və kosmik sahələrin tədqiqi, "yer-hava-yer" idarəetmə və zərbəendirmə sistemlərinin təkmilləşdirilməsinədək məsələlər günümüzün əsas reallıqları sırasındadır. Mülki və hərbi infrastrukturun idarə edilməsi yeni texnologiyaların yüksək səviyyədə mənimsənilməsini tələb edir. Bu istiqamətdə Türkiyənin təcrübəsi hazırda dünya çapında təqdir olunur və ölkəmiz də yenilikləri əxz etmək yönündə iş aparır. Bununla əlaqədar Türkiyədə keçirilən " Teknofest" - Aerokosmik və Texnologiya-

lar Festivalı yeni texnologiyanın təbliği, inkişafı və təcrübə mübadiləsi baxımından təqdirəlayiqdir. Vətən müharibəsi dövründə Türkiyə istehsalı olan və yüksək səmərəsini sübut etmiş "Bayraqdar", "TB-2", İsrailin "Harop" və Azərbaycanın "İtiqovan" PUA-ları qələbənin əldə olunmasına öz töhvələrini vermişlər. Təhlükəsizliyin təmin olunması və mümkün təhdidlərə cavab verilməsi üçün bu texnologiyanın daha yaxşı mənimsənilməsi və inkişafı üçün bu il ölkəmizdə keçirilən "Teknofest" festivalının da əhəmiyyəti böyükdür. Həmçinin ölkəmizin müdafiə qabiliyyətinin yüksəldilməsi baxımından Müdafiə Sənayesi nazirliyinin yaradılması təqdirəlayiq hesab olunmalıdır.

Qarabağ müharibəsində ədalətsiz tərəf olan ermənilər məğlub olsalar da bununla barışmaq istəmir və revanşist mövqedə dayanaraq hər vasitə ilə qisas almağa çalışırlar. Məlum olduğu kimi, bu işdə onlara dünyanın bəzi lobbiləri dəstək verir. Tarix boyu çirkin planlar quran, düşmənçiliyi təbliğ edən və bu prosesə külli miqdarda maliyyə ayıran erməni təşkilatları və onların əlaltıları 44 günlük vətən müharibəsindən sonra yenidən fəallaşıblar. Aparılan araşdırmalar göstərir ki, ermənilər bu işi hibrid formada həyata keçirir, həm real həyatda, həm də internet resurslarından istifadə etməklə təbliğatı gücləndirir, bu fəaliyyətə qlobal araşdırmaçı jurnalistləri və insan hüquqları şəbəkəsini cəlb edirlər. Bununla bağlı faktlar Azərbaycan Sosial Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə hazırlanan "Azərbaycana qarşı dezinformasiya şəbəkəsi və hibrid təhdidlər" adlı hesabatda əksini tapıb. "Qlobal araşdırmaçı jurnalist və insan hüquqları şəbəkəsinin Azərbaycana qarşı fəaliyyətində erməni faktoru" kitabının təqdim olunması mərasimində çıxış edən fəlsəfə elmləri doktoru, professor Tahirə Allahyarova deyib ki, son 30 ildə Qarabağ separatçıları və Ermənistanın korrupsioner rejiminə milyardlar ayıran dünya erməniləri müharibədən sonra bütün gücünü qlobal araşdırmaçı insan hüquq müdafiə təşkilatlarına sızmaq üçün səfərbər ediblər. "Onların əsas məqsədinin Azərbaycan dövlətinin imicinin beynəlxalq aləmdə hibrid informasiya müharibəsi və saxta xəbərlərlə "dezinformasiya" yaymaq, informasiya məkanında nüfuzdan salmağa cəhd etmək, ölkə daxilində 5-ci kalonu səfərbər etməklə ictimai rəyi manipulyasiya etmək, zəfərimizin təməl şərtlərindən olan ictimai-siyasi sabitliyimizi pozmaq yönündə yeni üsullara əl atmaqdır" [2]. Bununla belə, Azərbaycan cəmiyyətində artıq əminlik yaranıb ki, ermənilər nə qədər dəridən-qabıqdan çıxsalar da xalqımızı haqq yolundan çəkindirə bilməyəcəklər, onlar 44 günlük Vətən müharibəsində olduğu kimi, yenə də məğlubiyyətə uğrayacaqlar. Ona görə də Azərbaycan dövləti ədalətli siyasət yürüdür, öz haqq işi uğrunda mübarizə aparıb və bundan sonra da bu istiqamətdə mətinliklə öz yoluna davam edəcək. Ölkəmiz bunun üçün bütün vasitələrə sahibdir, onun güclü iqtisadiyyatı, ordusu və təhlükəsizlik sistemi var.

***Nəticə.*** Hazırkı mürəkkəb geosiyasi proseslərin getdiyi bir dövrdə dövlətlərarası münasibətlərin tənzimlənməsi, baş verə biləcək qarşıdurmaların aradan qaldırılması üçün digər təhlükəsizlik məsələləri ilə yanaşı, informasiya təhlükəsizliyi də vacib amillərdən biridir. 30 il ərzində Ermənistan dövləti ilə qarşıdurma şəraitində yaşamış Azərbaycanın Qarabağ müharibəsi zamanı üzləşdiyi problemlərin aradan qaldırılması üçün ümumi təhlükəsizlik məsələlərinin diqqət mərkəzində saxlanılması nəticə etibarı ilə əldə olunan zəfərin qazanılmasına vəsilə oldu. 44 günlük Vətən müharibəsi zamanı dövlət-ordu-xalq monolit birliyinin yaranmasında Kütləvi İnformasiya Vasitələrinin uğurlu şəkildə iştirakı əhəmiyyətli rol oynadı. Beləliklə, cəmiyyətimizin kompleks şəkildə fəaliyyəti müsbət nəticəsini verdi və Azərbaycan dövləti öz ərazi bütövlüyünü təmin etmiş oldu.

## ƏDƏBİYYAT

1.Azərbaycan prezidenti İlham Əliyev xalqa müraciət edib. - https://president.az/az/articles/view/42411 [Müraciət tarixi: 02.06.2022].

2. Allahyarova T. Dünya erməniliyinin məğlubiyyətdən sonrakı strategiyası. - https://teleqraf.com/news/siyaset/317013.html [Müraciət tarixi: 02.06.2022].

3. Bayramov S. Müasir müharibələrdə informasiya. - https://azeridefence.com/ [Müraciət tarixi: 02.06.2022].

4. Dövlət sirrinin mühafizəsi üzrə vacib məlumatlar. - https://mod.gov.az/az/news/dovlet-sirrinin-muhafizesi-uzre-vacib-melumatlar-11970.html [Müraciət tarixi: 02.06.2022].

5. Məmmədzadə İ. Liderlik fenomeni və müharibədən sonrakı dövrün bəzi gerçəklikləri. - Prezident İlham Əliyevin Azərbaycanın inkişaf strategiyası: fəlsəfi, sosioloji və siyasi təhlil. Bakı, ”Bilgi” MMC, 2021, s.7-17.
6. Муслимзаде Д. Проблема морали вы условиях информационной войны. - Prezident İlham Əliyevin Azərbaycanın inkişaf strategiyası: fəlsəfi, sosioloji və siyasi təhlil. Bakı,”Bilgi”MMC, 2021, s.61-69.

**ЭЛЬШАД ГАСАНЛЫ**
*Ведущий научный сотрудник Института философии и социологии НАНА,*
*доктор философии по политическим наукам, доцент*

## РОЛЬ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ В ДОСТИЖЕНИИ ПОБЕДЫ В ОТЕЧЕСТВЕННОЙ ВОЙНЕ

В исследовании рассматриваются место и роль информационной безопасности в обеспечении национальной безопасности и подчеркивается важность сохранения ее в центре внимания в сегодняшний день. Показаны пути нейтрализации возможных угроз и вызовов в контексте обеспечения информационной безопасности и развития новых технологий в достижении победы в Карабахской войне.Анализируются шаги, предпринятые на этом поприще в ходе войны, и успехи, достигнутые за счет мобилизации средств массовой информации для достижения общей цели, высказываются мнения по устранению возникших негативных ситуаций.

*Ключевые слова:* военная доктрина, информационная безопасность, социальные медиа, государственная тайна, гибридные войны, кибератаки.

**ELSHAD HASANLI**
*Leading researcher of the Institute of Philosophy and Sociology of ANAS,*
*Doctor of Philosophy in Political Sciences, Associate Professor*

## THE ROLE OF INFORMATION SECURITY IN WINNING THE PATRIOTIC WAR

The research looks at the place and role of information security in ensuring national security and emphasizes the importance of keeping it in the spotlight today. Ways to neutralize possible threats and challenges in the context of ensuring information security and the development of new technologies in achieving victory in the Karabakh war are shown. The steps taken in this field during the war and the successes achieved through the mobilization of the media for a common goal are analyzed, and opinions are expressed on the elimination of the negative situations encountered.

*Keywords:* military doctrine, information security, social media, state secrets, hybrid wars, cyberattacks**.**

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 02 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 7203.01**

**NƏRMİNƏ QASIMOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin*
*"Humanitar fənlər" kafedrasınınn baş müəllimi*
**narmin_aa@mail.ru**

# MULTİKULTURALIZM SIYASƏTİNİN VƏ AZƏRBAYCANÇILIQ MƏFKURƏSİNİN İDEYA-NƏZƏRİ PRİNSİPLƏRİNİN VƏHDƏTİ

*Məqalədə azərbaycançılıq məfkurəsi müasir Azərbaycan cəmiyyətinin milli ideologiyasının nəzəri əsası olaraq diqqətə çatdırılmışdır. Azərbaycançılıq ideologiyası Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bununla da Heydər Əliyev xalq-dövlər birliyinə nail oldu. Hər bir xalqın gücü onun birliyindədir. Məqalədə milli ideologiyada multikultural dəyərlər və onun cəmiyyətdə rolu təhlil edilmişdir. Multikulturalizmin Azərbaycan modelinin prinsipləri tarixən formalaşmış milli-mənəvi dəyərlərin və Azərbaycançılıq milli ideologiyasının əsas qayəsini təşkil edir.*

*Açar sözlər*: lider, milli ideologiya, multikulturalizm, azərbaycançılıq, millidəyərlər, identikləşmə, siyasət.

***Giriş***. Müstəqil Azərbaycanın ideoloji əsasını universal mahiyyət daşıyan azərbaycançılıq məfkurəsi təşkil edir. Görkəmli dövlət xadimi, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən inkişaf etdirilən azərbaycançılıq məfkurəsi beynəlxalq arenada dövlətimizin mövqeyinin möhkəmlənməsinə xidmət edir. Azərbaycançılıq ideologiyası milli dövlətçiliyimizin fəlsəfi-sosioloji nəzəriyyəsinin sosial-mədəni və etno-siyasi aspektlərinin məcmusudur. Müstəqil dövlətçiliyimizin bütün sahələr üzrə vacib prinsipləri milli ideologiyamızda öz əksini tapmışdır. Cəmiyyətimiz birmənalı olaraq azərbaycançılıq məfkurəsinin ətrafında sıx birləşmişdir.

Azərbaycanın milli dövlətçiliyi cəmiyyətin hər bir üzvünə hüquqi, dini, mədəni azadlıq bəxş etməklə, azərbaycançılıq ideologiyasının prinsiplərinə sadiq olduğunu sübut edir. Bu ümummilli ideologiya Azərbaycanda demokratik vətəndaş cəmiyyətinin qurulmasının təməl prinsiplərini özündə əks etdirir. Bu gün Azərbaycan milliyətindən asılı olmayaraq öz vətəndaşlarının təhlükəsizliyini yüksək səviyyədə qoruyur və onlıarın sosial rifahının təminatçısıdır.

Müstəqil Azərbaycan multikulturalizmi dövlət siyasətinin prioriteti elan edən demokratik, unitar və hüquqi dövlətdir. Avropa və Asiyanın qovşağında yerləşən Azərbaycanın sivil göstəricisi bir tərəfdən Şərq, digər tərəfdən isə Qərbin təsirinə məruz qalaraq özünəməxsus tərzdə formalaşmışdır. Bu baxımdan azərbaycançılıq həm kreativ bəşəri, həm də ənənəvi milliliyi özündə təcəssüm etdirmişdir. Azərbaycançılıq ideologiyası həm milli, həm də ideoloji təhlükəsizliyimizin qarantıdır.

Azərbaycan Respublikası XXI əsrdə də müstəqilliyin möhkəmləndirilməsində, dönməz xarakter almasında və ölkəmizin dünya birliyində özünə layiq yer tutmasında milli məfkurəmizin vacib şərtlərinə çox ciddi əməl etməkdədir. Eyni zamanda bu ideologiya bütün dünyada yaşayan azərbaycanlıların milli birlik platformasıdır. Heydər Əliyevin bəhs etdiyi azərbaycançılıq sosial-siyasi əhəmiyyət daşıyaraq dövlət quruculuğunun aparıcı siyasi doktrinasına çevrildi. Azərbaycançılıq ideyası milli-mədəni təsisatlara əsaslansa da milliyətçilikdən tam uzaqdır.

Azərbaycançılıq konsepsiyası Azərbaycanın müasir sivilizasiyalar sistemində özünütəsdiqi, milli mənliyin identikliyini qoruyub saxlayan ideoloji-fəlsəfi təlimdir. "Heydər Əliyev zəmanəsinin böyük filosofu və mütəfəkkiri idi. Onun formalaşdırdığı azərbaycançılıq ideyası milli-siyasi şüurun təməl prinsipi kimi dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Ulu öndərin milli dirçəliş ideyası tezliklə əməli siyasət müstəvisinə keçərək strateji dövlət siyasətinə çevrimişdir"[1, s.75].

Azərbaycanda multikulturalizmin meydana gəlməsində və formalaşmasında obyektiv və subyektiv səbəblərlə yanaşı milli ideya mühüm rol oynamışdır. Multikulturalizm dəyərləri azərbaycançılığın əsas konponentidir [4, s.412].

Bu məfkurə Azərbaycanda vahid birlik və vahid sosium formalaşdırır. Neokonservatizmin milli forması kimi azərbaycançılıq milli ideolojiyanın əsasıdır. Milli ideologiyanın formalşdırdığı milli özünüqoruma şüuru milli dəyərlərimizi hər cür təhlükədən qoruya bilir [5].

“Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. Bunların mahiyyəti ölkəni mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. “Azərbaycançılıq” xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün “azərbaycançılıq” milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, əlaqəsi və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir” [2, s.28].

Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ölkəmizi dağılmaq təhlükəsindən xilas edən azərbaycançılıq nəzəriyyəsi hər bir vətəndaşın marağını müdafiə etdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, “dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik” olmalarını təmin etməli idi [3].

Milli ideologiyamız öz mahiyyəti baxımından Azərbaycanda dövlət səviyyəsində aparılan tolerantlıq və multikulruralizm siyasətinin ideya prinsiplərinə uyğundur. Azərbaycanın multimədəni, multikonfessional ölkə olmasını nəzərə alaraq yürüdülən multikulturalizm siyasəti dövlətçiliyimizin, milli təhlükəsizliyimizin daha da möhkəmlənməsində strateji əhəiyyət daşıyır. Qloballaşan dünyanın kataklizmlərindən sığortalanmaq üçün bu siyasət ən düzgün və alternativsiz yoldur. Multikulturalizm və tolerantlıq müasir azərbaycançılıqda mühüm istiqamətdir. Azərbaycan mədənyətlərin inteqrasiyası və tolerantlıq təcrübəsinə malik olan bir ölkədir. Müxtəlif xalqların, konfessiyaların nümayəndələrinin hər biri Azərbaycan vətəndaşı kimi ölkəmizə, dövlətimizə, dinlərə, xalqlar arasında sağlam mühitin əbədi olmasına xidmət edir.

Azərbaycançılıq, multikulturalizm və dini dözümlülük Azərbaycanın malik olduğu ideoloji zənginliklərdir. Müsair demokratik Azərbaycan dini tolerantlığın sübutudur. Multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycanda üç səmavi dinin(yəhudilik, xristianlıq, islam) dözümlülük şəraitində birgə fəaliyyəti tarixi ənənələrin müasir dövrdə hüquq müstəvisində təzahürüdr. Sosial hadisə olan multikulturalizm Azərbaycan cəmiyyətinin nümunəvi birgəyaşayış normasına çevrilmişdir. Beynəlxalq aləmdə Azərbaycanın siyai nüfuz qazanmasında azərbaycançılıq və multikulturalizm siyasi doktrinaları tarixi əhəmiyyət daşımaqla bərabər mədəniyyətimizin dünyaya çatdırılmasında müstəsna rol oynayır.

Respublikada aparılan multikulturalizm siyasəti fonunda azərbaycançılıq ideologiyasının inkişaf etdirilməsi dünya təcrübəsində qəbul olunmuş yenilikdir. Bu fakt dünya miqyasında ölkəmizə olan marağı daha da artırır.

Azərbaycanda çoxmədəniyyətlilik mühitinin formalaşmasında və onun qorunub saxlanmasında ölkəmizin UNESCO ilə əməkdaşlığı çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının birinci xanımı, Azərbaycan Respublikası Prezidentinin I vitse-Prezidenti və Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti nəyicəsində Azərbaycan-UNESCO münasibətləri ən yüksək inkişaf səviyyəsinə yüksəlib. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası mədəni müxəlifliyin qorunması üçün UNESCO-nun iki mühüm konvensiyasını ratifikasiya etdi. Bunlar “UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya” və ”Dözümlülük Prinsipi Haqqında Bəyənnamə“dir. Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya 20 oktyabr 2005-ci ildə UNESCO-nun 33-cü sessiyasında qəbul olunmuş və 18 mart 2007-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu konvensiyaya 26 noyabr 2009-cu ildə qoşulmuşdur [6].

Bu sahədə aparılan uğurlu fəaliyyət beynəlxalq ictimaiyyətdə Azərbaycan xalqı haqqında müsbət fikirlər aşılamaqla bərabər dövlətimizin siyasi nüfuzunun yüksəldilməsinə xidmət edir. Müharibə

şəraitində olan bir ölkə kimi büynəlxalq ictimai rəyi öz lehimizə istiqamətləndirmək Azərbaycan-Ermənistan silahlı münaqişəsinin müsbət məcrada həllinə dəstək ola bilər. Bu mənada ölkədə yaradılmış multikultural mühit, sabitlik xarici investorların ölkə iqtisadiyyatının inkişafına cəlb edilməsi maliyyə resurslarımızın artımına köməklik göstərir. İqtisadiyyatımızın dinamik inkişafının məntiqi nəticəsi kimi deyə bilərik ki, Azərbaycan reqionun aparıcı ölkəsidir və bu sahədə aktorluğu qoruma-ğa çalışır. Respublikamız reqionda həyata keçitilməsi nəzərdə tutulan heç bir siyasi, iqtisadi, mədəni layihədən kənarda qalmır. Məhz ölkədə aparılan mütərəqqi, demokratik, düzgün siyasətin atributu kimi formalaşmış multikultural və tolerant vətəndaş cəmiyyətinin fəaliyyətnin nəticəsidir ki, XXI yüzillikdə qloballaşma və inteqrasiya fonunda Azərbaycan Respublikası dünyaya bir nümunədir. Ölkədə keçirilən iqtisadi, siyasi və mədəni tədbirlər beynəlxalq reytinqimizin artmasında böyük rol oynayır.

2013-cü ildən etibarən paytaxtımız Qlobal Bakı Forumlarına ev sahibliyi etmişdir. Bu kimi mədəni-siyasi mahiyyət daşıyan beynəlxalq tədbirlər, 2015-ci ildə I Avropa Olimpiya Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarının və 2019-cu ildə Dünya dini liderlərinin II Bakı sammitinin yüksək səviyyədə keçirilməsi eyni bir müstəvidə Şərq və Qərb mədəniyyətlərinin birgə fəaliyyətinin mümkünlüyünün sübutu idi. Müxtəlifqütblü mədəniyyətlərin Azərbaycanda dinc və dözümlülük şəraitində mövcud olması dövlət səviyyəsində aparılan uğurlu multikultural siyasətin nəticəsidir.

***Nəticə***. Azəbaycan Respublikasının Prezidenti İlham Əliyevin çoxvektorlu siyasəti nəticəsində müstəqil Azərbycan dövləti müasir dünyada multikultural və tolerant ölkə imicini qazanmağa müvəffəq olmuşdur və cəmiyyətdə millətlərarası, dinlərarası, mədəniyyətlərarası münasibətlərin bərqərar olmasında fövqəladə daxili gücə sahib olduğunu göstərməkdədir. Müstəqil Azərbaycanda uğurla həyata keçirilən multikulturalizm siyasəti azərbaycançılıq ideologyasının ideya nəzəri prinsipləri ilə həmahəngdir. Multikultural dəyərlər milli ideologiyamızın əsas komponentidir. Bu gün suveren və müstəqil Azərbaycan dünyada qəbul olunmuş multikulturalizm mərkəzlərindəndir.

## ƏDƏBİYYAT

1. Əliyev İ. Azərbaycanıma inanıram. Bakı, Azərnəşr, 2007, 376 s.
2. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. Bakı, XXI-Yeni Nəşrlər Evi, 2006, 624 s.
3. Abdullayev K. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisidir / "Azərbaycan" qəzeti, 2014-07-23, s.7. - http://www.anl.az/down/meqale/azerbaycan/2014/iyul/384752.htm [Müraciət tarixi: 04.05.2022].
4. Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, "Şərq-Qərb", 2019, 432 s.
5. Ömərov V. Azərbaycançılıq milli ideyası dövlətçilik ideologiyası kimi. - http://sesqazeti/az/news/kivdf/554227.html 15.07.2015 [Müraciət tarixi: 04.05.2022].
6. 918-IIIQ-"Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyaya qoşulmasına dair 26 noyabr, 2009. - http://www.e-qanun.az/files/framework/data/19/f 1904.htm [Müraciət tarixi: 04.05.2022].

**НАРМИНА КАСУМОВА**
*Старший преподаватель кафедры «Гуманитарные науки»*
*Азербайджанского Государственного Университета Нефти и Промышленности*

## ЕДИНСТВО ПОЛИТИКИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И ИДЕЙНО-ТЕОРЕТИЧЕСКИЕ ПРИНЦИПЫ ИДЕОЛОГИИ АЗЕРВАЙДЖАНСТВА

В статье особое внимание уделено идее азербайджанства как основа идеологии современного азербайджанского общества. Идеология Азербайджанство связано с именем Гейдара Алиева. Гейдару Алиеву удалось создать уважения к государству у народа. Сила каждого народа в его единстве. В статье анализируются мультикультуральные ценности национальной идеологии и определяется его роль в обществе. Азербайджанская модель мультикультура-

лизма рассматривается как исторически сформировавшаяся духовно-национальная ценность. Азербайджанство сущность современной национальной идеологии.

*Ключевые слова*: лидер, национальная идеология, мультикультурализм, азербайджанство, национальные ценности, идентификация, политика.

**NARMINA GASIMOVA**
*Senior Lecturer of the Department of "Humanities"*
*Azerbaijan State Oil and Industry University*

## UNİTY OF THE POLİCY OF MULTİCULTURALİSM WITH THE IDEOLOGICAL AND THEORETICAL PRINCIPLES OF THE AZERBAİJANİSTY IDEOLOGY

The article concersus the idea of azerbaijanisty on the basis of ideology of modern Azerbaijan society. The use of ideology of azerbaijanism in the state organization is related üith the name of Haydar Aliyev. He was respect for state among population. Force of each people in his unity. In this article analised multicultural valus of national leader Heydar Aliyev and is determined his place in this society. Azerbaijan multiculturalism is regardedas a historically formed spiritually national value. Azerbaijanalism spezit and essence of modern national ideology. Unity of the policy of multiculturalism with the ideological and theoretical principles of the azerbaijanisty ıdeology.

*Keywords*: leader, national ideology, multiculturalism, azerbaijanism, national mentalities, identity, policy.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.e.d. İradə Nuriyeva, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**XOŞQƏDƏM İSLAM**
*Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru*
**xoshgedem-islam@rambler.ru**

# XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASINDA AQRAR SAHƏNİN ROLU

*1991-2015-ci illərdə respublikamızda aparılan aqrar islahatlar prosesində özəl təsərrüfatların təşkili, formalaşdırılması və fəaliyyəti sahəsində müəyyən çatışmazlıqlar olmuşdur. Məqalədə Dövlət başçısının kənd təsərrüfatının düşdüyü ağır böhran vəziyyətindən çıxarmaq və əhalinin ərzaq təminatını yaxşılaşdırmaq üçün özəl qurumların təşkili və fəaliyyəti sahəsində gördüyü səmərəli tədbirlərdən bəhs edilir.*

*Açar sözlər*: sahibkar, dövlət, kənd təsərrüfatı, istehsal, qanun, bazar.

***Giriş***. XX yüzilin 90-cı illərinin ortalarından başlayaraq resbublika iqtisadiyyatında köklü dəyişiklər aparıldı. Bazar iqtisadiyyatına keçid üçün aparılan iqtisadi, siyasi və mədəni islahatlar proqramı hazırlandı. Bu baximdan dövlət mülkiyyətinin özəlləşdirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, aqrar islahatların həyata keçirilməsi istiqamətində əhəmiyyətli tədbirlərə başlanıldı. SSRİ-nin dağılması nəticəsində müstəqillik yoluna qədəm qoyan Azərbaycan Respublikasında aqrar sahənin bazar münasibətləri sisteminə keçirilməsi, çoxukladlı iqtisadiyyatın formalaşması və inkişaf etdirilməsi, kənd təsərrüfatında yaranmış iqtisadi böhranın aradan qaldırılması dövlətin vacib tədbirlər kompleksinin əsasını təşkil ediridi. Məlumdur ki, yenidənqurma illərində inzibati-amirlik sisteminin ictimai mülkiyyətə əsaslanan təsərrüfat formaları həqiqətən yüksək iqtisadi göstəricilər əldə etməyə imkan vermirdi. Belə ki SSRİ-nin dağılmasında katalizator rolunu oynayan qondarma Dağlıq Qarabağ probleminin başlandığı 1988-ci ildən etibarən respublikamızda kənd təsərrüfatı məhsulları istehsalının həcmi azalmağa başlamış, kolxoz və sovxozların maliyyə vəziyyətində ciddi çətinliklər yaranmış, uzun müddət formalaşan istehsal-təsərrüfat və iqtisadi əlaqələr pozulmuş, əhalinin ərzaq məhsulları ilə təminatı çətinləşmişdir. Hesablamalar göstərir ki, 80-ci illərin sonunda respublika əhalisinin hər nəfəri hesabı ilə ərzaq məhsulları istehsalı görünməmiş dərəcədə azalaraq 40-50 il bundan əvvəlki dövr səviyyəsinə enmişdir (6, s.187). 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkənin müstəqillik əldə etməsinin davamı olaraq yeni iqtisadi münasibətlərə keçid, özəl sektorun yaradılması və inkişaf etdirilməsi, bu səbəbdən də ona əlverişli maliyyə dəstəyi verə biləcək milli maliyyə qurumlarının yaradılması zərurəti əsas vəzifələrdən biri kimi qarşıya çıxdı. 12 oktyabr 1992-ci ildə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun Əsasnamə"-sinin təsdiq edilməsi ilə sahibkarlığa, o cümlədən kiçik və orta biznesə dövlət büdcəsinin vəsaiti hesabına güzəştli kreditlər verəcək ilk maliyyə qurumunun əsası qoyulmuşdu (7). Ümummilli liderimiz H.Əliyevin rəhbərlİyi ilə hazırlanmış və 1995-ci ilin noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 59-cu maddəsində isə hər bir Azərbaycan vətəndaşının azad sahibkarlıq hüququ birdəfəlik təsbit edildi. Müasir sahibkarlığın ikinci mərhələsi 27 iyun 1997-ci ildə təsdiq olunan və 1997-2000-ci illəri əhatə edən "Kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə başlandı. Üçüncü mərhələ isə 2002-ci ildə ölkə prezidentinin yerli və xarici iş adamları ilə görüşündən və həmin ilin avqust-sentyabr aylarında sahibkarlığın inkişafı üçün imzalanan sənədlərdən start götürdü və hazırkı dövrəcən davam edir (5, s.150).

Ümummilli lider Heydər Əliyevin "Strateji xəttimiz sərbəst iqtisadiyyat, özəlləşdirmə və sosial inkişaf yoludur" fikri bu gunümüzüdək ölkəmizin iqtisadi siyasət strategiyasının əsas istiqamətini təşkil edir. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, müstəqilliyin ilk illərində Azərbaycanda aparılmış iqtisadi islahatların həyata keçirildiyi prosesdə tələsikliyə yol verilmiş, ardıcıllıq gözlənilməmişdir. Bu səbəbdən də yaradılan kəndli (fermer) təsərrüfatlarının, ailə təsərrüfatlarının təşkili və fəaliyyəti sahəsində nöqsan və çatışmazlıqlar isə gözlənilən nəticəni əldə etməyə imkan verməmişdir. Ulu Öndər Heydər Əliyevin gərgin əməyi və həyata keçirdiyi radikal tədbirlər nəticəsində həmin

nöqsan və çatışmazlıqlar tədricən aradan qaldırılmış, 2000-ci ildən sonra özəl qurumların inkişaf dinamikasında sabitləşmə baş vermişdir (11).

2000-ci illə müqayisədə 2013-cü ildə fərdi sahibkar təsərrüfatlarında məhsul istehsalının həcmi 5,9 dəfə, kiçik müəssisələrdə isə 3,9 dəfə artmışdır. Bu illər ərzində özəl qurumlarda maliyyə göstəriciləri xeyli yaxşılaşmış, zərərlə işləyən müəssisələrin sayı azalmışdır. 2013-cü ildə respublika kənd təsərrüfatında bütün təsərrüfat kateqoriyaları üzrə 4844,6 mln manatlıq məhsul istehsal edilmişdir ki, onun da 4525,2 mln manatı və yaxud 93,4%-i fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları kateqoriyasının payına düşür. Hazırda fərdi sahibkar təsərrüfatlarının bu təsərrüfat kateqoriyasında xüsusi çəkisi 0,7%, kənd təsərrüfatının ümumi məhsulunda isə 0,6% olmuşdur (10).

Məlum olduğu kimi, aqrar sahədə yeni mülkiyyət münasibətlərinin yaradılması, ictimai torpaqların və əmlakın bir hissəsinin xüsusi mülkiyyətə verilməsində əsas məqsəd onlardan səmərəli istifadə edilməsini təmin etməkdən, torpaqların münbitliyini yaxşılaşdırmaq və məhsuldarlığını artırmaqla ərzaq bolluğunu yaratmaqdan ibarət olmuşdur. Lakin keçən dövr ərzində torpaqların adambaşına, əmlakın isə bu əmlakda payı olanlar arasında bölüşdürülərək xüsusi mülkiyyətə verilməsi neqativ hallarla müşayiət olunmuşdur. Aqrar sahədə kəndli- fermerin sərəncamına verilən torpaq sahələrinin artması və ya azalması dövlət ucotunun lazımi səviyyədə qurulmadığının nəticəsində baş vermişdir. Ölkədə aqrar islahatların keçirilməsi üçün yaradılan hüquqi baza, görülən işlər, əldə olunmuş müsbət nəticələr, bu işə adamların psixoloji cəhətdən hazırlanması bunu söyləməyə əsas verir ki, Azərbaycan kəndində yeni sahibkarlar və mülkiyyətçilər əmələ gəlmiş, milli iqtisadiyyatın formalaşmasında aqrar bölmə yenə də aparıcı sahələrdən birinə çevrilmişdir. Təsərrüfat subyektlərinin gəlirlərinin artımı, son nəticədə kənddə nəzərəçarpacaq sosial dəyişikliklərin yüksəlməsi ilə müşahidə olunmuşdur. Bundan başqa həyata keçirilən tədbirlər kənd təsərrüfatında torpağın və mülkiyyətin özəlləşdirilməsi kənddə çoxukladlı iqtisadiyyatın formalaşmasına əlverişli şərait yaratmışdı. Aqrar sahədə azad rəqabətin formalaşması torpaq sahibinin fəaliyyətini stimullaşdırmışdı. Məlumdur ki, inzibati-amirlik sistemində torpaq üzərində ümumxalq dövlət mülkiyyəti çərçivəsində həm kollektiv, həm də dövlət təsərrüfat formaları fəaliyyət göstərmişdir. İctimai mülkiyyətin qorunub saxlanılması və möhkəmləndirilməsi üçün dövlət bütövlükdə sovxozlara və qismən də kolxoz və kooperativlərə dövlət vəsaiti hesabına hərtərəfli köməklik göstərmişdir. Sovxoz təsərrüfatlarından əldə edilmiş gəlir bütövlükdə xalqa, kolxoz-kooperativ təsərrüfatlarının gəlirləri isə onun 12%-I həcmində vergilər ödənildikdən sonra bütövlukdə kolxoz və kooperativ üzvlərinə verilirdi (2, s.168). Fikrimcə, müstəqillik yoluna qədəm qoyduqdan sonra həm kolxoz, həm də sovxozların ləğv edilməsi düzgün addım ola bilmızdi. Yəni, kolxoz- kooperativ təsərrüfatları kollektiv mülkiyyətə əsaslandığına görə bu sahədə inqilabi yenidənqurmanı aparmağa ehtiyac yox idi. Sovxoz təsərrüfatlarına gəldikdə isə bu sahədə səhmdar cəmiyyətləri yaratmaq və icarə münasibətlərinə keçmək istiqamətində islahatlar aparmaqla sovet dövründə formalaşmış olan güclü maddi-texniki bazanı qoruyub saxlamaq və islahatlar prosesində yol verilən neqativ hallardan yayınmaq olardı. Torpaq üzərində dövlət mülkiyyətinin az bir hissəsini xüsusi mülkiyyətə verməklə qalan hissəsində dövlət təsərrüfatlarının təşkili və idarəedilməsi formasını dəyişdirmək olardı (1, s.30). İlk növbədə XX əsrin 70-80-ci illərində Azərbaycan Respublikasının aqrar sahədə əldə olunan nailiyyətlərinin qorunub saxlanılmasını əsas götürməli idi.

90-cı illərin əvvələrində "Kəndli (fermer) təsərrüfatı haqqında" qanun qəbul edilənədək respublikamızda cəmi 95 kəndli (fermer) təsərrüfatı təşkil edilmişdir. Onlara kənd təsərrüfatı üçün yararsız olan torpaq sahələri icarəyə verilmişdir (7). 1992-ci ilin aprel ayında "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunu qəbul ediləndən 1995-ci ilin fevral ayında həmin qanunun həyata keçirilməsi üçün digər aqrar islahat qanunları qəbul edilənədək kəndli (fermer) təsərrüfatlarının sayı 800 vahid artsa da, onlarda məhsul istehsalı 3% arta bilmişdir(8). Başlıca səbəbi isə onlara verilən torpaq sahələrinin yararsız xüsusi fond torpaqlarından ibarət olması, maliyyə vəsaitlərinin çatışmaması, yüksək faizli kreditlərdən istifadənin sərfəli olmaması idi. Ümumiyyətlə, mərkəzdən planlaşdırılan mülkiyyət formalarının hökmranlığı şəraitində yeni təsərrüfat formalarının inkişafını təmin edən ardıcıl proqram hazırlamaq və onları həyata keçirmək mümkün olmadığı üçün kəndli (fermer) təsərrüfatlarının təşkilində də ciddi nöqsanlara yol verilirdi. Doğrudur, bu nöqsanların bir hissəsi 18 fevral 1995-ci ildə qəbul edilən "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" Azərbaycan Respublikası qanunlarının qəbul edilməsi ilə və 1 iyun 1997-ci il

tarixdə "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununda aparılan dəyişikliklərlə aradan qaldırılsa da, aqrar bölmədə azad sahibkarlıq üçün hələ də lazımi şərait yaradılmadığından, onlar torpaq və əmlakın tam qanuni sahibi olmadığından, xüsusilə maliyyə vəsaiti çatışmadığından, yüksək faizli kreditlər hesabına təsərrüfat qurmaq və kənd təsərrüfatı məhsulları istehsalını həyata keçirməyə risk etmirdilər. Ona görə də bu dövrdə bitkiçilik sahəsində məhsul istehsalının xüsusi çəkisi çox az olmuş, mal-qaranın sayı isə ildən-ilə azalmaqla yanaşı məhsuldarlığı da aşağı düşmüşdür.

Torpaqların istifadə vəziyyətinin statistik təhlili göstərmişdir ki, 2004-cü ildə mövcud olan 1 milyon 635 min hektar əkin yerinin 79,2%-də əkin aparıldığı halda, 2013-cü ilə 1 milyon 695 min hektar əkin sahəsinin 99,4 %-də əkin aparılmışdır ki, bu da əkin sahəsinin demək olar tam həcmdə dövriyyəyə cəlb olunduğunu göstərir. Respublikanın ümumi ərazisinin 52,4%-i kənd təsərrüfatına yararlı torpaqlardır. Təhlil göstərir ki, bir tərəfdən əhalinin təbii artımı ilə, digər tərəfdən isə torpaqların müxtəlif deqradasiya proseslərinə uğraması, tikinti işlərinin aparılması, eləcə də qlobal iqlim dəyişikliyi və s. səbəblərdən adambaşına düşən əkin sahəsinin azalması tendensiyası gözlənilәndir (5, s.151). Ona görə də bir tərəfdən kənd təsərrüfatına yararlı torpaqların maksimum intensiv istifadə edilməsi ilə yanaşı, ekstensiv istifadə imkanlarından faydalanmağa, yəni, digər sahələrdə mövcud olan əkinəyararlı sahələrin təyinatının dəyişdirilərək əkin dövriyyəsinə əlavə olunmasına zərurət yaranmaqdadır. Ölkədə aqrar islahatların keçirilməsi üçün yaradılan hüquqi baza, görülən işlər, əldə olunmuş müsbət nəticələr, bu işdə adamların psixoloji cəhətdən hazırlanması bunu söyləməyə əsas verir ki, Azərbaycan kəndində yeni sahibkarlar və mülkiyyətçilər əmələ gəlmiş, milli iqtisadiyyatın formalaşmasında aqrar bölmə yenə də aparıcı sahələrdən birinə çevrilmişdir. Nəticədə bazar iqtisadiyyatı yolunu seçən, islahatları uğurla, ardıcıl həyata keçirən Azərbaycan Respublikası bu gün sosial-iqtisadi inkişafın möhkəm təməlini yaratmaqla, güclü iqtisadi yüksəlişin astanasında dayanmışdır. Bu isə onu deməyə imkan verir ki, Azərbaycan gələcəkdə varlı dövlətdən güclü dövlətə çevriləcəkdir. Araşdırmalar nəticəsində belə qənaətə gəlinir ki, 2000-2015-ci illərdə fərdi təsərrüfatların (fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları) inkişafında ciddi irəliləyişlər əldə olunmuşdur. 1995-ci ildə fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında istehsal olunan bitkiçilik məh sullarının həcmi bitkiçilik məhsulları istehsalının ümumi həcmində 53,4% təşkil edirdisə, bu rəqəm 2015-ci ildə 96,0% təşkil etmişdir (1, s.15). Belə bir tendensiya özünü heyvandarlığın inkişafında və heyvandarlıq məhsullarının dinamikasında da əyani şəkildə göstərir. Respublikada mövcud olan malqaranın əsas hissəsi fərdi təsərrüfatların payına düşür. Belə ki, 1995-ci ildə heyvandarlıq məhsulları istehsalında fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının xüsusi çəkisi 87,4% idisə, bu rəqəm tədriclə artaraq 2013-ci ildə 90,7% olmuşdur(1,s.13). 2004-cü ildən kənd təsərrüfatının inkişafı ilə bağlı respublikamızda mütərəqqi inkişaf meyllərinə nail olunmuşdur. Belə ki, kənd təsərrüfatında strateji əhəmiyyətli sahələrin, o cümlədən üzümçülüyün və pambıqçılığın inkişaf etdirilməsi nəticəsində respublikamızda güclü emal sektoru formalaşmışdır. Bu isə kənd təsərrüfatında çalışan əhalinin gəlirlərinin nəzərəçarpacaq dərəcədə artımına, kəndin sosial simasının dəyişməsinə gətirib çıxarmışdır. Əslində kəndin sosial-iqtisadi inkişafı kənddə fəaliyyət göstərən təsərrüfat subyektlərinin gəlirlərinin səviyyəsi ilə bilavasitə bağlıdır.Təsərrüfat subyektlərinin gəlirlərinin artımı, son nəticədə kənddə nəzərəçarpacaq sosial dəyişikliklərin yüksəlməsi ilə müşahidə olunur. Bundan başqa həyata keçirilən tədbirlər kənd təsərrüfatında torpağın və mülkiyyətin özəlləşdirilməsi kənddə çoxukladlı iqtisadiyyatın formalaşmasına əlverişli şərait yaratdı. Təbii ki, məhsul istehsalının və satışının azad bazar qanunlarına uyğunlaşdırılması, aqrar sahədə azad rəqabətin formalaşması kənd təsərrüfatının inkişafına əlverişli şərait yaratdı (3). Mülkiyyət formasından asılı olmayaraq, maliyyə və maddi resursların iqtisadi dövriyyəyə cəlb olunması, bütün fərdi şəxslərə sahibkarlıq prioritetlərindən asılı olaraq güzəştlərin verilməsi mexanizmləri tətbiq olunmaqdadır (8). Azərbaycan Respublikasında xüsusi vəsaitlərin sahibkarlıq fəaliyyəti üçün cəlb olunması sahibkarlıq assosiasiyaları, inqibatorları və kredit ittifaqları kimi birləşmiş iqtisadi sosial formaları istehsal həcmini və xidmət sferasını genişləndirmişdir. Sahibkarlığın inkişafı əhalinin və hər bir ailənin əmlakının iqtisadi dövriyyəyə cəlb edilməsi səriştəsini və ondan bazar tələbinə uyğun istifadəsini artırmışdır. Sahibkarlıq ənənəsi Azərbaycan Respublikasında şəxsi təsərrüfat tələbatının ödənilməsində də fəal rol oynamışdır. Bir sıra rayonlarda heyvandarlıq, əkinçilik, ət, süd, meyvə-tərəvəz və digər ərzaq məhsulları natural tələbatın ödənilməsi mənbələrini

oynamışdır. Bazar iqtisadiyyatı şəraitində fərdi təsərrüfatın çərçivəsi genişlənmiş, torpaq üzərində uzun müddətli mülkiyyət hüququ, həmçinin daşınmaz əmlakın artması təkrar istehsal və icariyyə haqqı ilə fərdi təsərrüfatçılıq imkanlarını çoxaltmışdır (9).

***Nəticə***. Ümumiyyətlə, 1991-2015-ci illərdə respublikamızda aparılan aqrar islahatlar prosesində özəl təsərrüfatların təşkili, formalaşdırılması və fəaliyyəti sahəsində müəyyən çatışmazlıqlara yol verilsə də, kənd təsərrüfatını düşdüyü ağır böhran vəziyyətindən çıxarmaq, əhalinin ərzaq təminatını yaxşılaşdırmaq üçün özəl qurumların təşkili və fəaliyyəti dövlət başçısının daima diqqət mərkəzində olmuş, onlara hərtərəfli dəstək verilmiş, nəticə etibarilə bütün təsərrüfat kateqoriyalarında ciddi irəliləyiş baş vermişdir. Araşdırmalardan bir daha belə bir nəticəyə gələ bilərik ki, respublikamız özünü ərzaq məhsulları ilə təmin etmək üçün bütün imkanlara malikdir. Təsərrüfatlarda işin düzgün təşkil edilməsi, kənd təsərrüfatına aşağı faizli kreditlərin verilməsi, investisiya qoyuluşunun artırılması, özəl qurumlara dövlətin maliyyə dəstəyinin gücləndirilməsi, dövlətin iqtisadi alətləri vasitəsilə təsərrüfatların işinin düzgün tənzimlənməsi və təsərrüfat mexanizminin daha da yaxşılaşdırılması onların hər birinin normal mənfəət əldə etməsinə əlverişli şərait yarada bilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Strateji Yol Xəritəsi". Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı). - https://president.az/az/articles/view/55115 [Müraciət tarixi: 18.05.2022].
2. Babayev.T.Q. Aqrar sahədə özəl qurumların formalaşması və inkişafının iqtisadi problemləri (Azərbaycan materialları əsasında)., İqt. elm. dok….dis. avtoreferat. Bakı, 2014, 58s. - http://anl.az/dissertasiya/el/U/U9.html [Müraciət tarixi: 18.05.2022].
3. Məmmədov Q.Ş. Heydər Əliyev. Torpaq islahatları regonların sosial-iqtisadi inkişafının əsasıdır. Bakı: Elm, 2008, 231s. - http://anl.az/el/m/247189.pdf [Müraciət tarixi: 18.05.2022].
4. Ülviyyə Vahid qızı. Heydər Əliyev və Azərbaycanda sahibkarlığın inkişafı / «Xalq» qəz.., Bakı, 2013, 22 aprel. - http://anl.az/el/emb/H.Aliyev/haqqinda/haqqinda_meqale_az.htm [Müraciət tarixi: 18.05.2022].
5. Rüstəmov E.F. Aqrar sferada islahatların kənd təsərrüfatında sahibkarlığın tə-şəkkülündə və inkişafında rolu // Bakı Universitetinin Xəbərləri, Bakı, 2008, №4, 192-195s. - http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202008%204/192-195.pdf [Müraciət tarixi: 18.05.2022].
6. Zeynalov İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafında dövlət proqramı // Bakı Universitetinin Xəbərləri, Bakı, 2005, №4, s.150-159. - http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%202005%204/150-157.pdf [Müraciət tarixi: 18.05.2022].
7. Исмаилов Э. Очерки истории России советского периода. Баку: Elm, 2008, 250 с. - https://www.academia.edu [Müraciət tarixi: 18.05.2022].
8. Kənd Təsərrüfatının İqtisadiyyatı. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzində keçirilmiş "Kənd təsərrüfatının dayanıqlı inkişafı: qlobal çağırışlar və Azərbaycanda həyata keçirilən islahatlar" adlı on-line elmi-praktikikonfransa (15 dekabr 2020-ci il) təqdim olunmuş məqalələr, No 4(34) (Xüsusi buraxılış). Bakı, 2020. - https://atm.gov.az/pdf/magazine/4.pdf [Müraciət tarixi: 18.05.2022].
9. Fəxriyyə Ikramqızı. Aqrar islahatlar ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. - https://vergiler.az/news/economy/1032.html [Müraciət tarixi: 18.05.2022].
10. Sevil Aydın qızı. Bazar münasibətləri şəraitində kənd təsərrüfatının maddi-texniki bazasının inkişaf mexanizmi. Bakı, 2020. - https://agroeconomics.az/pdf/articles/ [Müraciət tarixi: 18.05.2022].

**ХОШГАДАМ ИСЛАМ**
*Доктор философии по истории,*
*Бакинский Государственный Университет*

## РОЛЬ СЕЛЬСКОХОЗЯЙСТВЕННОГО СЕКТОРА В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ В НАЧАЛЕ XXI ВЕКА

В статье освещаются вопросы связанные с аграрными реформами, проводимой в республике и недостатки и недосчеты в этой области. Анализируя развитие земельных отношений и ход осуществления нового этапа земельной реформы, можно отметить их высокие темпы. Создана целостная система законодательных основ для новых земельных отношений, которая способна обеспечить вхождение в цивилизованный рынок. Она в значительной степени интегрирована в мировую законодательную систему в области земельных отношений.

*Ключевые слова*: бизнес, правительство, сельское хозяйство, производство, право, рынок.

**KHOSHGADAM ISLAM**
*Doctor of Philosophy in History,*
*Baku State University*

## THE ROLE OF THE AGRICULTURAL SECTOR IN FORMING THE NATIONAL ECONOMY AT THE BEGINNING OF THE XXI CENTURY

The article highlights the issues related to the agrarian reforms carried out in the country and disadvantages in this area. Analyzing the development of land relations and the implementation of a new phase of land reform, we can note their high rates. An integrated system of legislative framework for new land relations, which can provide entry into the civilized market. It is largely integrated into the global legal system in the sphere of land relations.

*Keywords*: business, government, agriculture, manufacturing, law, market.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.e.d. İbrahim Zeynalov.*

**UOT 94(479.24)**

**KÖNÜL ƏLİYEVA**
*AMEA Tarix İnstitutunun dissertantı*
**konulqabilqizi@mail.ru**

# AXC-NİN SÜRMƏLİ QƏZASINDA VƏ İRƏVAN QUBERNİYASININ DİGƏR BÖLGƏLƏRİNDƏ YERLİ HAKİMİYYƏT ORQANLARI YARATMAQ TƏDBİRLƏRİ

*Ermənistan Respublikası yaradıldıqdan sonra dövlət səviyyəsində Sürməli qəzasında və İrəvan quberniyasının digər bölgələrində azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti yeridilməsinə başlandı, erməni nizami ordu hissələrinin qətl və qarətlərinin miqyası genişləndi. AXC hökumətinin bunların qarşısını almaq üçün gördüyü tədbirlər içərisində Sürməli qəzasında və azərbaycanlı əhali yaşayan digər bölgələrdə yerli hakimiyyət strukturu yaratmaq səyləri çox mühüm yer tuturdu. Cənub-qərbi Azərbaycan general-qubernatorluğu yaradılması həm dinc əhalinin dövlət səviyyəsində qorunması, həm də doğma yurdlarından didərgin düşən insanlara müxtəlif yardımlar göstərilməsi üçün böyük əhəmiyyətə malik idi.*

*Açar sözlər*: Cənub-qərbi Azərbaycan general-qubernatorluğu, Himayəçilik nazirliyinin nümayəndəliyi, erməni silahlı dəstələri, müsəlman əhali, kütləvi qətliamlar.

***Giriş***. AXC yaradıldığı zamandan milli hökumətin üzləşdiyi başlıca problemlərdən biri müsəlman-türk əhalini erməni silahlı dəstələrinin basqınlarından qorumaq, doğma yurdlarından didərgin düşən qaçqınlara yardımlar göstərilməsini təşkil etmək idi. Gənc Azərbaycan hökumətinin bu istiqamətdə atdığı addımlar içərisində İrəvan quberniyasının azərbaycanlı əhali yaşayan bölgələrində, xüsusən də Naxçıvan, Şərur-Dərələyəz və Sürməli qəzalarında yerli hakimiyyət strukturlarının yaradılması önəmli yer tuturdu. Azərbaycanın bu cənub-qərb bölgələrində yaradılmış yerli hakimiyyət orqanlarının nümayəndələri, bölgənin nüfuzlu şəxsləri də Azərbaycan hökumətinə yeganə ümid yeri kimi baxır, müntəzəm şəkildə vəziyyət haqqında məlumat verir, yardım göstərilməsini, erməni qətl və qarətlərini durdurmaq üçün Antanta təmsilçilərini məlumatlandırmağı xahiş edirdilər. Nəşr edilmiş toplularda və Azərbaycan Respublikası Dövlət Arxivində bu haqda çoxlu sənəd və materiallar saxlanılmışdır. Təqdim olunan məqalədə bu qaynaqlar əsasında Cənub-qərbi Azərbaycan general-qubernatorluğu yaradılması, İrəvanda AXC Himayəçilik nazirliyinin nümayəndəliyinin təsis edilməsi, bu qurumların fəaliyyəti haqqında məlumat verilməsi nəzərdə tutulmuşdur.

AXC hökumətinin 1918-ci il avqustun 14-də Gəncədə keçirilən iclasında İrəvan quberniyasının Zod və digər azərbaycanlı əhali yaşayan kəndlərində vəziyyət müzakirə edilərkən ilk dəfə həmin bölgələrdə yerli hakimiyyət orqanları yaradılması məsələsi qaldırıldı. İclasda Nazirlər Şurasının sədrinin bu haqda məruzəsi əsasında qərara alındı ki, birinci növbədə Xarici işlər nazirliyi İrəvan quberniyasının Zod və digər azərbaycanlı əhali yaşayan kəndlərində ermənilərin zorakılıqları haqqında məlumat toplasın və bunun əsasında Ermənistan hökumətinə Azərbaycan hökuməti adından protest elan etsin. Həmin iclasda həmçinin Daxili işlər nazirinə tapşırıldı ki, İrəvan quberniyasının azərbaycanlı əhali yaşayan kəndlərinə Azərbaycan Respublikasının hakimiyyətini yaymaq üçün hərəkətə keçsin [1, siy.1, iş 25, v.78].

İrəvan quberniyasının müxtəlif bölgələrində baş verən qətliamlar, erməni vəhşilikləri nəticəsində qaçqın düşən azərbaycanlıların vəziyyəti haqqında məlumatları Azərbaycan Xalq Cümhuriyyəti hökumətinə və ictimaiyyətə çatdırmaq, qaçqınlara yardım göstərilməsi işini təşkil etmək üçün 1919-cu il yanvarın 5-də Bakıda İrəvan quberniyası Müsəlman Həmyerliləri İdarəsi yaradıldı. Əslən İrəvan quberniyasından olan və Bakıda yaşayan nüfuzlu şəxslərin səyi ilə yaradılmış bu təşkilatın ilk işi və əsas vəzifəsi Azərbaycan hökumətini və Qafqazda olan Müttəfiq (Antanta) hərbi qüvvələri komandanlığına İrəvan quberniyasında qaçqın düşmüş müsəlmanların ağır vəziyyəti haqqında məlumat vermək idi [1, siy.2, iş 94, v.2; 5, c.43].

İrəvan quberniyası Müsəlman Həmyerliləri İdarəsi üzvləri İrəvan quberniyasında müsəlmanların dözülməz vəziyyəti haqqında dəfələrlə mətbuatda çıxış etmiş, Azərbaycan Hökumətinə, Parlament üzvlərinə bu haqda məlumat vermişdilər. Bütün bu səylərin nəticəsi olaraq İrəvan quberniya-

sında müsəlmanların ağır vəziyyəti Azərbaycan Parlametində və hökumətin iclaslarında müntəzəm şəkildə müzakirə olunmuş, konkret addımlar atılmışdı.

İrəvan quberniyası Müsəlman Həmyerliləri İdarəsinin digər mühüm vəzifəsi Azərbaycan hökuməti ilə İrəvan quberniyasının müsəlmanlar yaşayan bölgələri, o cümlədən yerli azərbaycanlı əhalinin daha çox erməni silahlı dəstələrinin qətl və qarətlərinə məruz qaldığı Sürməli qəzası arasında əlaqə yaradılması olmuşdu. Bu məqsədlə təşkilatın nümayəndəsi Mir Abas Mir Bağırov Azərbaycan hökuməti tərəfindən İrəvan quberniyasına ezam edilmişdi. O da böyük çətinliklə İrandan keçməklə İrəvan quberniyasına getmiş, özü ilə apardığı 12 Azərbaycan zabitini oraya sağ-salamat çatdırmışdı [1, siy.2, iş 94, v.2]. Bu zabitlərə həmin yerlərdə yerli azərbaycanlı əhalinin müqavimətini təşkil etmək üçün böyük ehtiyac vardı. Bu, Azərbaycan hökuməti ilə İrəvan quberniyası müsəlman əhalisi arasında faktik əlaqələr qurulmasında çox mühüm bir addım olmuşdu.

Azərbaycan Respublikası hökuməti İrəvan quberniyasında yaşayan azərbaycanlı əhalinin hüquqlarını dövlət səviyyəsində müdafiə etmək, maddi yardımlar göstərilməsini nizama salmaq üçün 1919-cu il yanvar ayının sonunda İrəvanda Azərbaycan diplomatik nümayəndəliyini təsis etmişdi. Məhəmməd xan Təkinski Azərbaycanın Ermənistanda diplomatik nümayəndəsi təyin edilmişdi [6, 6 февраля 1919 г., № 27, с.2].

Azərbaycan hökumətinin 1919-cu il fevralın 26-da keçirilən iclasında İrəvan Müsəlman Milli Şurası sədri Ağa xan İrəvanskinin istəyi əsasında ona qaçqınlara paylamaq üçün 10 milyon pud ağ neft göndərilməsi qərara alınmışdı [6, 9 марта 1919 г., №52, с.2]. Bu qurum ağ nefti satıb qazandığı vəsaiti İrəvan quberniyasının azərbaycanlı əhalisinin ehtiyaclarına sərf etməli idi. Bundan əlavə, Himayəçilik nazirliyi Sürməli qəzasında olan, eləcə də İrəvan quberniyasının müxtəlif bölgələrindən Naxçıvana sığınmış qaçqınlara təcili yardım etmək üçün hərəkətə keçmişdi. 1919-cu il martın 17-də Ağa xan İrəvanskiyə vəsiqə vermişdi ki, Dövlət Bankının Tiflis kontorundan Himayəçilik Nazirliyinin hesabına keçirilmiş 349 860 manat nağd pulu götürsün [2, siy.1, iş 54, v.17]. Himayəçilik nazirliyi həmçinin 2 aprel 1919-cu il tarixdə doktor Əbdülhəmid Qənizadəyə hökumət mandatı vermişdi ki, Şərur-Dərələyəz və Naxçıvan qəzalarında olan qaçqınlara və anarxiyadan ziyan çəkmiş ailələrə maddi yardım göstərsin [2, siy.1, iş 54, v.23].

Azərbaycan hökuməti İrəvan quberniyasının azərbaycanlı əhali yaşayan bölgələrində, xüsusən də Naxçıvan, Şərur-Dərələyəz və Sürməli qəzalarında yerli müsəlman-türk əhalinin və digər bölgələrdən didərgin düşmüş qaçqınların təhlükəsizliyini qorumaq və asayişi təmin etmək, Ermənistan hökumətinin bu bölgələrdə silah gücünə möhkəmlənməsinə imkan verməmək, qaçqınlara yardım göstərilməsini təşkil etmək üçün önəmli təşkilati addımlar atmışdı. Bunlardan çox mühümü 1919-cu il fevralın 28-də Cənub-qərbi Azərbaycan general-qubernatorluğu yaradılması oldu. Bəhram xan Naxçıvanski general-qubernator vəzifəsinə, Kərim xan İrəvanski onun hərbi işlər üzrə müavini, Hacı Mehdi Bağırov da mülki işlər üzrə müavini təyin edildi. General-qubernatorluğun nəzdində 7 nəfərdən ibarət Şura fəaliyyət göstərməli idi. Bu Şuranın tərkibinə Naxçıvan qəzasının 2, Şərur-Dərələyəz qəzasının 2, Sürməli qəzasının 1, Ordubad şəhərinin 1, İrəvan qəzasının 1 nümayəndəsinin daxil edilməsi nəzərdə tutulurdu [7, с.282-283].

General-qubernatorluğun işinin təşkili və yerli hakimiyyət orqanlarının yaradılması üçün 500 min manat ayrıldı. Bundan əlavə, Cənub-qərbi Azərbaycanda qaçqınlara dərhal yardım göstərilməsi üçün general-qubernatorun sərəncamına 850 min manat, Ermənistandakı Azərbaycan diplomatik nümayəndəsinin sərəncamına 150 min manat verilməsi qərara alındı [7, с.283].

Lakin bu şəxslərin vəzifələrinin icrasına başlamamaları hökuməti 2 həftə sonra yenidən bu məsələyə qayıtmağa vadar etdi. Hökumətin 16 mart 1919-cu il tarixli qərarı ilə o zamana qədər Zaqatala general-qubernatoru vəzifəsində çalışmış general-mayor Həşimbəyov Cənub-qərbi Azərbaycan general-qubernatoru təyin edildi. B.Naxçıvanski öz ərizəsi ilə bu vəzifədən azad edildi və general-qubernatorun mülki işlər üzrə müavini təyin edildi. Daha öncə Cənub-qərbi Azərbaycan general-qubernatorunun mülki işlər üzrə müavini təyin edilmiş Hacı Mehdi Bağırov vəzifəsindən azad edildi [1, siy.1, iş 22, v.64,67].

Bu şəxslər də vəzifələrinin icrasına vaxtında başlamadılar. General Həşimbəyov martın 18-də Bakıdan Zaqatalaya dönmüş və Zaqatala general-qubernatoru vəzifəsinin icrasını davam etdirmişdi. Bu, general Həşimbəyovun 9 aprel 1919-cu ildə Azərbaycan Daxili işlər nazirinə məxfi raportundan

[1, siy.2, iş 88, v.7-10] aydın olur. Ona görə Azərbaycan hökuməti martın 26-da keçirilən iclasında İrəvan quberniyasında azərbaycanlı əhalinin ümumi vəziyyətini yerində öyrənmək və hökumətə məruzə etmək üçün həmin regiona nümayəndə heyəti göndərməyi qərara aldı. Nümayəndə heyətinə T.b.Makinski (sədr), Q.b.Qənizadə (üzv), R.b.İsmayılov (üzv) daxil edildilər [1, siy.1, iş 22, v.73; iş 39, v.112-113]. Cənub-qərbi Azərbaycana pul göndərilməsi, eləcə də göndərilən nümayəndə heyətinin maliyyə vəsaiti ilə təmin edilməsi və yola salınması Daxili işlər nazirinə həvalə edildi. Hökumətin həmin iclasında Kərim xan İrəvanskinin Cənub-qərbi Azərbaycan general-qubernatorunun hərbi işlər üzrə müavini təyin edilməsi haqqında 28 fevral 1919-cu il tarixli qərarı ləğv edildi. General-qubernatora həvalə edildi ki, vəzifəsinin icrasına başladıqda hərbi işlər üzrə müavin vəzifəsinə müvafiq namizədi oradan təqdim etsin [1, siy.1, iş 22, v.73].

Hökumət həmçinin Cənub-qərbi Azərbaycandan – İrəvan quberniyasının azərbaycanlı əhalisi adından Bakıya gəlmiş və oradakı vəziyyət haqqında məlumat gətirmiş nümayəndələr: Məhərrəm Əliyev, Hüseyn Cavid, Bağır Rzayev və Əli Əşrəf bəy Kazımbəyovun öz yerlərinə geri dönmələri üçün hər birinə 2 min manat məbləğində olmaqla yol xərci ödənilməsinə sərəncam verdi [7, c.283].

Hökumətin martın 31-də keçirilən iclasında Cənub-qərbi Azərbaycan general-qubernatorluğunun normal işə başlamasını sürətləndirmək üçün yeni addım atıldı. General Həşimbəyov hələ də Zaqatala general-qubernatoru vəzifəsinin icrasını davam etdirdiyi üçün, həmin iclasda Kəlbəli xan Naxçıvanski Cənub-qərbi Azərbaycan general-qubernatorunun hərbi işlər üzrə müavini təyin edildi [1, siy.1, iş 22, v.73, 80].

Lakin bu yeni təyinatlar da ümidləri doğrultmadı. AXC hökuməti daha sonra Cənub-qərbi Azərbaycan general-qubernatorunun mülki işlər üzrə müavini vəzifəsinə daha öncə İrəvan quberniyasına ezam etdiyi Ədliyyə nazirinin müavini Teymur bəy Makinskini təyin etdi. T.Makinski bu vəzifəsinin icrasına başlamaq məqsədi ilə Tiflisdən qatarla Naxçıvana getmək üçün yola çıxarkən qarət edildi. Azərbaycan hökumətinin 1919-cu il iyunun 16-da keçirilən iclasında Daxili işlər naziri bu məsələ üzrə məlumat verdi. Hökumət T.Makinskiyə dəyən zərərin ödənilməsi üçün 4 min manat ödənməsinə qərar verdi [1, siy.1, iş 23, v.55].

1919-cu il avqustun 5-də Daxili işlər naziri vəzifəsini icra edən general-mayor Ağabəyovun Nazirlər Şurası sədri N.Yusifbəyova ünvanladığı raportda məlumat verilmişdi ki, siyasi vəziyyətlə əlaqədar general-mayor Həşimbəyov vəzifəsinin icrasına başlaya bilməmişdir və hazırda Mərkəzi Hərbi İdarə nəzdində yaradılmış Xüsusi Müşavirəyə rəhbərlik edir. Ona görə də hökumətin qərarı ilə Həşimbəyov Cənub-qərbi Azərbaycan general-qubernatoru vəzifəsindən rəsmən azad edilmiş və Daxili işlər nazirliyinin sərəncamına göndərilmişdi [1, siy.2, iş 102, v.1-2]. Hökumətin digər qərarı ilə Səməd bəy Cəmillinski Cənub-qərbi Azərbaycan general-qubernatoru vəzifəsini müvəqqəti icra edən təyin edilmişdi [5, c.64]. Yalnız bundan sonra bu qurumun fəaliyyəti müəyyən qədər nizama düşmüşdü.

1919-cu ilin yayında Ermənistan hökumətinə aid hərbi qüvvələrin Sürməli qəzasında və ona qonşu bölgələrdə azərbaycanlılara məxsus yaşayış məntəqələrini dağıtması nəticəsində regionda qaçqınların sayı kəskin şəkildə artdı. Bununla əlaqədar Ermənistandakı müsəlman qaçqınların vəziyyətindən xəbərdar olmaq və onlara zəruri yardımlar göstərilməsini təşkil etmək üçün 1919-cu il iyunun 2-də Azərbaycan hökuməti İrəvanda Himayəçilik nazirinin müvəkkili vəzifəsini təsis etdi [7, c.323]. Qərarda xüsusi qeyd edilmişdi ki, bu vəzifənin təsis edilməsinə erməni hökuməti razılıq verməsə, həmin vəzifə üzrə səlahiyyətlər də Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsinə həvalə olunmalı idi.

Himayəçilik nazirliyi öz nümayəndəsini Ermənistana göndərmək üçün dərhal hərəkətə keçdi. Qaçqınların vəziyyəti ilə yerində tanış olmaq, münasib yardım göstərilməsini təşkil etmək üçün Himayəçilik nazirinin 3 iyul 1919-cu il tarixli əmri ilə Nəsrulla Şeyxov Nazirliyin Ermənistanda müvəkkili təyin edildi. N.Şeyxov vaxtında İrəvana yola düşmədiyi üçün, Himayəçilik nazirinin növbəti əmri ilə Zülfüqar bəy Makinski 1919-cu il iyulun 7-dən etibarən bu vəzifənin icrasına başladı. AXC Himayəçilik nazirliyinin 12 iyul 1919-cu il tarixli qərarı ilə nazirliyin Ermənistanda müvəkkili vəzifəsinə Ermənistan hökumətinin razılığı ilə Zülfüqar bəy Makinski rəsmən təyin edilmişdi [2, siy.1, iş 16, v.48, 82; 6, 1 августа 1919 г., №161, c.1]. Həmin il avqustun 11-də mühəndis Mahmud bəy

Mahmudbəyov da Nazirliyin Ermənistanda səlahiyyətli nümayəndəsi kimi fəaliyyətə başladı [2, siy.1, iş 16, v.61].

Qeyd etmək lazımdır ki, bir sıra tədqiqatçılar 1919-cu ilin yayında və payızında Azərbaycan Respublikası Himayəçilik nazirliyinin Ermənistan Respublikasında müvəkkili vəzifəsində yanlışlıqla Teymur bəy Makinskinin çalışdığını qeyd etmişlər [4, s.102-103; 5, c.69 ]. Lakin T.Makinski Azərbaycan hökumətinin 7 iyul 1919-cu il tarixli qərarı ilə Ədliyyə nazirinin müavini vəzifəsindən öz istəyi əsas götürülərək Azərbaycan Hərbi Məhkəməsinin sədri vəzifəsinə keçirilmişdi [7, c.335]. Azərbaycan Respublikası Himayəçilik nazirliyinin Ermənistan Respublikasında müvəkkili vəzifəsini 1919-cu il iyul ayının 8-dən Zülfüqar bəy Makinski icra edirdi [2, siy.1, iş 16, v.82; 377, c.338; 6, 25 декабря 1919 г., №279, c.2].

Azərbaycan hökumətinin təmsilçiləri Ermənistan Respublikasının ordu hissələrinin dinc azərbaycanlı əhaliyə qarşı kütləvi qətl və qarətləri faktlarının araşdırılması üçün təcili hərəkətə keçdilər. İrəvan quberniyasında, o cümlədən Sürməli qəzasında dinc əhali arasında itkiləri, əmlakın talan edilməsi faktlarını müəyyənləşdirmək və sənədləşdirmək üçün addımlar atıldı. Xarici işlər naziri vəzifəsini icra edən Adil xan Ziyadxanov Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi M.Təkinskiyə 1919-cu il iyunun 4-də xüsusi tapşırıq verdi ki, ermənilərin azərbaycanlı əhali üzərində zorakılıqları haqqında materiallar toplasın [8, c.250-251; 5, c.58-59].

AXC Daxili işlər nazirliyinin 894 saylı fondunda saxlanılan sənədlərdən bəlli olur ki, 1919-cu ilin yayında və payızında Cənub-qərbi Azərbaycan general-qubernatorluğu yerli azərbaycanlı əhalinin təhlükəsizliyini qorumaq üçün xeyli iş görmüşdü. Azərbaycan hökuməti 1919-cu il oktyabrın 22-də keçirilən iclasında Cənub-qərbi Azərbaycanda, o cümlədən Sürməli qəzasında müsəlman-türk qaçqınlara yardım işini təşkil etməyə göndərilmiş hökumət komissiyasının işini müzakirə etdi. Komissiyanın üzvü, Cənub-qərbi Azərbaycan general-qubernatorunun müavini doktor Əbdülhəmid Qənizadəyə göstərdiyi xidmətə görə 10 min manat mükafat verildi [7, c.376]. Həmçinin Dövlət Müdafiə Komitəsi doktor Ə.Qənizadənin raportları əsasında 1919-cu il noyabrın 5-də 75 min manat vəsait ayırdı. Bu vəsait erməni hücumlarının qarşısını almaq üçün müxtəlif xərclərə yönəldilməli idi [1, siy.1, iş 31, v. 37].

Azərbaycan hökuməti İrəvan quberniyasında, o cümlədən Sürməli qəzasında yaşayan müsəlman əhalinin təhlükəsiz yaşamasını təmin etmək üçün, Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzalarının Azərbaycan ərazisi kimi qəbul edilməsinə çalışırdı. Hökumətin tapşırığı ilə Parisdə sülh konfransında Azərbaycanı təmsil edən nümayəndəliyin başçısı 1919-cu il avqustun 16-da Paris sülh konfransı sədrinə məktubla müraciət etdi. Yuxarıda adları çəkilən bölgələrin Azərbaycan ərazisi olduğunu, əhalisinin çoxunu azərbaycanlılar təşkil etdiyini: Naxçıvan qəzasında 62,5 faiz, Şərur-Dərələyəz qəzasında 72,3 faiz, Sürməli qəzalarında 68 faiz olduğunu bildirdi. Müraciətdə bu bölgələrin müsəlman əhalisinin doğma Azərbaycan hakimiyyətində yaşamaq üçün müraciət etdikləri, Ermənistan hakimiyyətini qəbul etmədikləri qeyd edilirdi [3, siy. 1, iş. 142, v.56-63].

1919-cu ilin payızında Ermənistan Respublikasından olan müsəlman qaçqınların sayı, Himayəçilik nazirliyinin Cənub-qərbi Azərbaycana ezam etdiyi müvəkkili Z.Makinski və doktor Ə.Qənizadənin məruzələri əsasında hökumətə təqdim etdiyi arayışa görə 150 min nəfərə qədər idi. Onların da yarıya qədəri Azərbaycana sığınmış, 25 mini İrəvan, 25 mini Eçmiədzin qəzalarında, 15 mini Sürməli qəzasının Ermənistan hökumətinə tabe olan hissəsində, 13 minə qədəri İrəvan şəhərində qalmışdılar. İrəvan quberniyasında qalmış qaçqınlardan 50 mini daha ağır vəziyyətdə idi [1, siy.10, iş 30, v.4,6]. Azərbaycan hökuməti 1919-cu il oktyabrın 15-də Himayəçilik nazirinin sərəncamına təcili olaraq 2 milyon manat ayırdı ki, qaçqınlara yardım üçün xərcləsin [7, c.370, 382].

Azərbaycan parlamentinin 1920-ci il yanvarın 8-də qəbul etdiyi qanuna görə qaçqınlara yardım üçün daha 21 milyon manat vəsait ayrıldı. Dövlət xəzinəsindən Himayəçilik nazirliyinin hesabına köçürülən bu vəsait respublikanın müxtəlif bölgələrinə səpələnmiş qaçqınların ehtiyaclarını qarşılamağa və onların yaratdıqları təsərrüfatları toxumla təmin etməyə xərclənməli idi [7, c.139].

Azərbaycan hökuməti İrəvan quberniyasında, o cümlədən Sürməli qəzasında öz doğma yurdunda qalmış və Ermənistan hökumətinin silahlı dəstələrinə qarşı partizan mübarizəsi aparan azərbaycanlı əhaliyə də bütün mümkün vasitələrlə yardım edirdi. Azərbaycan Respublikası Dövlət Müdafiə Komitəsinin 1920-ci il yanvarın 21-də keçirilən iclasının qərarı ilə Daxili İşlər Nazirinə məxfi

ehtiyaclar üçün 5 milyon manat vəsait [1, siy.1, iş 28, v.5], 27 mart 1920-ci il tarixli qərarı ilə də partizan mübarizəsi aparan dəstələrə ərzaq yardımı üçün 5025 min manat vəsait ayrılmışdı [1, siy.1, iş 28, v.24].

AXC hökuməti mövcud olduğu son günə qədər Cənub-qərbi Qafqazın, o cümlədən Sürməli (İqdır) bölgəsinin azərbaycanlı əhalisinin hüquqlarını qorumağa çalışırdı. Xarici işlər naziri F.Xoyski Qafqazdakı Müttəfiq nümayəndəliklərinə ünvanladığı 8 aprel 1920-ci il tarixli notasında Qars vilayətində erməni zorakılıqlarını araşdırmaq üçün hadisə yerinə müttəfiqlərin komissiyasının göndərilməsini yenidən xahiş etmişdi [8, c.580-581; ARDA, 1, siy.10, iş 30, v.19]. Lakin bu müraciət də nəticəsiz qaldı.

***Nəticə***. Bütün bu faktlar aydın şəkildə göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti və Parlamenti öz fəaliyyətində İrəvan quberniyasından, o cümlədən Sürməli (İqdır) bölgəsindən olan azərbaycanlı qaçqınlara bütün mümkün vasitələrlə yardım etmişdi. Bu yardımlara həm siyasi-diplomatik vasitələrlə İrəvan quberniyasında yaşayan azərbaycanlı əhalinin hüquqlarını müdafiə etmək, Sürməli, Naxçıvan və digər bölgələrdə AXC-nin yerli hakimiyyət orqanlarını yaratmaq, həm də qaçqınların mövcud ağır vəziyyətini qismən də olsa yüngülləşdirmək üçün pul, ərzaq, paltar, dərman və digər gündəlik tələbat malları göndərmək aid idi.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Arxivinin 894 saylı – AXC Daxili işlər nazirliyinin fondu.
2. Azərbaycan Respublikası Dövlət Arxivinin 8 saylı – Azərbaycan Respublikası Himayəçilik nazirliyinin fondu.
3. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici işlər nazirliyinin fondu.
4. Mustafa N. İrəvan quberniyasında Azərbaycanlıların soyqırımı (1918-1920). Bakı: Elm, 2017, 328s.
5. Нифталиев И.В. Геноцид Азербайджанцев в Иреванской губернии (1918-1920). Баку: «Элм», 2017, 188 s.
6. «Азербайджан», 1918-1920 гг.
7. Азербайджанская Демократическая Республика (1918-1920). Законадательные акты (сборник документов) / – Баку: Изд-во «Азербайджан», – 1998. – 560 с.
8. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Баку: Изд-во «Азербайджан», 1998, 632 с.

**КЕНУЛЬ АЛИЕВА**
*Диссертант Национальной Академии Наук Азербайджана*

## МЕРЫ ПО СОЗДАНИЮ ОРГАНОВ МЕСТНОГО УПРАВЛЕНИЯ В СУРМАЛИНСКОМ УЕЗДЕ И В ДРУГИХ РЕГИОНАХ ИРЕВАНСКОЙ ГУБЕРНИИ

После образования Республики Армения против азербайджанского населения Сурмалинского уезда и других регионов Иреванской губернии на государственном уровне была начата политика этнической чистки, увеличились масштабы убийств и грабежей армянских частей регулярной армии. Среди мер, предпринятых правительством АДР для предотвращения этого, большое значение имели усилия по созданию структуры местного управления в Сурмалинском уезде и других регионах, населенных азербайджанским населением. Учреждение генерал-губернаторства Юго-западного Азербайджана имело большое значение как для защиты мирного населения на государственном уровне, так и для оказания разнообразной помощи людям, перемещенным с родных земель.

*Ключевые слова*: генерал-губернаторство Юго-западного Азербайджана, Представительство Министерства опеки и попечительства, армянские вооруженные формирования, мусульманское население, массовые убийства.

**KONUL ALIYEVA**
*Dissertation student of the National Academy of Sciences of Azerbaijan*

## MEASURES FOR THE ESTABLISHMENT OF LOCAL GOVERNMENT IN SURMALI DISTRICT AND IN OTHER REGIONS OF IREVAN PROVINCE

After the formation of the Republic of Armenia, a policy of ethnic cleansing was launched at the state level against the Azerbaijani population of the Surmali district and other regions of the Irevan province, the scale of murders and robberies of the Armenian units of the regular army increased. Among the measures taken by the ADR government to prevent this, efforts to create a local government structure in the Surmali district and other regions inhabited by the Azerbaijani population were of great importance. The establishment of the General Government of Southwestern Azerbaijan was of great importance both for the protection of the civilian population at the state level and for providing various assistance to people displaced from their native lands.

*Keywords*: Governor General of Southwestern Azerbaijan, Representation of the Ministry of Guardianship and Guardianship, Armenian armed formations, Muslim population, massacres.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. İbrahim Zeynalov.*

**UOT94(479.24); UOT 327(091)**

**XƏYALƏ AĞAYEVA**
*A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı,*
*ADU, Regionşünaslıq kafedrasının müəllimi*
**khayalayahyayeva@yahoo.fr**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİ PARİS (VERSAL) SÜLH KONFRANSINDA TƏMSİL EDƏN NÜMAYƏDƏ HEYƏTİNİN TƏŞKİLİ

*Şərq dünyası tarixində demokratik idarə üsuluna malik ilk respublika hesab edilən Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən parlaq səhifələrindən biri də Paris (Versal) Sülh konfransında fəaliyyəti idi.Qeyd edək ki, son illər AXC Nümayəndə heyətinin sülh konfransında fəaliyyəti hərtərəfli elmi araşdırılmaya cəlb edilib, məsələ ilə bağlı arxiv sənədləri Fransa, İngiltərə kimi dövlətlərin rəsmi arxivlərindən çıxarılaraq toplu şəklinə salınmış və bu proses bu gün də davam etməkdədir. Ancaq bütün bunlarla yanaşı, heyət üzvlərinin həyat və fəaliyyətlərinin bəzi tərəfləri hələ də müfəssəl şəkildə öyrənilməmişdir. Niyə məhz bu şəxslərin hökumət tərəfindən formalaşdırılmış heyətə daxil edilməsi, ümumiyyətlə onların şəxsi keyfiyyətlərinin və ictimai-siyasi fəaliyyət təcrübələrinin nümayəndə heyətinin fəaliyyətinə nə dərəcədə təsir etməsiməsələsi də maraq doğuran məqamlardan biridir.*

*Açar sözlər*: Azərbaycan Xalq Cümhuriyyəti, Paris(Versal) Sülh konfransı, nümayəndə heyəti.

***Giriş***. Bir xalqın və ya ölkənin siyasi-ictimai vəziyyətiniöyrənmənin ən məhsuldar yollarından biri də o xalqa rəhbərlik edən insanların fəaliyyətini araşdırmaqdır. Çünki, məhz bu insanlar bir tərəfdən mənsub olduqları toplumun özünəməxsus xüsusiyyətlərini daşımaqla bərabər, digər tərəfdən də meydana çıxan tarixi hadisələrdə mərkəzi və istiqamətverici mövqe tuturlar. Bu baxımdan, Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh konfransına göndərdikləri nümayəndə heyətinə daxil olan şəxslərin fəaliyyətlərinin araşdırılması əsas məsələlərdən biri kimi nəzərdən keçirilməlidir.

Azərbaycanlı diplomatlar Avropaya getməli vəburada çətinliklə əldə etdikləri istiqlaliyyatı nəyin bahasına olursa olsun qoruyub saxlamalı idilər. Ancaq, Avropanın AXC-yə münasibəti birmənalı deyildi. Belə ki, Azərbaycan müstəqillik əldə etdiyi ilk vaxtlarda Osmanlı dövlətini ən yaxın tərəfdaş qismində görür və onun hərtərəfli köməyinə böyük ümid bəsləyirdi. Lakin, müharibədə qazanılan məğlubiyyət beynəlxalq şəraiti köklü surətdə dəyişdirməklə bərabər, AXC hökumətindən xarici siyasətində yeni beynəlxalq münasibətlərə uyğun dəyişikliklər etməyi tələb edirdi. Qərbin aparıcı gücləri isə AXC-nin Türkiyə ilə mövcud olan tarixi əlaqələrini heç zaman unutmur və bunu Azərbaycana olan münasibətlərinə də birbaşa və ya dolayı yolla əxz etdiridilər. Bu baxımdan Sülh nümayəndə heyətinin üzvlərinin işi bir az da mürəkkəbləşirdi.

***Paris (Versal)sülh konfransında iştirak edəcək heyətin formalaşdırılması***. II Dünya Müharibəsinin nəticələrini müzakirə etmək üçün beynəlxalq sülh konfransına ciddi hazırlıqlar gedirdi. Bu sülh konfransının qarşısında bir sıra mühüm məsələləri həll etmək kimi əhəmiyyətli vəzifə dururdu. Belə ki, sülh konfransı müharibədən sonrakı vəziyyəti nizamlamalı, mübahisəli məsələləri həll etməli və qalib dövlətlər öz qələbələrini rəsmiləşdirməli idi.

Dağılmış Rusiya imperiyasının yerində meydana gəlmiş milli respublikalar, eləcə də gənc Azərbaycan Xalq Cümhuriyyəti18 yanvar 1919-cu ildən 1920-ci il yanvarın 21-dək, Parisdəki Versal sarayında fasilələrlə keçiriləcək sülh konfransına böyük ümidlə baxırdılar. Çünki iştirak etmək səlahiyyəti əldə etmiş hər bir dövlətin konfransdan gözləntiləri var idi.

Azərbaycanın hökumət üzvləri, hələ 1918-ci ilin noyabr ayında Ənzəlidə müttəfiq qoşunlarının baş komandanı, general V.Tomsonla aparılan danışıqların gedişi zamanı sülh konfransının işində iştirak etmək razılığını almışdılar. Qeyd edək ki, dövlətimizkonfransda Azərbaycana aid məsələlərin müzakirəsində birinci kateqoriyaya daxil olan böyük dövlətlərdən (İngiltərə, ABŞ, Fransa, İtaliya, Yaponiya) birinin dəvəti ilə iştirak edə bilərdi. Burdan belə qənaətə gəlmək olar ki, AXC sülh toplantısına dəvətli olanların dördüncü kateqoriyasına aid idi.

Daha sonra isə Böyük Britaniya hökumətinin rəsmi nümayəndəsi general Corc Miln dəfələrlə qeyd etmişdir ki, Azərbaycan Respublikası Paris sülh konfransında iştirak edəcəkdir. Həm Tomson,

həm də Miln Antantanın Azərbaycanda rəsmi nümayəndələri idilər və ona görə də onların bəyanatına konfrasa rəsmi dəvət olunmaları kimi də baxmaq olar [8, s.185].

1918-ci il dekabrın 28-də Parlament ağsaqqallar Şurasının iştirakı ilə Paris sülh konfransında iştirak etmək üçün Azərbaycan nümayəndələrinin seçilməsi haqqında qərar qəbul etdi. Parlament qərarına uyğun olaraq1919-ci ildə açılacaq Versal (Paris) sülh konfransında iştirak etmək üçün nümayəndə heyəti ayrıldı. Azərbaycan parlamentinin sədri, bitərəf Əlimərdan bəy Topçubaşovun (1862-1934)rəhbərliyi altında konfransa gedən heyətin tərkibinə bitərəfƏhmədbəy Ağayev (1869-1939), dövlət müfəttişi və "Müsavat" partiyası MK-nın üzvüMəmməd Həsən Hacınski (1875-1931), parlamentin və "Hümmət" (menşevik) partiyasının üzvü Əkbərağa Şeyxülislamov (1891-1961), parlamentin və "İttihad" partiyasının üzvü Mir Yaqub Mirmehdiyev (1891-1951), parlamentin və sosialist fraksiyasının üzvü Məmməd Məhərrəmov (1900-1982) və "Azərbaycan" (rus dilində) qəzetinin redaktoru və "İttihad" partiyasının üzvü Ceyhunbəy Hacıbəyli (1891-1962) daxil idilər. Texniki işçiləri isənümayəndəliközü seçməli idi. 1919-cu il yanvarın 7-də Azərbaycan Respublikası Nazirlər Şurasının sədri Fətəlixan Xoyskinin (1875-1920) və daxili işlər nazirinin müavini Ədilxan Ziyadxanovun imzaları ilə nümayəndə heyətinə Parisə yola düşmək üçün vəsiqə (mandatlıq) verildi [2, s.51]. Bu etimadnamədə göstərilirdi ki, beynəlxalq sülh konfransında iştirak etməklə yanaşı, bu heyət müxtəlif dövlətlər və millətlərlə Azərbaycan adından hər cür siyasi, iqtisadi və maaliyə xarakterli müqavilələr imzalamaq səlahiyyətinə malikdir.

***Nümayəndə heyətinin tərkibi*.** Təsadüfi üzvlərin daxil edilmədiyi nümayəndə heyətinin tərkibi formalaşdırılarkən hökumət bir sıra xüsusiyyətləri nəzərə almışdı. Bütün üzvlərin qazandıqları biliklər, ictimai-siyasi fəaliyyətləri, dövlətçilik mövqeləri yuxarıda irəli sürdüyümüz fikri bir daha təsdiq edir. Bundan əlavə, Birinci dünya müharibəsindən sonra Avropada gedən demokratikləşmə prosesi tələb edirdi ki, Azərbaycan Parisə daha müasir düşüncəli, demokratiya və plüryalizm prinsiplərini dərindən anlayan, respublika idarə quruluşunun mahiyyətini dərk edən, mükəmməl biliyə və qərb təhsilinə malik diplomatları göndərsin.

Ə.Topçubaşov bu barədə Bakıya-Cümhuriyyət hökumətinin sədrinə ünvanladığı 1919-cu il 6-10 noyabr tarixli məktubunda yazırdı: "Nümayəndə heyəti ayrı-ayrı şəxslərdən təşkil olunsa da, özünün indiyə qədərki fəaliyyətində bütünlüklə partiya maraqlarına deyil, Azərbaycan mənafelərini əsas tutan ümumi mülahizələrə əsaslandığını bildirməyi borc sayıram. Məncə, bu, nümayəndə heyətimiz üçün müsbət haldır və onun üzvlərinə şərəf gətirir" [4, s.105-106].

AXC hökumətinin Paris Sülh konfransına göndərdiyi nümayəndə heyətinin tərkibinə daxil edilən şəxslərin hər birini ayrı-ayrılıqda araşdırdıqda məlum olur ki, onlar hökumətin həvalə etdiyi vəzifənin əhəmiyyətini və məsuliyyətini dərindən anlayır və Azərbaycan xalqının ümdə arzularına yetişməsinin bu tapşırığın uğurlu həllindən asılı olduğunu başa düşürdülər.

Nümayəndə heyətinə rəhbərlik missiyası Ə.Topçubaşovun üzərinə düşmüşdü. Rusiyanın imperiya administratiyası içərisində öz xalqının hüquqlarını qızğın müdafiə edən, XX əsrin əvvəllərində Azərbaycanın aparıcı siyasətçilərindən və dövlət xadimlərindən biri hesab edilənƏ.Topçubaşov Tiflisdə anadan olmuşdur. Sankt-Peterburq Universitetinin hüquq fakültəsinin məzunu olan bu şəxsiyyətin qismətinə yenicə yaranan Azərbaycan dövlətçiliyinin kövrək dayaqlarının möhkəmləndirilməsinə beynəlxalq təminatların əldə olunması tarixi missiyası düşmüşdü.

Birinci Rus İnqilabından sonrakı illərdə Topçubaşov Azərbaycan xalqının kimliyi məsələsini qaldırmışdı. O öz xalqının maraq və hüquqlarını fəaliyyətinin müxtəlif sahələrində təbliğ edirdi. Eyni zamanda o, həm də Ümumrusiya Müsəlman Hərəkatının üzvü idi. O bu təşkilatın konfranslarının, proqram və bəyannamələrinin hazırlanmasında həlledici rol oynamış və çox vaxt da hərəkata başçılıq etmişdi.

AXC yaradıldıqdan sonra, yeni yaranmış dövlətin beynəlxalq arenada tanıdılması uğrunda əvəzsiz xidmətlər göstərmiş şəxslərdən biri və bəlkə də elə birincisi Ə.Topçubaşov olmuşdur. Gəncədə təşkil edilmiş ikinci hökumət kabineti tərkibində əvvəlcə portfelsiz nazir, avqustun 20-də xarici işlər naziri təyin edilmiş, avqustun 23-də isə AXC-nin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbula göndərilmişdir [7, s.3].

Ə.Topçubaşovun siyasi təcrübəsi ona regionda baş verən problemlərin həlli yollarını görməyə imkan verirdi. Məhz buna görə də, hələ İstanbulda olarkən Paris Sülh konfransında etimad qazanmaq

üçün Cənubi Qafqaz dövlətlərini birgə fəaliyyət göstərməyə çağırırdı. Xalqların arasındakı münasibətləri daha yaxşı qura və kənar müdaxilələrin qarşısını birlikdə daha uğurla ala biləcəyini hesab edən Topçubaşov Qafqaz millətlərinin vahid bir federasiyada birləşməsini istəyirdi. Hətta F.Xoyskiyə 1918-ci il 16 dekabr tarixində yazdığı məktubunda Paris Sülh konfransına Cənubi Qafqaz dövlətlərinin vahid nümayəndə heyəti göndərməsi təklifini irəli sürürdü [4, s.27]. Lakin, ermənilərin məkrli siyasətləri hər zaman olduğu kimi, bu planın da həyata keçirilməsinə maneçilik törətdi.

Beləliklə, tərəf müqabilini dinləmək, qəbul etdiyi qərarların üstündə durmaq və güclü idarəetmə bacarığına malik olan istedadlı diplomat Ə.Topçubaşovun nümayəndə heyətinə rəhbər təyin edilməsi çox uğurlu bir qərar idi.

Sülh nümayəndə heyətinin digər üzvü, Azərbaycan tarixində yeni düşüncə istiqamətlərinin meydana gəlməsində və inkişafında müstəsna rolu olmuş, türk düşüncə və siyasi həyatında öndərlərdən biri hesab olunan Əhməd Ağaoğlu idi. Ə.Ağaoğlu 1869-cu ildə Şuşa şəhərində, ziyalı ailəsində dünyaya göz açmışdır.

AXC-ni Parisdə, Versal sülh konfransında təmsil etmək üçün müəyyənləşdirilmiş nümayəndə heyətinə onun da daxil edilməsi təsadüfi deyildi.Onun fransız dilini mükəmməl bilməsi bunun üçün ilkin səbəblərdən biri hesab edilə bilər. 1888-ci ildə Parisə təhsil almağa yollanan Ağaoğlu Azərbaycanlı türklər arasında Avropaya təhsil almağa gedən ilk gənc kimi tarixə düşür [1, s.103].

Hələ Parisdə olarkən Ağaoğlu "La nouvelle Revue" adlı aylıq dərgidə Şərq xalqlarının həyatlarından bəhs edən məqalələr dərc etdirmişdi [6, s.18]. Sözsüz ki, zəngin ədəbi-publisistik fəaliyyəti də onun heyətdəki çəkisini artırırdı.Bakıya qayıtdıqdan sonra (1894-cü il) Ə.Topçubaşovun redaktorluğu dövründə "Kaspi" qəzeti ilə daha sıx əməkdaşlıq etmiş, hətta bir müddət ədəbi şöbənin müdiri vəzifəsində çalışmışdı. Beləliklə, məharətli natiq və publisist olması, baş verən hadisələri düzgün şərh etmək qabiliyyətiAğaoğluya Bakı ictimaiyyətinin hörmət və rəğbətini qazandırmışdı.

"Difai" təşkilatının rəhbəri kimigöstərdiyi siyasi fəaliyyəti, eləcə də, 1918-ci ildə Xalq Cümhuriyyəti qurulduqdan sonra, Ə.Ağaoğlunun Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri qismində ölkəyə qayıtması, daha sonra Parlamentə üzv seçilməsi kimi amillər də hökumətin bu qərarına təsir göstərmişdir. Beləliklə, bütün bu xüsusiyyətlər nəzərə alınaraq Əhməd bəy Ağaoğlu hökumətin Paris Sülh konfransına göndərdiyi nümayəndə heyətinə daxil edilir.

Qeyd etmək lazımdır ki, Ə.Ağaoğlunun "Difai" təşkilatındakı ictimai-siyasi fəaliyyəti erməni siyasi qüvvələrini qıcıqlandırmışdı. Azərbaycan nümayəndə heyəti İstanbula gələndən bir müddət sonra, Ə.Ağayeva qarşı hücumlar başlandı. Onun Antanta əleyhinə bütün ifadələrini üzə çıxararaq arzuolunmaz şəxs kimi təqdim etməyə çalışırdılar. Maraqlıdır ki, bu hücumlara fransızdilli yerli mətbuat da qoşulmuşdu. "İttihad və tərəqqi" partiyasının bütün səhvlərini onun üstünə yıxmağa çalışan erməni "Renaissence" qəzeti xüsusi canfəşanlığı ilə seçilirdi [6, s.28].

Azərbaycan vətəndaşı, Sülh Konfransının nümayəndəsi, diplomatik pasport sahibi və səhhətində problemlər olmasına baxmayaraq həbs olunan Ə.Ağaoğlu martın 25-də Bekirağa Bölüyünə salınmış və sonradan Malta adasına sürgünə göndərilmişdir [7, s.12].

Rəhbər təyin edilmiş Topçubaşov İstanbulda olduğundan, İstanbula çatanadək Azərbaycan nümayəndə heyətinin sədri vəzifəsiheyətin digər üzvü Məhəmmədhəsən Cəfərqulu oğlu Hacınskiyə həvalə edilmişdi. 1875-ci ildə Bakıda doğulan M.H.Hacınski zəngin həyat yolu keçmiş, doğma Azərbaycanın ictimai-siyasi həyatında və dövlət işində olduqca fəal iştirak etmişdir. O, əvvəllər Hümmət Sosial Demokrat təşkilatına qoşulmuş, sonra isə Müsavat partiyasının ilk üzvlərindən biri olmuşdur. 1917-ci ildən etibarən Cənubi Qafqaz və Azərbaycan hökumətlərində nazir vəzifələrində çalışmışdır [3, s.442].

Trabzon və Batum konfranslarında Osmanlı dövləti ilə keçirilən danışıqlar prosesində, Azərbaycan müstəqilliyinin tanınması məsələsinə dair Avropa dövlətləri ilə aparılan diplomatik danışıqlarda iştirak edən M.Hacınski,artıq peşəkar diplomat kimi püxtələşmişdir. İş prosesində qazandığı diplomatik fəaliyyət təcrübəsi və vərdişlər Hacınskinin Paris sülh konfransına göndərilən Azərbaycan nümayəndə heyətinə daxil edilməsi ilə nəticələnir. Hacınski, habelə Bakı-Batum neft kəmərinin istismarına və Cənubi Qafqaz dəmir yolunun istifadəsinə dair sazişlərin bağlanmasında da iştirak etmişdir.

Paris sülh konfransına göndəriləcək nümayəndə heyətinə namizədlər seçərkən hökumət, Əkbər ağa Şeyxülislamovun peşəkarlığını, təşkilatçılıq qabiliyyətini, əqidəliyinivə fəal vətəndaşlıq mövqeyini nəzərə alaraq onu bu heyətə müşavir qismində daxil etmişdir. Cənubi Qafqaz seymində Hümmət (Menşeviklər) partiyasının üzvü və daxili işlər nazirinin köməkçisi vəzifəsində çalışan,ictimai-siyasi və dövlət xadimi Əkbər ağa Şeyxülislamova, AXC-nin təşəkkülündən sonra əkinçilik və əmək naziri vəzifəsi həvalə edilmişdir. Çox qısa müddətdən sonra o, Rəsulzadənin rəhbərliyi ilə İstanbula göndərilmiş heyətin tərkibində yer aldı. AXC Parlamentində sosialist fraksiyasının üzvü olmuş Şeyxülislamov 1918-ci il dekabrın 12-də siyasi partiyaların Bakıda keçirilmiş demokratik müşavirəsində öz partiyası adından çıxış edərək, sosialistlərin hökumətin tərkibinə daxil edilməsini tələb etmişdir [9, s.78].

Heyətin digər bir üzvü, yüksək jurnalist məharəti ilə seçilən, tarix, ədəbiyyat sahəsində dərin elmi biliklərə malik olan, fransız dilini mükəmməl bilən Ceyhun bəy Hacıbəyli idi. OnunSülh konfransına gedəcək nümayəndə heyətinə çox fayda verəcəyi nəzərə alınaraq, müşavir qismində tərkibə daxil edilmişdir.

Paris konfransına yola düşməzdən bir gün əvvəl, 1919-cu il yanvarın 9-da dərc edilən "Möhtərəm qarelərimizə"adlı məqaləsindəki müraciətində C.Hacıbəyli yazırdı: "Vətən və millət yolunda əlimdən gələn xidməti və öhdəmə düşən vəzifəmi qəzetimizin müdiri sifətilə ifaya məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşdü" [5, s.357].

C.Hacıbəylinin Azərbaycan hüdudlarından kənarda, erməni faktorunun güclü olduğu Fransa cəmiyyətində göstərdiyimətbuu fəaliyyəti, onun AXC hökuməti tərəfindən təsadüfi şəkildə seçilmədiyini bir daha sübut etdi. Belə ki, onunParisdə fransız dilində "İlk müsəlman respublikası Azərbaycan" adlı kitabı çapda çıxmaqla bərabər, "Revyü dü Monde müzülman" adlı jurnalda 1918-ci ildə Bakıda və eləcə də Azərbaycan Cümhuriyyətinin bir sıra digər bölgələrində erməni quldur dəstələri tərəfindən azərbaycanlı əhalinin kütləvi şəkildə qırılmasını kəskin tənqid və ifşa edən məqaləsi çapdan çıxmışdır [3, s.433].

1917-ci ildə yaradılan "İttihad " partiyasının banilərindən biri hesab edilən Mir Yaqub Mehdiyevin Parisə göndəriləcək nümayəndə heyətinə daxil edilməsi bir daha sübut etdi ki, heyət formalaşdırılarkən hökumət təkcə mükəmməl təhsil görmüş adamlara deyil, xalqının suverenliyi uğrunda əyilməz, mətin mübarizələrə, yüksək mənəviyyatlı vətəndaşlıq mövqeyinə malik əsl vətənpərvər insanlara da üstünlük verirdi. Qeyd edək ki, sonralar M.Mehdiyevin qələmə aldığıbir sıra əsərlər, bizim üçün bu prosesin canlı şahidinin düşüncə məhsulu kimi çox qiymətli mənbələrə çevrilmişdi.

AXC hökumətinin Paris Sülh Konfransına göndərdiyi nümayəndə heyətinin tərkibinə daxil edilmiş digər görkəmli şəxsiyyət, sosialit blokundan Zaqafqaziya seyminə seçilmiş, Zaqafqaziya Demokratik Federativ Respublikasının süqutundan sonra (26 may 1918-ci il) Azərbaycan Milli Şurasının üzvü olmuş Məhəmməd Məhərrəmov idi.Müxtəlif millətlərin təmsil olunduğu Zaqafqaziya seymi çox mürəkkəb proseslərin cərəyan etdiyi bir meydan idi və M.Məhərrəmovun belə bir qurumda olan iş təcrübəsi, onun heyət daxilindəki fəaliyyətinə də təsirsiz ötüşə bilməzdi. Cənubi Qafqaz Seymində olmaqla bərabər İrəvan azərbaycanlılarının lideri kimi də tanınan M.Məhərrəmov, İstiqlal bəyannaməsinin qəbul olunmasında iştirak etmiş və Milli Şuranın "Azərbaycan Məclisi-Məhbusanının təsisi haqqında qanun"una əsasən, seçkisiz Azərbaycan Parlamentinin tərkibinə daxil edilmişdi [4, s.183].

Parisə göndərilən nümayəndə heyətinin tərkibinə daxil olunmuş bütün üzvlərin fransız və rus dillərində sərbəst şəkildə danışdığını təxmin etmək olar. Yaş tərkibinə diqqət yetirdikdə məlum olur ki, heyəti çox gənc kadrlardan təşkil olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, nümayəndə heyətinınciddi təşkilatlanmış və dəqiq iş bölgüsü İstanbula gələndən sonra aparılmışdır. Bu zaman heyətin tərkibində üç istiqamət üzrə - siyasət və milli məsələlər, iqtisadiyyat və kommersiya, təbliğat və məlumat fəaliyyət bölgüsü yaradılmış və üzvlər ixtisas və maraq səviyyələrinə uyğun şəkildə həmin bölmələrdə fəaliyyətə cəlb olunmuşdular. Bununla bir sırada Nümayəndə heyətinin hər bir üzvünün görəcəyi konkret iş, məsuliyyət daşıyacağı sahə də müəyyənləşdirilmişdi. Ə.M.Topçubaşov siyasi məsələlər və memorandum hazırlanması üçün məsul idi. O, həm də heyətin təşkilati işlərinə və maliyyə vəsaitinin xərclənməsinə nəzarət edirdi. Sədr müavini M.H.Hacınski eyni zamanda həm də xəzinədar idi, o, iqtisadiyyat və maliyyə məsələlərinə rəhbərlik edir, Azərbaycan hökuməti adından əcnəbi iş

adamları və təşkilatlarla danışıqlar aparırdı. Ə.Şeyxülislamov daha çox sərhəd məsələləri ilə məşğul olur, statistik göstəricilər, diaqramlar, xəritələr hazırlanması işini təşkil edir, nəhayət, Nümayəndə heyətinin kitabxanasına baxırdı. M.Məhərrəmov xalq təsərrüfatı və əkinçilik sahələri üçün məsuliyyət daşıyır, həm də protokolların Azərbaycan türkcəsində yazılmasına nəzarət edirdi. Ticarət və sənaye ilə bağlı məsələlər üçün məsul olan M.Mehdiyevin vəzifələri sırasına maliyyə hesabatlarını yoxlamaq da daxil idi. Ə.Ağaoğlu və C.Hacıbəyli isə daha çox informasiya və təbliğat məsələləri ilə məşğul olmalı, fransız mətbuatı və ictimaiyyəti ilə əlaqələr yaradılmasına kömək etməli idilər [8, s.3-5]. Onların hər ikisinin Fransada təhsil alması və bir müddət bu ölkədə yaşaması üzərinə qoyulan vəzifəni uğurla həyata keçirmələrinə imkan yarada bilərdi. B.Marçevski M.H.Hacınskiyə, A.Topçubaşov Ə.Hüseynzadəyə, S.Zərdabi isə Ə.Topçubaşova yardım etməli idilər.

Yuxarıda da qeyd etdiyimiz kimi, Nümayəndə heyəti Parisə tam tərkibdə gedə bilmədiyindən təbii ki, İstanbulda müəyyənləşdirilmiş bu iş bölgüsü dəyişikliklərə uğradı. Nümayəndə heyəti üzvləri müxtəlif partiya mənsubluqlarına baxmayaraq, vahid məqsəd-müsəlman Şərqində ilk demokratik respublika qura bilmiş Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini qoruyub saxlamaq məqsədi birləşdirərək bir araya gətirmişdir.

***Nəticə***. Qarşılaşdıqları çoxsaylı çətinliklərə baxmayaraq, Antantanın AXC-nin müstəqilliyinin "de-fakto" tanınması ilə bağlı 1920-ci il 15 yanvar tarixli qərarı gərgin, səmərəli və yorulmaz iş aparan Azərbaycan Nümayəndə heyətinin bütün üzvlərinin şəksiz uğuru hesab edilməlidir. Məhz onların səyi nəticəsində Avropa və Amerika cəmiyyəti artıq Azərbaycanı "terra incognita" hesab etmir və onların istiqlalını faktiki olaraq təsdiq etmiş oldu.Növbəti hədəf isə "de-yure" tanınmaq olsa da, 1920-ci il aprel istilası bu arzunun reallaşmasına birdəfəlik sədd çəkdi. Azərbaycan əhalisinin bir hissəsi inqilabı dəstəkləsələr də, həsrətini çəkdikləri istiqlalın itirilməsi ilə barışa bilməyənlər ölkəni tərk etmək məcburiyyətində qaldılar. Beləliklə, Parisdə olan Nümayəndə heyətinin üzvləri də (çox əvvəl geri qayıdan M.H.Hacınski istisna olmaqla) konfrans bitdikdən sonra uğrunda yorulmadan çalışdıqları Vətənlərinə geri dönə bilmədilər və bu onların bəlkə də bu vaxta kimi qarşıladıqları və ömürlərinin sonuna kimi davam edəcək ən böyük sınaqları idi. "Azərbaycan savaşı"nı mühacirətdə davam etdirsələr də, qürbətin çörəyi acı, pillələri isə çox dik idi.

## ƏDƏBİYYAT

1. Ağaoğlu S. Babamdan Hatıralar. Ankara, Ağaoğlu Küliyyatı Yayınevi, 1940, 213s.
2. Azərbaycan Demokratik Respublikası. Azərbaycan hökuməti. 1918-1920. Bakı: Gənclik, 1990, 92s
3. Azərbaycan Xalq Cümhuriyyeti Ensklopediyası, II cilddə, I cild. Bakı, Lider Nəşriyyatı, 2004, 471s.
4. Azərbaycanın Paris Sülh Konfransındakı elçiləri. Elmi red: N.Vəlixanlı. Bakı, Elm nəşriyyatı, 2010, 208s.
5. Azərbaycan Tarixi. VII cilddə, V cild. Bakı, 2008, 696s.
6. Akalın G. Türk Düşüncə və Siyasi Həyatında Əhməd Ağaoğlu. Tərc.S.Məmmədova. Bakı, AzAtam Nəşriyyatı, 2004, 164s
7. Ə.Topçubaşov.Paris məktubları.Tərtib edəni və rus dilindən çevirəni Vilayət Quliyev, Elmi redaktoru Əli Həsənov. Bakı, Azərnəşr, 1998, 120s.
8. İmanov.V. Ali Merdan Topçubaşı (1865-1934) Lider Bir Aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili. İstanbul, Boğaziçi Universitesi Yayınevi, 2003, 303s.
9. Гасанлы D. Руская революция и Азербайджан. Трудный путь к независимости 1917-1920. М.: ФЛИНТА, 2011, 664с.

**ХАЯЛА АГАЕВА**
*докторант Института истории им. А. Бакиханова,*
*преподаватель кафедры Регионоведения АУЯ*

## ОРГАНИЗАЦИЯ ПРЕДСТАВИТЕЛЕЙ ДЕЛЕГАЦИИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ, ПРЕДСТАВЛЯЮЩИХ НА ПАРИЖСКОЙ (ВЕРСАЛЬ) МИРНОЙ КОНФЕРЕНЦИИ

После распада Российской империи, образовавшиеся национальные республики, а также молодая Азербайджанская Народная Республика возлагала большую надежду на мирную конференцию, которая состоится с перерывами в Париже, в Версальском дворце с 18 января 1919 по 21 января 1920 года. Согласно решению парламента для принятия участия на открытии Версальской (Париж) мирной конференции в 1919 году будет создана делегация. При формировании состава делегации, в состав которой не входят случайные члены, власть предусмотрела несколько особенностей.

*Ключевые слова*: Азербайджанская Народная Республика, Парижская (Версаль) мирная конференция, делегация.

**KHAYALA AGAYEVA**
*doctoral student at the Institute of History. A. Bakikhanov,*
*Lecturerat Department of Regional Studies, AUL*

## ORGANIZATION OF THE DELEGATION OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC AT THE PARIS (VERSAILLES) PEACE CONFERENCE

The national republics that emerged on the site of the collapsed Russian Empire, as well as the young Azerbaijan Democratic Republic, looked forward to the intermittent peace conference to be held from January 18, 1919 to January 21, 1920 at the Palace of Versailles in Paris. In accordance with the parliamentary decision, the delegation was elected to participate in the Peace Conference of Versailles (Paris), which will open in 1919. The government took into account a number of features when forming the delegation, which did not include random members.

*Keywords*: Azerbaijan Democratic Republic, Paris (Versailles) Peace Conference, delegation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Sevdagül Əliyeva, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**ƏZİZAĞA QƏNİ-ZADƏ**
*SQ Hərbi Akademiyasının dissertantı*
**yupiter57@mail.ru**

# BAŞKƏND ƏMƏLİYYATI - TARİXİN İZİ İLƏ

*Məqalə Azərbaycan Respublikasının öz tarixi müstəqilliyinə qovuşduğu, Silahlı Qüvvələrimizin yenicə formalaşmağa başladığı dövrdə, ordumuzun 1992-ci il avqustun 6-8 tarixləri arasında erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi və qalibiyyət ilə nəticələnmiş Başkənd əməliyyatına həsr olunmuşdur. Mövzu mötəbər mənbələr və əməliyyatın iştirakçısı olmuş zabitlərin dili ilə tədqiq olunmuşdur. Milli ordumuzun keçirdiyi əməliyyat nəticəsində ərazi Azərbaycan Respublikasının nəzarətinə keçmiş və qərb regionunda təhlükəsizliyin təmin olunması üçün böyük nəticə əldə edilmişdi.*

*Açar sözlər*: Başkənd, Gədəbəy, I Vətən müharibəsi, Başkənd əməliyyatı, qəhrəmanlıq.

***Giriş***. 1991-1993-cü illərdə yenicə yaranmış milli ordumuzun hələ tam formalaşmadığı illərdə erməni hərbi birləşmələrinə qarşı həyata keçirdiyi və qalibiyyətlə nəticələnən bir sıra hərbi əməliyyatları olmuşdur. Həmin illərdə, xalqımızın hərb tarixinə qızıl hərflərlə yazılmış uğurlu əməliyyatlardan biri də, 6-8 avqust 1992-ci il tarixdə həyata keçirilmiş Başkəndin düşməndən geri alınması əməliyyatıdır. Əməliyyatın hansı corafiyada baş verdiyini dəqiqliklə anlamaq üçün Başkənd haqqında qısaca məlumat verək.

Mənbələrin məlumatına görə Başkənd - İrəvan quberniyasının Bayazid qəzasında, indi Çəmbərək rayonunda kənd adıdır. Həcmcə böyük bu yaşayış məntəqəsi rayon mərkəzindən 15 km şimal-şərqdə Azərbaycanın Gədəbəy rayonu ərazisində yerləşir və bu rayonun inzibati-ərazi vahidinə daxildir [1, s.83]. Başkənd kəliməsi türk dilində “böyük”, “əsas”, “yuxarı”, “baş”, “çayın mənbəyi”, “dağın zirvəsi” və s. mənalarında işlənən baş sözü ilə [23, s.77] kənd sözünün birləşməsindən əmələ gəlmişdir. Kənd dağlıq ərazidə yerləşdiyindən, relyeflə bağlı olaraq belə adlandırılmışdır.

Dağlıq ərazidə yerləşən Başkədin ərazisi 61 km$^2$, əhalisi isə azərbaycanlılardan ibarətdir.

Erməni mənbələrinin məlumatına görə kəndin ərazisinə ermənilər ilk dəfə 1858-1859-cu illərdə gəlmişdilər [17, s.453]. İlk erməni ailələri burada yerli bəyin icazəsi ilə 1858-ci ildə məskən salmış və onun mal-qarasının otarılması ilə məşğul olmuşdular.

1905-1906, 1918-1920-ci illər hadisələri zamanı ermənilər tərəfindən azərbaycanlıların bu kənddən sıxışdırılaraq çıxarılması yönündə sistemli olaraq iş aparılmışdır [5].

Kənd Azərbaycan Xalq Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğalından sonra, Sovet rəhbərliyi tərəfindən Ermənistana bağışlanmışdır. Hətta tarixi Başkənd adının unutdurulması məqsədi ilə 1978-ci il yanvar 25-də Ermənistan SSRİ-i Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə kəndin adı dəyişdirilərək Ardzvaşen adlandırmışdır [19, s.61-62].

1992-ci ilə qədər bu kənd Azərbaycanın Gədəbəy rayonunun içərisinə doğru erməni anklavı kimi qalırdı. Birinci Vətən müharibəsi zamanı erməni hərbi birləşmələri həmin ərazidən Azərbaycanın Gədəbəy rayonunun Şınıx bölgəsini və Tovuz rayonunun bəzi kəndlərini atəş altında saxlamaq üçün istifadə edirdi. Digər tərəfdən I Vətən müha-ribəsi başlayan ərəfədə ermənilər Başkəndi güclü istehkama çevib, oradan Gədəbəyin kəndlərinə daim təhlükə yaradır, dinc əhaliyə qarşı silahlı hücumlar edirdilər. Təsadüfi deyildir ki, bölgədə qanlı hadisələrdən biri 1991-ci il yanvarın 31-də törədilmişdi. Belə ki, erməni yaraqlıları həmin gün Başkənddən keçib Şınıx tərəfə gedən yolun Mutudərəyə yaxın hissəsində 6 azərbaycanlını qətlə yetirmişdilər. Və bundan sonra Şınıxa gediş-gəliş daha da çətinləşmişdi [11].

Qeyd edək ki, Gədəbəyin 26 kəndinə və Şınıxa gedən yol Başkəndin içərisindən keçdiyi üçün bu hadisə ilə həmin kəndlərin rayon mərkəzi ilə əlaqələrinin kəsilməsi ilə nəticələnmişdi. Risk edib həmin yol ilə gediş-gəliş edilən zaman isə erməni terroristləri davamlı olaraq avtomobiləri atəşə tutur, dinc sakinləri qəddarcasına öldürürdülər. Çobanları güllələyib qoyunlarını aparır, benzin daşıyan maşınların sürücüsünü öldürüb maşınları ələ keçirirdilər və s. [11]. Belə olan təqdirdə isə Şınığa gedən yeganə yol Tovuz istiqamətinə yönələn təhlükəli dağ yolları idi ki, bu da 15-20 dəqiqəyə gedilən

yolun, ən azı 4-5 saata gedilməsi demək idi [8]. 1993-cü ilin fevral-iyun aylarında Azərbaycanın müdafiə naziri olmuş, hazırda isə istefada olan general-mayor Dadaş Rzayev Silahlı Qüvvələrin 95 illiyi ərəfsində verdi-yi müsahibədə qeyd edir ki, ermənilər Başkənd vasitəsilə Gədəbəy bölgəsini iki yerə ayırmışdılar. Şınıx zonası rayondan tamamilə ayrılmışdı. Camaat Şınıxdan Gədəbəyə getmək üçün dağlardan böyük məsafə qət etməli idi. Ermənilər oranı möhkəmləndirərək Gədəbəyi tam işğal edib Şəmkirə çıxmaq istəyirdilər [22].

1992-ci ilin yayında erməni hərbi birləşmələri Başkəndin anklav vəziyyətindən çıxarılaraq Ermənistanla birləşdirilməsi üçün Ermənistan tərəfdən Gədəbəy rayonuna hücuma keçdilər [6].

Mutudərə və Qasımağalı kəndləri istiqamətində döyüşlərə rəhbərlik edən Dilqəm Əliyev "Ordu.aza" müsahibəsində qeyd edir ki, "...Sonralar bizim əsir götürdüyümüz yüksək rütbəli ermənilərdən biri, planlarının daha böyük olduğunu deyirdi. Belə ki, əgər ermənilər həmin yüksəklikləri əldə etmiş olsaydılar, oradan Gədəbəy rayon mərkəzini artilleriya atəşinə tutaraq, dinc sakinlər arasında ajiotaj yaradacaqdılar. Belə olan halda isə dinc əhali yaşayış yerlərini tərk etməli olacaqdı. Qalan yaşayış məntəqələrində yalnız əsgərlərimiz olacaqdı ki, ermənilər də minimum qüvvə ilə hücum edib böyük bir ərazini ələ keçirəcəkdilər. Əgər Gədəbəy ələ keçirilsəydi, o zaman Gəncə-Şəmkir-Tiflis yolu da tam olaraq onların nəzarətinə keçəcəkdi [11].

Başkənd ətrafında vəziyyət 1992-ci il avqustun əvvəlində daha da gərginləşdi. Erməni hərbi birləşmələri avqustun 5-də Mutudərəni ələ keçirmək üçün minə yaxın canlı qüvvə, 4 tank, 14 zirehli maşın və digər texnika vasitəsilə hücuma keçdilər [2]. Çəmbərək və Başkənd ətrafında ağır döyüşlər baş verdı.

Ermənilər Şınıx, Çardaxlı, Başkənd və onların arasında yerləşən Atabəy kəndlərini birləşdirib, Azərbaycanın Qərb bölgəsini tamamilə işğal altına almaq istəyirdilər ki, bu da ümumilikdə həm Respublika üçün, həm də qərb bölgəsi üçün böyük təhükə ola bilərdi [4;12].

Bu zaman Başkəndi Ermənistanla birləşdirən bir tək avtomobil yolu Başkənd-Krasnasersk yolu idi. Və bu yol da Gədəbəyin Mutudərə aşırımından keçirdi [11].

Artıq gecikmədən konkret hərəkətə keçmək lazım idi.

Erməni hərbi birləşmələrinin Mutudərə istiqamətində etdikləri hücumun qarşısına baş leytenant Məzahir Rüstəmov öz dəstəsi ilə çıxaraq, canları bahasına düşmənin hücumunu bir qədər də olsa ləngidə bilirlər [7;18].

Ancaq düşmən durmaq bilmirdi. Avqustun 6-da ermənilər Mutudərə və Qasımağalı kəndlərini işğal edərək, həmin kəndlərdə nəzarəti tam ələ keçirdilər. Və Başkənd az müddət də olsa Ermənistana birləşdirildi.

Düşmən elə zənn edirdi ki, biz onların bu üstünlüyündən ruhdan düşərək geri çəkiləcəyik [11].

Növbəti gün Azərbaycan tərəfi əraziyə canlı qüvvə, artilleriya və tank bölmələri cəlb edir.

Erməni hücumlarına son qoymaq üçün Başkənd düşməndən tam azad edilməli idi.

Əməliyyat planı hazırlanmadan öncə bölmələrimiz tərəfindən döyüş aparılacaq əraziyə baxış keçirilir və əməliyyat rayonu ilə yaxından tanış olunur. Hərbi hissə komandanlığı tərəfindən əməliyyat xəritəsi çəkilir. Komandir heyəti tağım komandirinə qədər hər bir kəs əməliyyat xəritəsilə tanış olur, rabitə əlaqələri müəyyənləşdirilir. Rabitədə hər istiqamətdən gələn bölmələrin parolları müəyyənləşdirilir. Və yalnız bundan sonra, bütün heyətə tam döyüş hazırlığı əmri verilir.

İşğal olunmuş 2 kəndin azad olunması və Gədəbəyin Şınıx bölgəsindəki 28 kəndin blokadadan çıxarılması məqsədi ilə alay komandiri polkovnik Cahangir Rüstəmov tərəfindən Başkənd əməliyyatının planı hazırlanır [10;13;21; 15, s.143].

Polkovnik Cahangir Rüstəmovun əmri ilə elə avqustun 8-də Başkənd əməliyyatı başlayır və düşmənin möhkəmləndirilmiş mövqeləri 2 gün müddətində bütün növ artilleriya silahlarından atəşə tutulmaqla məhv edilir.

Mutudərə və Qasımağalı kəndləri istiqamətində döyüşlərə rəhbərlik edən Dilqəm Əliyev ordu.az-a müsahibəsində qeyd edir ki, "Dəstələr cəm olduqdan sonra, kəndin sol istiqamətindəki yüksəkliyə çıxdıq. Oradan ermənilərin mövqeləndiyi yerləri qismən də olsa görmək mümkün idi. Və bir neçə atəşlə Ərdağında ermənilərin yerləşdirdiyi topu sıradan çıxarmağı bacardıq. Ardınca bir 37 mm-lik gəmi topunu, dalınca desantın döyüş maşınını, 2 ədəd BTR, 1 ədəd tankı sərrast atəşlə məhv etdik. Və bundan sonra erməni-lərin içərisində sözün əsl mənasında xof yarandı. Onlar artıq zirehli

texnika və qurğuların sıradan çıxdığını görüb, bir az geri çəkildilər. Bir neçə saatdan sonra əlavə köməkçi qüvvələrlə yenidən hücuma keçdilər. Ancaq hücumun qarşısını alaraq onların 1 ədəd BMP1 və 1 ədəd BMP 2-lərini vurduq [11].

Dilqəm Əliyev daha sonra müsahbəsinə davam edərək qeyd edir ki, avqustun 7-də axşam 18:00 radələrinə döyüş bizim üstünlüyümüz ilə davam etdi. Ermənilərin bizə qarşı əks-hücumu gecə saat 23:00 qədər davam etdi. Həmin saatlarda Qazaxdan Eldar Salmanovun rəhbərlik etdiyi tankçılar bizə köməyə gəldilər. Və yalnız bundan sonra ermənilərin hücumu azacıq da olsa səngimiş oldu [11].

Avqusutun 8-i hücum əmrini verildiyini qeyd edən Dilqəm Əliyev müsahibəsinə davam edərək ilk həmlə ilə Mutudərəni və Qasımağalını tam olaraq nəzarətimizə qaytarıldığını qeyd edir: "Hücum sona çatanda bəzi dəstələrimizin əlində olan sursatlar təmamilə qurtarmışdı. Mutudərədə biz patron və mərmilərin gəlməsini gözləyirdik. Bi-zim tərəfdən atəşin səngidiyini görən ermənilər yenidən hücuma keçdilər. Durduğumuz yer hücuma keçən ermənilər tərəfindən açıq görünürdü. Uşaqlara onların görəcəyi bir şəkildə ərazidən çəkilməyi əmr etdim. Oturduğum BMP-nin mühərrikini söndürməmişdim. Ümumiyyətlə, aktiv döyüş vaxtlarında hərbi texnika daim işlək vəziyyətdə olur. Mən BMP-dən düşmədim. Uşaqlar gəlməyimlə bağlı təkid etsələr də, onlara cəld ərazini tərk etmək və maksimum dərəcədə patronları tez gətirməyi tapşırdım. Texnikanın içində oturub ermənilərin tam yaxınlaşmasını gözləyirdim. Əsgərlərimin geri çəkildiyini görən ermənilər elə zənn etdilər ki, artıq BMP-ni qənimət kimi ələ keçiriblər. Daha bil-mədilər ki, bu BMP siçanı məhv etmək üçün, tələnin üzərinə qoyulan "pendir"dir... Ermənilər sərbəst bir şəkildə mənə yaxınlaşmışdılar. Onlarla mənim aramda təxminən 5-6 metrlik bir məsafə yaranmışdı. Onları açıq şəkildə müşahidə edir, danışıqlarını aydın eşidirdim. Ermənilərin 3-ü ayrılıb BMP-yə tərəf gəldi. Onlar ayaqlarını sepin üzərinə qoyub qalxmaq istəyirdilər ki, cəld texnikanı hərəkətə gətirdim. Tam sürətlə silahlı dəstənin içərisinə girdim. Texnikanın tırtılları altında xeyli sayda silahlı qalıb əzilərək məhv oldu. Bunu görən dəstəyə çaxnaşma düşmüşdü. Artıq onlar müqavimət göstərmək yox, qaçmağa başlamışdılar. Mən texnikanı ermənilərin qaçdığı istiqamətdə sürdüm. Qurdlu Dərə deyilən yerə qədər onları təqib etdim. Həmin yerə qədər yalnız ermənilərin leşləri qalmışdı. Ermənilər silahlarını belə atıb qaçırdılar. Bunu görən uşaqlarımız patronsuz, inanın tam olaraq patron olmadan boş silahla ermənilərin üstünə hücuma keçdilər. Artıq bütün çatışmamazlıqlar geridə qalmışdı [11].

Başkənd əməliyyatı uğurla tamamlandıqdan sonra, nəzarətimizdə olan yüksəkliklərdə mövqelərimiz möhkəmləndirildi.

Avqust ayının 8-də Başkənd üzərinə hücum başladı. Düşmənin ciddi müqavimətinə baxmayaraq axşama yaxın Başkənd azad edildi. Düşmənin 200-dən çox canlı qüvvəsi, 4 topu, 3 tankı, 1 BMP və və digər texnikası məhv edildi [9;16].

Başkəndi yenidən tutmaq üçün bir neçə dəfə cəhd edən erməni hərbi birləşmələri itkilər verərək yenidən geri çəkilmək məcburiyyətində qaldılar [5].

Beləlikə söyləyə bilərik ki, Başkənd əməliyyatı hərb tariximizə qəhrəmanlıq dastanı kimi yazılmışdı. Başkənd əməliyyatına Bakıdan 20 nəfərə yaxın xüsusi təyinatlı dəstə dəstək vermişdilər. Bundan başqa Ağstafa, Tovuz, Daşkəsən və digər ətraf rayonlardan gələn köməkçi qüvvlərin də bu əməliyyatın uğurlu alınmasında çox böyük rolu olmuşdur. Belə ki, əməliyyata Qazax istiqamətindən Eldar Salmanovun komandirliyi altında tank bölüyü, Ərəstun Hacıyevin başçılıq etdiyi artilleriya batareyası, Ağstafadan Maqsud Aşurovun rəhbərlik etdiyi reaktiv artilleriya batareyası, Daşkəsən rayonundakı batalyondan bir bölük iştirak etmişdir. Həmin dəstələr Qaradağ postundan, Şəmkir batalyonu isə Tovuz rayonunun Göyəbaxan kəndi və Gədəbəyin Saratovka kəndi istiqamətindən Başkəndə daxil olmuşdular [11; 20].

Əməliyyatda Rüstəmov Məzahir İzzət oğlu və Aznaurov İsgəndər Zöhrab oğlu yaxından iştirak edərək, hər ikisi ölümündən sonra Azərbaycan Milli Qəhrəmanı adına layiq görülmüşdülər [3].

***Nəticə.*** Vətənpərvər oğullarımızın qəhrəmanlığı sayəsində Başkənd əməliyyatı uğurla tamamlandı və nəticədə həm Gədəbəy rayonunun işğal altında olan 2 kəndi, həm də 4600 hektardan artıq tarixi torpaqlarımız düşməndən azad edildi.

Əgər Başkənd əməliyyatı erməni hərbi birləşmələrinin xeyrinə nəticələnsəydi, Ermənistanla bu kəndin birləşməsi Şınıx mahalının 26 kəndinin birbaşa mühasirə şəraitinə düşməsi və Ermənistana birləşdirilməsi ilə nəticələnəcəkdi.

Həmin 26 kəndin ələ keçirilməsi isə bütün əsas yüksəkliklərin ermənilərin nəzarətinə keçməsi ilə nəticələnə bilərdi ki, bu da öz növbəsində Respublikanın qərb bölgəsindəki digər rayonlara çox ciddi təhlükə yarada bilərdi.

Başkəndin işğaldan azad edilməsi Ermənistanda böyük ruh düşkünlüyü yaratmışdı. Həmin dövrdə Ermənistan mətbuatı qeyd etmişdir ki, Başkəndin itirilməsi Ermənistan hakimiyyətinin siyasi fiaskosudur.

Başkəndin azad edilməsindən dərhal sonra şimal-şərq ərazisinin müdafiə polkovniki Xaçaturov deyirdi: "Hərbi nöqteyi-nəzərindən Başkənd çoxdan mübadilə edilməli idi. Başkəndi düşmən əhatəsində saxlayaraq, 3 min insanın həyatını təhlükədə qoymağa nə nazir, nə də prezidentin ixtiyarı vardı" [14].

Hərb elminin qanununa görə yüksəklik kimdədirsə, güc də ondadır, o da döyüşün idarəedicisidir. Belə olan halda da qarşı tərəf bu hakimliyə istənilən halda tabe olmaq məcburiyyətindədir. Milli ordumuz tərəfindən Başkənd əməliyyatının yüksək səviyyədə həyata keçirilməsi Azərbaycan oğullarının nə dərəcədə böyük vətənpərvər, güclü, rəşadətli, yüksək bacarığa malik olduğunu bir daha sübut etdi, işğalda olan digər torpaqların da tez bir zamanda azad olunacağı ümidini doğrultdu.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild, Bakı, Şərq-Qərb, 2007, 304s.
2. Azərbaycan Ordusundan Ermənistana Sarsıdıcı zərbə - Başkənd əməliyyatı, 9 avqust 2017-ci il. - https://metbuat.az/news/774561/azerbaycan-ordusundan-ermenistana-sarsidi ci-zerbe---baskend-.html [Müraciət tarixi: 05.04.2022-ci il].
3. Azərbaycan ordusunun sarsıdıcı əməliyyatı: Başkənd əməliyyatından 28 il ötür. 7 Avqust 2020. - https://aqreqator.az/az/siyaset/932656 [Müraciət tarixi: 05.04.2022-ci il].
4. "Ay ziyalılar, gəlin yığışaq, iqtidarla müxalifəti barışdıraq!" 18 Sentyabr 2019, müsahibə. - https://modern.az/az/news/211833 [Müraciət tarixi: 05.04.2022-ci il].
5. Başkənd (Gədəbəy) 16 Avqust 2021. - https://az.wikipedia.org/wiki/Başkənd_ (Gədəbəy). [Müraciət tarixi: 05.04.2022-ci il].
6. Başkənd əməliyyatından 28 il keçir. - https://sonxeber.az/184153/baskend-emeliyyatindan -28-il-kecir [Müraciət tarixi: 05.04.2022-ci il].
7. Başkənd əməliyyatından 23 il ötür. 09 Avqust 2015. - http://femida.az/az/news/5171/ Başkənd -əməliyyatından-23-il-ötür [Müraciət tarixi: 05.04.2022-ci il].
8. Başkənd əməliyyatı... 1992-ci il 24 ноя 2016. - https://military-az.com/forum/viewto pic.php?t=1825 [Müraciət tarixi: 05.04.2022-ci il].
9. Birinci Qarabağ müharibəsində azsaylı uğurlarımızdan biri 09.08.2017. - https://sputnik. az/20170809/muharibedeki-ugurlardan-biri-411397422.html [Müraciət tarixi: 05.04.2022-ci il].
10. Cahangir Rüstəmov (polkovnik). - http://wikipedia.az.azmaster.biz/wiki/Cahangir_Rüstə m ov_(polkovnik) [Müraciət tarixi: 05.04.2022-ci il].
11. Daşqın Güneyli Başkənd əməliyyatının gizlinləri: "Əgər 26 kənd işğal edilsəydi, Gədəbəyin mərkəzinə qədər..." Ordu.az - https://ordu.az/az/news/143802/baskend-emeli yyatinin-gizlinleri--eger-26-kend-isgal-edilseydi,-gedebeyin-merkezine-qeder...-musahi be [Müraciət tarixi: 05.04.2022-ci il].
12. Ermənilərin darmadağın edildiyi- Başkənd əməliyyatından 27 il ötür. - https://www.ens.az/az/ermenilerin-darmadagin-edildiyi-baskend-emeliyyatindan-27-il-otur [Müraciət tarixi: 05.04.2022-ci il].
13. Ermənilərin göz dikdiyi cənnət məkanımız- Başkənd... 27 May 2021. - https://www.bakupost.az/ermenilerin-goz-dikdiyi-cennet-mekanimiz-baskend-fotolar [Müraciət tarixi: 05.04.2022-ci il].
14. Ermənilərə vurulan ilk sarsıdıcı zərbə- Başkənd əməliyyatından 28 il keçir. 08.08.2020. - https://azpolitika.info/?p=600338 [Müraciət tarixi: 05.04.2022-ci il].
15. Əhmədli N., Rüstəmov R. Bu dağlardan bir Cahangir keçdi. Bakı: "Elm və təhsil", 2015, 296 s.

16. Əntiqə Rəşid 26 kəndin mühasirədən qurtarıldığı gün: Uğurlu Başkənd əməliyyatı – 29. - https://www.adalet.az/mobil/222203 [Müraciət tarixi: 05.04.2022-ci il].
17. Hakopyan T., Məlik Baxşyan St.T., Barseğyan O.X. Ermənistan və ətraf vilayətlərin toponimlər lüğəti, I c., AD, İrəvan, «İrəvan Universiteti», 1986, 991 s.
18. 26 ermənini öldürüb, sonda özünü partladan "professor oğlu". - https://lent.az/xeber/ siyaset/-105918 [Müraciət tarixi: 05.04.2022-ci il].
19. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı, "Elm", 2002-ci il, 346s.
20. Müşfiq Abdulla, Mübahisəli ərazilər: Ermənistanın Başkənd iddiasına qarşı Tağlar kəndi 23 Mayıs 2021. - https://kafkassam.com/mubahisəli-ərazilər-ermənistanin-baskənd-iddiasina-qarsi-taglar-kəndi.html [Müraciət tarixi: 05.04.2022-ci il].
21. Rüstəmov Cahangir İsgəndər oğlu. - https://wikipedia.anarim.az?q=Cahangir_Rüstəmov_(polkovnik) [Müraciət tarixi: 05.04.2022-ci il].
22. Sultan Laçın "Bu ordu ilə İrəvana qədər də getmək olar…"25.06.2013. - https://hafta.az/bu-ordu-ile-irevana-qeder-de-getmek-olar…-94090-xeber.html [Müraciət tarixi: 05.04.2022-ci il].
*Rus dilində*
23. Мурзаев Э.М. Словарь народных географических терминов, М. «Мысль», 1984, 653 с.

**АЗИЗАГА ГАНИ-ЗАДЕ**
*Диссертант Военной академии ВС Азербайджана*

## ОПЕРАЦИЯ БАШКЕНД - ПО СЛЕДАМ ИСТОРИИ

Статья посвящена Башкендской операции, проведенной нашей армией в период 6-8 августа 1992 года против армянских воинских формирований и завершившейся победой. Тема была изучена на основе авторитетных источников и слов офицеров, ставших участниками операции. В результате операции, проведенной нашей национальной армией, территория вернулась под контроль Азербайджанской Республики, что имело большое значение для обеспечения безопасности в западном регионе страны.

*Ключевые слова*: Башкенд, Кедабек, I Отечественная война, Башкендская операция, героизм.

**AZIZAGA GANI-ZADE**
*Dissertation student of the Military Academy*
*of the Armed Forces of Azerbaijan*

## OPERATION BASHKEND - IN THE WAKE OF HISTORY

The article is devoted to the Bashkend operation carried out by our army in the period of August 6-8, 1992 against the Armenian military formations and ended in victory. The topic was studied on the basis of authoritative sources and the words of the officers who became participants in the operation. As a result of the operation carried out by our national army, the territory returned to the control of the Republic of Azerbaijan, which was of great importance for ensuring security in the western region of the country.

*Keywords*: Bashkend, Gadabay, World War I, Bashkend operation, heroism.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Nurulla Əliyev, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**АРЗУ ИМАНЛЫ**
*Бакинский Государственный Университет,*
*Исторический факультет*
**arzu_imanli@mail.ru**

# 43-АЯ СЕССИЯ КОМИТЕТА ВСЕМИРНОГО НАСЛЕДИЯ ЮНЕСКО И ЕЁ РЕШЕНИЕ ПО АЗЕРБАЙДЖАНУ

*30 июня 2019 года в Баку была проведена церемония открытия 43-й сессии Комитета Всемирного наследия ЮНЕСКО "Исторический центр Шеки вместе с Ханским дворцом" Азербайджана был включен в Список Всемирного наследия ЮНЕСКО. Историческая часть Шеки, являющегося одним из самых древних городов Азербайджана, на протяжении столетий была известна как один из культурных центров нашей страны. Охрана и развитие богатой уникальными памятниками исторической части Шеки постоянно находились в центре внимания государства.*

*Ключевые слова*: 43-ая сессия, Шеки, ЮНЕСКО, Всемирное культурное наследие.

***Введение***. Организация Объединённых Наций по вопросам образования, науки и культуры (ЮНЕСКО) была создана 16 ноября 1945 года. Основной целью ЮНЕСКО заключается в том, чтобы содействовать укреплению мира и безопасности путём расширения сотрудничества народов в области образования, науки и культуры в интересах обеспечения всеобщего уважения справедливости, законности и прав человека, а также основных свобод, провозглашенных в Уставе Организации Объединённых Наций для всех народов без различия расы, пола, языка и религии

Азербайджанская Республика ратифицировала Конвенцию об охране всемирного культурного и природного наследия декабря 1993 года. Первый объект, находящийся на территории Азербайджана крепостной город Баку с дворцом Ширваншахов и Девичьей Башней был занесён в список в 2000 году на 24-ой сессии Комитета Всемирного наследия ЮНЕСКО, затем 2007 году в Список Всемирного наследия ЮНЕСКО был включён Гобустанский культурный ландшафт с наскальными рисунками, а также следует отметить вхождение в Список по нематериальному культурному наследию человечества мугам (2008) и ашугского исскуства (2009). Кроме этого, огромное значение для Азербайджана имела 43-ая сессия Комитета Всемирного наследия ЮНЕСКО состоявшаяся 30 июня 2019 года, где "Исторический центр Шеки вместе с Ханским дворцом" Азербайджана был включён в Список Всемирного наследия ЮНЕСКО.

В последние годы были реализованы многочисленные проекты по защите и популяризации на мировом уровне культурного наследия Азербайджана. Следует отметить, что эта деятельность осуществлялась в условиях тесного сотрудничества с международными организациями, в частности с ЮНЕСКО, ответственной за мировую культуру, науку и образование. Иметь богатое культурное наследие и с комфортом передать его следующему поколению - является честью каждого народа. Потому что именно духовное, а не материальное благо делает народ живым. С этой точки зрения, азербайджанский народ входит в число счастливчиков. Азербайджан признанная как Страна Огней, внесла в список культурного наследия ЮНЕСКО многие духовные ценности. Включение этих духовных ценностей в список культурного наследия ЮНЕСКО подтверждает тот факт, насколько это важно для человечества [1].

Культура Азербайджана, являющееся одной из первых поселений человечества, всегда находилась в центре внимания и отличалась своей уникальностью. Многочисленные культурные образцы Страны Огней защищены ЮНЕСКО, которое занимает важное место в ряду моральных ценностей [1].

30 июня 2019 года в Баку, в Центре Гейдара Алиева, состоялась церемония открытия 43-й сессии Комитета Всемирного наследия ЮНЕСКО. Огромная заслуга в этом Президента

Фонда Гейдара Алиева, посла доброй воли ЮНЕСКО и ИСЕСКО, депутата Милли Меджлиса Мехрибан ханум.

Одно из основных направлений государственной политики Азербайджана – наряду с сохранением и пропагандой национально-духовных ценностей, историко-культурного наследия, оказывать поддержку защите и охране мирового наследия на международном уровне. С этой целью наша страна с момента восстановления независимости наладила тесное сотрудничество с ЮНЕСКО и внесла вклад в деятельность организации. В Азербайджане, успешно организовавшем в 2013 году 8-ю сессию Межправительственного комитета по охране нематериального культурного наследия ЮНЕСКО, с таким же успехом при официальном партнерстве с этой организацией раз в два года проводится Всемирный форум по межкультурному диалогу. На основании решения, принятого на 42-й сессии Комитета Всемирного наследия, Азербайджан получил право принимать очередную сессию этой влиятельной структуры. Принятие столь важного для Азербайджана решения свидетельствует о высоком уровне развития партнерских отношений нашей страны с ЮНЕСКО. Президентом Ильхамом Алиевым было подписано соответствующее Распоряжение с целью обеспечения достойного проведения в Баку сессии, которая продлилась с 30 июня по 10 июля 2019 года. Тем самым было организовано проведение на высоком уровне в Баку 43-й сессии Комитета Всемирного наследия [5].

На 43-й сессии Комитета Всемирного наследия ЮНЕСКО состоявшегося в Баку было принято 45 решений, и в Список были включены 29 образцов наследия [4, с.5]. Открывая сессию, председатель оргкомитета, министр культуры Абульфас Гараев высоко оценил работу, проведенную в течение 10 дней.

Председатель оргкомитета, министр культуры Азербайджана Абульфас Гараев отметил, что в ходе предстоящей сессии Комитет провёл анализ состояния 166 обьектов в Списке Всемирного наследия, находящегося под угрозой [9].

В 2001 году был принят Список национально-культурного наследия, включающий более 6600 охраняемых государством памятников культуры. За последние 5 лет в Азербайджане было реставрировано 40 исторических памятников. Также хотелось бы отметить, что в 2008 году был открыт Археолого-этнографический музейный комплекс под открытым небом «Гала», отражающий исторические памятники и археологические экспонаты, обнаруженные на Абшеронском полуострове. Строительство центров мугама в Баку, Агджабеди и Агдаме, реконструкция и строительство мечетей, синагог и церквей, реставрация и открытие музеев – все это только несколько элементов политики нашего государства по охране и обогащению разнообразного культурного наследия Азербайджана [6].

В результате плодотворного сотрудничества с ЮНЕСКО две сферы в Азербайджане – Ичеришехер, в том числе Дворец Ширваншахов и Девичья башня, Гобустанские наскальные рисунки были включены в Список Всемирного наследия ЮНЕСКО. В числе других важных элементов нашей богатой и древней культуры в Репрезентативный список по нематериальному культурному наследию человечества были включены также жемчужины нашей музыкальной сокровищницы – мугам и ашугское искусство [2, с.191, 316].

По словам министра Абульфаса Гараева в Азербайджане предусматривалось выдвинуть в качестве кандидата в Список Всемирного наследия ЮНЕСКО несколько объектов.

Министр отметил, что для лесов Гирканского национального парка предусматривалась номинация Ирана: «Часть этого леса, принадлежащую Азербайджану, мы хотим представить как единое пространство. Это вопрос будущего. Предусматривалось также включить в список и мавзолеи в Нахчыване. Поскольку в настоящее время эти объекты находятся в нормальном состоянии, необходимо начать процесс их научного обоснования» [9].

Затем была обсуждена номинация Азербайджана под названием "Исторический центр Шеки вместе с Ханским дворцом".

Сначала был заслушан отчёт Совета по сохранению памятников и достопримечательных мест (ICOMOS). Было отмечено, что город Шеки расположен на северо – западе республики, на левом берегу реки Киш, на высоте 700 метров над уровнем моря, в 370 километрах от города Баку, на южном склоне Большого Кавказа, вдали от центральных регионов – в изолирован-

ном месте. Ханский дворец находящийся в Шеки является историческим и архитектурным памятником мирового значения. Здание дворца построенное в XVIII веке, находится в северо – восточной части города, на территории, окруженной крепостными стенами. Площадь двухэтажного здания, длина которого 30 метров, составляет 300 квадратных метров. Дворец состоит из шести комнат, четырёх коридоров и двух зеркальных балконов.

Здание дворца, отражающее в себе, особенности народных жилых зданий, считается одним из самых прекрасных образцов дворцовой архитектуры Кавказа XVIII века, а также жемчужин исламского Востока. Вместе с историческим центром города дворец охватывает территорию площадью 120 гектаров, где находятся караван – сараи, мечети и минареты, древние мосты, ремесленные мастерские и жилые дома.

После обсуждений номинаций под названием "Исторический центр Шеки вместе с Ханским дворцом" была включена в Список Всемирного наследия ЮНЕСКО [3, с.6].

Следует отметить что, на всех мероприятиях, проведённых по линии ЮНЕСКО – одна из самых авторитетных организаций мира, Президент Фонда Гейдара Алиева, посол доброй воли ЮНЕСКО и ИСЕСКО, депутат Милли Меджлиса Мехрибан ханум неоднократно подчеркивала, что войны и вооружённые конфликты всегда предоставляли угрозу культурному наследию человечества. В результате военной агрессии, грубого нарушения международное право и соответствующие резолюции Совета Безопасности ООН, Армения более 30 лет удерживала под оккупацией около 20 процентов признанной на международном уровне территории Азербайджана, в том числе Нагорный Карабах и прилегающие к нему семь регионов. Один миллион азербайджанцев живут в положении беженцев и вынужденных переселенцев. Были уничтожены или подверглись серьезному разрушению сотни исторических и архитектурных памятников, музеи, мечети и другие религиозные храмы. Поэтому Азербайджан очень заинтересован в эффективном выполнении соответствующих международных конвенций, касающихся охраны культурной собственности. Думаю, что в этой области еще многое предстоит сделать, и с этой точки зрения ЮНЕСКО должна сыграть важную роль [5].

27 июня 2017 году в Бакинском конгресс-центре в рамках 43-й сессии Комитета всемирного наследия ЮНЕСКО начал работу Форум менеджеров памятников.

Форум, который продлился до 4 июля, организован Министерством культуры Азербайджана совместно с Центром всемирного наследия ЮНЕСКО, Международным центром по сохранению и реставрации культурных ценностей (ICCROM), Управлением государственного историко-архитектурного заповедника «Ичеришехер», Государственной службой по развитию и восстановлению.

Открывший форум министр культуры Абульфас Гараев отметил, что проведение мероприятий влиятельных международных организаций в Азербайджане свидетельствует об авторитете нашего государства.

Министр особо подчеркнул бесценные заслуги Президента Ильхама Алиева и Первого вице-президента Мехрибан Алиевой в развитии отношений и укреплении взаимосвязей между Азербайджаном и ЮНЕСКО. Он сообщил, что на 42-й сессии Комитета всемирного наследия Азербайджан был избран председателем комитета сроком на один год. Принятие этого решения, имеющего большое значение для нашей страны, свидетельствует о высоком уровне партнерских отношений с ЮНЕСКО.

Было сообщено, что согласно Конвенции всемирного наследия Список всемирного наследия охватывает территорию площадью свыше 276 миллионов гектаров. Форум менеджеров памятников всемирного наследия имел большое значение для достижения более эффективного сохранения ценностей всемирного наследия. Этот форум, как новая инициатива, начался в 2017 году в польском городе Краков и проводился уже в третий раз. На форуме, который продлился восемь дней, участвовали до 70 представителей свыше 50 стран [9]. Министр культуры Абульфас Гараев подчеркнул, что на Форуме менеджеров памятников состоялись важные обсуждения о защите культурного наследия в мире. Выступившие на мероприятии директор Центра всемирного наследия Мехтильд Росслер, начальник Государственного историко-архитектурного заповедника «Ичеришехер» Аскер Алекперов и другие отметили

глобальное значение культурного наследия, а также подчеркнули важность Форума менеджеров памятников в получении новых знаний, налаживании связей и проведении обмена опытом. Было отмечено, что в повестке дня форума - обсуждение целей и объектов всемирного наследия и в сфере создания потенциала, ознакомление с документом 2015 года по управлению всемирным наследием и устойчивым развитием, а также главная презентация консервации культурных панорам и особенностей всемирного наследия и другие [9]. В рамках сессии при совместной организации Министерства культуры Азербайджана, Центра Всемирного наследия ЮНЕСКО Международного центра по сохранению и реставрации культурных ценностей, Управления Государственного историко-архитектурного заповедника и Государственной службы по охране, развитию и восстановлению культурного наследия успешно завершились форумы менеджеров памятников и молодых профессионалов [8].

Директор Центра Всемирного наследия ЮНЕСКО Мехтильд Ресселер выразил признательность правительству Азербайджана за высокий уровень организации сессии, проведённой в Баку. Он отметил, что за эти дни были приняты важные решения. Директор Центра высоко оценил активное участие в работе сессии всех членов комитетов, и подарил председателю Оргкомитета книгу с информацией о культурном наследии, включенном в Список Всемирного комитета ЮНЕСКО.

Представители Норвегии, Туниса, Анголы, Кубы, Буркина-Фасо, Кувейта, Кыргызстана, Бразилии, Уганды, Индонезии, Венгрии, Боснии и Герцеговины, Гватемалы, Австралии, Зимбабве, Китая и других стран высоко оценили работу сессии, выразив признательность Азербайджану – стране-хозяйке мероприятия. Было подчеркнуто, что принятые на сессии решения вносят вклад в сохранение мирового культурного наследия, и передаче их следующим поколениям [7].

***Заключение***. Мировое сообщество дало высокую оценку вступлению Азербайджана на путь стремительного развития в последние годы. Проведение в Азербайджане мероприятий влиятельных международных организаций свидетельствует о повышающемся авторитете нашего независимого государства. Следует отметить, грандиозное мероприятие посвященной 43 – сессии Комитета Всемирного наследия ЮНЕСКО, прошедшего в нашей стране в течении 10 дней, определило одну из важнейших направлений государственной политики Азербайджана, поддержка защиты и охраны мирового наследия на международном уровня. С этой целью наша страна со времени восстановления независимости наладило тесное сотрудничество с ЮНЕСКО, внесло вклад в деятельность организации. Проведение сессии ЮНЕСКО в Баку является знаменательным мероприятием не только для Азербайджана, но и стран мира, где были приняты важные решения, проведены встречи, достигнуты успехи.

Проведение в Баку 43-й сессии Комитета Всемирного наследия ЮНЕСКО - весьма ответственная работа. Согласие членов комитета, охватывающего весь мир, на проведение в нашей стране столь важного мероприятия, несомненно, свидетельствует о возрастающем авторитете Азербайджана в мире.
После обретения независимости в 1991 году Азербайджан начал сотрудничать с рядом влиятельных международных и региональных организаций. Один из самых важных среди них – организация ООН по вопросам образования, науки и культуры (ЮНЕСКО) позволяет странам-членам использовать знания экспертов на мировом уровне, техническую помощь, а также научную и техническую подготовку кадров, принять участие в глобальных научных проектах. В то же время, начало сотрудничества Азербайджана с ЮНЕСКО, которое служит укреплению мира и безопасности путем расширения сотрудничества народов в сфере образования, науки и культуры, приходится на те годы, когда наша страна еще не являлась членом ООН. В статье рассмотрены международные отношения Азербайджана в контексте сотрудничества с ЮНЕСКО, исследованы установление и развитие отношений между Азербайджаном и ЮНЕСКО. В статье показаны и широко исследованы этапы сотрудничества Азербайджана с ЮНЕСКО в научной, образовательной, культурной и гуманитарной сферах.

*Ключевые слова*: Азербайджан, ЮНЕСКО, международные отношения, культурный диалог, сотрудничество.

**AYTAKIN GASIMOVA**
*Baku State University*

## THE ROLE OF COOPERATION WITH UNESCO IN INFORMING THE WORLD ABOUT AZERBAIJAN'S CULTURAL HERITAGE IN GLOBAL INTEGRATION CONDITIONS

After gaining the independence in 1991, the Republic of Azerbaijan began to cooperate with a number of influential international and regional organizations. Among these international organizations the United Nations Educational, Scientific and Cultural Organization - UNESCO allows to its members to benefit from opportunities to participate in global research projects, gives technical assistance, as well as the preparation of the scientific and teaching staff. At the same time, Azerbaijan's relations with UNESCO which plays very important role in expanding cooperation among nations in the field of education, science and culture for strengthening peace and security, coincides with the period before being a member of the UN. Azerbaijan's international relations investigated in the context of cooperation with UNESCO in the article. The establishment and development of relations between Azerbaijan and UNESCO have been investigated in the article. The stages of co-operation of Azerbaijan with UNESCO in science, education, culture and humanitarian spheres are shown and analyzed in the article.

*Keywords*: Azerbaijan, UNESCO, international relations, cultural dialogue, cooperation.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 aprel 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24); UOT 327.5**

**VƏFA ABULOVA**
*Bakı Dövlət Universiteti*
**vefa.celilqizi@mail.ru**

# 44 GÜNLÜK MÜHARİBƏNİN CƏNUBİ QAFQAZ REGİONUNUN TƏHLÜKƏSİZLİYİNƏ TƏSİRİ: QAZANILAN ZƏFƏRİN PERSPEKTİVLƏRİ

*27 sentyabr tarixindən başlayan 44-günlük müharibə adı ilə tarixə düşən İkinci Qarabağ müharibəsində faşist Ermənistanın törətdiyi vəhşiliklər, zəbt olunmuş Azərbaycan ərazilərində özünü açıq-aşkar göstərdi. Bütün ərazilərin minalanması və minalanmış ərazilərin xəritəsinin hələ də verilməmiş olması, mülki əhaliyə qarşı törətmiş olduqları əməllər, öz doğma torpaqlarımıza sanki onlara məxsusmuş kimi çıxmaq istəmələri, 27-illik bir yalana özlərini inandırmış olduqları, qarşımızda necə bir düşmən olduğunu hər kəsə göstərir. Lakin bütün dağıntılara baxmayaraq, Azərbaycan dövləti tarixi ərazilərində əvvəl olduğundan daha yaxşı, müasir "ağıllı" kəndlər və şəhərlər salacaq. Bunun üçün Azərbaycan Respublikasının vəsaiti və iqtisadi gücü var. Qarabağda yenidənqurma işlərinə artıq başlanılıb. Prezidentimiz bu ərazilərə səfərlər edərək, gələcək üçün inkişaf perspektivlərini açıqlayıb. Torpaqlarımıza verdiyi dəyəri, buradakı bütün həqiqətləri dünyaya çatdırır.*

*Açar sözlər*: İkinci Qarabağ müharibəsi, düşmən, torpaq, minalanmış ərazilər, "ağıllı" kəndlər, iqtisadi güc, dünya, inkişaf perspektivləri.

***Giriş***. Zbiqnev Bjezinskinin "Böyük şahmat taxtası" kitabında "Avrasiyanın Balkanları" kimi qiymətləndirilən Cənubi Qafqaz 20-ci əsrin sonlarından beynəlxalq münasibətlərdə regional və qlobal amil olmaq istəyən dövlətlərin döyüş meydanı olmuşdur. Qara dənizlə Xəzər dənizi arasında yerləşən bu region şimal-cənub, şərq-qərb enerji və nəqliyyat xətlərinin kəsişməsində yerləşməsi və Xəzər hövzəsinin enerji ehtiyatlarına malik olması baxımından böyük əhəmiyyət kəsb edir. Tarix boyu Cənubi Qafqaz Osmanlı İmperiyası, Rusiya və İran arasında döyüş meydanı olub və bu dövlətlər bölgədə öz mədəni və siyasi izlərini qoyublar. Məlum olduğu kimi, SSRİ-nin dağılmasından sonra Şimali və Cənubi Qafqaz regionunda siyasi vəziyyət gərgin idi. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Gürcüstanda Abxaziya və Cənubi Osetiya problemləri regionun təhlükəsizliyinə mənfi təsir göstərən amillər kimi ortaya çıxmışdı.

***

Son iyirmi ildə regionda yuxarıda qeyd olunan problemlər hələ də qalmaqda idi: Beynəlxalq və regional təşkilatların, region və regiondan kənar dövlətlərin həyata keçirməyə çalışdıqları sülh layihələrinin heç biri uğurlu alınmadı, əksinə problemlər daha da dərinləşdi.

ABŞ, Fransa və Rusiyanın həmsədrlik etdiyi ATƏT-in Minsk Qrupunun səmərəsizliyi, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü tanıyan qətnamələrinin (822, 853, 874 və 884) yerinə yetirilməməsi nəticəsində Azərbaycan beynəlxalq aləmə inamını itirmişdi. Minsk qrupunun həmsədr ölkələrinin vasitəçiliyi ilə münaqişənin həllinə kömək məqsədilə 2007-ci ildə tərtib edilən 2009-cu ildə yenilənən Madrid Prinsiplərinin həyata keçiriləcəyinə 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra yaranmış ümid Ermənistanın Baş Nazirinin 2020-ci ilin əvvəlində Madrid Prinsiplərini şübhə altına almasından sonra yox oldu, Ermənistan Baş Naziri Nikol Paşinyanın başçılıq etdiyi qondarma "inqilabi hökumət"in Azərbaycana qarşı siyasi və hərbi təxribatları, onilliklər ərzində əldə edilmiş razılaşmaları və prinsipləri rədd etməsi ilə ATƏT-in Minsk Qrupunun apardığı danışıqlar prosesi dalana dirəndi. Beynəlxalq ictimaiyyətin, eyni zamanda Minsk qrupunun həmsədr ölkələrinin acizliyi sülh prosesini çıxılmaz vəziyyətə saldı [7].

Ardıcıl təxribatlar, xüsusən də 2020-ci ilin iyulunda Azərbaycanın Tovuz rayonu istiqamətində sərhəddə baş verən toqquşmalar bölgədəki bütün sülh səylərinə zərbə vurdu. Bildiyimiz kimi, Tovuz rayonu Azərbaycanın mühüm nəqliyyat və enerji marşrutlarını dünya bazarlarına birləşdirən strateji rayondur. Məsələn, Bakı – Tbilisi - Ceyhan (BTC) neft kəməri, Cənubi Qafqaz təbii qaz boru kəməri (SCP) və Bakı – Tbilisi - Qars (BTK) dəmir yolu Tovuz rayonundan keçir. Paşinyan hökümətinin dövründə gərginliyin artması və düşmənçilik Azərbaycanın tarixə 44 günlük müharibə kimi daxil

olan genişmiqyaslı hərbi əks-hücum əməliyyatlarına başlaması ilə nəticələndi.

Ermənistan ordusunun 27 sentyabr 2020-ci ildə Azərbaycana qarşı genişmiqyaslı hərbi təxribatları münaqişənin 1990-cı illərdən bəri ən böyük və ciddi eskalasiyasına səbəb oldu. Cəbhə boyu məğlub olan düşmən ordusu mülkü yaşayış obyektlərini hədəf götürməkdən çəkinmirdi.

Müharibə 2020-ci il noyabrın 10-da, Azərbaycan, Ermənistan və Rusiyanın Üçtərəfli Bəyanat imzalaması ilə başa çatdı [6, s.315]. Razılaşmaya əsasən, Ağdam rayonunda atəşkəsin icrasına nəzarət etmək üçün Atəşkəsə nəzarət üzrə Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradıldı. Qeyd etmək lazımdır ki, bölgədə davamlı sülh üçün Türkiyənin bu prosesində iştirakı çox vacibdir və üçtərəfli bəyannamə hərbi əməliyyatları dayandıran əhəmiyyətli bir sənəd oldu. 10 noyabr Üçtərəfli Bəyanata əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycanın nəzarətinə qaytarır, Azərbaycan tərəfi isə Ermənistanla Qarabağda yaşayan ermənilər arasında humanitar əlaqə olaraq istifadə ediləcək Laçın Dəhlizinin təhlükəsizliyinə zəmanət verir. 10 noyabr 2020-ci il tarixli müqavilənin 9-cu maddəsində Azərbaycanla Naxçıvan bölgəsi arasında əlaqə də daxil olmaqla, bölgədəki bütün kommunikasiyaların blokadadan çıxarılacağı açıq şəkildə bildirilir. 9-cu maddənin dəqiq ifadəsi belədir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa ediləcək [3, s.165]. Ermənistan Respublikası hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin, malların maneəsiz hərəkətini təşkil etmək üçün Azərbaycan Respublikasının qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyinə zəmanət verir". Qeyd edək ki, Zəngəzur bölgəsi (ermənilər "Syunik adlandırırlar) regional iqtisadi inteqrasiya baxımından çox əhəmiyyətlidir və Üçtərəfli Bəyanatın bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələr bərpa edilməsini nəzərdə tutan 9-cu maddəsi yuxarıda qeyd edildiyi kimi 10 noyabr 9-cu maddəsinə əsasən Ermənistan – İran sərhədini qoruyan rus sərhədçiləri Azərbaycanın qərb bölgələri ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqələrinin təhlükəsizliyini təmin edəcəkdi. Bu isə onilliklər ərzində bağlanmış Zəngəzur Dəhlizi vasitəsilə köhnə nəqliyyat yolunun bərpası və bu dəhliz vasitəsi ilə iqtisadi inteqrasiyanın və region ölkələrinin iqtisadi inkişafının sürətlənməsi demək idi.

Demək olar ki, Azərbaycan artıq işğaldan azad edilmiş torpaqların bərpası və regionda infrastrukturun inkişafı ilə bağlı genişmiqyaslı proqrama başlayıb və bu prosesdə bir çox beynəlxalq şirkətlər iştirak edir. İqtisadi inteqrasiyanın əsas elementləri olan zəruri avtomobil yollarının, dəmir yollarının və digər infrastrukturların yenidən qurulması üçün Türkiyə və İtaliya şirkətləri ilə müqavilələr imzalanıb. Bununla belə, 10 noyabr tarixli Üçtərəfli Bəyannamənin bütün müddəalarının, o cümlədən təhlükəsizlik və iqtisadi əməkdaşlıq üçün vacib olan 4 və 9-cu maddələrin həyata keçirilməsində hələ də çətinliklər mövcuddur.

44 günlük Vətən Müharibəsi Cənubi Qafqaz regionunun geosiyasətində ciddi dəyişikliyə səbəb oldu, ənənəvi qüvvələr balansını dəyişdi, regional sülh və təhlükəsizlik üçün yeni imkanlar və çağırışlar yaratdı. 44 günlük Müharibə İkinci Dünya Müharibəsindən sonra yaradılmış beynəlxalq hüquqi nizamın, beynəlxalq problemlərin çoxtərəfli həlli prinsiplərinin iflasa uğradığının daha bir sübutudur. Döyüş təyyarələri kimi müasir texnologiyalardan istifadə edilən hərbi əməliyyatlar müasir müharibə konsepsiyasına təsir göstərsə də və bir çox dövlətləri müdafiə strategiyalarına yenidən baxmağa məcbur etsə də, bu müharibənin region üçün birbaşa və potensial nəticələri xarici müşahidəçilər tərəfindən geniş şəkildə araşdırılmasına baxmayaraq müharibənin daha geniş mənada beynəlxalq münasibətlərə təsiri az tədqiq edilib. Lakin bu hadisə gələcək dövlətlərarası münasibətlərə və daxili təhdidlərə təsir potensialına görə daha çox diqqətə layiqdir.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Müharibə Cənubi Qafqaz regionunda təhlükəsizlik arxitekturasını kökündən dəyişdirdi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməklə Cənubi Qafqazda yeni eranın, sülh və inkişaf üçün fürsətlər əsrinin başlamasında əsas rol oynadı. Bununla belə, 44 günlük müharibənin nəticələri şübhəsiz ki, Cənubi Qafqazın sərhədlərini aşır və alınan dərslər beynəlxalq ictimaiyyətə də aiddir. Regionda yaranmış yeni vəziyyət və bəzi böyük dövlətlərin ciddi təzyiqlərinə baxmayaraq, deyə bilərik ki, Azərbaycanın hərbi uğurları digər regionlardakı kiçik dövlətləri daha böyük dövlətlərlə qarşıdurmalarda cəsarətləndirdi. İkinci Qarabağ müharibəsinin kiçik dövlətlərin böyük dövlətlərə qarşı milli maraqlarını müdafiə etməkdə güclənmək potensialına təsiri danılmazdır. Bu yeni vəziyyət nəinki kiçik ölkələrin müdafiə qabiliyyətini artıracaq, həm də böyük dövlətləri müdafiə xərclərini azaltmağa və danışıqlar yolu ilə həll yolu axtarmağa

sövq edəcək. Digər tərəfdən, Zənzəgur dəhlizi vasitəsilə Türkiyə Gürcüstan və İrandan keçmədən Azərbaycana birbaşa çıxış əldə edəcək və daha qısa göndərmə məsafələri və daha aşağı daşıma xərcləri Azərbaycan və Türkiyə arasında ikitərəfli ticarəti artıracaq. Yeni dəhliz iki ölkə arasında turizm əlaqələrinə də müsbət təsir göstərəcək, çünki ziyarətçilərin daha təhlükəsiz və rahat hərəkət etməsinə şərait yaradacaq. Bu dəhliz Türkiyənin Orta Asiyada türk dünyası ilə əlaqə qurması üçün daha qısa yoldur. Beləliklə, Azərbaycanın əzəli torpaqlarının işğaldan azad edilməsi və kommunikasiyanın bərpası türk ölkələri arasında yeni inkişaf perspektivləri açacaq. Türkiyə yükdaşımalarını genişləndirmək və Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətini artırmaq üçün Naxçıvana yeni dəmir yolu çəkməyi də planlaşdırır. Uzunluğu 230 km olan yeni dəmir yolunun Türkiyənin Qars şəhərindən Naxçıvan Muxtar Respublikasına qədər uzanması planlaşdırılır. Oradan xətt İran, Əfqanıstan və Pakistanın dəmir yolu xətlərinə və Zəngəzur dəhlizi ilə Azərbaycan dəmir yolu şəbəkəsinə qoşula bilər. Məlum olduğu kimi, Rusiyanın Avropa enerji bazarında payının saxlanılması və artırılması ən əsas strateji hədəflərdəndir [2, s.211]. Bununla belə, Aİ və Türkiyənin ümumi qaz istehlakında Rusiya qazının payı getdikcə azalır, çünki Aİ bazarı yavaş-yavaş alternativ enerji mənbələrinə üz tutur, COVID19 pandemiyası Yaxın Şərqdən LNG (mayeləşdirilmiş təbii qaz) baxımından enerji istehlakını və əlavə qaz tədarükünü məhdudlaşdırır. Bundan başqa, Azərbaycan qazının Bolqarıstan, İtaliya və Yunanıstan bazarlarına çıxması Aİ ölkələrinin Rusiya qazından asılılığını daha da azaldacaq. Eyni zamanda, Türkiyə LNG mənbələrinə müraciət edərək qaz tədarükünü şaxələndirdiyi və bununla da Rusiya təbii qazından asılılığını azaltdığı üçün Rusiya qazını birbaşa Türkiyəyə nəql edən "Mavi Axın" boru kəməri 2020-ci ilin may ayından etibarən istismardan çıxıb [4, s.105]. Azərbaycan isə Türkiyə bazarında öz payını artırmağı bacardı və tədricən Rusiyanı sıradan çıxarmağa başladı. Xarici siyasətində Cənubi Qafqaz regionuna böyük önəm verən Rusiya regionda kommunikasiyanın açılmasından xeyli faydalanacaq. Rusiya üçün Zəngəzur dəhlizi region ölkələrinə alternativ quru yolu yaradır. Azərbaycan dəmir yollarından istifadə edən Rusiya qatarları yeni dəhlizlə Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyə, İran və Ermənistan xətlərinə rahatlıqla keçə bilər. Rusiya həmçinin Zəngəzur dəhlizi vasitəsilə Yaxın Şərq bazarlarına alternativ marşruta malik olacaq və yeni dəhlizdən və digər marşrutlardan istifadə etməklə Ermənistana birbaşa çıxış əldə edəcək. Bütün bu üstünlüklər Rusiyanın Türkiyə, İran, Ermənistan və Yaxın Şərqlə iqtisadi əlaqələrinə müsbət təsir göstərəcək. Əgər Ermənistan qonşularına qarşı təcavüzkar siyasətindən əl çəkib sülh və əməkdaşlıq siyasətini seçərsə, bütün yolların bərpası və Zəngəzur dəhlizinin yaradılması bu ölkəyə ciddi iqtisadi səmərə verəcək. Zəngəzur dəhlizindən və digər ənənəvi marşrutlardan istifadə etməklə Ermənistan iqtisadi izolyasiyaya son qoya və regional nəqliyyat layihələrində iştirak edə bilər [8]. Kommunikasiyaların bərpası həm də Ermənistanın əsas iqtisadi problemlərindən biri – Avrasiya İqtisadi İttifaqı (AİI) bazarları ilə quru əlaqələrinin olmaması problemini həll edə bilər. Beləliklə, Ermənistan Aİ, o cümlədən Rusiya ilə ticarət əlaqələrini gücləndirmək, İranla iqtisadi əlaqələri inkişaf etdirmək şansı əldə edəcək. Vətən Müharibəsindəki qələbəmiz sayəsində Ermənistan Azərbaycandan keçən və ölkəni İranla birləşdirən dəmiryoluna çıxışını itirdi və Ermənistandan İrana alternativ dəmir yolu çəkmək cəhdləri uğursuz oldu. İndi bu dəmir yolunun bərpası Ermənistan və İran arasında ikitərəfli münasibətlərə müsbət təsir göstərəcək. Qeyd etdiyimiz bütün amillər onu göstərir ki, 44 günlük müharibə və Ermənistan-Azərbaycan münaqişəsinin sona çatması Cənubi Qafqaz və onun ətrafı üçün mühüm iqtisadi təsirlərə malikdir. Bölgə ölkələri arasında münaqişə səbəbindən dayandırılmış kommunikasiya və iqtisadi əlaqələrin bərpası regionun son 30 ildə formalaşmış geoiqtisadi xəritəsini dəyişəcək. Bu isə beynəlxalq Qərb-Şərq və Şimal-Cənub nəqliyyat dəhlizlərində Cənubi Qafqaz ölkələrinin mövqeyini gücləndirəcək. Regionda davamlı sülhün bərqərar olması biznes mühitinə də müsbət təsir göstərəcək və region ölkələrinə daha çox investisiya cəlb edəcək.

***Nəticə***. Cənubi Qafqaz regionunda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsi üçün məsələyə bir-biri ilə əlaqəli üç paradiqmadan baxmaq olar:

- Regional problemlərin həlli, təhlükəsizlik sisteminin yaradılması, əməkdaşlığın sürətləndirilməsi,
- Cəmiyyətin şüurunda əməkdaşlıq dəyərlərinin bərqərar olmasına çalışmaq, qarşılıqlı inam və reputasiya yaratmaq, qorumaq və inkişaf etdirmək,
- Regional və beynəlxalq güclərin regionda maraqlarını və qloballaşan dünyada Cənubi Qafqa-

zın yeri və rolunu müəyyən etmək.

Lakin regional problemlərə belə yanaşma özlüyündə həll yolu ola bilməz. Məlumdur ki, bu cür yanaşma region dövlətləri və xalqları tərəfindən qəbul edilmir. Burada önəmli olan region dövlətlərinin yaşadıqları problemlərə sakit baxmaması və Cənubi Qafqazı bütövlükdə görməmələridir. Digər səbəb isə regionda müxtəlif iqtisadi, siyasi, hərbi və mədəni dəyərlərin reallaşması eyni zamanda, böyük dövlətlərin fərqli regional siyasətidir. Bütün bunlara baxmayaraq, 44 günlük müharibənin Cənubi Qafqazda təhlükəsizliyi təmin etmək üçün yaratdığı şərait region ölkələri və regionda maraqları olan dövlətlər tərəfindən təklif olunan müxtəlif təhlükəsizlik modelləri bir daha yada salır [1, s.26]:

- Qafqaz modeli: Cənubi Qafqazın üç ölkəsi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq;
- Azərbaycanın "3+3+2 planı" təklifi: üç Cənubi Qafqaz ölkəsi, qonşu dövlətlər (Rusiya, İran və Türkiyə), Avropa və ABŞ arasında əməkdaşlıq;
- Bir tərəfdən, üç Cənubi Qafqaz ölkəsi digər tərəfdən Türkiyə və Rusiya arasında regional əməkdaşlıq çərçivəsində Türkiyənin təklif etdiyi "3+2 nizamı";
- Tehranın təklif etdiyi "3+2" düsturu (3 Cənubi Qafqaz respublikası + Rusiya və İran);
- Moskvanın "3+1" (3 Cənubi Qafqaz ölkəsi+Rusiya) düsturu əsasında təhlükəsizliyi təmin etmək səyləri;
- Ermənistanın təklif etdiyi "3+2" düsturu.

Bütün bu düsturlarda görünən odur ki, regionun təhlükəsizliyi üçün üç Cənubi Qafqaz ölkəsinin iqtisadi, siyasi, mədəni və s. sahələrdə əməkdaşlığı başlıca məsələdir. Bu gün isə, nə Ermənistan, nə də Gürcüstan Cənubi Qafqazda kəskin geosiyasi mühitin formalaşması funksiyanı yerinə yetirə bilməzlər. Səbəb bəllidir - onlar geosiyasi seçimdə bəzən ciddi səhvlərə yol veriblər və indi dəqiq mövqelərini müəyyən etməkdə çətinlik çəkirlər. Belə bir funksiyanı yerinə yetirməyi öhdələnən Azərbaycan Respublikasının atdığı addımlar içərisində 44 Günlük Müharibə ən önəmlisi idi.

Nəhayət, 44 günlük müharibə Cənubi Qafqazda davamlı təhlükəsizlik mühiti yaratmaqla yanaşı, regional əməkdaşlığa mane olan əsas problemi də həll etdi.

## ƏDƏBİYYAT

1. Ehtiram Aşırlı. Güney Kafkasya Bölgesinde Güvenlik Sorunu / Avrasya İncelemeleri Merkezi (AVİM), Blog № 53, 2016, 12.12.2016. - https://avim.org.tr/Blog/GUNEY-KAFKASYA-BOLGESINDE-GUVENLIK-SORUNU# [Müraciət tarixi: 13.05.2022].
2. Marshall I. Goldman. Petrostate: Putin, Power, and the New Russia. New York: Oxford University Press, 2010, 244 p.
3. Mehdiyev R. Ə. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: problemin mənbələri və nizamlanma perspektivləri. Bakı: Elm, 2019, 189 s.
4. Mehmet Efe Biresselioglu. European Energy Security: Turkey's Future Role and Impact. Palgrave Macmillan, New York, 2011, 208 s.
5. Vahap Taştan. Güney Gaz Koridoru: Yeni Enerji Düzeninde Avrupa Enerji Güvenliği, Rusya, Türkiye ve Güney Kafkasya Üzerine Oyun Teorik Uygulama / EY International Congress on Economics I (EYC2013), October 24-25, Ankara, Turkey, 2013, 240s.
6. Zamanov N., Əliyev R., Səlimbəyli Ş. Erməni terroru: Qarabağda müharibənin başlanması: hadisələr, faktlar. I kitab. Bakı, Avropa nəşriyyatı, 2008, 400 s.
7. "ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin bəyanatı", ATƏT-in İnternet saytı, 10 iyul 2009. - https://www.osce.org/mg/51152_[Müraciət tarixi: 13.05.2022].
8. Azərbaycan Respublikası Prezidentinin xalqa müraciəti, 10 noyabr 2020. - https://president.az/az/articles/view/45924 [Müraciət tarixi: 13.05.2022].
9. Gülperi Güngör. Kafkasyada ulaşım projeleri / Avrasiya İncelemeleri Merkezi, Analiz No: 2021 / 20, 18.05.2021. - https://avim.org.tr/tr [Müraciət tarixi: 13.05.2022].

**ВАФА АБУЛОВА**
*Бакинский Государственный Университет*

## ВЛИЯНИЕ 44-ДНЕВНОЙ ВОЙНЫ НА БЕЗОПАСНОСТЬ ЮЖНО-КАВКАЗСКОГО РЕГИОНА: ПЕРСПЕКТИВЫ ПОБЕДЫ

Зверства, совершенные фашистской Арменией во Второй Карабахской войне, начавшейся 27 сентября во имя 44-дневной войны, проявились на оккупированных территориях Азербайджана. То, что все районы заминированы и карта заминированных районов еще не дано, их действия против мирного населения, их желание объявить нашу Родину своей, их вера во ложь на протяжении 27 лет показывают всем, насколько они враждебны. Однако, несмотря на все разрушения, Азербайджанское государство будет строить на своих исторических землях более совершенные, более современные «умные» села и города. Азербайджанская Республика имеет для этого ресурсы и экономическую мощь. Работы по зонированию в Карабахе уже начались. В ходе визитов в эти регионы Президент резюмировал свои перспективы дальнейшего развития. Президент передает всему миру ценность, которую он придает нашим землям, и все факты.

*Ключевые слова*: Вторая Карабахская война, противник, земля, заминированные территории, «умные» села, экономическая сила, мир, планы развития.

**VAFA ABULOVA**
*Baku State University*

## THE EFFECT OF THE DAILY WAR ON THE SECURITY OF THE SOUTH CAUCASUS REGION: PERSPECTIVES OF THE VICTORY

The atrocities committed by fascist Armenia in the Second Karabakh War, which started on September 27 in the name of the 44-day war, manifested itself in the occupied territories of Azerbaijan.The fact that all areas are mined and the map of the mined areas has not been given yet, their actions against the civilian population, their desire to claim our homeland as their own, their belief in a lie for 27 years show everyone how hostile they are. However, despite all the destruction, the Azerbaijani state will build better, more modern "smart" villages and cities on its historical lands. The Republic of Azerbaijan has the resources and economic power for this. Zoning works in Karabakh have already started. During his visits to these regions, the President summarized his prospects for future development. The President conveys the value he gives to our lands and all the facts to the world here.

*Keywords*: Second Karabakh war, enemy, earth, mined ateas, “smart” villages, economic strength, peace, development plans.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.ü.f.d. Kərəm Məmmədov, t.e.d. İbrahim Zeynalov.*

**UOT 32:93/94**

**ÜLFƏT SƏMƏDZADƏ**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun doktorantı*
**ulfet.semedzade@bk.ru**

# MÜASİR AZƏRBAYCAN GƏNCLİYİNİN İNKİŞAFINDA QLOBALLAŞMANIN TƏSİRLƏRİ

*Qloballaşma modern cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyən edən yeni dünya nizamıdır. Zaman-zaman qloballaşmaya qarşı ciddi mübarizələr aparan cəmiyyətlər olsa da, hal-hazırda bunun qarşısını almaq mümkünsüzdür. XXI əsr informasiya və texnologiya əsri olduğundan qloballaşma prosesindən kənarda qalmaq inkişafdan geri qalmaq deməkdir. Lakin qloballaşma anlayışının çoxşaxəli olması müsbət proseslərlə yanaşı mənfi təsirləri də bərabərində gətirir. Müsbət təsirlərin qəbulu və mənimsənməsi vacib olduğu qədər mənfi təsirlərdən yayınmaq və neytrallaşdırmaq vacib və çətin başa gələn prosesdir. Əsasən də bu mənfi təsirlərin texnologiya ilə sıx bağlılığı olan gənclərə qarşı yönəlməsi ciddi narahatlıq yaradan amildir. İnkişaf və gələcəyin qurulmasında birbaşa rol oynayan gənc nəslin qorunması və yetişdirilməsi cəmiyyətin əsas problemidir.*

*Açar sözlər*: qloballaşma, müasir gənclik, mədəniyyət, mədəni təsirlər.

***Giriş***. Tarixin bütün mərhələlərində olduğu kimi müasir dünya tarixində də bir-birindən dil-din, mədəniyyət və müxtəlif cəhətləri ilə seçilən etnik qruplar bir-biri ilə sıx əlaqələr yaratmağa çalışır. Müasir elmi ədəbiyyatda artıq öz yerini almış "qloballaşma" hər bir insanın həyatında mühüm yer tutmağa başlayıb. Hazırda dünyada müxtəlif mətbuat dərgilərində və elmi məcmuələrdə ən geniş müzakirə edilən mövzular qloballaşma və onun ayrı-ayrı xalqların ənənəvi yaşam tərzlərinə və maddi rifahlarına təsiri haqqında bir-birinə zidd mövqelərdir. Bu termin aktiv elmi dövriyyəyə 1983-cü ildə Harvard professoru Teodor Levit tərəfindən gətirilsə də, ilk dəfə 1944-cü ildə işlədilmişdir [1]. Terminin yayılması isə amerikan sosioloqu R.Robertsonun adı ilə bağlıdır. O, 1985- ci ildə qloballaşma anlayışının şərhini vermiş, 1992-ci ildə ayrıca bir kitabda öz konsepsiyasının əsaslarını qeyd etmişdir [2, s.30]. Yapon alimi K.Omaye 1990-cı ildə çap etdirdiyi «Sərhədsiz dünya» əsərində qloballaşma anlayışının hərtərəfli izahını verməyə çalışımışdır [2, s.32]. M.Uters qloballaşmanı sosial proses kimi müəyyənləşdirmişdir. Utersin yanaşmasına əsasən, həmin sosial prosesin gedişində sosial və mədəni sistemlərin coğrafi sərhədləri silinir və əhali getdikcə daha çox bu fərqlərin aradan götürüldüyünü dərk edir [2, s.35]. Eyni zamanda qloballaşma dedikdə planetin bütün ölkələrinə qərb inkişaf modelinin yayılması başa düşülür ki, bu da faktiki olaraq bir qütblü (universal və ideal) dünya qaydasının nəzəri cəhətdən əsaslandırılmasına xidmət edir [3].

Reallıqda qloballaşma təsəvvür olunduğu kimi universal ola bilmədi. Bununla belə o kifayət qədər realdır. O, siyasi, iqtisadi və müxtəlif prosesslərin inkşafını müəyyən edir. Daha sonra bir sıra yeni prinsiplər, normalar, prosedurlar müəyyən edir. Qloballaşmanın 3 mühüm mərhələsini göstərmək olar: [4, s.7]

1. Sovet blokunun dağılması və beynəlxalq münasibətlərin bipolyar sisteminin tənəzzülü;
2. 2. Dövlətlərin postindustrial inkşaf mərhələsinə keçməsi;
3. Dünya iqtisadiyyatının regionlaşması.

Qloballaşmanı tendensiyasını yaradan səbəblərə nəzər yetirək. Bunlar iki cür olur təbii yolla qloballaşmaya təkan verən amillər və süni yolla. Təbii yolla qloballaşma tendensiyasına təkan verən amillər bunlardır:

1. Iqtisadi, siyasi, sosial və mədəni əlaqələrin sərhədlərinin genişlənməsi prosesinin intensifikasiyası,
2. Soyuq müharibədən sonra yeni tarixi mərhələnin başlanğıcı,
3. Dünya iqtisadiyyatının transformasiyası,
4. Qeyri-liberal iqtisadi proqramların siyasi demokratizasiya proqramları ilə əlaqələndirilməsi nəticəsində amerikan dəyər sisteminin üstünlük təşkil etməsi,
5. Ortodoksal (bir məsləkin sabitliyi və ardıcıllığı) ideologiya,

6. Texnoloji inqilab,

7. Milli dövlətlərin qlobal problemlərin (demoqrafik, ekoloji, insan hüquqları və nüvə silahının yayılmasının qarşısının alınması) həlli qarşısında acizliyi [5, s.12].

Süni yolla isə qloballaşma tendensiyasının yaranması güc dövlətlərinin ikinci dərəcəli dövlətləri öz nəzarəti altında saxlamaq üçün vahid beyin axınının və dünyanın vahid mərkəzdən idarə olunmasına göstərdiyi təşəbbüslərdir. Bunun üçün incəsənət, təhsil, təlim vasitəsilə müxtəlif metodlardan istifadə edərək ikinci dərəcəli xalqlar üzərində tətbiq olunur.

Siyasətdə qloballaşma milli dövlətlərin zəifləməsidir və onların dəyişməsinə müstəqilliyinin ixtisarına imkan yaradır. Müstəqil dövlətlərin postmodern dövlətlərə transformasiyası müşahidə olunur. Bir tərəfdən, bu ona görə baş verir ki, müasir dövlətlər BMT, Ümumdünya Ticarət Təşkilatı, Avropa İttifaqı, NATO, BVF və Dünya Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlara daha çox səlahiyyətli nümayəndə göndərir. Digər tərəfdən, iqtisadiyyata və vergilərin azaldılmasına dövlət müdaxiləsinin ixtisarı hesabına müəssisələrin (xüsusilə böyük millətlərarası korporasiyaların) siyasi təsiri böyüyür. Həmçinin insanların xaricə asan miqrasiyasına və kapitalın sərbəst hərəkətinə görə dövlətlərin öz vətəndaşları üzərində hakimiyyəti azalır [6, s.83].

Qloballaşma tendensiyasının formalaşmasında mütəxəssislər əsasən 4 meqatendensiya ilə fərqləndirirlər: mədəni qütbləşmə, mədəni assimilyasiya, mədəni hibridləşmə, mədəni izolyasiya [7, s.9].

Mədəni qütbləşmə: Bu proses XXI əsrdə formalaşmağa başladı. Onun əsas səbəbləri aşağıdakılardır: xalqlar və regionlar arasında ayrı-ayrı ölkələr daxilində artan iqtisadi və ekoloji qeyri-bərabərlik, dini və bazar fundamentalizmi, irqi və etnik müstəsnalığa iddialılıq, ayrı-ayrı ölkələrin və ya hərbi-siyasi blokların fraqmentallaşmış dünyada nəzarət sahəsinin genişləndirilməsi, tükənən təbiət resurslarının əldə edilməsi uğrunda mübarizə, kütləvi qırğın silahının yayılması. Mədəni qütbləşmə mədəniyyətin Şərq və Qərb sahələrinə bölünməsi, Qərb mədəniyyətinin hegemonluğu ələ alması və Şərq aləminə nüfuz etməsidir.

Mədəni assimilyassiya: Bu ideyanı aparıcılarından F.Fukuyamadır. Fukuyamanın fikrincə beynəlxalq münasibətlərdə universal, ümumbəşəri qaydaların formalaşması prosesi gedir [8, s.1]. XX əsrin 20-ci illərində qərb liberalizminin qələbə çalması mədəni assimilyasiyanın ən yüksək nöqtəsi idi. Fukuyamanın da təsdiqlədiyi kim bütün dünya mədəniyyəti qərb dəyərlərinə və qərb həyat tərzinə tabe olmağa məcbur oldu [8, s.5]. Deməli, digər mədəniyyətlər müasir dövrdə assimilyasiya prosesindən yayına bilməz. Assimilyasiyaya uğrayaraq digər mədəniyyətlər müəyyən səciyyəvi əlamətlərini itirir, yeni keyfiyyətlər qazanırlar. Bu keyfiyyətlər isə özündə qərbləşməni əks etdirir.

Mədəni hibridləşmə: Mədəni hibridləşmə tendensiyası XX əsrin sonlarından başlayaraq tamamilə yeni keyfiyyətlər əldə edib [8, s.12]. Mədəniyyətin kreollaşması prosesi ənənəvi olaraq yeni etnik icmaların yaranmasına səbəb olaraq transmədəni konverqensiya və translokal mədəniyyətlərin formalaşması prosesini şərtləndirdi. Mədəniyyətin kreollaşması prosesi lokallaşmadan imtina etməkdir. Kommunikasiya və mədəniyyətlərarası əlaqələrin intensivləşməsi bəşər mədəniyyətinin diversifikasiyasına səbəb oldu. Translokal mədəniyyətlər şəbəkə strukturuna malik olaraq yeni mədəni regionların yaranmasına səbəb olur. Bu isə translokallığı genişləndirərək mədəniyyəti siyasətlə əlaqələndirir.

Mədəni izolyasiya: Buna təcrid olunma da deyilir [8, s.9]. Biz XX əsrin siyasi tarixinə nəzər salsaq burada müxtəlif izolyasiya və özünüizolyasiyalarla rastlaşa bilərik. Buna sanitar kordon və dəmir kardon da deyilir. Yəni müxtəlif ölkələr özlərini qloballaşma tendensiyasından qoruyaraq qapalılıq elan edirlər. Xüsusən dünya müharibələri ərəfəsində biz görürük ki, açıq qapı siyasəti dövlətin siyasi, iqtisadi, mədəni dəyərlərini məhvə gətirir. Buna görə də bir çox dövlətlər özlərini beynəlxalq aləmdən təcrid edirlər. Təcrübədən də görürük ki, milli dəyərlərin qorunmasında ən uğurlu siyasət məhz təcrid olunmadı, lakin həm də bu siyasət ölkəni iqtisadi, siyasi cəhətdən zəiflədi [9, s.16].

Bütün bu meqatendensiyalar qloballaşma tendensiyasının təbii yolla baş verməsinə təkan verən kiçik bir hissələrdir. Qloballaşma tendensiyasının süni yolla baş verməsi hegemon ölkələr tərəfindən tətbiq edilir. Lakin oxşar cəhət bunlardan ibarətdir ki, hər iki variantla da bu proses özündə siyasi, iqtisadi və mədəni amillərin sintezini cəmləşdirir.

Qeyd edildiyi kimi qloballaşma anlayışına müxtəlif tərəflərdən yanaşmaq mümkündür. Hal-hazırda qloballaşma haqqında iki əsas yanaşma vardır. Bu yanaşmalar qloballaşmanın mənfi və

müsbət tərəfdən dəyərləndirilməsidir. Hər iki yanaşmanı irəli sürənlər əslində tutarlı səbəblər irəli sürürlər. Mənfi cəhətdən yanaşanlar qloballaşmanın milli mədəniyyətləri asimiliasiya etdiyini və məhv etdiyini bildirilər. Müsbət tərəfdən yanaşanlar isə vahid dünya sivlizasiyasının formalaşdığını və sərhəd anlayışının aradan qalxmasını əsas gətirərək qeyd edirlərki, dünya xalqlarının bir-birilə sıx əlaqələr qurması və ortaq mədəniyyət formalaşdırması etnik zəmində qarşıdurmaların və münaqişələrin həllində mühüm yer tutur. Lakin reallıq ondan ibarətdirki istənilən yanaşmadan asılı olmayaraq qloballaşma artıq məcburi xarakter almağa başlayıb. Bunun ən böyük səbəbi XXI əsrin texnologiya və informasiya əsri olmasından qaynaqlanır. Hal-hazırda böyük həcmdə informasiyanın saniyələr içərsində uzaq məsafələrə ötürülmə imkanları insanlar arasında bütün fiziki sərhədləri yox edir. Əslində daha çox milli kimlik daşıyan ənənə kəliməsi müasir dövrdə trend termini altında gündəlik yaşamın əsas istiqamətlərini müəyyən edir. Lakin buradada tam formalaşmamış yanaşma mövcuddur. Hal-hazırda cəmiyyət arasında adət-ənənəmiz dedikdə yüzilliklər ərzində formalaşmış maddi və mənəvi dəyərlər nəzərdə tutulur. Lakin eyni mənanı verən ingilis dilindədə tərcümədə ənənə mənasını verən trend kəlməsi isə daha çox müasir və tez-dəyişən bəzəndə bayağı yanaşılan məsələrə kimi düşünülür. Buda əslində qloballaşmanı tam şəkildə qavranılmamasından irəli gəlir.

Soyuq müharibədən dərhal sonra Sovet ittifaqının dağılması və tərkib dövlətlərin müstəqilliklərini bərpa etməsi dünyanın təkcə siyasi xəritəsini deyil həmçinin mədəni, sosial, iqtisadi xəritəsinidə dəyişdirdi. Siyasi böhran və etnik zəmində baş verən qarşıdurmalar Azərbaycandan yan keçmədi. Müstəqilliyini yenicə qazanmış bir xalqın hərbi təcavüzə məruz qalması və torpaqlarının işğal edilməsi Azərbaycan xalqının tarixində və süurunda dərin izlər açdı. Qərbdən güclü lobbi dəstəyi alan və hərbi baxımdan sürətlə silahlandırılan Ermənistan respublikası ərazi iddiaları adı altında Azərbaycan xalqına qarşı milli, dini, mədəni baxımdan soyqırım həyata keçirdi. Bu hərbi təcavüz kəmiyyət statistikaları baxımından nə qədər qorxunc idisə onun vurduğu psixoloji ziyan bir o qədər qorxunc və ağrılı idi. Müstəqilliyin ilk illərində formalaşan gənc nəsilin böyük bir hissəsi bu müharibənin birbaşa iştirakçısı və qurbanına çevrildi. XX əsrin 90-cı illərində dünyaya göz açan gənclərin isə müharibə uşaqları adlandırılması isə özlüyündə xalq olaraq gələcəkdə insan potensialı baxımından ciddi problemlərlə üzləşmə ehtimalını vəd edirdi. Lakin Azərbaycan xalqının güclü milli ənənələr sisteminə malik olması bu problemlərin aradan qaldırılmasında və ağır psixoloji durumdan çıxmaqda əsas rol oynadı.

Azərbaycan milli mədəniyyətin təməli olan güclü ailə bağları və ənənələri müasir Azərbaycan gəcliyinin təməlini təşkil edir. Azərbaycan əhalisinin demoqrafik faiz nisbətinə nəzər yetirsək 18-35 yaş aralığında olan əhalinin dünya demoqrafik staristikalarına nisbətdə yüksək yerdə dayandığını görə bilərik. Ölkə əhalisinin 2,3 milyon nəfərini və ya 22,8 faizini gənclər təşkil edir. Gənclərin 50,5 faizi şəhər yerlərində, 49,5 faizi isə kənd yerlərində yaşayır. Gənclərin 47,6 faizini qadınlar təşkil edir. Azərbaycan demoqrafik inkişaf baxımından Cənubi Qafqazda ən dinamik ölkədir. 2018-ci ildə Azərbaycan əhalisinin sayı 10 mln.-a çatmışdır. Azərbaycanda əhali artımı hər zaman demək olar ki yalnız doğuş sayının ölüm sayını üstələməsi ilə təmin edilmiş və təmin edilməkdədir; xarici miqrasiyanın ölkə əhalisinin sayına təsiri əhəmiyyətsizdir. Azərbaycan nisbətən gənc əhali strukturuna malik olsa da, əhalinin qocalması fenomeni get-gedə özünü büruzə verməkdədir. Ümumi nəsilvermə (fertillik) əmsalı son bir neçə ildə davamlı olaraq azalmış və 2019-cu ildə 1.8-ə çatmışdır. Ölkədə doğuş zamanı cins seçimi problemi yüksək səviyyədə qalmaqdadır (2019-cu ildə hər yeni doğulmuş 100 qıza 114 oğlan), bu da əhali strukturunda kişilərin sayının artmasına şərait yaradır [10].

Statistikaya əsasən əhalinin demoqrafik nisbətində gənc nəslin cəmiyyətimizdə aparıcı mövqedə dayanması qloballaşma tendensiyasında öz təsirlərini bilvasitə göstərir. Azərbaycan xalqının milli ənənələrə bağlılığı səbəbindən yaşlı nəsil qloballaşmanı tam şəkildə mənimsəmirlər. Buna səbəb qloballaşma tendensiyalarının daha çox rəqəmsal resurslar üzərindən yayılmasıdır. XXI əsrdə rəqəmsal texnalogiyalarda baş verən inqilabi yeniliklər yaşlı nəslin bu prosesdə ləngiməsinə səbəb oldu. Yaşlı nəsil qloballaşmanın texnoloji tərəflərinə loyal yanaşsada mədəni baxımdan kənardan idxal edilən anlayışları və davranışları qəbul etməkdə çətinlik çəkdilər. Bu da, gənc nəsillə yaşlı nəsil arasında fikir ayrılığını dərinləşdirən əsas amillərdəndir. Azərbaycan cəmiyyətində yaşlı nəslin gənc nəslə münasibətində - bizdə zamanımızda belə deyildi - tezisi aktual olaraq qalır. Lakin adət-ənənlərin möhkəm təməllərə sahib olduğu bir cəmiyyətdə hal-hazırdakı gənclərində özlərindən sonra gələn

gənclərə eyni münasibət bəsləməsi təxmin edilə bilər. Əslində bu cür yanaşma dünyadakı bütün mədəniyyətlər üçün xarakterikdir.

Hal-hazırda Azərbaycan gəncliyi dünyada sürətlə gedən qloballaşma tendensiyasında fəal şəkildə iştirak edir. Fikrimcə Azərbaycan gəncliyinin qloballaşmanın hansı formalarından daha çox təsirlənməsini aşağıdakı formada qruplaşdırmaq olar:

- Qloballaşmanın gənclərə sosial-mədəni təsirləri
- Qlobal iqtisadiyyatın gənc nəsil üzərində təsirləri
- Texnoloji baxımdan qloballaşmanın təsirləri
- Siyasi, ideoloji, dini baxımdan qloballaşma aspektlərinin Azərbaycan gəncləri üzərində təsirləri.

Azərbaycan gəncliyinin gələcək inkişafında qloballaşmanın ən güclü təsiri sosial-mədəni və texnoloji aspektlərlə bağlıdır. XXI əsrin texnologiya və informasiya sahəsində ən yüksək inkişaf etmiş dövrü olması qloballaşmanın sürətli yayılmasında əsas amil olaraq qalır. Müasir Azərbaycan gənci gündəlik həyatının böyük hissəsini bu informasiya texnologiyaları üzərində qurub. Artıq Azərbaycan Respublikası ərazisi üzrə yüz faizlik internet əlaqəsinin mövcudluğu kənd və şəhər mədəniyyəti anlayışını minimuma endirir. Buna səbəb kənd və şəhər üzrə formalaşan davranış formalarının eyniləşməsidir. Bu eyni zamanda geyim mədəniyyətindədə özünü biruzə verir. Əvvəllər baş verən mədəni yeniliklər informativ olaraq ilk şəhərdə yaşayan əhaliyə xüsusən də gənlərə daha tez çatırdı. Lakin müasir dövrdə internetin verdiyi imkanlar bu fərqidə aradan qaldırır. Azərbaycan gəncliyinin mədəni inkişaf səviyyəsini kənd və şəhər arasında müqaisə etmək artıq çox çətindir. Buda qloballaşmanın təkcə respublikanın ən inkişaf etmiş bölgələrinə və şəhərlərinə deyil həmdə ən ucqar nöqtələrinə də güclü təsir etdiyini göstərir. Qloballaşmanın gənc nəsil üzərində mənfi və müsbət təsirlərinə nəzər yetirsək burada kifayət qədər ziddiyyətlər meydana çıxır. Hal-hazırda Azərbaycan respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq aləmin bir hissəsi olmaqdır. Bu da bərabərində qloballaşmanın bir sıra müsbət yönlərini Azərbaycan gənci üçün əlçatan edir. Bu müsbət istiqamətlərdən ən vacibi təhsil sahəsidir. Hal-hazırda Azərbaycan gəncliyi heç bir süni mane ilə rastlaşmadan dünyanın istənilən yerində təhsil almaq imkanına malikdir. Bu şərait həm dövlət xətti ilə həmdə şəxsi təşəbbüs ilə həyata keçirilə bilər. Bunun üçün dünyanın bir çox dövlətləri ilə dövlət səviyyəsində müqavilələr mövcuddur. Lakin bu prosesində öz müsbət və mənfi tərəfləri var. Xarici təhsilə kütləvi meyllilik yerli təhsil sisteminin böhranına təkan verməsi və etibarsızlaşdırması təhlükəsinə səbəb ola bilər. Eyni zamanda xarici təhsil ölkəyə mütərəqqi fikirlərlə yanaşı zərərli ideologiyaların girişinə yol aça bilər. Buna misal olaraq dini , idealoji baxımdan yan təsirlərə məruz qalmış gənclərin bəzi zərərli fikirləri mənimsəməsi ola bilər. Qloballaşmanın gənclik üzərində müsbət təsirlərindən biri də texnologiya sahəsindədir. Hal-hazırda dünya üzrə texnoloji inkişaf baxımından ciddi rəqabət şəraiti mövcuddur. Bu yeni texnologiyaların əldə edilməsi hər gün daha əlçatan olur. Bu da Azərbaycan gəncinin texnoloji baxımdan inkişafına ciddi təkan verir. Lakin bu əlçatanlıq çox ciddi problemlərə yol açmaqdadır. Bu problemlərdən ən ciddi olanı gənc nəslin bu texnalogiyaları istehsal etməkdən daha çox hazır şəkildə əldə etmək vərdişinə səbəb olur. Buda Azərbaycan gəncini texnaloji məhsullar baxımından istehsalçıya deyil istehlakçıya çevirir.

Hal-hazırda qlobal mədəniyyət tezisi geniş şəkildə yayılır. Beynəlxalq mədəni dəyərlər dediyimiz toplu əslində Azərbaycan mədəniyyəti üçün yad deyildir. Bu dəyərlər toplusu Azərbaycan cəmiyyətinin əsrlərlə formalaşdırdığı və yaşam tərzini qurduğu cəmiyyət qanunları ilə eynilik təşkil edir. Bəzi hallarda hesab edirlərki qərb dəyərləri deyilən mütərəqqi dəyərlər sanki yüzillər boyu qərbin yaşam tərzi olmuş və bu günə qədər davam etmişdir. Lakin qəbul edilən bu mütərəqqi dəyərlər sistemi əslində qərb üçündə çox yeni bir anlayışdır və tarixi XIX əsrin ortalarından başlayaraq günümüzə qədər inkişaf etmişdir. Ən müasir mədəni cəmiyyət hesab edilən və qloballaşmanın əsas çıxış nöqtəsi kimi dəyərləndirilən Amerika Birləşmiş Ştatlarında ötən əsrin 50-ci illərinədək irqi ayrı-seçkilik ifrat səviyyədə idi. Hətda XXI əsrdə qaradərili şəxsin ölkə başçısı seçilməsi Amerika cəmiyyəti üçün mütərəqqi hal hesab edildi. Lakin bütün bunlara baxmayaraq tarixin heç-bir dövründə Azərbaycan xalqının ayrı-ayrı nümayəndələri arasında bu tip irqi, dini, etnik ayrıseçkilik olmamışdır. Bu tip düşüncə tərzi Azərbaycan cəmiyyəti üçün tamamilə yad anlayışdır. Lakin son dövrlərdə xüsusilədə

dini baxımdan əsasəndə gənc nəsili hədəfə götürmüş kənar mənfi müdaxilələr nəzərə çarpır. Eyni zamanda müasir mədəni dəyərlər adı altında Azərbaycan ailə modelinə ciddi şəkildə zərərli müdaxilələr mövcuddur. Xüsusilədə gender problemi adı altında çox ciddi fəaliyyətlər həyata keçirilir. Buda Azərbaycan gəncliyinin sağlam həyat tərzindən uzqlaşdırılması və cəmiyyətin şüursuzlaşdırılmasına yönəlmiş hərəkətlərdir. Lakin Azərbaycan dövlətinin gənclərlə bağlı aprdığı siyasət milli əsaslarla sıx bağlı olduğu üçün bu tip mənfi təsirlər ciddi nəticələr ədə edə bilmir.

***Nəticə***. Qloballaşmanın tarixi köklərini bəşərin tarixi qədər uzaqlara apara bilərik. Zamanla dünyadakı bir çox inkişaf nəticəsində cəmiyyət və cəmiyyəti meydana gətirən insanlar fərdilikdən uzaqlaşmış və daha ümumi olan qlobal anlayışlardan bəhs etmiş olmuşdur. Səyahət, ünsiyyət, iqtisadiyyat, ticarət, idman müsabiqələri, peşələr və hətta sənət işləri artıq ölkələr, dövlətlər və xalqlar üstü bir xüsusiyyətə bürünmüşdür. Bu qloballaşma zamanla qlobal bir sənət anlayışının, qlobal bir iqtisadiyyatın meydana gələcəyini və hətta tədbirlər alınmadığı təqdirdə dünya üzərində ənənəvi şəxsiyyət xüsusiyyətlərini itirmiş tək tip insan modelinin meydana gələ biləcəyini göstərməkdədir.Bu gün qloballaşma tendensiyası bütün dünyada olduğu kimi Azərbaycanın da siyasi, iqtisadi, mədəni həyatına, milli dəyərlərinə və mənəvi əxlaq meyyarlarına öz təsirini göstərir, nüfuz edir. Qloballaşma nəticəsində Azərbaycanın müstəqil dövlət kimi dünyaya tanıdılması daha da genişlənir.

## ƏDƏBİYYAT


1. Axundi F., Səfərova A. Qloballaşma və insan inkişafı. - https://dejure.az/az/article/qloballasma-v-insan-inkisafi-axundi-fidan-v-sfrova-aygun_[Müraciət tarixi: 25.05.2022].
2. Durdu Zafer. Türkiye'de küreselleşmenin siyasal-kültürel etkileri: çokkültürcülük-ulusal kültür (Ege-Muğla Üniversitesi Örneği). Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyoloji Anabilim Dalı. Doktorantura dissertasiyası. 2009, 301s.
3. Qloballaşma. - https://kayzen.az/blog/f%C9%99ls%C9%99f%C9%99/4812/qloballa%C5%9Fma.html [Müraciət tarixi: 25.05.2022].
4. Морозова Л.А. Влияние глобализации на функции государства // Государство и право, – М., Наука, 2006, № 6, 18 s.
5. Şükürov A. Qloballaşma: mahiyyəti, perspektivləri. Bakı, Adiloğlu, 2011, 31 s.
6. Politologiya izahlı lüğəti - Qloballaşma. Bakı, "Şərq-Qərb", 2007, s.83.
7. Bozkurt, V. Küreselleşme; Kavram, Gelişim ve Yaklaşımlar. İstanbul, Alfa Basım Yayım, 2007, s.9.
8. Philip Alston, The Mayopia of the Handmaidens: International Lawyers and Globalization. London, European Journal of İnternational Law, 1997, s.14.
9. Məcidov S. "Qloballaşma: problemlər və vəzifələr" // International academic scientific journal, Bakı, 2012, s.16.
10. Azərbaycan əhalisinin say tərkibi. - https://www.stat.gov.az/source/demoqraphy/_[Müraciət tarixi: 25.05.2022].



**УЛЬФАТ САМЕДЗАДЕ**

*Докторант Института археологии, этнографии и антропологии НАНА*


## ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ НА РАЗВИТИЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ МОЛОДЕЖИ

Глобализация – это новый мировой порядок, определяющий направление развития современного общества. Хотя есть общества, которые время от времени борются с глобализацией, предотвратить ее развитие в настоящее время невозможно. Поскольку 21 век - это век информации и технологий, оставаться в стороне от процесса глобализации означает отставать в развитии. Однако разнообразие концепции глобализации несет в себе как положительные, так и отрицательные последствия. Как важно принимать и усваивать положительные влияния,

так же важно и трудно избегать и нейтрализовывать отрицательные. Тот факт, что эти негативные последствия в основном направлены на молодых людей, тесно связанных с технологиями, вызывает серьезную озабоченность. Защита и воспитание подрастающего поколения, играющего непосредственную роль в развитии и построении будущего, является важнейшей проблемой общества.

*Ключевые слова*: глобализация, современная молодежь, культура, культурные влияния.

**ULFAT SAMADZADEH**
*Doctoral student of ANAS Institute of Archaeology, Ethnography and Anthropology*

## EFFECTS OF GLOBALIZATION ON THE DEVELOPMENT OF MODERN AZERBAIJANI YOUTH

Globalization is a new world order that determines the direction of development of modern societies. Although there are societies that from time to time struggle against globalization, it is currently impossible to prevent it. As the 21st century is the age of information and technology, staying out of the process of globalization means lagging behind in development. However, the diversity of the concept of globalization brings with it both positive and negative effects. Just as it is important to accept and assimilate positive influences, it is important and difficult to avoid and neutralize negative ones. The fact that these negative effects are mainly directed at young people who are closely associated with technology is a serious concern. The protection and upbringing of the young generation, which plays a direct role in the development and building of the future, is a major problem of society.

*Keywords*: culture, modern youth, culture, cultural influences.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 25 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Əliağa Məmmədli, t.e.d. Sevinc Yusifzadə.*

**UOT 32:93/94**

**MƏLƏKXANIM SƏFƏRLİ**
*Bakı Mühəndislik Universiteti, İqtisadiyyat və İdarəetmə*
**melekseferli79@gmail.com**

# RUSİYA-UKRAYNA MÜHARİBƏSİNDƏ RUSİYA-ABŞ RƏQABƏTİ

*Dünyada gedən geosiyasi proseslər yeni dünya nizamının yaradılmasının göstəricisidir. Təkqütblü sistemin lideri olan Amerika Birləşmiş Ştatları yüksələn güc olan Rusiya və Çinə qarşı yenidən müttəfiqlərini səfərbər etmək istəyir. Geosiyasi şəraitin uyğunluğundan istifadə edən Rusiya həm imperialist maraqlarını reallaşdırır, həm də Qərbə tələblərinin yerinə yetirilməsi üçün təzyiq göstərir. Və bu məqalə tərəflərin maraq və gələcək planlarının nə olduğundan bəhs edir. Həmçinin müharibə sonrası bütün dünyada qida qıtlığı və iqtisadi durğunluğun da olacağını proqnozlaşdırır.*

*Açar sözlər*: Rusiya, ABŞ, Ukrayna, NATO, Çin, Qərb dünyası, Co Bayden, Putin.

***Giriş***. Siyasi coğrafiyanın banisi kimi qəbul edilən Ratselin irəli sürdüyü həyati-məkan nəzəriyyəsi sonralar Qərb müstəmləkəçi düvlətlərin eksponsionist siyasətinin elmi əsaslandırılması üçün istifadə edilmişdir. Dəniz hökümranlığının dünya hakimiyyətinə apardığını deyən Ratselin ideologiyası ilə çıxış edən hegemon dövlətlər dənizlərin əhəmiyyətinin daha da artması ilə geosiyasi mübarizələri daha da şiddətlənmişdir. Qara dəniz bölgəsi ABŞ və Aİ üçün Avrasiyaya keçid qapısıdır. Bu bölgəni yeni istehsal sahəsi kimi pazara çevirmək cəzbedicidir. Avropanı nəzarətdə saxlamaq üçün onun asılı olduğu enerji yataqlarına çıxış və nəqliyyat güzərgahlarının nəzarətdə saxlanılması ABŞ üçün əsas məqsəd idi.

Qərbin Rusiyanı çevrələmə siyasətinə qarşı çıxan Rusiya isə tarixən gələn imperialist politikasını davam etdirmək üçün NATO-nun Şərqə doğru genişləməsini özünün milli təhlükəsizliyi üçün təhdid olaraq qiymətləndirərək 2014-cü ildə Kırımı işğal edərək Qara dənizdə SSRİ-nin dağılmasından sonra zəifləyən varlığını yenidən gücləndirməklə yanaşı, Ukraynanın NATO-a daxil olmamasına yazılı zəmanət verilməsinin rədd edilməsi ilə Ukrayna ərazisinə daxil oldu. Buradakı uğursuzluq ABŞ və Qərbə olan inamın sorğulanmasına və Çinin növbəti addımlarına səbəbiyyət verəcəyindən olduqca çətin geosiyasi mübarizədir.Həmçinin bu proseslərin dünyada qurulan yeni dünya nizamı və pandemiya sonrası dünyada gözlənilən qlobal qida qıtlığı və iqtisadi böhranın da xəbərçisi olduğunu da deyə bilərik.

***Rusiya-Ukrayna müharibəsində Rusiyanın prioritetləri***. Rusiya və Ukrayna arasındakı müharibə həm ikili, həm də qlobal güclərin fəaliyyətinin nəticəsidir. Rusiya-Ukrayna gərginliyinin kökü tarixə söykənsə də Qərb dəstəkli qüvvələrin köməyi ilə Ukraynada "rəngli inqilab" baş verəndən dərhal sonra Rusiya hərbi birləşmələri Kırıma daxil oldu. Rusiyanın Kırımı ilhaqı ilə 1991-ci ildən sonra Qara dənizdə zəifləyən mövqeyini yenidən gücləndirdi. Qara dəniz filosu və Sivastapol limanı vasitəsilə Ukraynanı nəzarətdə saxladı, Qara dənizdə ən güclü donanmaya sahib oldu, Qərbdən gələ biləcək Şimali Qafqaz istiqamətindəki təhlükələrin də qarşısını aldı və Yaxın və Orta Şərqdəki hərbi fəaliyyətlərinə də nəzarət etmə imkanını gücləndirmiş oldu [1].

Rusiyanın Ukraynaya hücumuna aparan yolu müəyyənləşdirsək həm Ukrayna daxilindəki proseslər, həm Rusiya-Ukrayna, həm də qlobal güclər arasındakı münasibətlərin nəticəsidir. Rusiya Prezidenti Putin 10 fevral 2007-ci il Münhen Təhlükəsizlik Konfransında ABŞ və NATO-nu tənqid edərək rus qüvvələrinin Gürcistandan çıxarıldığını, amma ABŞ raketlərinin Rumıniya və Bolqarıstanda yerləşdirildiyini və bunun regiondakı sülh danışıqlarını blokladığını bildirdi. ABŞ-ın NATO fəaliyyəti nəticəsində birlik xaricindəki digər heç bir dövlətin özünü təhlükəsiz hiss etmədiyini və məcburi silahlanmanın artmasına təkan verdiyini bildirərək mövqeyini ortaya qoymuşdur [2]. Bu konfransda Almaniya Müdafiyə naziri Frans Cozef Yunq heç bir təşkilatın təkbaşına dünya polisi rolunu oynaya bilməyəcəyini, NATO-nun müdafiyə ittifaqından təhlükəsizlik ittifaqına transformasiya etdiyini və Avropada ortaq təhlükəsizlik maraqlarının olduğunu və NATO-Rusiya əlaqələrinin gücləndirilməsindən yana olduğunu bildirməklə Rusiyaya qarşı təhlükə deyil də, əməkdaşlıq mövqeyi bəslədiklərini göstərməyə çalışdı.

Putini Ukrayna ilə müharibəyə başlamağa cəsarətləndirən situasiyalar nələrdir? ABŞ-n diqqətini Çinə yönəltməsi və bir çox bölgələrdəki stratejik yüklərini azaltmaq ehtiyacı duyması və Rusiyanın Çin faktorundan istifadə edərək Qərb dünyasından hərbi qarşılıq almayacağını planlayaraq maksimum Ukrayna üzərindən məqsədlərini reallaşdırmaq istəməsi, Türkiyə və Qərb arasındakı əlaqələrin yenidən canlandırılmasına baxmayaraq hələ də bir-birlərinə uzaq olması, Avropanın artan enerji ehtiyacı və artan neft qiymətləri, qlobal inflyasiyanın gücləndiyi bir dövrdə Rusiyaya qarşı embarqoların uzun müddət davam etməsinin Qərb üçün daha ciddi nəticələrinin olması ehtimalı və s. bu kimi məsələlər müharibə üçün uyğun şərait yaratmışdı [3]. Bununla yanaşı enerji bazarları gərgin, istehlakçılar narahatkən enerji də daxil embarqolar qoymaq, ona tərəfdarlar tapmaq və bunu uzun müddət davam etdirmək asan deyil və Rusiyanın da enerjini azaltmaq və ya kəsməklə qarşılıq veriləcəyi də məlumdur.

Rusiyanın bu müharibədə ilk strateji hədəfi nədir? Ən böyük strateji hədəflərdən bir də təbii ki də Ukraynanın nüvə silahı imkanlarını nəzarət altına almaqdır. Rusiyanın Ukraynada əsas hərbi hədəfləri nələrdir? Birincisi , Ukraynanın Qaradəniz və Azov sahillərinin tutulması, Kırıma quru yolunun açılması, Kırımın içməli su ilə təmin edilməsi, Odessadakı Ukrayna hərbi dəniz qüvvələrinin dağıdılması [4]. İkincisi, geniş perspektivdən baxdıqda strateji maraqlarından biri Qaradənizdəki üstünlüyünü gücləndirmək və Ukraynanı güc balansı prosesindən uzaqlaşdırmaq, Ukraynanı dənizdən (cənub) çevrələməkdir. Üçüncusu, Ukraynanın nüvə santrallarının ələ keçirilməsi [5].

***Rusiya-Ukrayna müharibəsində ABŞ-ın maraqları və Çin faktoru***. Önəmli məsələlərdən biri də "Rusiyaya qarşı nə edilə bilər?" sualına cavab tapmaqdır. Buna cavab tapılması üçün də ABŞ-ın Rusiyanın Şərqi Avropadakı təhlükəsizliklə bağlı məsələlərində ABŞ-ın beynəlxalq imicinə zərər vurmayacaq şəkildə bəzi güzəştlərə getməklə Çindən uzaqlaşdırılmasının mümkünlüyünü müəyyən etməkdir. Rusiya və Çinin strateji müttəfiq kimi çıxış etməsinə baxmayaraq maraq fərqlilikləri və fikir ayrılıqlarının da olduğunu unutmamaqla yanaşı gələcəkdə strateji addımlarını birlikdə koordinasiya etmə səviyyəsinə qədər yaxınlaşmasına icazə verilməsi Qərb dünyasını çətin situasiyaya sala bilər [6]. Tayvan və Ukrayna problemlərini milli təhlükəsizliklərinin parçası kimi qəbul edən bu dövlətlərin eyni anda iki regionda fəaliyyət icra etmələri həm ABŞ, həm də Qərbi çıxılmaz yola salmaqdır. Rusiyaya qarşı sərt addımın atılması halında Çin ilə toqquşmanı da gözə almaq, həmçinin Almaniya, Fransa, İngiltərə kimi qabaqcıl Avropa dövlətlərinin Rusiyaya qarşı təşəbbüs göstərmə səviyyəsi, onların qısa zamanda təhlükəsizlik potensiallarını yüksəltmə dərəcəsini və NATO bayrağı altında birləşə bilmə potensiallarını da hesablamalıdır [7].

"Münasibətləri kim şiddətləndirməyə meyillidir?" sualına cavab versək ABŞ və İngiltərənin bunda maraqlı olduğunu çəkinmədən demək mümkündür. Ingiltərənin rəhbərliyi ilə AUKUS birliyini yaratmalarına baxmayaraq indilik uğurlu olduqları deyilə bilməz ki, belə olan halda Rusiyanı məşğul edərək Çin, Rusiya, İran üçlüsünü ayrılıqda zəiflətmə planlarınının da olduğunu deyə bilərik [8]. Və hətta İran ilə münasibətlərin yumuşadılması və Vyana görüşündən sonra müsbət mesajların verilməsini həm bununla, həm də enerji asılılığının aradan qaldırılmasında İran neft və qazından istifadə edilməsi istəyi ilə bağlıdır. ABŞ Çinə qarşı onsuz da Avropanın dəstəyini ala bilmir və Rusiyaya qarşı münasibətdə də "təhlükəli düşmən" obrazının şişirdilməsinə baxmayaraq yenə də NATO daxilində parçalanmalar var [9]. Və Rusiyanın da Qərb dünyası ilə SSRİ-də olduğu kimi iqtisadi izolyasiyası yoxdur, enerji ilə yanaşı qarşılıqlı iqtisadi, ticari bağları və asılılıqları güclüdür və müharibə olacağı təqdirdə əsas zərbənin Avropaya dəyəcəyi də məlumdur.

ABŞ-ın bu savaşda maraqlı olmasını qısaca olaraq belə ifadə edə bilərik: Birincisi, dünyada çoxqütblü sistemin yaranmasına baxmayaraq dünya hegemonluğunu əlindən vermək istəməyən ABŞ tərəfdaşlarını daha güclü ətrafında birləşdirmək istəyir. Və bunun üçün də Soyuq müharibə dövründə olduğu kimi rus təhlükəsini yenidən Avropaya xatırlatmaq istəyir. Özü başda olmaqla NATO-nun fəaliyyətinin təkmilləşdirmək istəyi var və 24 mart 2022 NATO Sammiti qərarları Rusiya üçün çox da çəkindirici rol oynamasa da NATO-nun möhkəmlənməsini göstərmək və Avropa Birliyində fikir ayrılıqlarının aradan qaldırılması baxımından əhəmiyyətlidir [10]. Bayden hələ hakimiyyətə təzə gələndə yeni dünya nizamına ABŞ-ın rəhbərlik edəcəyini və bu məqsədlə də yeni "demokratiya platforması" yaratmaq istəyini vurğulamışdır. " Demokratiya platforması" ətrafında topladığı dövlətlərlə

yeni cəbhə yaratmaq istəyində həm Hindistan, həm də Cənub-Qərbi Asiya dövlətlərindən qarşılıq alması çətindir.

22 mart 2022 İslam Əməkdaşlıq Təşkilatının İslamabaddakı sammitinə dəvət edilən Çin Xarici İşlər Naziri Vanq Yi çıxışında bir neçə müzakirəyə açıq ana maddəyə toxunmuşdur: birincisi, İslam dünyası ilə əməkdalıq etmək istədiyini və ortaq tarixi kök və missiyalara sahib olan iki mədəniyyətin də ortaq gəmidə olduqlarını vurğulayaraq problemlərin həllində koordinasiyalı hərəkət etməyi təklif etdi. Bu ABŞ-ın "demokratiya platforması"na qarşı birlikdə hərəkət etməyə bir çağırış idi. Ikinci, Qərb-mədəniyyətlərin toqquşmasından danışır, amma biz-mədəniyyətlərin əməkdaşlığına baxaq, mədəniyyətlərimizi tanıyaq, bunun üçün də bir qurum yaradaq və təhlükəsizlik konsepsiyası formalaşdıraq [11]. Sanki burada ABŞ-ın qurduğu platformanın bizi, sizi hədəf alacağını vurğulayır. Və Çinin bu mesajları bir növ yeni qütblənmənin mesajları kimi səslənir.

ABŞ prezidenti Co Bayden ölkənin başlıca şirkət rəhbərləri ilə görüşdə səsləndirdiyi "yeni dünya nizamı qurulacaq və biz buna liderlik etməliyik" sözlərindən sonra Avropa səfərinə çıxır. Baydenin yeni dünya nizamı ilə bağlı sözləri həm də sabiq dünya nizamının təşkilatlandırılmış halı olan Birləşmiş Millətlər Təşkilatı və Təhlükəsizlik Şurasının ləğv edilməsi və ya revizisiyasını nəzərdə tutursa, bu, çox qəribə və köklü dəyişikliklər ərəfəsində olduğumuzu göstərir.

Bu savaşda ABŞ Ukraynanı fəda mı etdi? ABŞ-ın "kara hakimiyyəti nəzəriyyəsi" və "kənar kuşak nəzəriyyəsi"ndə də göründüyü kimi əsas məqsədi Avropa və Rusiyanı yaxınlaşması və inteqrasiyasına imkan verməməkdir. Və Ukrayna savaşında da ABŞ-ın prioriteti Avropada Rusiyaya qarşı qorxu yaradaraq ətrafında birləşdirmək və Rusiyanı maksimum zəiflətməkdir. Fransa və Almaniya başda olmaqla bunu indilik bacarmış görünsə də gələcəkdə işlərin fərqli istiqamətdə davam edəcəyi ehtimalını da düşünmək lazımdır.

***Nəticə*** olaraq deyə bilərəm ki, müharibənin başında Qərb NATO-nun Ukraynaya hərbi dəstək olmayacağını bildirməsinə baxmayaraq artıq ağır silahlarla kömək ediyini görürük. Hətta Lavrov İngiltərə xüsusi təyinatlılarının Ukraynada görüldüyünü və onlara müdaxilə ediləcəyini dedi. M.Çavuşoğlu isə "Ukrayna müharibəsini bitirmək istəməyən qüvvələr var" deyərək Qərbi nəzərdə tutmuşdu. Lavrovun davamlı Zelenskini aktyor adlandırması və "Zelenski Rusiya ilə görüşmə və danışıqları sadəcə aparırmış kimi edir" deyərək bir növ onun Qərbdən yönləndirildiyinə diqqət çəkir. Bu da onu göstərir ki, Ukraynada razılıq Rusiya-Ukrayna arasında deyil, Qərb-Rusiya arasında olacaq. Müharibənin rusların tam da "nüvə silahı" dediyi yerdə dayandırılacağını düşünürəm, həmin ana qədər Rusiyaya nə qədər zərər verilsə Qərbin xeyirinədir. Məhz Qərbin Türkiyənin sanksiyalara qoşulmamasına baxmayaraq Türkiyəyə təzyiq göstərməməsinin səbəblərindən biri də NATO üzü dövlətlərdən birinin Rusiya ilə danışıqlar masasına oturması qapısının açıq olmasını istəmələridir. Çünki, Rusiyanın da dərhal Qərblə masaya oturmayacağını və Türkiyənin vasitəçi olacağını bilirlər. Son olaraq "III Dünya müharibəsi ola bilər mi", "Nüvə müharibəsi olar mı" kimi suallara cavab olaraq Ukrayna problemi üzərindən deyil, gələcəkdə bəlkə Uzaq Şərqin də içərisində olduğu qarşıdurma halında qarşılaşa bilərik. İndilik bu kimi xaos yaradan populist çıxışların sadəcə formalaşdırılmaqda olan yeni dünya nizamından diqqəti yayındırmaq üçün istifadə edildiyini düşünürəm.

## ƏDƏBİYYAT

1. Cihan Kalın. Ukrayna Krizi Sonrasinda Değişen Avrupa Birliği Rusya İlişkileri. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, Avrupa Birliği Anabilim Dalı. İstanbul, 2018, 118 s. - http://nek.istanbul.edu.tr:4444/ekos/TEZ/58097.pdf [Müraciət tarixi: 01.06.2022].
2. Putin'in 2007 Münih Konuşması, 2018. - https://www.youtube.com/watch?v=WAavE0GQWG4 [Müraciət tarixi: 01.06.2022].
3. Mehmet Ali Güllür. Ukrayna'da 'Yeni Dünya Düzeni' Çarpışması / Cumhuriyet, 24 Mart 2022. - https://www.cumhuriyet.com.tr/yazarlar/mehmet-ali-guller/ukraynada-yeni-dunya-duzeni-carpismasi-1918821 [Müraciət tarixi: 01.06.2022].
4. Murat Aslan. Rusya'nin Ukrayna'ya Saldirisinin Siyasi Ve Askeri Değerlendirmesi / SETA Perspektif, Şubat 2022, Sayı 332, s.1-4. - https://setav.org/assets/uploads/2022/02/P332.pdf [Müraciət tarixi: 01.06.2022].

5. Mehmet Çağatay Güler. Rusya-Ukrayna Krizinin Savaşa Evrilen Süreci Sahadaki Durum Ve Olasi Senaryolar / SETA Perspektif, Şubat 2022, Sayı 331, s.1-3. - https://setav.org/assets/uploads/2022/02/P331.pdf [Müraciət tarixi: 01.06.2022].
6. Mustafa Zafer Soydan. Rusya-Ukrayna Savaşı'nda Yeni Bir Dönem Mi Başlıyor? / Sakarya Üniversitesi, TÜRKMER, 2022-2, s.1-5. - https://turkmer.sakarya.edu.tr/sites/turkmer.sakarya.edu.tr/file/Rusya_Ukayna_Savasinda_Yeni_Bir_Donem_Mi_Basliyor.pdf [Müraciət tarixi: 01.06.2022].
7. ABD 3. Dünya Savaşı'na neden olmadan Ukrayna'ya nasıl yardım edebilir? / Euronews, 08/03/2022. - https://tr.euronews.com/2022/03/08/abd-3-dunya-savas-na-neden-olmadan-ukrayna-ya-nas-l-yard-m-edebilir [Müraciət tarixi: 01.06.2022].
8. Hasan Ebu Talip. AUKUS ittifakı: Çin'i kuşatmak için bir adım daha / İndependent, Türkçe, 23 Eylül 2021. - https://www.indyturk.com/node/414581 [Müraciət tarixi: 01.06.2022].
9. Tarık Oğuzlu. NATO ve Yeni Dünya düzeni // Güvenlik Yazıları Serisi, No 20, Ekim 2019, s.1-7. - https://www.researchgate.net/publication/337306942_NATO_ve_Yeni_Dunya_Duzeni [Müraciət tarixi: 01.06.2022].
10.Yıldız Deveci Bozkuş, NATO Zirvesi: Yeni Avrupa Güvenlik Mimarisinden Küresel Güvenliğe / Anadolu Ajansı, 25.03.2022. - https://www.aa.com.tr/tr/analiz/nato-zirvesi-yeni-avrupa-guvenlik-mimarisinden-kuresel-guvenlige/2545530 [Müraciət tarixi: 01.06.2022].
11. Çin, İslam İş Birliği Teşkilatı toplantısına davet edildi, 2022-03-22. - https://www.criturk.com/cin-islam-isbirligi-teskilati-toplantisina-davet-edildi/ [Müraciət tarixi: 01.06.2022].

**МЕЛЕКХАНУМ САФАРЛЫ**
*Бакинский Инженерный Университет, Экономика и Менеджмент*

## КОНКУРЕНЦИЯ РОССИИ И США В РОССИЙСКО-УКРАИНСКОЙ ВОЙНЕ

Геополитические процессы в мире являются показателем создания нового мирового порядка. США, лидер однополярной системы, хочет мобилизировать всех своих союзников набирающих мощь России и Китая. Воспользовавшись геополитической ситуацией, Россия осуществляет как империалистические меры, так и и оказывает давление на запад для выполнения своих требований. В данной статье описываются интересы и дальнейшие планы сторон. В статье также прогнозируется нехватка продовольствия и экономический застой во всем мире после войны.

*Ключевые слова*: Россия, США, Украина, НАТО, Китай, западный мир, Джо Байден, Путин.

**MELEKKHANIM SAFARLI**
*Baku Engineering University, Economics and Management*

## RUSSİA-US COMPETİTİON İN RUSSİA-UKRAİNE WAR

Geopolitical processes in the world are an indicator of the creation of a new world order. The United States, the leader of the unipolar system, wants to re-mobilize its allies against the rising power of Russia and China. Taking advantage of the geopolitical situation, Russia is both pursuing its imperialist interests and exerting pressure on the West to comply with its demands. And this article is about the interests and future plans of the parties. It also predicts food shortages and economic stagnation around the world after the war.

*Keywords*: Russia, USA, Ukraine, NATO, China, Western world, Co Biden, Putin.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: s.e.f.d. Tofiq Əhmədov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 327:930.22**

**ANAR QƏDİROV**
*Bakı Dövlət Universitetinin*
*Politologiya və sosiologiya kafedrasının doktorantı*
**qaanar14213@sabah.edu.az**

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ REALİST FİKİRLƏRƏ NƏZƏRİ BAXIŞ

*Məqalədə bu gün Beynəlxalq münasibətlər sistemində xüsusi yer tutan Realizm nəzəriyyələrinin hadisə və prosesləri hansı formada izah etmələri qeyd edilərək, fikirlərin müqayisəsi aparılmışdır. Hər hansı A dövlətinin X vəziyyətində hansı formada davranacağı və ya davranmalı olduğu kimi sualların cavablandırılmasında hər iki nəzəriyyənin nümayəndələrindən açıqlamalar təqdim edilmiş, buna cavab olaraq tənqidlər önə sürülmüşdür. Həmçinin nəticədə nəzəri yanaşmanın özünəməxsus xüsusiyyətləri qeyd edilərək ümumi mülahizə təqdim edilmişdir.*

*Açar sözlər*: Beynəlxalq münasibətlər, Beynəlxalq siyasət, nəzəri Debatlar, Realizm, Behavioralism, Liberalizm, Sistem.

***Giriş***. Beynəlxalq aləmdə baş verən proseslərin izahı və proqnozlaşdırılmasında əhəmiyyətli yer tutan nəzəri yanaşmaların araşdırılması və müqayisəsi xüsusən XX əsrin ortalarından özü aktuallığını qorumaqdadır. Siyasi aləmdə verilən qərarlar, həyata keçirilən siyasətlərin hadisələrlə əlaqələndirilməsi sahəsində bu gün ən önəmli yer tutan nəzəriyyələr sırasında (neo)Realizm seçilməkdədir. Hər iki nəzəri fikirlərin bəzi hallarda oxşar xüsusiyyətləri olsa da, hadisələri fərqli prizmadan izah etmələri səbəbindən fərqli nəticələr əldə edilə bilir. Doğrudur bu sahədə proseslərin izahı baxımından nəzəri cərəyanların sayı kifayət qədərdir və sözügedən nəzəri yanaşmaların önə çıxması digərlərinin mövcudluğunun şübhə altına alınması və yaxud fikirlərin tam yanlış olması anlamına gəlməməlidir.

Realizm Beynəlxalq münasibətlər nəzəriyyə sistemində ilkin ideya və fikirlərin yaranmasında böyük rol oynamış və hazırda da öz aktuallığını qoruyan nəzəriyyələrdən biri, bəlkə də birincisidir. İlkin nəzəri fikirlər və onların meydana gəlməsi, hadisələrin izahındakı rolunu və ən önəmlisi hadisələrin izahında faktlara önəm verilməsi baxımından realizm nəzəriyyəsinin önəmi xüsusi olaraq qalmaqdadır.

Bir yanaşma olaraq nəzərdən keçirdikdə nəzəriyyənin əsasları Fukididin siyasi fikirlərinə dayanmaqdadır. Fukidid yaşadığı dövrdə baş verən siyasi prosesləri təhlil edərək özünün Peloponnes müharibələri adlı əsərində təqdim etmişdir. Önun fikirlərinə görə qədim dövrdə Yunanıstan şəhər dövlətlərinin – Afina və Spartanın hərbi və iqtisadi cəhətdən inkişaf etmələrinin əsas səbəbi kimi xarici və digərindən gələ biləcək təhdidlərə qarşı müqavimət göstərə biləcək gücə qarşı olan ehtiyacdan qaynaqlanmışdır [5]. Xarici təhdid anlayışına bir qədər geniş yanaşdıqda, məsələn daxildə hər bir şəhər-dövlətlərinin bir-biri ilə mübarizədə olduğuna baxmayaraq digər, daha böyük təhdid olan Əhəməni dövlətinin müdaxiləsinə qarşı kiçik şəhər dövlətlərin birlikdə çıxış etmələrini də görə bilərik. Yəni burada "təhdid" anlayışının ölçüsü və miqyası problemi ortaya çıxır ki, klassik realizm bu məsələlərin araşdırılması və izahına gərəkli diqqəti ayırmamışdır. Burada digər amil olan "sağ qalmaq" anlayışı realizmə görə dövlətlərin əsas xarici siyasət özəyini təşkil etməkdədir. Nəticə olaraq tarixi dövrün analizini apardıqda daxildə və regionda bir-biri ilə mübarizədə olmasına baxmayaraq, region xarici təhdidlərə qarşı birləşmə hallarının olduğunu görə bilərik.

Yuxarıda qeyd edilən yanaşmanın daha da aydın olması üçün digər realist nəzəriyyəçi XVI-XVII əsrdə yaşamış T.Hobbsun fikirlərinə diqqət etməkdə fayda var. Belə ki, T.Hobbsa görə dövlətlərin davranışlarını xarakterizə etmək üçün onların təbiətinə baxmaq lazımdır. Hobbs dövlət davranışlarını izah etmək üçün ilk öncə bunun insan təbiətindən qaynaqlandığını və insanın "eqoist" varlıq olmasını önə sürür[3]. O insanların əldə edə biləcəyi və malik olduğundan daha çoxuna can atdığını və digərlərinin üzərində dominantlıq etməyə meylli bir varlıq olaraq xarakterizə edir. Bunu beynəlxalq aləmə tətbiq edərək dövlətlərin hamının hamıya qarşı müharibə şəraitində olduğunu bildirir. Onun digər bir bənzətməsi isə Dövlətlərin Leviafan olaraq izahı olmuşdur ki, bu da mifik bətehbətdir və izahında onun da qidalanma və böyümə ehtiyacının olduğunu və dövlətlərin də eyni xətlə hərəkət etdiyini bildirir.

Yuxarıda qeyd edilənləri və digər fikirləri ümumiləşdirdikdə realizm nəzəriyyəsinin aşağıdakı əsas fikirləri önə çıxır:

- Dövlətlər beynəlxalq münasibətlərin əsas aktorlarıdır;
- Dövlətin xarakteristikası onun suveren, müstəqil və öz-özünü isarəetmə qabiliyyətinin olmasıdır;
- Dövlətlərin siyasətində əsas hərəkətverici qüvvə güc əldə etmək, təhlükəsizlik və milli maraqların təminatıdır;
- Dövlətlər insanlar kimi milli maraq əsasında hərəkət edirlər;
- Beynəlxalq münasibətlərin mərkəzi problemi onun Anarxik olmasıdır, bu o deməkdir ki, beynəlxalq sistemdə vahid mərkəzi idarəedici yoxdur;
- Dövlətlərin aqressiv davranışının əsas səbəbi beynəlxalq sistemdəki dünya dövlətinin olmaması problemidir ki, bu da konfliktləri qaçınılmaz edir;
- Beynəlxalq təşkilatlar və hüquq beynəlxalq münasibətlərdə müəyən rol oynayır, ancaq o halda effektiv olar ki, gücə dayansın;
- Dövlətlərin motivasiyası və davranışını anlamaq üçün əsas açar Güc amilidir. Realizmə görə güc dedikdə hərbi və fiziki güc nəzərdə tutulur[5].

Ötən dövrlər ərzində Türkiyə-Azərbaycan münasibətlərinə diqqət etdikdə bu sahədə realist yanaşmanın, əsasən maraq amilinin öncül mövqedə olduğunu görə bilərik. Belə ki, hər iki dövlətin geosiyasi mövqeyi bölgədə maraqların toqquşmasına səbəb olmuşdur və olmaqdadır [9]. Hələ Osmanlı imperiyası dönəmində Cənubi Qafqazın əldə olunması Osmanlı İmperiyasının xarici siyasət istiqamətlərindən biri olmuşdur. Tarixdə bir çox hallarda hətta bu sahədə uzunmüddətli müharibələr də aparılmışdır. Belə ki, müxtəlif dövrlərdə Ağqoyunlular, Səfəvilər və Ruslarla müharibələr olmuş və hətta müəyyən dövrdə bölgə Osmanlıların nəzarəti altında qalmışdır. XVIII əsrdə Çar Rusiyasının bölgəyə nəzarət etməsi Osmanlının regiona olan maraqlarının qarşısını almamış, əksinə 1917-ci ildə Bolşevik inqilabı nəticəsində Rusiyada qurulan yeni dövlətin zəifləməsilə müstəqillik əldə edən Azərbaycan Demokratik Cümhuriyyətinə siyasi-iqtisadi və hərbi dəstək belə göstərilmişdir. Ancaq sonradan SSRİ-nin qurulması və güclənməsi, həmçinin Osmanlının I dünya müharibəsindən məğlub olaraq çıxması regiondakı təsir gücünün zəifləməsinə səbəb olmuşdur.

Yuxarıda qeyd edilən fikirlər dövlətlərin davranışlarını tam olaraq izah edə bilməsə də, bir çox hallarda bu sahədə əsas mövqedə durmuşdur. Belə ki, tarixi proseslərdə bəzi istisna halları çıxsaq (məsələn iki dünya müharibəsi arasındakı dövrdə liberal ideya və fikirlər daha üstün mövqedə olmuşdur) realist baxış beynəlxalq münasibətlər nəzəriyyə sistemində hakim mövqedə olmuşdur. Təsadüfi deyildir ki, XIX əsrdə Almaniya birləşdikdən sonra realpolitik siyasət xəttini tutmuşdur, həmçinin üzün tarixi dövr ərzində beynəlxalq arenada qüvvələr balansı amili və onun qorunub saxlanması siyasəti hökm sürmüşdür[6] (XIX əsr avropa dövlətləri, hər hansı bir dövlətin güclənməsi və balansı pozması halında digərləri müəyyən ittifaqlar formalaşdıraraq balansı saxlamağa çalışırdılar).

İkinci dünya müharibəsindən sonrakı dövr digər nəzəriyyələr kimi Realizmə də təsirsiz ötüşməmişdir. Realist fikirlərin dövrün hadisələrinin izahındakı boşluqlar və Avropa İttifaqı kimi liberal qurumların yaranması nəzəriyyənin tənqidinə və fikirlərdə müəyyən dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Belə ki, beynəlxalq münasibətlərdə dövlətüstü bir təşkilatın qurulmasında atılan ilkin addımlar və dövlətlərin müharibə deyil, əməkdaşlıq yolunu seçməsi (Almaniya və Fransa kimi uzun müddət düşmənçilik mövqeyində olan dövlətlər bunun həlli yolu kimi belə bir təşkilatın qurulmasında əhəmiyyətli rol oynamışdırlar) realizmə qarşı olan tənqidlərin artmasına səbəb olmuşdur. Ancaq sonrakı dövrlərdə Soyuq müharibə dövrünün başlanması artıq 1050-60-cı illərdə realizmin yenidən hakim nəzəriyyə olmasına səbəb olmuşdur. Həmçinin, bu dövrdə realistlər öz fikirlərində bəzi dəyişikliklər etmək məcburiyyətində qalmışdırlar. Belə ki, onlar beynəlxalq sistemin əsas aktoru kimi dövləti görsələr də, bu sahədə beynəlxalq təsisatların da rolunu dövlət qədər olmasa da, müəyyən mənada qəbul etməli olmuşlar [2]. Həmçinin beynəlxalq sistemin anarxik olması fikri də daha çox müzakirə edilən məsələlərdən biri olaraq diqqətə alınmalı olmuşdur.

Bu fikirləri önə çəkən Neo-realizm nəzəriyyəsi digər adı ilə Struktural realizm adından da göründüyü kimi əsas hərəkət verici qüvvənin beynəlxalq strukturun anarxik olmasında görür. Belə ki, neo-realizmə görə sistemin anarxik olmasından əlavə dövlətlərin mövqeyi onların davranışlarını

müəyyən edir. Belə olan halda dövlətlərin davranışlarının müəyyən edilməsi üçün güc anlayışının ölçülməsi gərəkməkdədir. Ümumi yanaşmaya əsasən bütün dövrlər üçün vahid güc qiymətləndirilməsi mümkün deyildir və bu səbəbdən gücün qiymətləndirilməsi real dövrdə müqayisə formasında aparılmaqdadır. Bu məqamda isə gücün meyarları: hərbi, iqtisadi, siyasi və s. ortaya çıxır ki, dövlətlərin gücü bu meyarlar əsasında müəyyən edilərək müqayisəsi aparılır. Hazırda bir çox dövlətlərin güc baxımından dəyərləndirilməsi də məhz bu meyarlar üzərində aparılır. Məsələn ABŞ-ın hərbi gücü, Çinin iqtisadi gücü, Vatikan kimi dini və siyasi mərkəzlərin siyasi gücləri və s.

Son dönəmdə Türkiyənin xarici siyasətinə baxsaq regionda hərbi güc olmaq yolunda bir çox addımlar atmaqdadır. Ötən dövrlərdə NATO ilə öz təhlükəsizliyini təmin edən Türkiyə, hazırda regiondakı proseslərə aktiv müdaxilə edə biləcək gücə nail olmuş və liberal yanaşma olaraq Avropa İttifaqına yaxınlaşmanın o qədər də effektli olmadığını başa düşərək fərdi siyasət xəttini tutmuşdur[6]. Son onillik dövrdə Suriya, İraq kimi qonşu dövlətlərdə həm siyasi, həm də hərbi fəaliyyətlərdə aktiv iştirak edən Türkiyə milli maraqlarını önə çəkərək həm münaqişəli bölgələri sərhədlərindən uzaqlaşdırmaq məqsədli bufer bölgələr yaratmış (Zeytun budağı əməliyyatı və s.), həm də öz fərdi hərəkət etmək qabiliyyətinin olmasını dünyaya nümayiş etdirmişdir. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycana həm hərbi, həm iqtisadi, həm də siyasi baxımdan birmənalı dəstək göstərərək münaqişənin həlli istiqamətində önəmli mövqedə yer almışdır.

Müasir dövr nəzəriyyəçilərindən Con Merşaymer "Böyük güc siyasətinin faciəsi" (The Tragedy of Great Power Politics) adlı kitabında da beynəlxalq sistemin anarxik olması, hamının-hamıya qarşı olması prinsipi dövlətləri tam gücə nail olmağa vadar etməkdədir. O bu prosesi kitabından da göründüyü kimi sonsuz güc istəyi – faciə adlandırmışdır.

Bundan əlavə BM nəzəriyyə sistemində önəmli yer tutmasına baxmayaraq digər nəzəriyyələr kimi realizm də bir çox tənqidlərlə üzləşməli olmuşdur. Onlardan biri realizmin məsələlərə çox sadə yanaşmasıdır və məsələlərin analizdən daha çox konkret olaraq cavablandırılmasıdır. Həmçinin kritiklərə görə realizm "hansı qərar veriləcək?" sualından daha çox "nə üçün baş verəcək?" sualını cavablayır və bu prosesin də milli marağa əsaslandığını bildirirlər. Kritiklər bu halda A dövlətinin B dövlətinə qarşı müharibə etməkdən daha çox ittifaq və əməkdaşlıq etməsinin savaş və dağıntını önləyərək milli marağa xidmət etməyəcəyini hardan bilirik?

Bunun davamı olaraq realistlərin daha çox artıq baş vermiş və baş verməkdə olan prosesləri izah etdiyini və gələcəklə bağlı proqnoz verilməsində yetərsiz olması tənqid edilir. Həmçinin günümüzdə hələ də realistlərin dövləti əsas aktor olaraq qəbul etmələri uzun müddətdir ki, TMK və digər təşkilatların rolunun danılması və proseslərin "big picture" yanaşmasından analiz edilməməsi kimi səbəblərlə tənqid edilməkdədir [9].

Kritik yanaşmaya əlavə olaraq Realizm nəzəriyyəsi perspektivindən, məsələn Türkiyə-Azərbaycan münasibətlərinin bu səviyyədə olmasının səbəblərinin nə olması, niyə məhz Azərbaycanla bu tipli əlaqələrin qurulması tipli sualların cavablanmasında tam əhatəli izah təqdim edə bilməməkdədir.

***Nəticə.*** Hər iki nəzəri yanaşmada qeyd edilən fikirləri ümumiləşdirdikdə deyə bilərik ki, Beynəlxalq münasibətlər sistemində baş verən hadisələrin izahında hər birinin özünəməxsus yeri olsa da, burada tam mənasında izahdan bəhs etmək mümkün görünməməkdədir. Hər bir dövlət subyektinin xarici siyasətdə milli maraq amilini öncəlik olaraq nəzərə alması bir çox araşdırmaçı tərəfindən qəbul edilməkdədir. Ancaq bu məvhuma dövlətlər nə dərəcədə yanaşır? Onlar bu sahədə hansı vasitələrdən istifadə edir və ya ən önəmlisi hansı vasitələrdən istifadə edəcəkdir? Kimi önəmli sualların cavablandırılmasında konkretliyin olmaması bu sahədə insan amilinin mövcudluğundan qaynaqlanmaqdadır. Onun bir sıra vəziyyətlərdə qeyri-rasional qərarlar qəbul etmə "imkanına" malik olması verilən proqnozlarla üst-üstə düşməyə bilir. Təbii ki, bu nəzəri fikirlərin bir kənara atılması anlamına gəlməməli, əksinə onların dəyərini daha da artırmalıdır. Yəni, veriləcək qeyri-rasional qərarların müəyyən edilməsi və aşkarlanması üçün, öncə mümkün rasional ssenarilər analiz edilməli və nəticədə qeyri-rasionallıq məsələsinin müzakirəsi aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Alexander Wendt, "Social Theory of International Politics", Cambridge: Cambridge University Press, 1999, 450 p.

2. Barry Buzan, "From International to World Society?", Cambridge, Cambridge University Press, 2004, 320 p.
3. Berger L.P., Luckmann T.M. The Social Construction of Reality, London: The Penguin Group, 1991, 125 p.
4. Gautam S. D. International Relations and International Security in The 21st Century: The World In Transition, New Dehli: KW Publishers Pvt Ltd, 2014, 38 p.
5. Jackson, Robert ve Sørenson, George, "Introduction to International Relations: Theories and Approaches", Oxford, Oxford University Press, 5th ed., 2013, 179-251 p.
6. Jill Steans, Lloyd Pettiford, Thomas Diez, Imad El-Anis "An Introduction to International Relations theory", Third edition, Pearson Education Limited, 2010, 289 p.
7. McGowan, Lee, "Theorizing European Integration: revisiting neo-functionalism and testing its suitability for explaining the development of EC competition policy?", 2012.
8. Melvyn P.L., David S.P. Origins of The Cold War. New York: Routledge, 1994, 369 p.
9. Wiener Antje, "Constructivism: The Limits of Bridging Gaps", Journal of International Relations and Development, 2003, 252-275 p.
10. Wohlforth C.W. Realism and the End of the Cold War//International Security, Cambridge: The MIT Press, 100-107 p.

**АНАР ГАДИРОВ**
*Докторант кафедры Политологии и Социологии*
*Бакинского Государственного Университета*

## ВЗГЛЯД НА РЕАЛИСТИЧЕСКИЕ ИДЕИ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

В статье сравниваются взгляды теорий реализма, занимающих особое место в системе международных отношений, в какой форме они объясняют события и процессы. При ответе на вопросы, например, как какое-либо государство A повело бы или должно вести себя в ситуации X, представители обеих теорий сделали заявления, в ответ на которые была высказана критика. В результате были представлены общие черты, отмечены особенности теоретического подхода.

*Ключевые слова*: Международные отношения, Международная политика, Теоретические дебаты, Реализм, Бихевиорализм, Либерализм, Система.

**ANAR GADIROV**
*Doctoral student of the Department of Politology and Sosiology*
*of Baku State University*

## A VIEW OF REALISTIC IDEAS IN THE SYSTEM OF INTERNATIONAL RELATIONS

The article compares the views of the theories of Realism, which have a special place in the system of international relations, in what form they explain events and processes. In answering questions such as how any state A would or should behave in situation X, statements were made by representatives of both theories, in response to which criticism was put forward. As a result, the general features were presented, noting the peculiarities of the theoretical approach.

*Keywords*: International Relations, International Politics, Theoretical Debates, Realism, Behavioralism, Liberalism, System.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: f.ü.f.d. Nazim İbadov, s.e.d. Adil Mirabdullayev.*

**UOT 94(479.24)**

**FƏRMAN SƏMƏDOV**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
**samadov@mail.ru**

# SUMQAYIT KİMYA SƏNAYESİNİN İNKİŞAFI (2005-2008-ci illərdə)

*Məqalədə Azərbaycan Respublıksı Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" proqramına uyğun olaraq Sumqayıt kimya sənayesinin inkişaf etdirilməsi, kimya və neft-kimya məhsullarına dünya bazarında artan tələbatı nəzərə alaraq ölkənin əsas karbohidrogen ehtiyatlarına və təbii resruslarına hesablanmış perspektivli investisiya layihələrinin işlənib hazırlanması məsələləri tədqiqata cəlb edilmişdir. Bununla yanaşı Sumqayıtda kimya sektorunun işinin sabitləşməsi üçün ölkə rəhbərliyi və Nazirlər Kabineti tərəfindən həyata keçirilən tədbirlər, kimya sənayesinin inkişafı istiqamətləri mövzusunda elmi-praktik konfransın keçirilməsi, enerji daşıyıcılarının qiymətində dəyişikliklərin Sumqayıtın kimya sənaye müəssisələrinin fəaliyyətinə təsiri və kimya sənayesinin digər sahələri araşdırılmışdır.*

*Açar sözlər:* Sumqayıt, kimya sənayesi, Azərikimya, Etilen-polietilen, Sintezkauçuk, Səthi Aktiv Maddələr, Üzvi sintez, Məişət malları.

***Giriş***. Sumqayıtın sənayesinin əsasını kimya sənayesi təşkil edir. XXI əsrin əvvəllərindən başlayaraq kimya sənayesinin inkişafı üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Əvvəlki illərlə müqayisədə 2003-cü ildən başlayaraq kimya sənayesi daha dinamik inkişaf etmiş, istehsalın artım sürəti 2003-cü ildə 54,0 faiz, 2004-cü ildə 60,0 təşkil etmişdir. Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı kimya sənayesinin sosial-iqtisadi göstəricilərinin daha da yaxşılaşdırılması, həyata keçirilən tədbirlərin sürətləndirilməsi baxımından 2005-ci il sentyabr ayında "Kimya sənayesinin inkişafı istiqamətləri" növbəti elmi-praktik konfransın keçirilməsi barədə qərar qəbul etmişdir.

Şəhər rəhbəri əldə olunan naliyyətlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublıksı Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" nəticəsində mümkün olduğunu xüsusi vurğulayaraq demişdir ki, Proqramda şəhərimiz üçün bir sıra həyati vacib məsələlər, o cümlədən neft-kimya sənayesinin müasir texnologiya əsasında bərpası və inkişafı ilə bağlı işlər öz əksini tapmışdır [2, s.3].

2005-ci ilin məlumatına görə "Azərikimya" Dövlət şirkəti üzrə istehsal olunan məhsul Sumqayıt şəhəri üzrə ümumi sənaye istehsalının 60-65 faizini təşkil edir. Şirkət müəssislələrində istehsal olunan məhsullar dünyanın 20-dən çox ölkəsinə ixrac olunur. İlin əvvəlindən bəri Qərbi Avropa, MDB ölkələrinə, Türkiyə və İran İslam Respublikasına 400 milyard manatlığa qədər müxtəlif adda kimya məhsulları göndərilmişdir [16, s.2].

2005-ci ilin birinci rübündə Sumqayıt kimya və neft-kimya sənayesində məhsul buraxılışı 141,5 milyard manat olmuş və 2004-cü ilin müvafiq dövrünə nisbətən istehsalın həcmi 16,0 faiz və 19,5 milyard manat artmışdır. Emal sənayesinin ümumi məhsul buraxılışında kimya sənayesi məhsullarının xüsusi çəkisi 57,5 faiz təşkil etmişdir [21, s.3].

Kimya və neft-kimya kompleksini əsas emal qurğusu olan EP-300- də Respublikada mövcud imkanlar daxilində piroliz xammalları ilə təmin etmək üçün bir sıra məsələlər həll olunmalıdır. Müəssisəni illik xammalla-nafta ilə təminatını 400 min tona çatdırılması daha məqsədəuyğun olardı. Halbuki müəssisənin illik xammal təminatı 250 min ton təsdiq edilmişdir. Ildə 400 min ton xammalın reallaşması nəticəsində müəssisə üzrə əmtəəlik məhsulu 625 milyard manata çatdırmaqla 160 milyard manat mənfəət əldə etmək mümkündür.

"Azərikimya" Dövlət Şirkətinin rəhbərliyi tərəfindən kimya və neft-kimya məhsullarına dünya bazarında artan tələbatı nəzərə alaraq ölkənin əsas karbohidrogen ehtiyatlarına və təbii resruslarına hesablanmış perspektivli investisiya layihələri işlənib hazırlanmışdır. Investisiya layihəsinin ilkin mərhələsində EP zavodunun rekonstruksiyası və polipropilen istehsalatının tikilməsi nəzərdə tutulmuşdur [16, s.3].

“Azərikimya” Dövlət Şirkətinin “Etilen-polietilen” zavodu kimya sənayesində istərsə də Sumqayıt şəhər sənayesində xüsusi yer tutan müəssisələrdən biridir. 2005-ci ilin yekunlarına görə 375,1 milyard dəyərində əmtəəlik məhsul istehsal olunmuşdur. 2005-ci ilin 23 noyabr tarixində EP-300 istehsalatında M-1 markalı kompressorun ehtiyat hissəsinin sıradan çıxması ilə bağlı müəssisənin fəaliyyətində müəyyən problemlər yaranmışdır. Şirkət rəhbərlərinin və mütəxəssislərin köməkliyi ilə bu məsələ operativ şəkildə öz həllini tapmış, Rusiya Federasiyasından gətirilmiş ehtiyat hissəsi 1 ay müddətinə quraşdırılmış, zavodda istehsal bərpa edilmişdir. Böşdayanma nəticəsində xammalların miqdarına görə 2004-cü ilə nisbətən 100 faiz istehsal həcmi olsada, faktiki əmtəəlik məhsul istehsalı müvafiq dövrə nisbətən 87 faiz təşkil etmişdir. Beləliklə 2005-ci ildə məhsul çeşidlərini naturada 96 faiz yerinə yetirmək mümkün olmuşdur [12, s.4].

Kimya sektorunun işinin sabitləşməsi üçün ölkə rəhbərliyi və Nazirlər Kabineti tərəfindən bu sahənin əsas xammalı olan nafta ilə təminatı əsas proqnozlaşdırılmış həddə-250 min tona çatdırılmışdır. Bu da kimya müəssisələrinin xüsusilədə EP zavodunun ahəngdar işləməsinə möhkəm baza yaratmışdır. Nəticə olaraq iyun-avqust aylarında proqnoz tapşırıqlara artıqlaması ilə əməl edilmişdir. Avqust ayında daha yüksək nəticə əldə olunmuşdur. 19,5 milyard manat əvəzinə 38,9 milyard manatlıq əmtəəlik məhsul istehsal edilmişdir. Yanvar iyul aylarında balans mənfəəti 41 milyard manat həddinə çatmışdır. Ümumilikdə ilin əvvəlindən 37 min 160 ton yüksək təzyiqli polietilen, 2008 min ton propilen istehsal olunmuşdur. Xalq istehlakı mallarının həcmi 3,3 dəfə artmışdır. İstehsal edilmiş məhsulların 70 faizi xarici ölkələrin satış bazarlarına göndərilirdi. Yüksək təzyiqli polietilenin əsas alıcısı Türkiyə şirkətləridir. Bundan başqa,MDB ölkələrinə, Cinə və İran İslam Respublikasına da məhsul ixrac edilir [16, s.3].

2005-ci ilin iyul ayında Sumqayıt kimya və neft-kimya sənayesində məhsul buraxılışı 308,2 milyard manat olmuş və 2004-cü ilin müvafiq dövrünə nisbətən istehsalın həcmi 23,6 faiz və ya 58,9 milyard manat olmuşdur. Emal sənayesinin ümumi məhsul buraxlışında kimya sənayesi məhsullarının xüsusi çəkisi 67,9 faiz təşkil etmişdir. Yüklənmiş məhsulların həcmi isə 291,2 milyard manat təşkil etmişdir və kimya məhsul istehsalının həcmində yüklənmiş məhsulun xüsusi çəkisi 94,7 faiz, ümumi yüklənmiş məhsulların həcmində yüklənmiş kimya məhsullarının xüsusi çəkisi 68,0 faiz, məhsul qalığının həcmi isə 27,6 milyard manatdır. Kimya məhsullarının qalığı ümumi qalığın 54,8 faizini təşkil etmişdir [20, s.2].

Faktlar və rəqəmlər sübut edir ki, kimya sahəsinin güclü inkişaf etdirilməsi respublika iqtisadiyyatı üçün ən ümdə məsələlərdən biridir. Ölkəmizdə neft hasilatının artması, karbohidrogen ehtiyatlarından səmərəli istifadə olunması sayəsində kimya və neft-kimya kompleksinin əsaslı surətdə yeniləşməsinə geniş imkanlar açmışdır. “Neft-yağ” istehsalat birliyindən alınan birbaşa qovulmuş benzin nafta Etilen-polietilen zavodundakı EP-300 qurğusu üçün əsas xammal bazasını təşkil edir. Burada məhsulları emalı nəticəsində bütövlükdə kimya kompleksi hərəkətə gəlir.

Kimyaçı mütəxəssislərimizin fikirincə bütövlükdə kimya sənayesini hərəkətə gətirmək, məhsulların son mərhələyədək emalı üçün bir sıra işlər görülməli, texniki-təşkilati işlər həyata keçirilməli, yerli xammaldan səmərəli istifadə etməklə yeni çeşidlı məhsulların texnologiyası mənimsənilməlidir [16, s.3].

“Azərbaycan Respublikası regionlaeın sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” Sumqayıt şəhəri üzrə yerinə yetirilməsi ilə bağlı şəhər icra hakimiyyətinin başçısının sərancamı ilə yaradılmış kommissiyanın hesabatında qeyd edilir ki, “Səthi Aktiv Maddələr” zavodunda İondəyişdirici membran üsullu yeni kaustik soda və xlor, “Etilen-polietilen” zavodunda polipropilen, Pirokondensatın və ağır qətranın təkrar emalı, “Üzvi sintez” zavodunda amonyak və karbomid istehsalatlarının tikintisi 2004-2008-ci illər üçün planlaşdırıldığından müvafiq qaydada texniki şərtlərin işlənib hazırlanması, tikiləcək obyektlərin dəyərinin müəyyənləşdirilməsi sahəsində lazımi işlər görülmüşdür.

“Səthi Aktiv Maddələr” zavodunda müxtəlif markalı xlorparafin məhsullarının istehsalının bərpası üzrə xammalların alınması və istehsal olunan məhsulun satışı istiqamətində danışıqlar aparılmışdır. Karboksid-metilselüloza istehsalının bərpasına lazım olan xammalların alınması üçün müqavilələr bağlanmışdır [2, s.3].

EP-300 qurğusuna daxil olan təbii yanacaq qazının tərkibində 8 faizə qədər piroliz üçün zəruri olan karbohidrogen vardır. Təbii yanacaq qazı ilə benzin birgə piroliz etməklə sutkada 15 tona qədər əlavə etilen alınacaqdır ki, bu da həmin miqdarda yüksək təzyiüli polietilen məhsulu deməkdir. Iqtisadi səmərəliliyi ilə üstün olan bu elmi işin layihələdirilməsi başa catdırılmış və patent üçün təqdimat hazırlanmışdır.

Kimya sənayesinin hərəkətə gətirilməsində benzolun da xüsusi çəkisi vardır. Tətbiq sahəsi genişdir. Bu məhsul hazırlanan etilbenzol, alkilbenzol, yuyucu vasitələr, eləcədə sintetik kauçuk istehsalında xammal kimi istifadə edilir. Benzol istehsalatını qurmaq isə güclü investisiya tələb edir. Mütəxəssislərimiz benzolun ucuz başa gələn texnologiya əsasına alınmasına daha çox üstünlük veririlər. Məhlulun istehsalı üçün müəssisədə xammal bazası mövcuddur [16, s.3].

2005-ci il oktyabrın 12-də Ü.Hacıbəyov adına "Kimyaçı" mədəniyyət sarayında dövlət və hökumət nümayəndələrinin, Milli Məclisin üzvlərinin, Respublikanın tanınmış alimlərinin, ali və orta ixtisas təhsili ocaqlarının, şirkət, müəssisə, idarə və təşkilatlarının rəhbərlərinin iştirakı ilə "Kimya sənayesinin inkişafı istiqamətləri" mövzusunda elmi-praktik konfrans keçirilmişdir. Konfrans iştirakçıları ilk öncə kimya və neft-kimya müəssisələrinin, Sumqayıtın elmi-tədqiqat mərkəzlərinin, yeni yaranmış istehsal sahələrinin, sahibkarlıq subyektlərininin fəaliyyətini əks etdirən sərgi ilə maraqla tanış olmuş, təqdim edilən məhsullar, texniki yeniliklər barədə işgüzar fikir mübadiləsi aparmışlar.

Görkəmli Azərbaycan alimi akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfransı qısa giriş sözü ilə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Vaqif Əliyev açmışdır. Konfransda müzakirə olunan məsələ ilə bağlı geniş qətnamə qəbul olunmuşdur [19, s.3].

Neft sənayesi əsasən neft məhsulları üzərində aparılan texnoloji proseslərdən ibarətdir və burada ilkin xammalın tərkibi xüsusi rol oynayır. Məlumdur ki, hətta bir qurğunun müxtəlif horizontallarında çıxarılan neftlərin fiziki-kimyəvi xassələri fərqlənir. Xam neftin məhsulu müxtəlif növ neft qarışığından ibarət olduğuna görə texnoloji proseslərdən eyni çıxım almaq problemləri mövcuddur. Kimya sənayesində mövcud texnoloji qurğuların əksəriyyəti yüksək təzyiq və tempratur altında işlədiyinə görə burada daim yanğın, partlayış qorxusu ilə müşayiət olunan gözlənilməz risq amilləri yarana bilər. Layihəçi hər bir texnoloji prosesə, onun qurğu və avadanlığına, idarə olunmasına fərdi yanaşmalıdır, dünya səviyyəsinə layiq olan yeni mütərəqqi istehsalat yaratmalıdır [16, s.3].

Dövlət Tikinti və Arxitektura Komitəsi səlahiyyətində olan normativ sənədlərin qüvvədə saxlanılması və qonşu dövlətlərlə bu sahədə zəif əlaqələrun olması layihə sənədlərinin beynəlxalq standartlar çərçivəsində hazırlanmasına ciddi maneə yaradırdı. Azərbaycan Respublikasının müstəqillik qazanması və az bir vaxtda inkişaf etmiş dünya dövlətləri ilə sıx əlaqədə yeni texnologiyanın tətbiqi, onların mövcud şəbəkələrə qoşulması işlərində dünya standartlarına cavab verən layihə sənədlərinin işlənməsini tələb edir.

Dövlət Layihə İnsititutu bu sahədə mühüm addımlar atmışdır. İnstitutun işlədiyi layihə smeta sənədləri müasir dünya standartlarına tam cavab verir və aparıcı şirkətlər tərəfindən rəğbətlə qarşılanır.

Dövlət Layihə İnstitutu Azərbaycan Milli Elmlər Akademiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Avropa Şurasının İri Qəzalar üzrə Tədris İnformasiya Mərkəzi ilə, Rusiya Federasiyası Ukrayna və digər ölkələrin aparıcı İnstitutları ilə sıx əlaqədə işlər aparır. Kimya sənayesinin layihələndirilməsində baş layihəçi funksiyasını həyata keçirirdi [3, s.2].

2005-ci ilin 9 ayı ərzində kimya və neft-kimya sənayesində məhsul buraxılışı 480,4 milyard olmuş və keçən ilin müvafiq dövrünə istehsalın həcmi 27,0 faiz və ya 102,3 milyard manat artmışdır. Emal sənayesinin ümumi məhsul buraxılışında kimya sənayesi məhsullarının xüsusi çəkisi 70,0 faiz təşkil etmişdir. Yüklənmiş məhsulların həcmi isə 467,0 milyard manat olmuşdur [4, s.2].

2005-ci ildə dövlət zəmanəti ilə alınmış buxar-generator kompleksinin krediti üçün nəzərdə tutulan vəsaitin ödənişi cədvələ uyğun həyata keçirilmişdir. Bunda başqa dövlət büdcəsinə 14,1 milyard manat, Dövlət Soial Müdafiə Fonduna 5,065 milyard manat vəsait köçürülmüşdür.

Əvvəlki illərdən fərqli olaraq 2005-ci ildə müəssisəyə dövlət tərəfindən heç bir güzəşt verilməmiş, lakin kollektivin gərgin əməyi sayəsində ötən il bir çox sahələrdə yüksək iqtisadi göstəricilərə nail olunmuşdur. İl ərzində 53204 ton polietilen, 84193 ton etlen-propilen, 20698000 hekokalori bu-

xar, 144169,2 mkvts elektrik enerjisi istehsal olunmuşdur. Texniki sahələrdə də irəliləyiş baş vermişdir [12, s.3].

"Etilen-polietilen" zavodunda 09 saylı sexdə müasir tipli qablaşdırıcı qurğu quraşdırılmışdır. 14 Salı sexdə "A" tipli polietilenin texnoloji sintez xətti bərpa olunuşdur. "EP-300" istehsalatında əlavə piroliz xammalı PPF-in istehsala verilməsi texnologiyası mənimsənilmişdir.

"Üzvi sintez" zavodunda epoksid qətranı istehsalı üçün bərpa və tənzimləmə işləri başa çatdırılmışdır. "Alkid-Polimer" həlledici sahəsi yaradılmış, poliefir qətranı sexində Azpol A-125, a-127, Alkanol-140-"P" məhsullarının istehsalına başlanılmış, " More-R" reagentinin istehsal texnologiyası mənimsənilmişdir.

"Sintezkauçuk" zavodunda piroliz qətranının eml qurğusu işə salınmışdır. Benzol-toluolstirol istehsalına başlanılmışdır [2, s.3].

"Üzvi sintez" zavodunda 2005-ci ildə əmtəəlik məhsulun həcmi 963,3 milyard manata çatdırılmışdır ki, bu da əvvəlki illə müqayisədə 46,4 faiz artım deməkdir. Ayr-ayrı məhsullar üzrə daha yüksək naliyyətlər qazanılmışdır. İl ərzində 11 min 518 ton propilen oksidi, 6 min 414 ton poliefir qətranı buraxılmış, izafi xərclər minumuma endirilmişdir. Təkcə yanvar-noyabr aylarında 2743 min kilovatsaat elektrik, 29446 hekokalori istilik enerjisinə, 1079 min kubmetr yanacağa, 445 kubmetr Ceyranbatan suyuna qənaət olunmuşdur [14, s.3].

2006-cı ildə polietilen məhsulunun istehsal həcmi 38 min 558 tona çatdırılmışdır. Ümumiyyətlə cari ilin 6 ayında 53565 min manatlıq əmtəəlik məhsul istehsal edilərək proqnoz tapşırıq 167,5 faiz yerinə yetirilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqyisədə artım tempi 155 faiz təşkil etmişdir. Bu artım yüksək təzyiqli polietilendə 14240 ton, etilen-propilendə 22 min 228 ton olmuşdur. Müəssisədə 2000-ci ilə nisbətən bu ilin 6 ayında 1 manatlıq məhsula çəkilən xərc 88,5 qəpikdən 76, 3 qəpiyə endirilib. Layihə üzrə enerji daşıyıcıları məhsulun maya dəyərinin 30 faizini təşkil etdiyi halda indi bu rəqəm 19 faizdir. Halbuki bu göstərici 2000-ci ildə 52 faiz olmuşdur. Soyutma sisteminə verilən propilenin sərf norması isə 245 ton təşkil etmişdir ki, buda 43532 manat qazanc deməkdir. Bütün bunlar zavodun iqtisadi-texniki göstəricilərinin yaxşılaşdırılmasına təsir edən amillərdəndir. Göründüyü kimi müəssisə 8900 manat mənfəət qazanıb [11, s.3].

Enerji daşıyıcılarının qiymət dəyişiklikləri respublikanın iri sənaye müssisələrinin fəaliyyətində müəyyən çətinlikliklər yaratmışdır. Məhsulların maya dəyərinin bazar qiymətindən yüksək səviyəyə çatması böyük enerji tutumlu kimya müəssisələrinin fəaliyyətinə də təsir göstərmişdir. Bu səbəbdən də yanvarın 23-dən "Azərikimya" Dövlət Şirkətinin tabeliyində olan müəssisələr fəaliyyətlərini dayandırmışlar.

Martın 23-də Nazirlər Kabinetində respublikanın iri sənaye müəssisələrinin fəaliyyətinin bərpası məqsədilə enerji daşıyıcılarına güzəştli qiymətlərin tətbiqi məsələsinə baxılmış və lazımi tədbirlər görülmüşdür. Enerji daşıyıcılarına güzəştli qiymətlərin tətbiqi ilə əlaqədar "Azərikimya" Dövlət Şirkətinin tabeliyində olan müəssisələrin fəaliyyətində canlanma baş vermişdir. İlk olaraq Etilen-polietilen zavodunda istehsalın bərpasına başlanmışdır [13, s.4].

Xlorid turşusunun neytrallaşdırılması üçün işlədilən aparatın həcmi isə 10 kubmetrdən 60 kubmetrə catdırıldı. Bu da istehsal proseslərinin səmərəliliyinin artmasına və məhsuldarlığının layihə gücünə catdırılmasına, xammal itkisinin qarşısının alınmasına, həmcinin idarəetmənin təkmilləşdirilməsinə imkan yaratmış, köməkci sahələrinin işinin yüksək səviyyədə qurulmasını təmin etmişdir.

Digər texniki tədbirlər poliefir qətranları sexində həyata keçirilmişdir. Bu sexdə satış bazarında daha cox tələbat duyulan 5 ceşiddə məhsul hazırlanır. Tələbatı nəzərə alaraq texnoloji sxemlərdə yeniliklər aparılaraq sutkalıq məhsuldarlıq 42 tona, yəni layihə gücünə çatdırıldı.[17,s.2]

Dünyanın bir sıra aparıcı firmaları ilə "Azərikimya" Dövlət Şirkətinin apardığı texniki yaradıcılıq əməkdaşlığının nəticəsi olaraq Azərbaycanda kimya və neftkimya kompleksinin yaradılması ilə bağlı layihələrin Texniki İqtisadi Əsaslandırma (TİƏ) sənədlərin imzalanması üzrə tender keçirilməsi və onun qalibinin İngiltərənin cox nüfuzlu və zəngin elmi-praktik elmi təcrübəyə malik "Nexant" şirkətinin olması ölkəmizin kimya sənayesinin qarşısındakı böyük prespektivlərin uğurlu başlanğıcından xəbər verir.

Beləliklə, "Azərikimya" Dövlət Şirkətinin yeni neftkimya kompleksi layihəsinin texniki-iqtisadi əsaslandırılması sənədlərinin hazırlanması üzrə keçirdiyi uğurlu tenderin qalibi olan "Nexant" şir-

kəti artıq işə başlamışdır. Hazırda həmin şirkət texnologiya, avadanlıq, marketinq və satış bazarlarının öyrənilməsi, iqtisadi səmərəlilik göstəriciləri və digər məsələlər üzrə təhlillər aparır [1, s.3].

Bu məsələdə vacib tələb odur ki, respublikamıza gətiriləcək hər bir kimya texnologiyası və avadanlığı müasir avtomatlaşdırmanın və kompüterləşmənin son naliyyətlərini özündə əks etdirməklə yanaşı həm istehsal olunana məhsulun keyfiyyətinə və səmərəliliyinə, həm də ekoloji cəhətdən beynəlxalq tələblərə cavab verməsinə görə xeyli üstün olmalıdır.

Dünya bazarında kimya məhsullarının etibarlı istehsalcısı kimi özünəməxsus nüfuz qazanmış respublikamızda elm və texnikanın ən son naliyyətləri əsasıda inşaa ediləcək yeni neftkimya kompleksi daha bir mühüm məsələni - avtomatlaşdırmanın və kompüterləşmənin ən yeni naliyyətlərini mənimsəmiş olan daha yüksək və mükəmməl mühəndis-texniki hazırlığa, geniş təcrübəyə malik kadrların yetişdirilməsini qarşıya təxrəsalınmaz məsələ kimi qoyacaq. Bu da ölkəmizin ali məktəblərində yeni ixtisaslar üzrə fakültələrin açılmasına, elmin yeni sahələrinin inkişafına səbəb olacaq, dərin elmi biliyə malik kadr potensialının yaranmasına təkan verəcəkdir [1, s.3].

ARDNŞ-in Türkiyədə ən iri neftkimya kompleksi sayılan və bu ölkənin həmin profilli məhsullar üzrə istehlak istehlak bazarının 25 faizə qədərini təmin edən "Petkim" şirkətinin səhmlərini alması bu sahədə geniş perspektivlərdən xəbər verir [8, s.144].

"Sintezkaucuk" zavodunda qazanılan naliyyətlər bu gün də inkişaf yolunda olduğunu sübut edir. "Sintezkauçuk" zavodu yeniləşmə yeni komplekslərin və texnologiyaların işə düşməsi ərəfəsindədir. Yeni kompleksin formalaşması ölkə başçısı İlham Əliyevin apardığı uğurlu iqtisadi siyasətin məntiqi nəticəsi, kimya sənayesinə göstərdiyi qayğı və diqqətin ən bariz nümunəsidir [18, s.3].

Kimya kompleksinin əsasını təşkil edən "Azərikimya" Dövlət Şirkətinə daxil olan müəssisələrin işi, onların mövcud potensialından qat-qat aşağıdır. Təkcə 2007-ci ildə bu şirkət üzrə məhsul istehsalının həcmi 20,8 faiz aşağı düşmüşdür. İl ərzində istehsal olunan məhsulun maya dəyərində 9 faizə yaxın izafi sərflərə yol verilmiş, bir manatlıq məhsula çəkliən xərc 84 qəoik olmuş (2006-cı ildə fakt 82 qəpik), rentabellik səviyyəsi keçən ilə nibətən 3 faiz, balans mənfəəti 56,2 faiz, işçilərin sayə 287 nəfər, bir işçiyə düçən məhsul istehsalı 33,4 faiz, büdcəyə ödəmələr 59,5 faiz azalmış, maliyyə vəziyyəti 10,3 mln. Manat pisləşmiş, kreditor borcları 35,5mln manat, banklara olan borclar 2007-ci ilin yanvarına nisbətən (11,7 mln.manat) 18,1 mln manat artmış və borclar 29,8 mln manat təşkil etmişdir [6, s.31].

2008-ci ilin əvvəlindən ötən ilin eyni dövrü ilə müqayisədə işçilərin orta sayı "Etilen-polietilen" zavodunda 5,6 faiz, "Sintezkauçuk" zavodunda 10,3 faiz, "Səthi Aktiv Maddələr" zavodunda 6,1 faiz, "Üzvi sintez" zavodunda 6,7 faiz azalmışdır. İl ərzində "Superfosfat" ASC-də əsasən sulfat turşusu istehsal edilmişdir. Fasilələrlə işləməyinə baxmayaraq, müəssisəədə məhsulun istehsal həcmi ötən illə müqayisədə 2 dəfədən çox artmışdır.

Bununla belə ötən ildə "Məişət malları" və "Sumqayıt Aşqarlar" Açıq Səhmidar Cəmiyyətləri öz imkanlarından xeyli aşağı səviyyədə işləmişlər. "Sumqayıt Aşqarlar" ASC ötən ilin 8 ayı ərzində normal fəaliyyət göstərməsinə baxmayaraq 4 aydan artıqdır ki, xammal təchizatı və hazır məhsul satışında yaranan çətinliklərlə bağlı fəaliyyətini dayandırmışdır [10, s.3].

Sumqayıtdakı iri kimya müəssisələrinin mövcud potensiallarından effektivli istifadə ediləcəyi halda, şəhərin sənaye gücünün bir neçə dəfədən çox qaldırmaq olardı və Sumqayıt özünün sənaye mərkəzi statusunu artırmaqla yanaşı, bu kompleksdəki əmək ehtiyatlarından ən azı yaxın 10-15 ildə səmərəli istifadə oluna bilərdi. Azərbaycanın əsas qeyri-neft sektorlarından biri kimi kimya və neftkimya kompleksi öz potensialına xüsusilə fərqlənir. Xəzər dənizi akvotoriyasında neft istehsalının artması ilə neft emalı və neftkimya sənayesinin Respublikamızın iqtisadiyyatının daha da gücləndirilməsi istiqamətində bu sahələrin rolu daha da artmaqdadır [7, s.125].

Sumaqyıt sənaye mərkəzində ağır sənaye sahələrinin profillərinə uyğun kiçik, orta və qismən o qədər də iri olmayan müasir sənaye istehsal sahələrinin yaradılmasına, həçinin kiçik kimya çeşidlərinin artırılmasına, müxtəlif reagentlərin istehsalına əlavə stimullar verə bilər [9, s.48].

Sumqayıt kimyası özünün yeni inkişaf dövrünü yaşayır. İstehsal edilən izöprpil spirtinin son illər satış bazarı daha da genişlənmiş, alıcılıq qabiliyyəti daha da artmışdır. Türkiyə, İran, Rusiya , Ukrayna, Belorusiya, Özbəkistan bir sıra Qərb ölkələri əsas alıcılardır. Bu cür qiymətli məhsul həm sənayedə, həm də müxtəlif sahələrdə həlledici kimi istifadə edilir. Izopropil spirti efirinə də satış

bazarlarında tələbat artmışdır. Rusiyaya, Gürcüstana və digər rüspublikalara məhsul göndərilir. Butadien məhsulundan da müxtəlif çeşidli məmulatlar hazırlanır [15, s.2].

Elmi-tədqiqat sahələri ilə istehsal müəssisələri sıx qarşılıqlı əlaqədə işləsələr və bu işlərdə qarşılıqlı yaradıcı və işgüzar mühit yaratsalar kimya müəssisələrində qısa müddətdə 10-yaxın istehsalatı işə salmaq imkanları yaranar [5, s.146].

***Nəticə***. Aparılmış araşdırmaların nəticəsi olaraq aşağıdakı nəticələrə gəlinmişdir:

- Yeni texnologiyanın tətbiqi nəticəsində kimya və neftkimya məhsullarının istehsalının ümumi həcmi bir neçə dəfə artırılmışdır;

- Yeni texnologiyanın tətbiqi bazar iqtisadiyytı şəraitində rəqabətə dözə biləcək kimya və neftkimya məhsulların istehsalının təşkilini, istehsalın həcminin artırılmasını, məhsulun maya dəyərinin azaldılmasını, xammal və materialların sərfinin minimuma endirilməsini, kimya sənayesinin digər ölkələrdən xammal asılılığının aradan qadırılması üçün zəmin yaratmışdır.

## ƏDƏBİYYAT

1. Axundov F. Kimya və neftkimya kompleksi yeni texnologiyalar əsasında qurulacaqdır / Sumqayıt, 25 avqust 2007-ci il.
2. Azərbaycan Respublikası regionlaeın sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) Sumqayıt şəhəri üzrə yerinə yetirilməsi ilə bağlı şəhər icra hakimiyyətinin başçısının sərancamı ilə yaradılmış komissiyanın hesabatı / Sumqayıt, 18 yanvar 2006-cı il.
3. Babayev N. Kimya sənayesində yenidənqurma və layihələndirmə / Sumqayıt, 24 sentyabr 2005-ci il.
4. Doqquz ayı necə başa vurmuşuq. Sumqayıt şəhər statistika idarəsinin məlumatı / Sumqayıt, 2 noyabr 2005-ci il.
5. Əliyev Ş. Sumqayıt sənaye mərkəzində elmi-texniki potensialın qiymətləndirilməsi və səmərəli istifadə edilməsi məsələləri // “Məruzələr”, AMEA, Bakı, №5, 2009, s.146.
6. Əliyev Ş. Sumqayıt şəhərində möcud əmək ehtiyatlarından və sənaye kompleksinin potensialından effektli istifadə məsələləri // “Maliyyə və uçot jurnalı”, №5, (189), Bakı, 2008, s.31.
7. Əliyev Ş., Salahov M. Sumqayıt şəhərində sənaye kompleksinin potensialından səmərəli istifadə edilməsi perspektivləri // “Məruzələr”, №5, AMEA, Bakı, 2008, s.125.
8. Əliyev Ş.T. Azərbaycanda sənaye sahələrinin gücləndirilməsi məsələləri // “Məruzələr” AMEA, №6, Bakı, 2009, s.144 (s.139-149).
9. Əliyev Ş.T.Xüsusi iqtisadi zonaların əmək ehtiyatlarından səmərəli istifadə edilməsində tətbiqinin strateji aspektləri // “Əmək və sosial problemlər” jurnalı. Bakı, 2010, s.48 (46-58).
10. Əliyev V. 2008-ci ilin doqquz ayında Sumqayıt Şəhərinin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr haqqında şəhər İcra Hakimiyyəti başçısının hesabatı / Sumqayıt, 25 oktyabr 2008-ci il.
11. Hüseyinov D. Altı ayda bu qədər iş görülübsə... (Etilen-poletilen zavodu) / Sumqayıt, 12 iyul 2006-cı il.
12. Hüseynov D. Kimyaçılar qəbul edilmiş proqnoz tapşırıqların yerinə yetirilməsinə öz tohfələrini vermək əzmindədirlər / Sumqayıt, 25 fevral 2006-cı il.
13. Qafaroğlu S. Kimya müəssisələrində iş ahəngi bərpa edilmişdir / Sumqayıt, 7 aprel 2007-ci il.
14. Qafaroğlu S. Kimyaçılar yeni ilə nikbin əhval-ruhiyə ilə başlamışlar / Sumqayıt, 18 yanvar 2006-cı il.
15. Qafaroğlu S. Neftkimyamızın ilki yeniliyə döğru addım atır / Sumqayıt, 19 sentyabr 2009-cu il.
16. Quliyev S. Kimya və neft kimya sənaysi yeni inkişaf mərhələsində / Sumqayıt. 17 sentyabr 2005-ci il.
17. Quluyev S. “Üzvi sintez” zavodunda yeniləşmə prosesi davam edir / Sumqayıt, 30 iyun 2007-ci il.
18. Mikayılov Q. Kimyaçıların ulu öndərə məhəbbəti əbədidir / Sumqayıt, 23 aprel 2008-ci il.
19. Sadıqov F.“Kimya sənayesinin inkişaf istiqamətləri” elmi-praktik konfrans. Sumqayıt, 15 oktyabr 2005-ci il.

20. Sumqayıt şəhər statistika idarəsinin məlumatı / Sumqayıt, 27 iyul 2005-ci il.
21. Sumqayıt Şəhərinin sosial-iqtisadi vəziyyəti haqqında məlumat / Sumqayıt, 11 may 2005-ci il.
22. Veysəlli K. Kimya sənayesinin inkişaf istiqamətləri / Sumqayıt, 20 iyul 2005-ci il.

**ФАРМАН САМЕДОВ**
*Докторант Сумгаитского Государственного Университета*

## РАЗВИТИЕ СУМГАЙЫТСКОЙ ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ (2005-2008 гг.)

В соответствии с Государственной программой социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008 годы) развитие Сумгайытской химической промышленности, перспективные инвестиции в основные углеводородные ресурсы страны и природные ресурсы с учетом растущего спроса химической и нефтехимической продукции на мировом рынке. В исследовании были затронуты вопросы разработки проекта. Кроме того, принятые руководством страны и Кабинетом Министров меры по стабилизации химической отрасли в Сумгайыте, проведение научно-практической конференции по развитию химической промышленности, влияние изменения цен на энергоносители на деятельность Сумгаитские химические предприятия и другие направления химической промышленности.

*Ключевые слова:* Сумгайыт, химическая промышленность, Азеркимья, Этилен-полиэтилен, Синтетический каучук, ПАВ, Органический синтез, Хозяйственные товары,

**FARMAN SAMEDOV**
*Doctoral student of Sumgait State University*

## DEVELOPMENT OF SUMGAYIT CHEMICAL INDUSTRY (2005-2008)

According to the State Program on Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008), the development of the Sumgayit chemical industry, perspective investment in the country's main hydrocarbon resources and natural resources, taking into account the growing demand for chemicals and petrochemicals in the world market. The issues of project development were involved in the research. In addition, the measures taken by the country's leadership and the Cabinet of Ministers to stabilize the chemical sector in Sumgayit, the holding of a scientific-practical conference on the development of the chemical industry, the impact of changes in energy prices on the activities of Sumgayit chemical enterprises and other areas of the chemical industry.

*Keywords:* Sumgayit, chemical industry, Azerkimya, Ethylene-polyethylene, Synthetic rubber, Surfactants, Organic synthesis, Household goods.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Şirxan Səlimov, t.e.d. İbrahim Zeynalov.*

UOT 94(479.24); UOT 94

**ТЮРКАН ГАСЫМОВА**
*Диссертант, лаборант кафедры Истории народов Кавказа*
*Исторического факультета Бакинского Государственного Университета*
**turkan.ilqar1990@mail.ru**

# ГЕЙДАР АЛИЕВ И ТБИЛИССКАЯ ДЕКЛАРАЦИЯ «О МИРЕ, СТАБИЛЬНОСТИ И БЕЗОПАСНОСТИ В КАВКАЗСКОМ РЕГИОНЕ»

*Тбилисская декларация стала первым шагом к общему движению за мирный и стабильный Кавказ, явилась важным политико-правовым документом, заложившим фундамент Кавказского общего дома. Среди народов Кавказа созрела мысль о том, что в регионе должна действовать единая система по сотрудничеству и безопасности. Вопросы сотрудничества, укрепления мира на Кавказе всегда находились в центре внимания Гейдара Алиева.*

*Ключевые слова*: Кавказ, Азербайджан, Карабах, армяне, Тбилисская декларация, Гейдар Алиев, Ильхам Алиев.

***Введение***. Гейдар Алиев - первый руководитель государства, который поддержал инициативу мира, мирной жизни, мирного сосуществования на Южном Кавказе. В свое время эти слова, про президента Азербайджанской Республики в 1993-2003 годах, Общенационального Лидера азербайджанского народа были сказаны экс-президентом Грузии, его близким другом, ныне покойным Эдуардом Шеварднадзе.

И действительно, Общенациональный Лидер нашего народа Гейдар Алиев на протяжении всей своей блестящей политической карьеры, наряду с другими многочисленными возвышенными целями и идеалами стремился к одному - к установлению прочного мира, добрососедства и сотрудничества между народами и странами, и в частности, в том регионе, где находится его страна - Азербайджан - на Южном Кавказе.

Примечательны и оттого столь важны и значительны слова Общенационального Лидера, связанные с созданием всех необходимых условий для интеграции и сотрудничества на всем Кавказе: "Стремиться к тому, чтобы направить процессы на Кавказе в необходимое, мирное русло, добиваться мира, благополучия и стабильности в нашем регионе является великой, я бы даже сказал, священной задачей. Ради достижения этой цели мы будем стараться и впредь" [2].

Следует отметить, что в 90-х годах XX века Южный Кавказ снова превратился в полигон интересов могучих государств. Благоприятная позиция региона с геополитической точки зрения связана с изобилием ресурсов и другими факторами. Для укрепления собственной позиции в настоящем регионе спектр деятельности государств региона оказался многогранным, начиная с широкомасштабных кредитов и инвестиций и кончая интервенциями религиозного плана. Борьба государств за собственные интересы в регионе создала здесь очень сложную мозаику [5, с.162].

***Изложение основного материала исследования.*** В целом Кавказ является важнейшим геополитическим, геоэкономическим и геостратегическим пространством, откуда проходят важнейшие транспортно-коммуникационные коридоры и где пересекаются Восток с Западом, Европа с Азией, мировые религии и культуры. Настоящий фактор требует учета в регионе совпадающих и пересекающихся интересов, продвижения политики, сбалансированной между ведущими государствами мира, региона и национальными государствами. Общенациональный лидер Гейдар Алиев, говоря о специфических особенностях региона, подчеркивал: «Кавказ на сегодняшний день находится в центре внимания всего мира. Именно по этой причине самой священной и высокой целью является достижение мира и спокойствия на Кавказе, направляя процессы, происходящие на Кавказе, в правильное, общемировое русло, мы обязаны в будущем потратить все свои силы ради данной цели».

Исторические реалии таковы, что Гейдар Алиев стал инициатором концепции и стратегий, имеющих общечеловеческие ценности. Ярким примером стала вошедшая в историю под названием Тбилисской декларация «О мире, стабильности и безопасности в Кавказском ре-

гионе», подписанная 8 марта 1996 года. Этот документ отразил великолепный прецедент добрососедства, цивилизованного сотрудничества, адаптации к собственному суверенитету и уважения чужих, толерантность в конфессиональных, межэтнических отношениях, намерения сохранить границы в прежней лимитации, сохранения древней культуры и традиций. В Декларации, которая состоит из 6 пунктов, указаны пути восстановления мира, стабильности и безопасности на Кавказе [3, с.61].

В этом историческом документе Гейдар Алиев отметил: «Восстановление мира и стабильности на Кавказе важно не только для Азербайджана и Грузии, но и для всех живущих в регионе народов. Кроме того, это важно не только для Кавказа, но и для всех стран и народов, имеющих отношения и связи с регионом, для всего мира. Сейчас на Кавказ обращены взоры всего мира. Поэтому мы стремимся быть верными избранному пути во имя достижения священных и высших целей мира и стабильности» [3, с.61].

Декларация явилась импульсом дальнейшего повышения интереса к региону со стороны мирового сообщества. Прошло совсем немного времени, как июне 1996 года в Кисловодске главами четырех государств - России, Грузии, Азербайджана и Армении - была подписана Декларация «О стабильности, мире, экономическом и культурном сотрудничестве на Кавказе» Идеи Тбилисской декларации нашли свое продолжение и подтверждение в Кисловодской декларации. Логическим завершением принятия вышеуказанных деклараций было подписание Бакинской декларации «Заявление о создании Евроазиатского транспортного коридора» на проведенной в Баку 7-8 сентября -1998 года конференции по восстановлению исторического Великого Шелкового Пути, в которой приняли участие представители 32 стран и 13 международных организаций. Все эти инициативы вкупе способствовали усилению мирных процессов, интеграции и интенсификации взаимного сотрудничества государств региона. Вместе с тем, в намечающихся в регионе и во всем мире процессах взаимопроникновения экономик, культур и глобализации в целом, Гейдар Алиев уделял значительное внимание вопросам сохранения национального самосознания азербайджанского народа, бережного отношения к суверенитету Азербайджана, ведению самостоятельной внешней и внутренней политики.

Кстати было бы напомнить один исторический факт. На прошедшем в ноябре 1999 года в Стамбуле саммите ОБСЕ Президент Азербайджанской Республики Гейдар Алиев в общем контексте создания в регионе атмосферы взаимного доверия, в рамках переговоров по формированию общерегиональной системы безопасности выступил с конструктивным предложением о подписании «Пакта о мире, безопасности и сотрудничестве на Кавказе». Его предложение о создании прочных основ для экономического прогресса и укрепления сотрудничества суверенных, независимых, демократических государств было поддержано главами странам участниц саммита.

Сегодня Кавказ живет в очень сложный и ответственный исторический период. Тяжелым и горьким наследством остались этнические разногласия, порожденные российским царизмом и советским тоталитарным режимом, политикой насильственного переселения, депортаций и истребления народов. В настоящее время международную общественность беспокоят проблемы между Арменией и Азербайджаном, события вокруг Нагорного Карабаха, абхазо-грузинские, осетино-грузинские, осетино-ингушские, российско-чеченские конфликтогенные отношения.

Очень важную роль в урегулировании миротворческих процессов на Кавказе играет сформированная Гейдаром Алиевым нефтяная стратегия Азербайджана в XXI веке. Посредством реализации вышеуказанных проектов, представляющих собой важный инструмент, рычаги в осуществлении мирного строительства, в регионе идет процесс консолидации сил, заинтересованных в обеспечении экономической стабильности, объединении усилий государств по развитию политических устремлений к миру. Очень символично, что нефтепровод Баку – Тбилиси - Джейхан, названный в честь великого Гейдара Алиева и сданный в эксплуатацию в июле 2006 года, в свое время известный под именем «Легенда трех морей», стал реальностью. То же самое ожидается в ближайшее время с газопроводом Баку-Тбилиси-Эрзерум. Совершенно очевидно, что эти высокотехнологичные средства транспортировки углеводородных

ресурсов стали как бы артериями, символизирующими гарантии национальной безопасности, государственного суверенитета и экономической самостоятельности.

Безусловно, позитивную роль в реальном воплощении миролюбивой политики Гейдара Алиева сыграло создание в 1997 году экономического блока ГУАМ (Грузия, Украина, Азербайджан, Молдова), в 2006 году получившего новое содержание. В ближайшее время по инициативе ГУАМ выдвинуты новые предложения в ООН по обеспечению мира, стабильности, продолжения экономической интеграции на Южном Кавказе [4].

США и другие западные государства, обращающие взоры на Кавказ, считают приоритетным решение нижеследующих концептуальных и стратегических вопросов: обеспечение безопасности западной транспортировки карбогидрогенных ресурсов Каспия посредством основного нефтепровода Баку - Тбилиси - Джейхан и газопровода Баку - Тбилиси - Эрзерум, в этой связи обеспечение национальной безопасности Азербайджана, Грузии и Турции; применение дипломатических принципов в разрешении спорных вопросов в отношениях между Грузией и Абхазией, Грузией и Южной Осетией; поддержка стратегии развития культурных связей между населением Азербайджанской Республики и Южного Азербайджана; отмена 907-й поправки «Акта в защиту свободы», принятой Сенатом США в 1992 году в отношении Азербайджана; продолжение мирной политики разрешения армяно-азербайджанского конфликта вокруг Нагорного Карабаха; определение политики Российской Федерации в отношении сепаратизма на Южном Кавказе (Карабах в Азербайджане, Абхазия и Южная Осетия в Грузии); намерения США в этой связи в случае продолжения политики сепаратизма; США считают, что российская сторона передала в недавнем прошлом Армении военную технику на 1 миллиард долларов; военная поддержка абхазских сепаратистов создает прецедент национальной опасности для Грузии и Азербайджана; наконец, переход от военного пути разрешения конфликтов на Северном Кавказе, особенно в Чеченской Республике, к дипломатическим переговорам с Российской Федерацией.

В общем контексте, западные государства, в том числе США, играют ведущую роль в нормализации интеграционных процессов на Кавказе и стабильном экономическом развитии государств и республик региона.

Гейдар Алиев, как «первый глава государства, поддержавший мирные инициативы на Кавказе» (по высказыванию Э.Шеварднадзе), за выдающиеся заслуги в обеспечении мира, безопасности и интеграции в регионе и мире был награжден Премией мира Ататюрка Турецкой Республики (1 ноября 1999 года), Премией Российской Федерации имени Ю.Андропова.

Важное значение в деле обеспечения мира и стабильности на Кавказе имеет развитие азербайджано-российских отношений. В январе 2001 года, в феврале 2006 года состоялись визиты президента Российской Федерации В.Путина в Азербайджан, в ходе которых были приняты совместные заявления, подписаны ряд документов, торгово-экономические соглашения [1, с.495].

***Выводы***. Сегодня политика общенационального лидера Гейдара Алиева с успехом продолжается и развивается Президентом Азербайджанской Республики Ильхамом Алиевым. Идея «Родине - мир, региону - мир, миру - мир» приносит реальные и плодотворные результаты для азербайджанского народа на пути строительства демократического независимого государства, интегрируемого в мировое сообщество.

Политический наследник Общенационального Лидера, самый способный выпускник его дипломатической школы, президент Азербайджанской Республики Ильхам Алиев, с самого начала своего вступления в должность руководителя страной был верен политическому завещанию своего великого отца, и с огромным воодушевлением приступил к реализации политического курса Гейдара Алиева.

Основная часть проектов, основа которых заложена Гейдаром Алиевым, была реализована в ходе правления современного руководства страны, и их разработка принесет в регион мир и спокойствие.

ЛИТЕРАТУРА

1. Гусейнова И.М. История народов Кавказа. Баку, Тахсил, 2006, 509 с.
2. Керим Султанов. Двери пока открыты... Стратегии развития Гейдара Алиева и Ильхама Алиева на Южном Кавказе/ - https://aqreqator.az/ru/politika/1429496 [Дата обращения: 12.05.2022].
3. Гусейнова И.М. Наследия Гейдар Алиева и мирные процессы на Кавказе // Dirçəliş, XXI əsr, №106-107, 2006-2007, с.61.
4. Речь Президента Азербайджанской Республики Гейдара Алиева в ходе встречи Президента Грузии Эдуарда Шеварднадзе с представителями общественности Азербайджана – Дворец «Республика», 19 февраля 1997 года. - https://lib.aliyevheritage.org/ru/27378039.html [Дата обращения: 12.05.2022].
5. Кавказ: история, современность и геополитические перспективы. Тезисы международной научной конференции. Баку: Наука, 1999, 253 с.

**TÜRKAN QASIMOVA**
*Bakı Dövlət Universitetinin*
*Qafqaz xalqları tarixi kafedrasının laborantı, dissertant*

**HEYDƏR ƏLİYEV VƏ "QAFQAZ REGİONUNDA SÜLH, SABİTLİK VƏ TƏHLÜKƏSİZLİK HAQQINDA"TBİLİSİ BƏYANNAMƏSİ.**

Tbilisi bəyannaməsi dinc və sabit Qafqaz uğrunda ümumi hərəkata doğru ilk addım olmuş, Qafqaz ümumi evinin təməlini qoyan mühüm siyasi-hüquqi sənəd olmuşdur. Qafqaz xalqları arasında belə bir fikir yaranıb ki, regionda əməkdaşlıq və təhlükəsizlik üzrə vahid sistem fəaliyyət göstərməlidir. Qafqazda əməkdaşlıq, sülhün möhkəmləndirilməsi məsələləri həmişə Heydər əliyevin diqqət mərkəzində olmuşdur.

*Açar sözlər*: Qafqaz, Azərbaycan, Qarabağ, ermənilər, Tbilisi bəyannaməsi, Heydər Əliyev, İlham Əliyev.

**TURKAN GASIMOVA**
*PhD student at Baku State University*

**HEYDAR ALIYEV AND THE TBILISI DECLARATION "ON PEACE, STABILITY AND SECURITY IN THE CAUCASUS REGION"**

The Tbilisi Declaration was the first step towards a common movement for a peaceful and stable Caucasus, was an important political and legal document that laid the foundation of the Caucasian Common Home. The idea has matured among the peoples of the Caucasus that a unified system of cooperation and security should operate in the region. The issues of cooperation and strengthening peace in the Caucasus have always been in the focus of Heydar Aliyev's attention.

*Keywords*: Caucasus, Azerbaijan, Karabakh, Armenians, The Tbilisi Declaration, Heydar Aliyev, Ilham Aliyev.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. İradə Hüseynova, t.e.d. Qabil Əliyev.*

**UOT 94**

**BALAMİRZƏ MƏMMƏDLİ**
*Bakı Dövlət Universitetinin*
*"Slavyan ölkələri tarixi" ixtisası üzrə magistrantı*
**balamirza.mammadli@bsu.edu.az**

# XX ƏSRİN 40-CI İLLƏRİNDƏ SSRİ-DƏ BALTİKYANI XALQLARININ DEPORTASİYASI

*1940-cı ildə Baltikyanı ölkələrinin – Estoniya, Latviya və Litvanın SSRİ-yə birləşdirilməsindən dərhal sonra bu respublikaların sosial-iqtisadi və ictimai-siyasi vəziyyətində baş verən köklü dəyişikliklər, sovetləşdirilmə, "milliləşdirmə", kəndlərdə kollektivləşdirmə kimi tədbirlər Baltikyanı xalqları arasında geniş narazılıqlara, antisovet əhvali-ruhiyyənin yaranmasına səbəb olmuşdu. Davam edən dünya müharibəsi şəraitində Baltikyanıdakı belə bir vəziyyətin qarşısını almaq məqsədilə Stalin hər üç ölkədə repressiv kampaniyalar, xüsusilə də deportasiyalar həyata keçirməyə başladı. Nasist Almaniyası ilə müharibə ərəfəsində, 1941-ci ilin iyunun ortalarında Baltikyanı xalqlarının on minlərlə nümayəndəsi öz vətənindən deportasiya edildi. Almaniya-SSRİ müharibəsi başlayandan sonra Baltikyanıda antisovet müqavimət hərəkatı xüsusilə kəskinləşmiş, kollaborasionizm geniş yayılmağa başlamışdı. Müharibədən sonra Stalin kollektivləşmənin ləng getməsini əsas gətirərək Baltikyanı xalqlara qarşı daha kəskin deportasiya siyasəti həyata keçirdi, 1949-cu ilin martında 90 mindən çox eston, latış və litvalı Sibirə və ucqar bölgələrə deportasiya edildi. Deportasiyaya məruz qalan Baltikyanı xalqları yalnız Stalinin ölümündən sonrakı "mülayimləşmə" dövründən etibarən tədricən azad olunmağa və öz vətənlərinə geri qayıtmağa başladılar.*

*Məqalədə XX əsrin 40-cı illərində Balikyanıda yaşayan xalqlara – latışlar, estonlar və litvalılara qarşı həyata keçirilən deportasiyalar geniş elmi ədəbiyyat əsasında araşdırılır.*

*Açar sözlər*: İkinci dünya müharibəsi, SSRİ, Baltikyanı xalqları, məcburi köçürmələr, deportasiya.

***Giriş***. İki dünya müharibəsi arasındakı dövrdə Baltikyanı ölkələr Avropanın böyük dövlətlərinin (Almaniya, Böyük Britaniya, Fransa) regionda nüfuz uğrunda mübarizə obyektinə çevrilmişdilər. Birinci dünya müharibəsində Almaniyanın məğlubiyyətindən sonrakı onilliklərdə Baltikyanı regionunda ingilis-fransız təsiri güclənmişdi ki, bu da 1930-cu illərin əvvəllərindən qonşu Almaniyanın artan təsirinə əsl maneəyə çevrilmişdi. Eyni zamanda SSRİ-nin də regiona olan marağı getdikcə artır, xarici siyasətdə Baltikyanı məsələsi mühüm yer tuturdu.

Almaniyada nasistlərin hakimiyyətə gəlməsindən az sonra, 1933-cü ilin dekabrında Fransa və SSRİ hökumətləri kollektiv təhlükəsizlik və qarşılıqlı yardım haqqında saziş bağlamaq haqqında birgə təklif irəli sürərək Finlandiya, Çexoslovakiya, Polşa, Rumıniya və Baltikyanı ölkələri (Estoniya, Latviya və Litva) bu müqaviləyə qoşulmağa dəvət etdilər. "Şərq paktı" adlanan layihəyə nasist Almaniyasının təcavüzü baş verə biləcəyi halda kollektiv təminat kimi baxılırdı. Lakin, Polşa və Rumıniya layihəyə qoşulmaqdan imtina etdi, ABŞ müqavilənin ideyasını təsdiqləmədi, İngiltərə isə, Almaniyanın yenidən silahlanması da daxil olmaqla bir sıra əks-şərtlər irəli sürdü [14]. Əksinə, 1938-ci ilin sentyabrın 29-da tərtib olunan və bir gün sonra imzalanan Münhen müqaviləsinə əsasən Böyük Britaniya, Fransa, Almaniya və İtaliya müstəqil bir dövlətə – Çexoslovakiyaya məxsus Sudet ərazisini ondan ayıraraq Almaniyaya vermək qərarına gəldilər. Münhen sazişindən sonra Avropa ziyalılarına tamamilə aydın oldu ki, kiçik xalqlar böyük dövlətlərin qərarlarına müqavimət göstərmək üçün heç bir təsirli vasitəyə malik deyillər [28, s.98].

Məhz buna görə idi ki, xarici hərbi müdaxilə təhlükəsinin qarşısını almaq məqsədilə Baltikyanı ölkələr bir sıra tədbirlər görməyə başladılar: 1939-cu ilin iyununda Estoniya və Latviya hökumətləri Almaniya ilə hücum etməmək haqqında paktlar imzaladılar. Qeyd etmək lazımdır ki, hər iki ölkə hələ 1932-ci ildə SSRİ ilə də hücum etməmək haqqında pakt imzalamışdılar. 30-cu illərin sonlarında Sovet İttifaqı Almaniya ilə yaxınlaşma istiqamətində fəal xarici siyasət kursu irəli sürməyə başlamışdı. Nəticədə, 1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ arasında hücum etməmək haqqında pakt

imzalandı. Həmin müqavilənin məxfi əlavə protokoluna əsasən, Estoniya, Latviya, Finlandiya və Polşanın şərqi SSRİ-nin maraqları sferasına, Litva və Polşanın qərbi isə, Almaniyanın maraqları sferasına daxil edildi [24, s.173-175]. Artıq müqavilənin imzalanmasından 5 ay əvvəl Litvanın Klaypeda bölgəsi nasist Almaniyası tərəfindən işğal edilmişdi.

***Baltikyanı ölkələrin SSRİ-yə birləşdirilməsi***. 1939-cu ilin 1 sentyabrında İkinci dünya müharibəsinin başlanması ilə, Baltikyanıda da vəziyyət gərginləşmişdi. Almaniyanın Polşaya müdaxiləsindən az sonra, sentyabrın 17-də Qırmızı Ordu Polşaya daxil oldu və bununla da 1932-ci ildə imzalanmış SSRİ-Polşa hücum etməmə paktı qüvvədən düşdü. Həmin gün SSRİ ilə diplomatik münasibətdə olan dövlətlərə (o cümlədən, Baltikyanı ölkələrə) SSRİ-nin "neytrallıq siyasəti aparacağı" barədə sovet notası təqdim edildi [26, s.205-223]. Qonşu dövlətlər arasında müharibənin başlaması Baltikyanı ölkələrin də bu hadisələrə cəlb olunması qorxusu doğuraraq onları neytrallıqlarını elan etməyə sövq etdi. Sentyabrın 24-də Estoniyanın xarici işlər naziri Karl Selter ticarət sazişi imzalamaq məqsədilə Moskvaya gələrkən, SSRİ xalq xarici işlər komissarı Vyaçeslav Molotov iqtisadi problemlərin müzakirəsindən dərhal sonra qarşılıqlı təhlükəsizlik məsələsini irəli sürdü. O, "hərbi ittifaq yaxud qarşılıqlı yardım haqqında" saziş bağlamağı təklif edirdi ki, bu da SSRİ-yə Estoniya ərazisində həm donanma, həm də aviasiya bazalarına sahib olmaq hüququ verəcəkdi. K.Selter neytrallığı əsas gətirərək müzakirədən yayınmağa çalışdıqda V.Molotov açıq şəkildə bildirmişdi: "Sovet İttifaqının təhlükəsizlik sisteminin genişləndirilməsinə ehtiyacı var və bunun üçün Baltik dənizinə çıxış lazımdır. Əgər siz bizimlə qarşılıqlı yardım paktı bağlamaq istəmirsinizsə, onda biz təhlükəsizliyimizi təmin etmək üçün başqa yollar, bəlkə də daha kəskin və daha çətin yollar axtarmalı olacağıq. Xahiş edirəm, bizi Estoniyaya qarşı güc tətbiq etməyə məcbur etməyin" [19, s.178-205].

Sentyabrın 28-də Estoniya hökuməti Moskvada danışıqlara başladı. Danışıqlar nəticəsində, Estoniyada sovet hərbi bazalarının yaradılmasını və 25 minə qədər sovet kontingentinin yerləşdirilməsini nəzərdə tutan "qarşılıqlı yardım paktı" imzalandı [22, s.62-64]. Estoniya nümayəndə heyəti ilə danışıqların sonunda Stalinin K.Selterə dedikləri diqqəti cəlb edir: "Estoniya hökuməti Sovet İttifaqı ilə müqavilə bağlamaqla müdrikcəsinə, eston xalqının xeyrinə olan bir hərəkət etdi. Polşada baş verənlər sizin də başınıza gələ bilərdi. Polşa böyük dövlət idi. Bəs indi Polşa haradadır?" [21, s.189]. Elə həmin gün SSRİ ilə Almaniya arasında "Dostluq və sərhədlər haqqında" müqavilə imzalandı. Müqavilənin məxfi protokoluna əsasən, nüfuz dairələrinin bölünməsi şərtlərinə yenidən baxıldı: Visladan şərqdəki Polşa torpaqlarının Almaniyaya keçməsi müqabilində Litva da SSRİ-nin nüfuz dairəsinə keçdi. 1939-cu ilin 10 oktyabrında V.Molotov ilə Litvanın xarici işlər naziri Y.Urbşis Moskvada "Vilno (Vilnüs – B.M.) şəhəri və Vilen vilayətinin Litva Respublikasında qalması və Sovet İttifaqı ilə Litva arasında qarşılıqlı yardım haqqında" müqavilə imzaladılar. Bu müqavilə 15 il müddətinə Litvada 20 minlik sovet qoşunları kontingentinin yerləşdirilməsini nəzərdə tuturdu [22, s.92-98].

Beləliklə, qarşılıqlı yardım müqavilələrinin imzalanmasından dərhal sonra sovet qoşunlarının Baltikyanı dövlətlərin ərazisində yerləşdirilməsi həyata keçirildi. 1940-cı ilin iyunun 14-də sovet hökuməti Litvaya, iki gün sonra isə Latviyaya və Estoniyaya ultimatum verdi [22, s.372, 384, 387]. Ultimatumların mahiyyəti eyni idi: bu dövlətlərin hökumətləri SSRİ ilə imzalanmış Qarşılıqlı yardım müqavilələrinin şərtlərini kobud şəkildə pozmaqda ittiham olunur, həmin şərtlərin həyata keçirilməsini təmin etməyə qabil olan yeni hökumətlərin formalaşdırılması tələbi irəli sürülürdü. Bunun ardınca, Baltikyanı ölkələrdə əlavə sovet qoşunları kontingenti yerləşdirildi. Tezliklə, hər üç ölkədə sovetlərin fəal müdaxiləsi ilə formal parlament seçkiləri keçirildi və kommunistyönümlü bloklar böyük səs çoxluğu topladı [22, s.473-474]. İyulun 21-22-də yeni parlamentlər Estoniya SSR, Latviya SSR və Litva SSR-in yaradıldığını elan etdilər və SSRİ-yə daxil olma haqqında bəyannamə qəbul etdilər. 3-6 avqustda SSRİ Ali Soveti bu respublikaların Sovet İttifaqına daxil edilməsi haqqında qərarlar qəbul etdi. Hər üç ölkədə sovetləşmə siyasətinə başlanıldı, iqtisadiyyat sosialist modelinə keçirildi, ziyalılara, ruhanilərə, keçmiş siyasəti xadimlərə, zabitlərə, varlı kəndlilərə qarşı repressiyalar başladı.

***Baltikyanı xalqlarının 1941-ci il deportasiyası***. Baltikyanı ölkələrdə deportasiyalar ÜK(b)P Mərkəzi Komitəsinin və SSRİ Xalq Komissarları Sovetinin 16 may 1941-ci il tarixli "Litva, Latviya və Estoniya SSR-in antisovet, cinayətkar və ictimai təhlükəli elementlərdən təmizlənməsi tədbirləri haqqında" fərmanına uyğun olaraq həyata keçirilməyə başlandı [1, s.221]. Maraqlıdır ki, ilkin olaraq deportasiya yalnız Litva üçün nəzərdə tutulmuş, Latviya və Estoniya SSR sonradan fərmana daxil

edilmişdi [13, s.10-25]. Bu respublikalardan deportasiya qərarı yaxınlaşan müharibənin təsiri altında, sərhədyanı rayonlarda alman kəşfiyyatı ilə əlaqəli olan gizli antisovet qüvvələrinin mövcudluğu haqqında məlumatlara əsasən qəbul edilmişdi [13, s.10-15]. Qərara əsasən, aşağıdakı kateqoriyalar üzrə olan insanların əmlakı müsadirə olunmaqla 5-8 il müddətinə həbs edilərək düşərgələrə göndərilməsi, cəza müddəti başa çatdıqdan sonra isə ucqar rayonlardakı yaşayış məntəqəsinə göndərilməsi nəzərdə tutulurdu:

1. Əksinqilabi partiyaların və antisovet millətçi təşkilatların fəal üzvləri;
2. Keçmiş mühafizəçilər, jandarmlar, yüksək rütbəli polislər, həbsxana zabitləri, habelə keçmiş sıravi polis əməkdaşları və həbsxana əməkdaşları;
3. Litva, Latviya və Estoniya, habelə Polşa ordularının kompromat materiallarına sahib olan keçmiş zabitləri;
4. Litva, Latviya və Estoniyanın "burjua dövlət aparatlarının" keçmiş iri mülkədarları, iri tacirləri, sənayeçiləri və burjua məmurları;
5. Cinayət fəaliyyəti ilə məşğul olmağa davam edən cinayətkar elementlər [1, s.221].

Aşağıdakı kateqoriyalar üzrə olan insanların isə, əmlakı müsadirə olunmaqla həbs olunması və 20 il müddətinə ucqar rayonlara sürgün olunması nəzərdə tutulurdu:

1. Yuxarıda göstərilən 1-4-cü kateqoriyalar üzrə qeydiyyata alınan şəxslərin ailə üzvləri;
2. Ən yüksək sosial müdafiə tədbirinə (güllələnmə hökmünə – B.M.) məhkum edilmiş və ya qaçaraq gizlənmiş əksinqilabi millətçi təşkilatların iştirakçılarının ailə üzvləri;
3. Almaniyadan repatriasiya qaydası ilə gəlmiş şəxslər, habelə Almaniyaya getmək üçün qeydiyyatda olan və getməkdən imtina edən, barəsində antisovet fəaliyyətləri və ya xarici kəşfiyyat xidmətləri ilə əlaqələrin olması ilə bağlı materiallar olan almanlar [20, s.145-146].

İsrail tarixçisi Aron Şneerin fikrincə, deportasiyanın əsas səbəbi sovet rəhbərliyinin təkcə Baltikyanı ölkələrdə deyil, həm də ümumiyyətlə SSRİ-nin 1939-40-cı illərdə ilhaq etdiyi bütün ərazilərdə əhalinin loyallığı məsələsindən çəkinməsi idi: "Bu ərazilər daxili təbii ictimai-siyasi proseslər nəticəsində deyil, yalnız orada Qırmızı Ordu hissələrinin peyda olmasından sonra sovet ərazilərinə çevrildi. Burada yaşayanlar şərq ərazilərinin sakinləri ilə müqayisədə alman işğalına daha çox loyal yanaşırdılar. Yəni, bu ərazilərin yerli əhalisi Almaniyanın köməyi ilə müstəqilliklərini bərpa etməyə ümid edirdilər" [30, s.142].

Baltikyanı ölkələri içərisində ilk olaraq deportasiya əməliyyatı Estoniyada başlandı. SSRİ Dövlət Təhlükəsizliyi Xalq Komissarlığının 5 iyun 1941-ci il tarixli arayışındakı siyahıda antisovet və cinayətkar elementlərin sayının 14471 nəfər, yəni bütün Estoniya əhalisinin 1,3%-i qədər göstərilirdi. Bu rəsmi sənədə əsaslansaq, deportasiyaların 1,3%-ə yaxın eston vətəndaşını əhatə etdiyini təxmin etmək olar. Lakin, bir çox Qərb tarixçiləri hesab edir ki, bu rəqəm həqiqətə uyğun deyil və son dərəcə azadılmışdır. Britaniya tarixçiləri Con Hayden və Patrik Salmon yazır ki, deportasiya olanacaq "xalq düşmənləri" kateqoriyalarına demək olar ki, bütün ictimai fəal vətəndaşlar daxil edilmişdi [3, s.115]. Estoniya tarixçisi Mart Laar özünün "Qırmızı terror" kitabında NKVD-nin bir sıra direktivlərinə istinad edərək belə nəticəyə gəlmişdir ki, deportasiyalar bütün Estoniya əhalisinin 23%-ni əhatə edib [18, s.5].

Estoniya tarixçiləri hesab edirlər ki, Estoniyada kütləvi deportasiyaya hazırlıq 1940-cı ildə başlanmışdır. Çünki, ÜK(b)P Mərkəzi Komitəsinin və SSRİ Xalq Komissarları Sovetinin Estoniyadakı nümayəndəsi Vladimir Boçkaryov 1940-cı ilin payızında "antisovet elementlərinin" respublikadan çıxarılmasını tələb etmişdi.

1941-ci il, iyunun 6-dan 12-nə kimi, hər gün Estoniyada deportasiya olunanların dəqiq siyahısı tərtib olundu. İlk gündə, həbs olunacaq və deportasiya ediləcək şəxslər kateqoriyasına ən çox iri mülkədarlar, sənayeçilər və keçmiş iri məmurlar (1437 nəfər), habelə əksinqilabi və antisovet təşkilatlarının üzvləri (1174 nəfər) daxil edildi [29]. Estoniyadakı deportasiya əməliyyatının həyata keçirilməsinə Boris Kumm başda olmaqla SSRİ Xalq Daxili İşlər Komissarlığının (NKVD) operativ qərargahı cəlb edildi. Qərargahın tərkibinə həmçinin Estoniya SSR Xalq Daxili İşlər komissarı Andrey Murro,

*Xalq oyun və əyləncələri hər bir etnik mədəniyyətin vacib komponentlərindən biridir. Ənənəvi xalq oyunları insanlar üçün yalnız əyləncə vasitəsi deyil, həm də uşaq və yeniyetmələrin tərbiyə məktəbidir. Digər tərəfdən böyüklər oyunlarla öz fiziki qüvvə və qabiliyyətlərini artırırlar. Fərdin etnik inkulturasiyası və sosiallaşması prosesində xalq oyun və əyləncələrin rolu müstəsna dərəcədə əhəmiyyətlidir. "Kitabi-Dədə Qorqud" dastanında ifadəsini tapmış ənənəvi xalq oyunları 3 qrupa bölünür: uşaq oyunları, oyun-tamaşalar və cəngavər oyunları. "Aşıq-aşıq" oyunu uşaq oyunlarındandır. Oğuzların maldarlıq təsərrüfatında özünə yer almış qoç, öküz, dəvə və it kimi heyvanların döyüşdürülməsi tamaşa qrupuna aiddir. At yarışması, ox atma və güləş oğuzların çox sevdikləri cəngavər oyunlarıdır.*

*Açar sözlər:* dastan, oyun, etnik,oğuz, mədəniyyət.

***Giriş***. Ənənəvi xalq oyunları xalqın adət-ənənəsindən, mərasimlərindən, ictimai həyatın xüsusiyyətlərindən, əmək və müdafiə tələblərindən, dini və dünyəvi görüşlərindən doğduğuna görə onların öyrənilməsi tarixi-siyasi və etno-mədəni cəhətdən xüsusi əhəmiyyət kəsb edir. İnkulturasiya və fərdin sosiallaşması prosesində oyun və əyləncələrin rolu müstəsnadır. Milli-etnik mədəniyyətin mənimsənilməsi və fərdin mənsub olduğu etnosun müstəqil və tam hüquqlu üzvünə çevrilməsində tərbiyəçi-sosializatorun (valideyn və müəllim, ətraf mühit) istifadə etdiyi mühüm vasitədir ənənəvi xalq oyunları. Deməli etnik mədəniyyətimizin əzəli saflığının, ilkin əzəzmətinin müəyyənləşdidrdilməsi işində xalq oyunlarının tədqiqi həm nəzəri həm də praktiki əhəmiyyətə malikdir.Bu oyunların mənşəyinin, tarixinin öyrənilməsində ən qədim yazılı tarixi-etnoqrafik salnaməmiz olan "Kitabi-Dədə Qorqud" dastanı etibarlı, danılmaz mənbədir.

Hər bir xalqın oyun və əyləncələri onun etnik mədəniyyətinin ən qədim dövrlərdən süzülüb gələn vacib və əhəmiyyətli komponentidir. Oyun və əyləncələr bəşər həyatının erkən çağlarından başlayaraq adamların boş vaxtlarını maraqlı keçirmə üsulu, uşaqları, yeniyetmələri nəsilbənəsil tərbiyə edib onları həyata hazırlayan məktəb olmaqla yanaşı yetkin insanların da fiziki gücünü, qabiliyyətini getdikcə təkmilləşdirən vasitə sayılmışdır. Oyunlar insanın özünütəyinetmə və özünütəsdiqetmə üçün göstərdiyi cəhdlərindən doğan aktdır. Ən azı milli oyunlar valideynin övladına verdiyi hünər dərsi qədər gərəklidir (12, s.166). Oyunlar insanın özünü tamamilə başqa dünyada görməsidir. Ümumi kütlə üçün əyləncə, tamaşa rolunu oynayan oyunlar həm də oyun iştirakçıları üçün sınaq vasitəsi sayılır. Oyun və əyləncələri «şərti hallarda gözlənilməz vəziyyətlərdən çıxmağın məşqi, dünyanı mənimsəmək sənəti» (9, s.9) kimi xarakterizə edirlər.

Tədqiqatçılar xalq oyun və əyləncələrini müxtəlif prinsip əsasında (dini, fiziki funksiyalarına, mənşəyinə, sadə və mürəkkəbliyinə görə) təsnif edirlər. Xüsusi mədəni element olmaqla oyunlar bir çox humanitar elmlərdə müxtəlif yönlərdə bölgülənir.Təkcə etnologiyada onlarla təsnifat növü vardır. «Kitabi Dədə Qorqud» dastanındakı xalq oyunlarını üç qrupa: uşaq oyunları, oyun-tamaşalar, cəngavərlik oyunları kimi qruplara ayırmaq daha məqsədə müvafiq sayilir (6, s.197).

Dastanda adı çəkilən oyunlardan biri «aşıq-aşıq» oyunudur. «Dirsə xan oğlu Buğac" boyunda bu haqda deyилir: «Məgər sultanım, üç dəxi oğuz uşağı meydanda aşuq oynarlardı» (8, s.36). VII əsrdə adı çəkilən aşıq-aşıq oyunu indi də uşaqların sevimli oyunlarından biri olaraq qalır və cızılı (cızıq çıxdı), doğan-doğan, alçı- doğan, çıxdı-çıxdı (aşıq atmaq) və s. kimi adlarla tanınır. 6-10 yaşlı oğlan uşaqlarının oynadığı aşıq xırda buynuzlu (əsasən qoyun) heyvanların aşıqlarından hazırlanırdı və hər bir uşağın xeyli aşığı olurdu. Qeyd edək ki, tədqiqatçılar aşıqdan falabaxma, püşk atma vasitəsi kimi və qumar oyunu zamanı istifadə edildiyini də yazırlar (11, s.28, 44). Aşıq-aşığın çox maraqlı oyun

qaydası vardı. Oyunda üç, dörd, beş uşaq iştirak etsə də, oyun əsasən iki uşaq arasında gedir. Oyunçular oyuna eyni miqdarda aşıq daxil edirdilər. Aşığın dörd tərəfindən hər birinin öz adı vardı: yan çökək tərəf «oğru»; yan qabarıq tərəf «cütcü», üst düz tərəf «eşşək», üst çökək tərəf «soltan» adlanırdı. Tədqiqatçılar bu oyunun mənşəyini qoyunçuluq təsərrüfatı ilə bağlayırlar (6, s.198).

Dastanda diqqəti çəkən əyləncə vasitələrindən biri buğa ilə buğranın (erkək dəvə) döyüşdürülməsidir ki, ikinci qrup - cəngavər oyunları qrupuna aid edilməlidir. Tarixən müxtəlif bayram və mərasimlərdə heyvanların döyüşdürülərək əyləncə vasitəsi kimi istifadə olunması məlumdur. Ötən əsrin əvvəllərində də Bakıda qoç, xoruz, döyüşdürülməsi xalqın sevimli əyləncə vasitəsi olmuşdur. Dastanda eyni cinsli deyil, müxtəllif cinsli heyvanların döyüşdürülməsinin şahidi oluruq. «Bayandur xan Qalın oğuz bəylərilə tamaşaya baxardı, təfərrüj edərdi» ifadəsi belə heyvan döyüşdürülmələrinin oğuz ellərində çox böyük maraqla izlənilən oyun olduğunu sübut edir. Dastandan bəlli olur ki, adətən yaz və payız aylarında qurulan belə el oyunlarında döyüşdürülən heyvanlar uzun müddət bəslənilirdi. Öyrənilən mənbədə başqa heyvanların döyüşdürülməsi haqqında məlumat verilməsə də, oğuzların maldarlıq təsərrüfatında özünə yer tapmış heyvanlar - qoç, buğa, dəvə döyüşdürülməsi, it boğuşdurulması da əyləncə vasitələrindən biri olmuşdur.

«Kitabi Dədə Qorqud» dastanında öz əksini tapan və sayca daha üstünlük təşkil edən üçüncü qrup oyunlar-cəngavər oyunlarıdır. Bu oyunlar özü də müxtəlifliyi və rəngarəngliyi ilə fərqlənir. Belə oyunların bəzilərində cəngavərlər müxtəlif heyvanlarla döyцşцr, digərlərində isə öz aralarında yarışırlar. Dirsə xanın oğlunun buğa ilə sonadək döyüşməsi belə düşünməyə əsas verir ki, oğuzlar əyləncələr zamanı şəxsi güc və qüvvəsinin sınağı və nümayişi kimi heyvanlarla da döyüşmüşlər. Bu özünü «Qanlı Qoca oğlu Qanturalı» boyunda daha qabarıq göstərir. Burada Trabzon təkurunun qızı Selcan xatunu almaq üçün Qanturalı xüsusi bəslənmiş üç heyvanla: aslan, buğa və dəvə ilə döyüşür.

Oğuzların ən çox sevdikləri yarış növləri at çapmaq, ox atma və güləşdir. Bu yarış növlərinin üçü də «Bamsı Beyrək» boyunda təfsilatı ilə verilmişdir. Cəng yarışları sırasında at çapmanın-cıdırın ən öndə durması təsadüfi olmayıb, atçılığın əsas təsərrüfat sahələrindən biri olan xalqın gündəlik məişət və həyat tərzi ilə əldaqələndirilməlidir. Mənəviyyatı «at işlər, ər öyünər» psixologiyası ilə köklənmiş Cavanşirlər arasında yaxşı at çapma XIX-XX əsrin əvvəllərində ən mühüm igidlik hesab edilirdi (6, s.199). XIX əsrin sonlarında at çapma yarışlarının şahidi olmuş rus hərb tarixçisi M.T Dubrovin yazırdı: «cıdır xalqın ən sevimli oyunudur». XX əsrin əvvəllərində Novruz bayramı günlərində gur musiqi sədaları altında keçirilən, əsl bayram əhval-ruhiyyəsi yaradan, qəhrəmanlıq, cəsarət, mərdlik hisslərini coşduran cıdır oyunlarının keçirildiyi haqqında dövrü mətbuatda xeyli məlumatlar verilir. «Kitabi Dədə Qorqud» dastanında dəfələrlə təsviri verilmiş at çapma, ox atma yarışlarının tarixi kökləri lap qədimlərə gedib çıxır. Hələ e.ə.158-ci ildə Çin dövlət məmurunun imperatora yazdığı məktubda türklərin bu qabiliyyəti çox parlaq şəkildə etiraf olunmuşdur: «Hunlar at çaparkən ox atır və yay çəkə bilirlər. Çinli atlılar bunu bacarmırlar. Bu, hunların çox-çox uzun zamanlardan bəri davam edən qabiliyyətləridir"(**7**, s.111). Dədə Qorqud oğuzları da qatı yay çəkməyi, dəqiq nişan vurmanı yüksək igidlik, hünər əlaməti saymışlar. Üçüncü boyda Banı Çiçəyin toyunda ox atma üzrə keçirilən yarışda «Beyrək oqla üzügün vurdu, paraladı. Oğuz bəgləri bunu görcək əl qaldırdılar, küsüşdülər" (8, s.63).Qeyd etmək yerinə düşər ki, üzüyü oxla atma «Koroğlu» dastanında da xatırlanır ki, bu da VII əsrə aid ənənənin XVI-XVII əsrlərdə davam etdiyini sübut edir.

«Bamsı Beyrək» boyunda Banıçiçəyin öz nişanlısına sınaq üçün təklif etdiyi oyun növlərindən biri güləşdir. Orta əsrlər dövründə bir çox xalqlarda olduğu kimi, oğuzlar arasında güləşin geniş miqyas alması həmin dövrdə həyat tərzinin zərurətə çevirdiyi güc, qüvvə, dözüm, çeviklik tələb etməsi ilə bağlıdır. Digər tərəfdən, bu, orta əsrlərdə həyat tərzinə çevrilmiş savaşların, döyüşlərin bir ümumi qaydası ilə bağlıdır. Belə ki, «qədim zamanlarda müharibələrdə çox zaman əks cəbhələrdən seçilmiş pəhləvanların üz-üzə gələrək döyüşməsi ilə hərbin taleyi həll edilmiş olurdu"(**7** , s.135). Bu qayda hətta folklor nümunələrində də iz buraxmışdır. «Daş pəhləvan» əfsanəsində göstərilir ki, ixtilafda olan iki padşahdan biri hər iki tərəfdən pəhləvanları güləşdirməyi və məğlub olan tərəfin qalib gələn tərəfin hakimiyyətini qəbul etməsini təklif edir (4, s.25-26). Dastanda güləş oyunu demək olar ki, bütün təfsilatı ilə verilmişdir. Hətta güləşən tərəflərdən birinin «arxasının yerə vurulması» qələbənin əsas və yeganə şərti olduğu belə aydın verilmişdir: "Beyrək Banıçiçəyi «bağdadı, arxası üstünə yerə urdı" (8, s.55).

“Kitabi-Dədə Qorqud” dastanında xüsusilə diqqəti cəlb edən xalq oyunlarından biri də çövkandır. Bu oyun «Salur Qazanın evinin yağmalanması» boyunda xatırlanır. Şökli Məlikin adamlarına boyun əyməyən Qaraca Çoban onlara deyir:

Qılıncını nə ögərsən, mərə kafir!
Əyri başlu çövkanımca gəlməz mana! (8, s.141)

«Qazılıq Qoca oğlu Yeynək» boyunda isə “top” sözü işlədilmişdir: «Qara polad üz qılıncı ənsəsinə eylə çaldı kim, başı tob kibi yerə düşdi” (8, s.96). Orta əsr mənbələrində çövkandan başqa topla oynanan bir oyun adına rast gəlinmədiyindən, bənzətmə kimi işlədilmiş topun cövkan oyununda istifadə edilən top olduğunu düşünmək olar. Çövkanın yarandığı coğrafi yer və zaman məsələlərində etnoqrafların mövqeyi heç də birmənalı deyildir. Bəziləri onun fars, digərləri isə türk mühitində yarandığını iddia etməkdədirlər. Vaxt məsələsində isə çökanın sasanilər dövründə meydana gəldiyini söyləyənlərlə yanaşı onu əhəmənilər dövrü ilə bağlayanlar da az deyildir. M.Dadaşzadə «çövkan» və ya «çoğan» sözünün Azərbaycan dilində «ağaccıq» kimi işlədildiyini iddia etməklə, sözün mənşəyinə əsaslanaraq bu qədim oyunun türk-oğuz mühitində yarandığını müdafiə etmiş olur (5, s.145). Çovkan at üstündə 1,5-2 m uzunluğunda olan əyri ağacla oynanılan oyundur. Güc, qüvvət və çeviklik, at çapma məharəti tələb edən bu xalq oyunu orta əsrlərdə ən populyar oyun növü olmuşdur. Məhz bunun nəticəsidir ki, orta əsr miniatürlərində ən çox rast gəlinən səhnələrdəndir. Tədqiqatçıların çovkanın çəkicvari və ya çömçəvari formada olması fikrində yekdil mövqeyə gəlmədiklərini nəzərə alaraq qeyd etməliyik ki, “Kitabi-Dədə Qorqud” dastanında bu alət «əyri başlı çovkan» kimi təsvir edilmişdir (1, s.485). Orta əsr xalq oyunlarının tədqiq edən M.Dadaşzadə onun müasir xokkey oyununda işlədilən alətə oxşadığını iddia edir (5, s.155). Çovkan oyununda istifadə edilən topun hazırlanması da xüsusi maraq doğurur. Bunun üçün daranmış yunu əllə yumaq şəklinə salır və bacardıqca sıxırdılar. Lazımi forma alındıqdan sonra onu yarım saat qaynar suda saxlayırdılar, sudan çıxardıqdan sonra təkrarən sıxır və üzərinə xüsusi göndən dəri üz çəkirdilər. Bu üsulla düzəldilən toplar elastiki şar formasında olur və müasir rezin topları xatırladırdı (2, s.4). X əsr şairi Firdovsinin məlumatına görə çövkan oyununa uşaqlar 7 yaşdan başlayırdılar və ilk vaxtlar at üstündə yox, piyada oynayırdılar. N.Gəncəvi “Xosrov və Şirin” poemasında qızların da oğlanlarla bərabər çovkan oynadıqlarını bədii dillə təsvir etmişdir, Şirin Xosrova bacarığını sınamaq üçün məhz çovkan oynamağı təklif edir (3, s.132). Çovkan adətən musiqinin müşayəti ilə oynanılırdı, iştirak edən tərəflərin atları bir-birindən fərqlənirdi. Hər dəstədə altı, səkkiz və bəzən daha çox atlı iştirak edirdi.

Orta əsrlər dövründə ovçuluq təsərüfat sahəsi kimi peşə səviyyəsini itirmiş və bir əyləncə, sınaq vasitəsinə çevrilmişdir. Qərbi Avropada ov feodal cəngavərlərin öz hünərini nümayiş etdirmək üçün bir meydana çevrildiyi kimi Şərqdə də həmin mahiyyəti daşımışdır. Odur ki, “Kitabi-Dədə Qorqud” oğuzlarının da ovlarında ən güclü hərbçilər, əsilzadələr iştirak edir. Şəxsi şücaət və savaş bacarığı, ən yaxşı sərkərdələr, ən yaxşı oxçular, süvari-çaparlar məhz ovda aşkarlanardı.

Ov ordunun döyüş zamanı götürdüyü hərbi nizama əsasən qurulurdu (**7**, s.12-13). Bütün feodalizm cəmiyyətinin mövcudluğu dövründə ov özünəməxsus hərbi manevrə, hərbi şücaətə hazırlıq mərhələsinə çevrilmişdi. Ovçuluq uzun əsrlik ənənə ilə bağlı olaraq təkcə bir çox hökmdar və sərkərdələrin boş vaxtlarının məşğuliyyəti, əyləncə həvəskarlığından irəli gəlməmişdir. Ova çıxmaq həm də hərbi təlimin ayrılmaz hissəsi, məşq meydanında özlərini dönə-dönə sınaqdan keçirmək, atıcılıq və oxatma, hədəf alma məharətini artırıb inkişaf etdirmək məqamı idi.

Ovun bu xarakteri “Kitabi-Dədə Qorqud” dastanında da çox aydın əks olunmuşdur. Oğlunu “yay çəkmədin, ox atmadın, baş kəsmədin, qan tökmədin” - deyib qınayan Qazan xan onu sınaq üçün ova aparır (8, s.69). Dirsə xanın oğlu Buğac da öz məharətini atasına məhz ov zamanı nümayiş etdirmək istəyir: “Babam at səgirdişimə baqsun, qıvansun, ox atışıma baqsun, güvənsün, qılınc çalışıma baqsun sevinsin” (8, s.37). Hətta böyükdən icazəsiz ova çıxmağın ona qarşı döyüşə hazırlaşmaq və gizlin qəsd kimi qiymətləndirilirdi. Bu məqam “Dirsə xan oğlu Buğac” boyunda öz ifadəsini tapmışdır (8, s.37).

Oğuz cəngavərləri ov zamanı müxtəlif heyvan və quşları ovlayırdılar. Heyvanlardan sığın ovu zamanı ox və yaydan, bəzən də qılıncdan istifadə edildiyi aydın görünür-“qılınc jalımıma baqsun”

ifadəsi bunu sübut etmədədir. Oğuzların ov zamanı riayət etdikləri qaydalardan biri arıq heyvanların ovlanmamasıdır (11, s.54). Ov hərtərəfli təşkil olunur, hətta xüsusi ov quşlarından – şahindən və ov itlərindən də istifadə edilirdi. On birinci boyda «şahinçibaşı» ifadəsi ov quşları saxlayan xüsusi adamların ayrıldığını göstərir: "Qazan bir gecə yeyib-oturarkən şahinçibaşına aydır: "Mərə sabah şahinləri al, xəlvətcə ova binəlim" dedi (8, s.116, s.44).

Oğuzların "Kitabi-Dədə Qorqud" dastanında öz əksini tapmış ov ənənələri son dövrlərə qədər davam etmişdir. Ov bir əyləncə vasitəsi, əlavə qida əldə etmək vasitəsi kimi indi də qalmaqdadır. Fransız yazıçısı A.Düma XIX əsrdə Ağsuda şahinlə ov səhnəsini bütün incəlikləri ilə təsvir etmişdir.

Dastanda təsvir edilən oyun və əyləncələr göstərir ki, onlar təkcə oyun, tamaşa xarakteri daşımır, həm də həyatın sınaqlarına hazırlıq məktəbidir.Bu isə orta əsrlərdə müharibələrin təbii olduğu şəraitdə həyati zərurət idi. Folklorumuzda yer almış bu oyunlar uşaqları pis vərdişlərdən, uşaq sağlamlığı üçün ziyan olan kompüter, mobil telefon və digər şüa ötürən elektron vasitələrdən uzaqlaşdırmaq üçün mühüm rol oynayır. Təəssüf hissi ilə qeyd etməliyik ki, insan üçün hərtərəfli yararlı olan bu oyunlar günümüzdə çox az oynanılır. Bu da uşaqların tərbiyəsində böyük fəsadların yaranmasına gətirib çıxarır (10, s.112). Çünki sağlamlıq, zehni və fiziki inkişaf üçün önəmli olan bu oyunlar uşaqlara ziyan vuran, onların sağlamlığını əlindən alan oyunlarla əvəz olunub. Hamılıqla çalışmalıyıq ki, bu oyunlar unudulmasın, əksinə, uşaqlar arasında daha çox oynanılan oyunlar sırasına daxil edilsin.

***Nəticə***. Məqalədə əsasən, dastanda əksini tapmış milli oyunların müxtəlif yaş dövrünə aid olduğu müəyyənləşdirildi. Müasir qloballaşma və inteqrasiya şəraitində təhlükəli olan bir prosesin yəni etnik milli özəlliklərin və dəyərlərin silinib getməsi dövründə hər bir fərdin inkulturasiyasının uğurla getməsində milli oyun və əyləncələrin müstəsna əhəmiyyəti vurğulandı. Çünki oyun və əyləncə tamaşalar xalqımızın əzəli təsərrüfat məğuliyyətindən, dünyaya fəlsəfi baxış tərzindən , etika və estetikasının spesifikliyindən yaranmış etnomilli dəyərlərdir. Oyunlar mənəvi mədəniyyətimizin komponenti sayisa da əslində əmək və həyat fəaliyyətindən törəmiş və tarixi inkişafın gedişində təkmilləşmə yolu keçmişdir. Bu nəticəyə gəldik ki, ənənəvi oyun və əyləncələr Azərbaycanlı yeniyetmə və gəncin, uşağın milli ruhda böyüməsində, etnik mədəniyyətin qorunmasında əhəmiyyətli vasitə olmaqla yanaşı elmi teniki sıçrayış dövrünə onların müxtəlif ziyanlı tenoloji, kompüter oyunlarından qorunması üçün həm də praktik əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası. IIIcild.Bakı, Şərq-qərb, 2000, 567 c.
2. Ağayev L. Azərbaycan milli xalq oyunları. Bakı:Azərb.Dövlət Nəşriyyatı Poliqrafiya Birliyi, 1992, 80 s.
3. Bünyadova Ş.T. Nizamı və etnoqrafiya. Bakı: Elm, 1992, 156s.
4. Cəmşidov Ş. Kitabi-Dədə Qorqud. Bakı: Elm, 1977, 176s.
5. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: Elm, 1985, 216 s.
6. Əhmədova V. Azərbaycan xalq oyun və əyləncələri // Azərbaycan arxeologiyası və etnoqrafiyası, Bakı: Nafta-Press, 2007, №1, s.194-200.
7. Əsgər Ə. Qıpçaq M. Türk savaş sənəti. Bakı: Yazıçı, 1996, 174 s.
8. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 s.
9. Qarabağ xalq oyunları və meydan tamaşaları. Bakı, Elmin inkişafı fondu, 2017, 280 s.
10. Rzayeva Ç. Oyunların elmi təhlili və onların əqli-fiziki inkişafında əhəmiyyəti // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2021, №3, s.105-113.
11. Tahirzadə R., Qurbanov C. Azərbaycan milli xalq oyunları, onların mədəniyyətimizin tarixində yeri. Bakı: Elm, 2007, 229 s.
12. F.Vəliyev, R.Əfəndiyev. Səməd Vurğun və Azərbaycan etnoqrafiyası. Bakı: "Çinar-çap, 2006, 204s.

**АМАНЕТ АСАДОВА**
*Бакинский Государственный Университет*

## НАРОДНЫЕ ИГРЫ И РАЗВЛЕЧЕНИЯ КАК ВАЖНАЯ СОСТАВЛЯЮЩАЯ ЧАСТЬ ЭТНОКУЛЬТУРЫ (ПО МАТЕРИАЛАМ ЭПОСА «КИТАБИ-ДЕДЕ ГОРГУД»)

Национальные игры и развлечения являются важными компонентами этнической культуры каждого народа. Народные игры являются не только средством развлечения людей но и школой воспитывающей детей и подростков. Взрослые, с другой стороны постоянно улучшают свою физическую силу и способности с помощью игр и развлечений. Роль игры и развлечения в процессе инкультурации и социализации личности чрезвычайно велика.

Традиционные народные игры отраженные в эпосе «Китаби-Деде Горгуд» делятся на три группы: детские, игровые представления, рыцарские игры. Детская игра – игра «ашуг-ашуг». Бои таких животных как бараны, быки, верблюды, собаки которые нашли место в животноводческом хозяйстве огузов педставляют собой зрелище. Третья группа игр в эпосе «Китаби-Деде Горгуд» рыцарские игры. Любимые виды спорта огузов – верховая езда, стрельба из лука и борьба.

*Ключевые слова:* эпос, игра, этнический, огузы, культура.

**AMANAT ASADOVA**
*Lecturer of Baku State University*

## FOLK GAMES AND ENTERTAINMENT AS AN IMPORTANT COMPONENT OF ETHNIC CULTURE (BASED OF THE EPOS "KITABI- DADA GORGUD)

National games and entertainment are an important component of the ethnic culture of each nation. Games and entertainment are not only a means of entertaining people, but also a school that educates children and adolescents. Adults, on the other hand, are constantly improving their physical strenght and abilities through games and entertainment. The role of games and entertainment in the process of inculturation and socialization of the individual is extremely important.

Traditional folk games, which are reflected in the epos "Kitabi Dada Gorgud" of the Azerbaijani people, are divided into three groups: children's games, play performances, chivalry games. Children's game is an "ashig -ashig" game. The fighting of animals such as rams, bulls, camels and dogs, which have found a place in the Oghuz cattle farm, is a spectacle games. The third group of games in the epos "Kitabi Dada Gorgud" is knightly games. The oghuz's favorite sports are horseback riding, archery and wrestling.

*Keywords*: epos, game, ethnic, oghuz, culture.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Nərgiz Quliyeva.*

**UOT 902**

**ГЮНЕЛЬ ВАЛИЕВА**
*Институт Археологии, Этнографии и Антропологии НАНА*
**g.aliyeva19@mail.ru**

# О НЕКОТОРЫХ ВОПРОСАХ УЗЕРЛИКТЕПИНСКОЙ КУЛЬТУРЫ КАРАБАХА ЭПОХИ СРЕДНЕЙ БРОЗЫ

*Узерликтепе – первое археологически исследованное поселение городского типа периода средней бронзы. Это поселение находится на востоке города Агдам, по правую сторону дороги Агдам-Агджабеди. Памятник был обнаружен в ходе масштабных полевых исследований в 50-х годах XX века комплексной археологической экспедицией Института Археологии Академии Наук СССР совместно с сотрудниками Института Истории Академии Наук Азербайджанской СССР. Во время исследований здесь было обнаружено три, отличающихся друг от друга, культурных слоя. В каждом слое были найдены характерные для каждого слоя артефакты. Датировка поселения Узерликтепе была определена радиоуглеродным методом, позволившим установить возраст среднего слоя и отнести его к 3000-3260, т.е. 1340-260 гг. до н.э.. А.А.Иессен, определив стратиграфию Узерликтепе, датировал ее нижний горизонт началом II тысячелетия до н.э., средний горизонт – XVII-XV вв., верхний горизонт – XV-XIV вв. до н.э.*

*Ключевые слова*: Карабах, археология, памятники, Узерликтепе, артефакты, керамика.

***Введение***. Узерликтепе является первым археологически исследованным поселением городского типа периода средней бронзы. Памятник был обнаружен в ходе масштабных полевых исследований в 50-х годах XX века комплексной археологической экспедицией Института Археологии Академии Наук СССР совместно с сотрудниками Института Истории Академии Наук Азербайджанской СССР. Здесь велись археологические раскопки под руководством А.Иессена, К.Кушнаревой и другими археологами. Это поселение находится на востоке города Агдам, по правую сторону дороги Агдам-Агджабеди. Общая площадь раскопа на время первых исследований достигала 484 м$^2$, с глубиной раскопа в 3 м. Поселение расположено на естественном холме высотой 3-3,5м. [1, с.388-420; 2, с.129-135; 4, с.48-50].

Во время исследований здесь было обнаружено три, отличающихся друг от друга, культурных слоя. Глубина первого, нижнего культурного слоя поселения 60-80 см, который протянут по всей площади. В этом слое не было обнаружено оборонительной стены. Это поселение носило открытый характер, что отличало его от пришедшего ему на смену. Большинство находок было обнаружено в пределах стены. За стеной было обнаружено меньшее количество артефактов. Здесь были найдены единичные находки и открытые очаги. Характерной чертой этого слоя является наличие многочисленных хозяйственных ям. Достаточно отметить, что на территории 484 м$^2$ было обнаружено 70 таких ям. Они отличаются друг от друга по форме, размеру и строению. В некоторых хранились запасы зерна, в других – мука и другие продукты. Некоторые ямы были заполнены бытовыми отходами. Внутри были обнаружены сгоревшее сено и зерно, немало ям со слоем золы, а так же были найдены останки еды и разнообразная посуда. Стенки некоторых ям были укреплены. Некоторые ямы крупного размера, по мнению ученых, также могли использовать для содержания мелкого скота. Очевидно, ямы существовали недолгий период, так как быстро наполнялись. Вследствие этого возникала необходимость в новой яме. Часто стенки ям врезались в соседнюю яму. В этом слое также часто встречались останки костров. Некоторые кострища были обрамлены речными камнями [1; 2].

В первом слое были обнаружены остатки постройки, разрушенной во время пожара. Пол постройки был расположен на материке и укреплен глиняным слоем. Его толщина достигала 9 см. Стены были укреплены деревянными опорами, их толщина достигает 25см. Постройка была перекрыта деревянными опорами и засыпана соломой. На ряду с этим, здесь было обнаружено большое количество каменных орудий, обсидиановые и кремниевые ножевидные плас-

тины, каменные грузила и т.д. Одним из самых интересных находок являются факты, связанные с металлообработкой. Особый интерес представляет кусок шлака, обнаруженный со дна ямы №91 и глиняный грубый тигелек из очага жилища, открытого в 1956 году. Исследуя эти артефакты, ученые с уверенностью отнесли древнейшее поселение Узерлик-тепе к эпохе бронзы [3, с.74-101].

Среди материалов особое место занимают образцы керамики, собранные в результате трехлетних раскопок Узерлик-тепе. Каждая керамическая группа рассматривается в процессе динамики на протяжении нескольких столетий, что может способствовать хронологической расшифровке аналогичных керамических комплексов.

Керамическая посуда из нижнего слоя делится на 2 группы по техническим особенностям, составу глины, по цвету и предназначению.

Первая группа керамики изготовлена из глины светлого оттенка. В составе которой есть мелкие камешки и крупный песок. Эти находки были представлены лепными кухонными сосудами из светлой глины. Их поверхность неровная, сглаженная рукой или пучком травы. Крупная посуда применялась для хранения пищевых запасов. К этой группе относятся маленькие безручные горшки, маленькие чашечки и т.д. Керамика первой группы не украшалась, иногда встречаются налепы в виде шишечек, колечек, перевернутые трезубцы и т.д.

Обнаруженная здесь вторая группа керамики – серого цвета, из хорошо переработанной чистой глины. Поверхность изделий была гладко отшлифована. Изделия, в основном, черного или бурого цвета. По мнению исследователей, для того, чтобы окрасить изделие в черный цвет, сначала обжигали при низкой температуре, а затем покрывали слоем жира. Второй тип изделий, в основном, орнаментированный. Большинство изделий украшены комбинацией выцарапанных черточек, которые наносили, пока изделие было сырым. Орнаментация грубая и ассиметричная. Основные мотивы орнаментации зигзагообразные, параллельные линии, штампы, нанесенные зазубренным орудием ромбообразные узоры. Керамика второй группы приобретает более совершенную, завершенную форму. Особенно изящной становится миниатюрная посуда.

На некоторых образцах выцарапанные линии были заполнены белым веществом. Толщина второго слоя достигает 1,5 м. Этот слой отличается от нижнего богатым разнообразием археологических материалов и наличием оборонительной стены. Так же в этом культурном слое были обнаружены следы кострища и пожара. Здесь были выявлены стены жилого помещения, которые уничтожены сильным пожаром [5, с.92-98].

Во втором слое была обнаружена оборонительная стена общей длиной 35м. Ширина стены 2м, высота – 1м. Стена была возведена из сырцового кирпича. В этом слое было обнаружено больше культурно-материальных предметов. Со временем оборонительная стена во втором культурном слое обрушилась и потеряла свое значение. Впоследствии здесь образовался третий культурный слой. Верхний слой подвергся разрушению из-за мусульманского кладбища и впускных погребений. Здесь были обнаружены остатки жилого помещения, очаг, многочисленные археологические находки из первого и среднего слоя не сильно отличались и провела их совместное исследование. Обнаруженные в первом слое грубые изделия использовались и в последующем периоде. Керамика Узерликтепе делится на 3 группы: 1) грубая кухонная посуда; 2) искусно выполненная шлифованная черненая посуда с геометрическим, зигзагообразным и т.д. орнаментом; 3) красная лощеная посуда с черной росписью. Эта посуда была обнаружена в небольшом количестве. Керамика третьей группы выполнена из тонкого керамического теста и хорошо обожжена. Это крупные массивные сосуды с округлым в верхней части туловом, широким горлом и значительно отогнутым венчиком. поверхность покрыта красным ангобом, залощена и расписана черной краской.

Третий культурный слой лежит над оборонительной стеной. В этом культурном слое выявлены строительные остатки ямы, остатки стен жилища. Около стен был обнаружен очаг. Внутри очага найдены глиняная женская фигура, глиняная лепешка и обгорелые зерна. У остатков стены находится очажное сооружение из глиняных жгутов цилиндрической формы, рядом – вырыта яма для золы [3, с.74-101].

В Узерликтепе было очень развито гончарное ремесло. Здесь были обнаружены разнообразные расписные чаши. Для нанесения точных симметричных узоров применялись различные инструменты в виде деревянных и костяных штампов. Так же в третьем слое была обнаружена монохромно-расписная керамика.

Датировка поселения Узерликтепе была определена радиоуглеродным методом, позволившим установить возраст среднего слоя и отнести его к 3000-3260, т.е. 1340-260 гг. до н.э. А.А.Иессен, определив стратиграфию Узерликтепе, датировал ее нижний горизонт началом II тысячелетия до н.э., средний горизонт – XVII-XV вв., верхний горизонт – XV-XIV вв. до н.э. [5, с.98].

***Заключение***. Поселение Узерликтепе имеет огромное значение в изучении древней культуры Карабаха. Данный археологический памятник богат ценными артефактами, принадлежащими к различным отраслям, таким как: гончарство, металлообработка, ткачество и т.д.

В Узерликтепе было развито гончарное дело. В каждом из трех культурных слоев было обнаружено огромное количество керамической посуды разных мастей. Они отличались друг от друга как по составу и классификации, так и по размерам и предназначению.

Изучение поселения Узерликтепе представляет ценность не только для Азербайджана, но и для всего Южного Кавказа. Дальнейшие Археологические исследования этого памятника позволят расширить знания в целом о периоде средней бронзы.

ЛИТЕРАТУРА

1. Кушнарева К.Х. Поселение эпохи бронзы на холме Узерлик-тепе около Агдама // МИА Материалы и исследования по Археологии СССР, №67, Москва – Ленинград 1957, с.338-420.
2. Кушнарева К.Х. Раскопки на холме Узерлик-тепе около Агдама (из работ Азербайджанской экспедиции 1954 г.). КСИИМК, 1957, вып. 69, с.129-135.
3. Кушнарева К.Х. Новые данные о поселении Узерлик-тепе около Агдама // МИА СССР, № 125, Москва – Ленинград, 1965, с.74-101.
4. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, «Элм», 1991, с.48-50.
5. Cəfərov H.F. Qədim Qarabağ. Bakı, "Elm", 2020, s.92-98.

**GÜNEL VƏLİYEVA**
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu*

## QARABAĞIN ORTA TUNC DÖVRÜ ÜZƏRLİKTƏPƏ MƏDƏNİYYƏTİ

Üzərliktəpə Orta Tunc dövrünə aid arxeoloji cəhətdən tədqiq edilmiş ilk şəhər tipli yaşayış məskənidir. Abidə XX əsrin 50-ci illərində SSRİ Elmlər Akademiyasının Arxeologiya İnstitutunun kompleks arxeoloji ekspedisiyası Azərbaycan SSR EA Tarix İnstitutunun əməkdaşları ilə birgə genişmiqyaslı çöl tədqiqatları zamanı aşkar edilmişdir. Burada A.Jessenin, K.Kuşnarevanın və başqa arxeoloqların rəhbərliyi ilə arxeoloji qazıntılar aparılmışdır. Bu qəsəbə Ağdam şəhərinin şərqində, Ağdam-Ağcabədi yolunun sağ tərəfində yerləşir. Hər təbəqədə xarakterik fərqləri olan çoxlu sayda artefakt aşkar edilmişdir. Üzərliktəpə yaşayış məntəqəsinin dövrü radiokarbon üsulu ilə müəyyən edilmişdir ve bu orta təbəqənin yaşını təyin etməyə və onu e.ə. 3000-3260-a aid etməyə imkan vermişdir, yəni e.ə. 1340-260 illər.

*Açar sözlər*: Qarabağ, arxeologiya, abidə, Üzərliktəpə, artefaktlar, keramika.

**GUNEL VALIYEVA**
*İnstitute of Archaeology, Etnorgraphy and Antropology of ANAS*

## UZERLIKTEPE CULTURE OF KARABAKH OF THE MIDDLE BRONZE AGE

Uzerliktepe is the first archaeologically explored urban-type settlement of the Middle Bronze Age. The monument was discovered during large-scale field research in the 50s of the 20th century by a complex archaeological expedition of the Institute of Archeology of the USSR Academy of Sciences together with employees of the Institute of History of the Academy of Sciences of the

Azerbaijan USSR. Archaeological excavations were carried out here under the leadership of A.Jessen, K.Kushnareva and other archaeologists. This settlement is located in the east of the city of Agdam, on the right side of the Agdam-Agjabadi highway. During the research, three distinct cultural layers were discovered here. In each layer, a large number of artifacts were found that have soy characteristic differences. The age of the Uzerliktepe settlement was determined by the radiocarbon method, which made it possible to establish the age of the middle layer and attribute it to 3000-3260, i.e. 1340-260 BC.

*Keywords*: Karabakh, archaeology, monuments, Uzerliktepe, arthefacts, ceramics.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 aprel 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Hidayət Cəfərov, t.e.d. Qüdrət İsmayılov.*

**UOT 94(479.24); UOT 930:314**

**AYDIN MƏMMƏDOV**
*BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
**aydin.mmmdov.67@ mail.ru**

# XX ƏSRİN İKİNCİ YARISI AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA İBTİDAİ DÖVRDƏ QARABAĞDA MƏSKUNLAŞMA İLƏ BAĞLI TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

*Azərbaycan tarixinin ən dərin kökləri ibtidai cəmiyyətə, daş dövrünə gedib çıxır. Əlverişli iqliмə, rəngarəng relyefə, təbii-coğrafi amillərə malik olan doğma Azərbaycanımızda ulu əcdadlarımızın hələ alt paleolit dövründən üzü bəri məskunlaşması üçün hər cür şərait olmuşdur. Təsadüfi deyildir ki, Qarabağda, Füzuli şəhərindən 14 kilometr şimal-qərbdə yerləşən dünyaca məşhur Azıx mağarası bəşər sivilizasiyasının ən qədim ocaqlarından və soydaşlarımızın məskunlaşdıqları ilk yaşayış yerlərindən biridir. İbtidai icma dövrü bəşər tarixinin ən uzun sürən,yazılı mənbələrlə deyil, əsasən arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi mədəniyyət nümunələri əsasında tədqiq edilən mərhələsidir. Sözügedən dövrdə əhalinin məskunlaşması, təbii və mexaniki artımı, ümumiyyətlə, nəsil artımına təsir edən obyektiv, subyektiv amillər hər zaman tarixi demoqrafiyanı araşdıran alimlərin diqqətini cəlb etmişdir. Məhz bu səbəbdəndir ki, bu dövr, onun xüsusiyyətləri dünyanın, o cümlədən Azərbaycanın bir çox tarixçiləri tərəfindən uzun illərdir ki, böyük bir maraqla araşdırılır.*

*Açar sözlər*: Azərbaycan tarixşünaslığı, əhali məksunlaşması, əhali artımı, ibtidai cəmiyyət, tarixi demoqrafiya.

***Giriş***. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il martın 15 də Xocavəndə səfəri zamanı Azıx mağarasında olarkən söylədiyi, istər elmi-obyektiv, istərsə də ictimai-siyasi baxımdan xüsusi əhəmiyyətə malik nitqi bu baxımdan son dərəcə böyük maraq kəsb edir: "...Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir" [1, s.6]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının bu nitqi bir daha Qarabağın Azərbaycana məxsus olduğunu və artıq bəşər tarixinin ən qədim dövrlərindən üzü bəri soydaşlarimiz tərəfindən məskunlaşdırıldığını bir daha bütün dünyaya bəyan etdi.

Azıx mağarası elmi baxımdan Şərqi Avropadakı Olduvay mədəniyyəti kompleksinə çox yaxındır. Lakin buna baxmayaraq buradan tapılmış istər sayı bir neçə minə çatan əmək alətlərinin, istərsə də digər maddi mədəniyyət nümunələrinin özünəməxsus fərqli xüsusiyyətləri onları Quruçay mədəniyyətinə aid etməyə və adlandırmağa səbəb olmuşdur.

Ulu əcdadlarımız məskunlaşmaq üçün Qarabağın təbii-coğrafi baxımdan əlverişli olmasına daha çox üstünlük verərək, məhz bu yerləri yaşayış yeri kimi seçmişlər: "İbtidai cəmiyyətdə insanların məskunlaşması artıq məskunlaşmış ərazilərdən yeni ərazilərə doğru, daha əlverişli həyat məkanı axtarmaq istəyinin təzahürü kimi min illər boyu davam etmişdir. ... Təbii ki, ibtidai insanlar ilk növbədə əvvəllər yaşadıqları ərazilərin iqlimi ilə eyni, yaxud ona oxşar ərazilərdə məskunlaşmağa üstünlük vermişlər. İqlimin oxşarlığı ibtidai insanların yeni ərazilərdə ətraf aləmlə adaptasiyasını xeyli asanlaşdırırdı [9, s.38-39].

Torpaq döşəməsinin qalınlığı 14 metrə çatan,daş dövrünün demək olar ki,bütün mərhələlərini özündə əks etdirən 11 mədəni qatdan və ümumi tunellə bağlı 8 nəhəng zaldan ibarət olan Azıx mağarasını Azərbaycanın dünyaca məşhur olan tarixçi və arxeoloqu Məmmədəli Hüseynov 25 ildən artıq tədqiq etmişdir. 1968-ci ildə yaşı 400 min ilə gedib çixan 18 yaşlı qıza məxsus alt çənə sümüyünü aşkar edən M.Hüseynovun 1973-cü ildə nəşr olunmuş "Uzaq daş dövrü" adlı əsərində istər hələ 1,5 milyon il əvvəl Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yerləşən Quruçay və Köndələnçayın vadilərinin artıq əcdadlarımız tərəfindən məskunlaşdırılmaşı, istərsə də bu yerlərdə nəsil artımı, əmək alətlərinin hazırlanması üçün son dərəcə əlverişli şəraitin, böyük imkanların olmasını geniş şəkildə işıqlandırmışdır [8, s.14].

M.Hüseynov Şell-Aşel dövrünə aid düşərgədə həyat sürən insan dəstələrinin böyük olmamasından bəhs edərək: "Qazıb üzə çıxardığımız düşərgənin sahəsi 200 $m^2$-dən çox deyildir. Belə kiçik

sahədə yaşayanların sayı da 40-50 nəfərdən çox ola bilməzdi", – deyə, yazmışdır. O, həmçinin həmin insanların həyat tərzindən də bəhs edərək: "Onlar yeməli həşəratların, bitkilərin, istehsal üçün xammalın toplanması kimi işləri birlikdə, kollektiv surətdə görürdülər" – deyə, yazmışdır. Müəllifin fikrincə, Azıx adamı dünyada ən qədim tapıntılardan biridir: "Azıx adamının dövrünə aid tapıntılar dünyanın üç-dörd nöqtəsində aşkar edilmişdir. ...Azıx mağarasının lap alt təbəqələrindən birində aşkar edilmiş daş məmulat öz hazırlanma texnikasına və formasına görə şell-aşel dövrünü xarakterizə edən tapıntılardandır [8, s.20-23].

Bütün bu kimi təkzibedilməz faktlara istinad edərək, M.Hüseynov haqlı olaraq Vətənimizdə ulu əcdadlarımızın artıq şell-aşel dövründə geniş şəkildə məskunlaşması qənaətinə gəlmişdir: "Bütün bu amillər ilk insanların Azərbaycan ərazisində hələ şell-aşel dövründə yayılmasını göstərir" [8, s.23].

Qeyd etmək lazımdır ki, Azərbaycanda qədim daş dövrünün əsaslı şəkildə öyrənilməsi 1953-cü ildən başlanmışdır. Hətta, bu məqsədlə Azərbaycana daş dövrü üzrə görkəmli tədqiqatçı S.N.Zamyatin dəvət olunmuş, onun rəhbərliyi ilə Damcılı mağarasında tədqiqat işlərinə başlanılmışdır. İkinci paleolit ekspedisiyası 1956-cı ildə təşkil edilmiş, ibtidai cəmiyyətə dair çoxsaylı məksunlaşma düşərgələri aşkar edilmişdir.

Azərbaycan ərazisində insanların bəşər tarixinin ən qədim dövrülərində məskunlaşması konsepsiyası M.Hüseynovun 1970-80-ci illərdə nəşr olunmuş "Azərbaycan arxeologiyası (daş dövrü)", "Azərbaycanın qədim paleolit dövrü", "Azərbaycanda paleolit" (bundan başqa müxtəlif illərdə rus dilində nəşr olunan: Гусейнов М.М. Археология Азербайджана (каменный век). Баку, АГУ, 1975, 162 с; Гусейнов М.М. Древний палеолит Азербайджана: культура Куручай и этапы её развития: 1,500,000-70 тысяч лет назад. Баку, Элм, 1985, 71 с; Гусейнов М.М. Палеолит Азербайджана (в соавторстве с А.К. Джафаровым). Баку, Элм, 1986, 17 с.) və d. qiymətli əsərlərində geniş şəkildə öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, ibtidai insanların nəsil artımı prosesində ətdən geniş istifadə etmələri böyük əhəmiyyət kəsb etmişdir: "Azıx mağarasının aşağı təbəqələrindən daş alətlərlə birlikdə, eyni yerdən külli miqdarda – 30 növdən çox heyvanın daşlaşmış sümük qalıqları aşkar edilmişdir. Sümüklər, əsasən, mağara ayılarına, nəhəng marallara və s. aiddir. Belə nəhəng heyvanların ovlanması göstərir ki, mağaranın sakinləri ətdən çox istifadə etmişlər" [9, s.30-31].

Məhz ətdən istifadə ibtidai insanların üzücü əmək prosesində itirdikləri enerjinin müəyyən qədər bərpa etməyə kömək edirdi. Məhz uğurlu ov, kifayət qədər ərzaq ehtiyatının əldə edilməsi nikah münasibətləri üçün zəmin yaradırdı. Ona görə də; 1) ulu icmada, sonralar isə qəbilə icmasında hamı işləməli idi, heç kəs başqasının hesabına dolana bilməzdi. 2) İcmada əhalinin mümkün olan normadan, yaxud zəruri bir həddən artıq artımından söhbət belə gedə bilməzdi. Təbii ki, burada zəruri hədd dedikdə ilk növbədə ərzaq ehtiyyatının insan artımı üçün yaratdığı imkanlar nəzərdə tutulur [9, s.33].

Əsədulla Cəfərovun ibtidai icma tarixinə dair yazdığı əsərlər də bu baxımdan böyük maraq və əhəmiyyət kəsb edir. Müəllifin fikrincə: "Artıq qədim insan özünə daimi yaşayış yeri tapmış, əmək alətləri hazırlamış və ovçuluq təsərrüfatlarına yiyələnmişdir" [4, s.37]. Ə.Cəfərovun 1989-cu ildə "Azərbaycan abidələri" adlı elmi məqalələr toplusunda" dərc etdirdiyi "Azərbaycan qədim insan məskənidir" adlı məqaləsində Vətənimizin ən qədim dövrlərdən məskunlaşmaya məruz qalmasını konkret elmi faktlarla əsaslandıra bilmişdir. Müəllifin fikrincə, dünyada hələlik elə bir məskunlaşma yeri yoxdur ki, orada mədəni təbəqələr Azıx mağarasındakı kimi zəngin olsun və yaşayış üçün uzun müddət davam etsin. Ə.Cəfərovun sözügedən məqaləsində oxuyuruq: "Aparılan elmi tədqiqatlar göstərir ki, ibtidai insanlar burada 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min il əvvəl isə mağaranı tərk etmişlər". Burada istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların zənginliyi ulu əcdadlarımızın diqqətindən yayınmamış, müəllifin təbirincə desək: "İbtidai insanlar yenidən, 20 min keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur" [3, s.21-29]. Ə.Cəfərov 1990-cı ildə nəşr edilən "Quruçay dərəsində" adlı monoqrafiyasında ibtidai cəmiyyətdə yaşayan soydaşlarımızın sosial-iqtisadi vəziyyətini son dərəcə faktoloji materiallar əsasında fundamental şəkildə tədqiq etmişdir [5].

Ə.Cəfərov ibtidai cəmiyyətə dair digər tədqiqat əsərlərində də, Azərbaycan ərazisində məskunlaşma prosesinin fasiləsiz olaraq davam etməsi fikrini əsaslandıra bilmişdir. Belə ki, müəllif 1994-cü ildə işıq üzü görən "İnsanlığın səhəri" adlı əsərində yazır: "Azərbaycan ərazisində aparılan arxeoloji

tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx, Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağara düşərgələri aşkar olunmuşdur" [4, s.43]. Müəllif Azərbaycan ərazisində tunc dövrü və sonrakı dövrlərdə də məskunlaşma prosesinin geniş vüsət alması qənaətinə gəlmişdir: "Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Qarabağ ərazisi tunc dövrünün yaşayış məskənləri ilə də zəngindir" [4, s.25].

XX əsrin ikinci yarısı Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqat əsərlərində sözügedən problemlərə dair zəngin məlumatlara rast gəlmək olar. Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqatları içərisində görkəmli alim Teymur Bünyadovun əsərləri diqqəti cəlb edir. O, 1960-cı ildə nəşr olunan "Azərbaycan arxeologiyası oçerkləri" adlı kitabında haqlı olaraq Azərbaycanda ibtidai cəmiyyətdə məskunlaşma üçün əlverişli təbii-coğrafi amillərin, o cümlədən çoxlu sayda təbii mağaraların olmasını ön plana çəkir: "İbtidai insanlar təbii şəraitdən çox asılı olmuşlar. Odur ki, onlar özləri üçün əlverişli yerlərdə məskən salmışlar. Bu ondan irəli gəlir ki, ibtidai insanların əmək alətləri və silahları çox sadə, təbiətə qarşı mübarizələri isə, sonrakı dövrlərə nisbətən xeyli zəif olmuşdur. ... Azərbaycandakı təbii mağaraların bir çoxunda ibtidai insanların yaşamaları şübhəsizdir" [2, s.28].

Sərvətlərimizin toxunulmazlığı uğrunda gedən bu qanlı qovğalarda şəhid olan soydaşlarımızı ulularımız həmişə dərin ehtiram hissi ilə anmış, xatirələrini əbədiləşdirməkdən ötəri onlar üçün simvolik qəbirlər belə hazırlamışdılar. İçərisi boş olan belə simvolik qəbirlərdə adətən kiçik ölçülü küplərdən istifadə edilirdi. Belə küplər, qəbirlərdə böyrü üstə müxtəlif istiqamətlərdə qoyulurdu. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbir abidələrinə dünyanın bir çox ölkələrində təsadüf edilir. Lakin, genotaf qəbirlərdən ibarət bütöv bir qəbiristanlığa ancaq Qarabağda rast gəlmək olur. Sözügedən bu cür qəbiristanlığın aşkar edilməsində iştirak edən mərhum arxeoloq R.Göyüşov yazır ki, ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan məbədi ərazisindədir [7, s.27]. Bəs nə üçün döyüşlərdə şəhid olan yaxud bu və ya digər səbəblər üzündən yurduna, məmləkətinə dönməyən insanlar üçün belə məzarlıqlar düzəldilirdi. Bu, ilk növbədə ən qədim zamanlarda mövcud olan dini inanclar sistemi ilə bağlı idi. Belə ki, insanlar qəbiri olmayan yaxın mərhumlarının ruhlarının rahatlıq tapa bilməməsinə inanaraq narahat olur, onlar üçün simvolik boş qəbirlər düzəldərək yanlarına yastı daşlar qoyurdular.Ibtidai icma cəmiyyətində Qədim inanclara görə, ölən insanın ruhu məhz bu daşlara hoparaq rahatlıq tapırdılar. Zaman-zaman belə boş qəbirlər ziyarət edilir, onların ətrafında müəyyən ayin və mərasimlər icra olunurdu. Başqa sözlə desək, belə genotaf qəbirlərdə şəhid ruhlarının əbədi olaraq rahat uyuması üçün mümkün olan hər şey edilirdi. Bu isə, soydaşlarımızın bəşər tarixinin ən qədim çağlarından üzü bəri torpaq uğrunda canını fəda edən insanlara rəğbət, hörmət və sevgi hisslərindən xəbər verir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə düşmən qüvvələrini ram etmək, işğalçı niyyətlərini dəf etmək, düşmən tapdağından azad olunmuş vətənlərində normal həyat və məişətlərini təmin etmək ehtiyacından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Burada maraqlı bir cəhət ondan ibarətdir ki, tədqiq olunmuş bütün genotaf küp qəbirlərində, bir qayda olaraq, küpün kənarına yastı bir daş parçası qoyulmuşdur.Heç şübhəsiz ki, bu əhalinin ənənəvi daş inancları ilə bağlı olmuşdur. R.Göyüşov haqlı olaraq yazırdı: "Küp qəbirləri belə bir dini əqidənin məhsulu olmuşdur ki, guya insan torpaqdan yaranmışdır. O, müvəqqəti dünya üçün doğularkən ana bətnində necə yatmışdırsa, daimi dünyaya gedərkən də eyni şəkildə olmalıdır. Beləliklə, küp ana bətninin rəmzi kimi yaradılmışdır" [7, s.27].

Tanınmış arxeoloq Qara Əhmədov özünün "Azərbaycanda arxeoloji qazıntılar" adlı məqaləsində Füzuli yaxınlığındakı Qaraköpək adlı çoxtəbəqəli abidədən alimlərimiz tərəfindən aşkar edilən maddi nümunələrdən bəhs edərək yazır: "Mütəxəssislərdə xüsusi maraq doğuran tapıntılardan biri də meteorit dəmirdən döyülərək hazırlanmış yarpaqvarı nizə ucluğudur". Qeyd etmək yerinə düşər ki, həqiqətən də eramızdan əvvəl IV- III minilliklərə - ilk Tunc dövrünün başlanğıcına aid olan bu tapıntı sözügedən dövrdə Qarabağda yaşayan əcdadlarımızın metallurgiya sahəsində heyrətamiz biliklərə malik olduğunu əyani şəkildə sübut edir. Axı son dərəcə yüksək sıxlığa malik olan meteoritin əridilməsi üçün lazım olan temperaturun əldə edilməsi, xüsusi sobaların hazırlanması elə də sadə iş deyildir. Məhz buna görə də: "Bu tapıntı bütün Qafqaz üçün nadir hesab olunur" [6, s.31]. Bu baxımdan qarabağlıları və ümumiyyətlə, sözügedən dövrdə Vətənimizin bütün guşələrində yaşayan soydaşları-

mızı nəinki Qafqazın, eləcə də dünyanın metalların əridilməsi, emalı sahəsində qabaqcıl texnologiyalara yiyələnmiş ilk, ən təcrübəli metallurqları hesab etmək olar.

Metalın kəşfi isə, məlum olduğu kimi insanların təsərrüfat həyatında böyük inkişafa səbəb olmuşdur. Q.Əhmədov "Bu günə necə gəlib çıxmışıq" adlı kitabında yazır ki, metalın kəşfindən sonra daha xışların ucluqlarına sümük, daş bağlamağa ehtiyac qalmadı: "Metalın kəşfindən sonra belə ucluqlar metal ucluqlarla - gavahınla əvəz olunmuş və torpağın növünə uyğun olaraq müxtəlif gavahınlar (qalın, şiş, enli və s.) yaradılmışdır" [6, s.13]. Təbii ki, bu da öz növbəsində məhsuldarlığın yüksəlməsinə ailənin maddi təminatının güclənməsinə, deməli həm də uşaq doğumunun artmasına, ictimai münasibətlər sistemində, cəmiyyətdə mütərəqqi demoqrafik proseslərin inkişafına səbəb olmuşdur. Əhalinin təbii artımı isə yaxınlıqda ( yaxin gələcəkdə isə daha uzaqda) yerləşən əkin və yaxud maldarlıq üçün əlverişli ərazilərin insanlar tərəfindən məskunlaşmasına ciddi surətdə təsir edirdi.

Qarabağın əcdadlarımız tərəfindən belə tez məskunlaşdırıldığını təmin edən ən mühüm amillərdən biri də burada əkinçilik üçün əlverişli düzənlik-aran ərazilərin yarımköçəri yaylaq-qışlaq maldarlığının intensiv inkişafına əlverişli şərait yaradan yem bazasının - şirəli otlaqlarla zəngin, geniş subalp və alp çəmənliklərinə malik dağətəyi və dağ zonası ilə bir-birinə yaxın eyni ərazidə mövcud olması idi.

Bu fikirlə müəllifin yuxarıda sözügedən məqaləsində də rastlaşırıq: "Füzuli arxeoloji ekspedisiyası həm də Kəlbəcər dağlarında axtarış işlərini davam etdirmişdir. Burada Yazyurdu, Taxta, İstisu və Zalxa adlı yerlərdə qayaüstü təsvirlər tədqiq olunmuşdur. Tərtərçayın qolu olan Qarağac çayının yuxarı axarı yaxınlığında 3000 metr yüksəklikdə yerləşən Yaxyurdu yaşayış yeri yüksək dağ rayonlarının hələ eramızdan əvvəl III minillikdə insanlar tərəfindən mənimsənildiyinə gözəl sübutdur" [6, s.31].

Başqa sözlə desək, əcdadlarımız bir qayda olaraq, yaşadıqları ərazinin təbii-coğrafi xüsusiyyətlərinə bələd olduqca, onu daha yaxından və dərindən öyrəndikcə həmin ərazilərə daha çox bağlanır, orada daha intensiv, daha sıx məskunlaşırdılar.

***Nəticə***. Deməli, yuxarıda deyilənlərdən belə bir qənaətə gəlmək olar ki, bəşər tarixinin ən erkən dövrlərində bütün dünyada olduğu kimi, doğma Azərbaycanımızda da ətraf mühitin insanların həyatı üçün nə dərəcədə əlverişli olması amilini məskunlaşma prosesinə ciddi surətdə təsir edən ən mühüm amillərdən biri, yaxud birincisi hesab etmək olar. Bu mənada, Qarabağda təbii-coğrafi amillərin son dərəcə əlverişli olması, ərazidə sözügedən dövrə dair yüksək texnoloji tələblərə uyğun əmək alətlərinin aşkar edilməsi bu yerlərin əcdadlarımız tərəfindən bəşər tarixinin ən qədim çağlarından məskunlaşdırıldığını əyani surətdə sübut edir.

Təəssüf ki, bütün bu təkzibedilməz elmi faktlar, reallıqlar bədnam qonşularımızı heç vaxt qane etməmiş, onları həmişə nəinki Azərbaycan, eləcə də Cənubi Qafqazla bağlı tarixi həqiqətləri daima saxtalaşdırmağa, təhrif etməyə sövq etmişdir. Üzdəniraq erməni "tarixçi"ləri əllərini Azıx mağarasına uzatmaqdan belə çəkinməmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu məsələ ilə bağlı Azıx mağarasında olarkən demişdir: "Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik... Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar" [1, s.6].

Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan tarixçiləri Vətənimizdə milyon illər boyunca davam etmiş ibtidai icma cəmiyyətinin məskunlaşma, nəsil artımı və s. bu kimi proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar.

ƏDƏBİYYAT

1. Azərbaycan qəzeti, № 59, 17 mart 2021.
2. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, Azərnəşr, 1960, 236 s.

3. Cəfərov Ə. Azərbaycan qədim insan məskənidir // Azərbaycan abidələri. Bakı, Azərnəşr, 1989, 125 s.
4. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, Azərnəşr, 1994, 80 s.
5. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, Azərnəşr, 1990, 64 s.
6. Əhmədov Q. Bu günə necə gəlib çıxmışıq. Bakı, Azərnəşr, 1989, 118 s.
7. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993, 83 s.
8. Hüseynov M. Uzaq daş dövrü. Bakı, Gənclik, 1973, 71 s.
9. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, ADMİU, 2019, 230 s.

**АЙДЫН МАМЕДОВ**
*Доцент кафедры источниковедения, историографии и методики Бакинского Государственного Университета, доктор философии по истории*

## ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ВОПРОСЫ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА СВЯЗАННЫЕ С НАРОДОНАСЕЛЕНИЕМ В КАРАБАХЕ В ПЕРВОБЫТНОМ ПЕРИОДЕ

Глубочайшие корни истории Азербайджана уходят в первобытное общество, в каменный век. Наш родной Азербайджан, обладающий благоприятным климатом, красочным рельефом, природными и географическими факторами, имел все условия для народонаселения наших великих предков еще с эпохи нижнего палеолита. Неслучайно всемирно известная пещера Азых, расположенная в 14 километрах к северо-западу от города Физули в Карабахе, является одним из древнейших очагов человеческой цивилизации и одним из первых поселений наших соотечественников. Период первобытного общество — самый длительный период истории человечества, изучаемый не на основании письменных источников, а на основе образцов материальной культуры, добытых в результате археологических раскопок. Следует отметить, что всегда привлекали внимание ученых, изучающих историческую демографию в целом, объективные и субъективные факторы, влияющие на рост поколений, народонаселения, а также на естественный и механический прирост населения в этот период. Именно поэтому этот период, его особенности уже много лет с большим интересом изучаются многими историками мира, в том числе и Азербайджана.

*Ключевые слова:* Азербайджанская историография, народонаселения, рост населения, первобытное общество, историческая демография.

**AYDIN MAMMADOV**
*Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, Ph.D. in History*

## HISTORICAL AND DEMOGRAPHIC ISSUES IN AZERBAIJANIAN HISTORIOGRAPHY IN THE SECOND HALF OF THE XX CENTURY ASSOCIATED WITH POPULATION IN KARABAKH IN THE PRIMARY PERIOD

The deep roots of the history of Azerbaijan go back to primitive society, to the Stone Age. Our native Azerbaijan, which has a favorable climate, colorful relief, natural and geographical factors, had all the conditions for the population settlement of our great ancestors since the Lower Paleolithic era. It is no coincidence that the world-famous Azikh Cave, located 14 kilometers northwest of the city of Fizuli in Karabakh, is one of the oldest centers of human civilization and one of the first settlements of our compatriots. It should be noted that the always attracted attention of scientists who study historical demography as a whole objective and subjective factors affecting the growth of generations, population, as well as natural and mechanical population growth during this period. That

is why this period, its features have been studied with great interest by many historians of the world, including Azerbaijan, for many years.

*Key words*: Azerbaijani historiography, population settlement, population growth, primitive society, historical demography.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 14 aprel 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

UOT 94(479.24)

**NURLAN ABBASOV**
*tarix üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universitetinin müəllimi*
**nurlan-abbasov@mail.ru**

# DAĞLIQ QARABAĞ MUXTAR VİLAYƏTİNİN YARANMASI VƏ ONUN TARİXŞÜNASLIĞI

*Qarabağ tarixən Azərbaycan torpağı olmuşdur. Belə ki, Qarabağ bütün tarixi dövrlərdə Azərbaycan dövlətinin tərkibində olmuşdur. Ərəb xilafətindən sonra Qarabağ Azərbaycan Şəddadilər dövlətinin, Böyük Səlcuq imperatorluğunun (XI əsrin ortaları-XII əsrin əvvəlləri), Azərbaycan Atabəyləri dövlətinin (1136-1225) hakimiyyəti altında oldu. XII əsrin sonu – XIII əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində Alban Xaçın knyazlığı yarandı.*

*Qarabağın tarixi Azərbaycan torpağı olmasını sübut edən bir fakt da 1805-ci ildə çar Rusiyası ilə Qarabağ xanlığı arasında bağlanmış "Kürəkçay" müqaviləsi bir daha buna əyani sübutdur. belə ki, "Kürəkçay" müqaviləsinin 11 maddəsinin heç bir bəndində erməni xalqının gələcək talehi barədə bir cümlədə də adı çəkilmir. Bu da bir daha göstərir ki, məhz bu dövrə Qarabağ xanlığı ərazisində ermənilər mövcud olmamışdır.*

*Açar sözlər*: Qarabağ, Azərbaycan, Arsax, Şuşa, Dağlıq Qarabağ Muxtar Vilayəti.

***Giriş***. "Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir (12, s.11). Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ"sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" sözlərinin birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir.

Bəzi mənbələrdə Qarabağın dağlıq hissəsi "Arsax" adlandırılır. Etimoloji araşdırmalar göstərir ki, Arsax sözü də Qarabağın qədim türk etnoslarından biri olan saklarla bağlıdır. "Arsax", "ər" və "sak" sözlərinin birləşməsi ("Sak əri") kimi də izah olunur. Vaxtilə bu ərazini əhatə edən Azərbaycan dövlətinin - Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşir özünün 1847-ci ildə yazdığı "Qarabağ tarixi" əsərində bu məsələdən bəhs edərkən yazırdı: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədləri belədir: Cənub tərəfdən Xudafərin körpüsü ilə Sınıq körpüyə qədər – Araz çayıdır. İndi Sınıq körpü Qazax, Şəmşəddil və Dəmirçi- Həsənli caamatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahı ilə Krasnı Most, yəni Qırmızı körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yeliyavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən keçib Araz çayına çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır" (10, s.28). Göründüyü kimi, siyasi coğrafi məkan olaraq, tarixdə həmişə "Dağlıq Qarabağ" deyil, bütöv halda, yəni Qarabağın bütün ərazisini – dağlarını, düzənlərini əhatə edən ümumi bir "Qarabağ" anlayışı olmuşdur. Başqa sözlə, "Dağlıq Qarabağ" anlayışı çox sonraların məhsuludur, seperatçılıq niyyəti ilə Qarabağın bir hissəsinə verilmiş addır. Qarabağ təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın ən qədim tarixə malik diyarlarındandır (4, s.117). Azıx mağarasında tapılan insan məskəni və ən qədim insanın qalıqları bu bölgənin Aralıq dənizi və Şərqi Afrika ilə birlikdə müasir insanların meydana gəldiyi məkanlardan olduğunu söyləməyə əsas verir. Azıxın alt çöküntülərindən aşkar edilmiş əmək alətləri Quruçay mədəniyyəti adlandırılmışdır. 1968-ci ildə Azıx mağarasından antropoloqların "azıxantrop" adlandırdıqları ibtidai insanın alt çənə sümüyünün bir hissəsi tapılmışdır. Bu insanın təqribən 350-400 min əvvəl yaşadığını bildirirlər. Bu, Azərbaycanın qədim insanların məskunlaşdığı ərazilərdən biri olduğunu sübut edir.

Qarabağ bütün tarixi dövrlərdə Azərbaycan dövlətinin tərkibində olmuşdur (5, s.45). Ərəb xilafətindən sonra Qarabağ Azərbaycan Şəddadilər dövlətinin (975-1075), Böyük Səlcuq imperatorluğunun (XI əsrin ortaları - XII əsrin əvvəlləri), Azərbaycan Atabəyləri dövlətinin (1136-1225) hakimiyyəti altında oldu. XII əsrin sonu – XIII əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində Alban Xaçın knyazlığı yarandı.

Səfəvilər dövründə Qarabağ torpaqları bütöv halda Qarabağ və ya Gəncə bəylərbəyində birləşdirilmişdir (1, s.519). Səfəvi-Osmanlı müharibələri dövründə (1514-1555, 1578-1590) Qarabağ əldən-ələ keçmişdir. Səfəvi dövlətinin zəifləməsi dövründə 18-ci əsrin birinci yarısında Azərbaycan torpaqlarının İran, Rusiya, Osmanlı dövlətlərinin arasında bölüşdürülməsi ilə nəticələndikdə, Qarabağ Osmanlının tərkibində qalmışdır. Nadirin ölümündən sonra Azərbaycan ərazisində xanlıqlar yarandı. Lakin XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazda işğalçılıq fəaliyyəti daha da genişləndi. 1801-ci ildə Gürcüstan imperiyaya qatıldı, 1803-cü ildə Car-Balakən, 1804-cü ildə Gəncə xanlığı işğal olundu. Belə bir tarixi şəraitdə, yəni 1805-ci ilin 14 mayında Qarabağ xanlığı Rusiya imperiyası ilə Kürəkçay müqaviləsini imzaladi. Xanlıq, əslində, Rusiyaya ilhaq edildi. 1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək adi əyalətə çevrildi. Qarabağda komendant idarə üsulu yaradıldı. Bu dövrdə əslən erməni olan general-leytenant V.Q.Mədətov Qarabağda sözün əsl mənasında, Rusiya-erməni müstəmləkə sistemini yaratmışdı.

Çar Rusiyasının 1840-cı il 10 aprel tarixli idarə-inzibati islahatı nəticəsində Qarabağ əyaləti Şuşa qəzasına çevrildi və Kaspi vilayətinə tabe edildi. Bununla da, Qarabağ anlayışı siyasi mənasını itirərək, yalnız coğrafi məfhum kimi qaldı (5, s.40).

1918-ci il mayın 28-də təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlət yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti İstiqlal bəyannaməsində vaxtı ilə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Rusiya imperiyasına qatılmış Şimali Azərbaycan torpaqlarının qanuni varisi olduğunu bəyan etdi. Bugünkü Dağlıq Qarabağ "Böyük Ermənistan" yaratmaq uğrunda erməni planlarının tərkib hissəsi və mühüm vasitəsi kimi əsas hədəf seçilmişdir (5, s.16).

"Böyük Ermənistan" ideyasının həyata keçirilməsi uğrunda ən fəal mübarizə aparan təşkilat "Daşnaksütun" partiyası olmuşdur. Qarabağ torpaqlarının Ermənistana birləşdirilməsi üçün hələ 1918-1920-ci illərdə ən müxtəlif cəhdlər göstərilmiş, ən iyrənc vasitələrə əl atılmışdır (3, s.27).

1918-ci il iyunun 4-də imzalanan Batum müqaviləsinə əsasən Ermənistan Respublikasının ərazisi təqribən 9 min kv. km-ə çatırdı və Ermənistan hökuməti Azərbaycana qarşı ərazi iddiası olmadığını bildirmişdi (3, s.35).

1918-ci ildə Qarabağda baş vermiş qanlı hadisələrdən bəhs edərkən Şuşa haqqında ayrıca danışmamaq olmaz (9, s.51). Andronik şəxsən üç dəfə bu qala şəhəri tutmağa cəhd göstərmiş və hər dəfə burnu ovularaq böyük itkilərlə öz yuvasına – Gorusa geri çəkilməyə məcbur olmuşdur. Bəs qəhrəman Şuşa əhli 1918-ci ildə buna necə nail olmuşdu? 1918-ci ilin qanlı hadisələri, bütün Qarabağda olduğu kimi, Şuşada da mürəkkəb vəziyyət yaratmışdı. O zaman 40 minlik Şuşa əhalisinin təqribən yarısı azərbaycanlılardan, yarısı isə ermənilərdən ibarət idi. Şəhər hər tərəfdən 12 erməni kəndi ilə əhatə olunmuşdu.Onların arasında yeganə azərbaycanlı kəndi Malıbəyli idi.

1919-cu il 15 avqustda Şuşakənddən xəbər gəldi ki, müqavilənin şərtləri yekdilliklə qəbul edilmişdir. Bütün bunlara baxmayaraq 1920-ci il aprelin 28-də Azərbaycan Xaq Cümhuriyyəti süqut edəndə Qarabağ General Qubernatorluğun da varlığına son qoyuldu (13, s.132).

"Azərbaycan" qəzeti 8 iyul 1919-cu ildə yazırdı: "Adi kəndlilər söhbət əsnasında bildirirdilər ki, ermənilərin çoxluq təşkil etdiyi Qarabağın dağlıq hissəsi onun aran hissəsi ilə sıx bağlıdır. Onlar Qarabağın dağlıq və arana bölünməsini təsəvvürlərinə gətirə bilmirdilər. Onların heç vaxt görmədikləri İrəvanla heç bir iqtisadi, ələlxüsus də siyasi əlaqələri yoxdu" (8)

30 iyul 1919-cu ildə Azərbaycan Respublikası hökümətinin nümayəndələri Şuşa şəhərinə gələrkən onlar yerli əhali tərəfindən yüksək səviyyədə qarşılandılar. Qala divarları, küçələr, bir sözlə hər tərəf güllər və bayraqlarla bəzədilmişdi. Baş nazir başda olmaqla bütün nümayəndə heyəti şəhərin məscidinə baş çəkdilər. Baş nazir oradakı çıxışında qeyd etdi ki, "müsəlman əhali və başqa xalqların nümayəndələri sülh zəminində yaşamalıdırlar. Bunsuz Azərbaycanın firavanlığını təsəvvür etmək olmaz".Yepiskop Azərbaycan dilində çıxış etdi və tarixi faktlarla iki millətin sülh şəraitində yaşamalarının mümkünlüyünü sübut etdi. Erməni bazarında üzərində "Yaşasın Azərbaycan Respublikası" yazılmış iki gözəl tağ ucaldıldı.

15 avqust 1919-cu ildə Qarabağın dağlıq hissəsində yaşayan ermənilərin qurultayı Azərbaycan hökuməti ilə müvəqqəti razılıq barədə qərar qəbul etdi. Qərarda deyilirdi: "Ermənilərin məskunlaşdığı Qarabağın dağlıq hissəsi Şuşa, Cavanşir və Cəbrayıl qəzaları (Dizaq, Vərəndə, Xaçın, Çiləbörd

respublikanın tərkibində qalır. Bütün Qarabağın ərazi muxtariyyəti əsasında və onun erməni əhalisinə milli-mədəni muxtariyyətin verilməsi şərti ilə.

Lakin daşnaklar Qarabağ razılaşması ilə barışmaq istəmir, çalışırdılar ona ləkə yaxsınlar. Türk xalqına nifrət bəsləyən bu millətçi partiya regionda milli sülhün olmasını istəmirdi. 30 aprel 1920-ci ildə hökumət Ermənistanın daşnak hökumətinə aşağıdakı tələblərlə nota göndərdi: 1.Qarabağ və Zəngəzur ərazilərini daşnak ordusundan təmizləmək; 2.Öz sərhədlərinə şəkilmək; 3.Milli qırğını dayandırmaq. Əks halda ASSR-nın İnqilabi Komitəsi özünü Ermənistan hökümətinə qarşı müharibə vəziyyətində hesab edəcək (15). Qarabağ və Zəngəzurda yerləşən Azərbaycanın ordu hissələrinə müharibəni dayandırmaq və əlverişli müdafiə xətti tutmaq barədə əmr verildi. Əgər Ermənistan bu ultimatumu qəbul etməsə, onda Azərbaycan hərbi hissələrinə kömək məqsədi ilə Qırmızı Ordu oraya göndəriləcək.

9 may 1920-ci ildə Bakıda qarabağlılarla, Zəngəzurda yaşayan azərbaycanlı və ermənilərin həmrəylik mitinqi keçirildi. 19 iyun 1920-ci ildə Orconikidze Vladikafkazdan Q.V.Çiçerinə göndərdiyi teleqramda yazırdı ki, Azərbaycan Qarabağa, Zəngəzura, Naxçıvana və Şərur-Dərələyəz uezdinə iddia edir. Qarabağ və Zəngəzurda sovet hökuməti quruldu və onlar özlərini Azərbaycan Sovet Respublikasının tərkib hissəsi hesab edirlər. Azərbaycan Qarabağsız və Zəngəzursuz heç cürə ötüşə bilməz.

M.Hüseynov 27 iyun 1920-ci ildə Orconikidze və Çiçerinə teleqram edərək Nərimanovun onların teleqramını aldığını bildirir və onlardan Qarabağın və Zəngəzurun Azərbaycana birləşdirilməsi barədə fikirlərinin qüvvədə qalmasını soruşur.

Məruzəçi ingilis imperialistlərinin Qarabağ məsələsində ikili siyasətini qeyd edərək bildirdi ki, Qarabağ kommunistləri Qarabağın Azərbaycana birləşdirilməsini istəyir, erməni kəndliləri Ermənistanın tərkibinə girmək istəmirdilər və artıq müsəlman və erməni hərbi hissələri birləşirdilər.

15 iyul 1920-ci ildə AP(b) Mərkəzi Komitəsinin bürosu Nərimanovun, Orconikidzenin, Stasovanın, Mikoyanın, Hüseynovun, qırmızı ordunun inqilabi-hərbi sovetinin nümayəndələri və Leqranın iştirakı ilə sülh barədə məsələ müzakirə etdi və qərara aldı ki, "Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir".

19 iyul 1920-ci ildə RSFSR xarici işlər üzrə Xalq Komissarı Çiçerin özünün Ermənistan Xarici İşlər Nazirliyinə göndərdiyi xüsusi teleqramda "Ermənistan və Azərbaycan arasında mübahisəli torpaqların rus ordusu tərəfindən tutulmasının" səbəbini izah edərək bildirirdi ki, Leqran "sülh və dostluq müqaviləsi" bağlamaq üçün Yerevana səfər edəcək (13, s.40).

19 iyun 1921-ci ildə mətbuatda Ermənistan SSR hökumətinin deklarasiyası dərc olundu. Ermənistan SSR XKS-nin sədri A.Myasnikovun və bütün hökumət üzvlərinin üzvlərinin imzaladığı bu deklarasiyada "Dağlıq Qarabağ Ermənistanın ayrılmaz hissəsi" elan edildi.

Qafqaz bürosunun plenumu bəyanatı nəzərə alaraq yeni qərar qəbul etdi: "Qarabağ haqqında məsələ ciddi fikir ayrılığı doğurduğuna görə, RK(b)P MK Qafqaz bürosu onun qəti həllini RK(b)P MK-ya çıxarmağı zəruri hesab edir" (16). Stalin erməni əhalisinin yığcam yaşadığı bir sıra ərazilərin Ermənistan SSR-ə birləşdirilməsinə tərəfdar çıxdı.

Bütün bunlar məsələnin hərtərəfli düşünülmüş həllini tələb edirdi. Qarabağ probleminin iqtisadi, sosial-siyasi və mədəni cəhətlərinin mürəkkəbliyini nəzərə alaraq, partiya və dövlət orqanları bunların həlli üçün böyük hazırlıq işi görməli olurdular. Ona görə də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması məsələsinin qəti həllinin 1923-cü ilin yayınadək uzanması təsadüfi deyildi. Bu müddət ərzində partiya və sovet orqanları məsələni dəfələrlə müzakirə edirdilər və hər dəfə də müxtəlif baxışlar aşkar olur, cürbəcür təkliflər irəli sürülürdü.

1923-cü il iyunun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti Qarabağın muxtariyyəti barədə dekret verməyi qərara aldı (17). 1923-cü il iyunun 20-də Rəyasət Heyəti komissiyasının təqdim etdiyi layihəni nəzərdən keçirib "istər dağlıq, istərsə də düzən Qarabağı bir inzibati vahid saymağı zəruri bildi" və Ə.H.Qarayevin sədrliyi ilə komissiyaya tapşırdı ki, bu məsələni ətraflı işləyib hazırlasın və AK(b)P MK Rəyasət Heyətinin təsdiqinə versin. Lakin AK(b)P MK-nın Rəyasət Heyətində başqa rəy də söylənildi:Qarabağ məsələsinin qəti həlli üçün Dağlıq Qarabağın Muxtar vilayətə çevrilməsi haqqında Azərbaycan Xalq Komissarları Sovetinin dekreti lazımdır (17). 1923-cü il iyunun 27-də Qarabağ komitəsinin məruzəsini müzakirə edən RK(b)p-nin Zaqafqaziya Ölkə komitəsinin plenumu həmin rəyi təsdiq etdi.

1923-cü il iyulun 7-də Şuşa, Cavanşir qəzaları, Qaryagin partiya komitələri katiblərinin və icraiyyə komitələri sədrlərinin iştirakı ilə komissiyanın iclasında Qarabağın düzən hissəsində hakimiyyət orqanlarının quruluşu haqqında və Kürdüstan barədə Ə.H.Qarayevin məruzəsi dinlənildi. Komissiya Dağlıq Qarabağın ayrılmasından sonra Qarabağın düzən hissəsində qalan qəzalardan mərkəzi Ağdamda olmaqla vilayət idarəsi yaratmağı qərara aldı (7, v.43).

***Nəticə***. Beləliklə, 1923-cü il iyulun 7-də Azərbaycan MİK-in dekreti və Azərbaycan SSR-in tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradıldığı elan edildi.

Azərbaycan SSR MİK və XKS-nin 1923-cü il 24 iyul tarixli qərarına əsasən Birinci Vilayət Sovetlər qurultayı çağırılana qədər Dağlıq Qarabağ Muxtar Vilayətini idarə etmək üçün A.N.Karakozov (sədr), B.N.Bünyadov, K.Kafiyev, S.V.Manukyan və M.Çalyandan ibarət müvəqqəti inqilab komitəsi təşkil olundu (18, s.3).

1923-cü il iyulun 7-də Ə.H.Qarayevin komissiyası muxtar Kürdüstan yaratmağı və Dağlıq Qarabağın sərhədləri təyin olunarkən onun mərkəzini və sərhədlərini müəyyənləşdirməyi də təklif etdi. Lakin 1923-cü il iyulun 16-da AK(b)P MK-nın Rəyasət Heyəti D.X.Bünyadzadənin sədr olduğu komissiyanın Qarabağ məsələsinə dair məruzəsini müzakirə edərək, "kürdlərin yaşadıqları ərazidən "Kürdüstan qəzası" yaratmağı qərara aldı". İyulun 21-də Azərbaycan MİK və Azərbaycan SSR XKS komissiyanın bu təklifini təsdiq etdi (2, s.487).

Dağlıq Qarabağ Muxtar Vilayətinin Konstitusiyasını qəti şəkildə redaktə etmək üçün 1924-cü il iyulun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti xüsusi komissiya yaratdı. İyulun 3-də AK(b)P MK-nın Rəyasət Heyəti Konstitusiyanın layihəsini bəyəndi və Azərbaycan MİK-in Rəyasət Heyətinə onu təcili surətdə həyata keçirməyi tapşırdı. Konstitusiya erməni, Azərbaycan və rus dillərində dərc olundu.

1924-cü il noyabrın 26-da dərc olunmuş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə"də deyilirdi ki, DQMV Azərbaycan SSR-in tərkib hissəsidir, bütün kargüzarlıq, məhkəmə işləri və DQMV-nin məktəblərində tədris ana dilində aparılır. Əsasnamədə DQMV-yə daxil olan ərazi göstərilmiş, respublika və yerli hakimiyyət orqanlarının təşkilinin formaları,hüququvə vəzifələri müəyyənləşdirilmişdi (14).

"Əsasnamə"yə görə, Şuşa qəzasından Şuşa şəhəri və Xankəndi, 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd,Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV-yə verildi. Bu "xəyanətkar səxavətlilik" Azərbaycan millətinin mənafeyinə, Vətənin gələcəyinə ciddi, ağır ziyan vuran bağışlanmaz cinayət idi.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər. Süleyman Əliyarlının redaktorluğu ilə. Bakı, Azərbaycan, 1996, 872 s.
2. Azərbaycan tarixi. 3 cilddə, III cild, I hissə, Bakı: Elm, 1973, 548 s.
3. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Tarixi araşdırmalar. Bakı, "Öyrətmən", 1995, 90 s.
4. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild. Bakı, Lider nəşriyyat, 2005, 472 s.
5. Azərbaycan Sovet Ensiklopediyası. III cild. Bakı, ASE-nin baş redaksiyası, 1979, 599 s.
6. Azərbaycan tarixi. 7 cilddə. V cild. Bakı, Elm, 2008, 696 s.
7. Azərbaycan Respublikası Dövlət Siyasi Partiyaların və İctimai Hərəkatlər Arxivi, f.1, s.74, iş 701.
8. "Azərbaycan" qəzeti, 3 avqust 1919-cu il.
9. Балаев А. Азербайджанское национально-демократическое движение в 1917-1918 гг. Баку, "Elm", 1990, 280 с.
10. Cavanşir M.C. Qarabağ tarixi. Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1989, 172 s.
11. Əliyev İ. Dağlıq Qarabağ: faktlar və həqiqətlər. Bakı, Elm, 1990, 120 s.
12. Şükürov K., Mahmudov Y. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı, Təhsil, 2005, 380 s.
13. Гулиев Дж.Б. К истории образования второй республики Азербайджана, Баку, Элм, 1997, 266 с.
14. Газета «Бакинский рабочий» номер 269, 26 ноября 1924 г.
15. Газ. «Коммунист» 1 мая 1920 г.
16. Положение нефтяной промышленности Бакинского района. Сборник. Баку, Элм, 1923, 335 с.

17. "Kommunist" qəzeti, 29 sentyabr 1925-ci il.
18. “Maarif və mədəniyyət” jurnalı, 1927, № 1-2.

**НУРЛАН АББАСОВ**
*Доктор философии по истории,*
*Преподаватель Бакинского Государственного Университета*

## ОБРАЗОВАНИЕ НАГОРНО-КАРАБАХСКОЙ АВТОНОМНОЙ ОБЛАСТИ И ЕЕ ИСТОРИОГРАФИЯ

Во многих источниках горная часть Карабаха называется «Арсах». Этимологические исследования показывают, что слово Арсах родственно сакам, одному из древних тюркских этносов Карабаха. Сочетание слов «арсах», «эр» и «сак» также объясняется как («храбрый сак»). Мирза Джамал Джаваншир, который был визиром Карабахского ханства Азербайджана, когда-то охватывавшего эту территорию, говорил об этом в своей работе «История Карабаха», написанном в 1847 году.

На основании проведенного исследования и фактов, представленных в статье, можно сказать, что Карабах во все исторические периоды входил в состав Азербайджанского государства. Кроме того, организацией, наиболее активно боровшейся за реализацию идеи «Великой Армении», была партия «Дашнакцутюн». В 1918-1920 годах предпринимались различные попытки присоединения земель Карабаха к Армении, причем применялись самые гнусные средства. Согласно Батумскому договору, подписанному 4 июня 1918 года, территория Республики Армения составляет примерно 9 тысяч квадратных метров км, а правительство Армении заявило, что не имеет территориальных претензий к Азербайджану. Говоря о кровавых событиях, произошедших в Карабахе в 1918 году, нельзя не сказать отдельно о Шуше. Андраник лично трижды пытался захватить эту крепость, и каждый раз был вынужден отступать в свое гнездо - Горус, с большими потерями.

В статье также упоминается «Положение о Нагорно-Карабахской автономной области», опубликованное 26 ноября 1924 года. Было сказано, что Нагорно-Карабах входит в состав Азербайджанской ССР, все делопроизводство, судопроизводство и обучение в школах Нагорного Карабаха ведется на родном языке. В уставе уточнялась территория, входящая в Нагорный Карабах, определялись формы организации республиканской и местной власти, права и обязанности. Согласно «Конституции» города Шуша и Ханкенди, 115 сел Шушинского района, 52 села Джаванширского района, 30 сел Гарягинского района и село Галадареси Губадлинского района были переданы в Нагорный Карабах. Эта «предательская щедрость» была непростительным преступлением, нанесшим серьезный ущерб интересам азербайджанского народа и будущему Родины.

*Ключевые слова*: Карабах, Азербайджан, Арсах, Шуша, Нагорно-Карабахская автономная область.

**NURLAN ABBASOV**
*Doctor of Philosophy in History,*
*Lecturer at Baku State University*

## FORMATION OF THE NAGORNO-KARABAKH AUTONOMOUS PROVINCE AND ITS HISTORIOGRAPHY

In many sources, the mountainous part of Karabakh is called "Arsakh". Etymological studies show that the word Arsakh is related to the Saks, one of the ancient Turkic ethnic groups of Karabakh. The combination of the words "arsakh", "er" and "sak" is also explained as ("brave sak"). Mirza Jamal Javanshir, who was the vizier of the Karabakh Khanate of Azerbaijan, which once covered this territory, spoke about this in his work “History of Karabakh”, written in 1847.

Based on the study and the facts presented in the article, it can be said that Karabakh was part of the Azerbaijani state in all historical periods.

In addition, the organization that most actively fought for the implementation of the idea of "Great Armenia" was the "Dashnaksut" party. In 1918-1920, various attempts were made to annex the lands of Karabakh to Armenia, and the most vile means were used.

According to the Batumi Treaty, signed on June 4, 1918, the territory of the Republic of Armenia is approximately 9 thousand square meters km, and the Armenian government stated that it has no territorial claims against Azerbaijan. Speaking about the bloody events that took place in Karabakh in 1918, one cannot but mention Shusha separately. Andronicus personally tried to capture this fortress three times, and each time he was forced to retreat to his nest - Horus, with heavy losses.

The article also mentions the "Regulations on the Nagorno-Karabakh Autonomous Region", published on November 26, 1924. It was said that Nagorno-Karabakh is part of the Azerbaijan SSR, all office work, legal proceedings and education in the schools of Nagorno-Karabakh is conducted in the native language. The charter specified the territory included in Nagorno-Karabakh, determined the forms of organization of the republican and local authorities, rights and obligations. According to the "Constitution" of the cities of Shusha and Khankendi, 115 villages of the Shusha region, 52 villages of the Javanshir region, 30 villages of the Garyaga region and the village of Galadaresi of the Gubadli region were transferred to Nagorno-Karabakh. This "treacherous generosity" was an unforgivable crime that caused serious damage to the interests of the Azerbaijani people and the future of the Motherland.

*Keywords*: Karabakh, Azerbaijan, Arsakh, Shusha, Nagorno-Karabakh Autonomous Province.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**UOT 94(479.24)**

**GÜNEL CƏFƏROVA**
*Azərbaycan tarixi (humanitar fakültələr üzrə)*
*kafedrasının dissertantı*
**abutalibovagulnare@gmail.com**

# İKINCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ AZƏRBAYCAN TARİXİ ELMİNİN VƏZİYYƏTİ

*Bəhs olunan məqalədə İkinci dünya müharibəsindən sonra Bakı Dövlət Universitetində Azərbaycan tarixi elminin vəziyyəti araşdırılır. Əsası 1919-cu ilin sentyabrın 1-də Azərbaycan Cümhuriyyəti Parlamentinin 70-ci iclasında qoyulmuş Bakı Dövlət Universiteti bu günə kimi elmin müxtəlif sahələrinin inkişafında mühüm rol oynamış, dünya elmi irsinə mühüm töhfələr vermişdi. 1919-cu ildən davam edən bu elm sahələrindən biri də Azərbaycan tarixi idi. Bununla belə, 1919-cu ildən başlanan bu yolda həm Universitet, həm Universitetin tarix fakültəsi, həm də fakültənin Azərbaycan tarixi kafedrası çoxsaylı təqib və təzyiqlərlə üzləşmişdi.*

*Açar sözlər*: Bakı Dövlət Universiteti, Azərbaycan tarixi, ali təhsil müəssisəsi, elmi-tədqiqat işləri.

***Giriş***. Aparılan araşdırmalar göstərir ki, Universitet fəaliyyətinin mühüm sahələrindən biri də elmi-tədqiqat işləri idi. 1919-cu ildən başlanan bu yol Universitet kafedralarında aparılır, orada elmin aktual problemləri kollektiv və fərdi formalarda öyrənilirdi. Tədqiqatların nəticələri isə müdafiəyə təqdim olunan namizədlik və doktorluq dissertasiyalarında, monoqrafiyalarda və məcmuələrdə öz əksini tapırdı. Kafedralar, başlıca olaraq, dərsliklər, dərs vəsaitləri, mühazirə materialları hazırlayırdılar. Bununla belə, bu sahədə ən çətin durum Universitetin Tarix fakültəsində müşahidə olunurdu. 1930-cu ildə bağlanan 1934-cü ildə yenidən açıldıqdan sonra Universitet 1934/35-ci dərs ilinə fizika-riyaziyyat, kimya, biologiya və tarix fakültələrindən ibarət tərkibdə başladı. Tarix fakültəsi ali və orta məktəblər və elmi-tədqiqat idarələri üçün “marksist əqidəli” ixtisaslı kadrlar hazırlamalı idi. Dərs planı aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanmasını nəzərdə tuturdu. Bunlar Qədim dünya tarixi (Qədim Şərq, Yunanıstan, Roma), Orta əsrlər tarixi, Yeni dövr tarixi, SSRİ xalqları tarixi, Azərbaycan və Zaqafqaziya tarixi, Müstəmləkə və asılı ölkələrin yeni tarixi idi [1, s.246-247].

Universitetin Tarix fakültəsində təlim kursu 5 il idi. I-III kurslarda tələbələr ümumi sosial-iqtisadi fənləri: siyasi iqtisad, dialektik və tarixi materializm, leninizmi öyrənir, ümumi tarixi və SSRİ xalqları tarixinə dair 3 illik mühazirə kursları, ÜİK (b)P və AK(b)P tarixinə, Azərbaycan və Zaqafqaziya tarixinə, müstəmləkə ölkələrinin və asılı ölkələrin tarixinə, ədəbiyyat tarixinə, tarixi coğrafiyaya, mənbəşünaslığa dair xüsusi kurslar və seminarlar keçir, Azərbaycan və rus dillərini, iki xarici dil, ixtisaslaşma ilə əlaqədar olaraq istədikləri qədim dillərdən birini, hərbi işi öyrənir və bədən tərbiyəsi ilə məşğul olurdular [1, s. 247]. Universtetin Tarix fakültəsində 4-cü kursdan profillər üzrə ixtisaslaşma aparılırdı. Beşinci kursda diplom işinin yazılması üçün 500-700 saat vaxt ayrılırdı [1, s. 248].

1936/37-ci dərs ilində Universitetin Tarix fakültəsinin SSRİ xalqları tarixi, müstəmləkə ölkələrinin və asılı ölkələrinin tarixi, ümumi tarix, ÜİK (b)P tarixi, fəlsəfə, siyasi iqtisad kafedraları var idi.

1937/38-ci dərs ilində ümumi tarix kafedrasını müstəqil kafedralara, qədim dünya kafedrasına, orta əsrlər tarixi kafedrasına və yeni tarix kafedrasına ayrıdılar. 1941-ci ilin fevralında Azərbaycan SSR tarixi kafedrası təşkil edildi. Kafedra müdiri vəzifəsinə isə müvəqqəti olaraq Z.İ.İbrahimov təyin edildi. P.K.Jüze, M.M.İrəvanski, M.Ə.Qazıyev və Y.A.Tokarjevski kafedra üzvləri təsdiq olundu [1, s.248].

Universitetin Tarix fakültəsində 1940/41-ci dərs ilində isə beş kafedra fəaliyyət göstərirdi. Bunlar SSRİ tarixi, Asılı ölkələrin və müstəmləkə ölkələrinin tarixi, Qədim dünya və orta əsrlər tarixi, Yeni dövr tarixi, Azərbaycan SSR tarixi kafedrası idi. 1941-ci il yanvarın 1-dək tarix fakültəsində akademik heyət 16 nəfərdən (9 nəfər Azərbaycanlı) ibarət idi. Fakültədə 4 professor, 4 dosent, 1 baş müəllim və 7 müəllim çalışırdı [1, s. 248]. Beləliklə, yuxarıdakı məlumatlardan göründüyü kimi İkin-

ci dünya müharibəsinə kimi Universitetin tarix fakültəsində Azərbaycan tarixinin öyrənilməsi, tədrisi, elmi-tədqiqat işlərinin vəziyyəti ürəkaçan deyildi. Əlbəttə, inzibati-amirlik metodunun hökm sürdüyü, marksist əqidəli ixtisaslı kadrların yetişdirilməsini, partiya tarixi mövzuları üzrə elmi işləri genişləndirməyi qarşıya məqsəd qoymuş bir siyasi sistemdə Azərbaycan tarixinin öyrənilməsinə yol verilə bilməzdi. Tarix elmi həmin dövrdə dövlət siyasətinə tabe etdirilmişdi. SSRİ rəhbərliyi kommunist ideologiyasını, avtoritar rejimin tələblərini əsas götürərək çalışırdı ki, tarix elmi qanunauyğunluqları deyil, stalinizmi, işğal rejiminin tələblərini yerinə yetirməyə xidmət edən bir sahə kimi fəaliyyət göstərsin. Hətta, XX əsrin 20-ci illərinin sonunda buna nail olmağın çətinliyini dərk etdiklərindən universitetlərdəki tarix fakültələrini ləğv etmişdilər. Bununla belə, SSRİ-də gedən siyasi, iqtisadi proseslərin təsiri altında sonradan Universitetlərdə tarix fakültələri bərpa edildi. Bakıdan əvvəl isə Moskva və Leninqrad Universitetlərinin tərkibində tarix fakültələri bərpa edilmişdi. Belə olan halda isə Azərbaycan tarixinin tədrisinin həyata keçirilməsinə icazə verilməsini düşünmək sadəlöhvlük olardı. Ən yaxşı halda isə Azərbaycan SSR-də, Azərbaycan Dövlət Universitetində Azərbaycan SSR tarixinin öyrənilməsi, tədqiq edilməsinə 1941-ci ilin fevralından siyasi iradə göstərilmiş və Azərbaycan SSR tarixi kafedrası təşkil edilmişdi. Bu baxımdan Universitet rəhbərliyi və tarix fakültəsi Azərbaycan tarixini göstərilən çərçivədə tədris edə, elmi-tədqiqat işləri apara bilərdi.

Bütün bunlarla yanaşı, İkinci dünya müharibəsinin başa çatmasından sonra Azərbaycan SSR-nin təhsil və elmi mühitində əvvəlki dövrlərə nisbətən bir qədər canlanma yaranadı. 1945/46-cı tədris ilində Universitetdə bir neçə yeni fakültə və şöbə açıldı, yeni kafedra, kabinet və laboratoriyalar fəaliyyətə başladı. Açılan yeni kafedralardan biri də Azərbaycan tarixi kafedrası idi. Bununla da, elmi-tədqiqat işlərinin genişləndirilməsi üçün əlavə imkanlar yarandı. Filologiya fakültəsində həmin ildə jurnalistika, 1947/48-ci tədris ilində kitabxanaçılıq, məntiq, psixologiya və Azərbaycan dili şöbələri açıldı [4, v.1].

Tədris planı və proqramlarının elmin və tədrisin inkişafı naminə deyil, konyuktur mühazirələrə əsasən tez-tez, hətta demək olar ki, hər il dəyişdirilməsi tədris prosesini pozur və çətinləşdirirdi. 1945/46-cı tədris ilində dərslər SSRİ XKS yanında Ümumittifaq Ali Məktəb İşləri Komitəsinin tədris planlarına əsasən keçirilirdi. Sabit tədris planlarına Azərbaycan dili (rus bölməsində), rus dili (Azərbaycan bölməsində), Filologiya fakültəsində Azərbaycan ədəbiyyatı tarixi, Tarix fakültəsində Azərbaycan tarixi fənləri daxil edildi. 1947-ci ilin yanvarında Universitet Hüquq, Filologiya, Tarix və Geologiya-coğrafiya (coğrafiya ixtisası) fakültələri üçün yeni tədris planları aldı və əvvəllər təhsil müddəti 4 il olan Tarix, Filologiya, Hüquq və Coğrafiya fakültələri beş illik tədris planına keçdilər. Bununla əlaqədar ikinci kursdan başlayaraq bütün kurslar üçün keçid tədris planları tərtib edildi. Şərqşünaslıq fakültəsi istisna olmaqla bütün fakültələr 1948/49-cu tədris ilində SSRİ Ali Təhsil Nazirliyinin yeni tədris planları əsasında fəaliyyətə başladılar. Həmin tədris ilində Universitetdə 7 yeni kabinet və laboratoriya açıldı. Bu zaman tədris 54 fənn üzrə həyata keçirilirdi [2, v.20].

Universitetin 1945/46-cı tədiris ilində açılan yeni kafedralarından biri də tarix fakültəsində Azərbaycan tarixi kafedrası idi. Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının 1946-cı il hesabatından məlum olur ki, Azərbaycan tarixi kafedrası 1946-cı ildə aşağıdakı mövzular üzrə elmi-tədqiqat işlərini yerinə yetirmişdir. Bunlar tarix elmləri namizədi, dosent E.A.Tokarjevski tərəfindən yazılmış "1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin ilk addımları", tarix elmləri namizədi, dosent Z.İbrahimov tərəfindən yazılmış "1917-1918-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması uğrunda mübarizə", tarix elmləri namizədi, dosent M.A.Qazıyev tərəfindən yazılmış "Böyük vətən müharibəsi illərində Azərbaycan bolşevikləri", tarix elmləri namizədi Z.İ.Yampolskinin "Qədim Azərbaycan tarixi" (Dərs vəsaiti), baş müəllim A.O.Quliyevin "Bakıda 1903-cü il iyul tətili" adlı əsərləri, müəllim M.Mirhadıyevin "Azərbaycanda İnqilab Komitələri" adlı plan işi idi [5, v.1].

Azərbaycan tarixi kafedrasının 1946-cı il hesabatından məlum olur ki, 1946-cı ilin sentyabrında kafedranın tərkibinə yeni akademik işçilər cəlb olunmuş, elmi-tədqiqat işləri uğurla başa çatmışdı. Hesabat dövründə tarix elmləri doktoru, professor E.A.Poxomovun "Azərbaycanda qədim dövr pul sikkələri" adlı tədqiqat işi başa çatmışdı. Həmçinin tarix elmləri namizədi Ə.Şükürzadənin "Mirzə Adıgözəl bəyin əlyazmaları tarixi mənbə kimi", İ.V.Striqunovun qələmə aldığı "XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı proletariatının inqilabi fəaliyyəti (1883-1901)" adlı tədiqat işləri çapa hazırlanmışdı [6, v.2].

Azərbaycan tarixi kafedrasının 1946-cı il hesabatına görə, kafedra bir çox mövzular üzrə mühazirə və məruzələr keçirmişdi. Bunlar içərisində "1907-1908-ci illərdə Bakıda Yoldaş Stalinin görüşləri", dosent Z.İbrahimovun "Stolipin islahatları dövründə Neft sənayeçiləri qurultayı" adlı məruzələr var idi [6, v.2].

Hesabat dövründə kafedra əməkdaşları universitetin elmi həyatında yaxından iştirak etmiş, bir çox diskussiyalara qatılmışdı. Bu diskussiyalarda Azərbaycan tarixi kafedrasının dosenti Z.İbrahimovun "Məşədi Əzizbəyov proletar internasionalı uğrunda mübariz kimi", 1906-1911-ci illərdə Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı haqqında, dosent İ.Qazıyevin "Azərbaycanda feodalizm formasiyası və mübarizə" adlı məruzələri fərqlənirdi [6, v.2].

1946-cı il hesabat dövründə Azərbaycan tarixi kafedrasının əməkdaşları aşağıdakı məqalələri yazıb çap etdirmişdi. Bunlar professor E.A.Poxomov tərəfindən yazılmış "Xızı rayonunun bəzi abidələri haqqında", "Abşeron rayonunun abidələri", "Azərbaycan tarixi Muzeyinin oyma daşları" idi. Kafedranın dosenti E.A.Tokarjevski hesabat dövründə 8 məqalə, dosent Z.İbrahimov 15 məqalə çap etdirmişdi. Bütövlükdə, Azərbaycan tarixi kafedrasının əməkdaşları 1946-cı il ərzində 60-a yaxın məqalə yazıb çap etdirmişdi [6, v.3].

1946-1947-ci tədris ilində də Azərbaycan tarixi kafedrası kadr çatışmazlığı ilə üzləşsə də, Azərbaycan tarixi fənninin tədrisində irəliləyişə nail ola bildi, Azərbaycan tarixi ilə bağlı çoxsaylı elmi məqalə və araşdırılma aparıldı. Bunu Tarix fakültəsinin Azərbaycan tarixi kafedrasının 1946-1947-ci il hesabatından aydın şəkildə görmək olar. Hesabatdan məlum olur ki, kafedrada 10 müəllim çalışırdı ki, onlardan 1 nəfər professor, 6 nəfər dosent, 1 nəfər baş müəllim, 2 nəfər müəllim idi [8, v. 1]. Hesabatdan məlum olur ki, tədris ilində Azərbaycan tarixi kafedrasında əsas diqqət V.İ.Lenin və İ.V.Stalin bioqrafiyasına, elmi-tədqiqat və siyasi-tərbiyəvi işə verilmişdi. Tədris ili dövründə Azərbaycan tarixi kafedrasında V.İ.Lenin və İ.V.Stalinin bioqrafiyası üzrə 10 məruzə və məsləhət saatları təşkil edilmişdi. Eyni zamanda, S.M.Kirov adına azərbaycan Dövlət Universitetinin elmi sessiyasında dosent Tokarjevskinin "Yoldaş Stalinin inqilabi fəaliyyətinin Bakı dövrü haqqında" məruzəsi dinlənilmişdi [8, v.1].

Hesabat dövründən o da məlum olur ki, Azərbaycan tarixi kafedrasının əməkdaşları elmi-metodiki işlərini də həyata keçirmişdi. Belə ki, kafedranın dosentləri Z.İbrahimov və E.ATokarjevski doktorluq dissertasiyasını, baş müəllim A.O.Quliyev və müəllim Mir Hadıyev isə namizədlik dissertasiya işlərini başa çatdırmışdı [8, v.2].

1947-ci ildə Azərbaycan tarixi kafedrasının ən böyük nailiyyətlərindən biri dosent E.A.Tokarjevskinin 20 çap vərəqi olan "Bakı bolşevikləri - mübarizənin təşkilatçıları Azərbaycana alman-türk müdaxiləsinə qarşı" monoqrafiyasını çap etdirməsi oldu [8, v.2]. Kafedra əməkdaşları tədris ilində 60-dan yuxarı məruzə və mühazirə söyləmişdi. Dosent Z.İbrahimov 3-10, E.A.Tokarjevski 10, Yampolski 4-20, Şükürzadə 20, A.O.Quliyev 5, Mir-Hadıyev 6, Striqunov 8 məruzə və mühazirə demişdi [8, v.2].

Tədris ili ərzində Z.İbrahimovun 15 məqaləsi dərc olunmuşdu ki, onlardan 3-ü "Sovet hakimiyyətinin qələbəsi uğrunda Azərbaycan zəhmətkeşlərinə Lenin və Stalin yardımları", "1918-ci ildə Bakıda Sovet hakimiyyəti", "Azərbaycanda sovet hakimiyyətinin qələbəsində Serqo Orconokidze və S.M.Kirov" adlanırdı. Kafedranın digər əməkdaşı E.A.Tokarjevskinin 12 məqaləsi işıq üzü görmüşdü. Bunlar arasında "Bakıda 1904-cü ildə dekabr tətili", "1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin ilk addımları", "Yoldaş Stalinin inqilabi fəaliyyətinin Bakı dövrü" və s. var idi [9, v.2].

Azərbaycan tarixi kafedrasının 1946-1947-ci il hesabatından məlum olur ki, kafedra əməkdaşları elmi konfrans və diskussiyalarda, eləcə də arxeoloji qazıntı işlərində də yaxından iştirak etmişdi. Bu qazıntılardan biri dosent Saleh Qazıyevin rəhbərliyi altında Mingəçevirdə aparılmış arxeoloji qazıntı işləri idi [9, v.2].

Hesabat dövründə Azərbaycan tarixi kafedrasında 4 aspirant çalışırdı ki, bunlar Quliyev A.O, M.Mirhadiyev elmi işlərini yekunlaşdırmış və 1947-1948-ci ildə tarix elmləri namizədi elmi dərəcəsini almışdı.

Azərbaycan tarixi kafedrasının 1946-1947-ci il hesabatına görə, Azərbaycan tarixi üzrə dərslik hazırlanmış, kafedra əməkdaşları mühazirələrin hazırlanması, sistemləşdirilməsi xüsusi diqqət yetirmiş, kafedrada 1947-1948-ci tədris ilinə 2 doktorluq və 2 namizədlik dissertasiyalarının müdafiəsinə

hazırlıq işləri nəzərdə tutulmuş, 4 nəfər aspirant hazırlığı aparılmış, Sovet dövrü Azərbaycan tarixinə xüsusi diqqət yetirilmişdi [9, v.4].

1946-1947-ci il hesabat ilindən məlum olur ki, Azərbaycan tarixi kafedrasında aşağıdakı əməkdaşlar çalışırdı. Bunlar kafedra müdiri, dosent Z.İbrahimov, tarix elmləri doktoru, professor E.A.Poxomov, dosent S.M.Qazıyev, dosent E.A.Tokarjevski, dosent Ə.Şükürzadə, dosent Z.Yampolski, baş müəllim A.Quliyev, müəllim M.Mirhadıyev, müəllim İ.V.Striqunov idi [9, v.5]. Beləliklə, arxiv sənədlərinin araşdırılması göstərir ki, bütün çətinliklərə baxmayaraq, Universitet müharibədən sonra dinc şəraitdə fəaliyyətini normallaşdırır və Azərbaycan tarixinin müxtəlif dövrləri ilə bağlı tədqiqatların aparılması, elmi əsərlərin yazılmasına şərait yaradırdı. Bütün bunların əsas ağırlıq yükü isə Universitetin Tarix fakültəsində 1945-1946-cı tədris ilindən fəaliyyətə başlayan Azərbaycan tarixi kafedrasının üzərinə düşürdü. Müharibədən sonrakı dinc quruculuq illərinin ilk dövrlərində tarix fakültəsində 4 kafedra var idi. Bunlar Azərbaycan tarixi, SSRİ tarixi, Qədim dünya və Orta əsrlər tarixi, Yeni, müstəmləkə və asılı ölkələr tarixi idi. Həmin illərdə fakültədə İsmayıl Abbas oğlu Hüseynov, Əlisöhbət Sumbat oğlu Sumbatzadə, Aleksandr Osipoviç Makovelski, Mehbalı Qasımov, Həsən Dadaşov, Zülfəli İbrahimov, Mehdi Məmməd oğlu İrəvanski, Yevgeni Aleksandroviç Tokarjevski və d. görkəmli alimlər fəaliyyət göstərirdi. Fakültədə bir çox alimlər İ.A.Hüseynov 1946-cı ildə, Z.İ.İbrahimov 1948-ci ildə doktorluq dissertasiyalarını müdafiə etdi. Onlar tarix elmləri doktoru elmi dərəcəsini alan ilk azərbaycanlı alimlər idilər. 1958-ci ildə, M.M.İrəvanski, 1960-cı ildə isə Ə.R.Şahmalıyev bu ada layiq görüldülər [3, v.14].

Bununla belə, Universitet Azərbaycan tarixinin tədrisini, Azərbaycan tarixinin müxtəlif dövrləri ilə bağlı elmi-tədqiqat işlərində 1945-ci ildən başlanan yolu uzun müddət davam etdirə bilmədi. Bu yol 1950-ci ilə kimi davam etdi. Müharibədən sonrakı dövrdə Universitetin rektorluq və partiya təşkilatı qarşısında kadr hazırlığı və tədqiqiatlar aparılmaqla yanaşı, ideoloji işi gücləndirmək vəzifəsi yeni müstəviyə qədəm qoydu.

***Nəticə.*** Aparılan araşdırmalar göstərir ki, müharibədən sonrakı dövrdə aparılan ideoloji iş 1920-1930-cu illərə məxsus bir sıra səciyyəvi cəhətlərə malik idi. Yenə də ictimai mənafeyin şəxsi mənafeyə, gələcəyin bu günə və keçmişə, siyasi münasibətlərin iqtisadi münasibətlərə, ümumbəşəri əxlaqın sinfi əxlaqa qarşı qoyulması kimi ideoloji amillər qüvvədə idi. Hakimiyyət ümumi vahimə və kor-koranə inam mexanizmi, müstəsna şərait üçün nəzərdə tutulmuş fövqəladə və müvəqqəti amillər hesabına müdafiə edilirdi. Lakin bu cür "şərait" hər dəfə eyni məqsədlə-"ziyankar"larla, "qolçomaq"larla, "cəsus"larla, "kosmopolit"lərlə, burjua ideologiyasını yayanlarla mübarizənin zəruriliyi ilə əsaslandırılırdı. Cəmiyyətin başdan-başa ideologiyalaşdırılması xüsusən bunda ifadə olunurdu ki, sistemə hər hansı müqavimət "ideya-mənəvi cinayət" sayılır və amansızcasına cəzalandırılırdı. Müharibədən sonra 1950-ci illərin I yarısına kimi ideya tərbiyəsi nəzərdən keçirilən Universitet həyatının emosional-psixoloji və ideoloji həyatı belə idi [1, s.420].

## ƏDƏBİYYAT

1. Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı, 1991, 528 s.+[54 s.].
2. Доклад доц. Джавадова М.А. об итогах весенный экзаменационной сессии в государственных экзаменов 1948/1949 уч.г. по АГУ им. С.М.Кирова. - ARDA, f.1640, siy. 4, sax. vah. 209, v.20.
3. Министерство Высшего и Среденого Специального Образования Азербайджанской ССР. 20.10.1967. – ARDA, f.2672, siy.4, sax. vah. 286, v.14.
4. Начальнику Главного Управления Университетов Министерства Высшего Образования СССР, проф. Фигаровскому Н.А. – ARDA, f.1640, siy.1, sax. vah. 135, v.1.
5. Отчет о научно-исследовательской работе кафедры истории Азербайджана Аз Гос-та за 1946 уч. г. – ARDA, f.1640, siy.4, sax. vah. 1218, v.1.
6. Отчет о научно-исследовательской работе кафедры истории Азербайджана Аз Гос-та за 1946 уч. г. – ARDA, f.1640, siy.4, sax. vah. 1218, v.2.
7. Отчет АГУ им. С.М.Кирова за 1947-1948 уч. г. – ARDA, f.1640, siy.1, sax. vah. 151, v.1.

8. Отчет о работе кафедры истории Азербайджана Аз Гос-та за 1946-1947 уч.г. – ARDA, f.1640, siy.1, sax. vah. 124, v.1.
9. Отчет о работе кафедры истории Азербайджана АзГос-та за 1946-1947 уч.г. – ARDA, f.1640, siy.1, sax. vah. 124, v.2.

**ГЮНЕЛЬ ДЖАФАРОВА**
*Диссертант кафедры истории Азербайджана (для гуманитарных факультетов)*
*Бакинского Государственного Университета*

## О ПОЛОЖЕНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ ПОСЛЕ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

В статье рассматривается состояние азербайджанской исторической науки в Бакинском государственном университете после Второй мировой войны. Основанный 1 сентября 1919 года на 70-й сессии Парламента Азербайджанской Республики, Бакинский Государственный Университет сыграл важную роль в развитии различных областей науки и внес значительный вклад в мировое научное наследие. Одной из таких областей науки, существовавшей с 1919 года, была история Азербайджана. Однако на этом пути, который начался в 1919 году, как университет, так и исторический факультет университета, а также кафедра истории Азербайджана факультета столкнулись с многочисленными преследованиями и давлением.

*Ключевые слова*: Бакинский Государственный Университет, История Азербайджана, высшее учебное заведение, научно-исследовательская работа.

**GÜNEL CƏFƏROVA**
*Dissertation student of the Department of History of Azerbaijan (for humanitarian faculties)*
*of Baku State University*

## ON THE POSITION OF THE SCIENCE OF HISTORY OF AZERBAIJAN AT BAKU STATE UNIVERSITY AFTER SECOND WORLD WAR

The article examines the state of Azerbaijani historical science at Baku State University after the Second World War. Founded on September 1, 1919 at the 70th session of the Parliament of the Republic of Azerbaijan, Baku State University has played an important role in the development of various fields of science and made important contributions to the world scientific heritage. One of these fields of science, which lasted from 1919, was the history of Azerbaijan. However, on this path, which began in 1919, both the University and the Faculty of History of the University, as well as the Department of History of Azerbaijan, faced numerous persecutions and pressures.

*Keywords*: Baku State University, History of Azerbaijan, higher education institution, research work.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 iyun 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. İsmayıl Məmmədov.*

**UOT 94(479.24) ; UOT 930.2**

**SÜRƏYYA ALLAHVERDİYEVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
**allahverdiyevasurayya@mail.ru**

# MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏSƏRİNDƏ MİLLİ DÖVLƏTÇİLİK

*XX əsrin əvvəllərində Azərbaycanda milli-demokratik idealları ilə fərqlənən siyasi xadimlərdən olan M.Ə.Rəsulzadə, eyni zamanda milli dövlətçilik ənənələrindən bəhs edən silsilə əsərlərin də müəllifidir. Dövlətçilik ənənəsi mövcud olmadan üstəqil dövlət yaratmaq mümkünsüzdü. Qədim tarixə məxsusu olan Azərbaycanda Şərqin ilk demokratik respublikasının yaradılmış olması heç də təsadüfi deyildir. Milli dövlətçilk konsepsiyamızın müəlliflərindən olan M.Ə.Rəsulzadənin əsərləri tarixi mənbə əhəmiyyəti daşıyır. Müəllifin bu məsləyə yanaşması həyatının müxtəlif mərhələsində inkişaf edərək təkmilləşmişdir.*

*Açar sözlər*: tarixşünaslıq, Azərbaycan, milli kimlik, maarif, mətbuat, Osmasnlı, rus, erməni, Müsavat, bayraq.

***Giriş***. M.Ə.Rəsulzadə bolşevik istilasından sonra xaricə getməyə məcbur oldu, amma xaricdə də Azərbaycanın azadlıq mücadiləsini davam etdirdi. Müəllifin bütün əsərləri bir-birindən maraqlı tarixi faktlarla zəngindir. Bu əsərlər içərisində "Əsrimizin Səyavuşu" əsəri xüsusi yer tutur. 1920-ci aprel ayında – Bolşeviklərin Azərbaycanı işğalından sonra M.Ə.Rəsulzadə təqib olunur, əvvəl Bakıda - Ramanada gizlənir, sonra isə Lahıca gedib orada qalır, özünün məşhur "Əsrimizin Səyavuşu" əsərini yazır [15, 30]. Əsərin yazılma tarixçəsini müəllif əsərin müqəddiməsində vurğulamışdır.

"Əsrimizin Siyavuşu" 1923-cü ildə ərəb, 1989-cu ildə isə latın əlifbası ilə Türkiyədə çap edilib. Əsəri oxuyarkən oxucu müəllifin keçirdiyi hissləri hər sətirdə duyur. Əsərdə onun düşüncələrini, qorxularını, bütün həyatını fəda etdiyi istiqlal nigarançılığını, vətən, xalq qayğısını hiss etmək mümkündür. Əsərin qələmə alınma şəraitini təsvir edən müəllif Firdovsinin "Şahnamə" əsərindən təsirlənərək qeyri-ixtiyari əsər yazmağa başladığını qeyd edir.

"Əsrimizin Səyavuşu" əsərində bolşevik istilasının həqiqi üzünü görmək mümkündür. Müəllifin yazdıqlarından aydın olur ki, nəinki o, hətta onun əsərləri belə bolşevik təqibinə məruz qalmış, qələmə aldığı əsərlərin bolşeviklərin əlinə keçməməsi üçün yanındakı nüsxəni təslim olmazdan əvvəl məhv etmişdir. Eyni zamanda müəllifin istiladan sonra qaçmasına baxmayaraq bu vəziyyətinin uzun çəkmədiyini və tutulduğunu öyrənmiş oluruq. Əsərdə müəllifin özü həbsdən bir müddət sonra çıxdığını oradan Moskvaya, daha sonra Finlandiyaya və sonra İstanbula gəldiyini qeyd edir. Belə ki M.Ə.Rəsulzadə həbsdə olarkən keçmiş mübarizə dostu Stalin Bakıda onunla görüşür və həsxanadan azad etdirib, özü ilə birgə Moskvaya apardı [15, 77].

"Əsrimizin Səyavuşu" əsərində dövrün Səyavuşu olaraq Azərbaycanın özünü nəzərdə tutan müəllif fikirlərinin düzgün əsaslandırılması üçün ilk əvvəl tariximizin Səyavuşunun qısaca təfsilatını vermişdir. Siyavuşun nahaq qanı üçün aparılan İran-Turan müharibəsindən bəhs edən əsərin məzmununu qeyd edərkən M.Ə.Rəsulzadə sözü gedən əsərdən parçalar da qeyd edərək , əsəri oxucuların yaddaşında yeniləmişdir. Haqsız yerə tökülən Səyavuşun qanı əsirlər boyu davam edəcək müharibəyə səbəb olmuşdur. Dövrün mövcud əhvalını görən M.Ə.Rəsulzadə sanki gələcəkdə illərcə baş verəcək qanlı hadisələri görür, onların faciyələrə səbəb ola biləcəyini vurğulayırdı.

Əslində əsərin kiçik həcmli olmasına baxmayaraq onun çox zəngin sətiraltı mənaları var. Əsərdə müəllif qeyd etmək istədiyi məsələlərin bir çoxunu acıq şəkildə yazmamış, hadisələrin nəticəsini oxucuların məntiqinə həvalə etmişdir. Əsərdə Firdovsinin Səyavuşunun mənşəyində, atasının və anasının milli mənsubiyyətindən danışarkən qeyd edir ki "Bu minvalla Əfrasiyab sülaləsindən olan bir Turan gözəli İran şahı ilə qovuşdu. ... Bu Azəri heykələ Səyavuş adı verdilər" [13, 22].

Əsərdə müəllif dövlət idarəçiliyi məsələlərinə də toxunaraq öz demokratik fikirlərini qeyd etmiş, hər zaman olduğu kimi, azlığın və ya bir nəfərin istəklərinə əsaslanaraq dövlət idarəçiliyinin mümkünsüzlüyünü və bu cür dövlətin uzun müddət öz mövcudluğunu qoruya bilməyəcəyini vurğulamışdır.

Müəllif eyni zamanda millət məfhumunun da özünəməxsus izahını verir və bildirir ki yaşadığı dövrdə millət dedikdə, yalnız qədim zamanlarda olduğu kimi, sadəcə qan birliyi deyil, eyni zamanda mədəniyyət birliyi də nəzərdə tutulur. Əsərdə müəllif türklərin, farsların və ərəblərin birlikdə İslam dininin də təsiri ilə mükəmməl mədəniyyət birliyini yaratdığını vurğulayır.

Kimlərinsə bu milləti ya farslaşmış türk ya da ki, türkləşmiş fars adlandırmasına baxmayaraq, müəllifin fikrincə ortada bir həqiqət var ki, biz bu iki mədəniyyətin də qovuşması nəticəsində mövcud olmuş bir xalqıq. Hətta bu gün belə mübahisələrə səbəb olan hadisələrə toxunan bir çox ədiblərimizin daha çox farsca, ərəbcə yazmasından, hətta Sultan Səlimin az qala fars dilini rəsmi dil elan etmək dərəcəsində bu dilə ehtiram göstərməsindən danışaraq, biz tarixçiləri dünya elm səhnəsində çıxılmaz vəziyyətdə qoyan suallara cavab tapmağa çalışmışdır. Beləliklə qan birliyi ilə yanaşı İslam dininin bizlərə bəxş etdiyi mədəniyyət birliyinin aktuallığını da vurğulamışdır.

Rus istilasına da toxunan müəllif öz şəxsi fikirlərinə əsaslanaraq bu istilanın mənfi və müsbət tərəflərini araşdırmağa çalışmışdır. Turanın açarını Azərbaycanda görən müəllif bununla da Osmanlı tərəfinin Azərbaycan Xalq Cümhuriyyətinə kömək etmə səbəbini də izah etmiş olur. Türkləşmək, islamlaşmaq və müasirləşmək şüarını burada da vurğulayan müəllif bununla da öz real fikirlərini və uğrunda mübarizə etdiyi amalı oxuculara çatdırır. Gələcəkdə türk dövlətlərindən ibarət bir federasiyanın qurulmasının mümkünlüyünü qeyd edən müəllif, Azərbaycanı da bu federasiyanın bir halqası kimi görməyi arzuladığını heç də gizlətmir. Qədim türk dastanı olan "Ergenekon"u da yad edən müəllif cəsur türk qardaşlarımızın Bakının azad olunmasında göstərdiyi dəstək və köməyi də qeyd etməyi unutmamışdır. Məhz türk qardaşlarımızın köməyi ilə Əsrimizin Səyavuşu-Azərbaycan Cümhuriyyəti quruldu. Demək olar ki, əsərdə dövrün bütün əhəmiyyətli tarixi hadisələrinə diqqət yetirmiş olan M.Ə.Rəsulzadə XX əsrin əvvəlində xalqımızın mübarizə əzmini qırmaq üçün törədilmiş Mart soyqırımını da unutmur və bir neçə cümlə ilə bu qırğını əsərdə vurğulayır.

M.Ə.Rəsulzadə Azərbaycan xalqının da çox isdedadlı olduğunu regionda hər zaman inkişafı, yenilikləri ilə fərqləndiyini böyük fəxarətlə qələmə almışdır. Heç təsadüfi deyil ki, ilk türk dramaturqu, bəstəkarı azərbaycanlı olmuş, Rusiya türkləri arasında ilk dəfə milli mətbuatın dərc olunması Azərbaycanın adı ilə bağlı olmuşdur. Əlifba islahatını ilk edən, məshəb fərqini ilk aradan qaldıran yenə də Azərbaycan cəmiyyəti olmuşdur. Təbii ki bütün bunların məntiqi davamı olaraq ilk türk Cümhuriyyətinin yaradıcısı da bu əzmkar xalq oldu.

Cümhuriyyətimizi və onun qazanmış olduğu uğurları da unutmayan müəllif əsərdə Cümhuriyyət dövründə əldə olunmuş misilsiz naliyyətlərdən, uğurlardan böyük fərəh hissi ilə söz açmışdır. Bir başa iştirakçısı olduğu, təşkilatçısı olduğu tədbirlər haqqında ən dolğun və düzgün informasiyaları təbii ki, ancaq M.Ə.Rəsulzadənin öz dəsti xətti olan əsərlərin təhlilindən əldə edə bilərik. İllər boyu Azərbaycan Xalq Cümhuriyyətinin qazanmış olduğu uğurlar Azərbaycan ictimaiyyətindən gizlədilsə də, bu uğurlara qısqanclıqla yanaşılsa da bu gün məhz bu əsərlərin vasitəsi ilə bizlər düzgün və dolğun məlumatları ala bilirik.

"Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ saxlanırdı. Kişi-qadın, müsəlman, xristian, Türk-türk olmayan, cins və milliyyət fərqi qoymadan varlı-kasıb, sahibkar işçi, torpaq sahibi-muzdur, ögrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, vəzifə, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkətin idarəsində iştirak edir, qanun verən qurumlara girmək haqqında da sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız görünürdü. Bunun kimi nə yoxsulluğu üçün sayğılanır, nə də zənginliyi üçün alçaldılırdı" [13, 40]. Xoşbəxt həyatı hürriyyətdə görən mütəfəkkir Cümhuriyyətimizin bütün azadlıqlara haqq tanıdığını xüsusən də vicdan, söz və mətbuat azadlığına diqqət yetirildiyini qeyd edən müəllif azad bir cəmiyyətin qurucusu olaraq bundan əvvəl bizdən alınmış azadlıqların da qeydçisi olmuşdur.

Siyasi ədalətin bərqərar olması ilə sosial ədalətin də təmin olunacağına inanan M.Ə.Rəsulzadə xalqın problemlərinin həllinin idarəçilikdən asılı olduğunu qeyd edərək Cümhuriyyət məfkurəsinin xalqımıza vermək istədiklərini qeyd edirdi. Hər şeyin ifratının zərərli olduğunu qeyd edən müəllif mülkiyyətin də ifratının zərərli olacağından nigarançılıq keçirir və bütün azadlıqlara baxmayaraq, sosial məsələlərdə dövlətin nəzarətinin zəruri olduğunu vurğulayırdı.

"Əsrimizin Səyavuşu" əsərində M.Ə.Rəsulzadə AXC-nin ordu quruculuğundan iftixarla söhbət açmışdır. Sanki Cümhuriyyət dövründə yaşanan hər bir tədbiri sətir-sətir qələmə alan müəllif "Əsrimizin Səyavuşu" qarşısında öz hesabatını verirdi. Hərbi sahədə əldə etdikləri uğurların bariz nümunəsi isə Bakının azad olunması və azad olunmuş Bakı şəhərində hərbi paradın keçirilməsi idi. Eyni zamanda, nəhayət ki, Xəzər dənizinə sahib olan Azərbaycanın hərbi donanması yaradıldı. Görülən əhəmiyyətli tədbirlərdən olan Bakı-Culfa yolunun inşası və Kür çayı üzərində böyük körpünün qurulması Cümhuriyyət tarixinin ən yadda qalan hadisələrindən sadəcə bir neçəsi idi. Maarif sahəsinə də diqqət yetirən Cümhuriyyət rəhbərləri bununla da cəmiyyətimizin gələcəyini qurmağa çalışmışdır. Gənclərimiz, qızlarımız məktəbə cəlb edilmiş hətta, məktəb yaşı keçənlər üçün axşam kursları belə açılmışdır. "Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün Bakı Universiteti açılmışdı" [13, 43], - ifadəsini böyük fəxarətlə vurğulayan müəllif bununla bütün görülən tədbirlərin məntiqi nəticəsi olaraq bu günə qədər öz fəaliyyətini böyük uğurlarla davam etdirən Bakı Dövlət Universitetinin fəaliyyətə başlamasını Azərbaycan elmi üçün ən əhəmiyyətli tarixi hadisə kimi vurğulamışdır.

Ən nəhayət "Cümhuriyyətin bəxtsizliyi" başlığı altında gec qovuşduğumuz istiqlalımızı niyə belə tez itirməyimizin səbəblərini axtarmağa, tapmağa çalışmışdır. Müəllifin qələmindəki mürəkkəbin belə kədərlə yazdığı bu tarixi mənzərə xalqımızın qarşılaşdığı çətinlik və dövrün siyasi məcrasını bütün təfsilatı ilə əks etdirir. Bir çox tarixçiləri illərdir düşündürən suala cavabı da elə bu əsərdə tapmaq olar. Belə ki, illərdir bir çox tarixçilər hər addımında Azərbaycan Cumhuriyyətini dəstəkləyən Türkiyənin niyə bolşevik istilası zamanı buna göz yumduğu sualına cavab tapmağa çalışmışdır. Oxucularını bu sualın da cavabı ilə tanış edən M.Ə.Rəsulzadə hər iki dövlətin arasına düşünülmüş şəkildə nifaq toxumları səpildiyini və Türkiyə tərəfinə yalan-yanlış məlumatlar verildiyini qeyd edərək, bundan çox təəssüfləndyini vurğulayır [13, 46].

Elə Azərbaycanın taleyini eyniləşdirdiyi Firdovsi qəhrəmanları necə ki öz talelərini ya yuxularında görürdülər, ya da ilahidən eşidirdilər, ancaq heç bir şəkildə labüd sondan qaça bilmirdilər elə, Azərbaycan Xalq Cümhuriyyətinin də aqibəti bax belə oldu.

"Qatil kimdir" adlı son başlıqda isə müəllif müqəssirin axtarışına çıxır. "Əsrimizin Səyavuşu ölmüşsə də onun doğurduğu istiqlal fikri ölməmişdir. Bu fikrin tərəfdarları indiki halda dağlarda, vətənlərindən uzaq məmləkətlərdə, həbsxanaların qaranlıq və rütubətli guşələrində qaçaq, qaçqın, köməksiz bir halda yaşayırlar. İstiqlal və hürriyyətimizin kövrək əlaməti o üç rəngli istiqlal bayrağı zahirən yoxsa da, qorxudan bolşeviklik ifadə edən gözlərin önündə olub, ürəklər onun eşqi ilə çırpınmaqdadır" [13, 54], - sətirlərindən də aydın olduğu kimi müəllifin gələcəklə bağlı sonsuz ümidləri var.

M.Ə.Rəsulzadənin milli dövlətçilik ənənələrindən bəhs edən əsərlərindən biri də hələ 1923-cü ildə Türkiyənin İzmir şəhərində keçirilən "Kitab bayramında" Atatürk mükafatına layiq görülən "Azərbaycan Cumhuriyyəti" əsəridir. "Azərbaycan xəlqi" başlığı ilə verilmiş birinci hissədə Azərbaycan dedikdə hansı coğrafi arealdan söhbət getdiyini aydınlaşdırır, ən maraqlısı isə budur ki elə ilk cümlədən Azərbaycanın qədim mərkəzi olan Təbriz şəhərinin adını çəkir. Beləliklə müəllif əsirlərdir paytaxt şəhərimiz olan Təbrizin tarixi əhəmiyyətini oxucuların diqqətinə çatdırır. Əsərdə Azərbaycanın bu günkü etnik xəritəsi təsvir edilmişdir. "Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər" [14, 11], - deyən müəllif bu coğrafiyada mövcud olan Gəncə, Bakı, Təbriz, Marağa, Ərdəbil, İrəvan, Qarabağ kimi şəhərlərdən; Xəzər, Səlcuq, Monqol, Teymuri, Rus hücumlarından; Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular kimi dövlətlərdən; Quba, Şəki, Şamaxı, Bakı, Qarabağ, İrəvan, Naxçıvan, Lənkəran, Gəncə kimi xanlıqlardan söhbət açır. Müəllif Xəzər dənizinin adının qədim mənbələrdə "Quzğun" dənizi kimi çəkildiyini qeyd edir. Müəllifi qürurlandıran məsələlərdən biri başına gələn bütün nüsibətlərə baxmayaraq öz dilini, ənənələrini, dinini, ədəbi istiqamətlərini unutmayan bu xalqın öz türklüyünü mühafizə edə bilməsidir.

Tariximizin digər bir mərhələsi olan Rus istilası zamanı xalqımızın mədəniyyətinə, dininə, dilinə, maarifinə edilən bütün müstəmləkəçi münasibətə baxmayaraq tarixin və xalqın yaddaşı öz kimliyini unutmadı. Çar rusiyasının Birinci dünya müharibəsində üzləşdiyi silsilə məğlubiyyətlərin Romanovlara qarşı misli görülməz bir üsyana səbəb olmasının tarixi əhəmiyyəti bütün region xalqlarına təsirsiz qalmadı. Bütün bu hadisələrin cərəyyan etdiyi zamanlarda "Müsəvat" partiyası "Açıq söz" qəzetinin əməkdaşlığı ilə müstəqillik yolunda mübarizəyə başlamışdır.

Qeydlərində M.Ə.Rəsulzadə Rusiyada baş verən fevral inqilabından sonra Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistanın iştirakı ilə Cənubi Qafqaz Seyminin işə başladığını qeyd edir. Müəllif tərəfindən Cənubi Qafqaz Seyminin fəaliyyətindən kənarda qalan Bakı şəhərinin "sovetləşməsinin" addım-addım təsviri verilmişdir. Lelinin Şaumyanın timsalında ermənilərə göstərdiyi yardımları xatırladan müəllif silahlanmaqda olan erməni tərəfinin gözlənildiyi kimi 1918-ci ilin martında müəllifin dili ilə desək "mart qırğını" törətdiyini oxucuların diqqətinə çatdırır [14, 26]. Mart soyqırımında yaşanılan dəhşətləri xatırlayan müəllif bu qətliamların səbəbini aydınlaşdırmağa çalışmışdır. Müəllifin qeydlərindən belə aydın olur ki Cənubi Qafqazın ən dəhşətli qətliamlarından olan Mart soyqırımını törətməkdə əsas məqsəd "Müsəvatçı" bəhanəsi ilə müsəlman əhaliyə təziqlər etmək, Cənibi Qafqazda etnik və dini münaqişələr yaratmaqdır.

M.Ə.Rəsulzadənin fərqli dövrdə qələmə alınan məqalələrində də erməni-azərbaycanlı münasibətlərindən bəhs edən zaman eyni bənzər məqamları qeyd edirdi. "Azərbaycan Cumhuriyyəti" əsərində müəllif erməni vandallığına məruz qalmış "Təzə Pir məscidi", "İsmailiyyə" binasını, "Kaspi" və "Açıq söz" kimi mətbəə orqanlarının binalarının da dağıdıldığını nisgillə vurğulayır. Bu ermənilərin törətdikləri qətliamların təkcə Bakı ilə məhdutlaşmadığını Qars və İrəvan kimi ərazilərdə də bənzəri hadisələrin təkrar edildiyini elə həmin illərdə mətbəə orqanlarında dərc edilən məqalələrdən misallar gətirərək isbat etməyə çalışmışdır.

Müəllif bu cinayətlərin məkirli bir siyasətin parçası olduğuna diqqət yetirməyə çalışmış, bu gün belə tarixşünaslıqda geniş tədqiqat obyektinə çevrilən ermənilərin Şamaxı qətliamlarının dəhşətini təsvir etmişdir [14, 31]. Eyni zamanda müəllif bir tarixçi kimi məsləyə yanaşıb bunun təkcə millətimizə yox tariximizə də bir qəsd olduğunu deyərək qədim dövlətçilik ənənəmizin sinvolu olan Şirvanşahlar dövlətinin qədim paytaxtının bu cür vandallığa məruz qalmasının tariximizə edilən cinayət olduğunu qeyd etməyə çalışmışdır.

Əsərdə əhalinin belə tək ümidimizin türk qardaşlarımız olduğunun fərqində olduğunu deyən M.Ə.Rəsulzadə bunun heç də sadə bir prases olmadığını izah etməyə çalışır.

Əsərin XI hissəsi "İstiqlal məfkurəsi" adlanır. Sözlərinə "Bir kərə yüksələn bayraq bir daha enməz! [14, 77], - sözləri ilə başlayan M.Ə.Rəsulzadə istiqlaliyyətimiz elan edilən zaman dediyi bu fikrin əsil fəlsəfəsinin izahatını verməyə çalışır və elə XI hissəni yenə eyni ifadə ilə bitiri. Əgər bayrağı sadəcə üç rəngi özündə ehtiva edən parça hesab etsək bəli o parça artıq dalğalanmır. Ancaq bizim nəzərdə tutduğumuz bayraq istiqlaliyyətin, müstəqilliyin və azərbaycançılıq məfkurəsinin rəmzidir və bu rəmz bu gün belə dalğalanmaqdadır deyən müəllif gec və ya tez üç rəngli bayrağımızın yenidən dalğalanacağına olan inamını oxucularına çatdırır. "Mehdinin" təkrar gələcəyinə inanan müəllif üç rəngli bayrağımızın yenidən qürurla dalğalanacağı günün xəbərçisi olan arzuları və ümidlərinin onu yanıltmayacağını bilirdi, sanki gələcəkdə qazanacağımız bu istiqlalı illər öncədən görürdü.

***Nəticə.*** M.Ə.Rəsulzadə 1952-ci ilin oktyabrında Ankarada yayımladığı "Azərbaycan" dərgisindəki "Milli birlik" məqaləsində müəllif Azərbaycanın ictimai-siyasi fikrində millətçilik və milliyyətçilik anlamlarının fərqinin analşılmadığını deyirdir. M.Ə.Rəsulzadə bolşeviklərin yurdumuzun ən dəyərli insanlarını "millətçi" damğası ilə öldürdüyü illərdə türk dilindəki millətçi anlamının Avropadakı patriotizm termininin qarşılığı olub, patriotizmin tarix boyu, eləcə də XX yüzillikdə də bütün dünyada ən şərəfli bir ictimai-siyasi proses olduğunu deyərək, dünya ictimai fikrini bu məsələyə yönəltməyə çalışırdı.

## ƏDƏBİYYAT

1. Azərbaycan. Bakı: Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 883 s.
2. "Azərbaycan Xalq Cumhuriyyəti və Qafqaz İslam Ordusu". Bakı, Qafqaz universiteti Qafqaz araşdırmaları institutu nəşriyyatı, 2008, 695 s.
3. Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası. 2 cilddə, I cild. Bakı: Lider nəşriyyatı, 2004, 440 s.
4. Азербайджанская Демократическая Республика (1918-1920). Баку: Элм, 1998, 306 с.
5. Азербайджанская Республика. Документы и материалы 1918-1920 гг. Баку, Элм, 1998, 616с.
6. Cabbarov F. "Mühacirət irsimizdən: Məhəmməd Əmin Rəsulzadənin otuz məktubu". Bakı, 2018, 135 s.

7. İsgəndərov A. Şamaxı soyqırımı. Şamaxı Ensiklopediyası, Şərq-Qərb, 2015, 430 s.
8. Əfəndiyev S.M. Azərbaycan proletariatının inqilabi hərəkatı tarixindən. Bakı, Azərnəşr, 1957, s.48.
9. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı, 2004, 526 s.
10. "Məhəmməd Əmin Rəsulzadə" Bakı, "Mütərcim" nəşriyyat-poliqrafiya mərkəzi, 2014, 104 s.
11. Məmmədzadə M. Azərbaycan diplomatik mübarizəsi, Milli hərəkatı, 27 aprel işğalı və Müsavat. Bakı, 1994, 19 s.
12. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, 111 s
13. Rəsulzadə M.Ə. "Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi" (Mövsüm Əliyevin giriş sözü ilə). Bakı, 1991, 110.s
14. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 112 s.
15. Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, 2001, 153 s.
16. William Langer. The diplomacy of imperialism. New-York, 1956, 157 p.

**СУРАЙЯ АЛЛАХВЕРДИЕВА**
*Докторант Бакинского Государственного Университета*

## КОНЦЕПЦИЯ НАЦИОНАЛЬНОЙ ГОСУДАРСТВЕННОСТИ В ТВОРЧЕСТВЕ МАМЕДА ЭМИНА РАСУЛЗАДЕ

М.А.Расулзаде, один из политических деятелей Азербайджана начала XX века, отличавшийся своими национально-демократическими идеями, также является автором ряда работ о традициях национальной государственности. Невозможно было создать независимое государство без традиции государственности. Неслучайно в Азербайджане была создана первая демократическая республика Востока, относящаяся к древней истории. Историческое значение имеют работы М.А.Расулзаде, одного из авторов нашей концепции национальной государственности. Подход автора к этому вопросу развивался и совершенствовался на разных этапах его жизни.

*Ключевые слова*: историография, Азербайджан, национальное самосознание, образование, пресса, Османская, Русская, Армянская, Мусават, флаг.

**SURAYYA ALLAHVERDIYEVA**
*Doctoral student of Baku State University*

## CONCEPT OF NATIONAL STATEHOOD IN THE WORK OF MaHAMMAD AMIN RASULZADE

M.A.Rasulzade, one of the political figures of Azerbaijan in the early twentieth century, distinguished by his national-democratic ideas, was also the author of a series of works on the traditions of national statehood. It was impossible to establish an independent state without the tradition of statehood. It is no coincidence that the first democratic republic in the East was established in Azerbaijan, with its ancient history. The works of M.A. Rasulzade, one of the authors of the concept of national statehood, are of historical significance. The author's approach to this issue developed and improved at various stages of his life.

*Keywords*: historiography, Azerbaijan, national identity, education, press, Ottoman, Russian, Armenian, Musavat, flag.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 18 may 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 05 iyun 2022-ci il.*
*Rəyçilər: t.e.d.Anar İsgəndərov, t.e.d. Qabil Əliyev.*

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər**

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr  Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları"  barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"* adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
**TarixVeOnunProblemleri@gmail.com**

## Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

***Электронный адрес журнала “История и ее проблемы”:***
**TarixVeOnunProblemleri@gmail.com**

## Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the “Used literature” section 10.2-10.4.6 of the current instruction on the “Rules for writing dissertations” of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

**Email**: **TarixVeOnunProblemleri@gmail.com**

*Çapa hazırlayanlar:* *Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov*
*Tərcüməçi radaktorlar:* *Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova*
*Web-redaktor:* *Nigar Nurəddin qızı İsmayılova*

**Yığılmağa verilmişdir: 05.06.2022. Çapa imzalanmışdır: 08.06.2022.**
**Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23**
**Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56**
**E-mail: TarixVeOnunProblemleri@gmail.com**